ب

# MƏDƏNİYYƏTİMİZİN QƏNDİLLƏRİ

**Elmi Heyət:**

t.f.d. Abbas QURBANOV
Abdullah DAMAR
Cafer DURMUŞ
Sedat DEMİR
f.f.d. Siracəddin HACI
Ahmed BAKIRKAYA
Ali ÇINAR
Nurlan MƏMMƏDZADƏ
Necmeddin AKBULUT
İbrahim EROL
Altay RƏHİMOV
i.f.d. Rafiz MANAFOV

**Nəşrə hazırlayan:**

t.f.d. Abbas QURBANOV

**Elmi və bədii redaktorlar:**

i.f.d. Rafiz MANAFOV
İbrahim EROL

**Dizayn:**

Nicat QƏRİBOV

Bu kitab *Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin* **3 iyul 2013-cü il DK-285/R** nömrəli razılıq məktubu ilə nəşr olunmuşdur.

**İPƏKYOLU NƏŞRİYYATI**

**Bakı-2013; İpəkyolu Nəşriyyatı: 133; ISBN: 978-9952-8221-8-2**

Bakı Şəhəri Səbail Rayonu
Cəfərov Qardaşları, 16
Tel: (+994 12) 492 32 23
Faks: (+994 12) 492 21 67
Web sayt: www.ipekyolunesriyyati.az
Elektron poçt: ipekyoluneshriyyati@gmail.com

# Mədəniyyətimizin
# QƏNDİLLƏRİ

Bu kitab, UNESCO-nun 2013-cü ili Seyid Yəhya Bakuvinin 550 illik yubileyinin dünya səviyyəsində qeyd edilməsinə həsr edilmişdir

**BAKI - 2013**

## TƏQDİMAT

Bismillahir-rəhmanir-rəhim!

Azərbaycan xalqı öz keçmişinə sadiqdir. Azərbaycanda bütün dini abidələr bərpa edilir, təmir olunur. Sovet dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayı 2000-ə yaxındır. Bu, onu göstərir ki, hətta sovet dövründə insanların qəlbində olan imanı öldürə bilməmişlər. Azərbaycan xalqı öz müqəddəs dininə olan hörmətini, məhəbbətini ürəyində saxlamış və yaşatmışdır.



Cəmiyyətimizin çox sağlam dayaqları vardır. Bu dayaqlar tarix, dərin mənəviyyat, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək üzərində qurulmuşdur. Azərbaycanda vaxtaşırı keçirilən mötəbər beynəlxalq tədbirlər, xüsusilə dini və milli dözümlülüklə bağlı olan tədbirlər bir daha bunu göstərir. Buna misal olaraq Əjdərbəy məscidinin, İmamzadə kompleksinin bərbasını və Azərbaycanda ən qədim ibadətgah olan Şamaxı Cümə məscidinin tamamilə yenidən qurulmuş möhtəşəm binasının dindarların istifadəsinə verilməsini və digər məqamları sadalamaq olar.

UNESCO-nun 2013-cü ili Seyid Yəhya Bakuvinin 550 illik yubileyinin dünya səviyyəsində qeyd edilməsinə həsr edilməsi münasibətilə o böyük Haqq dostlarına qarşı müsbət mənada çox böyük rəğbətin artdığını göstərir. Türk-İslam dünyasının mənəvi qəndilləri hesab olunan yüzlərlə haqq dostları vardır. Haqq dostları imanı eşqlə yaşayan Peyğəmbər varisləridir. Onlar Quran və sünnədən feyz alaraq gözəl əxlaq və davranış mükəmməlliyinə çatan xoşbəxt insanlardır.

Həzrət Peyğəmbər və onun əshabının yolundan gedən örnək şəxsiyyətlərdir. Şəfqət və mərhəmət ümmanı olan bu insanların hər biri Allah dostudurlar. Onlar bütün məxluqata Xaliqin şəfqət və mərhəmət nəzəri ilə baxa bildikləri üçün, qəlbləri bütün bəşəriyyətə qarşı ruhani cazibə mərkəzi olmuşdur. Yer üzündəki cazibə qanununa uyğun olaraq insanlar qeyri-iradi onlara meyl etmişdir ki, hal-hazırda da bu meyl davam etməkdədir. Çünki Allah-Təala belə saleh bəndələrini sevdiyi qədər digər insanlara da sevdirir. Qurani-Kərimdə belə buyurulur:

**"Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman** (ürəklərdə) **sevgi yaradacaq"** (Məryəm, 96)

Əminəm ki, milli-mənəvi dəyərlər gələcək nəsillərə düzgün çatdırılacaqdır. Bu dəyərlər bizi əsrlər boyu xalq kimi qoruyub saxlaya bildi. Mən çox şadam ki, bizim gənclərimiz də milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alırlar. Çünki vətən sevgisi hər bir insan üçün, xüsusilə gənclər üçün əsas olmalıdır.



Hacı Salman MUSAYEV
Qafqaz Müsəlmanları İdarəsi
sədr müavini

## ÖN SÖZ

Millətlər öz tarixini bir zaman dilimində yaşayarkən əsil həyatlarını mənəvi kökləri üzərində davam etdirirlər. Bu tarixi köklər tarixən var olan maddi və mənəvi dəyərlər toplusu, zəfərlər silsiləsi və abidələşmiş şəxslər timsalında milləti öz çiyinlərində daşıyan təməl əsaslardır. Belə ki, bütün budaqlar sadəcə bu köklərdən qidalandıqca yaşayar, çiçək açar və meyvə verə bilər.

Tarix boyu Çin səddindən Adriatikə qədər bu böyük coğrafiyada Türk-İslam mədəniyyəti təyin edici və təsirli bir ünsür olmuşdur. Bu geniş torpaqlardakı Türk-İslam mədəniyyəti digər bölgə və qitələrdəki mədəniyyətlərdən hər zaman fərqlənmiş və lazım olduğunda döyüşlərə qatılmaqla birlikdə əsla ədalət və insaf prinsipindən kənara çıxmamış, fəth etdikləri yerlərə barış, hüzur və sükunət aparmışlar. Hər getdikləri yerdə qılıncın gücündən daha çox sevginin və ədalətin gücünü istifadə etmişlər. Bu böyük Avrasiya coğrafiyasında ortaya qoyduqları mədəniyyət bütün dünyanı özünə heyran etmişdir.

Yaxşı yetişmiş dövlət və siyasət adamları ilə birlikdə bu sivilizasiyanın yetişdirdiyi şairlər, elm mütəxəssisləri, incəsənət nümayəndələri və könül dünyamızın ulduzları bu sonsuz səmamızı işıqlandırmış və bütün cəmiyyəti ulu bir çinar kimi kölgəsində saxlamışdır. Bu dahilər insan ruhunun dərinliklərinə enmiş, insanın daxili dünyasını müşahidə etmiş və yaralı könüllərə məlhəm olmuşdur.

Bəzi əsrlərdə yaşanan siyasi, iqtisadi və mənəvi böhranlar və bəzən düşmən işğalları ilə cəmiyyət uçurumun kənarına gəldiyi zaman bu könül dünyamızın qəndillərindən çıxan işığ cəmiyyəti nizamlamışdır.

Bunlar tarix səmamızda hər biri bir ulduz kimi əsrlər boyu parlamışdırlar. Nizamı, Füzuli, Şəmsi Təbrizi, Yəhya Şirvani, Yunus Əmrə, Mövlana, Hacı Bektaşi Vəli, Tusi, Xacə Əhməd Yəsəvi, Kaşğarlı Mahmud ilk anda söyləyə bildiklərimizdir.

Bu sivilizasiya yolunun yolçuları hər çatdıqları şəhərlərin, ölkələrin və torpaqların hər birini bir mədəniyyət mərkəzi halına gətirmişlər. Bu qəndillərin bizim Türk-İslam mədəniyyətində nəhəg daşları olduqları kimi, dünya mədəniyyətində də böyük rolları olmuşdur. Dünyada tanınan bu sultanlara, şairlərə, ədiblərə, elm, düşüncə, incəsənət xadimləri və könül adamlarına sahib çıxmaq və onları gənc nəsillərlə görüşdürə bilmək hər birimizin ən əhəmiyyətli vəzifəsi olmalıdır.



*"Asiyanın Qəndilləri"* kitabının müəllifi Halime Toros bizə bu qapını açır: "Bizi keçmişə bağlayan bütün körpülər yıxılmış olsa da, bu körpüləri yenidən tikmək, ətrafa yeni gözlərlə baxmaq, yeni sözlər söyləmək, yeni yollar tapmaq, yer üzünün kəşfi qədər həyəcanlı bir səfəri içimizə və keçmişimizə etməklə mümkündür."

Türk dünyasının dahi liderlərindən, umummilli lider Heydər Əliyev cənablarının ***"Biz Azərbaycanda öz milli-mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda xalqımızın elminin, mədəniyyətinin inkişafına; milli-mənəvi, ümumi bəşəri dəyərlərin zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk"*** sözləri hamımız üçün üfüqümüzün və yolumuzun işığı olmalıdır.

Bu kitabda milli-mənəvi dəyərlərimizin, mədəniyyət və könül dünyamızın ulduzlarının böyük bir qisimini sevinclə yad etdik. Nizamidən Yunus Əmrəyə, Mövlanadan Füzuliyə, Əhməd Yəsəvidən Həmzə Nigariyə qədər könül dünyamızın

qəndillərini bu gözəl işimizə daxil etdik və çox gözəl duyğular yaşadıq. Heç şübhəsiz Türk-İslam mədəniyyət dünyasının mənəvi memarları yalnız bu əsərdə zikr edilənlərlə məhdud deyil. Bu iş bəlkə də əhəmiyyətli bir layihənin ilk addımı ola bilər. 2009-cu il Bakının İslam Mədəniyyəti Paytaxtı seçilməsi ilə əlaqədar bir çox əhəmiyyətli dövlət tədbirləri keçirilmişdir. Xacə Əhməd Yəsəvi və Yunus Əmrədən Füzuliyə İnsan Sevgisi Konfransları da bunlardan sadəcə ikisidir. Görülən bu gözəl işlərdən ilham alaraq 21-ci əsrdə könül dünyamızın 21 abidə şəxsiyyətini bu əsərdə bir araya gətirmək fikri ortaya çıxdı.

Bu gün qloballaşan dünyamızda belə nümunə şəxsiyyətləri yaxından tanımağa çox ehtiyacımız var. Bu əsərlər vasitəsilə tarix və mədəniyyət mirasımızın gənc nəsilə izah edilməsi labüddür. Eyni zamanda mədəniyyət dünyamızı əsrlərdir işıqlandıran, mədəniyyət məktəbinin görkəmli və abidə şəxsiyyətlərini bu günün insanlarıyla xüsusiylə də gənc nəsillərlə görüşməsinə çox böyük ehtiyac olduğu şübhəsizdir. İnşallah bu əsərin belə tarixi bir missiyanın reallaşmasında kiçik də olsa əhəmiyyətli bir payının olacağını ümid edirik.

Kitab hazırlanarkən diqqət edilən texniki qaydalara gəldikdə onu da qeyd edək ki, Türk-İslam dünyasında öz görüşləri və fikirləri ilə fərqlənən iyirmi bir insanı seçdik və onları doğum tarixlərinə görə sıraladıq. Sadəcə 2013-cü ilin UNESCO tərəfindən Seyid Yəhya Bakuvinin 550 illik yubileyinin dünya səviyyəsində qeyd edilməsinə həsr edildiyini nəzərə alaraq kitabımızı onunla başladıq.

Bu əsərin ərsəyə gəlməsində çox zəhmət çəkən elmi heyətə, nəşrə hazırlayan və nəşr edənlərə, maddi köməklərini əsirgəməyən qurum və təşkilatlara təşəkkür edirəm.

**Ahmet TECİM**
*Azərbaycan Respublikası*
*Gəncliyə Yardım Fondunun Prezidenti*

## SEYİD YƏHYA əş-ŞİRVANİ əl-BAKUVİ رحمه الله

(d. ? / v. 1465)

Türk-İslam təsəvvüf tarixinin görkəmli simalarından Seyid Yəhya Bakuvi XIV əsrin sonlarında Şamaxıda doğulmuşdur. Tam adı əs-Seyid Cəmaləddin Yəhya ibn əs-Seyid Bəhaəddin əş-Şirvani əş-Şamaxi əl-Bakuvidir. Daha çox "Şirvani" və "Bakuvi" nisbəsi ilə məşhur olmuşdur. Şirvani nisbəsi vətəninin Şirvan olması səbəbilədir. Bakuvi deyilməsinin səbəbi isə həyatının ən uzun və ən səmərəli dövrünü Bakıda yaşamış olmasındandır.

Seyid Yəhya elmi və təsəvvüfi tərbiyəsini Şamaxıda tamamlamış, ancaq bir şeyx olaraq irfani fəaliyyətini Bakıda davam etdirmişdir. Vəfatına qədər qırx ildən çox Bakıda göstərdiyi fəaliyyətləri və yetişdirdiyi müridləri sayəsində şöhrəti ətraf bölgələrə yayılmışdır.

Seyid Yəhya sağlam bir şəcərə ilə İmam Musa Kazımın soyundan gəlir. Atası Seyid Bəhaəddin, Şirvanşahlar dövlətində Naqibul-Əşraf vəzifəsində işləmişdir. Ata-babalarının hamısı da naqiblər nəslindən olmuşdur. Əhli-beytə mənsub olduğunu şeirlərində "Seyid" təxəllüsündən istifadə etməklə göstərmişdir.

Seyid Yəhya həyatının uşaqlıq və gənclik dövründə, həm fiziki, həm də əxlaqi xüsusiyyətləri baxımından, başqaları tərəfindən sevilən və təqdir edilən örnək bir insan olmuşdur. Belə ki, bütün qaynaqlar onun bu xüsusiyyətini: "Kamal və camal sahibi idi", "Fövqəladə zahiri gözəlliyi və qəribə kəmalatı olan, bir bənzəri tapılmaz yaradılışa sahib idi"; "Son dərəcə

gözəl və nüfuzedici bir çöhrəsi vardı"; "Qırx gün hücrəsində xəlvətdə qalıb, çölə çıxanda üzünə baxıla bilməyəcək dərəcədə nurani bir parlaqlıq onu görənlərin gözlərini qamaşdırardı", və s. kimi sözlərlə tərif edirlər. Ona "Cəmaləddin" ləqəbinin verilməsi də bu xüsusiyyəti ilə bağlıdır.

Seyid Yəhya təkyə təhsili ilə yanaşı mədrəsə təhsili də almışdır. Türk, fars və ərəb dilində əsərlər yazmış olması o dövrün ziyalıları üçün bilinməsi zəruri olan bu üç dilə hakim olduğunu göstərir. Bundan başqa, əsərlərindən təfsir, hədis, kəlam və fiqh elmlərini mükəmməl bildiyi məlumdur. Gənclik illərində Şamaxıdan ayrıldığına dair bir məlumat olmadığına görə təhsilini də burada tamamladığını güman etmək olar. O dövrdə Şirvanşahların paytaxtı Şamaxı, yaxşı təhsil verən mədrəsələrin olduğu əhəmiyyətli bir elm və mədəniyyət mərkəzi olmuşdur. Bakuvi "Şəfa əl-Əsrar" əsərində müəllimlərindən üçünün adlarını qeyd edir. Bunlar: Şəmsəddin Axsıkəti, Hafizuddin əl-Gərdəri, Mövlanə Tacüddin və Qütbəddin əs-Sərabidir. Bu alimlərin nisbəsindən aydın olur ki, başqa şəhərlərdən və uzaq diyarlardan Şamaxıya gələn alimlər burada dərs vermişdirlər.



**Təsəvvüfi Həyatı**

Seyid Yəhya təsəvvüf ilə hələ cavan yaşlarında ikən tanış olmuşdur. Onun uşaqlıq illəri olan XV əsrin əvvəllərində Şamaxı, Xəlvətiyyə təriqətinin mərkəzi hesab olunurdu. Dövrün məşhur Xəlvətiyyə mürşidi Şeyx Sədrəddinin təkyəsi burada idi və onun çoxlu müridi vardı. Seyid Yəhyanın Xəlvətiyyə təriqətinə girməsinə bir hadisə səbəb olmuşdur. Belə ki, onun başına gələn bu hədisə həyatında dönüm nöqtəsi oldu. Cəmaləddin əl-Hulvinin "Ləməzatı-Hulviyyə" adlı əsərində bu hadisə belə rəvayət edilir: Seyid Yəhya bir gün yoldaşları ilə birlikdə çövkən oynayarkən bu əsnada şeyx Sədrəddinin öndə gələn müridi Pirzadə Təqiyyüddin Şirvani sufilərlə birgə oradan keçməkdə idi. Oyun əsnasında Yəhya sufilərin önlərindən keçmək istərkən keçməyib ədəblə onları salamladı və

gözlədi. Onun bu hərəkəti pirzadənin xoşuna gəldi və sufilərə, "bu uşaq seyiddir, gəlin dua edək. Allah onu Aləmin seyidi Hz. Muhammədin (s.ə.s) və Hz. Əliyyül-Mürtəzanın (r.a) əsrarına layiq eləsin, pak əcdadı kimi vəlayət əhlindən olsun", dedi. Xudanın izni ilə dua qəbul olundu. Yəhya o gecə yuxusunda böyük cəddi Hz. Muhammədi (s.ə.s) gördü. Hz. Peyğəmbər ona nəsihətlər etdikdən sonra şeyx Sədrəddini göstərərək onu mənəvi ata olaraq təyin etdiyini, onun yolunun öz yolu olduğunu, yanına getməyini tövsiyə etdi. Yəhya oyananda dərhal Şeyx Sədrəddinin təkyəsinə getdi. Şeyx onu görəndə "bax gör atan dedikləri şəxsə bənzəyirəmmi?" deyə sual verdi. Bunun cavabında, Seyid Yəhya şeyxin əllərinə qapanıb müridliyə qəbul edilməsini istədi. Yəhyanın atası Seyid Bəhaəddin, bununla oğlunun dünya nemətlərindən və məqamlarından uzaqlaşacağı qorxusu ilə sufiliyə girməsinə əvvəllər şiddətlə qarşı çıxmışdır. Şeyx ilə mübahisə də etmiş, ancaq şeyx Sədrəddin ilə görüşüb söhbət edəndə, ondan təsirlənərək fikrindən yayınmış və o da, şeyxə mürid olmuşdur.



Seyid Yəhya uzun illər Şeyx Sədrəddinin dərgahına davam edərək seyri-sülukunu, yəni sufilik təlim və tərbiyəsini tamamladı. Şeyxinin vəfatının ardınca da Şamaxını tərk edib Bakıya hicrət etdi. Bakıya gəlməsinin səbəbi şeyxinin ölümündən sonra şeyxlik məsələsində Pirzadə ilə aralarında çıxan ixtilaf oldu. Belə ki, Şeyx Sədrəddin, ölməzdən əvvəl müridlərini yığıb Seyid Yəhyanı öz yerinə şeyx təyin etdiyini, ona bağlanmalarını tövsiyə etmişsə də, vəfatından sonra şeyxin kürəkəni və baş müridi Pirzadə şeyxliyin öz haqqı olduğunu iddia etdi və yaşlı müridlərin də dəstəyi ilə şeyxlik məqamına keçdi. Bunun ardınca da Seyid Yəhya "təqdiri-ilahi belə imiş" deyərək Şamaxıdan ayrılıb Bakıya gəldi.

Seyid Yəhya Bakıya gələndə (təxminən 1420-ci illər) Şirvanşahlar dövlətində Xəlilullah xan hakimiyyətdə idi. Bu zaman ölkə paytaxtı da müvəqqəti olaraq Bakı olmuşdu. Xəlilullah xanın göstərişi ilə Seyid Yəhya Xəlvətiliyin Bakıdakı ilk xanəgahını öz sarayının yaxınlığında təsis etdi. Qaynaqlar Xəlilullah xanın həmişə ona böyük hörmət və yardım göstərdiyini

bildirir. Aralarındakı səmimi münasibətin dərəcəsini göstərənlərdən biri "Kəşfül-Qülub" adlı əsərini Xəlilullah xana ithaf etməsidir. Xanəgahın təsisində xanın köməyi, Seyidin qəbri ətrafında onun tərəfindən tikilən məscid, türbə və digər abidələrdən aydın olur. Xəlilullah xan bu yaxınlıq ilə bir tərəfdən Seyid Yəhyanın mənəvi nüfuzundan bəhrələnməklə, digər yandan onun əxlaq və mənəviyyat dərslərində iştirak edərək haqqı və ədaləti tövsiyə edən nəsihətlərindən özü də istifadə etmişdir.

Seyid Yəhya həyatı boyunca təkyəsində müridlərini yetişdirməklə məşğul olmuş, əxlaqi-fəlsəfi dərslər vermiş və əsərlər qələmə almışdır. Onun həyatı zöhd və mücahidə ilə keçmişdir. O, isti aylarda, azuqəsiz və susuz olaraq səhralara çıxaraq günlərcə qalar, ibadətlə məşğul olardı. Xəlvətə girmək, tənha yerlərdə ibadət və təfəkkür etmək onun dəyişməz adətlərindən idi. Belə ki, o qidalanmasını on beş gündə bir iftar edəcək səviyyəyə endirmişdir. Ömrünün sonlarında dünya işlərindən tamamilə uzaqlaşmış, hətta vəfatından əvvəlki son altı ayda heç qida qəbul etmədiyi rəvayət edilmişdir.

Seyid Yəhya 869/1466-cı ildə Bakıda vəfat etmişdir. Vəfatı Xəlilullah xanın ölümündən doqquz ay sonradır. Özünə uzun ömür üçün dua edənlərə "Siz Xəlilullah xana dua edin. Çünki, mənim ömrüm onunkinə bağlıdır" deyərək vəfatını xəbər vermişdir. Qəbri Bakıda hal-hazırda Şirvanşahlar sarayı muzeyi kompleksi içində olub, günümüzə qədər sağlam gəlib çıxmışdır.

Seyid Yəhyanın qaynaqlarda iyirmi minə yaxın müridi olduğu, bunlardan 360-nın xilafət aldığı bildirilməkdədir. Bunlardan ən öndə gələnləri; Pir Bəhaəddin Ərzincani, Dədə Ömər Rövşəni, Həbib Qaramani, Pir Şükrullah, Əlaəddin Rumi, Ziyaəddin Yusif Müsküridir.

Xəlvətiyyə təriqəti özündən sonra xəlifələri vasitəsilə Anadolu, İran, Azərbaycan, Afrika və Balkanlarda geniş şəkildə yayılmışdır.

**Əsərləri və Təsəvvüfi Şəxsiyyəti**

Seyid Yəhya xəlvətilik təriqətində ilk dəfə bu qədər çox əsər qələmə alan bir şəxsiyyətdir. O, təriqətini sadəcə xəlifələri vasitəsi ilə yaymamış, eyni zamanda yazdığı əsərlərlə xəlvətilik prinsiplərini təqdim etmiş, daha sonra gələnlərin izləmələrinə və günümüzə qədər gəlib çıxmasına şərait yaratmışdır. Onun elmi səviyyəsinin yüksəkliyinə yazdığı əsərləri şahitdir. O, «Bu fəqir, bir çox kimsədən soruşub, bir çox təfsirlər də oxudum»,- deyə ifadə etdiyi kimi təfsir, hədis, kəlam, fiqh və təsəvvüf elmlərində dövrünün böyük bir alimi idi. Onun müridlərin gündəlik oxumaları üçün ərəb dilində tərtib etdiyi "Virdü Səttar" adlı əsəri, ərəb dili sahəsində dövründə yazılmış ən gözəl əsərlərin başında gəlir. Əsər nəsr olduğu halda bir şeir kimi axıcı və qafiyəlidir. Bu səbəbdən müsəlmanlar tərəfindən ən çox oxunan və üzərinə ən çox şərh yazılan vird ünvanını almışdır.

Farsca əsərlərinin böyük bir hissəsi nəzm şəklindədir. Məsnəvi qəsidə və qəzəl tərzində ədəbi əsərlər vermişdir. Şeirlərində Həllacın və Nəsiminin coşğusunu, Mövlananın və Əttarın hikmətini və təfəkkürünü hiss etmək mümkündür. Nəsr əsərlərində son dərəcə ölçülü bir dil istifadə edən Seyid şeirlərində ise çox fərqlidir; bəzən coşğun bəzən hüzünlü bəzən də durğundur. Təsəvvüfi izahlarında isə qısa və mürəkkəb bir üsul izləmişdir. Bunların asanlıqla anlaşılması mümkün deyildir. O şeirlərində bəşəri eşqə yer verməmiş, ilahi eşqi işləmişdir.

Seyid Yəhyanın şeirlərində təsəvvüfi mövzular işlənmişdir. Yunus Əmrə, Seyid Nəsimi və Əhməd Yəsəvidə olduğu kimi sufilik və mürşidlik onun üçün əsasdır. Şairlik isə daha sonra gəlir. Başqa bir ifadə ilə o sadəcə təsəvvüfü anlatmaq üçün şeir yazmışdır. Bunu əsərlərinin adlarından da görmək olar. Şeirlərində təsəvvüf yolunun mənzilləri və sirlərilə yanaşı, Allah, Həzrəti Muhammməd və Həzrəti Əli sevgisini səmimi və coşğun bir tərzdə işləmişdir.

Onun türk dilində yazılmış əsəri “Şəfa əl-Əsrar”dır. Bu əsər onun ən geniş həcmli əsəridir. Tək əlyazma nüsxəsi İstanbuldadır və müstənsixin ifadəsindən XVI əsrdə ilk nüsxəsindən köçürüldüyü anlaşılmaqdadır. Ərəbcə qisimlərin də yer aldığı bu əsərin türkcəsi sadə olub, həm Anadolu, həm də Azərbaycan türkcəsinin xüsusiyyətlərini daşıyır. Daha çox danışıq dilində yazılmışdır. Əsərdə bir müridin mürşidliyə gedən yolda aşması gərəkən yetmiş məqamdan söz edilərək, bu məqamların nələr olduğu açıqlanır. Eyni zamanda bu məqamlara yetişmək üçün həyata keçirilməsi zəruri olan vəzifələr göstərilir. Təsəvvüf yolunu izləyənlər üçün elmin vacib olduğu tez-tez vurğulanır. Həqiqi şeyx ilə saxta şeyxlərin əlamətləri təsvir olunaraq, həqiqi bir şeyxə tabe olmadan bu yolda getməyin mümkün olmadığı söylənilir. İbadətlərin batini mənaları, zikrin növləri və hikmətləri izah edilir. Əsərdə Quran ayələri, hədislər və bir çox sufinin sözləri tez-tez istifadə olunmuşdur. Əsərin diqqət çəkən xüsusiyyətlərindən biri də kitabda yer alan miniatürlərdir. Zikr mövzusundan bəhs olunarkən qəlbin şəkli çəkilmiş ayrıca, beş ədəd ağac üzərində tuti şəkilli təsvirlərə yer verilmişdir.



**Şəfa əl-Əsrardaki Kəlamlarından**

Səyid Yəhya Bakuvi, Şəfa əl Əsrarda təmizlik, elm, ibadət, nəfs və ruh haqqında bunları demişdir.

Hz. Əli (r.a) belə dedi: “Qulun dəstəmaz almadan öncə beş şeydən təmizlənməsi lazımdır.

Birincisi: Qəlbi hiylə, aldatma, təkəbbür, həsəd, kin və ədavətdən təmizləmək lazımdır. Allah (c.c) belə buyurur: **“Libasını təmizlə!”** (əl-Muddəssir, 4) yəni, **“qəlbini təmizlə”**. [45b]

İkincisi: Dili malayanidən, qeybət, yalan, faydasız, mənasız, kobud söz və böhtandan təmizləməkdir. Allah (c.c) belə buyurur: **“Bir-birinizin eybini, sirrini arayıb axtarmayın, bir-birinizin qeybətini etməyin!”**(əl-Hucurat, 12).

Üçüncüsü: Bətnini haram və şübhəli şeylərdən təmizləməkdir. Allah (c.c) belə buyurur: **"Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin təmiz və halalından yeyin!"** (əl-Bəqərə,172).

Dördüncüsü: Bədəni haram libasdan təmizləməkdir. Allah (c.c) belə buyurur: **"Lakin təqva libası daha yaxşıdır** (xeyirlidir)". (əl-Əraf, 26).

Beşincisi: Zahiri təharətdir. Allah (c.c) belə buyurur: **"Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü .... yuyun"**. (əl-Maidə, 6).

Şeyx (q.s) belə dedi: Təmizliyi Əli (r.a) kimi etsən, yəni könlünü təkəbbür, həsəd və hiylədən təmizləsən, dilini dedi-qodu və böhtandan, bədənini haram loğmadan, libasını haramdan pak etsən, bundan sonra zahiri təmizliyə layiq olarsan.

Nə zaman təharətlə məşğul olsan; **"Gün gələcək, bəzi üzlər ağ olacaq, bəzi üzlər isə qara olacaq.."** (Ali- İmran, 106) ayəsinin təhdidindən qorx. [46a]

**"Üzünüzü yuyun"** (əl-Maidə, 6) ayəsinin əmrinə tabe olub, üzünü yu.

**"Əməl dəftəri sağından verilən"** (İnşiqaq, 7) ayəsini düşünüb, əllərini yu.

**"Kəkillərindən və ayaqlarından tutulub cəhənnəmə atılırlar"** (ər-Rəhman, 41) ayəsindən qayğılanıb, başını məsh eylə, ayaqlarını yu.

Əgər təmizliyi bu şəkildə etsən, əzablardan xilas olarsan.

Təmizliyi tam etdinsə ciddi-cəhd edib, könlünü hazırla.

Necə ki, Həzrəti Rəsul (s.ə.s) buyurdu ki: "Ehsan, Allahı görürmüş kimi ibadət etməyindir. Sən onu görməsən də, o səni görür". (Buxari, *İman*-37; Müslim, *İman*-1; Əbu Davud, *Sünnət*-16; Tirmizi, İman-5; İbni Macə, *Müqəddimə*-9)

Bütün ibadətlərin, şəriətin, təriqətin və həqiqətin başlanğıcı, mənşəyi, mədəni, dəryası və xəzinəsi din elmidir. Necə ki, Hz. Rəsul (s.ə.s) elmin fəziləti barəsində belə buyurdu:

“Elm öyrənmək hər Müsəlman kişi və qadına fərzdir”. (Səraxsi, *əl-Məbsut,* I, 2)

“Elm öyrənənin əməlindən məmnun olduqları üçün, mələklər qanadlarını onların ayaqları altına sərərlər”, (İbni Macə, *Müqəddimə*-17)

“Mənim ümmətimdən kim qırx hədisimi əzbərlər və onunla əməl edərsə, qiyamət günündə Allah onları fəqih-alim olaraq dirildər”. (Beyhaqi, *Şuabül-iman*, II, 270)

“Allah-Təala bir adam üçün xeyir arzu edərsə, onu dində alim-fəqih edər”. (Buxari, *Elm*-13; Müslim, *İmarət*- 98)

“Bildiyini danışan alim və eşidib öyrənən istisna olmaqla, həyatda xeyir yoxdur”.[1]

“Ümmətimin ən xeyirliləri alimlər və ya elm öyrənənlərdir”. (Qəzali, Əhya, I, 34; Tirmizi və İbni Macə Əbu Hüreyrədən nəql etdi)



“Elm öyrənən üçün dənizdəki balıqlar və havadakı quşlar Allahdan onun üçün bağışlanma diləyərlər.” (Təbərani, əl-Mucəmül-əvsat, VII/171)

“Ya alim, ya tələbə, ya dinləyən, ya da onları sevənlərdən olun. Beşincisi olmayın, yoxsa həlak olarsız”. (Təbərani, *əl-Mucəmül-əvsat*, V/231)

“İslamı və sünnəni ehya etmək üçün elmlə məşğul ikən, ruhunu almağa ölüm mələyi gələn bir insanın cənnətdə peyğəmbərlərdən fərqi, ancaq bir dərəcə qədərdir”. (Kəşfül-xəfa, 2450. Darimi Həsən əl-Bəsridən, Təbərani isə İbn-Abbasdan rəvayət etmişdir)

“Kim bir elm qapısından yapışaraq, elmdən istifadə etmək və başqalarına öyrətmək üçün evindən çıxarsa, atdığı hər addım üçün Allah-Təala ona orucu və namazı ilə birlikdə min ilin savabını verər. Mələklər qanadları ilə onu əhatə edər.

---

1. Bu rəvayət Beyhaqinin, “Şuabül-iman”ında bu şəkildədir: “Bildiyini anladan alimə və eşidib qulaq asana müjdələr olsun”.(Beyhaqi, Şuabül-iman, II/278).

Havadakı quşlar, dənizdəki balıqlar və qurudakı bütün canlılar ona salam verərlər". (Əbu Davud, *Elm*-1; Tirmizi, *Elm*-19)

Elm iki növdür: zahir elmi, batin elmi

Zahir elmi elmi-dirasətdir, təlim ilə əldə edilir.

Batin elmi isə elmi-vərasətdir, Allah ilham edər.

Hər kim elmi-zahiri öyrənib, haqq rizası üçün ixlas ilə əməl etməklə məşğul oldusa, elmi-batini Allah (c.c) ona asan edər.

Hər kim elmi-zahiri öyrənib onun elmi ilə əməl etməzsə, bu elm ona vəbal və küfran olar. Zəvali-nemət olaraq əzabı haqq edər. Allah-Təala: **"Yox, əgər nankorluq etsəniz, unutmayın ki, Mənim əzabım, həqiqətən şiddətlidir!"** (İbrahim, 7) buyurdu. [18a]

Hər kim elmi ilə əməl etsə, şükrünü yerinə yetirmiş olar, bərəkəti artar. **"Əgər mənə şükür etsəniz, sizə olan nemətimi artıracağam"**. (İbrahim, 7).

Bu ayə həm də işarət edir ki: **"Bizim uğrumuzda çalışıb cihad edənləri əlbəttə müvəffəqiyyət yollarımıza qovuşduracağıq"**. (əl-Ənkəbut, 69)

Mücahidə zahir əməl üçün, hidayət isə batin üçün lazımdır. Yəni "sən zahirin ilə əməl etməyə cəhd et, batininə mən yol göstərərəm", − deməkdir.

Xəbərdə: "Alim zəlil olarsa, aləm də zəlil olar",− deyilmişdir. (İbnül-Mübarək, *əz-Zühd*, s. 520)

Başqa bir rəvayətdə: "Alimin zilləti aləmi həlak edər", deyilmişdir.

Cahilin fəsadı isə başqasına deyil, ancaq özünə zərər verər.

Alim elmi ilə əməl etsə, aləmə bərəkəti çatar.

Əgər riyakarlıqdan xilas olmaq istəsən, Hz. Rəsulun (s.ə.s) sevdiyi adamları sev, sevmədiyini sevmə. Riyakarlıq əsər-

əlamətini könlündən çıxar. İmanın, möminlərin imanı kimi *Məsum* olsun. [43b]

Və dəxi bil ki:

"Lə iləhə illəllah" (لا اله الا الله) on iki hərfdir.

"Muhamməd Rəsulullah" (محمد رسول الله ) on iki hərfdir,

"Əbu Bəkir əs-Sıddıq" (أبو بكر الصديق ) on iki hərfdir,

"Ömər ibn Xəttab" (عمر بن الخطاب ) on iki hərfdir,

"Osman ibn Əfvan" (عثمان بن عفان ) on iki hərfdir,

"Əli ibn Əbi Talib" (علي بن ابي طالب) on iki hərfdir.

Bu hərflərin hamısını toplasan, yetmiş iki olar.

Əgər bu zikr olunan şəxsləri sevsən, yetmiş iki məqama çatanlardan olub, savabını taparsan.



Əhli-işarət dedi ki, fövzi istəyən ruhdur, ülvidir. Qəhri istəyən nəfsdir, süflidir. Əgər nəfs ruha tabe olsa, xilas olar. Əgər ruh nəfsə tabe olsa, fövzin ف "fə"sini, firaq ف "fə"sinə təbdil edər (dəyişdirər).

Deyildi ki, ruh, fərəh verən şəfalı bir nəsimdir. Həyat onunla meydana gələr. Nəfs isə yandıran bir ruzigardır. Hərəkətlər və şəhvətlər ondan hasil olar.

Deyildi ki, ruh elə bir şeydir ki, həyat ancaq onun varlığı ilə meydana gələr. Nəfs də elə bir şeydir ki, həva ancaq ondan qaynaqlanar.

Həkim dedi ki, ruh, sərin və rövşən bir rüzgardır. Nəfs isə isti və qaranlıq bir ruzigardır. Cəsəd isə tərtibli və tərkibli bir qəlibdir. [56a]

Kəlamçılar belə dedilər: "Nəfs vücudda bir duyğudur. Qəzəb, kin, həsəd, sui-zənn, təhəmmülsüzlük kimi xəstə, pis əxlaqın məkanıdır. Şəri əmr edər".

Necə ki, Həzrəti Rəsul (s.ə.s): "Sənin ən böyük düşmənin, iki qaşın arasındakı nəfsindir", – buyurdu. (Təbəri, *Təhzibül-asar*, II, 813)

Vasıti dedi ki, sənin ən zərərli düşmənin bu üç şeydir: Nəfs, şeytan və dünya.

Nəfs ilə ona müxalifət edərək savaşmalısan. Şeytanla, Allahı zikr edərək savaşmalısan. Dünya ilə qənaət vasitəsi ilə savaşmalısan.

Vasıti demişdir ki: Adəm övladının tərkibi iki şeydən ibarətdir: Torpaq və sudan.

Cəfa, inad, kin, və həsəd torpaqdandır.

Mərhəmət, rəhmət, helm, vüqar və ülfət suyun təbiətindəndir.

Su səmadan, torpaq yerdəndir.

Torpaq təbiəti üzrə olan, yerə mənsubdur. Atəş də yerin altındadır.

Əgər su təbiəti üzrə isə o səmavidir. Cənnət isə səmanın üstündədir.

Həva-vü-həvəs yeri arzulayar. Ağıl səmaya yüksələr. [56b]

Deyildi ki, Haqq-Təala Adəmi yaratdı. Heç bir hərəkət yox idi. Nə zaman ki, həva və həvəsi daxil etdi, tərpənməyə başladı.

İnsanlarda şəhvət hissi onların mahiyyətinə qoyulmayıncaya qədər həva və həvəsləri tamamlanmaz. Şəhvət həvanın tamamlanmasıdır. Həva, nəfsi-əmmarədən daha çox azdırıcıdır.

Həva üçün deyilir ki, şəhvət və həva, elm və əqli məğlub edərlər.

Əbülqasım Həkim demişdir ki: Nəfsini bilən, insanlar yanında zəlil olar. Nəfsini bilən insanlar yanında dəli olar.

Şeyx (q.s) demişdir: Əgər kim nəfsə qəhr edib, pis əxlaqı tərk edib, gözəl əxlaq ilə əməl etsə, nəfs ruh məqamına çatar, Mütməinnə olar.

Allah-Təala buyurur: **"Ey mütməin olmuş nəfs!"** (əl- Fəcr, 27).

## AZƏRBAYCAN ELLƏRİNDƏ VEYSƏL QARANİ ﷺ

(d. 560 / v. 657)

Allah dostlarının həyatı haqqında yazılmış əsərlərin ən gözəli böyük ədib Fəriduddin Əttar tərəfindən qələmə alınmış olan “Təzkirətul-Övliya” əsəridir. Bu əsərdə müəllif İmam Cəfər Sadiqdən sonra Veysəl Qaranini öz əsərinin ilk səhifələrinə alaraq, onun nə qədər önəmli şəxsiyyət olduğuna diqqət çəkmək istəmişdir. “Qırx ərmişlərin rəhbəri gizli günəş”, “Rəhmanın nəfəsi” və Yəmənin parlaq ulduzu kimi vəsf olunan bu şəxs haqqında Hz. Peyğəmbər belə buyurmuşdur: “Veysəl Qarani səhabəyə ən yaxşı şəkildə tabe olanların ən xeyirlisidir”. “Bu kimsə elə bir şəxsdir ki, onu “rəhmətən lilaləmin” vəsf etmişdir, onu tərifləmişdir, onu mən necə izah edim?” –deyir Əttar. Fəriduddin Əttar onun haqqında yazdığı belə gözəl sözlərlə onu bizim qəlbimizə həkk etmiş, onu bizə sevdirmişdir. O, unudulmaz şəxsiyyətlər arasında girmişdir.

Veysəl Qarani Azərbaycan ellərində “Veyis Baba” adı ilə məşhurdur. O, İslam ümməti içərisində ən çox tanınan və sevilən müqəddəs bir şəxsiyyətdir. Şərqdən qərbə qədər hər yerdə ona aid olduğu iddia olunan çoxlu qəbrlər mövcuddur. Elə isə  həqiqətdə kimdir Veysəl Qarani? Harada vəfat etmişdir? Qəbri haradadır?

Hz. Peyğəmbər  bəzən üzünü Yəmən istiqamətində çevirərək belə deyərdi: “Rəhmanın nəfəsini Yəmən tərəflərində hiss eliyirəm”.

Müslimdən rəvayət olunan səhih bir hədisdə isə belə deyilir: Hz. Ömər dedi: "Rəsulullahın belə dediyini eşitdim: *Şübhəsiz ki, tabeunun ən xeyirlisi Üveys deyilən bir adamdır. Onu çox istəyən, əzizləyən bir anası var. Onun bədənində bir ağlıq mövcuddur. O, Allahdan nə istəsə Allah onun diləyini yerinə yetirər. Sizlərdən kim onu görsə, ondan özü üçün dua-istiğfar alsın*" (Müslim, *Səhih*, IV, 1968-1969)

Hz. Peyğəmbər hədisi-şəriflərindən birində belə buyurmuşdu: "Ümmətimin içərisində elə insan ki, qiyamət günü Rabiə və Mudar qəbilələrinin qoyunlarının tükləri qədər insana şəfaət edəcək". Rəvayət olunur ki, heç bir ərəb qəbiləsi bu iki qəbilənin sahib olduğu qoyun sürüsünə malik deyildi. Səhabələr dedilər:

-Bu şəxs kimdir ya Rəsulullah? Hz. Peyğəmbər buyurdu:

-Allahın bəndələrindən biri. Səhabələr dedilər:



-Ya Rəsulullah! Biz də Allahın bəndələrindənik. Onun adı nədir? Rəsulullah dedi?

-Adı Veysəldir. Soruşdular ki:

-O, harada olur?. Hz. Peyğəmbər buyurdu:

-Qaran bölgəsində. Yenə soruşdular.

-O, səni görübmü? Rəsululah dedi:

-Zahiri (dünya) gözlə görməyib. Səhabələr dedilər:

-Çox qəribədir! Həm sənə bu qədər aşiq olsun, həm də gəlib səni görməsin, sənə qulluq etməsin?!. Peyğəmbər buyurdu:

-Bunun iki səbəbi var. Birincisi "qələbeyi-xali"-dir. İkincisi də şəritəin ona təzimidir. Çünki iman sahibidir, yalnız bir anası var. Anası şikəstdir, əli-ayağı işləmir. Veysəl gündüzlər çobanlıq ilə məşğul olur, aldığı məvacibi də özünə və anasının ehtiyaclarına xərcləyir. Səhabələr yenə soruşdular:

-Biz onu görə biləcəyikmi?

Hz. Peyğəmbər Hz. Əbu Bəkrə dedi:

-Sən onu görə bilməyəcəksən. Ancaq "Faruq (Hz. Ömər) ilə Mürtəza (Hz. Əli) onu görəcəklər. O, tüklü bir adamdır. Sol tərəfində və sağ əlində bir dirhəm böyüklüyündə ağlıq var. Ancaq o, baras xəstəsi deyil. Onunla görüşdükdə mənim salamımı söyləyin və ümmətimə dua etməsini istəyin!".

Digər bir rəvayətdə belə nəql olunur: Hz. Peyğəmbərin vəfatı yaxınlaşdıqda öz əbasının Veysəl Qaraniyə verilməsini vəsiyyət etmişdi.

Hz. Peyğəmbərin vəfat etməsindən sonra Hz. Ömər və Hz. Əli Kufəyə gələndə Ömər Nəcd camaatına xütbə oxuyub belə buyurmuşdu:

-Ey Nəcd əhalisi! Ayağa durun!. Onlar ayağa qalxdılar. Hz. Ömər soruşdu: "Sizin içərinizdə Qaran bölgəsindən olan kimsə varmı?" Onlar də "bəli, var" dedilər. Hz. Ömər onlardan Veysəl haqqında soruşdu. Ancaq onlar "tanımırıq" dedilər. Bundan sonra Hz. Ömər dedi: "Şəriət sahibi mənə xəbər vermişdir və o, əsla boş söz söyləməz. Həqiqətən siz onu tanımırsınızmı?". Onların içərisindən bir adam irəli çıxdı və dedi:

-Bir nəfər var, ancaq o, əmirəl-mömininin haqqında soruşmayacağı qədər sadə bir adamdır. Çox sadəlövh bir adamdır. Camaatdan uzaqlaşıb, kənar bir yerdə yaşayır. Ömər Faruq dedi:

-O, indi haradadır? Çünki bizim axtardığımız adam elə həmən adamdır.

Belə cavab verdilər:

-Ürənə vadisindədir. Axşama qədər dəvə otarır. Ondan qazandığı pulla da çörək alır. Adamların çox olduğu yerə gəlməz, heç kimlə söhbət eləməz, camaatın yediyini yeməz, sevinmə və əylənmə nədir bilməz, camaat ağlayanda o gülər. Bunu eşidən Hz. Əli və Hz. Ömər həmən vadiyə getdilər. Oraya çatanda gördülər ki, o, namaz qılır. Dəvələrini otarmaq üçün Allah-Təala bir mələk vəzifələndirmişdi. Veysəl hiss edəndə ki, oraya kimsə gəlib namazını qısa qılıb bitirdi. Namazını

qurtarandan sonra salam verəndə Hz. Ömər ayağa durdu və salam verdi. O da salamı aldı. Hz. Ömər dedi:

-Adın nədir sənin?

-Abdullahdır (Allahın qulu)-dedi.

-Biz hamımız Allahın bəndələriyik. Mən sənin adını soruşuram.

O, cavab verdi.

-Veysəldir adım.

-Sağ əlini göstər, dedi. O da göstərdi. Hz. Peyğəmbərin bəhs etdiyi əlaməti onda görən Hz. Ömər dərhal onu öpdü və dedi:

-Rəsulullah sənə salam göndərdi. Ümmətinə dua etməyini səndən istədi.

Veysəl:

-Dua etməyə sən daha çox layiqsən. Çünki yer üzündə səndən daha əziz bir adam yoxdur. Hz. Ömər ona dedi:

-Şübhəsiz, mən də dua edirəm. Ancaq sən də Rəsulullahın vəsiyyətini yerinə yetir. Veysəl:

-Ey Ömər! Diqqətlə bax, birdən axtardığın adam başqası olar. Hz. Ömər də:

-Hz. Peyğəmbər sənin əlamətini söyləmişdi. Veysəl ona dedi:

-Elə isə Hz. Peyğəmbərin əbasını mənə verin ki, dua edim. Niyaz edim.

Sonra onlardan uzaqlaşıb kənar bir yerdə əbanı yerə sərdi və üzünü onun üstünə qoyub dedi:

-Ey Allahım, bütün ümməti-Məhəmmədi (və insanları) mənə bağışlamadıqca bu əbanı geyməyəcəyəm. Hz. Peyğəmbər bu işi bunlara tapşırmışdır. Rəsulullah, Ömər və Əli öz üstlərinə düşən vəzifəni yerinə yetirdilər. İndi mənim növbəmdir.

Çoxlu dua etdikdən sonra belə bir səs eşitdi: "Bu dediklərini sənə bağışlayıram, əbanı gey!". Veysəl isə "Mən hamısını bağışlamağını istəyirəm"-dedi. Veysəl belə dua etdikcə, belə qeybi səslər eşidirdi. Bu əsnada Hz. Ömər Hz. Əliyə dedi: "Gedək görək Veysəl nə edir?" Veysəl onların yaxınlaşdığını gördükdə dərindən bir ah çəkdi və dedi: "Niyə buraya gəldiniz? Əgər buraya gəlməmiş olsaydınız bütün Məhəmməd ümmətini Allah bağışlamadığı müddətdə əbanı geyməyəcəkdim".

Bunu dedikdən sonra Veysəl əbasını geyindi və:

"-Bu əbanın hörmətinə Hz. Məhəmməd ümmətindən Rabia və Mudar qəbilələrinin qoyun sürülərinin tüklərinin sayı qədər insanı bağışladı" - dedi. Hz. Əli susaraq ona baxırdı. Hz. Ömər dedi:

-Nə üçün Hz. Peyğəmbər sağ olanda onu görməyə gəlmədin?

Veysəl dedi:

-Siz onu gördünüzmü?

-Bəli

-Onu gördüyünüzə görə onun alnını da hərhalda görmüsünüz. İndi deyin görüm, qaşları sallaqdı yoxsa açıqdı?

Çox qəribədir ki, onlar Veysəldən o qədər təsirlənmişdilər ki, ona heç bir cavab verə bilmədilər. Sonra Veysəl yenidən soruşdu:

-Siz Məhəmmədi sevirdinizmi?

-"Bəli"-dedilər.

-Əgər sevginiz sağlam idisə niyə onun mübarək dişləri qırılanda, onunlar eyni hala bürünmək üçün siz öz dişlərinizi qırmadınız? Çünki həmhal olmaq məhəbbətin və sevginin əsas göstəricisidir.

Sonra da Veysəl öz dişlərini göstərdi. Ağzında heç bir dənə də olsun dişi yox idi. Sonra dedi:

-Mən onu cismən görmədim, ancaq onunla eyni halı yaşamaq üçün bütün dişlərimi çıxartdım. Çünki həmhal olmaq (müvafəqət) dindəndir.

Bu mənalı  sözlər hər ikisinə çox dərin təsir etmişdi. Başa düşdülər ki, müvafəqət məqamı ilə ədəb məqamı bir-birindən fərqlidir. Rəsulullahı görməmiş bir kimsədən də ədəb öyrənmək lazımdır.

Hz. Ömər ona dedi:

-Ey Veysəl, mənimçün dua et!

-Ümumi olaraq dua edəndə səninçün də dua etmiş sayılıram. İmanda meyil (və təshih) olmaz. Hər namazda təşəhhüdə oturanda "**Allahım, bütün mömінləri bağışla"** (İbrahim, 14/41) deyirəm. Əgər siz imanınızı qəbrə qədər sağlam bir şəkildə qoruya bilsəniz, dua sizə də aid olacaq. Əgər qoruya bilməsəniz mən boş yerə dua etmərəm.



Hz. Ömər dedi:

-Bir az gözlə! Sənə bir şey verəcəm.

Veysəl əlini cibinə saldı və oradan iki gümüş pul çıxardı:

-Bunları dəvə otararaq qazanmışam. Əgər bu pulları xərcləyənə qədər ömrümün ola biləcəyinə qarantiya verərsənsə, ancaq ondan sonra başqa hədiyyə də ala bilərəm. Zəhmət çəkmisiniz, indi geri qayıdın, çünki qiyamət günü yaxındadır. Dönüşü olmayan həmən o gündə yenə qarşılaşacağıq. Mən indi qiyamət günü üçün hazırlıqlarla məşğulam.

Kufədən qayıtdıqdan sonra Veysəl öz qövmü içərisində böyük hörmət və ehtiram sahibi oldu. O özü isə bunu istəmirdi. Buna görə də oradan uzaqlaşdı və yenidən Kufəyə qayıtdı. Bundan sonra da Hərəm ibn Həyyandan başqa heç kim onu görmədi. Hərəm belə deyir: "Veysəlin şəfaət etmə dərəcəsindəki üstünlüyünü eşitdikdən sonra onu görmək arzusu çoxaldı. Kufəyə gedərək onu axtarmağa başladım. Təsadüfən Fərat sahilində dəstəmaz aldığını gördüm. Onu tanıdım. Əvvəlcədən eşitdiyim xüsusiyyətlərə sahib idi. Sa-

lam verdim, o da salamımı aldı və mənə baxdı. İstədim onunla əllə görüşüm, ancaq o, əlini uzatmadı. Ona dedim: "Ey Veysəl! Allahın rəhmətin sənin üzərinə olsun! Allah səni bağışlasın!. Necəsən, əhvalın necədir?. Çox zəif olduğuna görə və mənim də ona böyük rəğbətim və sevgim olduğuna görə məni ağlamaq tutdu. O da ağlamağa başladı və dedi:

-Ey Həyyanın oğlu Hərəm! Allah sənə uzun ömür versin. Sən necəsən? Mənim yerimi sənə kim göstərdi?

-Mənim və atamın adını hardan bilirsən? Məni heç vaxt görmədiyin halda, necə tanıdın?-dedi Hərəm.

-Hər şeyi bilən və heç bir şey Onun elmindən kənarda qalmayan bildirdi. Ruhum ruhunu tanıdı. Çünki möminlərin ruhları bir-birini tanıyır.

-Mənə Rəsulullahdan bir hədis danış-dedi Hərəm.

-Mən onunla görüşmədim, ancaq hədislərini başqalarından eşitdim. Ancaq mən mühəddis, müftü və müzəkkir (vaiz) olmaq istəmirəm. Çünki mənim işim öz nəfsimlədir. Bundan əl çəkə bilmərəm.

-Bir ayə oxusan eşitmək, qulaq asmaq istəyərəm.

Bu təklifi eşidən Veysəl bəsmələ çəkdi və hıçqıraraq ağlamağa başladı. Bu ayələri oxuyurdu: **"Mən insanları və cinləri mənə ibadət etsinlər deyə yaratdım"** (Zariyat, 51/56). **"Biz yeri, göyü və ikisi arasındakı şeyləri əyləncə olsun deyə yaratmadıq. Bunları ancaq Haqq ilə yaratdıq. Lakin insanların əksəriyyəti bunu bilməz"** (Duxan, 44/38-48) Bunları oxuduqdan sonra elə bir nərə çəkdi ki, az qala öz huşunu itirəcəkdi. Sonra da məndən soruşdu:

-Ey Həyyanın oğlu, səni buraya gətirən səbəb nədir?

-Səninlə hüzur və sükunəti tapmaq.

-Ulu və Uca Allahı tanıyıb, Ondan başqası ilə hüzur və sükunəti tapan birini mən görmədim.

-Mənə öyüd-nəsihət ver!-dedi Hərəm.

-Yatanda ölümü yastığının altına qoy, oyananda da gözünün önünə gətir. Günahın kiçikliyinə baxma, qarşısında günah işlədiyin şəxsin böyüklüyünə bax. Əgər günahı kiçik görsən Allahı da kiçik görmüş olarsan.

-Harada məskunlaşmağımı istəyirsən?

-Şamda.

-Orada necə dolanacağam?

-Yanındakı şirkə bənzər, öyüd qəbul etməz qəlblərdən uzaq dur!

-Başqa bir nəsihət daha verə bilərsənmi?

-Ey Həyyanın oğlu! Atan öldü. Adəm, Həvva, Nuh, İbrahim, Musa, Davud, Muhəmməd də vəfat etdi. Rəsulullahın xəlifəsi Əbu Bəkir də dünyadan köçdü. Qardaşım Ömər də axirətə köçdü.



-Allahın rəhməti sənin üzərinə olsun!. Ömər hələ ölməyib.

-Haqq-Təala mənə Hz. Ömərin ölüm xəbərini verdi. Sonra mən də, siz də öləcəyik-dedi və salavat gətirdi. Dua etdikdən sonra "mənim sənə son nəsihətim bu olsun" dedi:

-Ulu və Uca olan Allahın müqəddəs Kitabında göstərilən və saleh kimsələr tərəfindən əməl olunan yola möhkəm yapış, ölümü tez-tez xatırla, öz qövmünə də nəsihət ver! Allahın məxluqatına öyüd-nəsihət verməkdən yorulma, ümmədin camaatının izlədiyi yoldan bir addım geri qalma. Əks təqdirdə özün də bilmədən dindən çıxar və cəhənnəmə yuvarlanarsan.

Sonra bir az daha dua etdi və belə dedi: "Ey Həyyanın oğlu, indi dur və get buradan. Bu gündən sonra nə sən məni görəcəksən, nə də mən səni! Səni həmişə xeyir-dua ilə yada salacam. Sən də mənə dua etməyi yaddan çıxarma. Sən bu tərəfdən get, mən də bu tərəfdən gedim"-dedi. Mən onunla getmək istədim amma o, icazə vermədi və ağladı. Məni də ağlamaq tutdu. Mənə dedikləri sözlərin əksəriyyəti Ömər və Əliyə aid idi. Onun arxasınca çoxlu ağladım. Nəhayət ki, gözdən itdi, bundan sonra da ondan xəbər ala bilmədim.

Rəbi ibn Heysəm belə bir rəvayət edir: “Veysəli görməyə getmişdim. Sübh namazını qılırdı. Namazı qurtardıqdan sonra da təsbihatla məşğul oldu. Təsbihatı qurtarsın deyə gözlədim. Bir də baxdım ki, ayağa durdu və günorta namazını qılmağa başladı. Üç gün üç gecə fasiləsiz belə hərəkət etdi. Heç bir şey yemədi və heç yatmadı. Dördüncü gecə baxdım ki, gözlərində bir az yuxu əlamətləri var idi. Bundan sonra dərhal ayağa qalxıb Allah-Təalaya münacat oxudu və dedi: “Ya Rəbbi, bu çox yatan gözlərdən və doymayan qarından sənə sığınıram”. Öz-özümə dedim ki, bu qədər kifayətdir, ağlımı çox qarışdırmayım və geri qayıtdım.

Rəvayət olunur ki, ömründə heç bir gecə yatmamışdı. Bir gecə “bu gecə səcdə gecəsidir” deyir, həmən gecə də sabaha qədər başını səcdədən qaldırmamışdı. Başqa bir gecə də “bu gecə qiyamda durma gecəsidir” –deyir və ayaqüstə sabaha qədər dururdu. Yenə başqa bir gecədə də “bu gecə ruku gecəsidir”-deyir və sabaha qədər ruku halında səhəri açırdı. Soruşdular ki, “ey Veysəl, belə uzun gecələri bir tək halla keçirməyə necə gücün yetir?. O, belə cavab verdi:

-Mən hələ “sübhanə rabbiyəl-əzim” demədən səhər olur. Halbuki üç dəfə təsbit gətirmək sünnədir. Bunun üçün də belə hərəkət edirəm. İstiyirəm ki, səmadakılar kimi ibadət edim (və həmişə qiyam və ruku, yaxud səcdə halında olum).

-“Namazda xüşulu olmaq nə deməkdir?”-deyə soruşdular ondan. O, belə cavab verdi: “Namazda ikən bədəninə ox batsa fərqində olmamaqdır”. “Necəsən?” soruşanlara belə cavab verirdi: “Səhər durub axşama qədər yaşayıb-yaşamayacağını bilməyən bir kimsə necə olursa, eləyəm”.

“Əməlin necədir?”-deyənlərə “eh, yol uzundur, azuqəm isə azdır”-deyə cavab verdi. “Allaha yer və göy əhli qədər ibadət etsən, əgər onun haqqında tam əmin elmə sahib deyilsənsə səndən qəbul olunmaz”-deyəndə ondan soruşurlar ki;

“Onun haqqında necə tam mütləq elmə sahib olmaq mümkündür?”. O da cavab verdi:

“Sənin üçün seçdiyi hər şeyə könüldən razı olaraq, özünü tamamilə ona ibadətə verərək və digər heç bir şeylə məşğul olmayaraq”.

“Hər kim bu üç şeyi sevərsə cəhənnəm onun boynundakı damardan ona daha yaxın olar. Yağlı yeməklər yemək, şux paltarlar geyinmək və zəngin insanlarla gəzib-əylənmək” dedi. Ona dedilər ki:

Veysəl “Kim Allahı tayıyarsa, (arifi-billah olar), artıq ona heç bir şey gizli qalmaz”-demişdi. Yəni Allah ancaq Allah ilə tanına bilər. Çünki “Rəbbimi Rəbbimlə tanıdım”-demişdi. Onun üçün Allahı bilən (Onun ilahi sifətlərinə məzhər olduğuna görə) hər şeyə vaqif olar.

Başqa bir kəlamı isə belədir: “Yüksəkliyi axtardım, təvazökarlıqda tapdım. Bəyliyi axtardım, xeyirxahlıqda tapdım. Kişilik axtardım, doğruluqda tapdım. Şan-şöhrət axtardım, fəqirlikdə tapdım. Nisbət və şöhrət axtardım, təqvada tapdım. Şərəf axtardım qənaətkarlıqda tapdım. Rahatlıq axtardım, zöhddə tapdım”(Fəriduddin Əttar, *Təzkirətul-Əvliya*, s. 12-13)



### Üveysilik

Təsəvvüfdə Veysəl Qaraniyə isnad edilən bir təsəvvüf məktəbi mövcuddur ki, ona “üveysilik” deyilir. Bir şeyxə bağlanaraq rəsmi seyri-süluk yaşamayan, ancaq Hz. Peyğəmbərin və yaxud da bir övliyanın ruhunun təsiri ilə tərbiyə və irşad olanlara üveysi deyilir. Bu məktəbin Veysəl Qaraninin adı ilə əlaqələndirilməsinin səbəbi belədir: Başqa bir vasitəçiyə ehtiyac hiss etmədən, nübüvvət nuru Veysəl Qaranini öz “qucağında” tərbiyə etmişdir. Çünki, o zahirən Hz. Peyğəmbəri görməmişdi, ancaq onun tərəfindən tərbiyə və irşad edilmişdi. Risalət ocağında nübüvvətdən tərbiyə almış və həqiqətlə qovuşmuşdu. Bu məqam o qədər uca bir məqamdır ki, oraya asanlıqla çatmaq qeyri-mümkündür.

**Üveysin Əbası**

Veysəl Qarani Həzrətlərinə Hz. Peyğəmbər tərəfindən hədiyyə olunan xirqeyi-şərif, Van yaxınlığında yaşayan İrisan Bəyliklərinə qədər gəlmiş, buradan da 1618-ci ildə Osmanlı padşahlarından biri olan Sultan II Osman Xana gətirilib hədiyyə olunmuşdu. Sultan Abdulməcid Xan bu xirqeyi-şərif üçün Fatih yaxınlığında "Xirqeyi-Şərif Məscidi" adlı bir məscid tikdirmişdi. Burada qorunan bu xirqə hər il ramazan ayında xalqın ziyarəti üçün açılır və nümayiş olunur.

**Veysəl Qaraninin Qəbri**

Xalq tərəfindən çox sevilən və yaddaşlardan silinməyən böyük şəxsiyyətlərin qəbrləri çox vaxt bir neçə yerdə mövcud olur və hansının həqiqi məzar olduğunu müəyyənləşdirmək çətinləşir. Bunlardan biri də Veysəl Qaranidir. Bəzi mənbələr Üveysin Siffin döyüşündə Hz. Əli tərəfdarları içərisində savaşarkən şəhid edildiyini qeyd etmişlər. Abdurrahman ibn Əbu Leyladan gələn bir rəvayətə görə Siffin döyüşü günü savaşdan sonra bir nəfər "Üveys sağ qalanların içərisindədirmi?"-deyərək səslənir. Ancaq onu Hz. Əlinin tərəfdarları içərisində şəhid olduğunu görürlər. (İbn əl-Cövzi, *Sifətus-Səfvə*, III/35) İbn Əsakir onun cihad üçün Ermənistan bölgəsinə getdiyini, orada yaralandığını və bir çadıra sığınıb orada vəfat etdiyini qeyd etmişdir (İbn Əsakir, *Tarixu-Dəməşq*, IX, 408) Zəhəbi, İbn Həcər, Əhməd ibn Hənbəl və Əbu Nuaymın Abdullah ibn Sələmədən nəql etdikləri bir rəvayətə görə Üveys əl-Qarani Azərbaycan səfərində iştirak etmiş, yolda xəstələnərək vəfat etmişdir. Onun Azərbaycanda vəfatını izah edən rəvayətdəki məlumatlar bəzi təfsilatlı məsələləri əhatə etməkdədir ki, bu da onun Azərbaycanda ölmə ehtimalını daha da gücləndirir.

Abullah ibn Sələmədən gələn bir rəvayət isə belədir:

" Ömər ibn Xəttab dövründə Azərbaycanla savaşa getdik. Üveys də yanımızda idi. Qayıdarkən o, xəstələndi və bir müddət keçdikdən sonra vəfat etdi. Buna görə də biz bir yerdə dayandıq. Bir də gördük ki, o dayandığımız yerdə bir qazılmış

qəbir, su və ətirli bir kəfən var. Onu yuyub kəfənlədikdən sonra namazını qıldıq və dəfn etdik. Bir az vaxt keçdikdən sonra öz-özümüzə "gərək qəbrini bildirən bir işarə qoyardıq"-dedik. Bu məqsədlə geri qayıdanda onun qəbrini tapa bilmədik. Heç bir iz qalmamışdı.

Mənbələrdə verilən məlumatlara əsasən Veysəl Qaraninin vəfat etdiyi yer ilə əlaqəli iki məkan diqqət çəkir. Siffin və Azərbaycan. Siffində öldüyünü təsdiq edən xəbərlər ilə Azərbaycanda vəfat etdiyini təsdiq edən xəbərlər eyni əsərlərdə təkrar qeyd olunmuşdur. Bu da dəqiq bir yerin müəyyənləşdirilməsini çətinləşdirmişdir. Ancaq rəvayətlərdəki məlumatların daha təfsilatlı olması və bir çox mənbələrdə yer alması Azərbaycanda vəfat etmə ehtimalını gücləndirmişdir.

Bütün bunlara baxmayaraq Veysəl Qaraninin qəbrinin harada olduğu barəsində bir çox fərqli görüş mövcuddur. Bəziləri Yəməndə "məşhədi-şərif" adı verilən bir qəbristanlıqda dəfn olunduğunu qeyd etmişdir. Ancaq Yəməndə vəfat etməsi barəsində dəqiq bir məlumat yoxdur. Veysəl Qaraniyə aid olduğu söylənən qəbrlər İranda Kirmanşahda və Qəzvində, Şam bölgəsində, Hicaz, Xorasan, Hindistan və Anadolunun Bursa, Gəmlik, Manisa, Mardin, Kurtalan, Licə, Siirtin Baykan bölgəsində mövcuddur.



Veysəl Qarani Azərbaycana müsəlman ordusunun tərkibində gələrək buralarda İslam dinini təbliğ etmişdir. Onun kimi böyük şəxsiyyətlər İslam orduları ilə birlikdə yeni fəth olunan yerlərə gedib, orada İslamı halları və sözləri ilə, həyat tərzləri ilə təbliğ etmişdilər. Bu müqəddəs şəxsiyyət də Azərbaycana gələrək Azərbaycan torpaqlarını şərəfləndirmişdi. Azərbaycan xalqının İslam dinini mənimsəməsində onun müstəsna xidməti olduğu şübhəsizdir. Bəlkə də bu səbəblədir ki, bu torpaqlarda bir çox Allah dostu övliya və İslam alimi, şair yetişmidir. Nizami Gəncəvi, Nəsimi, Fizuli, Seyid Yəhya Şirvani kimi, Allah və rəsulunu öz şeirləri ilə ən gözəl şəkildə izah edən eşq və məhəbbətlə dolu bir ruh halının Veysəl Qaraninin mənəviyyatından gəldiyini söyləmək yanlış olmaz.

Azərbaycanda bir çox yerdə onun məzarı mövcuddur. Bunlardan ən məşhurları Ağdaşın 45 km cənubunda Xınalıqlı kəndindəki qəbirdir. Bu bölgənin dönüş yolu olma ehtimalı yüksəkdir. Həmçinin buraya yaxın bir yerdən su axdığı da rəvayət olunur.

XIX əsrdə Kürdəmirdə yaşamış nəqşibəndi şeyxi İsmail Şirvaninin Veysəl Qaraninin qəbrinin buralarda olduğundan bəhs etdiyi bildirilir. Hətta dərvişlər tərəfindən yazılmış bir şeirdə də bundan bəhs olunur:

*Alimlər edər minnəti*
*Həm fərz qılın, həm sünnəti*
*Mövlana baba vəsiyyəti*
*Kür çayında Veysəl Qara*

Bundan əlavə, Həmzə Nigarinin xəlifəsi olan Qazaxın Aslanbəyli kəndindən olan Hacı Mahmud Əfəndinin də babalarının adı Veysəl Qarani olmuşdur. Onun Veysəl Qarani nəslindən gəldiyi söylənilir. Mahmud Əfəndi Türkiyəyə köç edən övladları Məhəmməd və Əhməd Əfəndi Türkiyədə "soyadları qanunu" çıxdıqdan sonra "Qaran" (Karan) adını almışlar.

Onun qəbrinin bir çox yerdə olması və daim ziyarətə açıq olması əslində onun əslərdir nə qədər mühüm bir şəxsiyyət olduğunu göstərir. Onun məqamını və ya məzarını ziyarət etmək əlbətdə ki, onun şəxsiyyətini, həyatını, din və peyğəmbər sevgisini, ana sevgisini bizə xatırlatmaq üçün gözəl nümunədir. Onun məzarının başında Allaha dua etmək, Allahdan onun şəfaətini tələb etmək olur.

Allah dostu və Peyğəmbər aşiqi Veysəl Qaraninin Münacatı:

Allahım!

Sən mənim Rəbbimsən! Mən sənin qulunam
Yaradan Sənsən, yaradılan mənəm

Ruzi verən Sənsən, ruziləndirilən mənəm.

Mülk sahibi Sənsən, qul və kölə mənəm.

Əziz Sənsən, zəlil mənəm.

Zəngin Sənsən, kasıb mənəm.

Diri Sənsən, ölü mənəm.

Baqi Sənsən, fani mənəm.

Kərim Sənsən, həqir mənəm.

Yaxşılıq edən Sənsən, günahkar olan mənəm.

Əvf edib bağışlayan Sənsən, günah işləyən mənəm.

Böyük və Uca olan Sənsən, kiçik və dəyərsiz olan mənəm.

Güclü və qüvvətli olan Sənsən, zəif və gücsüz olan mənəm.

Verən Sənsən, istəyən mənəm.

Hər şeydən əmin olan Sənsən, qorxan mənəm.

Comərd Sənsən, möhtac və fəqir olan mənəm.

Dualara cavab verən Sənsən, dua edib istəyən mənəm.

Şəfa verən Sənsən, xəstə olan mənəm.

Hər cür nöqsan sifətlərdən münəzzəh olan və bütün kamil sifətlərə sahib olan Rəbbim!

Günahlarımı bağışla, xətalarımı əvf et, xəstəliyə şəfa ver, əbədi olaraq məni öz rizana məzhər et!

Bunu rəhmətinlə ehsan eylə, ey mərhəmətlilərin ən mərhəmətlisi...(Amin)

# İMAM MUHAMMƏD QƏZALİ ﷀ

(d. 1058 / v. 1111)



Türk İslam dünyasının abidi şəxsiyyətlərindən biri də heç şübhəsiz ki, İmam Qəzalidir. Əsl adı Muhammәd b. Muhammәd b. Muhammәd b. Əhmәddir. İslam düşüncəsində Höccətül- İslam adıyla məşhur olmuşdur. Ləqəbi isə Əbu Hamid İmam Qəzali 1058-ci ildə İranın Tus şəhərində Qəzal kəndində doğulmuşdur.

Qəzalinin elm təhsilinə başlaması olduqca ibrətli bir hadisədir. Atası kasıb və əməlisaleh bir şəxs idi. Alimlərin söhbətlərindən heç ayrılmazdı. Əlindən gəldiyi qədər onlara kömək və yaxşılıq edərdi. Alimlərin nəsihətini dinləyincə ağlar və Allah-Təalaya dua edərək alim bir övlad verməsini istəyərdi. Atası yun əyirib Tus şəhərində bir dükanda satardı. Vəfatının yaxınlaşdığını anlayınca oğlu Məhəmməd Qəzalini və digər oğlu Əhmədi xeyirxah və əməlisaleh bir dostuna tapşırdı və onların təhsilində istifadə etməsi üçün bir qədər pul verdi. Beləliklə İmam Qəzalinin elm səfəri başlamış oldu.

İmam Qəzali uşaqlıq illərində öz məmləkətində bir az Fiqh dərsi aldı. Burada Əhməd bin Məhəmməd ər-Razəqanidən Fiqh dərsləri aldıqdan sonra Curcana getdi, orada Şafei Fiqhini Əbu Nəsr əl-İsmailidən öyrəndi. Məmləkətinə qayıtdığı əsnada başına gələnlər olduqca maraqlıdır:

Karvanın yolunu quldurlar kəsdi. Bütün karvanı qarət etdilər. Məhəmmədin içində dərs qeydləri olan çantasını da aldılar. Məhəmməd quldurların başçısının yanına gedib xahiş etdi. İllərlə zəhmət çəkib əldə etdiyi dərs qeydlərinin çantada

olduğunu və bunların onlara heç bir faydası olmayacağını deyərək, çantanı geri qaytarmalarını istədi. Quldurların başçısı gülümsədi: "Əlindən kağızlar alınınca cahil qalırsan? Belə elm olar?" -dedi. Sonra da çantanın geri qaytarılmasını tapşırdı. Qəzali bu sözlərdən dərs alaraq 3 il bu qeydləri əzbərləməklə məşğul oldu.

Sonra Nişabura getdi. Böyük Səlcuq Dövlətinin vəziri Nizamülmülkün tikdirdiyi mədrəsənin baş müəllimi İmamul-Hərameyn Əbul-Məali Ziyaəddin əl-Cüveynidən fiqh, üsul, məntiq və kəlam dərsləri aldı. Müəllimi gənc Qəzalidəki zəkaya heyran qaldı. Qəzali bu vaxtlar hələ gənc ikən əsərlər yazmağa başladı və şöhrət qazandı. Nişaburda təhsilini başa vurduqdan sonra böyük bir elm və ədəbiyyat himayəçisi olan Səlcuqlu vəziri Nizamülmülkün dəvəti ilə Bağdada getdi. Nizamülmülkün təşkil etdiyi elm məclisində iştirak edən dövrün elm adamları imam Qəzalinin elminin dərinliyinə və məsələləri təhlil etməkdəki üstün qabiliyyətinə heyran qaldıqlarını etiraf etdilər.



Bu vaxtlar otuz dörd yaşında olan imam Qəzalinin İslamiyyətə göstərdiyi böyük xidmətləri görən Səlcuq vəziri Nizamülmülk onu Nizamiyyə Mədrəsəsinin rəhbəri təyin etdi. Bu mədrəsənin rəhbəri olan İmam Qəzali üç yüz tələbəyə lazımlı olan bütün elmləri öyrətdi. Yetişdirdiyi tələbələrin sayı-hesabı yox idi. Əbu Mənsur Məhəmməd, Məhəmməd bin Əsad ət-Tusi, Əbul-Həsən əl-Bələnsi, Əbu Abdullah Cümərt əl-Hüseyni tələbələrinin məşhurlarındandır. Bir tərəfdən də qiymətli kitablar yazan İmam Qəzali elm əhli, dövlət adamları və xalq tərəfindən böyük hörmət və ehtiram gördü. Şöhrəti gündən-günə artdı. Nizamiyyə Mədrəsəsindəki illərdə Kitabul-Basit fil-Füru, Kitabul-Vəsit, əl-Vəciz, Məahizul-Xilaf adlı kitablarını yazdı.

**Yaşadığı Dövrün Siyasi və Elmi Vəziyyəti**

İmam Qəzalinin yaşadığı dövrdə İslam aləmində siyasi və ideologiya baxımından böyük qarışıqlıq hökm sürürdü. Bağ-

dadda Abbasi xəlifələrinin hakimiyyəti zəifləməyə başlamışdı. Bununla yanaşı Böyük Səlcuq Dövlətinin sərhədləri genişləyir və nüfuzu artırdı. İmam Qəzali bu dövlətin böyük hökmdarları Toğrul Bəyin, Alp Aslanın və Məlik Şahın dövrlərini yaşadı. Məlik Şahın qiymətli vəziri Nizamülmülk həm döyüş meydanlarında zəfər qazanır, həm də o dövrün parlaq elm ocaqları olan İslam Mədrəsələrini açırdı.

İmamı Qəzali 23 yaşında ikən Şərqdə Həsən və tərəfdarları Səlcuq hakimiyyətini yıxmaq məqsədi ilə İsmailiyyə ideologiyasını yaymağa çalışırdılar. Misirdə Fatimi Əndəlüs İslam Dövləti zəifləməyə başlamışdı. Müqəddəs torpaqları müsəlmanlardan almaq üçün ilk Səlib yürüşləri də İmam Qəzalinin yaşadığı dövrdə başlamışdı. Bunlardan birincisi olan Səlib yürüşünə qatılan Xaçlılar Anadolu Səlcuq Hökmdarı I Qılınc Aslanın üstün səylərinə baxmayaraq canlı qüvvə baxımından 600 mindən 40-50 minə düşsələr də, Anadolunu keçmiş, Torosları aşmış, Antakyanı və bir il sonra da Qüdsü ələ keçirmişdilər.



Müsəlmanlar arasında etiqad birliyi sarsılmış, düşüncə və fikirlərdə ayrılıqlar meydana gəlmişdi. Bir tərəfdən qədim Yunan fəlsəfəsini izah edən kitabları oxuyaraq yazılanlarla İslam inancını yenidən şərh edənlər, digər tərəfdən Qurani-Kərimin ayələrinin mənasını fərqli izah və üsullarla şərhə cəhd edən Batinilər və Mutəzilə ilə digər təriqətlər iqtidarı əlində saxlayan qrupların formalaşdırdığı İslam düşüncəsinə müxalif bir əda ilə iqtidar mübarizəsinə daxil olmağa çalışırdılar. Beləliklə də İslam tarixinin ən gərgin fikri-fəlsəfi dövrü yaşanmağa başlandı. İdeologiya mübarizənin belə bir dövründə ağlı və nəqli elmlərdə zamanın zirvəsi sayılan İmam Qəzali bütün gücünü və səylərini İslamın həqiqətini izah etməyə, zərərli fikir və düşüncələrlə mübarizəyə sərf etmişdir.

### Qəzali və Elm

İmam Qəzali İslami elmlərin bütün sahəsində söz sahibi idi. Onun belə yüksək elmi səviyyəsi yazdığı əsərlərdən də ay-

dın görünür. O, bir tərəfdən qiymətli tələbələr yetişdirdi, digər tərəfdən də yanlış təriqətlərin xarab inanclarını çürütmək və müsəlmanların bunlara aldanmamaları üçün oxuyacaqları qiymətli əsərlər yazdı. Üç yüz mindən çox hədisi-şərifi raviləri ilə birlikdə əzbərdən bilən və Höccətül-İslam adıyla məşhur olan İmam Qəzali həzrətləri İslamın iyirmi təməl elmi ilə bunlara aydınlıq gətirən dəqiq elmlərdə də söz sahibi idi. Hədis və Hədis Üsulu kimi elmlərdə elm dəryası olan bu böyük alimin kitablarında "məvdu hədis" olduğunu iddia edərək İmam Qəzali həzrətlərində nöqsan axtarmaq elmin həqiqətini, İslam aliminin dərəcəsini bilməməkdir.



İmam Qəzali həyatını Quran əxlaqında dərinləşməyə və İslam əxlaqının gözəlliklərini insanlara öyrətməyə həsr etmiş böyük İslam alimidir. Bu məqsədlə də elmi və dini mövzularda geniş məlumat sahibi olmağa səy göstərmişdir. Xüsusilə Qədim Yunan fəlsəfəsindən qaynaqlanan, Qurana uyğun olmayan inanc və fikirləri çox təsirli bir üslubla çürütmüş və bütün bunlara qarşı Quran əxlaqını daim ön plana çıxarmışdır. Elmi dühası səbəbilə "İslamın dəlili, İslamın haqq olduğunun isbatı" mənasını verən "Höccətül-İslam" və "Zeynüddin" sifətləriylə xatırlanmışdır.

Bir tərəfdən dərs tədris edərkən, digər tərəfdən də bir çox qiymətli kitab yazan İmam Qəzalinin sahib olduğu üstün elmlər dövrünün Avropalı filosoflarını hər baxımdan geridə qoyurdu. Məsələn, Avropada dünyanın düz olduğu zənn edilərkən, İmam Qəzali dünyanın yumru olduğunu, qaraciyərdə qanın zəhər və mikroblardan təmizlənib təzələnildiyini, dalağın, böyrəklərin və öd kisəsinin insan bədənindəki rolları kimi məlumatları bugünkü elmin təsdiq etdiyi şəkildə dəlilləriylə açıqlayırdı.

İmam Qəzali elmdə gəlmiş olduğu bu üstün səviyyəyə baxmayaraq elmin tək başına hər problemi həll edə bilmədiyini, hətta qeyri-kafi olduğunu düşünməyə başlamışdır. Bu düşüncə Qəzalini elmin məqsədinin nə olduğunu düşünməyə vadar etmişdir. Elə bu məqamda Qəzali "elm nə üçün əldə

edilir?" sualını öz-özündən soruşaraq həyatını tamamilə dəyişdirəcək qapını açmışdır. Qəzalinin mənəvi səfəri başlığı altında bu mövzuya toxunacağıq.

**Məşhur Əsərləri**

İmam Qəzali bir çox kitab yazmışdır. Mövduatül-ülum adlı kitabında təxminən 1000 əsəri olduğu bildirilir. Əsərlərində İslam dini və əxlaqının demək olar ki, hər sahəsi ilə əlaqədar fikirlər olduğu kimi, hər yaş və hər səviyyədəki insanın asanlıqla anlaya biləcəyi bir üslub hakimdir.

İmam Qəzalinin əsərləriylə bağlı Avropalı alimlər geniş araşdırmalar aparmışlar. Bunlardan P. Bouyges, Essaie də Chronologie des Oeuvres de al-Qazali adlı əsərində İmam Qəzalinin 404 kitabının adını qeyd etmişdir. Başqa bir araşdırmaçı olan Brockelmann da Geschichte Deyər Arabischen Litteratur adlı əsərində, Qəzalinin 75 əsərinin adını qeyd etmişdir. 1959 -cu ildə dörd Alman professor İmam Qəzalinin kitablarını oxuyaraq İslam dininə heyran qalmış və onun kitablarını Alman dilinə tərcümə edərək müsəlman olmuşlar.

Məşhur əsərlərindən bəziləri bunlardır: "İhyau-ülumiddin", "Kimyayi-səadət", "Cəvahirül-Quran", "Qəvaidül-əqaid", "Kitabül-iqtisad fil İtiqad", "İlcamül-əvam ən ilmil-kəlam", "Mizanül-əməl", "Dürrətül-fahirə", "Əyyuhəl-vələd", "Qistəsül-müstəqim", "Təhafətül-fəlasifə", "Məqasidül-fəlasifə", "əl-münkizü minəddəlal", "əl-fətəva", "Xülasatüt təsnif fit-təsəvvüf", "İlcamül-əvam".

Bunlar içərisində xüsusilə bu gün də məşhur olan 4 əsərini qısaca təhlil edək:

a. "İhyau-ülumiddin": İmam Qəzalinin məşhur əsərlərinin içərisində xüsusilə "İhyau-ülumiddin" adlı kitabı İslam dinin həm əməli, həm də əxlaqi ölçülərinin həqiqətini əks etdirməsi baxımından olduqca əhəmiyyətlidir. "İhyau-ülumiddin" kəlam, fiqh, təsəvvüf, hədis və az da olsa təfsir elmlərini birlikdə əhatə edən həqiqətən müstəsna bir əsərdir.

Qəzali həyatı boyunca öyrəndiyi elmləri bir sistem halına çevirmişdir. Daha doğrusu "İhyau-ülumiddin" kitabı İslami həyatın bir sistem halına gətirilməsi və bunun kitablaşdırılması hadisəsidir. Qəzali bu kitabda Quranı, hədisi, təfsiri, bir sözlə bütün İslami elmləri həyatın müxtəlif məsələlərində necə istifadə edəcəyimizi həm dini, həm də dünyəvi olaraq oxucuya ustalıqla təqdim etmişdir.

Kitab 4 əsas bölümdən meydana gəlir. Birinci bölümdə elmin nə olduğu, fərz olan elmlərin hansılar olduğu kimi mühüm məsələlər yer alır. Bu səbəblə çox əhəmiyyətli bir bölümdür. Öyrənilməsi fərzi-ayn olan elmlər insanları əbədi səadətə aparacaq olan elmləridir.



b. "əl-Münkizü minəd-Dəlal": Qəzali bu kitabında öz hiss dünyasında yaşadığı eniş-yoxuşları izah etmişdir. Nə üçün təhsil aldığını, öyrəndiyi elmlərin kafi olub olmadığını, Allahın razılığının öz həyatının harasında olduğunu sorğulayaraq başladığı əziyyət dolu qəlb və fikir səfərini, bu səfərinin müddətini və nəticələrini izah etdiyi bir kitabdır. Qəzali bu kitabda sanki bir həyat metodologiyası öyrədir. "əl-münkizü minəddəlal" adlı əsəri, xüsusi bir şəkildə Qəzalinin elmi həyatını izah edən bir əsərdir. O, bu əsərində biliyə yiyələnmək üçün keçirdiyi mərhələlərdən bəhs edir. Qəzali bütün bu elmləri öyrəndikdən sonra, bunların həqiqəti öyrənmədə kafi olmadığını başa düşür. Beləcə o, məşhur mütəsəvvüflərin əsərlərinə yönəlir və onları oxumağa başlayır. Nəhayət bu yola yönəlir. Lakin o mütəsəvvüflərin əsərlərini oxumaqla və ya araşdırmaqla bu elmi əldə edə bilməyəcəyini, çünki bu elmin öyrənməklə deyil, dadmaq və yaşamaqla, yəni hal və sifətləri dəyişdirməklə əldə edildiyini anlayır.

c. "Eyyuhəl-vələd": "Müsəlmanın iyirmi dörd saatı" demək olan bu kitab, ayrıca bir öyüd və nəsihətlər toplusudur. Bu əsər övlad tərbiyəsi və məsuliyyət sahibi bir vətəndaş yetişdirmə baxımından sözün həqiqi mənasında pedoqoji bir kitabdır. Bu kitabda Qəzali ilk növbədə övladlarımızda Allaha hörmət şüuru meydana gətirmək istəyir. Daha sonra ata-ana-

ya itaət, cəmiyyətdə ciddi, doğru sözlü olma, oturuşuna-duruşuna və hərəkətlərinə diqqət yetirmə kimi xüsuslarda əhəmiyyətli nəsihətlər verir. Daha da dərinə enərək kitab oxucuya evlilikdə həyat yoldaşı seçmə, idarəçilərə qarşı hörmət və ehtiram, müzakirə və münazirədə danışıq ədəbləri haqqında da geniş məlumat verir.

"Eyyuhəl-vələd" (Ey oğul) kitabından bəzi hissələri aşağıda təqdim edirik:

**Boş sözdən uzaq dayan**

*Ey oğul!*

-Ağılının qəbul etməyəcəyi şeyi dilinə gətirmə. Lazımsız sözdən, çox gülməkdən, zarafat və lağ-lağı etməkdən, din qardaşınla mübahisə etməkdən çəkin.

- Belə etmək hörməti yox edər, kin və düşmənlik qapılarını açar.

**Vüqarlı ol**

*Ey oğul!*

**-** Vüqarlı, tərbiyəli, hörmətli və nəzakətli olmağa çox diqqət yetir və etina göstər. Ancaq belə edərkən qürura qapılma. Yoxsa səni bu sifətlə yad edərlər.

**-** İnsanları xor görmə. Yoxsa səndən bu sifətlə bəhs edərlər.

**Az söz ilə çox şey izah et**

*Ey oğul!*

Bir məsələni yazarkən gərəksiz söz istifadə etmə. Az sözlə çox şey izah etməyə çalış.

Sonu gəlməyəcək arzuların arxasınca qaçmaq, pozğunluqdur.

Başqasını qınayan və həmişə qüsurları dilə gətirən insanın dostu olmaz.

Din bəzəklərin ən gözəlidir.

Quru səs-küy, boş yerə vaxt xərcləməkdir.

Sərxoşluq insanlıqdan uzaqlaşıb şeytanlaşmaqdır.

Bağlanan bir əhdi pozan şəxs kürəyinə bir kin yükləmiş olar.

Yumşaq söz böyüklərin əxlaqındandır.

**Evlənmək istədiyin qızı yaxşı seç**

*Ey oğul!*

İnsanın xanımı rahatlıq və sükunət qaynağıdır. Bir qızla evlənmək istədiyində ailəsini yaxşıca araşdır və öyrən. Çünki təmiz və alicənab bir ailə şirin meyvələr yetişdirər.

Bilmiş ol ki, qadınlar barmaqlarımız qədər bir-birindən fərqlidirlər.



Ədəbsiz və xaraktersiz qadından çəkin. Onların xarici görünüşlərinə aldanma, belələri ərinə qarşı kobud və tündxasiyyətdir.

Əri ona qarşı hörmət göstərdiyi zaman bunu bir üstünlük bilər. Heç bir yaxşılığa qarşı təşəkkür etməyi bilməz. Aza heç qənaət etməz.

**Dostunu yaxşı seç**

*Ey oğul!*

İki növ dost və sirdaş vardır. Biri, başına bir bəla gəldiyi zaman səni qoruyar; digəri də xoşbəxt və bəxtiyar günlərində sənin dostundur.

Bəla gəlib var-dövlətin əldən getdikdə dostluq üzünü göstərən insanı həqiqi dost və sirdaş bil və onunla olan dostluğunu qorumağa çalış.

Xoşbəxt və bəxtiyar olduğun günlərindəki dosta çox güvənmə. Çətin günlərində dostluq əlaqələrini davam etdirmirsə, onu ən qəddar düşmənin bil.

**Nemətlərə qarşı şükür et**

*Ey oğul!*

Allahın verdiyi nemətə daim şükür et.

Musa (ə.s) minacatında, "Ya Rəbb! Adəm övladına əl, ayaq, göz, qulaq və s. bir çox nemətlər verdin. Adəm övladı bu nemətlərin şükrünü necə edə bilər?" deyə soruşdu.

Allah-Təala ona belə buyurdu:

"Ya Musa! Verdiyim neməti Məndən bilib öz zəhmətinin qarşılığı bilməyən qulum, ona verdiyim nemətin şükrünü əda etmiş olar. Verdiyim nemətləri öz zəhmətinin qarşılığı bilib Məndən bilməyən qulum da nemətin şükrünü əda etməmiş olar. Qula layiq olan gecə və gündüz Mənə həmd etməkdir."



**Aşağıdakı xislətlərə sahib olan qadından uzaq ol**

*Ey oğul!*

Xasiyyəti pis və xaraktersiz qadından uzaq ol. Çünki belə qadının dili ərinə çirkin və ağır təsir bağışlayır. Onun dünyaya uşaq gətirməsi üzündəki həya pərdəsini açmışdır. Artıq nə ailə üzvlərindən, nə də qohum-qonşusundan utanır.

Belə qadınlar nə dünyada faydalı olar, nə də axirətdə. Bunlar ülfət və söhbət edilməyə layiq deyildir.

Belələrinin gizli halı olmaz. Ailə sirrini aləmə yayarlar. Yaxşılıq və xeyirxahlığı çoxdan unutmuşlar.

Səhərlər sifətlərini turşudarlar, axşamlar harada olduqları məlum olmaz.

Onun təqdim etdiyi bir qurtum su şərdir, zəhərdir. Yeməyi hirs, danışığı yalandır. Evi pərişan, paltarı çirk və pasdır. İlan kimi sancar, əqrəb kimi dişləyər.

Əri bəli desə, o, xeyr deyər. Belə qadınlardan uzaq ol.

Qadınların bir qismi də kəm ağıl və kobuddur. Dar düşüncəlidir. Ərini sevər, qazancına razı olar, lakin günəş doğulub yüksəldiyi halda hələ səsi eşidilməz. Yeməkləri bayat, qabları çirkli və paslıdır.

**Aşağıdakı xislətlərə sahib olan qadınla da həyatını qur**

Ey oğul

Qadınların bir qismi də sevimli və mərhəmətlidir. Bərəkətli və feyizlidir. Dünyaya soylu övlad gətirər.

Ona hər vaxt etimad göstərilir. Qonşuları arasında da etibarlıdır.

Ailə sirlərini qoruyar, kimsənin yanında açmaz.

Comərddir, əliaçıqdır. Qışqırıb-bağırmaz, alçaq səslə danışar.



Evi tərtəmizdir. Uşaqları çiçək kimi, könül alıcıdır. Xeyiri davamlıdır. Əri də o nisbətdə yaxşı xasiyyətlidir.

Namus onun şüarı, tərbiyə isə dəyişməz xüsusiyyətidir.

d. "Kimyayi-səadət": İmam Qəzalinin qələmə aldığı ən son kitablarındandır. Əslində bu kitabı "İhyau-ülumiddin" kitabının bir xülasəsi adlandırmaq olar. İnsanın bu dünyada yaşamasının əsl məqsədini geniş mənada izah edir. Dünya və axirət tarazlığının qorunmasını, insanın öz nəfsini tanımasını, qəlbin dəyişik hallarını izah edir. İnsanın gerçək xoşbəxtlik və səadəti tapması üçün lazımlı mövzuları ətraflı şəkildə ehtiva edən bu əsərdən də bir bölümü aşağıda təqdim edirik:

**Dünya həyatının insanları ovsunlayıb aldatması haqqında bəzi misallar:**

Birinci misal: Dünyanın birinci hiyləsi belədir: Özünü sənə davamlı qalacaq şəkildə göstərər. Halbuki o, hərəkət edər və davamlı səndən qaçar. Lakin tədricən (az-az) və çox yavaş hərəkət edər. Dünya, baxdığın zaman hərəkətsiz görünən və la-

kin daim hərəkət edən bir kölgəyə bənzər. Bilərsən ki, ömürün davamlı gedir və tədrici olaraq hər an bir az daha azalır, məhz o, dünyadır; səndən qaçır, sənə vida edir (səndən ayrılır), sən isə bunu anlamırsan!

Başqa bir misal: Hiylələrindən biri də, özünü sənin əmrinə verirmiş kimi göstərərək səni özünə aşiq etməsi, səninlə qalacağını, başqa kimsəyə aid olmayacağını eyham etməsidir. Halbuki sonra birdən sənə düşmən kəsilər. Bu, kişiləri aldadıb, özünə aşiq edən, sonra evinə aparıb öldürən, zəhərləyən zalım dul bir qadına bənzəyir.

İsa (əleyhissalam) dünyanı qoca bir qadın şəklində görüb soruşdu: "Neçə ərin var?" Dünya: "O qədər çoxdur ki, saya bilmərəm», -dedi. "Onlar öldülərmi, yoxsa səni boşadılar?" deyə soruşdu. "Xeyr! Hamısını mən öldürdüm", -dedi. İsa (əleyhissalam) belə dedi: "Bu axmaqların halına təcəccüb edirəm. Digərlərinin aqibətini görürlər, ancaq yenə səni istəyirlər, heç ibrət götürmürlərmi?"

Digər bir misal: Dünyanın hiylələrindən biri də, zahirini bəzəyib, bəla və müsibətləri örtməsi, üzünə baxan cahilləri aldatmasıdır. Çirkin üzünü örtən, ipəkli və bəzəkli paltarlar geyən qoca bir qadına bənzəyir. Uzaqdan görənlər ona aşiq olarlar. Lakin üzündən örtünü qaldırınca peşman olar, kədərlənərlər. Onun eybəcərliklərini görərlər. Hədisi şərifdə buyurulur ki: "Qiyamət günü dünyanı yaşıl gözlü, dişləri tökülmüş qoca, çirkin bir qadın şəklində gətirərlər; İnsanlar ona baxınca: Allah qorusun! Bu nədir? Bu ki, iyrənc və çirkindir deyərlər. Onlara deyilir ki: Bu, uğruna bir-birinizi qısqandığınız, bir-birinizə düşmən kəsildiyiniz, qan tökdüyünüz, qohumluq əlaqələrini tərk etdiyiniz və zahirinə aldandığınız dünyadır. Sonra onu cəhənnəmə atarlar. Dünya deyər ki: Ya Rəbbim, məni sevənlər haradadır? Allah-Təala onların da gətirilib cəhənnəmə atılmasını əmr edər."

**Qəzaliyə Görə Fəlsəfə və Ağılın Vəzifəsi**

İmam Qəzalinin fikri qarışıqlıqların həddindən çox olduğu bir dövrdə yaşadığını yuxarıda qeyd etmişdik. Elmi müzakirələrin olduğu bu dövrdə İmam Qəzali İslam filosoflarının kitablarını araşdıraraq onları tənqid etmiş, fəlsəfəçilərin düşüncələrinin nə dərəcədə doğru olduğunu, hansı istiqamətlərinin Qurana uyğun gəldiyini, haralarda Qurana zidd olduqlarını dəlilləriylə ortaya qoymuşdur. İslam filosoflarını tənqid etmək və bu sahədə araşdırma aparmaq üçün Qəzali səbəblərini belə sıralamışdır:

Fəlsəfənin yaxşı və pis tərəfləri vardır. Bunların bilinməsinə ehtiyac var. Filosoflar bəzi fikirlərində həqiqəti bildirmişlər, ancaq bəzilərində yanılmışlar, hətta küfrə düşmüşlər; bunlardan hansılarında təqdir, hansılarında təkfir olunurlar? Bunların dəqiqliklə bilinməsi lazımdır. Bir çox mövzuda görüş bildirən filosoflar, bunlardan hansılarında səhvə yol vermişlər, bidət əhli sayılarlarmı? Bunların da bilinməsi olduqca əhəmiyyətlidir.



Qəzaliyə görə hər hansı bir elmdə, o elmin mövzularını ən yaxşı dərəcədə bilən bir şəxsin səviyyəsinə gəlməmiş və onun elmindən üstün dərəcədə haqqında danışılan elmə vəqf ola bilməmiş, elmin incəliklərinə nüfuz edə bilməmiş olan bir şəxs, bu elmlərlə əlaqədar səhvləri və əskiklikləri görə bilməz. Fəlsəfə üçün də vəziyyət eynidir. Filosofları tənqid edə bilmək və fəlsəfədəki əskiklikləri və səhvləri görə bilmək üçün, fəlsəfəni ən yaxşı bilən qədər fəlsəfi məsələləri bilmək lazımlıdır. Elə buna görə də Qəzali fəlsəfəni yaxından tədqiq etmişdir.

Qəzali o dövrə qədər insanı müxtəlif səhv yollara aparan Yunan mənşəli fəlsəfəyə qarşı yeni bir dünyagörüşü ortaya qoydu. Yunan fəlsəfəsinin səbəb olduğu düşüncə tərzini İslam aləminin paklığının pozulması və zehini azadlığının ortadan qaldırılması olaraq görür və filosofları tənqid edərkən, Yunan fəlsəfəsi qarşısında təqlidçi, təslimiyyətçi və passiv qaldıqlarını söyləyirdi. Necə ki, Farabi və İbn Sinanı tənqid

edәrkәn onların da tәqlidçi olduğunu vurğulamış, Sokrat, Әflatun vә Aristotel kimi yunanlıları sanki heç sәhv etmәyәn insanlar olaraq hәddindәn artıq yüksәltdiklәrini söylәmişdir. Qәzali "fәlsәfәçilәrin elmin özünü buraxıb qabığı ilә mәşğul olduqlarını ortaya qoyacağam" demiş vә bunu etmişdir.

Qәzali elmlәri ilk növbәdә dini vә dünyәvi olaraq iki qrupa ayırır. Qәzaliyә görә fәlsәfә vә digәr elmlәr sahәsindә ortaya qoyulan biliklәrlә varlıq dünyasını qavramada güclü bir vasitә olan ağıl, açıqlayıcı bir model olaraq istifadә edilә bilәr vә bunun İslami baxımdan heç bir qәbahәti olmadığı kimi, әksinә tәşviq edilmәlidir. Ancaq ilahiyyat sahәsindә ağılın izahdan aciz qaldığı mövzuları, ağlı mütlәq qәbul edәrәk izaha cәhd etmәk doğru deyil. O, belә deyirdi:

*"Şübhә etmәyәn doğrunu görә bilmәz, doğru baxa bilmәyәn bәsirәt sahibi ola bilmәz, bәsirәt sahibi ola bilmәyәn dә zülmәtdә vә pozğunluqda qalar. Tәbiәt elmlәrindәn әldә edilәn mәlumatları din adına tәnqid etmәyi vәzifә sayan insan, әslindә dinә qarşı cinayәt törәtmiş vә dinә zәrәr vermişdir. Dinsizlәri әn çox sevindirәn şey, fәnn elmlәrinә din adına qarşı çıxılması vә bu mövzuların dinә zidd olduğunun deyilmәsidir. Çünki dini çürütmәnin әn asan yolu budur."*



### Qәzali Araşdırmanı Bu Sözlәriylә Tәşviq Edirdi:

*"İnsan oğlu kiçik bir alәm olması baxımından kainatın sanki mündәricatıdır. Onun bәdәn quruluşu yalnız hәkim olmaq istәyәnlәr tәrәfindәn deyil, Allahı daha yaxşı bilmә, yәni mәrifәtә çatmaq istәyәnlәr tәrәfindәn dә tәdqiq edilmәlidir. Ağılın funksiyası peyğәmbәrlik vә vәhy işığıyla bizә çatan mәlumatın sәviyyәsinin fәrqliliyini anlaya bilmәyimiz üçün yol göstәrmәk, peyğәmbәrlik gözüylә idrak olunan mәlumatı (duyğu orqanlarımızın mәlumatları vә mәntiqlә) tamamilә әhatә etmәyә müqtәdir olmadığımızı (yenә müşahidә, tәcrübә vә mәntiq vasitәsiylә) bizә dәrk etdirmәk, әlimizdәn tutaraq korları bәlәdçilәrinә, aciz xәstәlәri müşfiq hәkimlәrinә çatdıran әmin bir bәlәdçi kimi bizi peyğәmbәrlik mәrtәbәsinә tәslim etmәkdir.*

*Mәhz ağılın vәzifәsi budur..."*

**2. Elmdən Mənəviyyata Qəzalinin Əziyyətli Səfəri**

Qəzalinin elmə olan marağı hadisələrin həqiqətini anlamağa qarşı olan istəyi onu elm, din və fikri axınları araşdırmağa vadar etdi. Qəzali həqiqəti tapmaq istəyənlərin 4 qismə ayrıldığını və hər birinin həqiqəti öz yolunda axtardığını gördü. Bunlar; Fəlsəfəçilər, Kəlamçılar, Sufilər, Batinilərdir. Hamısının fikirlərini araşdıraraq bunlardan üçü olan; Kəlam, Fəlsəfə və Batinilik yolunu kitablarında ətraflı izah edərək tənqid etdi. Bu üç qrupun onu doğru yola apara bilməyəcəyinin qənaətinə vardı və sufilərin yolu olan təsəvvüfə yönələrək həqiqəti bu yolda axtardı. Qəzali bu keçirdiyi müddəti "əl-münkizü minəddəlal" adlı kitabında belə bildirir:

*Gəncliyimdən etibarən 50 yaşımı haqladığım bu günə gələnə qədər əngin dənizlərin dərinliklərinə dalmaqdan heç geri durmadım. Coşqulu dənizlərə utancaq qorxaqlar kimi deyil, cəsur insanların dalışı kimi daldım, gördüyüm hər məsələnin üzərinə atladım. Hər çətinliyin içinə tərəddüdsüz girdim. Hər təriqətin inanc və fikirlərini araşdırır, hər qrupun tutduğu yolun incəliklərini ortaya çıxarmağa çalışırdım. Araşdırdığım təriqətlərin haqq və ya batil, sünnəyə uyğun və ya bidət sahibi olmaları mövzusunda ayrı-seçkilik etmirdim. Batinilik yolunu tutmuş hər təriqətin bu düşüncəylə nəyə nail olmaq istədiklərini öyrənməyə çalışdım. Zahirilik yolunu tutmuş olanların, bununla nələr əldə etdiklərini ortaya çıxarmağa cəhd göstərdim. Fəlsəfə yolunu tutanların sahib olduqları fəlsəfəni bütün əsaslarıyla öyrənməyə diqqət göstərdim. Heç bir kəlam alimini nəzərdən qaçırmadan kəlamdakı üsulunu və mübarizəsini öyrənməyə səy göstərdim. Bütün gücümlə nə qədər sufi varsa, onun sufiliyindəki sirləri öyrənməyə, nə qədər abid varsa, bu ibadətləriylə nələr qazandığını araşdırmağa çalışdım. Bütün zındıqların, Allahın varlığını və sifətlərini qəbul etməyənlərin, bu inanca və ya inkarlarının arxasında yatan səbəbləri diqqətlə araşdırdım. Hər şeyin həqiqətini öyrənməyə qarşı olan hədsiz marağım; başdan və gəncliyimdən bəri tutduğum yol və mənim bir xüsusiyyətim olmuşdur. Bu xüsusiyyətlər Allah tərəfindən mənim yaradılışıma və xəmirimə qatılmış xüsusiyyətlərdir; mənim seçimim deyil. Bunun nəticəsində uşaqlığımın coşqulu çağlarından etibarən təqlid bağlarından sıyrıldım və bö-*

*yüklərimizdən miras qalan sırf təqlidə söykənən inanc əsaslarından uzaq durdum. Çünki xristian uşaqlarının hamısı bu din üzrə yetişdiklərini, yəhudi uşaqlarının davamlı bu dinin əsaslarına görə böyüdüklərini, müsəlman uşaqlarında istisnasız İslam dini üzrə yetişməkdə olduqlarını görürdüm. Yaradılışdan gələn əsl həqiqəti və valideyn və müəllimlər vasitəsilə qazanılan sonrakı inanc əsasları və təqlid ünsürlərinin həqiqətini öyrənmə mövzusunda içimdə böyük bir istək meydana gəldi. Təqlid başlanğıcda bəzi təlqinlərə əsaslanırdı. Bunların da hansılarının haqq və batil olduğu mövzusunda fikir ayrılıqları mövcud idi. Öz-özümə belə dedim: Mənim istədiyim, hər şeyin gerçək üzünü öyrənməkdir. Elə isə əvvəl məlumatın gerçək üzünün nə olduğunu öyrənməklə işə başlamaq lazımdır.*

Qəzali Nizamülmülkün elmi və hüquqi işlərində müşaviri və Nizamıya Mədrəsəsinin baş müəllimi ikən, dünya arzularının cazibəsi ilə axirət düşüncələri arasında qərarsızlıq içində qaldı. Bu, bir nəfs mühasibəsi və bir növ özünütənqid idi. Bu vaxt bədəni olduqca zəifləmişdi. Həkimlər bunun fiziki bir xəstəlik olmadığını söyləmişdilər. Bildikləri və öyrəndikləri haqda dərin bir şübhə, vəsvəsə və "yes" halına düşdü. Bu halını Qəzali öz kitabında belə izah edir: *"Sonra öz halımı nəzərdən keçirdim. Bir də nə görsəm yaxşıdır? Dünyəvi məşğələlər içinə dalmışam. Onlar məni hər tərəfdən qucaqlamışlar. İşlərimi gözümün önünə gətirdim. Ən gözəli təhsil və tədris idi. Lakin bunlar arasında da axirət yolu üçün əhəmiyyətsiz və faydasızlarla məşğul olmuşam. Sonra təhsillə əlaqədar niyyətimi düşündüm. Baxdım ki, Allah rizası üçün deyil, mövqe və şöhrət xətrinə hərəkət etmişəm. Heç olmasa, bu, mənə rahatlıq verirdi, xoşuma gəlirdi. Yəni ixlas və Allah rizası düşüncəsi ya heç xatirimə gəlmirdi, ya da ikinci planda idi. Uçurumun kənarında olduğumun fərqinə vardım..."*

Dərslər verən, söhbətlər təşkil edən, kitablar yazan və öz dövrünün ən məşhur alimi olan Qəzali gerçəkdə əsl məqsədinə qarşı laqeydlikmi edirdi? Bəlkə də şöhrət onu kor etmişdi. Halbuki əsl məqsəd insan oğlunun əbədi qalacağı axirət həyatını qazanmaq deyildimi? Axirətdə əbədi xoşbəxtliyi və səadəti qazanmaq, Allahın lütflərinə nail olmaq üçün bu dünyada məşğul olduğu işlər və etdiyi əməllər nə dərəcədə ki-

fayət edirdi? Halbuki dinin özü ixlas və səmimiyyət idi. Hər nə etsək də sırf Allahın razılığı üçün etməyimiz lazım idi. Məhz bu düşüncələr Qəzalinin həyatının axışını əsaslı şəkildə dəyişdirmiş, bütün həyatını yenidən götür-qoy etməyə gətirib çıxarmışdır.

**Qəzali və Təsəvvüf**

Qəzalinin təsəvvüfü sevməsi və ona meyil etməsi Nişaburdakı təhsili əsnasında Əbu Əli əl-Farmedi həzrətlərindən dərs almasına bağlıdır. Əbu Əli əl-Farmedi həzrətləri Tus və Nişabur sufilərinin məşhurlarından və  böyük sufi Quşeyrinin tələbələrindəndir. Bu səbəblə Qəzalini təsəvvüf sahəsinə yönəldən şəxsin əl-Farmedi olduğu qeyd edilir. Özünün də, "Şeyx Əbu Əli əl-Farmedidən eşitdim" deməsi, bu şəxslə görüşüb ondan müəyyən məlumatlar öyrəndiyini göstərir. Bununla birlikdə onun bu dövrdə təsəvvüfə qarşı olan marağı Farmedi ilə görüşməsiylə məhdud qalmış, Farmedinin 477-ci ildə (1084) vəfatından sonra Qəzali kəlam və fəlsəfə kimi sahələrlə məşğul olmağa davam etmişdir. Qəzali Quşeyrinin ər-Risaləsi haqqında məlumat əldə etmiş və ehtimal ki, bu əsəri oxumuşdu. Ayrıca böyük sufi Haris əl-Muhasibinin "ər-Riayə li-Huquqilləh" və digər əsərləriylə Əbu Talib əl-Məkkinin Qutul-qulub, Cüneydi Bağdadi, Əbu Bəkir əş-Şibli, Bəyazidi Bistami kimi təsəvvüf böyüklərindən gələn mirası da tədqiq etdi və beləcə əldə edilməsi mümkün olan bütün məlumatları qazanaraq məşhur mutəsəvvüflərin nəzəri mahiyyətdəki görüş və düşüncələrinin əksəriyyətinə vəqif oldu. Bu təcrübə sayəsində təsəvvüfün ən gizli və dərin nöqtələrinə vaqif olmağın nəzəri təhsillə deyil, zövq və hal ilə, sifətləri dəyişdirməklə mümkün olacağı qənaətinə gəldi.

Müəllimlik etdiyi son illərdə Qəzali özünü sorğulamağa başlamışdır. Axirətdən çox dünya işləri ilə məşğul olduğunu, Allahın rizasına çatdırmayacaq elmləri tədris etdiyini düşünərək mənəvi sancıları daha da artmışdır. Hətta vəzifə və şöhrət arzusunun Allahın rizasına qovuşma arzusundan da-

ha irәli olduğuna inanmış, bu sәbәblә dә psixoloji cәhәtdәn sarsılmışdır. Dәrs keçmәkdә çәtinlik çәkir, taqәtdәn düşürdü. Tәbiblәr bir müddәt tәtbiq etdiklәri müalicәnin nәticә vermәdiyini görüb xәstәliyin psixoloji sәbәblәrdәn qaynaqlandığı, müalicәsinin dә o yolla olmasının vacibliyini bildirdilәr.

Nәhayәt duası qәbul edilәrәk könlünün vәzifә, var-dövlәt, övlad vә dostlardan ayrılmağa razılaşması ilә Bağdadla olan bütün әlaqәlәrini kәsmәk qәrarına gәldi. Ailәsinә çatacaq miqdardan çox olan bütün malını möhtaclara payladı. Әslindә Şam (Suriya-Fәlәstin) bölgәsinә getmәk üzrә hazırlıq etdiyi halda, xәlifәnin vә digәr dostlarının aralarından ayrılmasına razı olmayacaqlarını düşünәrәk gerçәk niyyәtini bürüzә vermәdi. Buna görә dә Mәkkәyә gedәcәyini açıqladı. Mәdrәsәdәki vәzifәsini qardaşı Әhmәd әl-Qәzaliyә verәrәk 488-ci ilin Zilqәdә ayında (Noyabr, 1095) Bağdaddan ayrıldı. İraqdan kәnarda yaşayan müsәlmanlar bu hadisәdәn rәhbәrliyin xәbәri olduğunu tәxmin edәrkәn, rәhbәrliyә yaxın olanlar da "әhli İslama vә alimlәr zümrәsinә nәzәr dәymiş ola bilәcәyini" düşünürdü.

Belәliklә Qәzalinin 11 il davam edәcәk üzlәt hәyatı başlamış oldu. Bağdaddan ayrılıb Şama getdi. Orada bir müddәt iqamәt edib Şam Әmәvi mәscidinin içi boş bir otaq kimi olan minarәlәrindә qaldı. Çox az sayda bir qrupa dәrs verdi. Gecәlәr mәscidin dәstamazxanalarını vә tualetlәrini tәmizlәdi. Tarixçi İbn Әsir onun 1095-ci ildә Şama getdiyini, Qüdsü ziyarәt etdiyini, 1096-cı ildә hәcc vәzifәsini yerinә yetirdikdәn sonra Bağdada, oradan da Xorasana qayıtdığını qeyd edir.

Qәzalinin inziva dövründә yazdığı әsәrlәr haqqında daha geniş mәlumat var. *Әn mәşhur әsәri olan "İhyau-ülumiddin" kitabını bu dövrdә yazmışdır. Yuxarıda qeyd edilәn Batiniliklә әlaqәdar әsәrlәrlә yanaşı "әl-Maqsadül-әsma fi şәrhi әsmaillahil-hüsna", "Bidayәtül-hidayә", "әl-Vәciz", "Cәvahirül-Quran", "әl-Әrbain fi usuliddin", "әl-Mәdnun bih alә ğayri әhlih", "әl-Mәdnunus-sağir", "Faysalüt-tәfriqә", "әl-Qanunul-külli fit-tәvil*

*(Qanunut-təvil)", "Kimyayi-səadət", "Əyyuhəl-vələd" də bu dövrdə qələmə aldığı əsərlərdəndir.*

İmam Qəzalinin bu üzlət halını davam etdirməsi mümkün idi, hər kəsdən uzaq yaşamağa davam edə bilərdi. Ömürünün geri qalan hissəsini mənəvi ləzzət içində, tək-tənha yaşaması ona daha xoş gələ bilərdi. Ancaq Allah-Təala ondan daha böyük xidmət istəyirdi. Bu baxımdan onun uzlətdən çıxıb təlim-tədris həyatına atılması, insan yetişdirməyə yönəlməsi, ortaya bir çox əsərlər, kitablar qoyaraq insanlara faydalı olması lazım idi. Və müsəlmanlar elmindən istifadə etsinlər deyə ictimai həyata dönməsi tələb edilirdi. Qəzali 1106-cı ilin iyul ayında Nişabura qayıtdı və buradakı Nizamiyyə Mədrəsəsində yenidən müəllimlik vəzifəsini davam etdirdi. Qəzali *"Əvvəllər vəzifə, şan-şöhrət qazandıran elmi öyrədirdim...; indi isə tələbələrimi vəzifəni, şan-şöhrəti tərk etdirən elmə çağırıram"* şəklindəki sözləri ilə inzivaya çəkildikdən sonrakı halını dilə gətirir.



Qəzali sufilərin söz ustaları deyil, hal əhli olduqlarını qeyd edir. Bu yolun, yəni təsəvvüf yolunun ən əhəmiyyətli xüsusiyyəti elmlə öyrənilmir, dadaraq və yaşayaraq anlaşılır, deyir Qəzali.

Beləliklə, sanki yeni bir Qəzali ortaya çıxmışdı. Keçmişdə təsəvvüfdən məhrum, şöhrətiylə ad qazanmış bir həyat tərzi vardısa, indi şöhrətin bir fəlakət ola biləcəyini dərk edərək nəfs tərbiyəsi yolu olan təsəvvüfə könül vermiş bir həyat tərzi vardı. Məhz bu iki dəqiq xətt İmam Qəzali həzrətlərinin həyatının xronologiyasını öyrənməklə yanaşı, Allaha yaxınlaşması yolunda tutduğu yol ilə bizə mühüm bir ibrət və dərs verir.

**Son Günləri və Ölümü**

İmam Qəzali həyatının geri qalan hissəsini elmi və dini fəaliyyətlərlə keçirdi. Hələ onda tələbəlik ruhu, elm öyrənmə eşqi vardı. Əvvəllər o, dünyəvi elmlərə və bəzi nəqli elmlərə yönəldiyi qədər hədis elminə yönələ bilməmişdi. İndi artıq bu mərhələdə o əskikliyini tamamlamağı düşündü. Belə ki,

məşhur hədis alimi Hafiz Ömər bin Əbi əl-Həsən əl-Ravasini evində qonaq edərək ondan Səhihi-Buxarı və Müslimdə keçən hədisləri öyrəndi. Bu dərslərdə müvvəffəqiyyət qazandığına dair sənəd aldı. Onun son dövrü daim hədis oxumaqla keçdi.

İbn Asakir deyir ki, onun həyatının son dövrü Hz. Peyğəmbərimizin hədislərini oxumaq, onlar üzərində düşünməklə, hədis alimlərinin yanına oturub İslamın ən mötəbər, ən möhkəm hədis qaynağı və dəlili olan Səhihi-Buxari və Müslimi araşdırmaqla keçdi.

Vəfatından bir il əvvəl h. 504-cü ildə "əl-Mustasfa" adlı kitabını yazdı. Onun bu əsəri fiqh üsulu elmində üç əsas dirəkdən biri sayılır. Alimlər bu əsərə çox əhəmiyyət vermişlər. Bu, onun ən son əsəridir.

İmam Qəzali 1111-ci ilin (h. 505) Cəmaziyələvvəl ayının 14-də, Bazar ertəsi günü əksər hissəsini zikr, ibadət və Qurani-Kərim oxumaqla keçirdiyi gecənin sübh namazı vaxtında dəstəmaz alıb namazını qıldı, sonra yanındakılardan kəfən istədi. Kəfəni öpüb üzünə sürdü, başının üstünə qoydu: "Ey mənim Rəbbim, Malikim! Əmrin başım-gözüm üstə olsun!" -dedi. Otağına girdi. Otaqda hər zamankından çox qaldı. Çölə çıxmadı. Bunun üzərinə oradakılardan üç nəfər içəri girincə İmam Qəzali həzrətlərinin kəfənini geyib, üzünü qibləyə dönüb, ruhunu təslim etdiyini gördülər. Baş tərəfində aşağıdakı beytlər yazılı kağız vardı:

*Məni ölü görən və ağlayan dostlarıma*
*Belə söylə, kədərlənən o din qardaşlarıma:*
*"Sanmayın ki, əsla mən ölmüşəm həqiqətən,*
*Vallah, siz də qaçının buna ölüm deməkdən."*
.......
*Mən bir sərçəyəm və bu bədən mənim qəfəsim.*
*Mən uçdum o qəfəsdən, girov qaldı bədənim.*
........
*Mənə rəhmət oxuyun, rəhmət olunasınız.*
*Biz getdik. Bilin ki, sırada siz varsınız.*

*Son sözüm olsun,*
*"Əleykum salam" dostlar.*
*Allah salamatlıq versin, deyəcək başqa nə var?*

## SEYYİD ABDULQADİR GİLANİ ﵀

(d. 1078 / v. 1166)



Abdulqadir Gilani həzrətləri elə böyük övliyalardandır ki, ondan sonrakı bütün övliyalar onun mübarək qəlbindən feyz almışdır. O, hər əsrdə möminlər tərəfindən sevilmişdir. Abdulqadir Gilanidən feyz alan övliyaların sayı çoxdur. Bağdad əhlindən günahkar olan çox insanlar onun qarşısında diz çökərək tövbə etmişlər.

Seyyid Abdulqadir Geylani (q.s) zahir və batin elmlərinin zirvəsi, könlü incilərlə dolu Haqq qəhrəmanı, böyük İslam alimlərindən və övliyanın ən məşhurlarındandır. Əsl adı Muhyiddin, ləqəbi Əbu Muhəmməddir. Qavsul-Əzəm, Qutbi-Rəbbani, Qutbi-Əzəm, Sultanul-Övliya kimi ləqəbləri vardır. Nəsəb etibarilə Hz. Peyğəmbərin (s.ə.s) soyundandır. O, miladi tarixlə 1077, hicri tarixlə 470-ci ildə Xəzər dənizinin cənubunda cənubi Azərbaycanın Gilan qəsəbəsinin Nif kəndində doğulmuşdur. Atası Əbu Saleh bin Musa Hz. Həsənin (r.a) oğlu Həsəni Müsənnanın oğlu Abdullahın soyundandır. Anasının adı Fatimə, ləqəbi Ümmul-Xayr olub Hz. Hüseynin (r.a) soyundandır. Bunun üçün Abdulqadir Gilani həm seyyid, həm də şərifdir.

Abdulqadir Gilani həzrətləri doğulmamışdan əvvəl gələcəkdə böyük zat olacağına dair işarələr görülmüşdü. Atası yuxusunda Hz. Peyğəmbəri (s.ə.s) görmüşdü. Peyğəmbərimiz (s.ə.s) ona: *"Ey Əbu Saleh! Allah bu gecə sənə kamil və dərəcəsi yüksək bir oğlan övladı ehsan etdi. O, mənim oğlum və sevdiyimdir. Övliya arasında dərəcəsi ali olacaq"* buyurdu. O, doğulduqdan

sonra yüksək halları ilə diqqətləri cəlb etdi. Ramazan ayında bütün gün ərzində süd əmməz, iftar olunca əmərdi. Bu halını aşağıdakı beyti ilə dilə gətirir:

*Başlanğıcım beləydi, dillərdə söylənirdi,*
*Beşikdə ikən orucdum, bunu hər kəs bilirdi.*

Abdulqadir Gilani həzrətləri əvvəlcə doğulduğu kənddə elm öyrənməyə başladı. Hələ kiçik yaşlarında Qurani-Kərimi əzbərlədi. 18 yaşında isə anasından icazə alaraq Bağdada gəldi. Buradakı alimlərdən Hədis, Fiqh və Təsəvvüf elmlərini öyrənərək yetişdi. Elm təhsilini tamamladıqdan sonra vəz və dərs verməyə başladı. Müəllimi Əbu Said Mahzuminin mədrəsəsində verdiyi dərs və vəzlərinə gələnlər mədrəsəyə sığmır, küçələrə daşırdı. Bu səbələ Bağdad xalqının yardımı ilə ətrafda olan evlər əlavə edilməklə mədrəsə genişləndirildi. Dərslərinə davam edənlər arasında çox alimlər yetişdi.



Fiqh və hədis elmlərində müctəhidlik səviyyəsinə yüksəldi. Əvvəllər Şafei məzhəbində olsa da Hənbəli məzhəbinin ortadan qalxmaq üzrə olduğunu görərək Hənbəli məzhəbinə keçdi. Beləliklə bu məzhəbi yaydı. Lakin iki məzhəbdə də fitva verirdi. Bir çox şəxslər onun söhbətlərilə yetişdi; beş yüz də artıq yəhudi və xristian onun hüzurunda müsəlman oldu.

Abdulqadir Gilani həzrətləri bir müddət dərs verib insanları irşad etdikdən, haqq və həqiqəti anlatdıqdan sonra dərs və vəz verməyi saxladı. İnzivaya (xəlvət) çəkildi. Sonra səhralara çıxdı. Bağdadın Kərh xarabalıqlarında yaşamağa başladı. Bütün vaxtını ibadət, riyazət və mücahidəylə nəfsinin arzu və istəklərinə qarşı gəlməklə keçirməyə başladı. Buyurur ki: “İraqın səhra və xarabalarında 25 il insanlardan uzaq qaldım. Mənim heç kimdən, heç kimin də məndən xəbəri yox idi. Bəzən uzun müddət yeməzdim və “acam, acam” deyə içimin fəryadını eşidərdim. Bəzən üstümə elə ağırlıq gəlirdi ki, bunlar bir dağın üzərinə qoyulsa, dözməyib parça-parça olardı. Bu zaman “hər çətinliklə bərabər bir asanlıq vardır, şübhəsiz hər çətinliklə bərabər bir asanlıq vardır” İnşirah surəsinin 5 və 6-cı ayələrini oxuyanda üstümdəki ağırlıqlar dağılıb gedərdi.

Şeytanlar müxtəlif qiyafətlərə bürünüb yanıma gəlir, məni yolumdan çevirmək üçün çalışardırlar. Qəlbimdə böyük bir əzm hiss edərdim. İçimdən bir səs "ey Abdulqadir! Onlarla mücadilə et, onlara qalib gələcəksən" deyərdi. Ürəkdən "Lə həvlə və quvvətə ilə billəhil-aliyyil azim" oxuyunca, şeytanların yandığını görürdüm.

Şeytanları başımdan uzaqlaşdırdıqdan sonra dünya və onun göz qamaşdıran nemətləri məni özünə çəkmək istədi. Fəqət Allah-Təala məni onlardan da qorudu. Nəhayət Allah-Təaladan başqa bütün varlıqlardan üz çevirdim. Hər şeyim Allah üçün oldu."

Abdulqadir Gilani həzrətləri nəfsi ilə uzun mücadilədən sonra Bağdada qayıdır. Bağdadın girişində Hz. Xızır (ə.s) qabağına çıxaraq şəhərə girməsinə mane oldu. "Əmr var. Yeddi il Bağdada girə bilməyəcəksən" dedi. Bu səbəblə Bağdadın kənarında yerdən bitən mübah məhsullardan yeyərək yaşadı. Bildirilən vaxt tamam olunca "Ey Abdulqadir! Bağdada gir, artıq azadsan" deyə bir səs eşitdi. Soyuq və yağışlı bir gecədə Bağdada girdi. Birbaşa şeyx Həmmad bin Müslim Dəbbasın dərgahına gəldi və gecəni orada keçirdi. Səhər vaxtı şeyx Həmmad Dəbbas onu görüncə ağlayaraq "Oğlum Abdulqadir! Bu dövlət bu gün bizim, sabah sizin olacaqdır" dedi. Bir müddət Bağdadda qaldıqdan sonra Abdulqadir Gilani həzrətləri fitnə və qarışıqlıqlar olunca yenidən səhralara çıxmaq istədi. Hibə qapısı deyilən yerə gəlincə "Hara gedirsən? Qayıt, hər kəs səndən faydalanacaq" deyə bir səs eşitdi. Bağdada geri qayıdıb şeyx Həmmad Dəbbasın söhbətlərinə iştirak etməyə başladı.

Nəhayət Abdulqadir Gilani (q.s) Bağdadda insanları irşada, Allahın bəyəndiyi yolda olmağa dəvətə və nəsihətə başladı. Qırx il belə davam etdi.

**Vəfatı**

Abdulqadir Gilani həzrətləri vəfat edəcəyi zaman oğullarına buyurdu ki: "Yanımdan uzaqlaşın. Çünki zahirdə sizinlə,

batində isə Allahla bərabərəm. Yanımda sizdən başqaları da vardır. Onlara yer açın və onlara qarşı ədəbli olun" dedi. Oğlu şeyx Abdurrəzzaq nəql edir: "Vəfatı əsanasında əllərini uzadıb və "və aleykum səlam və rahmətullahi və bərakətuh" dedi. Daha sonra "Qüdrət ilə hakim qullarına ölüm ilə qalib olan Allah hər eyib və qüsurdan münəzzəhdir. Lə iləhə illəllah Muhammədur-rasulullah" dedi. Sonra isə "Allah, Allah, Allah" deyib gözlərini yumdu. Miladi 1165, hicri 562-ci ildə mübarək ruhunu bu şəkildə təslim etdi."

Cənazə namazını oğlu Abdulvəhhab qıldırdı. Cənazə namazına gələn böyük qələbəlik səbəbilə ancaq gecə dəfn edilə bildi. Türbəsi Bağdaddadır. Ziyarət edilməkdə və feyz bərəkətlərinə qovuşulmaqdadır.



Abdulqadir Gilani həzrətlərinin Fütuh əl-Ğeyb (Qeybə dair açıqlamalar), Bəhcətul-Əsrar (Sirlərin açılması sevinci), əl-Fünyə li-Talib Təriq əl-Həqq (Həqiqət yolunu axtaran üçün kifayət edəcək məlumat), Divanul-Əzəm və əl-Fəthur-Rabbani kimi əsərləri vardır.

**Əxlaqı, Mənqibələri və Kəramətləri**

Abdulqadir Gilani həzrətlərinin ağılları donduracaq qədər halları və kəşfləri olmuşdur. O, daim zikedən, təfəkkür sahibi, yumuşaq qəlbli, çöhrəsi təbəssümlü, ruhu incə, əli açıq, elmi ümman, əxlaqı üstün və soyu təmiz bir zatdır. O, ömür sərmayəsini ən gözəl şəkildə yaşayaraq yüksək məqamları qazanmışdır. O, əhli-sünnəyə sahib etiqad, səbir, doğruluq, gözəl əxlaq, səmimiyyət, ixlas və digər üstün xüsusiyyətlərlə Allaha qulluq məqamının üstün nöqtələrinə çatmışdır. Onu anlamaq ancaq onun getdiyi nurlu yolun yolçusu olmaqla, yəni İslamı yaşamaqla mümkündür. O və onun kimi Allah dostlarını sevmək, əxlaqları ilə əxlaqlanmaq səadət tacı və sonsuz qurtuluş çarəsidir.

Abdulqadir Gilani həzrətləri heybətli idi. Az danışar, çox susar, sözləri cəlbedici və açıq-aydın olurdu. Şəxsi üçün hirslənməz, din sahəsində əsla güzəşt etməzdi. Qonaqsız gün ke-

çirməzdi. Zəiflərə yardım edər, fəqirləri doyurdurardı. Bir şey istəyəni boş geri çevirməz, iki paltarı varsa, birini mütləq istəyənə verərdi. Ona qarşı pis davrananları əfv edərdi. Kölələri satın alıb azad edərdi. Günahkarlara yol göstərər və tövbə etmələrinə səbəbkar olardı. Verdiyi sözün üstündə durar, heç kimə qarşı pislik düşünməzdi. Daim anbarında halal pula aldığı buğda olurdu. Xidmətçisi qapısında əlində çörək durar və yoldan keçənlərə belə deyərdi: "Yemək istəyən, çörək istəyən, yatmaq istəyən kimsə yoxdurmu, gəlsin!" Özünə hədiyyə gəlsə, yanındakılara paylayar, bir qismini də özünə ayırardı. Hədiyyə verənə mütləq qarşılıq verərdi. Xidmətçilərinin hər hansı işləri olarsa və ya xəstələnsələr o özü bazara çıxar, Peyğəmbərin (s.ə.s) sünnəsinə uyar, evi üçün lazım olan şeyləri satın alardı. Camaatla birlikdə səfərə çıxsa, öz əli ilə dəyirmanda buğda üyüdər, xəmir yoğurar, çörək bişirər və hamıya paylayardı. Onu ziyarət edənlərə hörmət göstərər, təvazökarlıq edərdi. Çox ət və yağ yeməzdi. Tələbələrinin tövbəsiz vəfat etməməsi üçün daim Allaha dua edərdi. Duası qəbul bir insan idi.

Pir Abdulqadir Gilani həzrətlərinin hər gün fərqli gizli və açıq kəramətləri görünürdü. Buna baxmayaraq hər zaman belə buyurardı: "Xariquladə hadisələr və kəramət ancaq bir xeyir və hikmət üçün göstərilər. Kəramətini gizlətməyən dünyaya meyillidir. Mənə mürid olan və ya mənəvi övladlarımdan olub kəramət dərəcəsinə çatan şəxslər səbəbsiz yerə kəramət göstərsələr üzləri iki dünyada da qara olsun."

❀

Abdulqadir Gilani həzrətləri elmdə çox yüksək mərtəbədə idi. İmam Rəbbani həzrətləri buyurur ki: "Abdulqadir Gilani vəlayəti-Muhammədiyyənin son nöqtəsinə çatmışdır. Bu ümmətdə kəramət ən çox onda görülmüşdür. Bir gün Xızırın (ə.s) qapının qabağından keçməkdə olduğunu görmüş və "Ey İsrail oğlu! Gəl, Hz. Muhammədin (s.ə.s) mübarək sözlərini dinlə" buyurmuşdu."

Abdulqadir Gilani həzrətləri buyurur: "Hicri 521-ci ildə Şəvval ayının 16-sı çərəşənbə axşamı günü, günortadan qabaq Rəsulullah (s.ə.s)-i yuxumda gördüm. *"-Ey oğlum! Nə üçün danışmırsan?"* deyə buyurdu. "-Bağdad fasiqlərinin yanında necə danışa bilərəm?" dedim. "-Ağzını aç!" buyurdu. Ağzımı açdım, yeddi dəfə ağzının suyundan ağzıma sürtdü. Və *"insanlarla danış, onları gözəl hikmət və vəzlərlə Rəbbinin yoluna çağır"* -deyə buyurdu. Günorta namazını qıldım. Yanımda çoxlu insanlar vardı. Yenə nitqim tutuldu, danışa bilmədim. Hz. Əlini (r.a) gördüm. Mənim qarşımdaydı və mənə: "-Ey oğlum! Nə üçün danışmırsan?!" deyirdi. "-Nitqim tutuldu, danışa bilmirəm" dedim. "-Ağzını aç!" buyurdu. Ağzımın içinə mübarək ağzının suyundan altı dəfə sürdü və gözdən itdi. Bundan sonra aydın bir dillə danışmağa başladım."

❁

Pir Abdulqadir Gilani Bağdadda dərs və vəz verməyə başladı. Və mədrəsəsində 33 il tələbə və dərvişlərə dərs öyrətdi. Əllamə ibn Nəccar Cübbai Pirin belə buyurduğunu bildirmişdir: "Bütün əməlləri incələdim, yemək yedirmək və gözəl əxalqdan daha gözəl bir şey tapa bilmədim. Bütün dünya mənə verilsə heç bir ac və kasıb qoymaram, hamısını doyuzduraram. Bu an mənə min qızıl verilsə, bir gecə belə gözlətmədən hamısını sədəqə olaraq paylayaram.

❁

Abdulqadir Gilani həzrətləri körpə vaxtı Ramazan ayında gün boyunca süd əmməzdi. Ramazanı-şərif ayının sonunda havalar buludlu keçmişdi. Camaat Ramazının çıxıb çıxmadığında tərəddüd edirdi. İnsanlar anasına körpənin süd əmib-əmmədiyini soruşdular. Süd əmmədiyini öyrənincə Ramazan ayının hələ çıxmadığını anlayıb oruca davam etdilər.

❁

Bir gün Abdulqadir Gilaniyə; "Bu işə başladığında, bu yola addım atdığında təməli nəyin üzərinə atdığını, hansı əməli əsas alaraq belə yüksək dərəcəyə çatdığını" soruşdular. Belə

cavab verdi: "Təməli sidq və doğruluq üzərinə atdım. Əsla yalan danışmadım. Yalanı kağıza belə yazmadım və heç yalan düşünmədim. İçimlə çölümü eyniləşdirdim. Uşaq ikən niyyətim və məqsədim elm öyrənmək, onunla əməl etmək və öyrəndiklərimə görə yaşamaq idi. Kiçik vaxtlarımdan bir gün, Ərəfə günü torpaq şumlamaq üçün tarlaya getdim və bir öküzün quyruğundan tutub arxasından gedirdim.

Heyvan dilə gəldi və mən dönüb: "Sən bunun üçün yaradılmadın və bununla əmr olunmadın" dedi. Qorxdum, geri qayıtdım. Evimizin damına çıxdım. Gözümə hacılar görükdü, Ərafatda vəqfəyə durmuşdular. Anamdan Allah yolunda, Bağdada gedib saleh zatları və övliyanı ziyarət edib elm öyrənmək üçün icazə istədim. Anam səbəbini soruşdu. Gördüklərimi danışdım. Ağladı və qalxıb atamdan miras qalan səksən qızılın yarısını qardaşıma saxlayıb, yarısını da mənə verib paltarımın qoluna tikdi. Getməyə icazə verib, hər nə olursa olsun, doğruluqdan ayrılmayacağıma dair məndən söz aldı.

Kiçik bir qafilə ilə Bağdada getmək üçün yola çıxdım. Həmədanı keçincə altmış quldur qarşımıza çıxaraq qafiləyə hücum etdilər. Və karvanı soydular. Quldurlardan biri mənim yanıma gəlib: "Ey dərviş! Sənin bir şeyin varmı?" deyə soruşdu. "Qırx qızılım var" dedim. "Haradadır?" dedi. "Qoltuğumun altında tikilidir" dedim. İnanmayaraq getdi və bunun kimi bir neçəsi də yanıma gələrək eyni şeyləri soruşdular və onları ələ saldığımı zənn edərək vəziyyəti başçılarına bildirdilər. Başçıları məni çağırdı. Qafilədən aldıqları malları bölüşdürürdülər. Yanına getdim. "Qızılın varmı?" dedi. "Qırx qızılım var" dedim. Paltarımın qolunun sökülməsini yanındakılara əmr etdi. Söküb qızılları çıxardılar. "Niyə bunu söylədin?" dedilər. "Nə olursa olsun, anam, yalan danışmamağımı tapşırıb. Doğruluqdan ayrılmayacağıma söz vermişəm, verdiyim sözümdə durmalıyam" dedim. Quldurların başçısı ağlamağa başladı və: "Neçə ildir ki, mən, məni yaradan Rəbbimə verdiyim sözü pozuram" dedi. Bu peşimanlığından sonra tövbə edib quldurluğu tərk etdiyini söylədi. Yanındakılar da "İnsanları soymaqda, yol kəsməkdə sən

bizim başçımızdın, indi tövbə etməkdə də başçımız ol" dedilər. Sonra hamısı tövbə etdilər. Karvandan aldıqları malları sahiblərinə geri qaytardılar. İlk dəfə mənim vəsiləmlə tövbə edənlər, bu altmış nəfər oldu."

❁

Abdulqadir Gilani həzrətləri fəlsəfə ilə məşğul olmağı sevməzdi. Fəsləfənin qaynağı ağıldır. Və belə deyərdi: "Filosoflar maddə, həyat, yaradılış, dünya, ruh, aləm, ölüm və sonrası kimi mövzulara ağlına dayanaraq cavab tapmağa çalışırlar. Bunu edərkən tapdığı cavabların Allah-Təala tərəfindən göndərilən dinlərə uyğun gəlib gəlməməsinə baxmaz. Bu səbəblə doğru yoldan ayrılırlar. Fəlsəfədə sonra gələn fəlsəfəçilər əvvəl gələnləri daim tənqid etməklə və ya onların fəlsəfələrini yıxmaqla işə başlayarlar. Ağıl tək başına yol göstərə bilməz. Dinin rəhbərliyinə möhtacdır. Yoxsa yolunu azar. Buna görə də din böyükləri etiqadın pozula biləcəyini bildikləri üçün fəlsəfə ilə məşğul olmağı qadağan etmişdilər.



❁

Şeyx Müzəffət Mənsur deyir ki: "Bir neçə nəfərlə Abdulqadir Gilani həzrətlərinin yanına getmişdik. Əlimdə fəlsəfə ilə əlaqəli kitablar var idi. Bizə nəzər yetirdikdən sonra kitabı görmədən mənə; "Əlindəki o kitab nə pis bir yoldaşdır" dedi. Həmin anda oradan ayrılıb kitabı bir yerə qoymaq və bir daha gəzdirməmək ağlıma gəldi. Kitabı çox sevirdim. İçindəkilərin çoxunu da əzbərləmişdim. Qalxmaq istəyirdim ki, mənə diqqətli şəkildə baxmağa başladı. Həyəcanlanıb qalxa bilmədim. "-Bu kitabı mənə verə bilərsənmi?" buyurdu. Kitabı ona uzatdım. Aldı və açdı. Bir də nə görsəm yaxşıdır? Kitabın səhifələri ağ-appaq olub, heç bir şey yazılı deyil. Bir-bir səhifələrinə baxdıqdan sonra geriyə mənə verdi. "-Bax bu, İbn Darisin Fədailul-Quran (Qurani-Kərimin fəzilətləri) kitabıdır" buyurdu. Baxdım, həqiqətən onun gözəl xətlə yazılmış bir nüsxəsi idi. Mənə; "-Ürəkdən tövbə etmək isyərsənmi?" buyurdu. "-Bəli" dedim. "-Elə isə qalx!" dedi. Qalxdım. Zehnim-

də fəlsəfə ilə əlaqəli bütün öyrəndiklərimi unutdum. Daha əvvəl heç oxumamış kimi oldum.

**Hikmətli Sözləri və Nəsihətləri**

Abdulqadir Gilani həzrətləri buyurur: “Tibb elmi bədənin sağlamlığına aid bilikləri öyrətdiyi kimi, Təsəvvüf elmi də qəlbin və ruhun pis xasiyyətlərdən təmizlənməsini öyrədir. Təsəvvüf yolunda addımlamaqda iki məqsəd vardır: 1) İmanın vicdaniləşməsi, yəni qəlbə yerləşməsi və şübhə verən şeylərlə sarsılmamasıdır. Zikr hər işdə və hər yerdə həmişə Allah-Təalanı xatırlamaq, Onun rizasına uyğun iş görmək deməkdir. 2) Fiqh elmi ilə bildirilən ibadətlərin sevə-sevə yerinə yetirilməsi; və nəfsi-əmmarədən meydana gələn tənbəlliklərin və sıxıntıların aradan götürülməsidir. İbadətlərin asanlıqla sevilərək edilməsi və günah olan işlərdən də nifrət edilərək uzaqlaşılması, ancaq Təsəvvüf elmini öyrənib bu yolda addımlamaqla mümkündür. Təsəvvüfə sarılmaq hər kəsin bilmədiklərini bilmək, qeybdən xəbər vermək, ruhlar və qiymətli yuxular görmək üçün deyildir. Təsəvvüflə qazanılan biliklərə, mərifətə və hallara qovuşmaq üçün əvvəlcə imanı düzəltmək, İslamın əmr və qadağalarını öyrənib onlara uyğun yaşamaq və ibadət etmək lazımdır. Çünki bu üçü edilmədiyi müddətcə qəlbin saflaşması, pis xasiyyətlərdən təmizlənməsi, nəfsin təzkiyəsi və tərbiyə edilməsi mümkün deyildir. Təsəvvüf bilikləri kamil mürşidilər tərəfindən öyrədilir. Kamil mürşid yol göstərən, rəhbərlik edən, yetişmiş və yetişdirə bilən saleh insan deməkdir.

❁

Həqiqi yaşamaq nəfsin arzularını haram və zərərli istəklərini yerinə gətirməməkdir. Allah-Təalaya ən yaxın olan bəndə əxlaqı gözəl, qəlbi təmiz olandır. Ən üstün əməl isə, qəlbin Allahdan başqasına yönəlməməsidir.

❁

Bidət yoluna dönməyin! İtaət edin, müxalif olmayın! Səbir edin, özünüzü günahlardan təmizləyin! Kirlənməyin, Allahın qapısından heç ayrılmayın!

Şükrün əsası nemətin sahibini tanımaq, bunu qəlb ilə etiraf etmək və dil ilə söyləməkdir.

❁

Nəfsinin arxasına düşüb yol göstərən həqiqi alimləri dinləməyən kimsə, həqiqətən nəsibsizdir.

❁

İnsan özünü kəlmeyi-tövhid söyləməyə vərdiş etdirməzsə, ölüm döşəyində ikən kəlmeyi-tövhidi xatırlaması və söyləməsi çətin olar.

❁

Qəlb dünya arzularından birinə bağlı olduğu və dünyanın müvəqqəti ləzzətlərindən birinin arxasına düşüb getdiyi müddətcə axirəti sevmiş olmaz.



❁

Bilin ki, cəhənnəmə girməyin səbəbi küfrdür. Əzabın artırılması qulun dərəcəsinin aşağı olması, günah və çirkin əməllərə görədir. Cənnətə girməyin səbəbi isə, imandır. Cənnət nemətlərinin artırılması və yüksək dərəcələrə qovuşmaq saleh əməllər və gözəl əxlaqladır. Axirətdə olan cürbəcür əzablar Allah-Təalanın cəhənnəmliklər haqqındakı qəzəbi səbəbilə, cənnətdə olan cürbəcür nemətlər və ləzzətlər isə Allah-Təalanın cənnətliklər üçün olan rəhməti səbəbilədir.

❁

İnsanlara rəhbərlik edən şəxsdə bu xasiyyətlər olmasa, o, rəhbərlik edə bilməz:

"Qüsurları örtücü və bağışlayıcı olması,

Mərhəmətli və mülayim olması,

Doğrusözlü və yaxşılıq edən olması,

Yaxşılıqları əmr edib, pisliklərdən çəkindirən olması,

Qonaqpərvər və gecə vaxtı insan yatarkən ibadət edən olması,

Alim və cəsur olması."

Mömin insanlara qarşı üzündən sevincli olduğunu göstərir. Fəqət qəlbi hüznlüdür. Hz. Peyğəmbər (s.ə.s): *"Möminin sevinci üzündədir. Halbuki qəlbi hüznlüdür!"* buyurmuşdur.

Möminin təfəkkürü, düşüncəsi, ağlaması çoxdur, gülməsi isə azdır. Kənardan baxanda dolanışığını təmin etməklə məşğulmuş kimi görünür. Qəlbi isə Rəbbini anmaqla məşğuldur.

❁

Abdulqadir Gilani həzrətləri pis yoldaşlardan uzaq qalmağı tövsiyə edərək belə buyurur: "Pis yoldaşları tərk et! Onlara qəlbində sevgi duyma! Salehləri sev! Yaxının olsa belə, pis yoldaşdan uzaq dur. Uzaq belə olsa yaxşı yoldaşlarla bərabər ol. Kimi sevərsənsə, səninlə onun arasında bir yaxınlıq meydana gələr. Buna görə sevgi duyduğun şəxsin kim olduğuna yaxşı bax.

❁

Ey oğul! Allah-Təalanın kitabının və Rəsulunun (s.ə.s) sünneyi-səniyyəsinin kölgələri altında addımla. Qurtuluşa ancaq belə çata bilərsən.

Ey oğul! Sənin fikrin yemək, içmək, geymək və dünya ləzzətləri olmasın. Bunlar nəfsin və insan təbiətinin istədiyi şeylərdir. Qəlbin düşüncəsi isə, Allah-Təala həzrətləridir. Sənin fikrin Rəbbin və Onun qatında olan nemətlər olmalıdır. Əgər dünyada haram və şübhəliləri tərk edərsənsə, bunun qarşılığında axirətdə ondan daha xeyirlisi verilər. Ömründən sadəcə içində yaşadığın bu günün qaldığını fərz elə və axirət üçün hazırlaş.

❁

Allah-Təaladan dünya və axirətin xeyirlərini istə. "Mən istəyirəm, fəqət Allah-Təala vermir. Mən də bundan sonra istəməyəcəyəm." -demə. Duaya davam et. Əgər istədiyin şey

əzəldə sənin üçün təqdir edilmişdirsə, Allah-Təaladan istədikdən sonra onu sənə göndərər. Əgər istədiyin şey əzəldə sənin üçün təqdir edilməmişdirsə, Allah-Təala səni o şeyə möhtac etməz. Və Allahdan gələnlərə razılıq göstərmə nemətini ehsan edər. Əgər Allah-Təala sənə kasıblıq və xəstəlik təqdir etmişdirsə, sən də Allaha kasıblıq və xəstəlikdən qurtarmaq üçün yalvararsan. O zaman Allah-Təala sənə razı olacağın bir hal verər. Əgər əzəldə sənin üçün Allah tərəfindən borclu olmaq təqdir edilmişdirsə və sən də borcdan qurtulmaq üçün dua edərsənsə, Allah-Təala borclu olduğun adamın könlünə sənə qarşı mülayim davranmaq hissini verər. Hətta borcunu azaltmaq və ya hamısını bağışlmaq halını qismət edər.

❁

Dünyada əsas zamanını axirəti qazanmaq, qalan vaxtını isə dolanışığını təmin etmək üçün sərf elə. Əsl vaxtını dünya üçün ayırma. Sonra dünya işlərinə görə yorular və ibadətlərini istədiyin şəkildə yerinə yetirə bilməzsən. Axirətini dünyaya satmış olarsan. Nəfsinin köləsi olarsan.



❁

Din qardaşının sənə etdiyi nəsihəti qəbul et, ona qarşı gəlmə (müxalifət etmə). Çünki o sənin özündə görmədiyin şeyləri görür. Bunun üçün Rəsuli-Əkrəm (s.ə.s): *"Mömin möminin güzgüsüdür."* buyurmuşdur. Mömin din qardaşına etdiyi nəsihətlərində səmimidir. Onun görmədiyi şeyləri görər, ona yaxşılıqlar və pisliklər arasındakı fərqi göstərər. Ona lehində və əleyhində olan şeyləri anladar.

❁

Tələsmə! Tələsən ya xəta edər və ya xətalı vəziyyətə yaxın olar. Təmkinlə hərəkət edən isə ya o işdə uğur qazanar və ya uğur qazanmağa yaxın olar. Tələsmək şeytandandır. Təmkinli olmaq isə Allah-Təaladandır.

Allah-Təaladan haqqıyla həya edin. Onu unutmayın. Zamanınız ziyan olub gedir. Siz yeyə bilməyəcəyiniz şeyləri toplamaq, otura bilməyəcəyiniz binaları tikməklə məşğulsunuz.

Bunlar sizə Rəbbinizin hüzurunda hesab vermək üçün duracağınızı unutdurar.

❁

Qulun Allah-Təalanın sevib sevməməsində səmimi olması, başına hər hansı bir müsibət gəldiyi zaman ortaya çıxar. Başına bəla və müsibət gəldiyində səbir və təmkin halını qoruya bilirsə, o, həqiqətən Allah-Təalanı sevir.

❁

Allahın rizası üçün edilən səbirlər və təhəmmüllər əsla qarşılıqsız və mükafatsız qalmaz. Allah üçün bir sıxıntı qaşısında səbir edilərsə, illərlə bu səbrin mükafatı görülə bilər. Allah-Təala Qurani-Kərimdə: **"Şübhəsiz Allah səbir edənlərlə bərabərdir"** buyurur. Həyatda olduğunuz müddət ərzində ömrünüzü fürsət bilin. Bir müddətdən sonra həyatın qapısı üzünüzə bağlanacaq, bu dünyadan ayrılacaqsınız. Gücünüz çatdığı qədər xeyirli işlər görməyə çalışın. Tövbə qapısı açıq olarkən və əlinizdə imkan var ikən tövbə edin. Dua etməyə imkanınız varkən, dua edin. Saleh kimsələrlə birlikdə olmağı fürsət bilin.



❁

Qəbirləri ziyarət edin. Saleh kimsələri də ziyarət edin. Xeyirli işlər görün. Əgər belə edərsinizsə, hər işiniz düzələr.

❁

Mömin şəxs kiçik günahlarını da böyük görər. Hz. Peyğəmbər (s.ə.s): *"Mömin şəxs günahını dağ kimi görər və üstünə düşəcəyindən qorxar. Münafiq isə günahını burnunun üstünə qonan və dərhal uçan milçək kimi görər."* buyurmuşdur.

❁

Qəlbində kiməsə dümənlik və ya sevgi duyursansa, onu qabaqca Qurani-Kərimə və sonra hədislərə görə test et. Həmin şəxs onlara görə sevimlidirsə, sən də sev. Pis isə, sən də pis gör. Heç kəsi qovma. Heç kəs üçün ürəyini daraltma. Heç kəsin əleyhinə danışma. Yaxşı xasiyyət odur ki, cəfadan bezib

haqdan üz döndərməyəsən. Bu da bütün işlərin Haqqın bir əmri olduğunu bildikdən sonra başlayar. Sonra isə nəfs kiçik görüləcək.

❁

Allah-Təala üçün halına səbir edən fəqir, şükür edən zəngindən daha dəyərlidir.

❁

Qənaətkar ol! Rəbbinin hökmü barəsində mübahisə və şikayət etmə. Sonra həlak olarsan. Allah-Təaladan qafil olma ki, səni qurtuluşa çatdırsın. Onun dini barəsində nəfsinin istədiyi kimi danışma. Sonra səni alçaldar. Nəfsinə etimad etmə. Onunla bəlaya düşərsən. Heç kimə də zülm etmə!

❁

Ey oğul!

Əvvəlcə öz nəfsinə nəsihət ver, öz nəfsini düzəlt. Sonra isə başqalarına nəsihət ver, başqalarını düzəltməyə çalış. Sənin əvvəlcə öz nəfsinin xüsusiyyətlərini, öz nəfsinin nə vəziyyətdə olduğunu bilmən lazımdır. Özündə islaha möhtac bir hal olduğu müddətcə başqalarını düzəltməyə, başqalarına nəsihət verməyə çalışma. Əgər sənin özündə islah edilməyə möhtac olan bir hal olduğu halda bunu tərk edərək başqalarını islah etməyə çalşarsansa, sənə ar olsun!



Başqalarını necə və hansı şəkildə qurtara biləcəyini bilirsən. Sən özün korsansa, necə başqa birinin əlindən tutub bir yerə apara bilərsən? Gözləri görməyən birinin başqasının əlindən tutaraq bir yerə aparması mümkün olmadığı kimi, öz nəfsini islah etməyən birinin də başqalarını irşad edib Allaha çağırması mümkün deyildir. Ancaq öz gözləri görən şəxs başqalarını bir yerdən digər yerə apara bilər.

Ey oğul!

Sənə təqva gərəkdir. Təqvaya sarıl, müttəqi ol. Sənə şəriət gərəkdir, şəriətin əsaslarına sarıl.

## XACƏ ƏHMƏD YƏSƏVİ ﷺ

(d. 1093 / v. 1166)

Xacə Əhməd Yəsəvi 1106-ci ildə Sayramda anadan olmuş və təxminən 1206-ci ildə Türküstanın Yəs şəhərində vəfat etmişdir. Əhməd Yəsəvi türkdilli dünyada mistik düşüncənin inkişafında çox böyük təsir gücünə malik olan dahi türk şairi və mütəsəvvüfüdür. Yəsəvi demək olar ki, bütün əsərlərini (şeirlərini) türk ləhcəsiylə və çox erkən yaşlardan etibarən yazmağa başlamışdır. O, eyni zamanda populyar mistikanın qurucusu kimi, cox qısa bir vaxtda bütün türkdilli ölkələrdə yayılan Yəsəviyyə təriqətinin də banisi sayılır.



Yəsəvi həmçinin Xacəqan sufiliyinin də nümayəndəsi sayılır. Əhməd Yəsəvi Orta Asya türk ədəbiyyatında yeni bir cığır açmış və dünyanın bir çox ölkəsindəki dindar şairlər üzərində dərin izlər buraxmışdır.

Əhməd Yəsəvi Salman Mümtazın "ürəklərin, könüllərin fatehləri" hesab etdiyi dörd sənətkar söz ustadlarından biridir. Digər üçü isə Seyid İmadəddin Nəsimi, Mir Əlişir Nəvai, Molla Məhəmmədbağır Fizulidir. Bu sənətkarları dünya ədəbiyyatının Qərbdə ən çox oxunan və sevilən korifeyləri ilə müqayisə edən Salman Mümtaz yazır: "Zənni-acizanəmə görə türkdilli bir oymaq, ulus tapılmaz ki, bu dörd böyük dahini tanımaya və şeirlərini də bilməmiş ola. Qərbdə Omirus (Homer), Şekspir və Molyer məşhur olduğu kimi Şərqdə də bunlar məşhurdurlar".

1928-ci ildə çap olunan *"Ədəbiyyatdan iş kitabı"* dərsliyində yazıçı-müəllim Abdulla Şaiq təsəvvüfün türk ellərində yayıl-

masını və türk ədəbiyyatına təsirini aydınlaşdırarkən deyir: "Təkyələrin artması və hökmdarların bu cərəyana qapılması ilə türk aləminin hər torpağında dərvişlər və mürşidlər yetişərək bu məsləki qızğın bir fəaliyyətlə xalq içərisində intişara çalışdılar. Bunun nəticəsi olaraq, Türküstanda Əhməd Yəsəvi, Anadoluda - Şeyx Cəlaləddin Rumi, Yunus Əmrə, Azərbaycanda - Həsənoğlu, Həbibi, Nəsimi və Xətai kimi böyük sufi şairləri yetişdi".

Bütün Türk dünyasında böyük şeyx, ilahi eşq fədaisi və yeni təriqət banisi kimi sevilən, adına və təliminə pərəstiş edilən Xoca Əhməd Yəsəvi bəşər sivilizasiyasının, mənəvi təkamülün inkişafını sürətləndirən nadir fikir dühası, qüdrət sahibidir. Müsəlman sufizminin qədim türk mədəniyyətinə sintez yolu ilə zənginləşdirilməsi, daha doğrusu, ilk müsəlman türk təriqətinin təsisi birbaşa onun adı və fəaliyyəti ilə bağlıdır.



Sədaqətli aşiq, müqəddəs eşq yolçusu olan Əhməd Yəsəvi eyni zamanda ürəklər fəth edən məşuqdur. O, dəlicəsinə sevir və səkkiz yüz ildən artıqdır ki, dəlicəsinə sevilir. Bu sevginin nəticəsidir ki, Xocanın mənəvi həyatı hələ də davam edir, əməlləri haqqında əfsanələr, rəvayətlər yaradılır.

Türklərin İslamlaşmasında Əhməd Yəsəvinin rolu danılmazdır. O, bu işdə sanki bir peyğəmbəri misyonla qızğın səy göstərmişdir. Yəsəvi həm fars, həm də ərəb dilini ən az türk dili qədər dərindən və səlis bilirdi. Ancaq o, bəzi çağdaşlarından fərqli olaraq yenə də ana dilində yazmağı seçmişdir. Çünki bütün misyon sahibləri içində olduqları qövmün, insanların dilində və fəsih bir dillə danışmağa üstünlük verirlər. O, sadəcə bir şair deyildi, eyni zamanda nəbəvi misyonla göndərilmiş bir Allah dostu idi. Ona görə din sadəcə intellektual tutarlılıq, mədəni dəyər və ictimai faktor deyildi, eyni zamanda insanın ontoloji dəyərini də yüksəldən əxlaqi bir zərurət idi.

Bundan əlavə qeyd etmək lazımdır ki, Yəsəvinin doğulub yaşadığı mühit türklərin at oynatdığı bir dövrə təsadüf edir. Türklər İslam dinindən əvvəl də təktanrılı bir inanca sahib idilər. Türklərin İslamdan öncəki dini etiqad və davranışlarına

nəzər saldıqda aydın olur ki, İslamdakı sadəlik və anlaşılırlıq türklərə çox cazibəli gəlmişdir. Çünki o dövrə xas olan dinlərin bir çoxunda olan mürəkkəblilik və ziddiyyət İslamda yox idi. Ancaq İslamdakı doktrinar ehkamları qəbul etməkdə çətinlik çəkirdilər. Çünki türklər at üstündə yaşayan və qadınların da kişilərlə eyni ailə sistemi içərisində toplu olaraq yaşadığı bir qəbilə sisteminə sahib idilər. Məhz buna görədir ki, İslamın fiqhi sistemi yox, məhz mistik-təsəvvüfi vəchi türklər arasında rəğbət gördü. Bununla da İslamın birləşdirici, tolerantlı və sevdirici xüsusiyyətləri ilk plana çıxmağa başladı.

Xacə Əhməd Yəsəvi Hz. Peyğəmbərin sünnəsinə dərindən bağlı olmuşdur. Buna görə də, Hz. Məhəmmədin vəfat etdiyi 63 yaşa çatdıqda "artıq yer üzündə olmamaq vaxtıdır" deyir və yer altında özü üçün kiçik bir hücrə tikdirir. Ömrünün geri qalanını burada yaşayaraq, bu hücrədə ibadət və təfəkkür içində keçirmişdir[1].

Yəsəvi, öz gününü üç qismə bölmüşdür. Günün çox vaxtını ibadət və zikrlə məşğul olur, bir bölümündə tələbələrinə dərs verir, qalan hissəsində də, özünün və tələbələrinin dolanışığını təmin etmek üçün taxtadan qaşıqlar düzəldərək satardı.

Əhməd Yəsəvini sevdirən və mənimsənməsinə səbəb olan digər bir məsələ, Yəsəvinin türk dilində ilahilər və şeirlər oxuması idi. Çünki türklər üçün İslamdan əvvəl alplar və



1. Bir başqa rəvayətə görə Hz. Məhəmməd (ə.s) 63 yaşına çatanda öləcəyini bildiyi vaxt səhabələrini yanına çağırdı və "Mən ölürəm. Sizdən kim İslamın simvolu olan \`əmanəti\`mi alar və təbliğimi davam etdirər?" dedi. Oradakı izdihamın içərisindən otuz üçüncü dinlə tanış olan ancaq ən sonda İslamı seçən bir nəfərin səsi gəldi. Bu səs 300 yaşında olan Arslan Babın (bəzilərinə görə bu Səlman Farisi idi) səsi idi. Arslan Babın razılığını qəbul edən Hz. Məhəmməd (ə.s) əmanəti ona verir. Üstündən 500 il keçdikdən sonra Arslan Bab Türküstan çöllərində gəzərkən 11 yaşında olan bir uşaqla rastlaşır və uşaq ona deyir: \`Ağsaqqal, mənim əmanətimi verin\`. Bu uşaq Əhməd Yəsəvi idi. Bu səbəblə Əhmət Yəsəvi Türküstanda Hz. Məhəmməddən (ə.s) sonra gəlmiş-keçmiş ən böyük din adamı (övliya) ünvanıyla tanınmışdır.

ozanlar mövcud idi ki, onlar da şeir və ilahi oxuyan müqəddəs şəxslər kimi tanınırdılar.

Alimlər Yəsəvinin ömür yolu haqqında söhbət açarkən tarixi sənədlərlə bərabər bəzi rəvayətlərə də söykənmişlər. Mənbələrdə qeyd edildiyinə görə Əhməd Yəsəvi 1103-cü ildə Orta Asiyanın Sayram (bəzi mənbələrə görə Seyraş) şəhərində ruhani ailəsində doğulmuşdur. Atası Şeyx İbrahim dövrünün görkəmli təriqət başçısı, anası Aişə isə məşhur din alimi Şeyx Musanın qızı olmuşdur. Təxminən 6-7 yaşı olanda ata-anasını itirən Əhməd böyük bacısı ilə qalmışdır. Bundan sonra Yəsi şəhərinə köçmüş, ilk təhsilini burada məşhur şeyx Arslan Babadan almışdır. Ustadının vəfatından sonra Buxara, İsfahan, Səmərqənd kimi şəhərlərə gedərək, o dövrün məşhur alimlərindən fiqh (hüquq), hədis elmlərini və şəriəti öyrənmiş, din alimi kimi tanınmışdır. Lakin tezliklə dini elmlərdən uzaqlaşıb təriqət yolunu tutmuş, məşhur sufi alimi Yusif Həmədanidən dərs alaraq təsəvvüf elminə yiyələnmiş və böyük sufi kimi məşhurlaşmışdır.



Yusif Həmədaninin ölümündən sonra Əhməd Yəsəvi bir müddət Buxarada yaşayaraq mürşidinin xəlifəsi olmuş, təxminən 50 yaşlarında Yəsi şəhərinə qayıdıb öz təlimini yaymağa başlamışdır. Bu təlimə görə varlığın əsası və Tanrıya qovuşmağın yeganə yolu eşqdir. Həqiqi iman eşqin məhsuludur; zahidlik və abidlik Allahla "qovuşmasının" - vəhdətə çatmağın yolu deyil:

*Zahid olma, abid olma, aşiq ol sən,*
*Möhnət çəkib eşq yolunda sadiq ol sən,*
*Nəfsi qırıb, dərgahına layiq ol sən,*
*Eşqsizlərin həm canı yox, imanı yox.*

Qüdrətli bir şeyx kimi tanınan və yüzlərlə müridi olan Əhməd Yəsəvi sadə bir həyat yaşamışdır; o, taxta qaşıq düzəldən usta olmuşdur. Rəvayətə görə, Xoca düzəltdiyi qaşıqları heybəyə yığıb öküzün üstünə qoyar, öküzü də bazara ötürərmiş.

Qaşıq almaq istəyənlər heybədən qaşığı götürər, yerinə pulunu qoyarmışlar.

Məhəmməd Peyğəmbəri böyük məhəbbətlə sevən Əhməd Yəsəvi bu məhəbbət və sədaqətin rəmzi olaraq "ömrünün 63-cü baharını yola salandan sonra təkyəsinin qabağında dərin quyu qazdırıb, həyatının qalan hissəsini həmin quyuda oturub Allaha dua etməklə keçirmişdir." Xoca 1167-ci ildə Yəsi şəhərində dünyasını dəyişmiş və bu itki türklər üçün böyük matəmə çevrilmişdir. O, öz təkyəsinin yanında dəfn olunmuş, məzarı üzərində kiçik bir türbə tikilmişdir. XIV əsrdə Əmir Teymur həmin türbəni sökdürərək yerində möhtəşəm bir abidə ucaltmışdır. Bu məqbərənin yerləşdiyi Türküstan şəhəri xalq arasında "kiçik Məkkə" sayılır.

XII əsrdən başlayaraq adı bütün türk ellərində böyük sevgi və hədsiz ehtiramla çəkilən müqəddəs eşq fədaisi, təsəvvüf-irfan aşiqi və kəramət sahibi Xoca Əhməd Yəsəvi həm də qüdrətli bir söz ustadı, şairdir. Elə buna görə Yəsəvi Azərbaycanda ictimai-fəlsəfi düşüncə tədqiqatçıları ilə bərabər, bəlkə onlardan daha çox, söz sənəti araşdırıcılarının diqqətini cəlb etmiş, ədəbiyyatşünas alimlər Xocanın poetik dünyası, bədii irsi və Türkün ədəbiyyat tarixində mövqeyi barəsində müxtəlif fikirlər söyləmişlər. Hələ XX əsrin əvvələrində məşhur şair-filosof Əli bəy Hüseynzadə (1864-1940) özünün *"Türklər kimdir və kimlərdən ibarətdir?"* əsərində Əmir Teymurun "türk mədəniyyətinə etdiyi xidmətləri" xatırladarkən, çox ehtimal ki, bu qüdrətli hökmdarın tikdirdiyi Əhməd Yəsəvi türbəsini də nəzərdə tutmuşdur.

Əhməd Yəsəvi hər şeydən öncə bir eşq şairidir. Əhməd Yəsəvinin *Divani-Hikmətində* 55 şeirində eşq kəlməsi 173 dəfə işlədilmişdir. *Divani-Hikmətdə* heç bir termin bu qədər çox işlədilməmişdir. Ancaq eşq sözü ilə yaxın mənalar ifadə edən "aşiq", "məşuq", "məhəbbət" sözlərini də nəzərə alsaq bu sayı daha da artmış olar. Yəsəvi üçün bu qədər qiymətli olan eşq nə mənaya gəlir? Eşqin dilimizdəki mənası bir şeyi çox istəmək, ona şiddətli dərəcədə bağlı olmaq deməkdir. Bu mənada eşq

kəlməsi sevgi kəlməsindən daha dərin və güclü bir kəlmədir. Dilimizdə məşhur olan bir deyimə görə isə, sevgi almaqdır, eşq isə verməkdir. Termin kimi bir çox mənalarla yanaşı, ilahi mənşəli olan, Allahın bilinməyi istədiyi (arzuladığı, sevdiyi)[2] andan etibarən yaranmış olan və heç bir başqa şeydə olmayan möcüzəvi təsir gücünə malik olan duyğu selinə qapılmaqdır eşq. Bəzən eşqin bəşərimi, yoxsa ilahimi olması gərəkdiyi məsələsi diqqət çəkməsinə baxmayaraq, bəzi mütəsəvvüflər də bəşəri eşqi ilahi eşqin ilk pilləsi olaraq dəyərləndirmişlər. Qəlbdə Allahın işarələrini və rəmzlərini görmək üçün eşq ən zəruri vasitələrdən biridir. Qəlbin açılması, oradakı əsrarın ortaya çıxması üçün eşq və məhəbbət şərtdir. Eşq təsəvvüfdə təkamül mərtəbələrindən ən sonuncu mərhələlərdən biridir. Bu mərhələnin əsas şüarı *"mutu qablə ən təmutu"*, (ölmədən əvvəl ölümü anlamaq) prinsipidir.



Yəsəvinin şeirlərində eşq sözü ilə əlaqəli olaraq, "eşqin yolu", "eşq dərdi", "eşq atəşi", "eşq sirri", "eşq sevdası", "eşq qapısı", "eşq əhli", "eşq bazarı" kimi ifadələr də işlədilmişdir. Yəsəvidəki bu ifadə fərqlilikləri eşqin nə qədər geniş, əhatəli və dərin təsirlərə malik olduğunu və mənalar qazandı(r)ğını göstərir. Bu ifalərdən başlıcalarının qısa açıqlaması belədir:

Eşq atəşi: Yəsəviyə görə eşqin yandırıcı gücü vardır. İnsan ancaq bu atəşdə yandıqdan sonra təkamül mərtəbəsinə çata bilər. Burada Mövlananın *xamdım, yandım, bişdim* sözlərini də xatırlamaq yerinə düşərdi. İslam fiqhində əşyanı maddi murdarlıqlardan təmizləmə vasitələrindən biri də yandırmaqdır. Bu məcazla, insanın mənəvi pisliklərdən təmizlənə bilməsi üçün onun ruhunun Allah eşqiylə yanması gərəkdir. Ancaq bundan sonra insan qəlbi-səlim və əməlisaleh ola bilər. Ancaq bu atəşi təkamül yoluna girmiş salik (sufi) özü bilərək, yaxud da bilməyərək seçmişdir. Eşq atəşi aşiqin nəfsini elə yandırıb

---

2. Qaynaqları ixtlilaflı olmaqla bərabər bir hədisi qüdsiyə görə Allah `gizli bir xəzinə idim, tanınmağı istədim (*ehbebtü*-sevdim, arzuladım) və kainatı (xəlqi) yaratdım. Bu hədisə görə Allahdan varlıq aləminə yönələn ilk şey eşqdir, sevgidir, məhəbbətdir.

yaxır ki, orada sadəcə "Sevgili" (Allah) qalır. Ancaq bundan sonra orada yeni həyat başlayır. Aşiq yenidən doğulur. Bu məqam təsəvvüfdə *"fəna fillah"* (Allahın varlığında yox olmaq) adlanır.

Eşqin yolu: Bu ifadə Yəsəvini şeirlərində 19 dəfə işlədilmişdir. Eşq atəşinə düşən biri eşq yolunda irəliləməyə başlayır. Bu yol, insan qəlbindən başlayan və Allah dərgahına qədər gedən uzun bir yoldur. Yolun məşəqqətləri, çətinlikləri, kələkötürləri vardır. Ancaq xoşbəxt nəticə düşünüldüyündə, bütün bu çətinliklərə dözməyə dəyər. Çünki eşq yolçuluğunun sonunda Məşuq vardır. Bu yolda nəfsə aid olan şeyləri götürmək əbəsdir. Hətta nəfsi tərk etmədən yolun sonuna çatmaq qeyri-mümkündür. Bir sufinin dediyi kimi *Keyfət tariq iləhkə*? (Sənə necə gələ bilərəm?) sualına Allah-Təala *Də nəfsəkə fətəal!* (nəfsini at və gəl!) buyurmuşdur. Yəsəvi də eyni həqiqəti müxtəlif şeirlərində dəfələrlə ifadə etmişdir:

*Şibli kimi aşiq olub səma qılsam*
*Bəyazid kimi gecə-gündüz Kəbəyə varsam*
*Kəbə içinə üzümü sürtüb ağlayıb dursam*
*Bu iş ilə ya Rəbb, Sənə vararammı?*

Eşqin sirri: Divani-Hikmətdə 4 yerdə eşq sirrindən bəhs olunmuşdur. Eşq sirrinə nail olmaq üçün yəqin dərəcəsində bir iman, təqva dərəcəsində qulluq və bütün bəlalara səbir etmək vacibdir. Burada əsas əhəmiyyətli olan məsələ isə, eşq sirrinin avamlara gizli qaldığı, ancaq aşiq olanların onu anlayacağı və beləliklə də ancaq aşiqlərə bəyan oluna biləcəyi məsələsidir. Burada Seyid Nəsiminin başına gələnlərə "ənəl-həqq" anlayışını avama açmasının səbəb olduğunu unutmamaq lazımdır.

Eşq dərdi: Eşq dərdi ifadəsi Divani-Hikmətdə 17 yerdə işlədilmişdir. Eşq atəşinə yaxalanmış eşq yolçusunu eşq dərdi bürüyər. Eşq dərdi içərisində həm hicran, həm də vüsal həsrətini saxlayan bir dərddir. Eşq dərdinə düşənlər onun dərmanını axtarmağa başlarlar. Ancaq bilməzlər ki, onların dərmanı da elə eşqin özü imiş:

*Xacə Əhməd, eşqdən ağır bəla olmaz*
*Mərhəm sürmə, eşq dərdinə dəva olmaz!*
*Gərək deyil eşq dərdinə dəva sormaq*
*Viran edib gedər imiş, dəvası yox!*

Eşq bazarı: Eşq bazarı insanın dünya həyatında ilahi iradəylə bəşəri nəfsin bir-birinə olan münasibətini ifadə etməkdədir. Aşiqlərin eşq bazarında alınan da, satılan da eşqdən başqa şey deyil. Orada dünya malı almaq və satmaq qadağandır. Aşiqlərə dünyanın və dünyəvi olanın uyğun olmadığı kimi, Allahın rizasından başqa bir şey üçün o bazara gələn günah işləmişdir. Dünya bir eşq bazarıdır. Orada dünyəvi mallar satılmaz. Aşiqlik yoluna girənlərə dünya haram qılınmışdır.



Eşqsiz insan: Eşqsiz insan (olan) sözü şeirlərində 14 dəfə işlənmişdir. Yəsəvi aşiqlərin hallarından bəhs edərkən, eşqsiz olanın da Allaha gedən yolda nə qədər əziyət çəkəcəklərini və əslində Allaha çatmayacaqlarını bildirmişdir. Hətta bəzən aşiq olmaqla insan olmağı eyniləşdirmiş, eşqsiz olanı heyvan səviyyəsində təsvir etmişdir:

*Eşqsiz olan insan deyil, bunu anlayın*
*Eşqsiz olan heyvan cinsi, bunu dinləyin!*

Eşq kəlməsinin söz birləşmələriylə işləndiyi digər ifadələr isə bunlardır: eşq işığı, eşq incisi, eşq xəncəri, eşq bəlası, eşq darağacı, eşq yalvarışı. Bunlar Divani-Hikmətdə sadəcə bir dəfə işlədilən kəlmələrdir. Ən az iki dəfə işlədilən digər eşq kəlmələri isə belədir: Haqq eşqi, eşq əhli, eşq dəftəri, eşq şərabı, eşq davası, eşq sevdası, eşq bağı, eşq küpü.

Yuxarıdakı eşq izahlarından başa düşülür ki, eşq aşiqin imtahan və məşəqqətlərə sinə gərməsidir. Sevgilinin sevdiyinə verməyəcəyi heç bir şeyi yoxdur. Beləliklə də sevgisində səmimi olub-olmadığı ortaya çıxmış olar. Məşuq aşiqini sınayar və sevgisinin xalis olub-olmadığını bilmək istəyər. Buna görə də eşq həyatı dərd həyatıdır. Əhməd Yəsəvi bu dərdli həyatı yaşamışdır. Ancaq bu halından gileyli deyil. Əzablara,

cəfalara, bəla və müsibətlərə baxmayaraq. Ancaq bu qədəri belə bəzən kifayət etməz. Sevgili sevənin onun üçün atəşə atılmasını da istəyə bilər. Eşq sevənin qəlbində yanan və Allahdan başqa bütün hər şeyi yandıran atəşdir.

Eşq eyni zamanda dinamik bir əxlaqın da yaradıcısıdır. Ölümə qarşı qələbə çalmağı öyrədir. Sərt olanı mülayim, xəsis olanı cömərd, zalımı həlim, zəngini fəqir edər. Beləliklə də eşq bütün işlərdə öz təsirini göstərir. Eşqin elə təsir gücü vardır ki, o, insanın mənliyindəki nəfsani və şəhəvi olan bütün pis xislətləri ortadan qaldırar.

Buraya qədərki eşq düşüncəsindən yola çıxaraq Yəsəvini sadəcə bir eşq tərənnümçüsü olan şair kimi görmək onu əskik tanımaq mənasına gələr. O, həm də İslamın əqidə baxımından düşüncə dünyası ilə bağlı fikirlər bəyan etmişdir. Əhməd Yəsəvinin etiqadi düşüncəsinin əsasını aşağıdakılar təşkil edir:

*-Allahın varlığı və birliyinə inanmaq*
*-Qurana tabe olmaq*
*-İslama uyğun yolda yerimək*
*-İnsanın özünü nizama salması*
*-Müəyyən vaxtlarda özünü hesaba çəkmək*

Ancaq Yəsəvidə iman anlayışı eşq və sevgi motifləri ilə bəzədilmiş, onlarsız təsəvvür olunmamışdır. Ona görə eşq olmadan Allahı tanımaq mümkün deyildir. Gerçək mənada aşiq olanlar əsla ölməz. Onlar ölümsüzlük mərtəbəsinə layiq görülmüşdür. Eşq insanı mal-mülk dərdindən və cəhənnəm qorxusundan uzaqlaşdırır.

*Gerçək aşiqlər daim diri, ölücü deyil*
*Ruhları da yer altına girici deyil*

Beləliklə eşq həyəcanı ilə özündən keçən, dünyadan qopan, özünü ülvilər ülvisi Allaha qovuşma həsrətinə bağlayan aşiqlər dünya dərdləri ilə məşğul olmaz, insanların günah və

ayıblarını ortaya çıxarmaz, eşqini rəqsiylə faş edər və Tanrıya *rəqslə* bağlanar[3].

Allaha eşqlə bağlan ki, zöhdün də, ibadətin də Allah dərgahında qəbul görsün.

*Zahid olma, abid olma, aşiq ol sən*
*Hikmət çəkib eşq yolunda sadiq ol sən*
*Nəfsi qırıb dərgahına layiq ol sən*
*Eşsizlərin həm canı yox, imanı yox.*

Yəsəvi fəlsəfəsində Allaha olan sevgi daima yüksəkdə durmuşdur. Çünki ilahi eşq və sevgi, yaradılışın, var olmağın və insan olmağın səbəbkarıdır. Yəsəvi ənənəsinin Anadoludakı təmsilçisi sayılan Yunus Əmrədə ilahi sevgi öz ifadəsini bu şəkildə tapmışdır.

*Eşqsizlərə öyüd vermə, öyüdündən alan deyil*
*Eşqsiz olan heyvan olur, heyvan öyüd bilən deyil*



Əhməd Yəsəvinin düşüncəsindəki insan sevgisi aktiv sevgidir. O, sadəcə insana qarşı olan bir münasibət deyil. Eyni zamanda insanı olduğu məqamdan çox-çox yüksəklərə qaldıran, o ülvi aləmdəki kəşf və əsrarı insana göstərən və nəhayət yenə insan olduğunu xatırladaraq geri döndərən sevgidir. Onun sevgisindəki kəsər, sevilməyi də özünə layiq görən anlayışdır. Onun aşağıdakı beyti bu xüsusiyyətin ən açıq ifadəsidir:

*Xalq gəlsə seçilmiş olar, ulduz gəlsə ay olar*
*Bakır gəlsə altun olar, dərvişlər söhbətində*
*Kibir, həsədlər yox olar, içinə mənalar dolar*
*Gözün açıb Haqqı bular, dərvişlər söhbətində.*

Beytdə görüldüyü kimi, dərvişlərlə dost olmaq insanın içindəki nəfsi mərəzlərdən qurtulması üçün, qəlbin bərraqlığa qovuşması üçün və nəhayət Haqqı tanıması üçün lazımdır. Bu məclislər insanın fərdilikdən sıyrılıb ictimailəşməsi deməkdir.

3. Yəsəvi səsli rəqsi və səma ayinini xoş qarşılamış və özü də bəzən bununla məşğul olmuşdur.

Əhməd Yəsəvi də digər mütəsəvvüflər kimi aləmi və onun içində olan hər şeyi ilahi eşqin əsəri kimi düşünür və məhz buna görə də hər şeyi qəlbən sevdiyini bəyan edir. Ancaq bu sevgi vasitəsilə Allaha çatmağın mümkün olduğunu bildirir. Ona görə eşq olmadan Allahı dərk etmək qeyri-mümkündür. Çünki eşqi olmayan əvvəla həqiqi mənada insan deyildir.

*Dərdsiz insan insan deyil, anlayın bunu*
*Eşqsiz insan heyvan cinsidir, dinləyin bunu*
*Qəlbinizdə eşq varsa, mənə ağlayın*
*Ağlayanlara həqiqi eşqi hədiyyə verdim*
*Eşqsiz insanın yoxdur canı, həm imanı*
*Rəsulullahın sözüdür söylədim mənanı*

Əhməd Yəsəvi öz divanının 140 nömrəli hikmətlərində eşqin xüsusiyyətlərini və həqiqi möminin əlamətlərini belə sadalayır;

1. Göz yaşı axıtmaq - Günahları üçün utanmaq və bağışlanması üçün ağlayaraq Allaha yalvarmaq.

2. Nəfsi öldürmək- İnsanın eqosundan sıyrılıb ilah iradəyə təslim olması. Hər şeyi Allahdan bilmək. Ondan gələnə tərəddüdsüz boyun əymək və razı olmaq.

3. Allahın nuruna sahib olmaq- Allah gözəl olduğu üçün gözəl olanı sevər. Bütün aləm öz nurunu ondan almışdır. İnsan üçün əsas olan onun nuruna boyanmaq, onun rənginə bürünməkdir.

4. Allah zikrini çoxaltmaq- Qəlbdən Allahdan başqa hər şeyi çıxarmaq. Allahı daima zehində xatırlamaq və onu dildə ifadə etməkdir. Dili Allahın zikrinə alışdırmaq və bundan əl çəkməmək.

5. Rahatlıqdan çox sıxıntını sevmək- Füzulinin Məcnunun diliylə ifadə etdiyi kimi;

*Ya Rəbb bəlayi-eşq ilə qıl aşina məni,*
*Bir dəm bəlayi-eşqdən etmə cüda məni,*
*Az eyləmə inayətini əhli-dərdidən,*
*Yəni ki, çox bəlalara qıl mübtəla məni.*

Bütün sufilərdə Allahın göndərdiyi müsibətlərə nəinki səbir etmək, hətta, arxasından gələcək ilahi sevgi və mükafatı düşünərək onu hədiyə kimi gördüyünü söyləmək mübaliğə olmaz. Çünki Allah "**səbir edənlərə müjdə ver"! (**Bəqərə, 2/155**)** deyə Rəsuluna xitab etmişdir.

6. Eqoizmi tərk etmək- İnsanın bəşəri iradəsini ilahi iradəyə təslim etməsi, külli iradəyə ram olması və öz eqoist ehtiraslarına əsir olmamasıdır. İlahi eşq Allahdır və bu eşqə düşən şəxs, məncillik, riyakarlıq, həsəd və ehtiras kimi mənfi xüsusiyyətlərdən uzaqlaşır. Əhməd Yəsəvi

*Qəlbi qırıq harda görsən məlhəm ol,*
*Məzlum kimi yolda qalsa yoldaş ol*
*Məşhər günü dərgahına yaxın ol*
*Mən-mənlik istəyənlərdən uzaq durdum mən!*

-demişdir. Onun bütün hikmətlərində yer tutan bir həqiqət vardır ki, o da insana verilən yüksək dəyərdir. İslam təsəvvüf düşüncəsində də insan kainatın özəyi olaraq qəbul olunmuşdur. Hər şey insan üçün yaradılmış və insanın istifadəsi üçün amadə qılınmışdır. İnsanın vəzifəsi "kamil insan" məqamına çatmaq üçün çalışmaqdır. Əxlaqın təkamülü üçün calışmaq lazımdır. Bunun yeganə bir yolu mövcuddur. O yol yaradılmış olanları sevməkdir, incitməməkdir həm də incinməməkdir. Təvazökar insanlar hər işdə səmimi və ixlaslı olan insanlardır.



Eşqdir insanı xoşbəxtliyə, insanlıq və gözəl əxlaqa yönləndirən. İnsana və bütün kainata sevgiylə, şəfqətlə baxmağı öyrədən. Bütün varlıqlar onun əsəridir və hər şey mükəmməl şəkildə yaradılmışdır. Ancaq bütün yaradılanlar içərisində insanın özünəməxsus bir yeri vardır. Çünki insan Allahın sevgisini özündə daşıyan bir qəlbə sahibdir.

Yəsəvi xalqa Quran və sünnəyə uyğun sağlam bir şəriət bilgisini verməyə çalışmış, sünnə çizgisinə yaxın bir dini anlayış təlim etmişdir. Təsəvvüfün yayıldığı bəzi yerlərdə bəzi yanlış fikirlərin, xüsusilə İran və Hind mədəniyyətlərindən gəldiyinə şahid olmuş və bu kimi fikirləri İslam şəriəti ilə ölçüb-biçməyi,

ona uyğun olmayanları rədd etməyi tövsiyə etmişdir. O, eyni zamanda bəndənin əxlaq və təsəvvüf kamalına çatması üçün lazım olan riyazət yolunu mənimsədiyini də söyləmişdir. Çünki ona görə riyazət və mücahidə əxlaqi təkamülə çatmaq üçün ibadət və itaət qədər mühüm məsələdir. O, təsəvvüfdə riyazətin əhəmiyyətini aşağıdakı şəkildə ifadə etmişdir:

*Bismillah dip bəyan eyləy hikmət aytıp*
*Taliplərgə dürrü-gövhər saçtım muna*
*Riyazətni katığ tartıb qanlar yutub*
*Min dəftəri-sani açdım muna*

Əhməd Yəsəvinin çox mühüm xidmətlərindən biri də onun türk dilini təsəvvüf dilinə uyğun hala gətirməsidir. O, türk dilində danışan, şeirlər söyləyən bir mürşiddir. Türkdilli coğrafiyalarda məşhur olmasında da bu amilin rolu böyükdür. Yəsəvinin açmış olduğu bu mühitdə həm xalq ədəbiyyatında, həm də təkyə ədəbiyyatında bir çox şair yetişmişdi.



Əhməd Yəsəvinin hikmətli kəlamlarından bəziləri aşağıdakılardır:

- "Ey dostlar! Cahil insanlarla dostluqdan çəkinin! Şəriət, təriqət və həqiqətdən nəsibini almaq istəyənlər, böyük övliyaların uca məqamlarına çatmaq və Cəhənnəmdən xilas olub Cənnətə vasil olmaq istəyənlərin elm öyrənməsi zəruridir".

- "Əgər ağlın varsa, bu dünyaya bel bağlama! Şeytan səni azdırıb dünyaya meyil etdirərsə, o, səni öz əmri altına salmış deməkdir. Artıq bir bəladan başqa bir bəlaya tərəf sürüklənərsən, ancaq xəbərin olmaz".

- "Ey dostlar! Bir kimsə ki, Allah-Təalanın eşqi ilə yanıb bu dənizdə mahir bir üzgüçü olmadıqca, bundan daha dərin olan vəhdaniyyət dənizinə girə bilməz. Ona girmək üçün daha mahir bir üzgüçü olmaq şərtdir".

## NİZAMİ GƏNCƏVİ ﵀

(d. 1141 / v. 1209)

Nizami 1141-ci ildə Gəncə şəhərində anadan olmuş, bütün ömrü boyu orada yaşayıb yaratmış və 12 mart 1209-cu ildə Gəncə də vəfat etmişdir. Nizami təhsilini Gəncə mədrəsələrində almış, daha sonra şəxsi mütaliə yolu ilə o dövrün elmlərini mükəmməl öyrənmiş, xüsusən də Yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına yaxından bələd olmuşdur. Türk dilindən başqa ərəb və fars dillərini də mükəmməl bilən şairin Yunan dili ilə də tanış olduğu, həmçinin qədim yunan tarix və fəlsəfəsini, astronomiya, tibb və həndəsə elmlərini yaxşı mənimsədiyi əsərlərindən aydın görünür. Ömrü boyu Gəncə də yaşamış, saray şairi olmaqdan qətiyyətlə imtina etmiş, halal zəhməti ilə dolanmışdır. Təqribən 1169/1170-ci ildə Dərbənd hökmdarı Seyfəddin Müzəffərin kəniz kimi hədiyyə göndərdiyi qıpçaq qızı Afaq ilə evlənmiş, 1174-cü ildə oğlu Məhəmməd anadan olmuşdur.



### Nizamidə Dəyərlər

Nizami tövhid, iman və ədalət şairidir. O, hədəfi, idealı, bütün varlığı, duyğu və düşüncələri ilə uca Allaha (c.c) bağlıdır. Nizamiyə görə, uca Allahın (c.c) şah əsəri insandır və O uca varlıq hər şeyi insan üçün yaratmışdır. Şairə görə, uca Allahla (c.c) insan arasındakı münasibəti tövhid inancı (Allahın varlığı və birliyi), insanla insanın münasibətini isə ədalət anlayışı tənzimləyir. Nizamiyə görə, uca Allah (c.c) hər bir insanı orijinal varlıq kimi yaratmışdır, təkrar insan yoxdur.

İnsanın və toplumun orijinallığını, təkrarsızlığını, fitrətini qoruyub saxlayan da tövhid və ədalət inancına bağlı olan ölməz dəyərlərdir. İnsanı inşa edən dəyərlər tövhid və ədalət inancından, öz gerçək qaynağından qoparılanda insanın fitrəti pozulur, qəlbi kirlənir, o, ilahi təyinatdan uzaqlaşır, orijinallığını itirir, başqalarını yamsılayan insana, təlxəyə çevrilir, Quranın buyruğu ilə desək, “insan meymunlaşır”. (Bəqərə, 2/155 65; Araf, 163-166)

Nizami insanı insan edən, onu tövhid və ədalət inancına bağlayan, onu uca Allahın (c.c) və insanların “əzizi”, “xəlifəsi”, “vəkili” edən dəyərlər sistemi təqdim etmişdir. Dəyərin də bir sıra özəllikləri var. Dəyər qoruyur, insanın, toplumun yaradılış fitrətini qoruyur. Dəyər dəyişdirir, tərbiyə edir, o, yeni, təzə, müsbət olmağın təminatıdır. Dəyər fərqləndirir, seçir, doğru ilə yanlışı bir-birindən ayırır. Dəyər sevgi yaradır, onu çoxaldır, insanları bir-birinə sevgi ilə bağlayır. Dəyər insanı uca Allaha (c.c) bağlayır, insan Onsuz həyatın ağır yükünü qaldıra bilməz. Dəyər uca Allahı (c.c) insana tanıdır. Dəyərlər təqdim etməsi Nizaminin hər zaman bir ehtiyac olmasının, insanlıq üçün ana südünə çevrilməsinin, müasirliyinin səbəbidir.



**Nizamiyə Görə, Eşq Anlayışı**

“Eşq” sözü ərəbcədir. “Könül vermək”, “candan, ürəkdən sevmək” mənasındadır. “Eşq” təsəvvüf düşüncəsində bir termindir. Təsəvvüfün anlayışına görə, uca Allah (c.c) bilinməsini, tanınmasını istəmiş və bu sevgi varlığı yaratmağa səbəb olmuşdur. Eşqin səbəbi gözəllikdir. Eşq insanı ən gözəl olanı əldə etməyə yönəldir, ona çalışma, axtarma gücü verir. Bütün gözəlliklərin qaynağı da uca Allahdır (c.c).

Uca Allahın (c.c) insana bəxş etdiyi ən böyük nemət sevgidir (eşqdir). Eşqi olan insan aşiqdir, onun həyatı sınaq və çətinliklərlə doludur. Gerçək aşiq də bütün çətinlikləri məğlub edərək sevgiliyə - uca Allaha (c.c) qovuşan, Onun rəhmətini, rizasını qazanan insandır. Aşiqlik fatehlikdir, onun vəzifəsi

öncə qəlbini nəfsin istəklərindən təmizləmək, sonra ruhunu, uca Allah (c.c) sevgisini o arınmış qəlbin soltanı etməkdir. Aşiq qəlbini fəth edən iman insanıdır.

Eşq uca Allahın (c.c) nurudur, gözəlliyidir. Gerçək eşq də ilahi eşqdir, kamil insanın eşqidir. Aşiq uca Allahı (c.c) sevdiyi üçün, Ona aşiq olduğu üçün Onun yaratdığı hər şeyi sevər. Onun qəlbi şəfqət, mərhəmət nuru ilə dolar. Aşiq bilir ki, uca Allaha (c.c) qovuşmağın, Onun sevgisini, rəhmət və bərəkətini qazanmağın tək yolu eşqdir.

Eşqin yumaq, təmizləmək, müsbətə doğru dəyişdirmək, tərbiyə etmək gücü var. O, insanın qəlbini kin, paxıllıq, xəsislik, təkəbbür, düşmənlik, qəzəb, qısqanclıq, qeybət, cahillik kimi çirkin xəstəliklərdən təmizləyər, onu nəfsin əsarətindən xilas edər, qəlbi cəhalətin qaranlığından gün işığına çıxarar. Eşq bu arınmış qəlbə nur, sevgi, səbir, ədalət, rahatlıq, vəfa, itaət, insaf, şəfqət, mərhəmət, həya kimi gözəl mənəvi nemətlər yerləşdirər.

Eşq ruhun gücünə, uca Allahın (c.c) iradəsinə təslim olmaqdır, onun ölçüsü itaətdir (sevən sevdiyinə itaət edər). Aşiq insan özünü insanlıq adına fəda edəndir, "şəhidi-eşq" olandır. Aşiq hər yerdə və hər şeydə sevgilisini görər, canını ona təslim edər.

Eşqin maddi və mənəvi yönləri var. Ancaq gerçək eşq uca Allaha (c.c) olan eşqdir. Ona aşiq olan insan yaradılanları Yaradandan ötrü sevər. Bu eşq gözələ deyil, gözəlliyədir. Uca Allah (c.c) sevgisi bütün varlığı ilə Ona dönməkdir, Ondan başqa hər şeyi unutmaqdır. Eşq uca Allahı (c.c) tanımaqdır, Onun sevgisindən başqa, hər bir istəyi qəlbdən çıxarmaqdır. Eşq aşiqin özünü sevdiyinə həsr və aid etməsidir. Eşq dərdinin dərmanı da eşqdir. Eşq ürəkdəki atəşdir, bu atəş nəfsə aid olan hər şeyi yandırıb kül edər.

Eşq çox dəyərli bir quşdur, qidası qəlbdədir, o uca mərtəbələrin nərdivanıdır. Aşiq uca Allahı (c.c) tanıyan, Onu sevəndir. Ona olan eşqin də sonu yoxdur.

**Nizamiyə Görə Allah (c.c) Sevgisinin Əlamətləri**

Uca Allah (c.c) sevgisi sözlə olmaz, bu sevgi sözünün saleh əməllə təsdiq olunması zəruridir. Onu sevən aşiqin bir əlaməti odur ki, o, ölümdən qorxmaz, çünki sevdiyinə qovuşmaq istər, bunun da tək yolu ölümdür.

Uca Allahı (c.c) sevən aşiq ancaq Onun sevdiklərini sevər. O, ağlının, qəlbinin, imanının, fiziki enerjisinin gücünü Onun yolunda cihada sərf edər.

Onu sevən ancaq Onu düşünər, Onun adını zikr edər, Onu unutmaz. Uca Allahı (c.c) sevən Onun kitabını, peyğəmbərlərini, dostlarını, mücahidləri sevər. Uca Allahı (c.c) sevən dünya bağını könlündən qoparar, gecəni çox sevər, bu zaman dilimini ən uyğun itaət, qulluq, dua vaxtı hesab edər.

Uca Allahı (c.c) sevənə ibadət asan olar, o, ibadətlərini sevə-sevə yerinə yetirər, onun ibadətlərinə şövq, ixlas və səmimiyyət hakim olar, o, ibadəti ruhunun qidası sayar.



Uca Allaha (c.c) aşiq olan səbirli, comərd, şəfqətli, mərhəmətli, təvazökar, gözləri yaşlı olar, az danışar, az yeyər, az yatar.

Uca Allah (c.c) sevgisini bir könül fatehi belə təqdim edir: “Məhəbbət bir dadlı haldır. Onun acıları baldır. Məhəbbət bir böyük iksirdir. Onunla mis və dəmir qızıl və gümüş olur. Məhəbbət elə bir dərmandır ki, onunla xəstəliklər şəfa tapır. Məhəbbət elə bir şərbətdir ki, onunla hər xəstəlik sağalır... Məhəbbət elə bir candır ki, onunla ölü dirilir. Məhəbbət mərifətin (uca Allahı (c.c) tanımağın) nəticəsidir. Ona yaxınlıq vəsiləsidir...”

**Nizamidə İnsan Məfhumu**

Şairə görə, insanın içində davamlı bir mübarizə, savaş var. Bu mübarizənin iki tərəfindən biri ruh, o birisi nəfsdir. Bu, amansız və güzəştsiz bir savaşdır. **Bu mübarizənin özəlliyi odur ki, qalibin qələbəsinin təminatı yoxdur. Hər an tərəflər dəyişə bilər.** Ona görə də bu mübarizə fasiləsizdir. Ruh və nəfs

nə uğrunda mübarizə aparırlar? İnsan varlığının baş şəhəri olan qəlb uğurunda. Hər ikisi qəlbin hakimi, qəlb ölkəsinin soltanı olmaq istəyir. Əgər ruh qəlbə hakim olursa, o qəlb arınmışdır, o qəlb uca Allahın (c.c) nuru ilə nurlanmışdır, Onun sevgisi qəlbə yerləşmişdir, o qəlb rəhmət evinə çevrilmişdir. Nəfs qəlbə hakim olmuşdursa, o qəlb ölmüşdür, möhürlənmişdir, insan qəlbinin fitrəti pozulmuşdur, zülm, cəhalət və qaranlıq o qəlbə hakim olmuşdur.

Nizami qəlb təmizliyi ilə bağlı elminin şərhini "Gecənin vəsfi və qəlbi tanımaq haqqında (söhbət)" adlı bölmə ilə başlamışdır. Bu bölmədə şair öncə bir döyüş səhnəsi təsvir etmişdir. Ruhla nəfsin qəlb uğrunda amansız mübarizəsinin olduğunun bilinməsini istəmişdir. Yəni işə insanın özünü tanımasından başlamışdır. Ey insan, səni uca Allah (c.c) yaratmışdır, ən önəmli məsələ bu inanca sahib olmağındır. Sənin varlığında ruhla nəfsin amansız mübarizəsi var. İnsanın özünü tanıması üçün varlığının hikmətini, quruluşunu, xarakterini, məqsədini anlaması zəruridir. Şair insanı özünə tanıdarkən ruhla nəfsin "qanlı mübarizəsini" canlı lövhələrlə verir: "Günəş öz qalxanını atdı", "Yerə dedi ki, öz qalxanını suya at", "dünya onun nəfəsindən daraldı", "dünya onun qalxanından da sarı oldu", "o, qalxanını atan kimi onun qoşunu qılıncını çıxarıb, onun başına qəsd etdi", "boynu sədəf – muncuq ilə bəzənmiş öküz yıxılan kimi hamı onun üstünə xəncər çəkir", "xəstə düz bir tas qan tökdü və başdan ayağa qədər dünya mürəkkəb kimi oldu"...

**Nizamiyə Görə Allahı Tanıma**

Şair insanın hədəfinin uca Allahı (c.c) tanımaq olduğunu bildirir. **O, uca Allahı (c.c) tanımağın elmini açıqlayır: öncə qəlbini tanı, qəlbini fəth et, qəlbinin fatehi ol, ruhu qəlb ölkəsinin soltanı et, qəlbi dünya bağından qopar:** "qeybdən mənə xəlvətcə bir səs gəldi, o səs mənə deyirdi ki, borcu o qədər al ki, onu verə biləsən", "nə üçün öz pak atəşinə su səpirsən", "qızdırma gətirən torpağı tabuta bağışla", "parlayan odu isə

yaquta bağışla", "ox atma, çünki hədəf sənin idrakındır", "qamçını az vur, çünki at sənin ayağındır", "bundan artıq qafil oturmaq olmaz", "əgər suyun varsa, qəlbinin qapısına tök", "qəlbini dinlə", "maviliyi xoşa gələn bu küpün əyri altında qəlb nağılını de ki, onun ahəngi xoşdur", "hissiyyat yolkəsənlərindən uzaq ol, sənin yolunu yalnız qəlbin bilir, qəlbi tanı!", "cismdən azad olub ərşdə uçanlar, Cəbrailin şahpərini (qanadını) öz qəlblərinə bağlamışdır", "hər iki cahandan üz döndərənlər öz ruzilərini qəlbin sədəqəsindən tapmışlar", "göz, qulaq təbiətdə artıq şeylərdir, onlar zahiri pərdənin inciləridir" *(şairə görə, zahiri görmə və eşitmə orqanı – göz, qulaq nəfsin alətləridir, onlar insanı bu dünyaya bağlayır, önəmli olan məna aləminin gözəlliklərini görməkdir, ilahi sirləri bilməkdir, bunun üçün nəfsin dostları olan zahiri gözü bağla, qulağı tıxa, qəlbin gözünü aç, qəlbin qulağı ilə eşit, çünki məna aləmini ancaq qəlbin gözü ilə görə bilərsən. İkisi bir arada ola bilməz, nəfsin gözünü bağla, qulağını tıxa ki, qəlb gözün açılsın, qəlb qulağın eşitsin, qəlbinə Cəbrailin qanadı verilsin. Bu qanadla məna, sirr aləmində uç, mələklərdən də üstün ol. Dünya nemətinə bağlanmaq qəlbə ağır yükdür, o yükdən azad ol ki, Cəbrail kimi uça biləsən, onda uca Allah (c.c) yanında insanın dəyəri mələklərdən də üstün olur, insan yer üzündə uca Allahın (c.c) təmsilçisi, vəkili, xəlifəsi olur)*, "sənin güləbənzər qulaqların pambıqla dolmuşdur", "gözünün nərgizi çiçək xəstəliyinə tutulmuşdu" (yəni həqiqəti görmək, haqqın səsini eşitmək imkanın yoxdur, qəlbin nəfsin əsarətində olması da budur. Nəfsin insanı məhrum etdiyi ən dəyərli nemət elmdir, ilahi həqiqətləri görmək, bilmək, tanımaq və eşitmək elmi. İnsanın ilahi həqiqəti görməsinin tək bir şərti var: o da qəlbin və ağlın fitrətinin təmiz olmasıdır, nəfs də insanın qəlb və ağıl fitrətini pozmağa başlayır. Dünya nemətlərini ona gözəl göstərir, haram şeylərlə insanın ağıl və qəlb fitrətini murdarlayır, onun bəsirət gözünü və qulağını bağlayır.

Qəlbin hüceyrələri haram yeyir, qulağın pərdələri haram səslər eşidir, dil yalan danışır, haram və günah virusu insanın qəlbini, qulağını yeyir, bu virus insanın qəlbini və ağlını sağalmaz xəstəliyə düçar edir.

### Qəlb Xəstəliyinin Əlamətləri

Bu xəstəliyin adı cəhalətdir. Bu, həqiqəti görə bilməmə, doğru düşünə bilməmək, haqqın səsini eşitməmək xəstəliyidir. Bu xəstəliyin əlamətləri var: bu xəstə insan öncə uca Allaha (c.c) şərik qoşur. Onun təkliyi inancından məhrum olur, onun tanrısı nəfsidir, şöhrət, şəhvət və sərvət tutqusudur. Artıq onun üçün insanı, dünyanı, neməti tanıma, dəyərləndirmə ölçüsü uca Allahın (c.c) buyruqları deyil, nəfsin istəkləridir, o xəstə qəlb sahibi olan insan tövhid inancını itirəndən sonra ədalət duyğusunu da itirir, o qəlb şəfqət və mərhəmətdən məhrum olur, insan onun üçün bir əşyadır, hətta əşyadan da dəyərsizdir, onun üçün həyat ancaq bu dünyadan ibarətdir, şəhvət, şöhrət və sərvət xəstə qəlbin baş tacıdır, idarəçisidir. Uca Allahın (c.c) "ölmüş", "möhürlənmiş", "duyarsız olmuş" dediyi qəlb budur. İnsanlığın xilası fərdi, yəni insanın öncə özünü islah etməsi ilə başlayır. Bu mübarizənin – islam Peyğəmbəri bunu "ən böyük cihad" adlandırır – yeri qəlbdir. Hədəfi qəlbi nəfsin əsarətindən xilas edib ruhu o qəlb ölkəsinə soltan seçməkdir. Seçim iradə deməkdir. İradənin qaynağı da arınmış qəlb və nurlanmış ağıldır.



### Ruh və Nəfsin Mübarizəsinin Hikməti

Uca Allahın (c.c) insanın varlığına ruha və nəfsə bağlı gücləri yerləşdirməsinin hikməti də insanın dəyərinin müəyyən edilməsi ilə bağlıdır. Niyə insan varlığı ruha bağlı güclərlə, nəfsə bağlı güclərin mübarizənin meydanı kimi yaradılmışdır? Bu sualın doğru cavabı uca Allahın (c.c) insanı hansı məqsədlə yaratdığını, insana həyatın, ömrün hansı hədəflə verildiyini bilməyə bağlıdır. Uca Allah (c.c) insanı Onu tanıması üçün yaratmışdır. İnsanın vəzifəsi uca Allahı (c.c) tanımaq və Ona itaət etməkdir. İkincisi, bu həyat insana sınaq üçün verilmişdir. Çünki seçməyin yolu imtahandır. Bu imtahanın da ən çətini nəfslə sınağa çəkilməkdir. İnsanın içindəki mübarizə onu inkişaf etdirir, onun iradəsini formalaşdırır. İnsan seçim etməyə məhkumdur, o, ya ruhunu qəlb ölkəsinə hakim

etməlidir, ya da nəfsini. Öz iç mübarizəsində məğlub olmuş insan qəlbini itirmişdir. Qəlbini itirən insan axirətini itirmişdir. Qəlbini nəfsə təslim edən insan cəhənnəm atəşinin övladı olmuşdur.

**Qəlbə Hakim Olmaq Elmi**

Nizami qəlbə hakim olmaq elminin ölçülərini açıqlayır: **nəfsə uyma,** "nərgiz və gülə (qulaq və gözünə) pərəstiş etmə, onların sinəsi səndən dağlıdır". **Şairə görə, nəfsi məğlub etməyin yolu bu cihada tez (cavan yaşında) başlamaqdır:** "hər alçağın güzgüsü olan gözü yandırmaq üçün cavanlıq suyu bəsdir. **Nizamiyə görə, nəfslə mübarizədə qırx yaş dönüm nöqtəsidir:** "Sənin təbiətin ağlın ilə dəllallıq edir, qırx yaşın nəqdini gözləyir". Şairə görə, qırx yaşı cihadın dönüm nöqtəsinə çevirmək üçün bu yaşadək olan ömrünü qəlbə hakim olmaq mübarizəsinə fəda etməlisən: "ancaq qırx yaşa çatmaq üçün onun səfərlərinin xərci üçün böyük məbləğlər lazımdır", "qırx yaşın dərsini indi oxuma". **Şairə görə, nəfslə mübarizədə qalib gəlmək üçün insana dost lazımdır:** "sənə dost lazımdır, bunu əfsanə sanma", "ürəyin dərdinə bir həmdərd ürək tap", "qəmxarın varsa, qəm yemə", "yarın varsa, qəmin boynunu vur", "dostların dostluğu möhkəm köməkdir", "iki nəfərin nəfəsi bir an qızışarsa, o nəfəs yüz qəmi yox edər", "birinci sübh nəfəs yaxşı gedib-gələrsə, ikinci sübh onun bağırtısı ulduzlara çatacaqdır", "əvvəlki sübh ləkələnib rüsvay olar, əgər ikinci sübh onun imdadına çatmasa", "sən təklikdə heç bir iş görə bilməzsən, yarını axtar ki, yarla hər iş düzələr", "yardan yaxşı heç nə yoxdur", "hamının yara (dosta) ehtiyacı var". **Nizamiyə görə, nəfs insanın düşmənidir,** o, qorxuludur, çünki özünü dost kimi göstərir, nəfsin istəklərini gözəl göstərir, qəlbi dünyaya bağlayır, "sənin malik olduğun bu iki-üç dostun ətəkləri yaşdır (insanı günaha sürükləyir). **Şairə görə, insanın dostu onun qəlbidir:** "əlini qəlbin kəməndinə at, ola bilsin ki, sənin suyun qəlb torpağına çevrilsin".

**Nizami ruhu qəlb ölkəsinin şahı etmək istəyən insana doğru mübarizə yolu göstərir. Öncə cihad insanına onun yaradılış özəlliyini tanıdır:** “insanı ərşin şahı yaradıb”, “insan həm surətdir (bədəndir), həm də candır (ruhdur)”, “bədən və ruh bir-birinə birləşmişdir”, “insanın varlığı bir xilafətdir (idarə olunur), bu xilafətin sahibi qəlbdir”, “onun adına soltanlıq xütbəsi oxunmuşdur” (yəni uca Allah (c.c) qəlbi insan bədəninin hakimi seçmişdir, bədənin idarəçiliyi ilə bağlı bütün səlahiyyətlər qəlbin əlindədir), qəlbin də ruhani və cismani yönü var: “qəlb cismani və ruhani bir əkdəşdir”,“surət və can – hər ikisi qəlbin uşaqlarıdır”, insan varlığının nuru qəlbin nurundandır: “sənin varlığının nuru qəlbin Süheylindəndir”.

**Nizamiyə Görə, İnsanın Vəzifələri**

İnsanın vəzifəsi qəlb ölkəsində ruhun hakimiyyətini təmin etməkdir, onu nəfsin əsarətindən qurtarmaqdır. Bunun üçün qəlblə ağlın gücü birləşməlidir: “ürəyin sözü damağıma çatan kimi beynimin yağı mənim çırağıma yetişdi”. (Qəlb dəyişkən, haldan-hala düşən olduğundan onu ağla bağlamaq lazımdır. Ürəklə ağıl arasındakı bu bağın adı uca Allahın (c.c) kəlamıdır, insanın, o sıradan qəlb və ağlın fitrətini qoruyan buyruqlarıdır). Çünki ağla bağlı olmayan qəlb insanı hədəfinə çatdıra bilmədiyi kimi, qəlbə bağlı olmayan ağıl da insanı xoşbəxt edə bilmir. Duyğu və düşüncənin tarazlığı, birliyi insanı xoşbəxtliyə aparan iki qanaddır). Qəlbin dostu ağıldır, bu iki güc birləşəndə qəlb nəfsin əsarətindən xilas olmağa başlayır, o zülmət yox olur, yerini nur tutur, nifrət silinir, qəlbə sevgi yazılır. Sevgi toxumları cücərməyə başlayır. İnsan bu halın sevincini yaşayır: “təbim şadlıqla doldu, qəmdən xilas oldu”, “qəlbin atəşi təbimin qazanını qaynatdı”, “əlimi əl bağlayanların əlindən çıxardım”, “yolkəsənlər (nəfsin istəkləri) aciz oldular, mən isə qüdrətli”.

İnsan öz qəlb ölkəsində ruhun hakimiyyətini bərqərar edəndə çoxsaylı çətinliklərlə üzbəüz qalır, nəfsin bitib tükənməyən hiylələri ilə rastlaşır. Onları məğlub edir, qəlb ölkəsinin

baş şəhərinə yaxınlaşdıqca heyrət halları yaşayır: "gecə yarısınadək ömrümün yarısı getdi", "öz ruh mehrabımın qapısında çovkan qamətim bükülüb top kimi olmuşdu", "çovkanım ələ keçmiş topa çevrilmişdi", "ətəyim yaxama çevrilmişdi", "ayağım başım olmuşdu", "başım isə ayağım", "mən top şəklinə düşmüş çovkanı xatırladırdım", "işim əlimdən gedib mən isə özümdən getmişdim", "yüzü bir, biri isə yüz görürdüm", "qəribliyim kimsəsizliyimdən acı idi", "nə içəri girməyə ayağım, nə də geri qayıtmağa cürətim var idi", "o uçurumda dilim tutulmuşdu". Nizamiyə görə, bu çətin anda insanın yol göstərəni eşqdir: "eşq bələdçi kimi yüyənimdən tutdu".

Nizamiyə görə, hidayət uca Allahdandır (c.c). İnsan uca Allahı (c.c) seçərsə, O da insanı seçər. Sən ruhunu qəlbinin hökmranı etmək üçün mücahid olsan, o nurlanmış qəlb də səni insanların ən şərəflisi edər.



Nizami adlı mücahid öz qəlb ölkəsinin sarayına daxil olur: "öndə gedənlər pərdəni qaldırdılar, mənim vücudumun örtüyünü açdılar", "onun qapısının ən yaxşı məhrəmi oldum", "orada çilçıraqla yanan bir qonaq sarayı gördüm", "pis gözlər kor olub onu görməsin!"

Bu sarayın hakimi, sultanı qəlbdir, insanın varlıq ölkəsinin sahibi odur. Başqa orqanlar ona tabedir, onların varlığı qəlbdən asılıdır.

Qəlb sarayında yeddi xəlifə əyləşmişdi: "günorta şahı-qəlb başda oturmuşdu", "qırmızı atlı – ürək ədəblə onun qabağında", "ləl qəbalı zəfər əsgəri – qaraciyər bir yanda", "acıqlı bir cavan – öd onun şikar kəşfiyyatçısı idi", "ondan aşağı qəmgin bir qara qul – dalaq durmuşdu", "kəmənd atan – mədə-bağırsaq – pusquya durmağa hazırlaşmışdı", "bir misbədənli pəhləvan – böyrək özünə gümüşdən zireh taxmışdı", "bura yarımisti nəfəsabad – ağciyər diyarı idi", "onların hamısı pərvanə, qəlb isə şam idi".

Nizami qəlb sarayına - yeddi xəlifənin otağına daxil ola bilməsinin, qəlbini nəfsin əsarətindən qurtarmasının şərtini

açıqlamışdır: qənaət, fədakarlıq, dünya bağını qoparmaq: "mən qənaətlə qəlbimin mehmanı oldum", "bu canımı ürək soltanına peşkəş etdim", "üzümü aləmdəkilərin hamısından döndərdim".

### Nizamiyə Görə İnsanın Allahı Axtarışı

Nizamiyə görə, insan axtaran varlıqdır, o, əldə etdikləri ilə razılaşmamalıdır, daha böyük hədəflərə doğru uçmalıdır: "qəlb dilə gəlib dedi ki, ey dilbilməz, bu yuvadan keç, quşu axtar", "mənim alovum bu tüstünün məhrəmi deyil", "mənim kölgəm bu sərvin özündən qüdrətlidir", "mənim rütbəm bunun rütbəsindən daha ucadır". Qəlb Nizamiyə yeni hədəflər göstərir, onu hərəkət etməyə çağırır: "mən xəzinəyəm, ancaq Qarunun kisəsində deyiləm", "mən səninləyəm, səndən kənar deyiləm".

Nizamiyə görə, insan qəlbini təmizləyib ruhunu qəlb ölkəsinin soltanı etmək istəyirsə, ona doğru yol göstərən müəllim seçməlidir. Bu müəllim (xoca) onun qəlbidir: "müəllim mənə ədəb öyrətdi", "məni doqquz fələyin düyünündən açdı", "o, bizi bəndə saldı", "o, Tanrı olmasa da, bizim ağamızdır".

Nizami insan qəlbini tərbiyə edən müəllimin xarakterini tanıdıb: iman, bilgi, səbir, fədakarlıq, ardıcıllıq, şəfqət və mərhəmət: "bu kəndirin başından o, ayağını qaldırmadı", "kəndirin düyünlərini açdı", "o, mənim iki cahana yolumun bələdçisidir", "o, mənim dərdimi çəkdi", "o, şəfqətin məndən əsirgəmir", "o, mənim kimi ədəbsizə qul oldu", "o, məni ram etdi", "mənim kimi bir dəcəlin əlindən başını götürüb qaçmadı", "mənim kimi torpaqdan çıxmışla oturub-durmağı o qənimət bildi".

Nizamiyə görə, qəlbini nəfsin əsarətindən xilas etmək istəyən insan müəllimə itaət etməlidir. İtaətsiz nəticə yoxdur: "utandığımdan başımı aşağı saldım", "ədəb üçün qulağımı qulluq halqasına saldım".

Şairə görə, qəlbi nəfsin əsarətindən xilas edərkən tətbiq ediləcək təlim metodu riyazətdir – çətinliklərlə arındırmaqdır: “riyazətdən əl çəkməyin mümkün olmadığını görüb, o xacədən riyazət qəbul etməli oldum”.

İnsan qəlb adlı müəllimin bələdçiliyi ilə addım-addım irəli gedəcək. Qəlb yavaş-yavaş təmizlənəcək. Qəlb təmizləndikcə insan qəlbin şəffaf aynasından dünyanı başqa rəngdə görəcək, qəlbi uca Allahın (c.c) rəhmətinə qovuşduqca varlığına sükunət hakim olacaq: “xacə mənim ətəyimi o qəm tikanından azad etdi, məni yaxama qədər gülə bürüdü”, “mən lalə dodaqları kimi gülümsədim”, “köynəyimi gül kimi yüz yerdən cırdım”, “lalə öz qəlbini mənim canıma tapşırdı”, “gül isə kəmərini qurşağıma bağladı”, “güldən-gülə budaqdan-budağa qaçdım”...



Qəlbin təmizlənməsi hər an davam edir, qəlb arındıqca şövq artır, uca Allahın (c.c) lütfü daha güclü hiss edilir: “birdən vəfa ətri gəldi”, “küləyin incə səsi fəsahətli bir dil ilə Məsihin nəfəsi kimi mənim ürəyimi diriltdi”.

Qəlb rahatlıq tapan tələbəsini arxayınlaşmağa qoymur, onu uca məqamlara uçmağa təşviq edir: “atdan düş, özündən çox dəm vurma, yoxsa səni öz mənliyindən çıxararam”.

Qəlb arındıqca uca Allahın (c.c) bərəkəti bir yağmur kimi yağır, qul qəlb gözü ilə dünyaya baxır, ilahi sirləri kəşf edir: “o çeşmə Günəşdən daha parlaq idi, Xızır yox, mavi göylər də bu çeşməni heç yuxuda da görməmişdi”, “yasəmənlik onun yatağı idi”, “onun oyaq nərgizləri yuxulu idi”, “qaliyə ətirli behişt onun quluydu”...

**Arınmış qəlbin əlamətlərindən biri də onun genişliyidir:** “ora fələklər məmləkətindən böyük bir məmləkətdir”, “fələk dairəsinin hüdudu onun mənzilidir”.

**Arınmış qəlbin əlamətlərindən biri kainatın harmoniyasını kəşf etməsidir.** Bu nizam, ahəng, harmoniya dünyasında ilk baxışda bir-birinə zidd olan anlayışlar, əslində, bir-birinə xidmət edir, arınmış qəlb ölkəsində “vətəndaşlar

arasında", canlı, cansız hər şeyin bir-biri ilə münasibətində həmrəylik, mərhəmət və şəfqət duyğusu hakimdir: "gül çəmənin yaxasında özünə yer etmişdi", "tikan gülün ətəyini ayağı altına çəkirdi", "ahu və tülkü o çəmənlikdə biri göbəyini gülə, o biri isə göbək tüklərini tikana bağışlamışdı", "şəkər gülüşlü güllərdən tutu xəcalət çəkərək öz qanadlarını yaşıllığa sərmişdi", "təzə otlar şir kimi əlində şəkər tutmuşdu", "ahu o otların şəkərindən dadıb şir kimi məst olmuşdu", "güllərin gərdəyindən şimal mehi cilvələnirdi", "ceyranlar otların budaqlarından çiçəkləri ovlayırdı", "xeyri gülləri bir-birinə sarmaşıb, gül rəngli ənbər üçün yelpik olmuşdu", "yasəmən və gül birlikdə ağıl karvanını qarət edirdilər", "qumru və bülbül bir-birinə qafiyə qoşurdular", "birgünlük süsən İsa diliylə sübhə Musanın əlini xatırladırdı", "faxtə sübh tezdən fəryad edirdi", "yel ümid əli ilə gülün hekayəsini söyüdün müşk ətirli varağına yazırdı", "gah bahar yasəmənin salamına gəlirdi", "gah gül minnətdarlıq üçün tikanın yanına gəlirdi", "türkə oxşayan yasəmən öz çadırını səhrada qurmuşdu", "çadırın aycığı ilə Sürəyyaya ucalmışdı", "hind muğları oraya namaz qılmağa gəlmişdi"...

Nizamiyə görə, arınmış qəlb ölkəsinin vətəndaşlarını sevgi qanunları idarə edir: "kölgə Günəşin dodaqları ilə söz danışırdı", "qum isə suyun xeyir-duası ilə dirilmişdi", "sünbül çiçəyinin busələri nəstərəni yaralayırdı", "qönçənin kirpikləri gülün dodaqlarını yaralayırdı", "söyüdün bədəni sehirlənmişdi, o titrəyirdi, lalənin manqalı ona tüstü səpirdi", "vəhşi gül küləyin nəfəsi ilə söhbət edirdi", "elə bil başı yaşıl cavan ulduz sübhdən yerə deyirdi: "Başın (həmişə) yaşıl olsun (cavan ol)", "otlar o çeşmənin suyu ilə qüsl etmişdi", "çeşmə hurilərin gözlərindən daha parlaq idi", "bayquşlar o yurdu tərk etmişdi", "kölgə Günəşin dodağını dişləyirdi", "yel isə söyüdün başını daraqlayırdı"...

Nizami hər gecə söhbətinin (xəlvətin) sonunda gizli söhbətin bərəkətini açıqlamışdır. Yəni arınmış qəlbin gördüyü gözəllikləri təsvir etmişdir: "qəlbim aşiq oldu", "qəlbim bir gülnəfəslini, şəkərgülüşlünü, gül və şəkərə nəfəs vereni

gördü", "o sevgili öz zülfündən zireh toxumuşdu", "o başdan ayağa qədər duza (məlahətə) boyanmışdı", "hamı onu duz kimi yalamaq istəyirdi", "bağ tutisi onun şəkərinin qabağında xəcalət çəkirdi", "onun çənə alması tutinin başı kimi halqalıydı", "gümüş buxağı turunca bənzəyirdi", "o, gülab idi", "o, yaşıl (cavan) idi", "xalı ürəyi alovlandırırdı", "onun qara xalının dərdindən Ayın üzü büsbütün xala dönmüşdü", "onun ala gözləri ciyərləri Günəşdən çox yandırırdı", "onun ləli gecələri aydan çox işıqlandırırdı", "onun ağzı dar idi", "şəkər dadan dodaqları söz və təbəssüm saçırdı", "üzü dua, qəmzələri dua oxuyurdu".

Arınmış, nurlanmış, mömin olmuş qəlb gözəllikləri gördükcə, ilahi sirləri kəşf etdikcə heyrət və aşiqlik halı yaşayır: "o gözəl cisminin bağını canımın boynundan çıxardı", "ixtiyar və taqətim əlimdən getdi", "dirilik suyu ağzımdan da yuxarı qalxdı", "səbatlı ağlımız divi görəndə işi dəmir zəncirlə nəticələndi"...



**Nizamiyə Görə Aşiq Seçilmiş İnsandır**

Nizami aşiq olmuş qəlbin dərmanını da təqdim edir: "aşiq ürəyin dərdini şadlıqla silmək olmaz", "bu Günəşin nurunu palçıqla örtməyə bənzər", "qəmlinin (aşiqin) həmdərdi və munisi qəmdir", "şərabdan sərxoş olanların çarəsi şərabdır"...

Nizamiyə görə, aşiqi ancaq aşiq olanlar anlar, dərdini aşiq olmayana söyləmə: "ey mənə (çəkilmiş) dağdan (dərdimdən) alnı qızdırmalı, yaşıllığımdan və bağımdan bixəbər olan, sən bu yolun məhrəmi deyilsən".

Nizamiyə görə, aşiqlik seçilmişlikdir, bu yol çətinliklərlə doludur, aşiqin yol yoldaşı, can dostu iradə və səbirdir. Qəlbin arınması ən böyük cihaddır, ən çətin işdir, çətin olduğuna görə də şərəflidir və hər nemətin bir bədəli, ödəniləcək haqqı var. Arınmanın bədəli də onun dəyərinə uyğundur. Aşiq Nizami öz çətinliyini anladır: "sözüm bağ idi, göz yaşlarım onu suvardı" (qəlbimin arınması çox çətin oldu, söz bağımın ağaclarının bitməsi, meyvə verməsi üçün hər bir ağacı göz yaşımla

suvardım, bakirə söz, doğru, yeni, deyilməmiş söz, insanı məna aləminə, ilahi sirlərin kəşfinə aparan söz bakirə, yəni fitrəti pozulmamış, yəni arınmış, yəni günah kirinə bulaşmamış qəlb və ağıldan süzülüb gələ bilər. Haqq yolunu ancaq arınmış qəlbin nuru ilə tapmaq olar. İnsanları Haqqa yönəldən söz demək istəyirsənsə, onun bədəlini ödəyəcəksən. Şair bu bədəl ödəmək zərurətini "bağımı göz yaşımla suvardım", - deyərək dilə gətirir", "məxsus pərdənin arxasında gizlənmiş o vücudun üzü mənim üçün sədaqət surətinin güzgüsüydü". (Gözəl mənalar pərdə arxasında gizlənmişdir, canını qoysan, ömrünü versən, insanların düşüncəsini, qəlbini nurlandıran o mənaları kəşf edə bilərsən). Məna kəşfinə gedən yol uzundur, mərhələlidir, çətindir: "başım dizimin başı üstündə çox oturandan sonra kələfin ucu açılıb ələ gəldi".

Qəlbi təmizləməyin yolu birdir: "mən bu səfəri həqiqət yolu ilə getdim" (batil inancla qəlbi təmizləmək olmaz. Qəlb təmizliyində əsas məqsəd, uca Allaha (c.c) təslim olmaqdır, doğru yolu tapmaqdır, gözəl işlər görüb Onun razılığını qazanmaqdır, tövhid və ədalət inancına sahib olmaqdır. Haqq yolu, uca Allahın (c.c) yolunu ancaq Onun buyurduğu ölçülərlə tapmaq olar).

Nizami deyir ki, qəlbi arındırmaq, məna aləmini kəşf etmək, doğru yolu tanımaq, insanların ağıl və qəlbini nurlandırmaq Nizaminin işidir: "Nizaminin işini Nizamiyə tapşır".

**Arınmış Qəlb Rəhmət Evidir**

Nizami arınmış qəlbi bir rəhmət evi kimi təqdim etmişdir. Şair qəlblərə rəhmətin, bərəkətin, feyzin rahatlıq verdiyi bir gözəl gecə məclisi təsvir etmişdir: "gecə səhər kimi bəzənmişdi", "süfrədə arzu olunan nemətlər var idi", "təzə bahar kimi bir məclis qurulmuşdu", "möcüzəli havalar çalınırdı", "ciyər şamı şamın ciyərini yandırırdı", "ürəyin atəşi atəşin ürəyi kimi alovlandı", "şam süfrəyə qızıl səpirdi"...

Bu rəhmət məclisi sevgi məclisi idi: "şərab noğuldan tez-tez öpüş almağa qalxırdı", "noğulun gözlərindən şəkər, ağ-

zından badam tökülürdü", "şəkərlə badam bir-biri ilə zərif ünsiyyət yaradırdılar", "Zöhrə və Mərrix bir-birinə eşqbazlıq edirdilər", "o nazlı yar aşiqin yaxasından tutub rəqs edirdi", "onların qollarından cavahir saçılırdı", "pərvanə sərxoş idi"...

Bu gecə məclisində aşiqlər özünü cənnətdə hiss edirdilər. Onlar bir-birinin sevgisini qazanmağa çalışırdılar. Heç kəs gecə məclisinin sona çatmasını istəmirdi: "aşiqlər biri-birinə zaman-zaman sovqat yollayırdı", "ürək ürəyə, bədən bədənə və can cana", "o məclisdə yoxluğun şəltəsini yoxluğa atmışdılar", "səhər quşu sübhdən də ağır yuxulu idi", "fələyin ayağı ayın əlindən də möhkəm bağlı idi".

Arınmış qəlbin gecə məclisində olan aşiqlər o qədər gözəl idilər ki, hər kəs onların olduğu məclisə can atırdı: "pərilər (cinlər) yıxılanların ürəyinə hücum etdiyi kimi, pərizadələr (gözəllər) də (aşiqlərə) basqın edirdilər", "ürəklərin yolunda onlar yasəmən əkirdilər, tikanları kirpiklərinin ucu ilə yoldan götürürdülər", "onlar könül meyvəsi, gül dəstəsi idi"...



Qəlb arındıqca insanın dərəcəsi də artır, daha dərin mənalar kəşf edir, varlığı uca Allahın (c.c) ölçüləri ilə görür. Şair qəlbin bu yeni məqamdan gördüyü gözəlliyi bir gözəlin simasında təqdim edir: "qəmzəsinin dili tikanlardan iti idi", "zülfü isə bizim işimizdən daha düyünlü idi", "Məsihin nəfəsi ürəyə hava verdi", "torpağın ağzından dirilik suyu töküldü", "gül yasəmən kimi qulağına qaliyə doldurdu", "Ay fələk kimi çiynində çul gəzdirirdi", "onun yanaqları, dodaqları şəkər və badam saçırdı", "onun hər baxışı cahanın canı olmuşdu", "qara zülfü ağ gümüş üstə tökülmüşdü", "öpüşü şərab kimi adamı yıxırdı", "dodaqları isə Məsih kimi adamı dirildirdi"...

Arınmış qəlb elə bir məqama ucaldı və o ucalıqdan elə dərin mənalar gördü ki, hər kəs heyrətdən ağlını itirdi: "seçilmiş adamların himməti, sadə adamların ürəyi sərsəmlər kimi o işıqdan bihuş oldular", "ağızlar lal oldu, qaşlar danışırdı", "dillər tutulub gözlər danışırdı", "ağıl o dairədə sərxoş qaldı", "taqətin ah çəkmək üçün taqəti qalmadı", "səbrin səsi o pərdədə tutuldu"...

### Cəmiyyətin Dəyişməsi Fərddən, Fərdin Dəyişməsi Qəlbdən Başlayır

Uca Allah (c.c) belə buyurur: “... Heç şübhə yoxdur ki, bir toplumun fərdləri öz iç dünyalarını dəyişdirmədikcə Allah da o toplumun gedişatını dəyişdirməz...”.

Bu bir ilahi qanundur, dəyişimin ölçüsüdür. Cəmiyyətin dəyişməsinin fərddən başlanması qanunudur. Bu qanuna görə, insan iradəli varlıqdır, onun seçimi uca Allahın (c.c) o fərdin və onun bağlı olduğu toplumun qədəri ilə bağlı iradəsi ilə sıx bağlıdır. İnsan öz iç dünyasını dəyişdirməsə, başqalarını dəyişdirə bilməz, özündə nur olmayan başqalarına nur verə bilməz. Bu yasaya görə, özünün və başqalarının ilahi qanunlara uyğun yaşamasını təmin etmək insanın borcudur.

İnsan oğluna dünya həyatında verilən zaman diliminə “ömür” deyilmişdir. “Ömür” sözü “imar” sözü ilə eyni kökdəndir, mənası təmir etmək, dəyişdirmək, islah etməkdir: **“... Sizi torpaqdan yaradan və sizə oranı** (yer üzünü) **imar etmək** (islah etmək) **bacarığı bəxş edən Odur”**.(“Hud”, 11/61)

**Bu qanuna görə fərdi, toplumu islah etməyə sərf olunmayan ömür ömür deyil. Hər fərd bir memardır, o, özünün və cəmiyyətin ömrünü ilahi layihəyə uyğun inşa etməlidir.**

Hz. Nizaminin qəlbin arınması ilə bağlı yazdığı bölmələrin ideyası da bu qanunun bədii ifadəsidir. **O, insanlığa dəyişim, islah, tərbiyə modeli təqdim etmişdir. Bu model islah haradan və necə başlamalıdır sualına cavab verir.** Şairə görə islahat, arınma qəlbdən başlamalıdır. İnsan bədəni bir ölkədir, bir dövlətdir. Bu ölkənin, dövlətin mərkəzi qəlbdir. Qəlbinə hakim olmayan varlığına hökm edə bilməz. Şairə görə, insan ikiyönlü varlıqdır, onun varlığı ruh və nəfsdən ibarətdir. Ruh və nəfs qəlbə hakim olmaq uğrunda amansız mübarizə aparır. Bu mübarizədə ruh ordusunun sıralarında yer almaq, nəfsi məğlub etmək, ruhu qəlb ölkəsinin soltanı seçmək insanın vəzifəsidir. Bu, səbir, ağıl, iradə tələb edən və mərhələli bir işdir.

Qəlbinə hakim olan dünyaya hakim olar. Uca Allahın (c.c) rizasını qazanmağın tək yolu da budur.

**Nizami sadəcə ilahi qanunları insanlara xatırlatmamışdır, o, bu ölçülərə uyğun dəyərlər təqdim etmişdir. Elə dəyərlər ki, yüz illərdir insanlığa bu dünya və axirət xoşbəxtliyinin yolunu göstərir.**

Nizaminin bizə və bütün insanlığa təqdim etdiyi ideya, dəyər, ölçü, mesaj budur: "İnsan qəlbinin soltanı uca Allah (c.c) olsa, o insanın bu dünyası və axirəti bayram olar!" Bu əbədi xoşbəxtliyin dəyişməz qanunudur.

## ŞƏMS TƏBRİZİ ﵀

(d. 1185/1194 / v. 1248)

Əsil adı Şəmsəddin Mühəmməd ibn Əli ibn Məlikdad Təbrizidir. İslam dünyasında Şəmsi Təbrizi olaraq tanınmışdır. Şəmsəddin Təbrizinin Azəri türkü olduğu rəvayət olunur. Füruzanfər, Şəms Təbrizinin Mövlana Cəlaləddin Rumi ilə qarşılaşanda (h.642/m.1245) altmış yaşı olduğunu qeyd etmişdir ki, bu görüş mübahisəlidir.



Böyük ariflərdən olan Məlikdad oğlu Əli oğlu Mühəmməd Şəmsəddin doğulduğu gündən etibarən üstün keyfiyyətlərə sahib olmuş, Allah vergisi olan qabiliyyətlər bəxş olunmuşdur. Eşq "şərabı" ilə başı dönən həqiqət və məna əhli bu ərən Allah aşiqlərindən idi. Hicri altıncı əsrdə Təbrizdə dünyaya göz açmış, hələ uşaqkən və gənclik illərində belə öz zəmanəsinin uşaqlarından üstün keyfiyyətlərinə görə fərqlənmişdir. Çılğın, hərəkətli, duyğu və düşüncə baxımından həmişə irəli baxan və zəmanəsinin digər meyarlarını aşan bu fövqəladə uşaq bizə özünü belə tanıtmışdır;

*"Hələ yeniyetməlik dövrümə çatmamış eşq dəryasına daldım və 30-40 gün heç bir şey yeməz oldum. İstəkdən, iştahdan kəsildim. Günlərlə aclığa və susuzluğa düçar oldum. Günlərin bir günü atam məni danlayaraq belə dedi: "Oğlum! Mən sənin bu vəziyyətindən heç nə başa düşmürəm. Bunun sonu nə olacaq axı?! Bu hərəkətlərin səni fəlakətə aparıb-çıxaracaq." Mən də ona belə cavab verdim: "Ata! Səninlə mənim ata-oğul münasibətimiz bilirsənmi nəyə bənzəyir? Bir toyuğun altına toyuq yumurtaları ilə yanaşı bir dənə də qaz yumurtası qoymuşlar. Vaxtı gəlib çatanda cücələr yumurtadan*

*çıxdıqdan sonra hamısı bir yerdə öz analarının arxasına düşüb gedirlər. Bir gölün qırağına gəlib çatırlar. Qaz yumurtasından çıxan bu cücə dərhal özünü suya vurar. Toyuq da qorxuya düşür və öz-özünə "bu cücə batacaq suda" –deyə düşünməyə başlayır. Suyun kənarında təşviş hissi keçirir. Halbuki, balaca qaz suyun içərisində sevinərək üzməyə başlayır. Bax səninlə mənim aramdakı vəziyyət də belədir. Əgər sən məndənsənsə mənimlə gəl! Yaxud da ki, mən bu dəryanın içərisində sənin kimi deyilsəm, get sən də başqalarına qarış. Bu sözlərim məndən sənə tövsiyə olsun!".*

Bu söylədiklərinə diqqətlə nəzər saldıqda görünür ki, Təbrizidə ilahi eşq fitri bir qabiliyyət olaraq onda uşaqlıqdan mövcud olmuşdur. Heç bir şeyxin mənəvi tərbiyəsindən keçmədən, beləliklə də Hüdayi misalındakılar kimi, "üveysilik" xüsusiyyəti olan bir çox sufi mövcuddur. Ancaq nəzərə alsaq ki, diri tülkü ölü aslandan daha güclüdür, deməli onların da yaşayan kamil bir mürşidin yoluna girmələri tövsiyə olunmuşdur.



Əhməd Əflakinin *"Ariflərin mənqibələri"* adlı əsərində bildirdiklərinə görə Təbriz şəhərində Şəmsəddinə "Şəmsi pərənde" (uçan Şəms) ləqəbi verilmişdi. Bu ləqəb ona həm çox gəzdiyinə görə, həm də tez-tez ziyarət məqsədilə şəhərlər arasında dolaşdığına görə verilmişdir.

"Məqalat" əsərinə baxdıqda məlum olur ki, Təbrizli Şəmsəddin öz dövrünün ən yüksək islami elmlərini; təfsir, hədis, fiqh, fəlsəfə və kəlam elmlərində çox dərin biliklərinə vaqif olmuş, məzhəblərin fiqhi əsaslarını öyrənmişdir. Hətta şafiilərin məşhur beş kitabından biri olan *"Tənbih"* əsərini də tədqiq etmişdir. Şəmsin həmçinin ərəb ədəbiyyatı və filologiyasında dərin biliklərə sahib olduğunu görürük. Uzun illər Suriyanın Hələb və Şam kimi böyük şəhərlərində yaşamış, ərəblərlə birbaşa ünsiyyətdə olmuş, onların dillərini də çox fəsih şəkildə öyrənmişdir. Bunu, yazdığı "Məqalat" əsərinin bəzi ərəbcə bölmələrindən başa düşmək olur. Bir müddət Ərzurumda və digər türk şəhərlərində müəllimlik edən Şəmsin Konyaya niyə və necə gəldiyi məsələsinə qayıdaq:

"Məqalat"-da bu sətirlərə rast gəlirik:

*"Allaha yalvardım. Dedim ki, ya Rəbb! Məni öz vəlilərinlə tanış et, onlarla yoldaş et! Yuxumda "səni bir vəli ilə yoldaş edək" –dedilər. "O vəli haradadır?" –deyə soruşdum. Bir sonrakı gecə bu vəlinin Rum diyarında (Anadoluda) olduğunu mənə dedilər. Bir müddət sonra yenidən gördüyüm yuxuda "Hələ vaxtı gəlməyib, hər işin bir vaxtı var" –dedilər".*

Bu izahdan məlum olur ki, Mövlana da, onu vəlilər mərtəbəsinə yüksəldəcək qüvvətli bir mənəvi lider olmadığına görə zahiri elmlərlə kifayətlənmiş və o səviyyədə qalmışdır. Şəms bunu hiss etmişdi. İçindəki coşqulu hissləri ötürə biləcəyi dərin və geniş bir könül axtarmaqda idi. Axtardığını da Mövlana Cəlaləddin Rumidə tapmışdı.

**İlk Dövrləri**

Şəmsin özünün dediyinə görə o, ilk mənəvi nəsibini Təbrizdə Əbu Bəkir Səlləbaf (səbətci Əbu Bəkir) adlı bir mürşiddən əxz etmişdir. Əflakinin Sultan Vələddən rəvayət edərək bildirdiyinə görə bütün vəlilik xüsusiyyətlərini onda tapmışdır. Ancaq onda şeyxinin belə görə bilmədiyi və heç kimin hiss etmədiyi elə bir şey vardı ki, onu ancaq Mövlana Cəlaləddin görə bilmişdi.



Şəms Təbrizi uzun illər Təbrizdə Şeyx Əbu Bəkr Səlləbafın xidmətçisi oldu. Böyük bir kamillik və müdriklik mərtəbəsi əldə etdi. Ancaq onun bu mənəvi təkamülünü daha da irəli apara bilməyəcəyini görən Əbu Bəkr, insaf və təqdir yolu ilə, ona öz kamilliyini qazanması üçün başqalarını axtarmasını tövsiyə etdi. Bu məqsədlə də səyahətə çıxmasına icazə verdi. Mövlana barəsində Şəms bunları söyləmişdi:

*"Dünyanın heç bir yerində Mövlananın tayı-bərabəri yoxdur. Bütün elm sahələrində, əsas elmlərdə, dini elmlərdə, qrammatika, sintaksis, məntiq elmlərində də mütəxəssislərlə müzakirələr apara bilir, onlardan daha üstün, daha dərin və ədəbli olduğunu göstərirdi. Bəzən istədikdə onlardan daha səlahiyyətli şəxs kimi davranırdı.*

*Mən, ağıl baxımından bilinməsi vacib olan bu elmləri yüz il çalışsam, onda olanın onda-birini əldə edə bilmərəm. Halbuki, o özünü savadsız kimi göstərir və elə hesab edirdi..".*

**Konyaya İlk Gəlişi və Mövlana İlə Görüşməsi**

*"Məqalat"* əsərinin verdiyi məlumatlara görə Şəms hicri 642-ci ildə cəmaziuləvvəl ayının iyimi altısında Konyaya gəlmişdir. Şəkərçilər sarayında bir otaqda məskunlaşır. Orada Mövlananı soruşur. Ona Mövlananın həmən əsnada Məram bağlarında olduğunu, ikindi namazına yaxın şəhərə gələcəyini xəbər verirlər. Şəms də həmən yolun üstündə durub səbirsizliklə Mövlananın yolunu gözləməyə başlayır. Bir müddət sonra Mövlana da bir qatıra minmiş yavaş-yavaş ona tərəf yaxınlaşır. İllərcə içi eşq və sevgi atəşilə yanan Şəms qatırın üzəngisindən tutub salam verir və "Mənə de görüm, Hz. Məhəmməd daha böyükdür yoxsa Bəyazid Bistami?" – deyir. Mövlana da ona "Bu nə sualdır? Hz. Məhəmməd (s.ə.s) peyğəmbərlərin sonuncusudur və ən ucasıdır. Onunla Bəyazid arasında necə müqayisə aparırsan?". Şəms də ona "Elə isə niyə Hz. Məhəmməd hər zaman "Ya Rəbb! Biz səni sənə layiq bir şəkildə bilmədik" dediyi halda, Bəyazid "Məni təqdis edin! Mənim şanım nə ucadır!" –deyə fəxr etmişdir. Mövlana bu sualın böyüklüyü qarşısında özünü itirmiş və bir müddət sonra özünə gəldikdən sonra Şəmsin əlindən tutaraq, yeriyərək onu öz mədrəsəsinə aparmış, onunla qırx gün xəlvətdə qalmış və bu əsnada heç kimlə münasibəti olmamışdır. Bu ərəfədə onun bütün ehtiyaclarını Mövlananın böyük oğlu Sultan Vələd görmüşdür.



Bu ilk ziyarət əsnasında hər iki Haqq aşiqi tam üç ay birlikdə xəlvətdə qalıb, gecə-gündüz oruc, namaz, ibadət və mənəvi söhbətlə məşğul olmuşdular. Bu əsnada heç çölə çıxmamışdılar. Mövlananın elmi söhbətlərindən, irşad məclislərindən məhrum qalan camaat, xüsusilə də gənclər bunu fürsət bilərək Şəms haqqında ədəbsiz sözlər söyləməyə başlamış və düşməncə fikirlər yaymışdılar. Konya şeyxlərindən bir sofu

şəxs də "Əfsuslar olsun! Müdriklər sultanı olan Bəhauddin Vələdin oğlu bir təbrizli əxlaqsızın arxasınca düşdü. Artıq Xorasan torpağının yetişdirdiyi dəyərlərə, təbrizlilərin fikirlərinə tabe oldu"-deyərək, camaatı ona qarşı təhrik etməyə başladı. Bəzi konyalılar da "Görəsən Mövlanada o qədər ağıl yoxdurmu ki, adi bir təbrizlinin təsirinə düşdü!? Mövlana dünyadan əl çəkmiş adamdır, halbuki Şəms dünyapərəst bir adamdır"-dedilər. Bu dedi-qodulardan xəbər tutan Mövlana onlara belə demişdi: "Siz Şəmsəddini başa düşmədiyinizə görə onu sevmirsiniz. Əgər sevsəydiniz onu belə çirkin sözlərlə qarşılamazdınız". Bəziləri də "Bu Şəmsəddin nəsə bizim ürəyimizə yatmır"-dedilər.

Mövlananın Şəmsəddinlə görüşməsi ona elə bil ki, itirdiyi qiymətli bir sərvəti Şəmsin mənəvi şəxsiyyətində, onun vəlilik xəzinəsində tapmasına şərait yaratdı. O, Şəmsin güclü mənəvi şəxsiyyəti qarşısında elə məst oldu ki və ruhu da elə bir coşqun hala gəldi ki, bütün gündəlik işlərini, müftülük, müdərrislik, vaizlik kimi işlərini bir tərəfə qoydu. Getdikcə Şəmsin ətrarında pərvanə olmağa başladı. Bütün xarici münasibətlərini kəsdi və artıq xüsusi bir aləmin içərisinə dalmışdı. Gözü, qulağı Şəmsin söhbətlərində və irşad hərəkətlərində idi. Ancaq ona yönəlmişdi və bütün günü onun dizinin dibində oturmağa başlamışdı.

Yuxarıda da qeyd etdiyimiz kimi, bu səbəblə də onun haqqında dedi-qodular çoxalmağa başlamışdı. İş artıq düşmənçilik və ədavət səviyyəsinə gəlib-çatmışdı. Bunu edənlər də daha çox Mövlananın yaxınları, onun tələbə və söhbət yoldaşları idi. Bu fəsad mühitini daha da qızışdırırdılar. Şəmsəddin haqqında danışılan bu dedi-qoduları və düşməncə münasibətləri başa düşürdü. O, artıq başa düşürdü ki, bir damla su belə kasanı daşırmağa yetə bilərdi. Ona görə də özünü bu düşmənçilik çənbərindən xilas etmək qərarına gəldi. Bir gecə Konyadan çıxıb-getdi və yoxa çıxdı. Onun hara getdiyini heç kim bilmirdi. Hicri 641-ci ilin şəvval ayının 21-də bir cümə axşamı gününə təsadüf edən bu ayrılıqdan sonra onun Şama getdiyi məlum oldu. Bu ayrılıq demək olar ki, 16 ay çəkdi.

Şəmsin Konyadan ayrılması nəinki Mövlananı öz əvvəlki vəziyyətinə qaytarmadı, əksinə, onun bağrı həsrət və ayrılıq atəşilə daha da güclü yanmağa başladı. Beləliklə də onun sağlamlığı pozuldu. Heç kimlə danışmamağa, məcslislərdə iştirak etməməyə başladı. Qəm, kədər və hicran içərisində yenə xəlvətə qapandı. Ayrılıq atəşi içərisində öz son nəfəsini vermək üzrə ikən Şamdan gələn bir məktub onu yenidən ümidləndirdi və imdadına yetişdi. Bu Şəmsəddindən gələn bir məktub idi. Mövlananın gözlərində yenidən ümid işığı və həyat günəşi parıldamağa başladı. Çünki Şəmsin Şamda olduğunu öyrənmiş və "itkin düşən xəzinənin" yerini tapa bilmişdi. Şəmsin məktubu belə başlayırdı:



"Mövlanaya məlum olsun ki, bu zəif kimsə xeyir-dua ilə məşğuldur. Heç bir kimsəylə əlaqəsi yoxdur. Mən söhbətlərimdə olanların hər birinin əhvalı ilə tanış oldum, dostlar özlərinin nə olduğunu mənə göstərdilər. Onların içərisində qəlbi diri olan bir dəyərli dərvişlə rastlaşdım. O elə bir dərviş idi ki, Mövlana, əgər onun iç üzünü və həqiqi yönlərini bilsəydilər ona ancaq sevgi ilə yanaşardılar. Ona hörmət etməkdən çəkinməzdilər. On ildən çoxdur ki, burada bu duaçının söhbətində olan həmən köhnə dost Şama yenidən qayıdanda mənə dostluq və səmimiyyət göstərdi".

Şəmsəddinin Şamda uzun müddət qalması Mövlananı çox kədərləndirirdi. Ona bir məktub yazdı və məktuba belə bir qəzəl əlavə etdi:

*"Başlanğıcı olmayan zamandan bəri diri, yaradıcı, qüdrətli və bütün varlıqları yaşadan Ulu Allaha and içirəm ki, Onun nuru yüz minlərlə sir aydın olsun deyə eşq işıqlarını parlatdı. Onun tayı-bərabəri olmayan hökmü ilə* dünya eşq sahibi aşiqlərlə, hakimlərlə və məhkumlarla dolu oldu. Şəms Təbrizinin tilsimlərilə, əfsunları ilə onun ağlı heyrətə düşürən xəzinəsi yoxa çıxdı. Sənin getdiyin gündən bəri ağzımın dadı qaçdı, şam kimi əriməyə başladım. Camalından uzaq qalandan sonra bədənim bir viranə kimi, canım da o viranənin bayquşu oldu. Nə olar, yenə bu tərəflərə bir dön! Eşq filinin xortumunu yenidən hə-

rəkətə keçir! Axşamım səninlə yenidən işıqlı bir səhər olsun! Ey Şam və Rum diyarının fəxri sevgilim!"

Mövlana bu məktubu yazdıqdan sonra böyük oğlu Sultan Vələdi iyirmi atlı, bir neçə yük qiymətli hədiyyə, qızıl və gümüş ərmağanları ilə Şəmsəddini Konyaya gətirmək üçün göndərdi. Dediklərinə görə iki min dinar qızılı Şəmsin başmaqlarının içərisinə dolduraraq onu Konya tərəfinə gətirməsini Sultan Vələdə tapşırdı. *"Məndən salam söylə, aşiqanə səcdə et. Şama girən kimi Salihiyyə bölgəsində məşhur bir saray var, oraya get və mümkünsə bu qəzəli onun hüzurunda oxu!":*

*Gedin ey yoldaşlar, dostumuzu bu tərəfə gətirməyə çalışın!*

*Nəhayət ki, o qaçmış sevgilimi mənə gətirin!*

*Xoş sözlər söyləyərək, müxtəlif bəhanələrlə*

*O gözəl ay parçası sevgilimi evə doğru yeritməyə çalışın!*

Əgər "başqa bir vaxt gələrəm" desə ona aldanmayın!

*Bütün sözləri hiyləlidir, çaşdırıcıdır onun*

*Onun çox isti bir nəfəsi var*

*Cadu ilə, əfsunlarla suya düğüm atar, havanı bağlayar*

Əgər o mübarək sevgilim buraya sevinərək gələrsə

*Oturub baxmaq lazımdır Allahın qəribə işlərinə o zaman, görərsən!*

*Onun gözəlliyi parlamağa başlayarsa, bütün gözəllərin gözəllikləri yox olar*

*Onun Günəş kimi parıldayan üzü qarşısında bütün işıqlar sönər*

*Ey yüngül qanadlı könül quşum, get mənim mənsiz dilbərimə uç!*

*O çox qiymətli mücəvhərimə məndən salam sevgi çatdır!*

Sultan Vələd atasının tövsiyəsinə qulaq asaraq öz yol yoldaşları və dostları ilə birlikdə Şama yollandı. Oraya çatan kimi atasının dediyi saraya getdi. Şəmsin otağının qarşısında ədəbli şəkildə dayandı. Mövlananın məktubunu və hədiyyələrini ona

verdikdən sonra bütün dostların ona etdiklərindən peşman olduqlarını və onu Konyada həsrətlə gözlədiklərini bildirdi. "Ümid eliyirik ki, bizim bu arzumuzu həyata keçirərsən"-deyərək ona yalvardılar. Şəms bu təkliflər qarşısında çox dura bilmədi. Sultan Vələd özü mindiyi ata Şəmsi mindirdi, özü də sevinclə Şəmsin qabağında piyada şəkildə yola düşdülər. Uzun bir yolçuluqdan sonra Konyaya yaxın Zəncirli sarayına gəlib-çatanda atasına bu müjdəli xəbəri vermək üçün bir dərvişi şəhərə göndərdi. Mövlana dərvişin bu xəbərini eşidəndə əynindəki bütün paltarları çıxardaraq həmən dərvişə bağışladı. Bütün Konya camaatına xəbər göndərərək Şəmsin gəldiyini bildirdi. Əmirlərin, alimlərin, kasıbların və əxilərin onu qarşılamaq üçün bir yerə toplanmalarını istədi. Özü də ata minərək bütün Konyanın məşhur adamlarını əhali ilə birlikdə Şəmsi böyük sevgi və həyəcanla qarşılamağa şəhərə getdi.



Şəms səfər müddətində Sultan Vələdin ona göstərdiyi xidmətdən və hörmətdən razı qaldığını ona bildirmişdi. Bu ikinci səfərdə Mövlananın Şəmsə qarşı sevgisi və sədaqəti bir az daha çoxalmışdı. Ona əvvəlkindən də çox hörmət göstərməyə başlamışdı. İllərlə bir-birindən ayrı düşən bu aşiqlər bir-birinə elə bağlanmışdılar ki, sanki heç vaxt ayrılmayacaqdılar. Mövlana Məsnəvisində bunu aşağıdakı misraları ilə bildirmişdir:

*Onun üzünü görəndə gül kimi açıldı, sevindi*
*Vüsalda ayrılıq bağlarından qurtuldu, azad oldu*
*"Ey canların ətrafında döndüyü Haqq ankası"-dedi*
*"Şükür ki, Qaf dağından yenidən qayıtdın!"..*
*Ey eşqin, qiyamət meydanının İsrafili*
*Ey eşqin eşri, ey eşqin könlünün istədiyi sevgili!*
*Ey tək Günəş! Yüz minlərlə dəfə səni dinləmək arzusu ilə ağlım başımdan çıxdı*
*Sənin bildiyin qəlb sözlərimi, həmişə sağlam ağça kimi qəbul edən sən idin!*

Şəmsin rahatlıq və rifah içərisində yaşaya bilməsi üçün övladlıq kimi yetişdirdiyi Kimya adlı gözəl və gənc qızı da

Şəms ilə evləndirdi. Ancaq yenə də müridləri içərisində qısqanc olanlar hərəkətə keçdilər. Dedi-qodulara, arxasından pis-pis danışmağa başladılar. Əflakinin bildirdiklərinə görə bu ikinci gəlişdə də tam altı ay Şəms ilə Mövlana mədrəsədəki bir hücrədə xəlvətə çəkildilər. Rəvayətə görə, yemə-içmə kimi bəşəri ehtiyaclardan belə uzaq bir həyat tərzi keçirirdilər. Onların yanına Kuyumçu Səlahəddin və Sultan Vəléddən başqa heç kim girə bilmirdi. O biri tərəfdə də Şəmsi sevməyənlər fürsət tapan kimi onu təhqir edirdilər. Şəms bir müddət bu təhqirlərə dözdü, səsini çıxarmadı. Ancaq vəziyyət daha da dözülməz olmağa başlayanda bu işi Sultan Vələdə danışdı. Ona belə sərzəniş etdi: "Bu camaatın pis rəftarlarından elə bir yerə gedəcəyəm ki, izimi heç kim tapa bilməyəcək". Bir müddət keçdikdən sonra qəflətən ortadan yoxa çıxdı. Ertəsi gün dostunu görmək üçün mədrəsəyə gedən Mövlana otağının boş olduğunu gördü. Bahar buludları kimi, gözlərindən yaşlar axmağa başladı və tez Sultan Vələdin evinə getdi. Yüksək səslə "Dur Bəhaəddin, oyan! Niyə yatırsan? Dur şeyxini axtarmağa get! Çünki canımız yenə onun gözəl qoxusundan məhrum qalacaq!"-deyərək fəryad qoparmağa başladı. O "həqiqət günəşindən" bir müddət xəbər gözlədilər. Ancaq heç bir yerdən bir xəbər çıxmadı. Mövlana artıq bu hadisədən sonra gecə-gündüz onun ayrılığını tərənnüm edən şeirlər və qəzəllər yazmağa başlamışdı. Digər bir tərəfdən də onu yenə Şam tərəflərində axtarmaq üçün səfər hazırlıqlarına başlamışdı. Bəzi dostları və yoldaşları ilə Şama gedərək orada aylarca Şəmsdən bir xəbər almaq üçün axtardılar. Təəssüf ki, heç bir nəticə əldə edə bilmədən yenədən Konyaya qayıtdılar. Bu hadisə 645-ci ilin cümə axşamına təsadüf edirdi. "Sipəhsalar Mənaqibi" –nin müəllifi Feridun Ahmed belə yazırdı: "Bu səfər əsnasında Mövlana belə bir qəzəl söyləmişdi:

*"Biz Şamın başını itirmiş aşiqi, Şamın dəlisiyik*
*Şamın sevgilisinə canımızı vermişik, qəlbimizi bağlamışıq*
*Rum ölkəsindən Şam tərəfinə, yarın yurdu Şama tələsirik*
*Onun axşam qaranlığı kimi qara kəkillərindən Şamda yenilənirik*

*Salihiyyə bağında elə bir mücəvhər mədəni vardır ki*
*Onu axtarmaq üçün Şam dənizində boğulmuşuq*

Əgər Təbrizin Haqq günəşi Şəmsəddin oradadırsa

*Biz də Şamın quluyuq, köləsiyik*
*Həm də ki, nə xoşbəxt bir qul, nə xoşbəxt bir kölə!"*

Şəmsin yoxa çıxması sirli bir hadisə olaraq qalmışdı. Əflakinin qeyd etdiklərinə görə guya Sultan Vələd belə demişdi: "Bir gecə Şəmsəddin xəlvətdə Mövlana ilə birlikdə oturanda bir adam gəlib Şəmsi çağırır. Şəms tez yerindən ayağa durur və Mövlanaya "məni öldürmək istəyirlər"-deyir. Bir müddət gözlədikdən sonra "yaxşı bilin ki, maddə və məna aləmi Allaha məxsusdur" –deyərək çölə çıxır. Qapının arxasında pusqu qurmuş yeddi nəfər onu bıçaqlayırlar. Şəms o əsnada elə yüksək səslə nərə çəkir ki, ordakıların hamısı yerə sərilir. Ayılanda isə bir neçə damla qandan başqa heç bir izin olmadığını görürlər".



Mənbələrin bəziləri onun yoxa çıxdığını bildirsə də, məzarının hal-hazırda mövcud olan məscidində olduğu və Mövlananın vəfatından sonra onun üstündə türbə tikildiyi də məlumdur.

Təbrizi diyar-diyar gəzən, digər şeyxlərlə fikir alış-verişində olmaqdan zövq alan, öz əlinin zəhməti ilə dolanan, çox vaxt qara keçədən bir paltar geyinən, insanlara yük olmaqdan çəkinən, riyakarlıqdan uzaq, özü və sözü bir olan, insanların mənfəəti üçün çalışan, xidmət etməkdən böyük həzz duyan istedadlı bir Allah dostu kimi tanınmışdır. Şəmsəddin Təbrizi qərib həyat tərzi sürmüş, öz qərib ruhunu da 1247-ci il dekabr ayının 5-də çox sevdiyi Rəbbinə təslim etdi.

Ondan bu günə qədər yadigar qalan tək əsər isə "Məqalat" əsəridir. "Məqalat" ilə "Məsnəvi" arasında çox yaxın bağlar var. "Məsnəvi"-ni izah etmək üçün əvvəlcə "Məqalat"-ın oxunması faydalı olar. Təbrizinin söhbətlərinin məcmusu kimi dəyərləndirilən "Məqalat" tez-tez ayə və hədisləri mənbə göstərir eyni zamanda  digər sufilərin sözləri və şeirləri ilə zənginləşdirilmişdir.

## ŞEYX ƏDƏBALİ ﵀

**(d. 1206 / v. 1326)**

Ədəbali həzrətləri Osmanlı Dövlətinin mənəvi banisi, Osman Qazinin qayınatası və ustadıdır. 120 il yaşamışdır. Təhsilinə böyük ehtimalla Karamanda başlamış, Şamda başa vurmuşdur. O dövrün bütün tanınmış alimlərindən dərs almış, zahiri və batini elmlərdə misli görülməmiş elmi səviyyə qazanmışdır.

Monqol istilasından sonra böyük təlatüm və böhran içində olan Anadolunun bu bəladan xilas olması üçün əlindən gələni əsirgəməyən şəxsiyyətlərin başında Ədəbali həzrətləri gəlir. O, bəyliklərə parçalanaraq, ciddi yara almış Anadolu birliyini yenidən təsis edərək İslam bayrağını kafirlər qarşısında qələbə ilə dalğalandırmaq üçün çalışırdı. Bu məqsədini həyata keçirmək üçün bütün Anadolu bəyliklərini həssaslıq və dəqiqliklə dəyərləndirir, fikrində götür-qoy edirdi. Səlcuqluların mirasına sahib olmaq üçün bir-birləri ilə didişən bəyliklər Şeyx Ədəbaliyə ümid vermirdi. Nəhayət, hələ dörd yüz atlıdan ibarət gücə malik olan və uç bəyliyi təsis etməkdə olan və gələcəyi haqqında heç kimin parlaq fikirdə olmadığı Osmanlı Bəyliyini təhlil edən Ədəbali həzrətləri bu kiçik bəylikdə axtardığı ülvi cövhəri tapdı. İstər Osmanlı Bəyliyinin yerləşdiyi coğrafi ərazi, istərsə fərdlərindəki İslama xidmət həyəcanı və eşq ilə dolu ilayi-kəlimətullah anlayışı Şeyx Ədəbali həzrətləri üçün mükəmməl zəmin təşkil edirdi.

Bunun üçün bütün fərdləri ilə birlikdə Osmanlı mülkünə yerləşdi və bütün səy və himmətini bu bəyliyin maddən və

mənən böyüyüb inkişaf etməsi üçün sərf etməyə başladı. İlk növbədə Biləcikdə bir zaviyə quraraq xalqı, xüsusilə də başda Osman Qazi olmaqla bəyliyin idarəçilərini irşad üçün səfərbərliyə başladı. Tarixçi Aşıqpaşazadə zaviyənin heç vaxt boş qalmadığını, Şeyx Ədəbalinin gəlib keçən dərviş və füqəranın bütün ehtiyacını təmin etdiyini, hətta bu məqsədlə daim qoyun sürüsü saxladığını qeyd edir.

Osman Qazi gənclik illərindən etibarən elm və təsəvvüf əhlini çox sevər, xüsusilə mübarək gün və gecələrdə ustadı Ədəbali həzrətlərinin yanına gedərək ondan feyz alardı. Osman Qazinin Qurani-Kərimə hörmət və təzimi nəticəsində gördüyü yuxusunu şeyxin yozması və qızını ona ərə verməsi məşhur hadisələrdən biridir.



Şeyx Ədəbali həzrətlərindən sonra onun mənsub olduğu əxi şeyxliyinin kimə keçdiyi bilinməsə də, tələbəsi Dursun Fakihə icazət verdiyi haqda rəvayət vardır. Ancaq bu icazət və xilafət daha sonralar nəvəsi I Murad Xana keçmişdir.

Ədəbali həzrətləri eyni zamanda ilk Osmanlı qazısı və müftisidir. Uzun illər xalqa hüzur və feyz saçaraq uzun ömür sürmüş, 1326-cı ildə vəfat etmişdir.

Rəhmətullahi Əleyh!

Ədəbali həzrətləri xeyli sayda tələbə yetişdirmişdir. Qabaqcıl tələbələrindən sayılan Dursun Fakih özündən sonra Osmanlı Dövlətinin ikinci müftisi və baş qazısı olmuşdur.

Şeyx Ədəbali həzrətləri Osman Qaziyə nə verdi?

Şeyx Ədəbali həzrətləri Osman Qaziyə həqiqi "zəfər"in nəfsə qalib gəlmək və onun tələsinə düşməmək olduğunu öyrətdi. Özündən sonra gələn mənəviyyat sultanları da Osman Qazinin davamçılarına eyni dəstəyi verdilər. Bu Allah dostları dövlət və millətin bəla və müsibətlərdən böhrana düşən və zərər çəkən könüllərinə məlhəm oldular, bir növ şəfqət qucağına çevrildilər. Dövlətlərin qədərində rol alan qəhrəmanlar hər zaman bu irşad və ruhaniyyətə möhtac ol-

muşlar. Haqq dostları bu qəhrəmanların könül aləmlərini zənginləşdirərək onları İslam, Quran və Sünnənin dillərə dastan olan hörmət və məhəbbətiylə feyzləndirmişlər. Onlara zəfərlərinin əsl səbəblərini və sirrini dərk etdirmişlər. Dünyada ən ehtişamlı nəsli ortaya çıxarmışlar. Bu eşq və vəcd I Muradın şəhadəti kimi fədakarlıqlarla kamal nöqtəsinə çatmışdır. Mədineyi-Münəvvərənin müdafiəsi üçün Yəmən səhralarında qərargah quran bu nəsil Allahın dinini dünyanın dörd bir tərəfinə şərəflə çatdırmışdır.

Məhz həmin cəngavər ruhlar son damla qanlarına və son nəfəslərinə qədər Həzrət Peyğəmbərin (s.ə.s) mənəvi, şərəfli əsgərləri oldular. Bu nəslin layiqli davamçıları axan alovlu lavalar altında İstanbul surlarına dırmanarkən sanki şəhidliyi öz aralarında bölüşə bilməyərək:

"- Bu gün şəhid olmaq növbəsi bizdədir!",- deyərək bir-biriylə yarışırdılar.



Çünki bu yarışın təməlini qoyan kamil və ruhani könüllər torpağın altında çürüməz. Elə 623 illik Osmanlı İmperatorluğu da Ədəbali silsiləsinin müstəsna könül əsəridir. Deyə bilərik ki, Ədəbali həzrətlərinin ortaya qoyduğu əsər bir çox alimlərin mirası kimi kitablar olmamış, bir-birini izləyən, iman və İslam yolunda səfərbər mücahid nəsillər olmuşdur.

Beləliklə Həzrət Peyğəmbərdən (s.ə.s) qaynaqlanaraq səhabə nəsilində təzahür edən o ruh Şeyx Ədəbali və onun kimi Haqq dostlarının eşq, vəcd və ruhaniyyətləri ilə Osmanlı tarixinin cəngavər nəsillərinə silsiləvari şəkildə ötürülmüşdür.

Elə buna görə də osmanlılar qurduqları dövləti yeni bir dövlət hesab etməyib Həzrət Peyğəmbərin (s.ə.s) Mədineyi-Münəvvərədə qurmuş olduğu dövlətin bir davamı surətində dərk etmək bəsirətini göstərmişlər. Ancaq Allah-Təala bu aləmdə daimilik təcəlli etdirmədiyi üçün hər bir varlığın faniliyə məhkum olması ilahi təqdiri nəticəsində Osmanlı da böyüyüb inkişaf etmiş, kamala çatmış və nəhayət, məlum və məchul olan bəzi səbəblərin zühuruyla tarixə qarışmışdır.

Lakin dünya, xüsusilə də Orta Şərq hələ də Osmanlının təmin etdiyi sülh və əmin-amanlığa möhtacdır. Çünki onu yıxan imperialist zehniyyət mövcud zəmini öz istismarına alət edə bilmək üçün Osmanlıya təbii varis ola biləcək maddi və mənəvi bir gücə sahib varisin ortaya çıxmasını əngəlləmək üçün onun mirasını qırxa hissəyə ayırmış və bununla da məlum dövlətciklər yaranmışdır. Xülasə, qərblilər bir aslan dərisini parçalayıb qırx tülküyə kürk etməyə çalışmış, ancaq bunlardan heç biri balaca aslan balası da ola bilməmişdir.

Bu istedada müəyyən qədər sahib olan bugünkü Türkiyənin yüksəlmək və inkişaf etmək üçün qarşılaşdığı maneələr də məqsədi düşmənçilik olanların əsəridir. Ancaq başda dünya sionizmi olmaqla bu fikrə qulluq edənlərin fitnə və fəsadlarına baxmayaraq İslamın ölkəmizdəki dirçəlişinin qarşısı alına bilməməkdədir. Çünki insanlar nə qədər plan qursalar da, ən xeyirli və həyata keçmə şansı olan plan daim Allahın planı olmuşdur. Və Onun ilahi muradı qarşısında bütün güclər səfil və başıboş qalmaqdan xilas ola bilməmişdir.



Həqiqətən bu gün maddəpərəst dünya ateistlərinin mənfi rəftarına baxmayaraq başda Anadolu olmaq üzrə bütün İslam aləmində o möhtəşəm ruhaniyyətin əsərləri mövcuddur. Qurumuş ağacların kökündən cücərən yeni fidanlar kimi bizi gözləyən günlərdə bu irsimizdən mübarək nəslin yetişməsi danılmazdır. Çünki Həzrət Peyğəmbərin (s.ə.s) ruhaniyyətinin bir təzahürü olan bu iddianın qiyamətə qədər zail olmayacağı bir iman qaydasıdır. Artıb-azalmalar eynilə bir yoldakı eniş-yoxuşlara bənzəyir. Kommunizmin çöküşündən sonra materializmin İslamı “yeni düşmən” kimi göstərməsi və dünya üzərində yetişən “yaşıl nəsil” təhlili də hər zaman İslamın vəd etdiyi gələcək səbəbiylədir. Möminlər bilirlər ki, Allahın nurunu tamamlamasına heç bir əngəl mane ola bilməz. Dünyanı udmaq iddiasında olan kommunizmin topsuz-tüfəngsiz yıxılması və həzin aqibəti insanı sabaha ümidlə baxmağa sövq etmək nöqteyi-nəzərindən kifayət qədər açıq bir misaldır.

Allah-Təala buyurur:

**“Küfrə can atanlar səni kədərləndirməsin! Əlbəttə, onlar Allaha heç bir zərər yetirə bilməzlər, Allah da istər ki, axirətdə onlara heç bir pay verməsin. Onları böyük bir əzab gözləyir!”** (Ali-İmran, 176)

Uca Mövlamız İslamın yenidən dirçələrək yüksəlməsini həyata keçirəcək əməlisalehlərdən bizə də səmərəli bir lütf etsin!

Amin!..

**Şeyx Ədalinin Osman Qaziyə Nəsihətləri**

Osmanlı dövlətinin qurucusu olan Ərtoğrul Qazi böyük mürşid Ədəbali həzrətlərini özünə rəhbər saymış, oğlu Osman Qazini də onun tərbiyəsinə həvalə etmişdir.

*“Bax oğul!*

*Məni incit, Şeyx Ədəbalini incitmə.*

*O, əşirətimizin mənəviyyat Günəşidir! Onun tərəzisi bir dirhəm də olsun yanılmaz!*

*Mənə qarşı çıx, ona qarşı çıxma!..”* deyən Ərtoğrul Qazi bu vəsiyyəti ilə Osman Qazini Ədəbali hzərətlərinə təslim etmişdir.

Ədəbali həzrətləri də Osman Qazini öz tərbiyəsi və himayəsi altında yetişdirmiş, ona mərifətullahın zövqünü daddırmış, qayğıkeş, əxlaqlı, təmkinli olmağı aşılamışdır. Beləliklə onu böyük bir dövlətin padşahı, qurucusu kimi hazırlamışdır. Bu baxımdan Osmanlı dövlətinin əsl memarının Şeyx Ədəbali həzrətləri olduğunu desək, yanılmarıq.

Şeyx Ədəbali həzrətlərinin Osman Qazini və ondan sonra gələcək dövlət adamlarını istiqamətləndirəcək tövsiyələrindən bir qismini burada dilə gətirmək yerinə düşərdi:

*“Ey oğul!*

*Bəysən! Bundan sonra qəzəb bizə, mülayimlik sənə!.. Kimisə incitmək bizə; könül almaq sənə!.. Acizlik bizə, yanılmaq bizə; xoş görmək, bağışlamaq sənə!.. Keçimsizliklər, ziddiyyətlər, uymazlıqlar, anlaşmazlıqlar bizə; ədalət sənə!.. Pis göz, boşboğazlıq, haqsız yorum bizə; bağışlamaq sənə!..*

*Ey oğul!*

*"Bundan sonra bölmək bizə; bütünləmək sənə!.. Ərincəklik bizə; xəbərdarlıq, həvəsləndirmək sənə!.."*

Ey oğul!

*"Yükün ağır, işin çətin gücün tükə bağlı. Allah-Təala yardımçın olsun! Bəyliyini mübarək qılsın. Haqq yolunda yararlı etsin! İşığını parlatsın! Nurunu uzaqlara çatdırsın. Sənə yükünü daşıyacaq güc, ayağını sürüşdürməyəcək ağıl və qəlb versin.*

*"Sən və yoldaşların qılıncla, bizim kimi dərvişlər isə düşüncə, fikir və dualarla bizə vəd edilənin önünü açmalıyıq. Əngəli qaldırmalıyıq."*



*"Oğul!*

*Güclü, qüvvətli, ağıllı və söz sahibisən… Amma bunları harada və necə istifadə edəcəyini bilməzsənsə, səhər küləyində sovrulub gedərsən... Hirsin və nəfsin əlbir olub ağılına qalib gələr. Ona görə daim səbirli, dözümlü və iradənə sahib ol!.."*

*"Səbir çox önəmlidir! Bir bəy səbr etməyi bilməlidir! Vaxtından öncə çiçək açmaz! Kal armud yeyilməz; yeyilsə belə, bağrında qalar. Bülövsüz qılınc da eynən kal armud kimidir."*

*"Millətin öz irfanı içində yaşasın! Ona arxa çevirmə. Onun varlığını həmişə duy. Milləti idarə edən də, diri tutan da bu irfandır!"*

"Oğul!

İnsanlar vardır ki, şəfəq vaxtında doğular, axşam azanında ölərlər."

*"Dünya, sənin gözlərinin gördüyü kimi o qədər də böyük deyil. Bütün fəth edilməmiş gizliliklər, məchullar yalnız sənin fəzilət və ədalətinlə gün işığına çıxacaq."*

*"Ananı və atanı say! Bunu bil ki bərəkət böyüklərlə birlikdədir."*

*"Bu dünyada inancını itirsən, yaşıl ikən quraq olar, səhraya dönərsən."*

*"Açıq sözlü ol! Hər sözü üstünə alma! Gördün, söyləmə; bildin, demə! Sevildiyin yerə tez-tez gedib-gəlmə, məhəbbət və etibarın zədələnər…"*

*"Üç nəfərin halına acı: cahillər arasındakı alimə, zəngin ikən kasıblaşana və mötəbər olub sonra etibarını itirənə!.."*

*"Unutma, yüksəkdə yer tutanlar aşağıdakılar qədər təhlükəsizlikdə deyillər."*

*"Haqlı olduğun mübarizədən qorxma! Bil ki, atın yaxşısına doru, igidin yaxşısına dəli deyərlər."*

*"Ən böyük zəfər nəfsini tanımaqdır. Düşmən insanın özüdür. Dost isə nəfsi tanıyanın özüdür!"*

*"Axacaq qan boş yerə axmamalı: ona yol və yön lazımdır! Zira qan torpaq sulamaq üçün axmamalıdır!!!"*

*"Şəxsin gücü günün birində tükənər, amma elm yaşar, elmin işığı qapalı gözlərdən belə içəri sızar, aydınlığa qovuşdurar."*

*"Ölkə onu idarə edənin oğulları və qardaşlarıyla bölüşəcəyi ortaq mal deyil. Ölkə yalnız idarə edənə aiddir. Öldükdən sonra yerinə kim keçərsə, ölkənin idarəsi ona keçər. Vaxtilə səhv edən atalarımız həyatda ikən dövlətlərini oğulları və qardaşları arasında bölüşdürdülər. Buna görə yaşaya bilmədilər, yaşada bilmədilər.." (Bu nəsihət Osmanlını 600 il yaşatmışdır)*

*"İnsan bir dəfə oturdusa, yerindən asanlıqla qalxa bilməz. İnsan tərpənmədincə uyuşar. Uyuşduqca işi-gücü sözdən ibarət olar. Söz dedi-qoduya çevrilər. Dedi-qodu başladımı, artıq işlər cığırından çıxar. Dost, düşmən olar, düşmən canavar kəsilər…"*

*"İnsanın sahib olduğu güc günlərin birində tükənər, amma elm yaşayar. Elmin işığı yumulmuş gözlərdən də içəri sızar, onu işığa çıxarar."*

*"Heyvan ölər, səməri qalar; insan ölər əsəri qalar. Gedənin deyil, əsər qoymayanın ardınca ağlamalı… Onun da qaldığı yerdən davam etməli."*

*"Savaşı sevmirəm, qan axıtmaqdan xoşlanmıram, amma bilirəm ki; qılınc qalxıb enməlidir! Fəqət bu qalxıb enmə yaşatmaq üçün olmalıdır! Yoxsa, insanın digərlərinə qılınc endirməsi bir cinayətdir. Bəy məmləkətdən artıq deyildir! Bir savaş yalnızca bəy üçün başlamaz."*

*"Durmağa, istirahət etməyə haqqımız yoxdur! Çünki zaman yox, vaxt azdır!"*

*"Yalnızlıq qorxaqlar üçündür. Torpağın əkin zamanını bilən əkinçi başqasından məsləhət almaz. Tək başına qalsa da... Yetər ki, torpağın tavda olduğunu bilsin."*

*"Məqsəd sevgi olmalıdır. Sevmək isə səssizlikdə kamala çatır. Bağırmaq xoşa gələn bir şey deyil! Gözə girməklə də sevilmək mümkün deyil!"*

*"Keçmişini bilməyən gələcəyini də bilməz. Osman! Keçmişini yaxşı bil ki, gələcəyə sağlam addımlarla irəliləməyi bacarasan. Haradan gəldiyini unutma ki, haraya gedəcəyini unutmayasan."*

## MÖVLANA CƏLALƏDDİN RUMİ ﷺ

(d. 1207 / v. 1273)

Cəlaləddin Rumi hicri 604-cü ilin (miladi 1207) rəbiüləvvəl ayının 6-da Xorasanın Bəlx şəhərində anadan olmuşdur. O, "Məsnəvi"-sinin giriş qismində öz adını Məhəmməd ibn Məhəmməd ibn Hüseyn əl-Bəlxi kimi təqdim etmişdir. Ləqəbi isə Cəlaləddindir. "Ağamız", "əfəndimiz" mənasındakı "Mövlana" ünvanı onu ucaltmaq məqsədilə verilmişdir. Doğulduğu şəhərə istinadən bəzən Bəlxi kimi də tanınmışdır. Həmçinin yaşadığı bölgələrə nisbətlə "Rumi", "Mövlaneyi-Rumi" və müdərisliyinə görə də "Molla Hünkar" , Mollayi-Rum" kimi adlarla da məşhur olmuşdur.



Mövlananın atası Bəhauddin Vələdin Hz. Əbu Bəkr nəslindən gəldiyi bildirilmiş və ana tərəfdən də Hz. Əliyə qədər gedib-çıxdığı qeyd olunmuşdur. Zəmanəsində "Sultanul-Üləma" ləqəbi verilmiş atasından kiçik yaşlardan etibarən təsəvvüfi təsirlər alan Mövlana ilk təsəvvüfi bilgisini atası vasitəsilə Kübrəviyyə təriqətindən almışdır. Atasının Nəcməddin Kübra (vəfatı h. 618/m. 1221) tərəfindən təsis olunan və zahidliyə çox əhəmiyyət verməsilə bilinən Kübrəviyyə təriqəti ilə yaxın əlaqələri olmuşdur. Buna görə də, həmən təriqətin Mövlananı hələ kiçik yaşlarından etibarən təsiri altına aldığı şübhəsizdir. Atasının ölümündən sonra Mövlananın təsəvvüf təlimi ilə atasının tələbələrindən biri olan Seyyid Bürhanəddin Muhaqqaq Tirmizi (vəfatı h. 642/m. 1244) məşğul olmuşdur.

Mövlana elmi təkamül məqsədilə dövrünün məşhur elm mərkəzlərindən olan Şam və Hələbə gəlmişdir. Çox məşəq-

qətli və çətin bir təhsil həyatına sinə gərərək bu şəhərlərdə yeddi ilə yaxın qalan Mövlana, dövrünün dini elmlərində alim bir kimsəyə çevrilmişdi. O, digər bir çox mütəsəvvif kimi həyatının bu dövrlərində tədris yolu ilə əldə edə biləcək elmlərdə dərin biliklərə yiyələndikdən sonra müəllimi Seyyid Bürhanəddinin nəzarətində Kübrəvi üsuluna görə seyri-süluka başlamış və demək olar ki, iki il mənəvi riyazat dövrü keçirmişdi. Seyyid Bürhanəddin Mövlanadakı bu mənəvi təkamülü müşahidə etdikdən sonra düşünmüşdü ki, onun Mövlanaya verə biləcəyi bir şey qalmamışdır. Buna görə də Konyadan və Mövlanadan ayrılıb Kayseriyə qayıtmışdır. Bundan bir il sonra da orada vəfat etmişdir.



Müəllimi Seyyid Bürhanəddinin vəfatından sonra Mövlana Konyada başda fiqh dərsləri olmaqla digər islami elmləri 4 ilə qədər tədris etmişdir. Camelərdə vermiş olduğu dərslərində camaatın sevgisini qazanan Mövlananın fəziləti və xeyirxahlığı hər tərəfə yayılmışdı. Mövlana həyatına bu şəkildə davam edərkən Şəms Təbrizinin Konyaya gəlməsi Mövlananın həyatında və təsəvvüfi düşüncəsində çox böyük dəyişikliyə səbəb olur. Tələbələrinə dərs verib irşad etməklə məşğul olan bir alim və öz həyatını təsəvvüf həyatına uyğun bir təmkinliklə keçirən bir sufi olan Mövlananı Təbrizdən gələn bu şəxs sanki tamamilə dəyişdirir, onu həyəcanlı bir Haqq aşiqinə çevirir.

Şəms ilə qarşılaşdıqda Mövlananın yaşının 40, Şəmsin isə yaşının 60 olduğu mənbələrdə qeyd olunur. Təsəvvüfi nəşvəsi baxımından rind məşrəbli bir dərviş olan Şəms Mövlanadakı eşq atəşini alovlandırmış, ancaq onun bitməz-tükənməz alovu Şəmsi yandırıb-yaxmışdır.

Mövlana Cəlaləddin Rumi ailəvi şəkildə Konyada məskunlaşdıqdan sonra təhsilini yekunlaşdırmaq üçün Hələbə və Şama gedir. O əsnada onun təqribən otuz yaşı var idi. Bir gün Şamın izdihamlı bazarında gəzərkən qəribə geyimli bir nəfər ona:

"Ver əlini öpüm! Ey aləmlərin sərrafı!"-deyir.

Cəlaləddinin əllərindən möhkəm yapışır və onu öpür. Bundan sonra da izdihamın içərinə girib yoxa çıxır. Cəlaləddin Rumi gözlənilmədən baş verən bu hadisə qarşısında çaşıb qalır. Baş verənlərin nə olduğu barəsində düşünməyə başlayır. Əsrarəngiz və qəribə xüsusiyyətli olan bu adam sanki bilinməz bir müəmmaya çevrilir.

Cəlaləddin Rumi illər sonra bir gün Konyadakı mədrəsəsində dərsdən çıxıb tələbələri ilə söhbət edərkən, Şamda onun əlini öpərək onu təəccübləndirən həmən adamı yenidən görür. Bu şəxs Təbrizli Şəms idi. O da Cəlaləddin Ruminin söhbətlərində iştirak edir. Çox qəribə bir tərzdə ona belə bir sual verir:

"Bəyazid Bistami böyükdür, yoxsa Hz. Məhəmməd Mustafa (s.ə.s)?

Mövlana Həzrətləri bu sual qarşısında heyrətə düşür və deyir:

"Bu nə sualdır? Heç aləmlərə rəhmət olaraq göndərilmiş olan uca bir peyğəmbərlə, işi ancaq ona təslim olmaqla keçən bir vəli müqayisə oluna bilərmi?".

Təbrizli Şəms isə təmkinini pozmadan sualını belə izah edir:

"Elə isə niyə Bəyazid Bistami Rəbbindən cəhənnəmə girməyi, orada heç bir günahkara yer qalmayacaq qədər bədəninin böyüdülməsini istəyən bir adam olduğu halda, kiçik bir ilahi təcəlladan sonra "şanım nə ucadır! Özümü təqdis edirəm" –demişdir. Halbuki Hz. Peyğəmbər (s.ə.s) saysız-hesabsız təcəllalara baxmayaraq ancaq təvazökarlıq içərisində olmuş, nail olduğu nemətlərlə kifayətlənməyərək Rəbbindən yenə də bol-bol tələb etməkdən çəkinməmişdir?"

Bu sözlər Hz. Mövlananı sırf ağlın izah edə bildiyi zahiri elmin ən son sərhədlərinə qədər aparıb çıxarmışdır. Bu nöqtə ilə kifayətlənərək bu suala cavab vermək isə qeyri-mümkündür. Şəms öz mənəvi hal gücü ilə onu bu nöqtədən də irəli apar-

mışdır. Bunun irəlisi ucsuz-bucaqsız "lədunni aləm"-dir. Beləliklə də Şəms öz həmsöhbətini, əslində mövcud olduğu halda ondan xəbərsiz olduğu bu mənəvi iqlimin üfüqlərinə kəşf və səyahətə çıxarmışdır.

Bu ani hadisələrin təsiri ilə Hz. Mövlana əvvəllər əzbərləmiş olduğu zahiri elmi oxumalarından istifadə edərək belə cavab verir:

"Bəyazidin "şanım nə ucadır! Özümü təqdis edirəm!" sözləri doymuşluq əlamətidir. Yəni onun mənəvi susuzluğu kiçik bir təcəlla ilə yatışdırılmış oldu. Ruhu isə heç bir şey tələb etməz hala gəldi. Mənəvi sərxoşluq olan səkrə sürükləndi. Əslində okyanusun həcmi sonsuz idi, ancaq onu bu qədəri ilə kifayətləndi.



Hz. Peyğəmbər (s.ə.s) isə ***"Biz sənin sinəni açıb genişlətmədikmi?"*** (əl-İnşirah surəsi, 1) sirrinə nail olmuşdu. İlahi təcəllalar onu hər tərəfdən ehtiva etmişdi. Dünya qədər geniş olan qəlbi heç cür doymaq bilmirdi. Susadıqca susayırdı, içdikcə susuzluğu daha da çoxalırdı. Hər an bir haldan başqa bir hala ucalırdı. Hər yüksəlişdə də bir əvvəlki halına tövbə edirdi. Buna görə də *"Mən gündə yetmiş dəfə* (başqa bir rəvayətdə isə "yüz dəfə"ifadəsi keçir) *tövbə edirəm"* (Buxari, Dəavat, 3; Müslim, Zikr, 41)-demişdir. Çünki o hər an öz Rəbbinə bir az daha yaxınlaşmaq istəyirdi. Çünki istəyi sonsuz, bəndə ilə Rəbb arasındakı məsafə isə çox sonsuzdu. Buna görə də bir neçə dəfə belə demişdi:

*"Ya Rəbb! Səni lazımi şəkildə, layiq olduğun kimi tanıya bilmədim. Sənnə haqqı ilə ibadət edə bilmədim.."* (Münavi, Fövzul-Qadir, II, 520).

Şəmsin vəzifəsi öz müxatabının idrakını, qəlbi dərinliyini zahiri elmlərin çata bilməyəcəyi bir mərtəbəyə yüksəltməkdi. Buna gör də aldığı bu cavabdan sonra öz məqsədinə çatan bir insanın sevincinə bənzər şəkildə sevinir. Beləliklə də bu iki mənəviyyat ulduzunun arasında həyat boyu davam edəcək olan nurani bir bağ ortaya çıxmış olur.

Bundan sonra Mövlana Həzrətlərinin ruhuna həkk olunmuş mənəvi okean fasiləsiz olaraq dalğalanmağa başlayır. Həmən anda Mövlananın qəlbi qığılcımdan alovlanmış "neft dənizi"-nə bənzəyir. Təbrizli Şəms Mövlananın qəlbini də belə alovlandırmış oldu. Ancaq bu atəş qarşısında özü də yanmış olur. Bu mərhələdə artıq mənəvi idrakla ilahi nəsiblər eyniləşmiş olur.

Əvvəllər tamamilə zöhd həyatı içərisində ibadətlə məşğul olan müdərris Mövlana bu hadisədən sonra birdən-birə coşğun bir həyacana qapılır. Şəms Təbrizinin vəzifəsi də bu məna "dənizini" alovlandırmaq idi.

Buna görə də Mövlana (qüddisə sirruh) eşq, vəcd və istiğraq dolu həyatını üç kəlmə ilə və üç mərhələ şəklində ifadə etmişdir:

**"Xamdım, Bişdim, Yandım!.."**

Son mərhələlərin təsəvvüfdəki adları "fəna fillah" və "bəqa billah"-dır.



Bəndə "fəna fillah" məqamında nəfsani varlığını yox etmiş və onun bütün ehtiraslarını ortadan qaldırmışdır. "Bəqa billah"-da isə  Allahın qəlbdəki bütün təcəllaları hiss olunur. Bu məqama çatan bəndənin qəlbində artıq Allahın nuru parıldamağa başlayır.

İnsanlardan bəzilərinə öz varlıq və əzəmətlərinin üfüqlərinə doğru yönəlmə səlahiyyətlərinin və gücünün verilməsi Rəbbin müstəsna lütfkarlıqlarından biridir. Belə insanlara bu "yolçuluqda" rəhbərlər də verilir. Bunlar bəşər tarixinin yüz illərini dolduran sadə hadisələrin öyrətmədiyi zirvələrdir. Bax Şəms də Mövlananı bu səfərə çıxarmış bir rəhbər idi. Mövlana da ruhunda həkk olunmuş və onunçün idrakı mümkün olan lədun elminin rəhbərini sırf vəfa duyğusu səbəbilə ömrünün sonuna qədər unuda bilməmişdir. Baxmayaraq ki, onu çoxdan aşmışdı. Bəlkə bundan sonra Şəms mürid mövqeyində idi.

Mövlana Həzrətləri Konyada qırx yaşında olarkən Şəms ilə görüşmüşdü. Bu görüşmədən əvvəlki halını Qəzzalinin halına bənzətmək mümkündür. Həzrəti Yunis Həzrəti Mövlana haqqında belə demişdir:

*Mövlana Xüdavəndigar*
*Bizə nəzər edən gündən*
*Onun görklü nəzəri də*
*Qəlbimizin aynasıdır!*

Mövlana Həzrətləri əvvəlki dövrlərində sadəcə bir fiqh alimi idi. Hüquq mütəxəssisi idi. Müdərris idi. Çoxlu tələbələri var idi. Zəngin, mal-mülk sahibi adam idi. Şəms ilə görüşəndən sonra daha böyük fəqih, daha fərqli bir hüquqçu olmadı. Zahiri elmlərində bir irəliləyiş olmadı. Bunları çoxdan aşmışdı.

Cəlaləddin Rumi Şəms ilə qarşılaşdıqdan sonra isə əsil Mövlana ortaya çıxdı. O, Şəms ilə görüşməsindən əvvəl bir alim idi. İndi isə alim bir aşiq, bağrı alovlanmış bir arif olmuşdu.



Mövlana (qüddisə sirruh) belə demişdi:

**"Eşq Kimi Bir Müəllim Yoxdur!".**

O, öz əvvəlki alimlik dövrünü "xamdım" deyərək ifadə etmiş, sonrakı halını isə aşiq bir alimə çevrilmiş kamillik kimi vəsf etmişdi.

Əsas mövzu "Şəms Mövlanaya nə verdi?" , "nə öyrətdi?"-suallarının cavabıdır. Bu da Şəmsin ona ağlın əsarətindən xilas olmağın yollarını göstərməsidir. Çünki ağlın sərhədləri məhduddur. Ondan sonrası dəlilikdir. Qəlbin sərhədləri isə sonsuzdur. Son dayanacağ nöqtəsi isə "fəna fillah" məqamıdır.

Şəms Cəlaləddin Rumiyə özünü, sahib olduğu dəyərləri göstərərək ayağındakı zincirlərdən xilas etdi. Çünki Mövlana uçmağa hazır olan bir qartaldı. Şəms onun ayağındakı bu buxovları açdı. Ona könül pəncərələrindən "uzaqları" göstərdi.

Bundan sonra Həzrəti Mövlana işığın ətrafında fırlanan pərvanələri kimi Şəmsin təcəllələrının cazibəsinə qapılaraq yanmağa başladı.

Hz. Mövlana "Divani-Kəbir" - də Şəms ilə başlamış olan bu macərasını belə bildirmişdir:

*"Şəms Mövlanaya:*

*"-Alimsən, başçısan, rəhbərsən, səltənətin var!"-dedi.*

*Mövlana da ona belə cavab verdi:*

*"-Bundan sonra zahir aləminin alimi deyiləm, başçısı deyiləm, rəhbəri deyiləm. Sənin məşəlinin işıqlandırdığı ağılüstü bir aləmdə fəqir və qərib bir səyyaham!" –dedi.*

Şəms yenidən:

*"-Səndə hələ də ağıl var!. Bu səbəblə divanə olmadığına görə bu evin də məhrəmi deyilsən!"-dedi.*

*Mövlana isə belə cavab verdi:*

*"-Bundan sonra ağlıma qəlbimlə bir hicab örtdüm. Divanə oldum. Himmətin hesabına bu aləmin məhrəmiyəm!".*

Şəms dedi:

*"-Səndə hesab var! Səkr (mənəvi sərxoşluq) halında deyilsən. Bu aləmdən kənardasan. Bu aləmi işıqlandıran ağıl deyil, eşqdir. Sən önünü görə bilmirsən!"*

*Mövlana Şəmsə belə cavab verdi:*

*"-Bundan sonra himmətinlə başdan-ayağa atəş oldum. Hər tərəfimi eşq və səkr basdı!".*

Şəms bu dəfə belə dedi:

*"-Sən bir camaatın məşəlisən. Məqamın yüksəklərdədir!"*

*Mövlana isə:*

*“Bundan sonra artıq o məşəlim də söndü. Gözümdə onların işıq saçan böcəklərin yanıb-sönən parıltısından heç bir fərqi qalmadı. Artıq başqa məşəlin nuruna tərəf yeriyirəm!”-dedi.*

Şəms ona dedi:

*“-Sən ölü deyilsən! Hələ də zahiri diriliyini qoruyursan! Bu qapıdan obirisinə belə halda girilməz. Fani varlığını, bütün ehtişam və dəbdəbəsi ilə tərk etməlisən”.*

*Mövlana:*

*“-O, əvvəllər belə idi. Səni tanıdıqdan sonra insanların bildiyi mənada diri deyiləm. Başqa bir diriliyə qovuşaraq öldüm!”-dedi.*

Şəms ona:

*“-Hələ də nəfsani istinadların var. Məqamın, mənsəbin qalıb. Bunlardan da xilas ol!”-dedi.*

*Mövlana isə:*



*“Bundan sonra sənin məni apardığın lədun aləmində mövqe və mənsəb axtarmağa başlayacam. Əvvəlki varlığıma aid hər şeyi tərk etdim. Onlardan xilas oldum”-dedi.*

Şəms:

*“-Qolun-qanadın var. Mən sənə qol-qanad verə bilmərəm”-dedi.*

*Mövlana:*

*“-Bundan sonra sənin qolun-qanadın ola bilmək üçün öz qol-qanadımı sındırdım”-dedi.*

Şəms bu etirafdan sonra vəzifəsini yerinə yetirdiyi qənaətinə gəldi və ona, ilahi təcəllalar ilə dolu olan əbədiyyət üfüqlərində yanmaq üçün qanad verdi. Çünki onu vüslat ləzzətindən qoparıb ayrılıq həsrətinin bərəkətli iqlimində tək başına buraxmışdı.

Necə ki, müsəlmanların iman günəşi, Hz. Ömərin İslam dinini qəbul etməsilə daha da parlamağa başlamışdı, Şəms Təbrizi Həzrətlərinin də mənəvi vəzifəsi Həzrəti Mövlana ilə kamilliyə çatmışdı. O vaxta qədər heç kəsin cahan şeyxi

olduğunu bilmədiyi Həzrəti Şəms, Həzrəti Mövlananın məhəbbət işığı ilə nurlanmış və dillərə dastan olmuşdu. Bu iki böyük mürşidin bir-birlərinə olan məhəbbət və ehtiramları isə həqiqi bir mürid-mürşid münasibətini çox gözəl şəkildə ifadə etmişdir.

Həzrəti Şəmsin Həzrəti Mövlanaya verdiyi hədiyyə, məhrumiyyət, həsrət və məhəbbətdən başqa bir şey deyildi. Bu məhəbbət və həsrətin ən gözəl nümunələrini səadət dövründə Həzrəti Əbu Bəkirin (radiyallahu anhu) və Həzrəti Fatimənin (radiyallahu anha) həyatında müşahidə edirik.

Hz. Əbu Bəkir Siddiq Rəsulullahla (səllahu əleyhi və səlləm) hər dəfə görüşəndə fərqli bir vəcd və istiğraq halı içərisinə girirdi. Onun yanında olarkən belə ona olan məhəbbət və həsrəti sakitləşmək əvəzinə daha da artır və çoxalırdı.

Aşiqlərın başının tacı olan Həzrəti Fatimə (radiyallahu anha), Rəsulullah axirətə köçdükdən sonra belə demişdi:

*"Kainatın fəxrinin axirət aləminə köçməsi ilə mənim üstümdə elə bir müsibət yaranmışdı ki, bu zülmət qaranlığın üstünə düşsə qaranlığın rəngi dəyişərdi"*

Bu məhəbbət və eşq yolunda addımlayan Həzrəti Mövlana da Şəmsi itirdikdə onun həsrəti ilə yanıb-tutuşmuşdu. Onun bu ayrılıq və həsrəti nəticəsində 26 000 beytdən ibarət olan "Məsnəvi"-si meydana gəlmişdi.

Həqiqətən də "Məsnəvi" bir məna və sirr dəryasıdır. Təsəvvüfi həqiqətləri və ruhun incəliklərini onun qədər gözəl ifadə edən kitab nadirdir. Mövlana bəşər təfəkkürü ilə çətin başa düşülən təsəvvüfi mövzuları, ruhani ifadələr və hikmətli hekayələr içərisində oxuyucuların qəlbimə həkk etməkdədir.

Həzrəti Mövlana "Məsnəvi"-ni belə tərif etmişdir:

*"Məsnəvi -həqiqətə çatmaq, ilahi sirrlərə aşina olmaq istəyənlər üçün nurlu bir yoldur".*

"Məsnəvi"-ni şərh edənlər:

"Qurani-Kərimin " اِقْرَأْ" (oxu), "Məsnəvi"-nin " بِشْنَو" (dinlə) diyə başlamasını izah edərkən, "dinlə" kəlməsinin "oxu" sözünün təfsiri olduğunu söyləmişlər: "Kəlami-ilahini dinlə! Sirlərə qulaq as! Səndə həkk olunmuş həqiqətləri dinlə!"-şəklində başa düşülməsini istəmişlər. Başqa bir ifadə ilə desək, "Məsnəvi" Qurani-Kərimin həqiqət və əsrarından könül əhlinə təqdim olunan şəbnəmlərdir. Məsnəvi Həzrəti Mövlananın könül aləminin sətirlərdə şəkillənməsi və misralara əks etməsidir. Məsnəvi Həzrəti Mövlananın Şəms ilə başladığı lədunni səyahətində çatdığı dərin həqiqətlərdən bütün insanların idrak və ehtiyaclarına görə yazılmış bir "lütfnamədir". Çünki ayrılıq sirrini ən açıq şəkildə Həzrəti Mövlana vəsf etmişdir. Onun;

*Mərifət sahibi insanı təmsil edən neyi dinlə!*
*Ayrılıq şikayətlərinin həyəcanını iç!*

-deyə başlayan Məsnəvisi çox gözəl bir ayrılıq əsəridir. "Nuri-Məhəmmədi" Həzrəti Mövlanaya Şəms kanalı ilə verildiyinə görə Şəmsin ayrılığı da bir firqətdir.

Onu sonsuz məna dəryasında könül səfərinə çıxaran Şəms Təbrizi olduğuna görə həyat boyu ruhu, işığın ətrafında fırlanan pərvanə kimi onun cazibəsində olmuş və onu axtarmışdır. O, artıq Məcnun kimi çata bilmədiyi Leylasının eşqi ilə yanıb-tutuşmaqla məsul olmuşdur. Şəmsin sağ olduğunu deyən bir adama üstündə nə varsa verirdi. Dostları isə bunun yalan olduğunu deyəndə onlara belə cavab verirdi:

*"-Mən onun yalanına bunları verdim. Doğru olsaydı canımı verərdim!".*

Həzrəti Mövlana bu ayrılıq atəşində yanan könül dərdini belə ifadə etmişdir:

*"Mənim dəruni aləmim, görəsən nəyə görə fəryad eyləyir?"*

*"Mənim dərdimə, iztirabıma kim şahid olur?"*

*"Hər kəs məni öz qabiliyyətinə və təmayülünə görə dinləyir. Pis bir adam məni öz pis hissləri ilə tanıyır, ona görə başa düşür. Haqq*

*yolçusunun isə mənimlə ruhaniyyəti artaraq, hissiyyatı coşur və ney də ona şəfa verir"*

Həzrəti Mövlana "Məsnəvi"-sində neyə qulaq asanların, onun sədası ilə ülvi duyğulara çatmalarını diləyir. Bir rübaisində belə deyir:

*"Neyə qulaq as! Bax, gör o, nə söyləyir. Allahın gizli sirlərini faş edir. Üzü saralmış, içi boşalmış, başı kəsilmiş, yaxud da neyzənin nəfəsinə möhtac qaldığı halda dilsiz, kəlamsız fəryad edərək "Allah", "Allah" –deyir"*

Eşq və məhəbbət atəşilə yanmış Haqq ərənlərini təmsil edən ney, öz bağrında ülvi bir eşq atəşinin alovlandığı sazdır. Çünki o, yetişdiyi qamışlıqdan kəsilib qopardılmış, bağrı odla dağlanaraq dəliklər açılmışdır. Başına, ayağına, hətta düyümləri arasına belə təbii həlqələr taxılmış, yəni qandallara məhkum edilmişdir. Buna görə də qupquru və sapsarı olmuş, rəngi solmuşdur. Bu məna ney öz hal dili ilə belə deməkdədir:

*"Mən əvvəllər qamışlıqda idim. Köküm və qəlbim suda və torpaqda idi. Orada istədiyim kimi dolaşıb, hər əsən küləyə görə yaşayırdım. Ancaq bir gün gəldi, məni kəsib qamışlıqdan apardılar. Bədənimi eşq atəşi ilə qurutdular, sonra dəldilər. Vücudumda müxtəlif yaralar açdılar. Sonra da məni nəfəsi güclü olan birinin əlinə verdilər. Onun isti eşq nəfəsləri mənim içimdən keçdi. Bu nəfəs içimdə eşqdən başqa hər şeyi yandırıb külə çevirdi. Məni özündə əritdi. Mən inləyib, fəryad etməyə başladım. İçimdən gələn bu fəryadlar bütün sirrimi faş etdi. Qısacası bütün sirrlərim, məndə səs halına döndü. Ancaq gözləri, qulaqları və qəlbləri pərdələnmiş olanlar mənim bu sirrimdən məhrum və uzaqdılar".*

İnsan da eynilə belədir. O, ilahi aləmdəki mövqeyindən bu dünyaya gətirilmiş və bəşər missiyasına bürünmüş, ayrılıq atəşilə qəlbi dağlanmış, parça-parça edilmişdir. Ancaq hər insanda ortaya çıxan bu həqiqət, təfəkkür və hissiyat baxımından fərqlənmiş, insani-kamil səviyyəsində olanda təzahür etmişdir. Yəni idraka görə zahirə çıxmışdır.

Beləliklə də üstün və kamil insan baxdığı hər yerdə, gördüyü hər şeydə ilahi hikmət və sirli naxışları seyrə dalan insandır. İlahi sirlər və sənəti görüb Haqq qarşı olan məhəbbətin eşqi ilə yanmamaq necə mümkün ola bilər?

Buna görə də Mövlana (qüddisə sirruh) insani-kamil halına gəlməyib, ilahi əsrarı dərk etməyə gücü çatmayanlar sərzəniş edir. Bir atəşin içərisindədir. Onunla eyni halı yaşayan dərdli Yunis şeirlərindən birində belə deyir:

*Mən bir qəribəliklə gəldim*
*Heç kim halım bilməz mənim!*
*Mən söyləyib, mən dinlərəm*
*Heç kim dilim bilməz mənim!*

*Mənim dilim quş dilidir*
*Mənim elim dost elidir*
*Mən bülbüləm, dost gülümdür!*
*Bilin, gülüm solmaz mənim!*



Bu şəkildə ifadə etdiyi əhvali-ruhiyyə içərisində özünə bir təsəlli axtarır. Başqa bir beytində isə belə deyir:

*"Əshabi-Kəhf, onları eşitməyən və başa düşməyən bir qövmün içərisində qaldıqlarına görə yatızdırıldı. Ruhani bir camaat yarანandan sonra isə oyandırıldılar"*

Həzrəti Mövlana doğru və dərin şəkildə başa düşülmək məsələsində o qədər həssas davranmışdır ki, "Məsnəvi"-nin ön sözündə belə demək məcburiyyətində qalmışdı:

*"Qəlbi təmiz, riqqətli olanlardan və həqiqətə aşina olanlardan başqalarının bu Məsnəviyə toxunmaları qadağandır".*

Çünki Həzrəti Mövlana da bir çox həqiqət yolçuları kimi sözlərini səhv başa düşüb, başqalarına səhv çatdıranlardan bezmişdi. Belə kəslərə xəbərdarlıq edərək demişdi:

*"Bu can bədəndə olduğu müddətdə Həzrəti Qurana bəndəyəm, qulam. Həzrəti Muhəmməd Muxtarın (s.ə.s) mübarək və nurlu yolunun torpağıyam..*

*Kim mənim bu dediyim sözlərdən başqasını nəql edərsə, mən o adamdan da uzağam, onun sözlərindən də..."*

Konya öz iqlimini, rəngini, ahəngini ondan almışdır. Yeddi əsrdir ki, ondan feyiz-yab olurlar. Həzrəti Mövlana, Məsnəvi və Konya elə bil ki, eyni mənanın müxtəlif təzahürləridir. Birinin adını çəkəndə, o biriləri yada düşür.

Həzrəti Mövlana (qüddisə sirruh) yaşayan, hiss edən bir qəlbin macərasını canlı bir kitaba çevirərək bəşəriyyətə böyük bir ərmağan vermişdir. Məsnəvinin məzmununu onun bu iki beyti ilə xülasə etmək mümkündür:

*"Əgər sənin qəlbin varsa, qəlbin Kəbəsini təvaf et! Torpaqdan, daşdan tikilmiş Kəbənin də həqiqi mənası qəlbdir"*

*"Uca Allah görünən, bilinən surət Kəbəsini təvaf etməyi pisliklərdən təmizlənmiş, paklanmış bir könül Kəbəsini qazanmaq üçün fərz qılmışdır"*

Məsnəvi dərin sirlərlə dolu olan bir kitabdır. İnsanın kəşf olunması və insan ruhunun kəlmələrə köçürülmüş rəsmidir. Həzrəti Mövlana bəşər ruhunun dərinliklərinə enmiş, insanın daxili mənasını müşahidə etmişdir. Bax Məsnəvi də bu təsbitlərin elanından ibarətdir. Həzrəti Mövlana aşağıdakı beytlərdə xilqət sirrini və bəşərin iç dünyasını nə gözəl şəkildə ifadə etmişdir:

*"Mən qul oldum, qul oldum, qul oldum.."*

*"Mən aciz bir qul, qulluğumu yerinə yetirə bilmədiyim üçün utandım. Mən buna görə başımı önə əydim.."*

*"Hər kölə azad olunan kimi sevinər. İlahi! Mən isə sənə qul-kölə olduğum gün sevindim.."*

Bu ifadələr Həzrəti Mövlanadakı qulluq şövqünü və həyəcanını göstərmək üçün kifayətdir. Çünki Uca Allah insanın yaradılış qayəsinin də qulluq (bəndəlik) olduğunu bəyan etmişdir:

وَمَا خَلَقْتُ الْجِنَّ وَ الْاِنْسَ اِلَّا لِيَعْبُدُونَ

**"Mən insanları və cinləri yalnız mənə bəndəlik etsinlər deyə yaratdım"** (əz-Zariyat, 51/56)

Məsnəvi Həzrəti Mövlananın müridi Hüsaməddin ilə söhbətidir. Onunla başlayır, onunla davam edir. İkisindən biri söhbətdən ayrılan kimi bu mənəvi "alış-veriş" də dayanır. Nəql olunma kəsilir. Birləşdikdə isə qəlblər dolur. Beytlər də bir-birinin dalınca gəlməyə başlayır.

Həzrəti Mövlana (qüddisə sirruh) belə deyir:

*"Mən bu Məsnəvini Hüsaməddinə görə yazdım".* Sanki o, öz sözünü bütün camaata deyə bilmədiyinə görə kədərlidir. Çünki Şəms kimi bir eşq dəryasını itirmişdir. Bəlkə də Mövlana Məsnəvisini Şəms ilə birlikdə yazsaydı daha başqa sirləri faş edən beytlər təzahür edər, onlardan da təsiredici fikirlər ortaya çıxardı.



Həzrəti Mövlananın məşrəbindən olan Fəriduddin Əttar (qüddisə sirruh) da onun kimi, onu başa düşən və sirrini söyləyə biləcəyi bir dostunun olmamasından gileylənmişdir. Onun da aşağıdakı sözləri, elə bil ki, Mövlana ilə eyni qədərdə olduqlarını ifadə etmək üçün söylənmişdir:

*"Mən bir quş idim və sirrlər aləmindən uçdum. O qədər uçdum ki, aşağılardan bir "ov" alıb, yuxarılara aparam. (yəni sirrimi başa düşən bir dost tapam). Ancaq sirrimi başa düşən bir adam tapa bilmədim. Elə gəldiyim qapıdan da çıxdım, getdim".*

Həzrəti Mövlana (quddisə sirruh) Məsnəvisində bir-birinin arxasınca yüzlərlə hekayə nəql etmişdir. Bu hekayələrdə mühakimə və müqayisə yolu ilə insanların dərs çıxarmalarını istəmişdir. Yəni o, bəşər idrakı ilə başa düşülməsi çətin olan abstakt hadisələri konkret hala gətirmişdir. Yoxsa, Məsnəvinin məqsədi insanlara nağıl danışmaq olmamışdır. Bunu özü də belə ifadə etmişdir:

*"Məqsədim qissələrdən (hekayələrdən) hissələr (ibrətlər) çıxarmaqdır. Yoxsa, sənə nağıl danışmaq fikrim yoxdur!"*

Nəsihət, tövsiyə və xəbərdarlıqlarını bu hekayələr vasitəsilə ortaya qoyan Həzrəti Mövlana, nəql etdiyi qissələrin təməlindəki həqiqi məna və ruhun başa düşülməsini tələb edir:

*"Ey qardaş! Hekayələr bir meyvəyə bənzəyir. Məna isə içindəki tuma. Ağıllı insan içindəki tumu alar. Qabığına baxmaz!"*

*"Hekayənin zahirinə qulaq as! Ancaq qabıqla meyvəni bir-birindən ayırmağı unutma!"*

*"Elə bilməyin ki, mənim bu nəql etdiyim hekayələr qupquru bir nağıldır. Təfəkkür et! Bu mənimlə sənin bu günkü halımızdır!"*

Yuxarıdakılardan da başa düşüldüyü kimi, Həzrəti Mövlananın hekayələrində bir çox nəsihət və tövsiyə olduğu, buna görə də verilən misalların özünə yox, onların mənasına diqqət etməyi məsləhət görür.

Həzrəti Mövlana (qüddisə sirruh) hekayələrində və beytlərində təmiz bir qəlbə malik olmağın ancaq peyğəmbərlərin varisi olan mürşidi-kamilin tərbiyəsi altına girməklə mümkün olacağını bildirmişdir. İnsanın öz nəfs əngəlini aşmadan elmin irfana qovuşmayacağını, yaradılış qayəsinə və insan olma heysiyyətinə uyğun olmayacağını, öz cövhərini kəşf edə bilməyəcəyini ifadə edir. Nəfsin təhlükələrindən xilas ola bilmək üçün ilahi əzəmət bir heç olduğunu dərk etmək nəfsin tanınmasını tələb edir. Mərifət yolçuluğuna ancaq qəlbi bir həyat və ilahi eşqlə çıxıla biləcəyini izad edir.

Həzrəti Mövlana yaşanmayan, irfana çevrilməyən bir elmi aşağıdakı şəkildə ifadə edir:

*"Əməli olmayan hikmətli söz, borc alınmış bəzəkli bir paltar kimidir. Bunu belə bil!"*

Bu böyük vəli ölüm gecəsini "şəbi-əruss" (toy gecəsi), yəni dünya qəribliyindən xilas olmaq, vüslata qovuşmaq kimi izah edir. Ölümün – ruhun öz hürriyyətinə qovuşması, ölümsüzlük və əbədiyyətə gediş olduğunu aşağıdakı sözlərlə nə gözəl ifadə etmişdir:

*"öldüyüm gün, tabutumu apararkən məndə bir dünya dərdinin olduğunu zənn etmə!"*

*"Mənim üçün ağlama, "vay", "vah" demə! Məni torpağa basdıranda da "vida" "əlvida" (ayrılıq) demə!"*

*"Qəbir bir pərdədir ki, onun arxasında cənnətin hüzuru var"*

*"Batmağı görmüsən, eləmi? Doğmağı da seyr et! Günəşla Aya qürubdan zərər gələ bilərmi?"*

*"Yerə hansı toxum əkildi, bitmədi?"-deyib narahat olma! İnsan toxumu bitməyəcək deyə kədərlənmə!"*

*"Torpağa qoyulduğumu sanma! Ayağımın altında yeddi qat səma vardır!"*

Belə buyuran Həzrəti Mövlananın ruhu, heç şübhəsiz ki, yeddi qat səmadan aşaraq Rəbbində fani olmuşdur. O, başqa bir qəzəlində isə belə buyurmuşdur:



*"Ey can! Səndə bir torpaq pərdəsi ilə örtülmüş gizli bir həyat var. Burada qeyb aləmində gizlənmiş yüzlərlə Yüsif kimi gözəllər mövcuddur"*

*"Bu bədən surəti, yəni cəsəd torpağa qurban veriləndə o can surəti qalır"*

*"O bədən surəti fani, can surəti isə baqidir"*

*"Bil ki, ölüm ruhun başqa bir aləmə doğulma sancılarıdır. Yəni, bu fani aləm üçün adı ölümdür, lakin baqi və əbədi olan aləm üçün adı doğumdur!"*

*"Həm də ki, canı Allah almırmı? Bil ki, xalis qullar üçün ölüm şəkər kimi şirindir"*

*"Həmçinin ölüm, ataş olsa belə Allaha xəlil olan üçün gülüstandır, abi-həyatdır"*

*"ölümü təhlükəli edən onu çətinləşdirən bu bədən qəfəsidir. Bədəni bir sədəf kimi sındırdığın vaxt, ölümün inciyə bənzədiyini sən özün də görəcəksən"*

Allah dostlarının ən əhəmiyyətli xüsusiyyətlərindən biri də ilahi eşqlə qovrulmalarıdır. Həzrəti Mövlana başqa bir beytində, ruhunda yanan eşq atəşinin ölümlə nəticələnəcəyini ifadə etmişdir:

*"Vəfatımdan sonra mənim qəbrimi aç və içimin atəşi səbəbilə kəfənimdən necə duman çıxdığını gör!"*

Bu sözlərin faş etdiyi eşq halı içərisində Həzrəti Mövlana, ömrü boyu həmişə bu şəkildə yanan həqiqi aşiqləri axtarmışdır. Bu barədə belə buyurur:

*"Mənə elə bir eşq lazımdır ki, içindəki alovdan qiyamət qopmalı, könlününü istiliyi ilə atəşləri belə kül etməlidir! Səmalar, onun günəşləri solduran nuruna baxıb "maşallah", "maşallah" deməlidir.*

Ustad M. Əsad Ərbili (qüddisə sirruh) bu dərəcədə eşq əhli olanların mənəvi mərtəbəsini dilə gətirən bir beytində belə buyurur:

"Bu qədər atəşlə eşq şəhidini yumaq mümkündürmü?

Cəsəd atəşdəndir, kəfən atəşdəndir, şəhidi yuyacaq şirin su belə atəşdəndir"

Ölüm döşəyində olan bir aşiqdən soruşurlar:

*"-ölüm anında necə gülə bilirsən?" Aşiq belə cavab verir:*

*"Uçuram. İndi bütün bədənim dodaq olub gülümsəyir. Bu an dodaqlarım başqa bir gülüşlə gülür!".*

Həzrəti Mövlana belə buyurur:

"Ölüm anında gülməyən kimsəni "şama" bənzətmə! Eşq yolunda ancaq şam kimi əriyənlər əmbər kimi qoxular yayarlar!"

Mövlana Həzrətləri beləliklə də can dodaqları ilə gülümsəyərək bu aləmdən lahuti aləmə köçmüşdür. Ömür boyu həsrəti ilə yandığı "şəbi-ərus"-una qovuşmuşdur.

Vəfatından sonra onun camaatı yağış kimi göz yaşları tökərkən o özü bir dodaq kimi olmuşdu. Öz rəngində qovrulan

bir gül kimi təbəssüm saçırdı. Sultan Vələd "İbtidanamə" adlı əsərində cənazədə olanları belə xəbər vermişdir:

*"Hicrətin 672-ci ilində (miladi 1273) Ulu Sultan dünyadan köçdü. Gözlər yaşla doldu. Qəlblər matəm içərisində inlədi. Qeyri-müslim kəndləri belə hüznə qərq oldular. Hər təmiz insan ona sadiq, hər millət ona aşiq idi. Camaat:*

*"O, Həzrəti Peyğəmbərin nuru və sirridir. Fəzilətlərin sonsuz dənizidir"-dedilər.*

*Həmin gün heç kim təskin olmadı. Bütün xalq böyük bir ələm içərisində belə deyirdi:*

*"O, bir xəzinə idi. Torpaq altında gizləndi"*



Əflakinin bildirdiklərinə görə Mövlana Həzrətlərinin tabutunun çölü, camaatın izdihamından altı dəfə yeniləndi və cənazəsi günorta namazında götürülmüş olmasına baxmayaraq, ancaq ikindi namazından sonra öz məzarına qoyula bildi. Təbib Əkmələddin isə camaata:

"Ədəbə riayət edin! Təşyi vəzifənizi sakitcə yerinə yetirin! Bu həqiqi şeyxlərin sultanı Mövlana idi. Köçüb getdi"-deyirdi.

Vəsiyyət etdiyinə görə Şeyx Sədrəddin Konyəvi cənazə namazını qıldırmaq üçün tabutun önünə keçdikdə, hıçqırıqlarla ağlamağa başladı. Özündən keçmiş kimi oldu. Qollarına girib onu geriyə çəkdilər. Onun yerinə Qadı Siracəddin keçərək namazı qıldırdı.

Mövlana Həzrətləri "xamdım, bişdim, yandım" şəklində xülasə etdiyi həyatını bir başqa ifadə ilə belə təsvir etməkdədir:

"ölü idim, dirildim. Göz yaşı idim, təbəssüm oldum. Eşq dəryasına daldım, nəhayət baqi olan dövlətə çatdım". Yunis İmrə bu barədə nə gözəl demişdir:

*"Bədən fani, can ölməz*
*Gedənlər geri gəlməz*
*Ölərsə bədən ölər*
*Canlar öləsi deyil!"*

Mövlana Cəlaləddin Ruminin "Məsnəvi", "Divani-Kəbir", "Fihi mə fihi", "Məcalisi-Səba" və "Məktubat" adlı əsərləri mövcuddur..

# HACI BEKTAŞİ VƏLİ ﵀

(d. 1209/ v. 1271)

Hacı Bektaş Vəli, Əhməd Yəsəvinin xəlifəsi olan Loğman Pərəndənin tələbəsidir. O, dini-milli mədəniyyət sahəsində mükəmməl bir tərbiyə almışdır. Buna görə də o, Anadolunun türkləşməsi və islamlaşması üçün Türküstan vilayətindən məsul şəxs kimi göndərilmişdir. XIII əsrdə Anadoluya gələn Hacı Bektaş Vəlinin Anadolu Ələviliyinin meydana gəlməsində əhəmiyyətli bir rolu vardır.



Əsl adı Məhəmməd Bektaş olan Hacı Bektaş Vəlinin yaşadığı dövr və mühit yaxşı bilinməklə yanaşı, qaynaqlarda doğumu haqqında fərqli məlumatlara rast gəlinir.

Ad və vəfat tarixləri mövzusunu ən qədim qaynaqlardan başlayaraq bu günə qədər aparılmış tədqiqatlar işığında belə müəyyənləşdirmək mümkündür:

"Vəlayətnamə" adlı əsərdə Hacı Bəktaşın atasının "İbrahimüs-Səni", anasının isə Nişapur şəhərinin alimlərindən olan Şeyx Əhmədin qızı olduğu yazılmışdır. Bu barədə bu aşağıdakı qeydləri görürük:

"Sultan İbrahimüs-Səni ilə Xatəm 24 il evli qaldıqları halda uşaqları olmamışdı. Sultan İbrahim, şəhərin böyüklərini bir yerə yığaraq, bir oğlan uşağının olması üçün dua edilməsini və bu səbəblə Qurani-kərimdən xətmlər oxunmasını istəmişdi. Bu səbəblə çoxlu ehsan məclisləri qurur. Bir həftəyə yaxın xətmlər oxunur, dualar edilir. Nəhayət Xatəm Xatun Sultan

İbrahimdən hamilə qalır və vaxtı çatanda da bir oğlan uşaqları dünyaya gəlir. Uşağının adını "Bektaş" qoyurlar:

*Görən kimi oğlunun mah üzünü*
*Bektaş adı verib, "şah" dedilər*

**Yaşadığı Dövr**

Hacı Bektaş Vəli, Osmanlı İmperiyasında XIV əsrdən etibarən, ictimai və siyasi baxımdan böyük fəaliyyəti olan, II. Mahmud tərəfindən Yeniçəri Ocağı ilə birlikdə bağlanılan, Abdüləziz dövründə təkrar canlanan və 25 noyabr 1925 tarixində təkkə və zaviyələrdə bağlanılmasına qədər davam edən Bektaşi təriqətinin piridir. Hacı Bektaş Vəlinin qurduğu Ələvi-Bektaşi anlayışı, Anadolu ilə yanaşı Balkan ölkələri, Albaniya, Yunanıstan, Bolqarıstan, Bosniya, Kosova, Makedoniya, Gül Baba türbəsinin mövcud olduğu Macarıstanın Budapeşt şəhərindən Azərbaycana qədər bir çox yerdə qəbul olunmuş və mənimsənmişdir.



Hacı Bektaş Vəlinin düşüncə və təliminin yayılması, ölümündən çox daha sonra, XIV əsrin əvvəllərində qurulan təriqətinin, XVI əsrin əvvəllərində fəaliyyətə başlaması ilə olmuşdur. Hacı Bektaş Vəli haqqında danışılan tarixi rəvayətlərlə ziddiyyətli şəxsiyyət kimi yaşadılmışdır. Öz dövründə tanınmışdır və Mövlana, Baba İlyas, Əxi Evrənin müasiridir. Qaynaqlar bu dövrün məşhurlarının əlaqələrini mistik bir dillə izah edirlər. Dövrə aid məlumatlar rəvayət edən Aşıq Paşazadə, Əflaki, Əlvan Çələbi, Vasit kimi yazarlar, Hacı Bəktaşa aid məlumatlara da yer vermişlər. Ölümündən sonrakı illərdə, haqqında "Vilayətnamə" təşkil olunmuşdur. Adına təriqət qurulmuşdur. Mövləvi əqidəli Əflakinin, Hacı Bəktaş Vəlinin öz təriqət başçıları ilə müqayisə etməsi və onun dəyərini azaldan rəvayətlər nəql etməsi, dövrün məzhəb və təriqət təəssübkeşliyindən irəli gəlir. Ələvi-Bektaşiliklə əlaqədar tarixi sənəd və qaynaqların yox edilməsi də tarixi bir həqiqətdir. Bu vəziyyət də Hacı Bəktaş Vəliyə aid bağlı, sağlam məlumatlar əldə etməyə mane olmuşdur.

Hacı Bektaş Vəlinin doğumu, ölümü, kim tərəfindən tərbiyə olunduğu, Anadoluya tam olaraq hansı tarixdə gəldiyinə dair dəqiq məlumatlar yoxdur. Onun haqqında məlumat verən ən qədim mənbələrdən biri olan Vilayətnamə, Hacı Bektaş Vəlinin Hz. Əlinin soyundan yeddinci İmam Musa Kazım nəslinə bağlanaraq, soy şəcərəsi haqqında bu məlumat verilir. “Hacı Bektaş Vəli, Seyid Məhəmməd İbrahim-Sani, Seyid Museyi-Sanı, İbrahim Mükərrəm əl-Mucab, İmam Museyi-Kazım.” Ancaq bu silsilənin doğruluq dərəcəsi də mübahisəlidir. Hz. Əli ilə Hacı Bektaş Vəli arasındakı şəxslərin say baxımından azlığı əsas götürülərək, silsilədə nöqsanlıq və ya qopuqluqlar ola biləcəyi irəli sürülmüşdür.

Vəqfiyyələrdə və digər bəzi mənbələrdə onun adının “Hacı Bektaş” kimi verilməsinin, sonraları əda etdiyi həcc ibadətilə əlaqəli olduğunu düşünmək mümkündür. Əlinin “Künhül-Əxbar” adlı sonrakı yazılarında isə bunun sadəcə bir ləqəb olduğunu müşahidə edirik.

“Bektaş” kəlməsi bəzən “Bekdeş”, “Petteş” kimi müxtəlif şəkillərdə işlədilmişdir. Bu kəlmə isə “yoldaş”, “tay”, “bənzər” və s. kimi mənalara gəlir. Bundan əlavə “Amedani-Taifeyi-Bekdaşiyan be Xankahi-Haceyi-Cihan” adlı əsərdə “Bekdaş”-ın beş hərf olduğunu və hər beş hərfin də mənaları aşağıdakı şəkildə ifadə olunmuşdur:

“Bektaş- beş hərfdir. Birinci hərf bə-dir. “Bə`” həddi-buluğu bildirir. Yəni insanın özünün sirrinə vaqif olması və sifətlərini bilmə dərəsidir ki, bu dərəcə çox yüksək bir dərəcədir. Üçüncü hərf “ta”-dır. “Ta” turabı (torpağ) bildirir. Yəni, torpaq kimi olma dərəcəsidir, heç kəslə qeylu-qal etməyib, dünyəvi işlərə dalmamaqdır. Fəqirlikdən razı olar və öz (həqiqi) mənzilinə çatar. Dördüncü hərf “əlif”-dir. “Əlif” qardaşlığın əlamətidir. Yəni, heç kim mömin kimsəni özünə yad bilməyib, qardaşlıq edər. Axirət üçün də məhəbbət əskik olmaz” –buyurmuşdur Hz. Peyğəmbər (s.ə.s). Beşinci hərf “şin”-dir. “Şin” isə “şeyn”-i bildirməkdədir. İnsanın həyalı olması və əməllərdəki çirkinliklərindən uzaq durması

deməkdir. Əxlaqən təmiz olması deməkdir. O vaxta qədər ki, mömin elə bir məqama çatar ki, öz vüqarına kibir, şərəfinə zələl gəlməz"

Həm "Vilayətnamə"-lərdə, həm də Hacı Bektaşla əlaqəli bəzi əsərlərdə Hacı Bekdaş Vəli haqqında söylənmiş aşağıdakı sifətlər mövcuddur:

"Qütbül-əqtab, məsnədül-lilhab, sultanul-övliya, burhanul-əsfiya, fəxri-ərbabi-babillah, ənvarul-yəqin, fatihul-əvbabi-sülaleyi-həzrəti-sahibi-sirr vəl-kəşf, eşq dəryası, küşadeyi-babi-hikmət, nəsli-sakeyi-kövsər, sahibi-kəşfi-lədunni, fəxri-mədəni-ərkan, sultanul-arifin, sər-çeşmeyi-nuri-din, tacul-arifin, qövsul-vasilin, heykəli-nurani, qütbi-rəbbani..." və s.



"Hacı" ləqəbi isə "Vilayətnamə"-də olan bir kəramət nəticəsində Bekdaşın əsl adı ilə birlikdə çəkilmişdir. Vilayətnaməyə görə Hacı Bekdaşın müəllimi Loğmani Parənde Xorasandan həccə gedərkən Ərəfatda vəqfəyə durduğu zaman öz yoldaşlarına "Bu gün ərəfə günüdür, bizim evdə indi "bişi" bişirirlər"-demişdi. Bu məsələ Hacı Bekdaşa məlum olmuş, Loğmanın evində bişirilmiş yeməkləri bir siniyə qoyaraq bir neçə dəqiqə içərisində Ərəfata aparmışdı. Onlar da orada bunu yemişdilər. Həccdən qayıdarkən Nişapur xalqı da onu qarşılamış və təbrik etmişdi. Bu zaman Loğman belə demişdi: "Əsil hacı olan Bekdaşdır. Hamımız onu təbrik etməliyik". Beləliklə də onun kəramətini camaata bildirmişdi.

**Təhsili**

O, ilk təhsilini Şeyx Loğman Parəndedən almışdı. Loğman Parənde Əhməd Yəsəvinin xəlifələrindən biridir. O, zahiri və batini elmlərdə dərin biliklərə yiyələnmişdi. Bekdaş Vəli Loğman Parəndenin çox sevdiyi tələbələrindən biri idi. Onun fövqəladə hadisələr yaşadığı rəvayətlərdə qeyd olunmuşdur.

Hacı Bekdaş Vəli öz təhsilini başa vurduqdan sonra Anadoluya gəlmişdi. Xalqa doğru yolu göstərməyə başlayan və çox dəyərli tələbələr yetişdirən Hacı Bekdaş Vəli qısa bir müd-

dətdə məşhur olaraq böyük rəğbət toplamışdı. Bu əsnada Anadoluda dini, iqtisadi, hərbi və ictimai təşəkkül olan və mənsubu olduğu "əxilik" təşkilatına da böyük xidmətlər edən Hacı Bekdaş Vəli və tələbələri, Osmanlı sultanları tərəfindən də sevilib, hörmət görmüşdülər.

**Anadoluya Gəlməsi**

XIII əsrdə Anadoluya Xorasandan gələn dərvişlərdən biri Hacı Bekdaş Vəlidir. Bekdaşilik təriqətinin formalaşmasında çox böyük rola sahib olan Hacı Bekdaş Vəlinin həyatı barəsində deyilənlərin çoxu "Vilayətnamə" olaraq bilinən, tam adı "Vilayətnameyi-Hacı Bekdaşi Vəli" adlı mənqibələr kitabına əsaslanır. Həm Hacı Bekdaş Vəlinin həyatı, həm də Bekdaşili və Ələvilik tarixi üçün ən mötəbər mənbələrdən sayılan Vilayətnamənin, Hacı Bekdaş Vəlinin ölümündən ən az iki yüz il sonra, yəni XV əsrin sonu, XVI əsrin əvvəllərində qələmə alındığı təxmin olunur. Hacı Bekdaş Vəli haqqında bundan artıq məlumat yoxdur. 1271-ci ildə öldüyü təxmin olunmaqdadır. Hacı Bekdaş Vəli Nişapurda anadan olmuş, Loğmani Parənde adlı mütəsəvvif tərəfindən yetişdirilmiş və Əhməd Yəsəviyə mənəvi bağla bağlanmışdır.

Hacı Bekdaş qəsəbəsinin mərkəzi yerlərində, böyük bir bağla əhatə olunmuş, qərbdən şərqə doğru uzanan üç həyət içərisində türbələr və digər xidmət əsərləri Hacı Bekdaş Vəli Külliyyəsini meydana gətirir. İlk tikili olan "Çilə Damı" Hacı Bekdaş Vəli hələ sağ ikən tikilmişdi. Müxtəlif dövrlərdə ona əlavələr olunmuş və bərpa işləri aparılmışdır. Beləliklə də külliyyə bu günkü vəziyyətinə gəlib-çıxmışdır. Hacı Bekdaş Vəlinin türbəsi Orxan Qazi dövründə 1338-ci ildə nisbətən sadə bir tikili olan Çilə Damına əlavə olunmuşdur.

Əhməd Yəsəvi vəsiləsi ilə Anadoluya gələrək, Kırşehir bölgəsində Sulucakarahöyük (hal-hazırki adı Hacıbekdaş) adlanan yerdə məskunlaşmış, orada dərgahını qurub ətraf bölgələrdəki türkmənlər və qeyri-müslimlər arasında dərvişlərin

köməyi ilə müsəlmanlığı yayma fəaliyyətlərini davam etdirmişdir. Sulucakarahöyükdə vəfat etdiyi rəvayət olunur.

Anadoluda ilk təriqət qurucusu olaraq bilinən Baba İlyasın şeyxlərindən olan Baba İshaqın müridi olduğu da rəvayət olunmuşdur. Hacı Bekdaş Vəli Baba İlyası xəlifələri arasında sayılmış və "Baba Rəsul" adı ilə məşhur olmuşdur. Baba İshaqın müridlərinə Babai deyildiyi kimi Hacı Bekdaşın ətrafında toplananlara da Bekdaşi deyilmişdir.

**Hacı Bektaş Vəlinin Türk Toplumunda Yeri**

Hacı Bektaş Vəlinin təsəvvüf anlayışı, həm ondan əvvəl həm də ondan sonra ortaya çıxan düşüncələr baxımından müxtəliflik göstərmişdir. Onun təsəvvüf anlayışı ilə əlaqəli məlumat verən Aşıkpaşazadə, Hacı Bekdaşın "cəzbə" sahibi olduğunu qeyd etmişdir. Fuad Köprülü isə Əminuddin ibn Davud Faqihə aid olan bir əsərdən yola çıxaraq Hacı Bekdaşı "məczubi-mütləq" adlandırmışdı. Bu məlumatlar Hacı Bektaşın təsəvvüf terminologiyasındakı kimliyini müəyyənləşdirmək üçün kifayət etmir. Bundan əlavə, bu məlumatları doğru qəbul etmək də çox çətindir. Çünki Hacı Bektaşın yaşadığı dövrü nəzərə alsaq, bu məlumatların doğru olduğunu düşünmək daha da çətinləşər. Hacı Bektaşın Baba İlyas ilə münasibətləri və Sulucakarahöyükdəki fəaliyyətləri, qeyd olunduğu kimi onun "özündən xəbərsiz bir məczub" olduğunu düşünməyə əsas vermir.



Bəzi araşdırmaçılar Hacı Bekdaş Vəlinin sünni-mütəsəvvif olduğunu qeyd etmişlər. Məsələn, "Məqalat" adlı əsərdə bu şəkildə məlumat verilmişdir. "Məqalat" təsəvvüf ədəbiyyatındakı bir çox müridlərə sadə şəkildə təsəvvüfü öyrətmək üçün yazılmış kitabdır. Digər bir tərəfdən "Məqalat"-ın Hacı Bekdaşın kimliyinə müvafiq olan orta yollu düşüncələri yansıtmaq məcburiyyətində olduğunu da söyləmək mümkün deyil. Buna görə də, "Məqalat" əsərinə baxaraq Hacı Bektaşın "türkmən babası" yox, məhz sünni bir mütəsəvvif olduğunu irəli sürmək doğru olmaz.

Başqa bir görüşə görə isə, Hacı Bektaş on iki imam şiəliyinə (isnəəşəriyyə) əsaslanan bir dinə və təsəvvüf anlayışına bağlı olmuşdur. "Vilayətnamə"-də Hacı Bektaşın on iki imam soyundan gəldiyi irəli sürülməklə yanaşı, bu məlumatlardan yola çıxaraq onun şiə mütəsəvvif olduğunu qəbul etmək də tarixi və elmi həqiqətlərə tərs düşər.

Hacı Bektaş Vəli XVI əsr mənbələrindən etibarən Anadolunun ən məşhur övliyalarından qəbul olunmuş və böyük ehtiramla qarşılanmışdır. Bunun ən böyük səbəbi XV əsrə gələnə qədər Hacı Bektaşın vəli kimi xalq yaddaşında öz yerini tutmasıdır. Xalq yaddaşında Hacı Bekdaş Vəli tarixi və şəxsi kimliyindən çıxardılıb ulu bir kimlik qazandırılmışdır. Onun haqqında bəhs olunan "divardan at düzəldib yeritməsi", "ilandan qamçı düzəltməsi", "aslan və ceyran fiqurlarını qucağında daşıması", "göyərçin şəklinə girməsi" kimi hadisələr, onun mistik kimliyinin ictimai kimliyi ilə əvəz olunmasına səbəb olmuşdur. Buna bənzər kəramətlərə ədəbi əsərlərdən çox tez-tez rast gəlmək mümkündür. Bunlar da onun ictimai liderliyini müqəddəsləşdirən səbəblərdən biri olmuşdur.



Hacı Bektaş Vəlinin Hz. Məhəmmədin nəvələrindən 7-ci imam Museyi-Kazımın soyundan gəldiyi bəzi mənbələrdə qeyd olunmuşdur. Bu məlumat tarixi baxımdan öz təsdiqini tapmasa da, onu sevənlərin inandığı bir məsələdir.

Hacı Bektaşın yaşadığı dövrü nəzərə alsaq Anadolunun türkləşməsi və müsəlmanlaşmasında birinci dərəcədə rol oynadığına şahid olarıq. Sadəcə Anadolu ilə məhdudlaşmayan bu mənəvi təsir gücü Sarı Saltuk kimi etiqad liderləri ilə davam etmişdir. "Vilayətnamə"-yə görə Sarı Saltuk Hacı Bektaş Vəli tərəfindən Rumeliyə, oranın islamlaşdırılması üçün göndərilmişdir.

Hacı Bekdaş Vəlinin ən böyük təsiri türk mədəniyyətinin İslamdan əvvəlki dövrü və İslamdan sonrakı dövrü arasında körpü rolu oynamasında yatır. Anadoluda başlayıb Balkanlara qədər gedib-çıxan Hacı Bekdaş Vəlinin düşüncə sistemi türk mədəniyyətinin yaranmasında və inkişafından çox mü-

hüm rol oynamışdır. Bu təsirinin davamlı olmasında isə Əhməd Yəsəvi ilə birlikdə Bektaşi dərvişlərinin də önəmli rolları olmuşdur.

Hacı Bektaş Vəlinin türk mədəniyyətinin canlanmasındakı fəaliyyətlərindən biri, şübhəsiz ki, onun türk dilinə verdiyi önəmdir. Bekdaşilik türk dilindən ibadət dili kimi istifadə etmiş, türk dilindəki şeir ənənəsinin davam etməsinə səbəb olmuşdur. Fars və ərəb dilinin hakim olduğu dövrdə türk dilindən ibadət dili kimi istifadə etmələri mədəniyyət şüurunun ən başlıca göstəricisidir. Onların bu mövqeyi türk dilinin inkişafına və mütəmadiliyinə səbəb olmuşdur. Hacı Bekdaş Vəli və onun tələbələri türk mədəniyyətinin, mədəniyyətlərarası mübarizədə daimi və güclü bir şəkildə yer tutmasını təmin etmişdir.



Hacı BektaşVəlinin uşaqlarının olub-olmadığı, Ələvi və Bekdaşilər arasında mübahisə doğurmuşdur. Ortaya atılan iki müxtəlif iddia mövcuddur. Çələbilər, Hacı Bektaş Vəlinin Fatma Nuriyə və ya Qadıncık Anadan (Qutlu Mələk) Seyyid Əli Sultan (Timurtaş) adlı bir uşağının dünyaya gəldiyini, onların özlərinin də bu nəsildən gəldiyini iddia edirlər. Babağan (Babailər) qolu isə Hacı Bekdaş Vəlinin subay qaldığını, dünyadan köçərkən də subay köçdüyünü iddia etmişlər. Bu qrupun mənsublarına görə bu gün Hacı Bektaş Vəlinin övladları kimi tanınanlar Pirin Qadıncık Anadan gələn nəfəs (yol) övladlarıdır.

Həyatının böyük bir hissəsini Sulucakarahöyükdə (Hacı Bektaş) keçirən Hacı Bekdaş Vəli, ömrünü də burada tamamlamışdır. Qəbri Nevşehir şəhərinin Hacıbektaş qəsəbəsində mövcuddur.

**Mövlana və Hacı Bekdaş Vəli**

Bir adam əyri yollarla pul qazanıb özü üçün bir inək alır. Sonradan isə etdiyi bu işə peşman olur. Düşünür ki, heç olmasa nəsə yaxşı bir iş görüm və bu inəyi qurban olaraq Hacı Bekdaş Vəlinin dərgahına bağışlayır. O dövrdə dərgahlar həm

də "aş evi" (yeməkxana) kimi də fəaliyyət göstərirdilər. Bu vəziyyəti Hacı Bekdaş Vəliyə danışır. Hacı Bekdaş Vəli də "bu halal mal deyil"-deyərək onun qurbanını geri qaytarır. Bundan sonra həmən adam Mövləvi dərgahına gedir və eyni şeyi Mövlanaya da danışır. Mövlana isə bu hədiyyəni qəbul edir. Qurbanı qəbul olunan kimsə Mövlanaya danışar ki, bəs mən bu qurbanı Hacı Bekdaşa da vermək istədim, ancaq o, qəbul etmədi. Mövlanadan bunun səbəbini soruşur. Mövlana ona belə deyir:

-Əgər biz qarğaysaq, Hacı Bekdaş bir şahindir. O, leşə qonmaz. Buna görə, biz sənin hədiyyəni qəbul etdik, ancaq o, etmədi.

Həmən adam ərinmədən, tez Hacı Bekdaş Vəlinin dərgahına qayıdır. Mövlananın qurbanı qəbul etdiyini xəbər verib, bunun səbəbini Hacı Bekdaşdan soruşur. Hacı Bekdaş ona belə cavab verir:

-Bizim könlümüz balaca bir su gölməçəsidir. Mövlananın könlü isə okean kimidir. Buna görə də, bir damcı ilə bizim könlümüz bulana bilər, ancaq onun könlü bulanmaz. Buna görə o, sənin hədiyyəni qəbul etmişdir.

**Əsərləri**

**Məqalat:** Hacı Bekdaş Vəlinin dünyəvi, dini, təsəvvüfi məsələlərdəki duyğularını, düşüncələrini və bütünlüklə "insan fikrini" ən açıq, sadəcə və təbii kəlmələrlə ortaya çıxaran əsəri, şübhəsiz ki, bu əsərdir.

**Şəthiyyə:** Abdulbaki Gölpınarlı Hacı Bekdaş Vəlinin iki səhifəlik bu şəthiyyəsinin olduğunu qeyd etmişdir.

**Fəvaidnamə:** Dini, əxlaqi və təsəvvüfi məsələləri ehtiva edən əsərdir. Məzmunca "Məqalat" əsərinə bənzəməkdədir.

**Fatihə surəsinin təfsiri:** Hacı Bekdaş Vəlinin belə bir əsərinin olduğunu ilk dəfə Fuad Köprülü xəbər vermişdir.

**Hacı Bekdaş Vəlinin Nəsihətləri:** Hacı Bekdaş Vəliyə aid olan nəsihətlər və vəsiyyətlər, bir nüsxəsi Hacı Bekdaş Xalq Kitabxanasında olan və Dedemoğlu tərəfindən yazılan "Akaidi-Tarikat" adlı əsərdən sonra qeyd olunmuşdur. "Bəsmələ şərhi" isə Hacı Bekdaş Vəlinin məna və ruhunu izah etmişdir. Bu risaləni yazarkən bəzi ayə, hədis və hekayələrdən yola çıxmışdır.

**Bəzi şeirlərindən parçalar..**

*Eşidin ey yarənlər*
*Eşq bir günəşə bənzər*
*Eşqi olmayan könül*
*Bir qara daşa bənzər*

*Daş ürəkdə nə bitər*
*Dilində zəhər tütər*
*Necə yumşaq desə də*
*Sözü savaşa bənzər*

(Yunus İmrə)

*Bu adəm dedikləri*
*Əl, ayaqla baş deyil*
*Adəm mənaya derlər*
*Surət ilə qaş deyil*

*Adəm oldur, ey Xacə*
*Qidası məna ola*
*Məqsud adəmdən əxi*
*Xəyal ilə düş deyil*

(Kayqusuz Abdal)

*"Allah mədət ya Məhəmməd, ya Əli!"*
*Yusif quyusunda zindana düşdüm*
*Gülbankı çəkilən Bekdaşi Vəli*
*Yoxmu səyləriniz?! Dərmana düşdüm!*

*Fatimə Anadan əl-ətək tutdum*
*Sərvər Məhəmmədə göz-könül qatdım*
*İmam Həsən ilə çox mətan satdım*
*Şah Hüseyn ilə dükkanına düşdüm!*

*Zeynalı sevdim ki, aşnaya yetdim*
*Baqiri sevdim ki, müsahib tutdum*
*Cəfəri sevdim ki, göz-könül qatdım*
*Naci dəryasında ümmana düşdüm!*

*Kazım Muza inzaya yetişdim*
*Tamam, Əsgər ilə xeyli sürüşdüm*
*Kərbəla çölündə cəngə qarışdım*
*Sinəm yaralandı, al-qana düşdüm!*

*Ta ki, Naki Şah Əsgəri nurumuz*
*Mehdi mağarada gizli sirrimiz*
*Cəbrayıl önümüzdə rəhbərimiz*
*Qırxların cəmində ərkana düşdüm!*

*On iki imam dərgahında ümum var*
*Dünü, günü söhbətim var, dəmim var*
*Günahım yox, amma nədən qəmim var*
*Əli kimi Şahi-Mərdana düşdüm!*

*Qıl himmət Ustadım! Bu necı yazı*
*Şirin ləzzət verir məhəbbət duzu*
*Əlinin alnında Zöhrə ulduzu*
*Meyli-məhəbbəti Salmana düşdüm!*

**Hacı Bekdaş Vəlidən Bir N**əsihət

*"Təriqətin, təsəvvüf yolunun ilk məqamı bir alimə könüldən bağlanıb, tövbə etməkdir. Tövbə, könüldən peşmançılıqdır və mütləq yerinə yetirilməlidir. Tövbə edərkən mütləq göz yaşı tökülməlidir. Tövbəni qəbul edən Allah-Təaladır. Tövbə etdikdən sonra Ona təvəkkül edilməlidir. İkinci məqam isə tələbə olmaqdır. Üçüncü məqam mücahidə, nəfsə ağır gələn, nəfsin istəmədiyi şeyləri etməkdir. Dördüncü məqam isə müəllimə (şeyxə) xidmət etməkdir. Beşinci məqam qorxudur. Altıncı məqam ümiddir. Yeddinci məqam şövq və fəqirlikdir. Mərifətin birinci məqamı ədəb, ikinci məqamı isə qorxudur. Üçüncü məqam az yeməkdir. Dördüncü məqam səbr və razılıqdır. Beşinci məqam utanmaqdır. Altıncı məqam mərdlikdir. Yeddinci məqam elmdir. Səkkizinci məqam mərifətdir. Doqquzuncu məqam isə öz nəfsini bilməkdir."*

**Hacı Bekdaş Vəliyə Aid Bir Mənqibə**



Hacı Bekdaş Vəli hər gün gəlib, indiki dərgahının olduğu yerdə oturarmış. Onu sevənlər belə bir fikrə düşdülər: "Yəqin ki, Hacı Bekdaş Vəli buranın dərgah olmağını istəyir. Ona görə hər gün burada oturur". Hacı Bekdaş Vəlini sevən müridlərindən biri, ona xidmət edən Sarı İsmayıla dedi ki, buraya bir dərgah qurmaq istədiyini bildirdi. Sarı İsmayıl da gəlib bu vəziyyəti Hacı Bekdaş Vəliyə danışdı. Hacı Bekdaş Vəli belə dedi: "Ona de ki, bir usta gətirsin. Biz istədiyimiz böyüklükdə bir dairə çəkək. Kifayət qədər də daş gətirtsin, yontdursun və hazır olsun!"

Sarı İsmayıl bu sözləri həmən şəxsə çatdırdı. Adam sevindi və dərhal bir memar gətirtdi. Hacı Bekdaş Vəli də indiki dərgahın yerindən bir dairə çəkdi. Memar dərgahın tikintisinə kifayət edə biləcək qədər daş gətirtdi və daşları yontdurdu. Həmən gecənin sabahında hamı dərgahın hazır olduğuna şahid oldu. Dərgahı tikməklə məsul olan şəxs dərhal Sarı İsmayılın yanına gəldi və ona heyfslənərək dedi: "Mən bu binanın tikdirmək üçün usta gətirtdim, daş gətirdib, yontdurdum. Bunun savabını almaq istəyirdim. Ancaq kimsə bir ge-

cədə gəlib bunu tikib!". Sarı İsmayıl da vəziyyəti dərhal öz şeyxinə çatdırdı. Vəziyyətdən xəbərdar olan Hacı Bekdaş Vəli dedi: "Ey İsmayıl! O məni sevən kimsəyə de ki, bu dərgahın başqa bir yerdən kimsə gəlib tikmədi. Allah-Təalanın izni ili bir anda tikildi. Savabı isə onun əməl dəftərinə yazıldı". İsmayıl də bu söylənənləri adama xəbər verdi. Həmən şəxs dərhal Allaha şükür səcdəsi etdi.

**Hikmətli Kəlamlarından**

❧ Abdal – Haqqa heyran olan kimsədir

❧ Ədalət – hər bir işdə Allahı bilməkdir

❧ Adəm şəklində olan hər kəs, Adəm deyil

❧ Adəmin "adəmliyi" ağıl, həya və elmlədir

❧ Alimlərə və özünü tanıyanlara təvazökarlıq yaraşır

❧ Allah ilə qəlb arasında pərdə yoxdur

❧ Axtar və tap

❧ Axtarmaq açıq bir imtahandır

❧ Ariflər həm safdır, həm də saflaşdırandır

❧ Ariflərin içində murdarlıq olmaz

❧ Eşq meydanı ərənlərin və bilənlərindir

❧ Elm, həqiqətə gedən yolları işıqlandıran nurdur

❧ Bir olaq, iri olaq, diri olaq!

❧ Bizi sevənlərin qəlblərində biz otururuq, dillərində biz danışırıq

❧ Bizim ərkanımız Məhəmmədin əxlaqı, Əlinin ədəbidir

❧ Cahillərə və haqq tanımayanlara sakitliklə cavab verin!

❧ Cənnət üçün ibadət məqbul deyil

❧ Çalışan insan şər düşünməz

❧ Çalışmadan dolananlar bizdən deyil

❧ Həmişə xeyri, gözəli və doğrunu öyrənə bilmək üçün oxuyun, oxudun!

❧ Zəngin o kimsədir ki, cəhaləti silib, könlünü qəflətdən təmizləyə!

❧ Dil oxdan daha dərin yara açır

❧ Dili, dini, rəngi nə olursa-olsun, yaxşılar elə yaxşıdır

❧ Dininə dizlərinlə yox, qəlbinlə bağlan

❧ Doğruluq dost qapısıdır

❧ Düşməninizin belə insan olduğunu unutmayın

❧ Düşüncə qaranlığına işıq salanlar nə xoşbəxt kimsələrdir!

❧ Düşüncə, davranış və sevgini Allah ləzzəti kimi dadın

❧ Ədəb paltarını ölənə qədər əyninizdən çıxarmayın

❧ Əlinizdən gələn hər yaxşılığı hər kəsə göstərin

❧ Əlinə, dilinə və belinə sahib ol!

❧ Ən böyük kəramət çalışmaqdır

❧ Ən böyük sərvət elmdir

❧ Haqqa çata bilmək üçün böyüklərə və doğrulara yaxınlaşın

❧ Həqiqətin ilk məqamı torpaq olacağımızın bilinməsidir

❧ Xamı bişirə bilmirsənsə, heç olmasa bişəni xam etmə

❧ Hər nə axtarsan, əvvəlcə özündə axtar!

❧ Heç bir milləti və insanı ayıblamayın

❧ Hökmdar ancaq öz ədaləti sayəsində uğur qazanar

❧ İbadətin yeri ayrıdır, işin yeri ayrı

❧ İçi natəmiz olanın çölünü yusan da paklanmaz

❧ Elmlə gedilməyən yolun sonu qaranlıqdır

❧ Elmi uca tutan bir kimsə heç vaxt alçalmaz

❧ İnsanın kamalı əxlaqının gözəlliyindədir

❧ Səni incitsələr də sən incitmə! İnsan dilinin arxasında gizlənib

❧ İnsanın kamilliyi əxlaqının doğruluğundadır

❧ İslamın əsası gözəl əxlaqdır. Əxlaqın əsası bilgidir. Bilginin əsası ağıldır

❧ Qadınları oxudun. Qadınları təhsilli olmayan millət ucalmaz

❧ Qənaətkar olanlar, ən böyük sərvətə sahib olanlardır

❧ Qarşındakının yaxşı olmasını istəyirsənsə, əvvəlcə sən yaxşı ol!

❧ Özünü tanımayan Rəbbini bilməz

❧ Kibrin əsli şeytan, təvazökarlığın əsli Rəhmandır.

❧ Heç kimin eyibini araşdırma. Öz eyibini gör!

❧ Vəzifə arzusu, qeybət, dedi-qodu, ədəbsizlik və xəyanət Haqqı inkardır

❧ Murada çatmaq üçün səbr gərəkdir

❧ Mürüvvət (kişilik) xoş görmək və bağışlamaqdır

❧ Nəbilər, vəlilər Tanrının bəşəriyyətə hədiyyəsidir

❧ Nəfsinə ağır gələni heç kimə etmə

❧ Oturduğun yeri təmizlə, yediyin loğmanı haqq et!

❧ Özündə və sözündə təmiz olmayanların imanı kamil deyil

❧ Sevgi və rəhmət insanlıq, hiddət və şəhvət heyvanlıq xüsusiyyətidir

❧ Yolumuz elm, irfan və insanlıq sevgisi üstündə qurulmuşdur.

**Vəfatı**

Hacı Bekdaş Vəlinin vəfat tarixi də doğumu kimi ixtilaflıdır. Mənbələrin çoxu onun 63 il yaşadığını və hicri 606-ci ildə (1209) anadan olub, hicri 669-da vəfat etdiyini bildirir. Müridlərinin doğum tarixi ilə uyğun olması baxımından verilən tarixləri nəzərə alsaq, onun dəqiq olaraq XIII əsrin sonu və XIV əsrin əvvəllərində vəfat etdiyini söyləmək mümkündür.

Aşık Paşazadə "Tarix" əsərində Hacı Bekdaş Vəlinin qardaşı Müntəşirin şəhid edildiyini, Hacı Bekdaşın Kayseridən Karacahöyükə gəldiyini və məzarının da orada olduğunu yazmışdır.

## İBRAHİM ZAHİD GİLANİ ﷺ

(d. 1216 / v. 1301)

Azərbaycan sufiləri içərisində özünəxas yeri olan mürşi-di-kamil, böyük sufi Zahid Gilaninin tam adı Əbus-Səfvət İbrahim əz-Zahid ibn ər-Ruşənidir. Ləqəbi "tacuddin"-dir. Atası Ruşən Əmir ibn Şeyx Didar əs-Sincanidir. Hicri 615 (m. 1218) tarixində Azərbaycanın Lənkərana bağlı olan Siyavərud kəndində anadan olmuşdur. Onun yeddi cəddinin şeyx nəslindən olduğu, bunlardan biri olan Bidar (Bündar) əl-Kurdinin Sincandan gələrək bu bölgədə məskunlaşdığı da rəvayət olunur. Həmən şəhərin Mərv yaxınlığındakı Səncan olma ehtimalı çox böyükdür. Bu məlumat əgər doğrudursa, İbrahim Zahidin babalarının Xorasan tərəflərindən Gilana gəldiyini söyləmək olar. İbn Bəzzaz Şeyx Bidarı məşhur sufi İbrahim ibn Ədhəm övladlarından olan bir hökmdarın əmir təyin etdiyini söyləmişdir. Vladimir Minorski bu məlumata əsaslanaraq ilk dövrlərdə Azərbaycanın Muğan, Aran, Əlvan və Daribum bölgələrinin İbrahim Zahidin ataları tərəfindən fəth olunaraq müsəlmanlaşdırılmış ola biləcəyini qeyd etmişdir.

Rəvayət olunduğuna görə Şeyx Cəmaləddin İbrahim Zahidi gördükdə o, kitablarını qoltuğuna vurub müəllim yanına gedən balaca bir uşaq idi. Seyyid Cəmaləddin əlini onun başına qoyub demişdi: "Bizi şeyximiz Şihabəddin Həzrətləri buraya bu məsumu irşad etmək üçün göndərdi".

Şeyx İbrahim həddi-büluğ çağına çatanda zahiri elmlərdə kamilləşmək üçün Şiraza getdi. Orada mədrəsə elmlərini təhsil etdikdən sonra, babalarında olduğu kimi, onda da batini

elmləri öyrənmə həvəsi yarandı. Camaatın irəli gələnlərindən biri olmaq, seyri-süluk ilə Haqqı tapmaq üçün dövrünün böyük şeyxi Əbun-Nəcib Söhrəverdinin silsiləsindən məşhur sufi şair Sədi Şiraziyə intisab etdi. Bu feyz sayəsində bir çox həqiqətlər əldə etdi. Şeyxinin əmri ilə xəlvətlərə girib, riyazətlə çoxlu "kəşflər" təcəlli etdi. Əzəli nəşvəsi Ələvi olduğuna görə bu hal və məqamlar ona kifayət etmirdi. Şeyx Sədi Həzrətləri onun bu halını başa düşüb belə dedi: "Ey oğul! Mən səni ancaq bu məqama qədər gətirə bildim. Sən öz vətəninə get və bir az da orada Şeyx Cəmaləddinə xidmət et! Bəlkə muradına onun yanında çatasan!". Ona getmək üçün icazə verir. Şeyx İbrahim də Şirazdan öz məmləkəti Muğana gəlib, Pensər deyilən kənddə şeyxlə görüşmüş, ona intisab edərək irfan nurlarını almışdı.



"Zahid" ləqəbi təsəvvüf yolunda mürşidi olan Seyyid Cəmaləddin Həzrətləri tərəfindən ona verilmişdi. İbrahim Zahid fövqəladə zöhd, salah, riyazət və ilahi mücahidəyə meylli adam idi. Alın təri ilə qazanılan ruzini sevir, heç kimdən yardım qəbul etməyən şeyxi ilə birlikdə tarlada çalışıb, oradan əldə etdiklərini aparıb bazarda satardılar. Günlərinin çoxunu oruclu keçirirdi. Gecələri də səhərə qədər ibadətlə məşğul olurdu. Gündüzləri tarlada çalışmaqla keçirərdi. İldə iki dəfə "ərbəinə" (qırx gün ibadəti) girərdi. İbrahim Zahid Gilani Seyyid Cəmaləddin Həzrətlərinin vəsiyyətinə uyğun olaraq şeyxinin vəfatından sonra dərhal irşad fəaliyyətinə başlamamış, ilahi mücahidəyə davam etmişdi.

Mustafa Bahadıroğlunun verdiyi məlumatlara görə o, bir neçə dəfə Şərqi Azərbaycanı gəzmişdir. Hiyav və Sərabı ziyarət etdiyi əsnada camaatın böyük bir rəğbəti ilə qarşılaşmışdı. Qazan Xan ilə görüşdükdən sonra dərvişləri ilə birlikdə Ərdəbilə gedərək Şeyx Rasimin zaviyəsində oturmuşdu. Ərdəbil xalqı onunçün böyük bir zaviyə tikib, çoxlu vəqflər təsis etmişdi. Bölgədə İslam dinin yayılmasında əməyi olan və xüsusilə də Şirvanda sözünə qulaq asılan bir şəxsiyyət olan Seyyid Bürhanəddin Məhəmməd ona bu bölgələrdə irşad faəliyyətlərində olmağı tövsiyə etmişdi. İbrahim Zahi-

din fəaliyyətləri nəticəsində Şirvanşah Axsitan onun müridi olmuş, onun üçün Qustaflidə bir zaviyə tikdirmişdi. Çoxlu irşad fəaliyyətləri nəticəsində 679-cu (m. 1280) ildən etibarən İbrahim Zahidin adı başda Şirvan olmaqla Quştasfi, Kura, Şərqi Azərbaycan və Xorasana qədər gedib çatmışdı. Bu vəziyyət Şirvan bölgəsində fəaliyyət göstərən bəzi sufi camaatları narahat etmişdi. Şirvanşahın dəvətini qəbul edərək bəzi müridləri ilə birlikdə Şirvana gedən İbrahim Zahidə qarşı Qələndərilər də mübarizəyə qoşuldular və ona sui-qəst etmək istədilər. Ancaq sui-qəsdə nail ola bilmədilər. Bu münaqişələr əsnasında Şeyx Zahid haqqında rəvayət olunan mənqibələr tarixi qaynaqlarda mövcuddur. Əslində mənqibələr sadəcə sufilərin qeyri-adi hal və hərəkətlərindən, kəramətlərindən bəhs edən hekayələr kimi görmək doğru olmaz. Onlardan həmçinin təsəvvüfi baxımdan zəngin məlumatlar da çıxarmaq mümkündür. Xəlvətiyyə təriqətinin tarixi mahiyyətindəki Hulvinin "Ləməzat" əsərində, Osmanlı təsəvvüf tarixinin dəyərli mənbəyi Ali Alinin "Bəhcətüz-Zahidin" əsərində Şeyx Zahidlə əlaqəli olaraq nəql olunan mənqibələrdə bu böyük şeyxin təsəvvüfi həyatı, yaşadığı mühit, məsləyi və vəliliyi haqqında çox qiymətli məlumatlar mövcuddur.

"Ləməzat" əsərində nəql olunan mənqibələrdən birində belə deyilir: Bir gün Şeyx Zahid yabani otların içərisində gəzərkən yapışdığı otların əlində xam gümüşə çevrildiyinə şahid oldu və ağlayaraq səcdəyə qapandı. Tövbə və istiğfar etdi. Yolunu dəyişdirib başqa bir istiqamətə getdi. Orada da əli ilə tutduğu otların xalis qızıla çevrildiyini gördü. Bunları yerə tullayıb kədər və peşmanlıq duyğusu içərisində şeyxinin yanına gəldi. Ağlayaraq və yalvaraq bu vəziyyətdən onu xilas etməsini istədi. Şeyxi Seyyid Cəmaləddin ona dedi: "Bu hal saliki sınamaq və imtahandan keçirmək üçündür. Bütün nəbilər və vəlilərin ruhları ilə bütün ərzu-səma əhli olan mələklər və məxluqat sənə "zahid" dedilər. Adını "Şeyx Zahid" qoydular". Şeyxi ona bu müjdəni verdi.

Bu dəyərli şeyxə "zahid" adının verilməsi başqa bir mənqibədə isə belə izah olunur: "Bir gün Şeyx İbrahim şeyxinin

əmri ilə tarladan düyüləri alıb çuvala yığıb belində Seyyidə apararkən çox yorulmuş, dincəlmək üçün bir yerdə oturmuşdu. Belindəki çuvaldan bir düyü dənəsi yerə düşmüşdü. Şeyx İbrahim onu götürüb ağzına atmaq istəmişdi. Ancaq dərhal ağlına şeyxinin izzəti və hörməti düşür, dənəni ağzına qoymur. Onu yenidən çuvalın içərisinə qoyur. Sonra da gətirib şeyxinin evinə verir. Seyyid Cəmaləddin ona: "Ey İbrahim, sadiqlərdən olduğunu göstərib, əhdinə vəfalı çıxdın. "Zahid" adını haqq elədin"-deyərək, onuin mənəvi halını bəyan etmişdi.

Mənqibələrdən birində isə belə nəql olunur: "Şeyx Zahid zahiri və şəri elmlərdə yüksək dərəcələrə çatmış, fitva verə biləcək bir səviyyədə fiqh alimi olmuşdu. Dərvişlərin şövq və cəzbə ilə "səma" zikrinə qoşulmalarına xoş baxmırdı. Heç nə deməsə də, yoldaşları səma və dövran zikrinə başlayanda o, oradan çıxıb gedirdi. Bir gün Seyyid onu sınamaq məqsədilə onu dövran zikrində iştirak etməyə məcbur edir. Dövran zikrinin sürət və cəzbəsinə dözə bilməyən Zahid yerə yıxılır. Şeyx onun yanına gəlib, onu sınamaq üçün öz əsası ilə döydü. İbrahim özünü itirəndən sonra onu səmaxanada tək qoyub, dərvişləri ilə çıxıb getdi. Seyyid evinə gedib xanımına dedi: "Zahidi yaxşıca döydüm. Əgər ayılandan sonra çəkdiyi ağrıları görüb burdan çıxıb-getsə, biz onu, o da bizi itirəcək. Əgər qapımıza gəlib istiğfar etsə ilahi əmanəti ona verərəm. Çünki bu onun sonuncu imtahanıdır". Həmən gecə Zahid çox gec ayılıb, özünə gəldikdən sonra şeyxi tərəfindən döyüldüyünü və tərk olunduğunu başa düşdü. Yerindən durub, gecə yola çıxdı və pirinin evinə gəldi. Başını şeyxinin qapısının eşiyinə qoyaraq ağlayıb, bağışlanılması üçün Allaha dua etdi. Seyyid gecə vaxtı təhəccüd namazı üçün dəstəmaz almağa çıxanda Zahidi qapının ağzında gördü. Onu yerindən qaldıraraq iki gözündən öpdü. Sonra ona dedi: "Ey oğul! Biz səni sınamışdıq. Bu dəfəki imtahan sənin bədəninin sınağı idi. Allaha həmd olsun ki, sən bu imtahandan da keçdin". İlahi "sirri" ona bəxş etdi. Xəlifəlik verərək "Məndən sonra iyirmi il

səyahət edib, mücahidə et! Biz sənə irşad vaxtı çatanda xəbər verərik" –dedi və vəsiyyət etdi.

Onun kəramətlərindən biri isə belədir: "Günlərin bir günü səyahətə çıxmışdı. Yolu Ərdəbilə düşdü. Burada Şeyx Əbdul-Mülk məscidinə getdi. Məscidin qurucusu olan Əbdul-Mülk, məscidindəki müəzzinin yuxusuna girərək onu hədələyərək belə demişdi: "Get bax, məscidə qonaq gəldi. Onu qəbul et!". Müəzzin də ona vermək üçün heç şeyinin olmadığını söyləyir. Əbdul-Mülk "filan qazandakı yağı, filankəsin hədiyyə verdiyi düyünü və o quyruğ parçasını bişir, onu məsciddəki şəxsə yedir. Yoxsa özün bilərsən". Müəzzin də oyananda yuxuda ona deyilənləri çox da ciddi qəbul etmədi və yenə uzanıb yatdı. Yenə eyni yuxunu gördü. Yenə də yatmağa davam etdi. Üçüncü dəfə eyni yuxunu görəndə qorxudularaq xəbərdarlıq olundu. Bundan sonra yuxudan durub məscidə getdi. Orada oturan dərvişə dedi: "Ey dərviş! Xoş gəlib səfa gətirmisən. Sənə verə biləcəyim heç bir şeyim yoxdur. Neyniyim?". Şeyx Zahid "Get Əbdül-Mülkün yuxuda sənə dediyi şeyi yerinə yetir. Onun söylədiyi düyünü, yağı və əti bişirib, yemək hazırla və gətir. Yoxsa zərər çəkərsən"-dedi. Müəzzin dərhal şeyxin ayağına düşüb, tövbə edərək əl açdı və onun dərvişlərindən biri oldu.

Kəramətlərindən biri də belədir: Hacı Əli adlı bir şəxs rəvayət edir ki; "Şeyx Zahidlə birlik bir gəmidə səfərə çıxmışdıq. O əsnada şeyxi şəxsən tanımırdım. Dənizdə qəflətən bir fırtına qopdu. Gəmi batma təhlükəsi ilə qarşılaşdı. Bunu görən öz-özümə dedim ki, "ey Şeyx! Belə bir anda bir qıraq oturmaqdansa, bizi xilas etməyə səbəb olsan yaxşı olmazmı?". Şeyx dərhal yerindən durdu və gəmiçinin əlindən sükanı aldı. Mənə dönüb: "Ey Hacı Əli! Gəmini bax belə idarə edərlər!"-dedi. Mən də "haqlısan"-dedim. Gəmimiz sağ-salamat limana yaxınlaşdı. Camaat hamısı çölə çıxdı. Mən də onlarla birlikdə çıxdım. Sonra şeyxin yanına gedib salam verdim. "Əleykum salam, ey Hacı Əli Ərdəbili!"-dedi. Mən əlini öpdüm və məni necə tanıdığını, adımı hardan öyrəndiyini soruşdum. O da "ürəyindən keçəni bilən səni və adını bilməzmi?"-dedi.

Mənqibələrindən biri də Bərd Əhməd adlı bir dərvişin rəvayəti ilə belə nəql olunur: "Bir gün Şeyx Zahidlə birlikdə əkinçilər arasından keçib gedəndə onlar bizi görüb məsxərəyə qoydular. Bir-birinə belə dedilər: "Plov düşmənləri gedir. Allah bilir yenə hara plov yeməyə gedirlər. Allah bilir, bunlar təklikdə nə işlər görürlər?". Şeyx onlar tərəfə dönüb onlara belə dedi: "Əgər biz sizin dediyiniz kimi deyiliksə, Allah yolunda dəvətə çıxıb hidayət axtaranlarıqsa, öz nəfsimizi qoruyub Haqqa şükr edən bəndələriksə sizin ayaqlarınız qırılsın!". Bunu deyən kimi həmən əkinçilər topal oldular. Bu kəraməti bütün camaat görüb müşahidə etdi.



Günlərin bir günü bir qadın Şeyxin qarşısına gəlir göz yaşları axıdıb, nəzir-niyaz edərək dedi: "Ey aləmin sultanı, Adəm oğullarının mürşidi! Mənim bu dünyada Allahdan başqa tək varlığım bircə oğlum idi. O, bir xəstəliyə tutuldu, heç kim dərdinə çarə tapa bilmədi. Xəstəliyinin səbəbi isə budur ki, bir neçə gün bundan əvvəl bir ağacın altında yatarkən onun ağzından mədəsinə bir ilan girmişdir. Arada bir onun ürəyini dişləyir, zəhərini buraxıb ona əzab verir. Nə olar, mənim oğlumun dərdinə bir çarə tap!". Həmən məclisdə Şeyx Safi də vardı. Şeyx Zahid ona "həmən o şeyə denən, Şeyx Zahid əmr edir ki, oradan çıxıb getsin və bundan sonra ona toxunmasın"- deyib yola saldı. Bu sözləri eşidən camaat da onların arxasınca gedib xəstənin başına yığışdılar və olanları görmək istədilər. Şeyx Safi vəkalətən Şeyx İbrahim Zahidin dediyi sözləri ilana xəbər verən kimi ilan oğlanın ağzından çıxdı və gözdən itdi.

Şeyx Zahid Həzrətləri kimi təsəvvüf liderlərinin həyatlarına aid kitablarımızda verilən mənqibələr əslində bir çox mənanı bildirirlər. Eyni zamanda oxuyanların, bu böyük insanların həyatlarından ibrət almaları və onlara bənzəmək üçün çalışmaları təbliğ olunur.

Hicri 700-cü ildə (m. 1301) Qustasfidə xəstələnən İbrahim Zahidin vəsiyyətinə əsasən xəlifəsi və kürəkəni Səfiyuddin Ərdəbili tərəfindən Lahicanın bir bölgəsi olan Siyavəruda gətirildi. İki həftə sonra isə burada vəfat etdi. İbrahim Zahid iki

dəfə evlənmiş olub, son evliliyindən doğulan qızı Bibi Fatiməni xəlifəsi Səfiyuddin Ərdəbili ilə evləndirmişdir.

Şeyx Zahidin biri İranda, Gilan əyalətinə bağlı olan Lahican şəhərində, digəri isə Azərbaycanın Lənkəran şəhərinin Şixakəran kəndində olan iki qəbri mövcuddur. Lahicandakı türbəsi daha qədim olan bir ziyarətgahdır. Şeyxin Şıxakərandakı türbəsi 1944-cü ildə ateist rejimin dini dəyərləri yox etmə planı çərçivəsində dağıdılmışdır. Sonradan bu türbənin yerində yerli xalq tərəfindən yenidən estetik və memari xüsusiyyətləri olmayan sadə bir türbə tikilmişdir. Ancaq türbənin ətrafındakı qəbristanlıqdakı qəbir daşlarıdan başa düşmək olur ki, buranın tarixi XII-XIII əsrə qədər gedib çıxır. Türbələrdən hansının Şeyx Zahidə aid olduğu məsələsi də mübahisəlidir. Osmanlı mənbələrində şeyxin təkkə və qəbrinin "Ləngərkunan"-da olduğu qeyd olunmuşdur. Şeyxinin ləqəbinin də Gilani olması onun Gilanlı olması şübhəsini doğurur. Bəlkə də bunlardan biri Şeyxin qəbrini, digəri isə onun məqamını və yaxud təkkəsini bildirir. Bundan əlavə biri Lənkəranda, digəri isə Lahicanda yaşamış olan Şeyx Zahid adlı fərqli iki sufinin də olma ehtimalı mövcuddur.



Şeyx Zahid Siyavərudda dəfn olunmuşdur. Siyavərudi su basdığına görə Şeyx Səfiyuddin onun qəbrini oradan Hiləkərana köçürmüşdür. O vaxtdan etibarən bu alimə olan hörmətin rəmzi olaraq Hiləkəranın "Şıxakəran" adlandırıldığı da söylənilir.

Şeyxin yolu "Zahidiyyə" olaraq adlandırılmışdır. Bunun ən başlıca səbəblərindən biri şeyxin zikr şəklində meydana gətirdiyi yenilik ola bilər. Çünki "zikri-əsmeyi-səba", yəni Allahın yeddi ismi "Lə ilahə illəllah, Allah, Hu, Haqq, Hayy, Qəyyum, Qəhhar" ilə zikr etmə üsulu onun tərəfindən irəli sürülmüşdür. Xəlvətiyyə təriqətinin uzun bir müddət Zahidiyyə-Xəlvətiyyə adlandırılaraq Zahidiyyənin bir şöbəsi kimi qəbul olunmasının səbəbi təriqətin belə bir yoldan keçmiş olması və əsmeyi-səba zikri kimi bəzi əsas xüsusiyyətlərin onun tərəfindən müəyyənləşdirilmiş olmasından irəli gəlir. Şafei

məzhəbinə mənsub olan Şeyx Xəlvətiyyə və Səfəviyyə təriqətlərində ən başlıca prinsip olan əsmeyi-səba zikri ilə seyri-süluk üsulunu ilk olarq təsbit etdiyinə görə bu iki təriqətin mürşidi-ammı (ümumi mürşid) qəbul olunur.

İbrahim Zahidin yolunu davam etdirən bir çox mühüm xəlifəsi və dərviş mövcud olmuşdur. Əxi Məhəmməd, Səfiyuddin Ərdəbili, Şirvanlı Şeyx Əxi Yusif, Abdurrahman Şirvani və Gəncəli Pir Hikmət bunlardan ən məşhurlarıdır. Əxi Yusif Təbrizdə fəaliyyət göstərmiş və orada hicri 708-ci (m. 1308) ildə vəfat etmişdir. "Əxi" ləqəbi ona əxilik məşrəbinə görə verilmişdir. Hikmət Şamaxılı olub, Gəncə və Bərdədə yetişmiş sonra Təbrizə getmiş, təhsilini də tamamladıqdan sonra öz vətəninə qayıdıb ticarət işi ilə məşğul olmuşdur. Bir dəfə ticarət məqsədilə Lənkərana getdikdə Şeyx Zahid ilə tanış olmuş və onun müridi olmuşdur. Gəncədə bir məscid və təkyə tikdirərək ömürünün axırına kimi orada yaşamış və Zahidiliyi bu bölgəyə yaymışdır. 736-cı (m. 1335) ildə Gəncədə vəfat etmişdir.



Şeyxin digər xəlifəsi Əbul-Fuyuzat Əxi Kərimuddin Məhəmməd əl-Xəlvəti Şirvanda anadan olmuşdur. Xəlvəti adını alan ilk şeyx o olmuşdur. Ancaq Xəlvətiyyə təriqəti adını, xəlifəsi və bacısı oğlu Pir Əbi Abdullah Ömərdən aldığı qəbul olunur. O da Əxiliyə mənsub olduğuna görə əxi adını almışdır. Alim bir şəxs olmuşdur. Bir yuxu gördükdən sonra Şeyx Zahidin yanına gələrək uzun müddət onun yanında qalıb, təsəvvüfi təhsilini orada tamamlamışdır. Şeyxi tərəfindən Xarəzmə göndərilmiş, orada uzun müddət irşad faəliyyətləri ilə məşğul olmuşdur. Sonra Azərbaycana qayıtmış, ömürünün axırına kimi Həridə qalmışdır. Cami onun haqqında belə demişdir: "Hər vaxt cəhri zikr ilə məşğul olurdu. Onun səsi dörd fərsax uzaqlıqdan eşidilirdi". Xorasan Xəlvətiliyi Şeyx Əxi Məhəmmədə əsaslanır.

Şeyx Əxi Məhəmməd 780-ci (m. 1378) ildə yüz yaşından sonra vəfat etmişdir. Şeyxin yetişdirdiyi xəlifələri bunlardır:

Məhəmməd əl-Qarsi, Osman Şirvani, Qütbüddin Təbrizi və Xəlvətiyyənin piri olan Ömər əl-Xəlvəti.

Şeyx Seyyid Mehmed Şükri Əfəndinin "Silsilənameyi-Aliyeyi-Sadati-Sufiyyə" adlı əsərində Tapduq İmrə və Yunus İmrənin (710/m.1320) Zahidiyyə qolundan gəldiyi qeyd olunmuşdur. Yunus İmrənin Azərbaycan və Qafqaz bölgəsinə, Təbrizə, Naxçıvana səfər etdiyi şeirlərdə qeyd olunur. Ancaq onun buralarda hansı faəliyyətlərlə məşğul olduğu, hansısa bir mürşidlə görüşüb-görüşmədiyi məlum deyil. Onun bağlı olduğu təriqət haqqında da dəqiq bir qənaətə gəlmək mümkün deyil. Xəlvətiyyə təriqəti Yunusdan təxminən yarım əsr sonra yaranmışdır. Ancaq Şeyx Zahidin təriqəti Zahidiyyə bu dövrdə mövcud idi və Xəlvətiyyə də bu bölgədə onun xəlifəsinin xəlifəsi Pir Ömər tərəfindən qurulmuşdur. Başqa bir məsələ də Yunus və Tapduq İmrənin qəbirləri ilə əlaqəlidir. Anadoluda bir çox yerdə Yunus İmrənin qəbrləri mövcuddur. Ancaq bu qəbrlərin arasına Azərbaycanı da əlavə etmək lazımdır. Tapduq və Yunus İmrənin Azərbaycanın şimal-qərb bölgəsindəki Qax şəhəri yaxınlığında (Qax-Zaqatala yolu üstündə) iki qəbri mövcuddur. Yenə Xəlvəti silsiləsində yer alan Pir Ömərin müridi olan Əxi Əmrəm adlı bir şeyx da vardır. Ola bilsin ki, bu şeyxin adı ilə Yunus İmrənin adı bir-birinə qarışdırılmışdır.

Zahid Gilaninin digər bir əhəmiyyətli xəlifəsi Şeyx Səfiyuddin Ərdəbilidir. O, 650-ci (m. 1252) ildə Ərdəbilin Kəlxoran kəndində anadan olmuşdur. Elm təhsili və kamil bir mürşid tapmaq üçün çox yerə səfər etmişdir. Şirazda Əmir Abdullahın tövsiyəsi ilə İbrahim Zahid Gilaninin yanına gələrə onun dərs qrupunda iştirak etmişdir.

Səfiyuddin İbrahim Zahidə mürid olanda iyirmi beş yaşı vardı. Şeyxinin isə altmış yaşı vardı. Mürşidi ilə olan yaxın münasibəti Şeyx Zahidin qızı Bibi Fatimə ilə evləndikdən sonra daha da artmışdı. Şeyxi tərəfindən əvvəlcə Marağa tərəflərinə göndərildi. Burada rastlaşdığı Qələndəriyyə-Batiniyyə təriqət əhli ilə söhbətlər edərək onların batil əqidələrini düzəltmişdi.

Səfiyuddin şeyxinin yanında iyirmi beş il qaldı. Şeyx Zahid vəfat etdikdən sonra öz məmləkəti Ərbədilə qayıtdı və qısa müddət ərzində ətrafında geniş bir mürid kütləsi toplamağa müvəffəq oldu. Onun şöhrəti bütün Azərbaycan, Xorasan, İraq və Anadoluya yayıldı. Elxani dövlət adamlarının hörmətini və rəğbətini qazanağa müvəffəq oldu. Hətta öz dövründə Təbriz və Marağa yolu ilə Anadolu və İraqdan Ərdəbilə gələnlərin sayı üç ayda üç minə çatdı. Sondaları Bəlx, Buxara və daha uzaq bölgələrdən gələnlərin sayı artaraq çoxaldı. Elxani hökmdarlarından biri olan Olcayto Xüdabəndə və Əbu Səid Bahadır Xan, Elxani bəylərindən Əmir Çoban, vəzir və tarixçi Rəşiduddin kimi əhəmiyyətli şəxsiyyətlər Şeyxin müridləri arasında idi. Mənbələr onun haqqında "sünni, arifi-billah möhtərəm bir şəxs idi" yazır. "Saffətus-Səfa" adlı əsərdə bir çox yerdə ona "ey Piri-Türk"-deyə xitab olunduğuna görə şeyxin milliyyətcə Azəri türkü olma ehtimalı çoxdur. Səfiyuddin şeyx kimi otuz beş il xidmət etdikdən sonra səksən beş yaşında hicri 735-ci (m. 1334) ildə Ərdəbildə vəfat etmiş və oradakı zaviyəsində dəfn olunmuşdur.

## YUNUS ƏMRƏ ﷺ

(d. 1240 / v. 1320)

Könül sultanlarımızdan Yunus Əmrə həzrətləri müsəlman Anadolunun Haqq və həqiqət ərlərinin başında gəlir.

Onun doğumu, ölümü və həyatı haqda dəqiq məlumatlar yoxdur. Buna baxmayaraq çox uzunömürlü olduğu və Sivrihisarın şimalında yerləşən Sarıköydə yaşadığı rəvayət edilir. Ümumiyyətlə onun haqqında əldə olunan məlumatlar müxtəlif mənqibələrdən və şeirlərindən hasil olan qənaətlərdən ibarətdir.

Yunus Əmrə həzrətləri həm təsəvvüf, həm də onu ifadə yolunda istifadə etdiyi şeir dünyası baxımından misilsiz zənginliyə sahib olan bir dahi kimi böyük cığır açmışdır. Onun Allaha dəvət səsi, könülləri yoğuran nəfəsi və ucalıqlara yüksələn həmləsi hələ də davam edir. O, bir çoxları kimi fani vücudunun torpağa qoyulması ilə tarix səhnəsindən silinməmiş, qəlblərdəki feyzli və ruhani təsiri davam etmişdir. O, sanki içdiyi və payladığı abi-həyat sayəsində fanilik sərhədlərini aşaraq əbədiləşmişdir.

Yunus Əmrə həzrətlərinin yaşadığı dövr Monqol istilaları nəticəsində Anadolu Səlcuqlu Dövlətinin yıxılması, bu tənəzzüldən doğan ictimai böhran dövrləri ilə yenidən silkələnib ayağa qalxma və bu səylərin qızğın fəaliyyətlərinin həyata keçirildiyi zamanlara təsadüf edir və Osman Qazi dövrünü də ehtiva edir. Qısaca deyə bilərik ki, Həzrət Yunusun yaşadığı dövrdə böyük yıxılış daha böyük bir quruluşa doğru sürətli

bir irəliləyiş təqib etmişdir ki, bunun ən birinci amilləri də Haqq dostları silsiləsi olmuşdur.

Fərdlərdə olduğu kimi millətlərin də həyatı sona qədər düz bir xətt üzrə davam etmir. Bəzən eniş, bəzən də yoxuş gözə çarpır. Fəlakət və səadət zamanları tarix içində təbiətdəki dağ silsilələri kimi bir-birini təqib edib gedər. Dirənişin imkansız olduğu fəlakət qarşısında cəmiyyətin vicdanını təsəlli edəcək böyük ruhlar onlara təvəkkül və mətanət aşılamaq xüsusunda böyük bir rol oynayarlar. Bunlar yaraları zahiri planda sarımağa və ya xəfiflətməyə kömək edən qəhrəmanlar qədər və hətta bəzən onlardan da üstün və davamlı xidmət ifa edərlər.

Məhz Yunus Əmrə də bu kimi şəxsiyyətlərdəndir. Belə ki, bu ali ruhlar dəyər və təsirləri etibarilə dərəcələndirməyə girsələr heç şübhəsiz ki, birinci sırada **Yunus Əmrə** yer alar. Çünki o, digər mənəvi rəhbərlərin imanı könüllərdə yaşanan bir həyat və əbədiyyət iksiri halına gətirmə səylərinə əlavə olaraq Allaha qovuşma eşqini və vəcdini sadə olduğu qədər möhtəşəm olan bir sənət ehtişamıyla, yəni misilsiz səhlimumtəni tərzindəki şeirləriylə öz zamanından və cəmiyyətindən daha uzaqlara çatdırmışdır.



Yunus Əmrə həzrətləri bir tərəfdən zahiri yaralara məlhəm olarkən digər tərəfdən də batini batil cərəyanların Anadolu xalqında açdığı boşluqları doldurmuş və ilahi eşqi İslamın ülvi və lahuti aləmindən əks etdiyi şəkliylə xalqa əks etdirmişdir. O, bu yönüylə sanki Anadolunun Əhməd Yəsəvisi kimi seçilib önə çıxmışdır. Belə ki, Əhməd Yəsəvi ilə başlayan təsəvvüf ədəbiyyatı Yunusda ən zirvəyə çatmış və xüsusilə bu ədəbiyyatın ən üstün şairi olmaq sifəti də Yunusa qismət olmuşdur.

Yunus Əmrənin şeirlərindən də başa düşüldüyü kimi o, yaxşı təhsil almışdır. Qurani-Kərimə vaqif, təfsir, hədis, fiqh kimi İslami elmlərdən agah biri idi. Türk dilini çox yaxşı işlətməsi ilə yanaşı ərəb və fars dillərini də bildiyi şeirlərindən məlumdur. Həzrət Yunusun oxuyub-yaza bilmədiyi haqda

beytləri isə əslində onun təvazökarlığının əsəridir. Çünki o, Qurani-Kərimdən, hədisi-şəriflərdən və bir çox kəlami-kibardan məzmunlar dilə gətirir. Mövlananın məsnəvisini oxumuş və belə demişdir:

*Mövlana Xudavəndigar bizə nəzər qılalı,*
*Onun görklü nəzəri könlümüzün aynasıdır!..*

Həmçinin Həzrət Yunusun Şərqin dahi şairi olan Sədinin bir qəzəlini nəzm ilə türk dilinə tərcümə etməsi də onun elmindən xəbər verir.

Yunusu Yunus edən nədir? Onun sahib olduğu yüksək dərəcəsinin sirri bu sualın cavabında yatır.

Məşhur rəvayətlərə görə Yunus Əmrə həddən artıq kasıb bir insan idi və əkinçiliklə dolanırdı. Bir dəfə böyük bir quraqlıq oldu və heç bir məhsul əldə edə bilmədi. Qıtlıq tamamilə belini bükdü. Çarəsiz qaldı. Kəramət və yardımları haqda çox eşitdiyi Hacı Bektaş Vəli həzrətlərinin dərgahında hər kəsin muradına çatdığından xəbər tutaraq qida almaq üçün Həzrət Piri ziyarət üçün yollara düşdü. Gedərkən "boş gedən boş qayıdar" düsturuna əsasən özü ilə bir az alıç (dağda bitən yeməli bitki) götürdü. Dərgaha çatdıqda dərvişlərə:

"- Mən kasıb bir adamam. Bu alıçı Həzrətə pay gətirdim. Xahiş edirəm bunu qəbul edin və mənə bir az buğda verin! Qıtlıq bizi pərişan etdi..." dedi.

Məsələdən xəbər tutan Hacı Bektaş Vəli kasıb, onda gizli olan istedad və cövhəri kəşf edərək Yunusa iltifat etdi. Onu bir neçə gün dərgahında qonaq saxladı. Lakin Yunus ailə üzvlərinin ondan qida gözlədiklərini dilə gətirərək getmək üçün dərvişlərin vasitəsiylə izin istədi. Dərvişlər məsələni Həzrət Pirə çatdırdılar. Hacı Bektaş Vəli xəbər göndərdi:

"- Yunusdan soruşun görək buğda istəyir, yoxsa ərənlərin himmətini?"

Biçarə Yunus buğda istədi.

Hacı Bektaş Vəli yenidən xəbər göndərdi:

"- İstəyirsə, gətirdiyi alıçın dənələri qədər nəfəs edək!"

Yunus buğda istəməkdə israr edərək:

"- Nəfəs mənim nəyimə lazımdır? Mənə buğda lazımdır." –dedi. Hacı Bektaş Vəli son dəfə:

"- İstəyirsə alıçlardakı hər toxumun sayı qədər himmət edək!" xəbərini göndərdi.

Yunus bu dəfə də buğda istədiyini dilə gətirdi.

Nəhayət Həzrət Pirin əmriylə arzu etdiyi kimi ona buğda verdilər və yola saldılar. Arzusuna çatdığı üçün sevinclə dərgahdan ayrılıb kəndə gedərkən baş verənləri düşünməyə başladı. Düşündükcə də nə qədər böyük bir səhv etdiyini anladı. Nəhayət yarı yoldan qayıdaraq tələsik dərgaha gəldi. Təlaş və peşmanlıqla:

"- Ərənlər! Buğdanı geri götürün və Pir həzrətlərinə himmət istədiyimi bildirin! Haqqında danışdığı nəsibini bəxş etsin." –dedi.



Lakin iş-işdən keçmişdi. Hacı Bektaş Vəli:

"- Biz onu **Tapdıq Əmrə**yə verdik. Artıq nəsibinin açarı Tapdıq Əmrədədir." –dedi. Bu cavabı alan Yunus birbaşa Tapdıq Əmrənin dərgahına yollandı. Baş verənləri ona danışdı. Sakitcə ona qulaq asan Tapdıq Əmrə də:

"- Yunus, himmət eylə, biz də himmət edək!" –buyurdu.

Sonra da dərgaha odun gətirmək işini ona həvalə etdi.

Qəlbi Haqq və həqiqətin sirlərindən agah ola bilməyin vəcd və həyəcanı ilə alışıb-yanan Yunus böyük bir eşq və tayıbərabəri olmayan bir şövq ilə verilən vəzifəni yerinə yetirməyə başladı.

Yunusun fani istəkləri təmsil edən buğdadan vaz keçib həqiqət qapısındakı əbədi qisməti tələb etməsinə müqabil olaraq bir çoxlarının qəfləti səbəbiylə Arif Nihat Asya belə deyir:

"Sən "Mən nə etdim?" deyərək qaçaraq himmətə qayıtmağı bildin bizsə hələ buğda qayğısındayıq, Yunus!.."

Həqiqətən də bir çoxları buğda dərdindədir. Himmət dərdi çəkənlərsə həddən artıq azdır.

Allah Rəsulu (s.ə.s) buyurur:

*"Sizin ən xeyirliniz dünya və axirət seçimi ilə qarşılaşdıqda axirəti seçə biləninizdir."*

Yunus da öz seçimi ilə əlbəttə ki, bu ən xeyirli bəxtiyarlar karvanına qatılmışdır.

Yunus Əmrənin Tapdıq Əmrənin dərgahındakı xidməti isə dillərə dastan olmuşdur. Dərgaha odun daşımaq vəzifəsini ifa edən Yunus işini axsatmadan uzun illər misilsiz xidmət göstərmiş, əlindən gələni əsigəməmişdir. Vəzifəsini yerinə yetirərkən gətirdiyi hər odunun dümdüz olmasına həssaslıqla diqqət edirdi...



Bunu bilən Tapdıq Əmrə həzrətləri bir gün Yunusun gətirdiyi odunlardan birini əlinə götürüb soruşdu:

"- Yunus, neçə vaxtdır səndən soruşmadığım bir şeyi soruşmaq istəyirəm. Bu odunların hamısı belədirmi? Hamısı ox kimi dümdüzdür?.."

"- Hamısı elədir, sultanım!"

"- Heç bir dənə də olsun əyrisi yoxdurmu?"

"- Yoxdur, sultanım!"

"- Bu neçə ildə dağda bir dənə də olsun əyri oduna rast gəlmədinmi, Yunus?.."

Yunus bu məşhur cavabı verdi:

"- Sultanım, bilirəm ki, sizin qapınızdan içəri heç bir əyrilik girməz. Odun olsa da!.."

Məhz Yunusun xidməti belə idi!

Təsəvvüfdə mürşid ilə mürid arasındakı münasibətlərdə müxtəlif metodlar vardır. Bunlardan biri də mürşidin mənəvi təhlükələr səbəbiylə müridin əldə etdiyi nailiyyətlərdən onu xəbərdar etməyib tələbəsini seyri-süluk yolunda daha da irəli aparma cəhdidir.

Tapdıq Əmrə də Yunusun mənəvi yüksəlişini nəfsindən bilərək müvəffəqiyyətinə mane olmaması üçün bir müddət bu metoddan istifadə etmişdir. Belə ki, Hacı Bektaş Vəlinin dərgahına gəldiyi ilk gün himmət təklifi alan Yunus bu dərgahda uzun illər nöqsansız xidmət etməsinə baxmayaraq özündə hər hansı bir tərəqqi və himmət nişanəsi görmədi. Buna çox kədərləndi. "Bu işin sonu necə olacaq?" –deyə öz-özünə heyfsləndi. Nə edəcəyini bilmədi. Halbuki o, Allaha vasil olmaq yolunda mənzili-məqsuduna çata bilmək üçün bu dərgaha baş qoymuş, uzun illər xidmət etmişdi. Ancaq xidmətlə fəda etdiyi bu qədər illərə rəğmən öz inkişafının fərqində deyildi. Sanki bu qapıda əliboş vəziyyətdəydi.



Nəhayət biçarə Yunus düşündü və dərgahdan ayrılıb ruhunu kamilləşdirəcək başqa bir qapı axtarmağa qərar verdi. Səssiz-səmirsiz halda dərgahdan ayrılıb yollara düşdü. Yolda özü kimi kamil qapı axtaran iki nəfərlə dost oldu və birlikdə gəzməyə başladılar. Birlikdə olduqları ikinci gün acdıqları zaman dostlardan biri dua etdi və onlara bir süfrə bəxş edildi. Yeyib-içib şükür etdilər. Yunus bu işə mat qaldı. Sonra:

"Bunlar bir qapıya xidmət etmədən bu qədər kamilləşdikləri halda mən o qədər xidmətimdən heç nə əldə etmədim. Yaxşı ki, o dərgahdan ayrılmışam!" –deyə düşündü.

Ertəsi gün yenə acdılar və ikinci dərviş dua etdi. Yenə bir süfrə nazil oldu. Yeyib-içib şükür etdilər və yola düşdülər.

Nəhayət o biri gün yemək üçün dua növbəsi Yunusa çatdı. Hər iki dərviş də:

"- Haydı, dərviş! Növbə səndədir, dua et!" –dedi.

Yunus təlaşa düşdü:

"- Dostlar! Mənim duamla bircə dənə yarpaq da tərpənməz. Nə olar məni bu işdə üzrlü sayın! Mənim mərtəbəm çox aşağıdadır. Sizin kimi Haqq qatından süfrə nazil olunacaq biri deyiləm mən!.." –dedi.

Dərvişlər etiraz etdilər:

"- Dərviş qardaş, biz qaydamızı poza bilmərik, haydı dua et!" –dedilər.

Nə desə yenə dərviş yoldaşlarını razı sala bilməyəcəyini anlayan dərdli Yunus çarəsiz halda əllərini uca dərgaha qaldırdı:

"- Ya Rəbb! Bu aciz bəndən, miskin Yunusa bu dərvişlərə göndərdiyin süfrədən ikram etdin. İndi o süfrə üçün dua və yalvarış növbəsi mənə çatdı. Sən mənim günahlarıma baxma, lütfünü bəxş eylə. Məni utandırma, Allahım! Onlar kimin hörmətinə Sənə dua edib bu lütfə nail oldularsa, mən də həmin qulunun hörmətinə Səndən istəyirəm!.." –deyə səmimi qəlblə yalvardı.



Əllərini üzünə yeni çəkmişdi ki, on nəfərlik təmtaraqlı bir süfrə nazil oldu. Yunus da, yoldaşları da mat qaldılar. Dərhal soruşdular:

"- Ey dərviş qardaş, bəs sən dua etməyi bilmədiyini deyirdin! De görək necə dua etdin ki, Allah sənə belə bir süfrə göndərdi?"

Baş verənlər qarşısında mat qalmış dərdli Yunus şahid olduğu sirlər qarşısında heç nə deyə bilmədi. Bu hal onun üçün bir müəmma oldu. Bu mənəvi sirdən agah olmadığı üçün yoldaşlarından soruşdu:

"- Əvvəlcə siz söyləyin, ey dərvişlər! Siz necə dua etdiniz?" –dedi.

Onlar da:

"- Dərviş qardaş! Biz Tapdıq Əmrə həzrətlərinin qapısında qırx ildir dillərə dastan olacaq şəkildə sədaqət və ixlasla xid-

mət edən Dərviş Yunusun üzü suyu hörmətinə dua və niyaz etdik." –dedilər.

Bu sözləri eşidən Yunus mənəvi bir titrəyişlə irkilərək qəlbinin dərinliklərindən qopan bir "Eyvah!" fəryadı ilə yerindən dik atıldı. Önündəki süfrədən bir tikə də götürmədən digər iki dərvişlə vidalaşıb onların heyrətli baxışları altında geriyə döndü və sürətlə oradan uzaqlaşdı. Şeyxinin evinə çatıb qapını döydü. Qapıya Həzrət Pirin xanımı çıxdı. Yunusu qarşısında görən validə xanım ona:

"- Oğlum, niyə belə etdin? Ustadını incitdin." -dedi.

Sonra da Yunusun peşmanlıqla islanmış gözlərinə və boynubükük halına baxaraq:

"- Oğlum! Tapdıq həzrətləri bir azdan çölə çıxacaq. Sən burada, qapının ağzında gözlə. Ayağı sənə ilişəndə "Bu kimdir?" –deyə soruşar. Mən də: "Yunusdur, əfəndim!" –deyərəm. "Hansı Yunus?" desə, bil ki, səni qəlbindən çıxarıb. O zaman çıxıb gedərsən. Yox, əgər "Bizim Yunusmu?" desə bil ki, səni bağışlayıb." –dedi.



Dərdli Yunus bütün ruhunu bürüyən bir peşmanlıqla başını qapının kandarına qoydu. Gözləməyə başladı. Bir azdan Tapdıq Əmrə həzrətləri qapıda göründü. Zahiri gözləri kor olsa da qəlbi günəş kimi idi. Ayağı Yunusun başına dəyəndə:

"- Bu kimdir?" –dedi.

Xanımı:

"- Yunus!" –deyə cavab verdi.

Bir anlıq sükut edən Həzrət Pir qarşısında pərişan halda göz yaşı tökən Yunusun halını qəlbi ilə tamaşa edərək təbəssümlə:

"- Bizim Yunusmu?" –dedi.

Sonra da çox mənalı sözlər söylədi:

*"- Yunus, oğlum! Bir meyvə özünün yetişdiyini bilməz. Onu ancaq bağban bilər. Tələbənin də kamilləşdiyini ən yaxşı ustadı bilər. Amma çalışmasına davam etməsi və özündə bir fərqlik hiss etməməsi üçün müəyyən vaxta qədər ondan həqiqəti gizləyər ki, onu daha da irəliyə aparsın!"* –dedi.

Yunus Əmrəni bir çox mənəvi mərhələlərdən keçirən Tapdıq Əmrə həzrətləri bir gün müridləriylə söhbət edərkən ona:

"- Oğlum, Yunus! Bizə hikmətli bir şeir oxu!" –dedi.

İlk dəfə belə bir əmr qarşısında qalan Yunus Əmrə özünü itirdi və:

"- Ustadım! Mən ilahi oxuya bilmirəm!" –dedi.

Tapdıq həzrətləri yenə:

"- Haydı Yunus! Bizə bir şeir oxu!" –dedi.

Yunus Əmrə o ana qədər heç vaxt şeir yazmamış, tərənnüm etməmişdi. Şeyxinin əmrini necə yerinə yetirəcəyini düşünərkən bir anda dili açıldı, könlündəki hikmət dəryası tüğyan etdi və şeir halında kəlmələrə çevrilməyə başladı:

*Eşqin aldı məndən məni, mənə səni gərək səni*
*Mən yanaram dün-ü-günü, mənə səni gərək səni*
*Nə varlığa sevinərəm, nə yoxluğa yerinərəm*
*Eşqin ilə ovunaram, mənə səni gərək səni*
*Sufilərə söhbət gərək, axilərə axirət gərək*
*Məcnunlara Leyla gərək, mənə səni gərək səni*
*Yunusdur mənim adım, gün gəldikcə artar odum*
*İki cahanda məqsudum, mənə səni gərək səni*

Həzrət Yunus daxilindəki bu Allah sevgisinin başqa bir təzahürü olaraq Həzrət Peyğəmbər (s.ə.s)-in də eşqi ilə yanıb tutuşmuşdur. Bunu da belə dilə gətirdi:

*Eşqin ilə aşiqlər yansın, ya Rəsulallah!*
*İçib eşqin şərabın qansın, ya Rəsulallah!*
*Şol səni sevənlərə qıl şəfaət onlara,*
*Mömin olan tənlərə cansın, ya Rəsulallah!*

*Aşiqəm ol dildarə, bülbüləm şol gülzarə,*
*Seni sevməyən narə yansın, ya Rəsulallah!*

Bundan sonra Yunus Əmrənin qəlbindən o məşhur səhli-mumtəni tərzindəki misilsiz tərənnümlər ardarda axmağa başladı.

Yunus Əmrə öz dövründə cərəyan edən, insanların bir-birləriylə nəfsani mücadiləsindəki əsl səbəbin eşqsizlik və bunun nəticəsi olaraq da məhəbbət əskikliyi və duyğusuzluq olduğunu görmüşdü. Beləliklə o, bu əskikliyi aradan qaldırmaq üçün təsiri zamanımıza qədər davam edən qüvvətli bir nəfxə (nəfəs) halında Anadolu torpağı üstündə əsdi və Rumelidən Orta Asiyaya qədər hər yanğın yerində yenidən cücərməyə səbəb olan yağış buludları kimi feyzli bir vəzifə ifa etdi.



O, özünün eşq, vəcd və istiğraq (qərq olma) halında yanmasını belə dilə gətirir:

*Mən yürürəm yanə-yanə eşq boyadı məni qanə,*
*Nə aqiləm, nə divanə; gəl gör məni eşq neylədi?*
*Gah əsərəm yellər kimi, gah tozaram yollar kimi,*
*Gah çağlaram sellər kimi, gəl gör məni eşq neylədi?*

Eşq yoluna girənlərə belə xitab edir:

*Canını eşq yoluna verməyən aşiqmidir?*
*Cəhd eyləyib ol dosta erməyən aşiqmidir?*
*Nəfs arzusundan keçib, eşq qədəhindən içib,*
*Söhbətlərdə baş çatıb durmayan aşiqmidir?*
*Yunus imdi ol dostun cəfasına səbr eylə,*
*Ürəyinə eşq odun urmayan aşiqmidir?*

Yunus Əmrə eşqdən yoxsul bir könlün quruluğunu tərənnüm edir:

*Eşidin ey yarənlər, eşq bir günəşə bənzər.*
*Eşqi olmayan könül misali daşa bənzər!*

Yunus Əmrə həzrətləri bu tərənnümləriylə insanları düşünməyə, duymağa və xüsusilə özlərini hesaba çəkməyə sövq etdi. O, ruhani bir dillə insanın könlündəki mənəvi enerjini ta-

mamən hərəkətə gətirməyi bildi. Nəticədə acıları şirin, zəhərləri bal edən bir mənəviyyat qəhrəmanı oldu. Çünki o, ballar balını tapmışdı:

*Canlar canını tapdım; bu canım yağma olsun!*
*Assı ziyandan keçdim; dükkanım yağma olsun!*
*Varlıq çün səfər qıldı, dost andan bizə gəldi*
*Viran könül nur doldu; cahanım yağma olsun!*
*Yunus nə xoş demişsən, bal-u-şəkər yemişsən*
*Ballar balını tapdım; pətəyim yağma olsun!*

Ballar balını tapan Yunus öz könlünə xitab edərək hər kəsi bu mənəvi lütfün bəxş edildiyi dost qapısına, yəni Rəbbə dəvət etməyə başladı:

*Gəl gedəlim can durmadan, surət tərkini urmadan,*
*Araya düşmən girmədən, əcəl yaxamız almadan,*
*Əzrail həmlə qılmadan gəl dosta gedəlim könül!*
*Gerçək erənə varalım, Haqqın xəbərin soralım,*
*Yunus Əmrəyi alalım, gəl dosta gedəlim könül!*



Həqiqi elm məktəbdə və mədrəsədə alınan biliklər deyil. Onlar həqiqi elmə ancaq bir vasitə ola bilərlər. Həqiqi elm kainatın əsrarlı bir kitab halına gəlib könüldə oxunmasıdır.

Bunun dərsxanası da məhəbbət və eşqdir.

Buna görə də Yunus Əmrə həzrətlərinin hədəfi elm deyildi. Ondan ancaq bir vasitə kimi istifadə etdi. Onun bu xüsusdakı ifadələri məna və sirlə doludur:

*Elm elm bilməkdir, elm kəndin bilməkdir,*
*Sən kəndini bilməzsən, bu necə oxumaqdır?*
*Oxumaqdan məna nə, kişi Haqqı bilməkdir,*
*Çün oxudun bilməzsən, ha bir quru əməkdir!*
*İyirmi doqquz heca, oxursun ucdan uca,*
*Sən əlif dersin hoca, mənası nə deməkdir?*

Yunus bir könül almağın əhəmiyyətini bilir:

*Yunus Əmrə der hoca, gərəksə var min həccə,*
*Hepisindən iyicə, bir könülə girməkdir!*

O, mərifətullah kitabını oxumuşdur:

*Alimlər kitab düzər, qaraya ağa yazar,*
*Könüllərdə yazılır, bu kitabın surəsi*

Yaşanmaqdan uzaq qafilanə bir elm təhsilini qəbul etmir:

*Dostdur bizi oxuyan, üstümüzdə şaqıyan*
*Şimdi üç buçuk oxuyan dərin danışman olur.*

Yunus zöhdü, yəni dünyaya bağlanmamağı belə ifadə edir:

*Başında ağlı olan ücrətə əməl etməz,*
*Hurilərə aldanmaz, göz ilə qaşdan keçər!*
*Ariflərə bu dünya xəyalvüdüş kimidir*
*Kəndini sənə verən xəyalvüdüşdən keçər!*

Yunus Əmrə yazmış olduğu şeirləri ilə bəşəriyyətin qədər yolu üzərində oturaraq Allaha iman, dua, dini məsələlər, qəbir, ömrün faniliyi, ilahi eşq, nəsihətlər və ali qayə kimi ülvi xüsusları dilə gətirmişdir.



O, hər yerdə, hər şeydə və hər nəfəsdə Allahın zikrini duymuş, dilsiz olduğu zənn edilən bir çox varlıqların hərfsiz və sözsüz nitqlərini ülvi və lahuti sədaları eşidərək tərənnümlər etmişdir.

O: "Dünyada qərib bir yolçu kimi ol!" hədisi-şərifini bir növ təmsil edir. Deyir ki:

*Əcəb bu yerdə var m'ola şöylə qərib mənciləyin?*
*Bağrı başlı gözü yaşlı şöylə qərib mənciləyin?*
*Bir qərib ölmüş diyələr üç gündən sonra duyalar,*
*Soyuq su ilə yuyalar şöylə qərib mənciləyin!..*
*Hey Əmrəm Yunus biçarə, bulunmaz dərdinə çarə,*
*Var şimdi gəz şardan şara şöylə qərib mənciləyin!..*

O, bu dünya həbsxanasında yaşanan qürbət halını və bu hal səbəbiylə qarşılaşdığı bir çox kədər və qəm təcəllilərini, xüsusilə Hüsnü-Mütləqdən ayrılığını bülbülə sitəmlə belə ifadə edir:

*Sən bunda qəribmi qaldın, neçün ağlarsan ey bülbül?*
*Yorulub izmi yanıldın, neçün ağlarsan ey bülbül?*
*Qarlı dağlarmı aşdın, dərin irmaqlarmı keçdin?*
*Yarından ayrımı düşdün, neçün ağlarsan ey bülbül?*

Başqa bir şeirində də bu qürbət aləmində hər kəsin irfan və əsrari-ilahi iqliminə girə bilmədiyini ifadə mahiyyətində mənəviyyat yolçuluğundakı yalnızlığını və ancaq yar ilə təsəlli tapdığını söyləyir:

*Mən bir əcəb ilə gəldim, kimsə halım bilmız mənim!*
*Mən söylərəm mən dinlərəm, kimsə dilim bilməz mənim!*
*Mənim dilim quş dilidir, mənim elim dost elidir,*
*Mən bülbüləm dost gülümdür, bilin gülüm solmaz mənim!*

Varlığın yalanlarından qurtulan Yunus Əmrə həzrətləri mal və mülkə düşkün insanları necə də gözəl xəbərdar edir:

*Mal sahibi, mülk sahibi, hanı bunun ilk sahibi?*
*Mal da yalan, mülk də yalan; var bir az da sən oyalan!*

Həyatın qısa olduğunu da bir beytlə xülasə edir:

*Ana rəhmindən gəldik bazara;*
*Bir kəfən aldıq döndük məzara!..*

Həmçinin bu aldanış məkanına qonub köçənlərin halını necə də gözəl əks etdirir:

*Yalançı dünyaya qonub köçənlər,*
*Nə söylərlər, nə bir xəbər verərlər!..*
*Üzərində dürlü otlar bitənlər,*
*Nə söylərlər, nə bir xəbər verərlər!..*
*Kiminin başında bitər ağaclar,*
*Kiminin başında saralır otlar,*
*Kimi məsum, kimi gözəl igidlər*
*Nə söylərlər, nə bir xəbər verərlər!..*
*Torpağa qərq olmuş nazik tənləri,*
*Söyləmədən qalmış dadlı dilləri,*
*Gəlin duadan unutman bunları*
*Nə söylərlər, nə bir xəbər verərlər!..*

*Kimisi dördündə, kimi beşində,*
*Kimisinin tacı yoxdur başında,*
*Kimi altı, kimi yeddi yaşında,*
*Nə söylərlər, nə bir xəbər verərlər!..*
*Kimi bəzirgan, kimisi xoca,*
*Əcəl şərbətini içmək də güc a!*
*Kimi ağ saqqallı, kimi pir qoca*
*Nə söylərlər, nə bir xəbər verərlər!..*
*Yunus der ki, gör təqdirin işləri*
*Tökülmüşdür kirpikləri qaşları*
*Başları ucunda heca daşları*
*Nə söylərlər, nə bir xəbər verərlər!..*



Yunus Əmrə həzrətləri bir "səhli-mumtəni" (imkansız dərəcədə çətin olan asan deyim) şəklində tərənnüm etdiyi şeirləriylə təfəkkür və hissiyyat dərinliyi baxımından xalqın ruhunu əsrlər uzunu bəsləmiş feyzli bir mənbədir. Ucsuz-bucaqsız bir dəryadır. İnsan onun şeirlərini eşitdiyi zaman ilk anda:

"Nə qədər bəsit! Əlbəttə mən də belə bir şeir söyləyə bilərəm!" kimi bir hissə qapılır.

Lakin o qədər dərin bir fikri bu qədər bəsit şəkildə ifadə etmək hər adama qismət ola biləcək qabiliyyət deyildir. Məsələn:

*Ətə, sümüyə büründüm*
*Yunus deyə göründüm!*

İfadəsi buna gözəl bir misaldır. Belə ki, bu kiçik cümlə təsəvvüfü başdan-ayağa xülasə edir.

Yunus Əmrənin şeirləri təsəvvüfi bir dərinlik ərz etdiyi üçün onları zahiri elmlərlə dəyərləndirib anlamaq mümkün deyildir. Hər nə qədər asan anlaşılacağı təəssüratı bağışlasa da o asanlıqların içində bir çox sirlərin məhrəm olduğunu özü belə ifadə edir:

*Yunus bir söz söylədi; heç bir sözə bənzəməz!*
*Cahillərin içində örtər məna üzünü…*

Yəni Yunusun şeirlərindəki bir çox mənalar irfandan məhrum olanlara gizli qalmaqdadır.

Bir xalq şairi olduğu zənn edilən Yunus Əmrə bəzi şeirlərindən anlaşılan bir məlumat olaraq bəyan etdiyimiz kimi əslində mədrəsə təhsili görmüş, ərəb və fars dilinə vaqif dərin bir elmi və fikri səviyyə sahibi olan şəxsiyyətdir. Əruzda ən mükəmməl şəkildə yaza bilən bu böyük insan bir növ "təcahüli-arifanə" ilə cəmiyyətin demək olar ki, hər fərdinə xitab etdiyi üçün dərin bilikləri, böyük və mücərrəd fikirləri bir uşağa nəql edən təcrübəli mütəfəkkir bir müəllim kimi böyük bir asanlıqla ifadə edə bilmişdir. Ancaq bəzən də insanların sırf istedad və iqtidarını nəzərə alaraq çox dərin təsəvvüfi mövzuları sanki labirintə bənzər bir tapmaca kimi ortaya qoymuşdur. Ədəbiyyatda "şəthiyyə" adı verilən bu tərz şeirlərindən ən məşhuru:

*Çıxdım alça dalına, anda yedim üzümü,*
*Bostan issi kakıdı; der; nə yersin qozumu?*

beytiylə başlayan şeirdir.

Bu müəmmalı şeirin Niyazi Mirsi həzrətləri tərəfindən yazılmış şərhi mövcuddur. Bu beytin mənası belədir:

Hər ağacın bir növ meyvəsi olur, hər meyvənin də bir ağacı. Bunun kimi hər işin də özünə xas bir aləti vardır ki, onunla meydana gəlir. Məsələn, zahiri elmlər üçün lüğət, sərf, nəhv, məntiq, ədəb, kəlam, təfsir, hədis, hikmət və s. şərtdir. Batin elmləri üçün də ixlaslı bir qəlb, mürşidi-kamil tərbiyəsi, az yemək, az yatmaq, az danışmaq və üzlət halında yaşamaq lazımdır. Batini elmin daha dərinindəki həqiqət elmi üçünsə dünya və axirəti tərk edərək varlıqdan sıyrılaraq Haqda fani olmaq lazımdır.

Buna görə Pir həzrətləri alça, üzüm və qoz ilə şəriət, təriqət və həqiqətə işarə edir. Zira;

Alçanın üstü yeyilir; içi, yəni qalın və sərt olan çəyirdəyi yeyilməz. Bunun üçün alça kimilərin əməlləri zahirə misaldır. Zahirləri gözəldir, amma batinləri, yəni qəlbləri qatıdır. Üzüm əməlin batininə bənzəyir. Çünki üzüm həm yeyilir, həm də onda bir çox şəfalar vardır. Ancaq xırda da olsa içində çəyirdəklər var. Bu kimilərinin qəlblərində qatılıq və qabalığın tamamən təzkiyə edilməmiş olduğunu göstərir. Yəni onun da içində çölə atılacaq və təmizlənəcək şeylər az da olsa vardır. Qoza gəldikdə isə bu, Hindistan qozudur. Sırf həqiqəti təmsil edir. İçində atılacaq heç nə yoxdur. Həm yeyilir, həm də bir çox xəstəliklərə şəfa olur.

Elə isə bir insan alçadırsa alça ağacından tələb etsin. Üzüm istərsə bağdan istəsin. Əgər qoz tələb edərsə onu da qoz ağacında axtarsın. Hər kim ki, üzümü alçada axtararsa, o adam axmaqdır. Daima boş yerə zəhmət çəkər və bütün əməyi boşa gedər.



O halda zahiri elmin fayda və zərərini bilmək istəyən şəriətdən və şəri elmlərdən tələb edər. Batin elminin fayda və zərərini, eniş-yoxuşunu bilmək istəyən də bir mürşidi-kamilə bağlanıb onun tərbiyəsinə girər, könül kitabını oxuyar. İxlas ilə seyri-sülukə çalışar. Təsəvvüf elmindən daha üstün olan həqiqət elminin zövqünə və halına nail olmaq istəyənlərsə mürşidi-kamilin tərbiyəsində bütün nəfsani sifətlərdən sıyrılaraq, qəlbindəki masivanı (Allahdan başqa hər şeyi) silər, beləliklə fəna-fillah və bəqa-billah mərtəbəsinə çatar.

Ancaq bu üç halın başqa yolları və üsulları vardır. Metoduna görə tələb olunarsa az zamanda məqsəd hasil olar. Əksinə, bir kimsə bu gerçəkləri bir kənara qoyub öz başına görə yir yol tutarsa bu da alça ağacında üzüm axtarmağa bənzəyər.

Bostan issi, yəni bağçanın sahibindən murad isə mürşidi-kamildir. Onun:

"- Nə üçün qozumu yeyirsən?" deməsi bir tənbeh və xəbərdarlıqdır.

Bununla mürşidi-kamil:

"- Nə üçün boş yerə zəhmət çəkib özünü yorursan? Bu üç meyvə bir ağacda olmaz. Hər birinin ağacı ayrıdır. Sən bu üç meyvəni, yəni şəriət, təriqət və həqiqəti əldə etmək istəyirsənsə onları aid olduqları yerdən və əhlindən təmin etməlisən!" deməkdədir.

Burada rəhbərsiz bir şəkildə öz-özünə bir yol tutan kəslərə xəbərdarlıq vardır. Bunlar bağçaya izinsiz girərək alça ağacında üzüm üçün boş yerə zəhmət çəkənlərdir.

Ancaq əvvəlcə bir bağbanın nəzarətində hansı meyvənin hansı ağacda olduğunu bilmək və ondan sonra əldə etmək üçün cəhd etmək lazımdır. Çünki izinsiz bir şəkildə bağçalara girmək oğurluq; alça budağında üzüm axtarmaq da boş yerə çəkilmiş bir əziyyətdən başqa bir şey deyildir. Necə ki, belə hərəkət edən qafil insanlar mütəxəssislər tərəfindən haqlı olaraq azarlanır və tənbeh olunurlar. Həmçinin sənətlər üçün də vəziyyət eynidir. Bir adam öz puluyla bir sənətin alətlərini alsa və o xüsusda rəhbərsiz və ustasız olaraq məharət göstərməyə qalxarsa o işin mütəxəssisi dərhal həmin adamı:

"- Sənin gördüyün bu iş nədir?" –deyə tənbeh edərlər.

Hətta Osmanlı dövründə belə bir xamlıqla özlərinə iş yeri açan adamların dükanlarının dərhal bağlanması bu səbəbə görədir. Təəssüf ki, zəmanəmizdə bəzi kimsələr bu incəlik və dərinliyə sahib ola bilmədikləri üçün hadisə və məsələləri sadəcə bir perspektivdən mütaliə edib onların saysız mənəvi mahiyyətləri haqqında səthi qalmaqdadırlar. Beləliklə sanki hər rəngi qaradan ibarət zənn edən bir çox həqiqət korları zühur etməkdədir.

Buradan alınacaq dərs odur ki, təsəvvüf vadisində irəliləmək istəyənlər kitablardan az-çox elm ala bilirlər. Lakin feyz və istiqamətləndirmə üçün canlı bir kitaba, yəni bir mürşidi-kamilə möhtacdırlar. Bu elmin əsl feyzli əsası qəlbdən-qəlbədir. Çünki sətirlərdəki elm və feyzin saxsıdakı çiçək kimi məhdud inkişaf imkanı varkən qəlbdəki elm və feyz münbit bir bahar torpağındakı bitkilərə bənzəyər. Onların öz istedad

və qabiliyyətlərindən başqa önlərində məhuddlaşdıran bir əngəl yoxdur. Buna görə bir çinar və ya sərv ağacını saxsıda əkmək onlar üçün çox böyük bir məhrumiyyət sayılır. Bunlar öz imkanları səviyyəsində bir inkişaf xətti tuta bilmələri üçün sahib olduqları istedad və qabiliyyətlərinə yetəcək dərəcədə münbit bir torpaqda olmalıdır. İnsanlar üçün bu münbit torpaqlar da məhz mürşidi-kamillərdir ki, bir çoxları çinar kimi olsalar da bir mürşidi-kamilə vasil olub onun sinəsindən elm və feyz almadıqca istedadlarının haqqını vermiş olmazlar.



Necə ki, yeddi əsrdən bəri kamillik yolunda rəhbərlik edən Yunus Əmrə rəhbərini tapmamış olsaydı nail olduğu mənəvi rütbələrə yüksələ bilməyəcək və əsrləri ehtiva edən dərin, misilsiz və müstəsna şeirləri də meydana çıxmayacaqdı. Beləliklə o da rəhbərini tapmadan tarixin axışı içində itib-batmış saysız Yunuslardan biri olacaqdı. Bu səbəblə də Yunus Əmrə Haqqı tapmaq üçün mütləq mənəvi bir rəhbərə ehtiyac olduğunu da belə bəyan etmişdir:

*Gəl ey qardaş, Haqqı bulayım dersən,*
*Bir kamil mürşidə varmasan olmaz!*
*Rəsulun camalın görəyim dersən,*
*Bir kamil mürşidə varmasan olmaz!*

Necə ki, özü də ancaq bu şəkildə ilahi nemətlərə və mənəvi ləzzətlərə nail olduğunu ifadə edərək Allaha həmd edər:

*Haqdan enən şərbəti içdik əlhəmdulillah,*
*Şol qüdrət dənizi keçdik əlhəmdulillah…*
*Tapdıqın tapusunda qul olduq qapusunda,*
*Yunus miskin çiy idik, bişdik əlhəmdulillah!..*

Məhz bu sirr və hikmətlərə görə Həzrət Yunus Əmrə Anadolunun ən qarışıq və böhranlı dövrlərində insanların qəlbinə nüfuz edib onlara bir təsəlli qaynağı, könülləri abad edən bir feyz və həyat iksiri ola bilmişdir.

Yunusun zahirən zidd, qapalı və mənasız kimi görünən, ancaq irfan sahiblərinin anlaya biləcəyi, xüsusi simvollarla və

başlı-başına kitablar dolusu izahları əhatə edə biləcək ifadələri çoxdur. Deyir ki:

*Sirat qıldan incədir, qılıncdan kəskincədir,*
*Varıb anın üstünə evlər tikəsim gəlir…*
*Altında qayya vardır, içi nar ilə pürdür,*
*Varıb ol kölgəlikdə bir az yatasım gəlir…*

Yunus Əmrənin burada ifadə etdiyi həqiqət siratın qıldan incə, qılıncdan kəskin olmasına müqabil olaraq möminlər üçün vəziyyətlərinə görə genişlik ərz edəcəyidir.

Rəvayətlərə görə cəhənnəm alovu, möminlər siratdan keçdiyi ərəfədə belə deyəcəkdir:

"- Ey mömin! Üzərimdən tez keç, yoxsa alovumu söndürəcəksən!"

Bunun üçün Yunus Əmrə:

"Bir az yatasım gəlir!" deməklə siratda yubanıb cəhənnəm alovunun təsirini azaltmaq, beləliklə günahkar möminlərin əzabı hiss etməmələrini istəyir.

Həmçinin bu sirri anlamayıb özü haqqında zahirən ağır ifadələr işlətmək surətiylə xeyir murad etməyən qafil elm əhlinin var olması səbəbiylə Yunus təvriyəli bir şəkildə:

*Tən eyləmən xocalar, xətiriniz xoş olsun*
*Varuban ol tamuda bir az yanasım gəlir*

deməkdədir.

Burada Yunusun özünü cəhənnəmlik edən xocalara:

"- Siz təlaşlanmayın, mən cəhənnəmə girərəm!" –deyə cavab verməsinin hikməti Həzrət Əbu Bəkr (r.a)-ın duasındakı mərhəmət və şəfqətlə dolu bu səmimi niyyətidir:

"- Ya Rəbb! Mənim vücudumu cəhənnəmdə o qədər böyüt ki, oraya məndən başqa heç kimə yer qalmasın!"

Yunusun bundan sonrakı ifadələri isə bir kəramət olaraq anladılır:

Rəvayətə görə onun vəfatından yüz il sonra Molla Qasım adında zahiri bir alim Yunusun şeirlərini ələ keçirdi. Bir çayın kənarında oxuyarkən, rastına çıxan hər şeiri, onlardakı dərin mənaları anlamadığı üçün:

"- Bunlar nə qədər mənasız şeirlərdir!" deyib çaya atmağa başladı. Nəhayət qarşısına bu cümlələr çıxdı:

*Dərviş Yunus bu sözü əyri-müyrü söyləmə*
*Səni siğaya çəkər bir Molla Qasım gələr.*

Bu sözləri oxuyan Molla Qasım o anda həqiqəti qavradı və böyük peşmanlıqla:

"- Aman Allahım! Mən nə etdim? Nəhəng bir dəryadan bixəbər hərəkət etdim. Necə oldu ki, ruh və məna abidəsinin bu hikmət və irfanını gözümün önündə olduğu halda görə bilmədim!.. Halbuki o, yüz il bundan əvvəl mənim halımı bilirdi!.." –deyərək gözlərindən sel kimi yaşlar axıtdı.



Geri qalan şeirləri böyük bir həssaslıqla mühafizə etdi. Deyilənə görə bu zaman Yunusun minə yaxın şeiri məhv olmuşdur.

Yunus Əmrə əməllərinə deyil, Haqqın lütf və yardımına güvənməyi təlqin edərək belə deyir:

*Nə elmim var, nə taətim, nə gücüm var, nə taqətim*
*Məgər sənin inayətin, edə üzüm ağ Çalabım!*

Bu ifadələr onu göstərir ki, Yunus Əmrə sahib olduğu mənəvi böyüklüyə görə əsla təkəbbürlənməz. O, rəhbərlik və mürşidlik vəzifəsində o qədər möhtəşəm bir təvazöyə sahib idi ki, müridlə mürşid ayırd edilməz hala gəlmişdi. Şeirlərində ümumiyyətlə özünə xitab etmiş və Miskin Yunus, Dərviş Yunus, Biçarə Yunus deyərək irşada və xəbərdarlığa ən layiq və möhtac biri olaraq özünü görmüşdür.

*Böyük bir təvazö ilə belə deyir:*

*Miskin Yunus, ərənlərə təkəbbür olma, torpaq ol!*
*Küllisi torpaqdan bitər, gülüstandır torpaq mənə…*

Mənəvi meyvələr üçün ərənlərin qapısında torpaq kimi olan Yunus təsəvvüf yoluna girdiyi halda onun üsul və ərkanına riayət etməyən və həqiqət yolçuluğunu səhv anlayanların halına da son dərəcə kədərlənməkdə və onları, yəni özünü şeyx göstərənləri və təqlidçi müridləri:

*Dərvişlik dedikləri xirqə ilə tac deyil,*
*Könlün dərviş eyləyən xirqəyə möhtac deyil!*
*Dərvişlik olaydı tac ilə xirqə*
*Biz dəxi alardıq otuza, qırxa*

deyərək tənbeh edir. Çünki Yunus Əmrə daima əsas olana istiqamətləndirən biridir. O, dərindəkilərə nəzər edər. Qabıqdan sıyrılaraq əsl həqiqətə, yəni Allaha vasil olan cövhərə vaqif olmağa çalışır. Bunu da çox vəciz bir şəkildə şeirlərinə əks etdirmişdir:

*Sevərəm mən səni candan içərü;*
*Yolum vardır bu ərkandan içərü…*
*Şəriət, təriqət yoldur varana,*
*Həqiqət, mərifət andan içərü…*
*Məni məndə demən məndə deyiləm,*
*Bir mən vardır məndə məndən içərü…*
*Süleyman quş dilin bilür dedilər,*
*Süleyman var Süleymandan içərü…*



Yunus həzrətləri Allaha, Peyğəmbərə, ərənlərə və bütün məxluqata qarşı riayət edilməsi vacib olan ilahi əxlaq, yəni "ədəb" xüsusunda da həssasdır. Nəfis hüsnü-xətlərlə də yazılan bu beyti nə qədər də gözəldir:

*Əhli-dillər arasında aradım qıldım tələb,*
*Hər hünər məqbul imiş; illa ədəb, illa ədəb!..*

Həzrət Yunus da Həzrət Mövlana və Şeyx Sədi kimi qəlbin Allahın nəzərgahı olduğu şüurundadır. Buna görə də onun belə bir şərəfə məzhər olan qəlbi incitməmək xüsusundakı ifadələri çox qəti və ibrətlidir:

*Bir kəz könül yıxdın isə, bu qıldığın namaz deyil!*
*Yetmiş iki millət dəxi əlin-üzün yumaz deyil!..*

Başqa bir şeirində də belə deyir:

*Ağ saqqallı pir xoca, bilməz halı necə,*
*Əmək yeməsin hacca, bir könül yıxar isə…*
*Könül Çalabın taxtı, Çalab könülə baxdı,*
*İki cahan bədbaxtı kim könül yıxar isə…*

Bu xüsusda Yunus Əmrə sanki könülləri feyzlə yoğurmaq və ucaltmaq üçün dünyaya gəlmişdir. Ən böyük zənginlik olan könül zənginliyi yolunda çalışmışdır. O, idealını necə də gözəl dilə gətirir:

*Gəlin tanış olalım, işi qolay qılalım,*
*Sevəlim seviləlim, dünya kimsəyə qalmaz!*
*Mən gəlmədim davi için, mənim işim sevi için,*
*Dostun evi könüllərdir, könüllər yapmaya gəldim…*



Nəticə etibarilə Yunus Əmrə həzrətləri insanları bir-birinə düşmən edən ən mühüm şeyin ağızdan çıxan söz olduğu gerçəyinə əsasən və hər kəsin bu xüsusa ciddi diqqətlə yanaşmasını tənbeh mahiyyətində bu məşhur ifadələri də tərənnüm etməkdən uzaq qalmamışdır:

*Söz ola kəsə savaşı, söz ola kəsdirə başı*
*Söz ola ağulu aşı bal ilə yağ edə bir söz!*

Həzrət Mövlanada "şəbi-arus", yəni "toy gecəsi" olaraq təzahür edən ölüm Yunusda da eyni şəkildədir. O, sanki bir "ölümsüzlük" yolçusu olaraq:

"Möminlər ölməzlər! Bir məmləkətdən başqa bir məmləkətə aparılarlar…" hədisi-şərifinin idrakı içindədir. Bu idrakı da nə gözəl dilə gətirir:

*Tən fanidir can ölməz, gedənlər geri gəlməz*
*Ölür isə tən ölür, canlar öləsi deyil!..*

Elə isə mühüm olan, bu diyardan digərinə gedərkən bizimlə birlikdə gələn əməllərimizin necə olmasıdır. Çünki bəndə bu səfərdə əməllərinin keyfiyyətinə görə qarşılanacaqlar. İmam Qəzali həzrətlərinin səfəri necə də gözəldir:

Rəvayətə görə İmam Qəzali həzrətləri xəstə yatarkən bir neçə nəfər onu ziyarətə gəlmişdilər. Bir az oturduqdan sonra da onu hava almaq üçün evindən çıxarıb bir bağçaya aparmışlar. İmam Qəzali ilk dəfə gördüyü bu bağçaya təəccüb etmiş və:

"- Necə olub ki, daha əvvəl evimin lap yaxınlığındakı bu gözəl yeri görməmişəm?" –deyə təəssüf etmiş.

Bu əsnada evindən fəryad içində bir cənazənin çıxdığını görmüşlər. Bir az sonra da Qəzalini o gözəl bağçaya gətirənlər onu orada qoyub getmək istəmişlər. İmam Qəzali də getmək istədikdə:

"- Ey İmam, sən vəfat etdin; artıq burada qalacaqsan!" – demişlər.

Budur, Həzrət Mövlana ilə Həzrət Yunusun dilə gətirdiyi həqiqət!

Ancaq belə bir mənəvi qazanc ilə axirətə köçə bilmək üçün dünya tarlasında bu fürsət dəmlərində ciddi bir səy içində olmaq gərəkdir. Bu da peyğəmbərlərin və övliyaların yaşayışlarını təqlid və onların qəlb dünyalarından nəsiblər və rəhmət əsintiləri almaqla mümkündür. Əks halda nəticə əldə edilməz. Həzrət Yunus nə gözəl söyləmiş:

*Çeşmələrdən bardağın doldurmadan korısan,*
*Min il anda durursa, kəndü dolası deyil!*

Burada ifadə edilməlidir ki, Həzrət Yunusun şeirlərini mənəvi cəhətdən deyil, sırf zahiri təcəllisi etibarilə qavrayan bəzi qafillər nəşriyyatlarında Yunusun insana baxış tərzini "humanistlik" olaraq ifadə etməkdə və onu öz saxta humanistliklərinə alət etməyə çalışmaqdadırlar. Halbuki şəxsiyyəti İslami dəyərlərlə formalaşan Yunusun insana baxışı ilə zəmanəmizdəki "humanizm" anlayışı arasında böyük fərqlər vardır. Yunus insanı əziz bir varlıq olaraq tanıyır və bu qiyməti qoruma yolunda bəşəriyyətin kirlənmədən ülviliklərə doğru məsafə alması üçün səy göstərir. Yəni Yunusun insana qiymət verməsi onu heyvanlardan aşağı mərtəbələrə salan nəfsani

azğınlıqları təhrik və oyandırma deyil, mələklərin belə qibtə etdiyi ülviliklərə nail qılan könül aləmini bəzəməkdir. Bugünkü humanizm isə Avropalıların dini və milli kütlələri aldadaraq öz dini və milli dəyərlərini yaymaq şəklindədir. Şəfqət və mərhəmət duyğularını istismardır. Bu səbəblə ruhi xislət və qiymətləri məhv etməkdən başqa bir şey deyildir. Bu gerçəyi görmək üçün nəfsi cilovlayaraq islah etmə yolunu tamamən tərk edərək insanları heyvani hisslərin girdabında boğan humanist Qərbin əlində bir zülm tarlasına çevrilən dünyanın həzin tablosuna baxmaq kifayətdir!



Elə isə minlərlə zülm və anarxiyaya səhnə olan bir dünyanın vəziyyəti heç şübhəsiz ki, insanların azğınlaşan nəfsani ehtiraslarına tabe olaraq eşq və məhəbbət kimi fərdi yüksəldən xislətlərdən uzaqlaşmış olmaqdandır. Belə bir vəziyyətdə Həzrət Yunusu yaxşı anlamaq və səsinə can-dildən qulaq vermək həyatın bütün zərurətiylə faniliyini qavramaq yolunda bizə əlbəttə çox böyük bir fayda təmin edəcəkdir. Çünki onun bərəkətli nəfəsi öz zəmanəsində olduğu qədər bu gün də insanlığın möhtac olduğu feyzli bir qaynaqdır. Yunus Əmrənin həyat və ölüm haqqında ağıl və məntiqi məğlub edən qüdrətli və misilsiz şeirləri quruyan ruhlara yenidən bir canlılıq qazandıracaq, sanki ruhani bir qida olacaqdır. Bu mənəvi qida və canlılıq ilə də mal, mülk, vəzifə ehtirası və hakimiyyət arzularının necə boş bir dava olduğu və keçici oyuncaqlara aldanaraq əbədi səadəti necə əldən verdiyimiz daha yaxşı dərk edilə biləcəkdir.

Onun həqiqi eşq səbəbilə:

*Nəzər eylə ilərü, bazar eylə götürü,*
*Yaradılanı xoş gör, yaradandan ötürü!*

Şəklində bütün məxluqatı qucaqlayan bəyanı dünyanın harasında olursa-olsun hər zalıma onu dünya və axirət planında qurtaracaq bir xilas kəməndi deyilmi?

Deməli ki, bu gün zülm və qəddarlıq edənlər Yunusun bəhs etdiyi eşqdən bir az nəsib alsalar, qurbanlarına rəva gördükləri

əziyyəti əsla icra etməyib onu öz vicdan və idraklarında hiss edəcəkləri üçün ədalət və mərhəmətin bərəkətinə nail olarlar.

Yunus Əmrə həzrətləri Mövlana ilə Şəms arasında keçən mənəvi alış-verişi Tapdıq Əmrə həzrətlərinin qapısında almışdır. Bununla da o, elə uca bir məqama çatmışdır ki, ustadı Tapdıq Əmrə həzrətləri belə onun bu məqamından hissə alaraq könüllərdə yer tutmuşdur.

Yunus Əmrə həzrətləri həyatda ikən ustadı Tapdıq Əmrəyə qarşı böyük bir məhəbbət və bağlılıq göstərmişdir. Vəfatından sonra da eyni həssaslığı göstərərək bu nəsihəti etmişdir:

"Məni ustadımın türbəsinin yolu üstündə dəfn edin!"

Həyatı haqqında bir o qədər də məlumat olmadığı kimi qəbri haqqında da müxtəlif rəvayətlər vardır. Anadolunun bir çox yerlərində türbəsinin olması onu göstərir ki, Yunus xalqın qəlbindədir.

Bununla yanaşı Eskişehirin Mihalıççık qəzasına bağlı olan Yunus Əmrə kəndində vəfat etdiyi və orada dəfn edildiyi rəvayəti məşhurdur.

Rəhmətullahi Əleyh!

Yunus Əmrənin vəfatının üstündən uzun illər keçdi. 1948-ci il idi. Həmin il Ankara-Eskişehir dəmiryolunun genişləndirilməsi nəzərdə tutulurdu. Yunus Əmrə həzrətlərinin türbəsi yolun kənarında olduğu üçün dağıdılması planlaşdırıldı. Ancaq bu iş baş tutmadı. Hətta yerə döşənən reyslərin mənən yerindən sökülərək səkkiz metr geriyə atıldığı da rəvayət olunur. Bu səbəblə ona yeni bir türbə tikib qəbrinin oraya köçürülməsi qərarı verildi. Mərasim olmayacaqdı. Amma cənazənin köçürüləcəyi gün oraya insan izdihamı toplaşdı. Elansız və dəvətsiz toplanan bu qədər müsəlmanın duaları ilə qəbir həssas bir şəkildə açıldı. Həzrət Yunusun bədəni, üstündən yeddi yüz il keçsə də qəbrə yeni qoyulmuş kimi təptəzə və ruhani idi.

Çünki Yunus:

*Yunus öldü deyu sala verirlər*
*Ölən heyvan imiş aşiqlər ölməz!*

dediyi kimi ölməmiş, sadəcə dünyasını dəyişmişdi.

Həmçinin onun əsərləri iman, əxlaq və fəzilət sahibi könüllərdə hələ də ən canlı şəkildə yaşamaqdadır. Yunus Əmrə tarixə silinməz bir möhür vurmuşdur. Ondan sonra eyni adla və eyni tərzdə yazan bir çox şairlər olmuşdur. **"Yunus şairləri"** halqası meydana gəlmişdir. Eyni zamada bir çox kənd və qəsəbələrə "Əmrə" adı verilmişdir. Bu hal onun ixlasının bərəkətli bir nəticəsidir.

İndi Həzrət Yunus sahib olduğu mənəvi məqamı ilə yanaşı türk xalqlarının sanki müştərək dühasını təmsil etməkdə, milli təfəkkür və hissiyyatın ən mükəmməl bir səmərəsini ortaya qoymaqdadır. Bu səbəblə də aradan yeddi yüz il keçsə də öz təravətini itirməmiş və türk xalqlarının yaşadığı hər yer sanki onun doğma vətəninə çevrilmişdir. Təkcə Anadoluda Yunusa istinad edilən on iki qəbir və türbə mövcuddur.

Onun sehrli, ruhani və sirli dili də çox nadir hallarda ərəb və fars sözləri ehtiva etməklə birlikdə sadə xalq dili olduğu üçün yeddi yüz il sonra da rahat başa düşülür.

Şeyx İsmayıl Haqqı Yunus haqda:

*"Onun nəzmə çəkdiyi mərifətlər türk dili sahəsində heç kəsə nəsib olmamışdır. Ondan sonra gəlib nəzmlə yazan hər kəs onun süfrəsində tüfeyli olmuşdur."* deməkdədir.

Həqiqətən Yunus yeddi əsrdən bəri bütün türkdilli məmləkətlərdə kölgəsini yaymış, istər cahil olsun, istərsə alim hər kəs tərəfindən şeirləri əzbərlənmişdir. O, özünün gözəl və təmiz diliylə Aşıq Paşadan Nəcib Fazilə qədər bir çox şairlərə nümunəvi rəhbər olmuşdur.

Lakin təəssüflər olsun ki, bu gün türk dilimizə qarşı sistemli bir şəkildə sanki böyük bir sui-qəsd icra edilməkdədir. Əgər bəzi qafil mütəfəkkirlərimizin də iştirak etdiyi bu kampaniya da-

vam edərsə milli vicdanı bəsləyən bir çox feyzli qaynaqlardan bu gün də məhrum olacağıq. Necə ki, bir zamanlar məhrum olmuşduq. Elə isə bunun qarşısını almaq üçün gərəkli şüur və səylərə əlavə olaraq xüsusilə Yunusumuzu gənc və dinc, imanlı nəslə layiqincə tanıtmalıyıq. Bundan, yəni özünü tanıyıb min bir salam və fatihələrlə yad edənlərin davam etməsindən onun da əziz ruhu şad olacaqdır inşallah.

Eşitməmək mümkündürmü? Budur külək keçmişdən əsdikcə yeddi əsr uzaqlardan Yunus Əmrə həzrətlərinin bu salamını hələ də bizə gətirməkdədir:

*Biz dünyadan gedər olduq; qalanlara salam olsun!*
*Bizim üçün xeyir dua qılanlara salam olsun!*

Özündən sonra belə bir salam qoyub gedən könül insanları necə də bəxtəvərdirlər!

**Ya Rəbb! Yunus Əmrə həzrətlərinin zəngin könül iqlimindən bizə də hissələr nəsib eylə!**

**Amin!**

## BƏHAUDDİN ŞAHI-NƏQŞİBƏND ﵀

(d. 1318 / v. 1389)

Bahaüddin Məhəmməd bin Məhəmməd Buxari (rəhmətullahi əleyh) hicri 718-ci ilin Məhərrəm ayında Buxaranın Qəsri-Hinduvan kəndində dünyaya gəldi. Nəsəbi ata tərəfindən Rəsulullaha (s.ə.s), ana tərəfindən isə Həzrət Əbu Bəkr Siddiqə (r.a) bağlanır.

Uzun boylu, buğdayı rəngli, xoşsima idi. Saqqalı uzun, uzun boylu idi. Sevgi dolu bir şəxs idi. Şirin dilli və gözəl sözlü idi. Xalqın arasında olduqda belə, könlü Haqq ilə məşğul idi.

Hələ uşaq ikən atası ilə birlikdə naxış vurmaqla məşğul oldğu üçün Nəqşibənd ləqəbi ilə məşhur oldu. Bəzi əsərlərdə Nəqşibənd həzrətlərinin xafi/gizli zikrə uzun müddət davam etdiyi üçün qəlbinə "Allah" ləfzinin nəqş olunduğu və buna görə Nəqşibənd (nəqş edici) ləqəbiylə xatırlandığı qeyd edilir. Adının əvvəlindəki "Şah" sözü də "Könül Sultanı" mənasında bir hörmət ifadəsidir.

Nəqşibənd həzrətlərinin doğumundan əvvəl Baba Səmasi (rəhmətullahi əleyh) Qəsri-Hinduvana çox gəlib-gedər və söhbətlərində:

"-Yaxında bu Qəsri-Hinduvan Qəsri-Arifan olacaq!" buyurarlarmış.

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) o günlər haqda belə buyurur:

“Allah-Təalanın mənə ən böyük lütflərindən biri, hələ uşaqlıq günlərimdə Səmasi həzrətlərinin mübarək nəzərləriylə şərəflənməyim və onun məni mənəvi övladlığa qəbul buyurmasıdır.”

“Səmasi (rəhmətullahi əleyh) vəfat etdikdən sonra babam məni Səmərqəndə apardı. Babam harada könül əhli bir dərviş olduğunu eşitsə, dərhal məni onun yanına aparar və mənim haqqımda gözəl nəzərlərini əsirgəməmələri üçün sanki yalvarırcasına onlara xahiş edərdi. Onlar da mənə iltifat buyurardılar.”



Şahi-Nəqşibənd həzrətlərinin ilk ustadı həmçinin babasının və atasının da şeyxi olan Məhəmməd Ata Səmasıdır. O, Nəqşibənd həzrətlərinin doğumunu “Mənim burnuma bu evdən bir ər qoxusu gəlir” deyərək müjdələmiş və onu üç günlük bir körpə ikən mənəvi övladlığa qəbul edib tərbiyəsini xəlifəsi Əmir Külala həvalə etmişdir. O, seyrü-süluku Əmir Külal həzrətlərinin rəhbərliyi ilə tamamlayaraq mənəvi əmanəti ondan almışdır.

Şahi-Nəqşibənd həzrətləri mənəviyyat yoluna girmədən əvvəl bir müddət dini elmləri təhsil etmək üçün Səmərqəndə getdi. On səkkiz yaşında Səmərqənddəki təhsilini tamamlayaraq məmləkətinə döndü və evləndi. Evlənməsindən bir müddət sonra ilk şeyxi Ata Səması vəfat etdi. Bu vaxt Qəsri-Hinduvana gələn Əmir Külal Bahaəddinə şeyxinin vəsiyyətini xatırladaraq, onun mənəvi təhsililə məşğul olmağa başladı. Şeyxilə birlikdə Nəsəfə gedən Bahaəddin Buxari yeddi ilə yaxın orada qaldı.

**Bir gecə gaybet[1] halında ikən Əbdülxaliq Gücdüvaninin** (rəhmətullahi əleyh) **ruhaniyyətindən feyz aldığı üçün Nəqşibənd həzrətlərinə Üveysi[2] deyilir və onun gerçək mür-**

---

1. **Gaybət:** Qəlbən maddi aləmdən bütün əlaqəni kəsmək.
2. Veysəl Qarani deyə bilinən Yəmənli Üveys əl-Qarani həzrətləri Rəsu-

**şidi olaraq özündən bir əsr əvvəl yaşayan Əbdülxaliq Gücdüvani** (rəhmətullahi əleyh) **qəbul edilir.**

Gücdüvani həzrətlərinin sözlərindən bəziləri aşağıda qeyd edilir:

**“Bütün hallarda ayağı şəriət və istiqamət yoluna qoyaraq getmək, ilahi əmr və qadağalara uyğun hərəkət etmək lazımdır. Əməldə əziməti seçmək və Sünneyi-Səniyyəyə tabe olmaq şərtdir.** Sənəd və bidətlərdən qətiyyətlə uzaq durub, daim hədisi-şərifləri əsas almaq və hər zaman Peyğəmbərimiz (s.ə.s) və əshabına aid xəbər və nəqlləri araşdırıb öyrənməyə cəhd göstərmək lazımdır.”

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) ustadı Əmir Külal həzrətlərinin hər əmrini dərhal və qeyd-şərtsiz yerinə yetirər, Allah-Təalanın bütün məxluqatına ixlasla xidmət etməyi özünə borc bilərdi.

İlk günlərdə yaşadığı hallardan birini belə nəql edir:

“Harada bir şey danışılsa, dərhal qulaq asardım. Əgər danışılan sözlər bu mənəvi yola aidsə, şad olardım. Başqa bir şey danışsalar, təəssüf edər, qəmgin olardım.”



---

lullah (s.ə.s) Əfəndimizi görə bilmədiyi halda Onun ruhaniyyətindən istifadə edib iltifati-nəbəvilərinə məzhər olmuşdur. Bundan hərəkətlə təsəvvüfdə bir mürşidi-kamili zahirən görmədiyi halda, mənəvi aləmdə onun ruhaniyətindən istifadə edən adama "Üveysi", bu üsula da "Üveysilik" deyilmişdir.

Ubeydullah Ahrar (rəhmətullahi əleyh) belə buyurmuşdur:

“İslamdan əvvəl salih insanlardan ibarət olan bir birlik vardı. Bunlar dil vasitəsini istifadə etmədən mənəvi məclislər quraraq bir-birləriylə hallaşıb söhbət edərdilər. Onlara **Bürhiyan** deyilərdi. İslam dininin zuhurundan etibarən bu sifətlə tanınanlara olanlara isə Üveysi deyilmişdir."

**Bürhiyan, Bürhi-Əsvəd Həzrətlərinə nisbət edilməkdədir.** Rəvayətə görə Bürh (rəhmətullahi əleyh) Musa (əleyhissalam) zamanında Haqqın dərgahında mahbubiyyət dərəcəsinə çatmış zənci bir kölə idi. İsrailoğulları arasında bu ümmət içindəki Veysəl Qarani həzrətlərinin bir bənzəri idi. *(Reşahat, s.* 127)

Şahi-Şahi-Nəqşibənd həzrətləri Allah yolunda çaylar kimi coşqun olan həyəcan, əzm və iradəsini daha da qüvvətləndirən ibrətlərlə dolu bir əhvalatı belə nəql edir:

"Bir gün yolda gedərkən bir qumarxananın qarşısından keçirdim. İçəridə bir qrup insanın çox ehtiraslı şəkildə qumar oynadıqlarını gördüm. Onlardan iki nəfər özlərini oyuna elə qapdırmışdılar ki, heç bir şeyin fərqində deyildilər. Maddi-mənəvi bütün gücləri ilə qumara bağlanmış, sanki qumarın nəfsani ləzzətindən sərxoş olmuş, özlərindən keçmişdilər. Beləcə həmin iki nəfərin oynadıqları bu oyunda gah biri udur, gah da digəri onun əlində olan-qalan pulu öz qarşısına çəkirdi. Bir müddət sonra onlardan biri uduzdu, müflis oldu. Bütün var-dövlətini ortaya qoydu. Nəticədə dünyalıq olaraq əlində nə varsa, digəri hamısını uddu. Düşdüyü o pərişan hala baxmayaraq qumarbaz təkidlə və böyük bir ehtirasla oyunu davam etdirirdi. Uduzduqca da ehtirası artırdı. Birdən o, rəqibinə dedi ki:

"-Mənə bax! Malımı və bütün sərvətimi deyil, bu oyun üçün başımı belə verəcəyimi bilsəm, yenə də oynamaqdan vaz keçmərəm. Həyatım bahasına da olsa, oynayacam. O vaxta qədər ki, mənim düşdüyüm bu pərişan hala sən də düşəcəksən!"

Qumarbazın qumarda hər şeyindən, hətta canından belə keçə biləcək dərəcədəki israr, ehtiras və iradə qüvvətini gördükdə mənə də tamam ayrı bir şövq halı gəldi. Bu mənzərədən ibrət alaraq öz-özümə düşündüm:

Bir qumarbaz batil bir işdə belə hər şeyindən imtina edəcək qədər israrlı, ehtiraslı və qərarlı davranarkən, mən Haqq yolunda necə bir əzm, iradə və fədakarlıq içində olmalıyam? O gündən bəri Haqq yolundakı əzm və istəyim daha da artdı. Həmd olsun Rəbbimə, hər keçən gün də artır."

Gördüyümüz kimi o Haqq dostu şahid olduğu müsbət və ya mənfi hər mənzərənin ibrət və hikmət dərsini oxuya biləcək bir könül gözünə və ruh həssaslığına sahib idi. Deməli, qəlb bu səviyyəyə çatdıqda bir ədəbsizdən belə ədəb öyrənilə bilər, müflis bir qumarbazın halından belə Haqqa vuslat yolunda əsas olan əzm, dözüm və iradəyə dair böyük dərslər çıxarıla bilər.

Müəyyən bir səviyyəyə çatdıqdan sonra, Əmir Külal (rəhmətullahi əleyh) oğlu Əmir Burhanın tərbiyəsini Şahi-Nəqşibənd həzrətlərinə həvalə etmiş və onun irşada əhil olduğunu şəxsən görmək istəmişdi.

Nəhayət Şahi-Nəqşibənd həzrətlərinin mənən yüksək bir mərtəbəyə çatdığını və onda daha çox yüksəlmə qabiliyyəti olduğunu görən Əmir Külal (rəhmətullahi əleyh) bir gün:

"-Oğlum Bəhauddin! Möhtərəm ustadımın sizin haqqınızdakı tövsiyəsini tam olaraq yerinə yetirdim." -buyurdu. Sonra da sinəsinə işarə edərək sözlərinə belə davam etdi:

"-Sinəmdə nə varsa, sizə ötürdüm. Artıq ruhaniyyət quşunuz bəşəriyyət yumurtasından çıxdı. Bundan sonra himmət quşunuz yüksəklərdə uçacaq. Sizə icazə verirəm, hər kimdən ruhani bir qoxu hiss etsəniz, onunla maraqlanın və ondan istifadə etməyə çalışın!"

Suxarda bir məscid inşası əsnasında beş yüz müridin hüzurunda verilən bu icazətdən sonra Şahi-Nəqşibənd oradan ayrıldı. Əmir Külalın xəlifəsi Arif Diggəraninin dərgahında yeddi il söhbətlərdə iştirak etdi. Bunun ardından təxminən on iki il Yəsəvi şeyxlərindən Kusəm Şeyx ilə Xəlil Atanın söhbətlərində iştirak etdi.

**İrşad Həyatı**

Şahi Nəkşbəd həzrətləri irşad vəzifəsinə başladığında doğulduğu Sıxarı Arifan kəndində yaşayırdı. Ancaq Buxaranın

yanında Mavəraunnəhirin Nəsəf, Xarəzm və Kərminə kimi bölgələrinə də gedərək söhbətlər edirdi. Onun məna aləmindəki kəmal və fəzilətlərini eşidib söhbətini dinləmək, ya da ona tələbə olmaq üçün Səmərqənd kimi böyük şəhərlərdən gələnlər belə vardı.

Buxaranın məşhur alimlərindən Hüsaməddin Xacə Yusifin Nəqşibənd həzrətlərinə tələbə olması isə mühüm bir dönüş nöqtəsi oldu. Bu şəxsin ardından Buxara alimləri və onun tələbələri dəstə-dəstə Şahi-Nəqşibənd həzrətlərinin söhbət halqasına qatılmağa başladılar.



Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) iki və ya üç dəfə həccə getmişdir. **İlk həccindən qayıtdığı gün şeyxi Əmir Külal (rəhmətullahi əleyh) vəfat etdi.** Vəfat etmədən əvvəl müridlərinə Hacə Bəhauddinə tabe olmalarını əmr etmişdir.

Şahi-Nəqşibənd həzrətləri həcdə yaşadığı bir xatirəsini belə nəql edir: "Məkkədə iki nəfər gördüm; birinin himməti çox yüksək, digərininki isə zəif idi. Himməti zəif olan təvaf əsnasında Beytullahın qapısının halqasından tutmuşdu. Bu qədər şərəfli bir yerdə və qiymətli bir vaxtda Haqq-Təaladan dünyəvi bəzi şeylər istəyirdi. Himməti uca olan isə Mina bazarında gördüyüm bir cavan idi. Təxminən 50000 filorilik (qızıl pul) alver etdi, amma könlü bir an olsun Haqq-Təaladan qafil olmadı. O igidin səyini görüncə (öz nöqsanlığımı düşünməkdən) qəlbim qanla doldu."

### Halal Loğma Həssaslığı

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) halala riayət xüsusuna çox diqqət göstərirdi. Şübhəli şeylərdən qaçınmaqda da böyük bir həssaslıq nümayiş etdirirdi. Hər zaman söhbətlərində:

*"İbadət on qisimdir;* doqquzu halal ruzi tələb etmək, biri isə digər əməllərdir." Hədisi-şərifini oxuyar və əməl etməyi tövsiyə edərdi.

Xacə həzrətləri yeməyini öz təsərrüfatından əldə edərdi. Hər il bir miqdar arpa, bir az börülce (lobya növü) və zərdəli (ərik növü) əkib becərərdi. Əkinçilik edərkən istifadə edilən heyvanların, tarlanın, toxumun və suyun halal olması barəsində çox ehtiyatlı davranardı. Bu səbəblə bir çox alim təbərrük olaraq onun halal yeməyindən yemək üçün söhbətlərində iştirak edərdi.

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) məliklərin süfrəsində yemək yeməz, hədiyyələrini qəbul etməzdi. Məlik Hüseynin həyat yoldaşı öz əlləriylə tikdiyi paltarlar göndərmişdi. Bütün israrlara baxmayaraq Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) onları qəbul etmədi. Halbuki o dövrdə əynində keçədən bir köynək vardı. Sarıq və ayaqqabıları da çox köhnə idi.



Buxaranın alimlərindən biri Şahi-Nəqşibənd həzrətlərinə:

"-Namazda qəlb rahatlığı nə ilə hasil olar?" deyə soruşmuşdu. Həzrət ona bu cavabı verdi:

"-Halal yemək yeməli və yeyərkən ayıq-sayıq olmaq lazımdır. Namaz xaricindəki zamanlarda, dəstəmaz alarkən və iftitah təkbirini gətirərkən də ayıq-sayıq olunsa, namazda qəlb aram tapar."

Bir dəfə mənəvi hallarının itdiyindən şikayətlənən bir tələbəsinə:

"-Yediyin loğmaların halaldan olub olmadığını yaxşı araşdır!" buyurmuşdu. Tələbə yediyi yeməklərin necə bişirildiyini araşdırarkən yemək bişirilən ocaqda halal olub olmadığı şübhəli bir parça odun yandırıldığını öyrəndi və dərhal tövbə etdi. Şahi-Nəqşibənd həzrətləri əl əməyi ilə çalışıb qazanmağa da çox əhəmiyyət verər və bu barədə:

“Təvəkkül sahibi insan nəfsini görməməli və çalışaraq təvəkkülünü gizləməlidir.” buyurardı.

Dünyəvi işlərdə çalışıb qazanmaq və heç kimə yük olmamaq, ancaq işləyərkən Haqq-Təaladan qafil olmamaq onun həyat düsturu idi.

**Qəflətdən Çəkindirməsi**

Şahi-Nəqşibənd çox vaxt yemək bişirmə və süfrə xidmətində şəxsən iştirak edərdi. Yemək yeyərkən oyanıq olmaq və qəlb hüzurunu təmin edə bilmək üçün dərvişlərə davamlı tövsiyələr də edərdi. Müridləriylə birlikdə yemək yediyində, onlardan biri bir loğmanı belə ağzına qəflətlə aparsa, dərhal ona yumşaq bir dillə xəbərdarlıq edər və bir loğmanı belə qəflətlə yemələrinə könülü razı olmazdı. Əgər bir yemək hirslə, könülsüz olaraq və məcburən bişirilmişsə onu yemədiyi kimi tələbələrindən heç kimsənin yeməsinə də razı olmazdı:



“-Bu yeməkdə qaranlıqlar var, bizim ondan yeməmiz münasib deyil!" buyurardı.[3]

Bir gün **Gadivət** bölgəsinə getmişdilər. Bir dərviş önlərinə yemək gətirdi. Şahi-Nəqşibənd həzrətləri:

“-Bizim bu yeməyi yeməmiz münasib deyil. Çünki o, hirs ilə bişirilmişdir. Unu ələkdən keçirən, xəmiri yoğuran və bişirən adam hirsliymiş!" buyurdu.

Əgər bir çömçəni hirslə və könülsüz olaraq bir qazana soxsalar Nəqşibənd həzrətləri o yeməyi yeməz, dedi:

---

3. Bu xüsusa diqqət etmək lazımdır ki Şahi-Nəqşibənd həzrətləri və bəzi insanlarda görülən bu kimi rəftarlar, onların çatdıqları mənəvi səviyyə nəticəsində nail olduqları bir fərasət, bəsirət və kəşf halıdır. Bu səbəbdən o mövqeyə çatmamış birinin özünü sanki Şahi-Nəqşibənd görərək belə sözlər söyləməsi, son dərəcə səhvdir. Riya təhlükəsiylə qarışıq bu cür sözlərdən çəkinmək lazımdır. Əks halda çatmadıqları mövqenin sözlərini süni bir şəkildə təqlid edənlər bundan mənən zərər görərlər.

“-Hirs, qəflət, könülsüzlük və məcbur edilən bir işdə xeyr və bərəkət yoxdur. Çünki o işə nəfsin həvası və şeytan qarışmışdır.

Saleh əməl və gözəl davranışlara halal loğma ilə çatmaq mümkündür. Halal loğma da qəflətlə deyil, ürək hüzuru və oyanıq olaraq yeyilməlidir. Bütün vaxtlarda vukufi-qəlbiyə[4] riayət etməyə və oyanıq olmağa cəhd göstərmək, adam üçün mənəvi bir məşq olacağından nəhayət bu vəziyyət namazda ürək hüzuruna vəsilə olar."

Bir dəfə dəstəmaz və təmizlik işlərində istifadə ediləcək suyu istilətmək üçün ocağa qoyan tələbələrin bu əsnada boş sözlərlə məşğul olduqlarını eşidincə onlara bu xəbərdarlığı etmişdi:

“-Siz bilmirsiniz ki, yemək bişirərkən və su isidərkən könülü hazır etmək və dili boş sözlərdən uzaq tutmaq lazımdır? Bu vəziyyətdə o su ilə dəstəmaz alan və o yeməkdən yeyənin könülündə hüzur və oyanıqlıq meydana gəlir. Qəflətlə isidilən sudan dəstəmaz alan və qəflətlə bişirilən yeməkdən yeyən adamın könülündə isə zülmət və qəflət meydana gəlir."

**Elm və Əməl**

Şahi-Nəqşibənd belə buyurur:

"Abdulxaliq Gucdüvani Həzrətlərinin əmr etdiyi şəkildə Rəsulullah (s.ə.s) əfendimizin hədisi-şəriflərini və əshabıkiramın xəbərlərini araşdırmağa başladım. Alimlərin məclisinə davam edib hədisi-şərif dərsləri aldım, səhabeyi-kiramın

4. **Vukufi-qəlbi:** Zikrdə ürəyə yönəlmək ya da ürəyin Allaha yönəlməsidir. Bu “ihsan” duyğusunun daimi bir şüur halına gəlməsidir. Zikrdə əsl məqsəd ürəyin zikr ediləndən xəbərdar olmasıdır. Zikr ağızdan ürəyə enməyən sözlərin təkrarından ibarət deyil. Bu səbəblə zikr əsnasında bütün diqqəti zikr edilənə yönəltmək lazımdır.

xəbər və rəvayətlərini öyrəndim. Bunların hər biriylə əməl edib Allahın izniylə nəticələrini üzərimdə müşahidə etdim."

Şahi-Nəqşibənd həzrətləri bir tərəfdən təkkədəki xidmətlərə qaçarkən, digər tərəfdən də elm təhsili alardı. Özü belə izah edir:

"Arif Diggerani (Kışlaki) Həzrətlərindən təfsir və hədis dərsləri alırdım. O günlərdə yolum Nəsəfə düşmüşdü. Müəllimim orada bir bağda bağbanlıq edirdi. Bağçada ılgın ağacı çox olduğundan bir baltaya ehtiyac olmuşdu. Müəllimim:

«-Bizim baltamız Buxarada Hüsaməddin Əfəndinin yanında asılı qaldı» dedi. Dərhal onun xatirindən keçən mənanı anladım. Xəbərləri olmadan dərhal Nəsəfdən Buxaraya gedərək istədikləri baltanı sabahısı gün onlara gətirdim."



Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) **Hakim Tirmizi Həzrətlərinə** (vəfatı h. 320) çox əhəmiyyət verər, onun ruhaniyyətindən, fikirlərindən və əsərlərindən istifadə edərdi. Müasiri olan böyük alimlər və salih şəxslərlə da davamlı söhbət edərdi. Bir gün tanınmış alimlərdən **Hamiduddin Şaşi Həzrətlərini** ziyarətə getmişdilər. Ona:

"-Özək qabığın himayəsindədir. Əgər qabıqda bir xəstəlik olsa özəyə də bulaşar." deyincə, Mövlana Hamiduddin bu sözə heyran qaldı.

Şahi-Nəqşibənd həzrətləri sözlərini davam etdirərək:

"-Bizlər dəyərli alimlərdən bolca fəzilət meyvələri yığan insanlarıq." buyurdular.

Dövrün alimlərindən Xacə Yusuf həzrətləri zaman-zaman Nəqşibənd həzrətlərinin məclisinə gəlib söhbət dinlər və ehtiyac olduğunda dərvişlərin dini məsələlərini həll edərdi.

**Alaüddin Attar** (rəhmətullahi əleyh) belə buyurmuşdur:

"Nəqşibənd həzrətlərinə o dövrdə yaşayan böyük alimlərin əlaqə, söhbət, sədaqət və maraqları çox idi. Hətta nə qədər tələbə və tanınmış müəllimlə mədrəsəni tamamilə tərk edərək hətta vəzifə qarşılığı onlara verilmiş olan vəqf mallarını da qaytararaq, gecə-gündüz onun söhbətləriylə müşərrəf olmuşlar.

Bir gün bir çox Buxaralı alim Həzrəti Xacənin hüzurunda toplandılar. İçlərindən çox fanatik olanlar:

«-Bu gün mədrəsələrimizdə elm və təhsilin dəyəri qalmadı. Elmi mübahisə, müzakirə və araşdırmağa əhəmiyyət verilmir. Çox tələbə sizin yolunuza meyl edərək elm və təhsilin zövqünü bir kənara buraxıb pislik və ətaləti seçdilər. Bu nə haldır?» deyincə Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) onlara:

«-Ey üləma! Şəriət yolunda biz sizə bağlıyıq və sizin arxanızca gedirik. Sizlər Fəxri- Aləm (s.ə.s) Əfəndimizdən nə nəql və bəyan edərsiniz biz ona tabe olarıq. Əgər bizim yolumuzda Rəsulullah (s.ə.s) Əfəndimizin sünnəsinə müxalif bir şey varsa bizə göstərin onu tərk edək. **"...Əgər bilmirsinizsə əhli-zikrə soruşun!"** (əl-Ənbiya, 7) ayəsinə istinadən bizə xəbərdarlıq edin. Hidayət yolundayıq, yoxsa yox!» buyurdular.

Alimlərin hamısı:

«-Biz sizin yolunuzu ətraflıca araşdırdıq. Sünnəyə uyğun gəlməyən heç bir şey yoxdur.» deyə cavab verdilər. Lakin aralarında **Molla Hord** adında dövrün böyük alimlərindən biri vardı. O:

«-Bu sizin geydiyiniz əba iki cəhətdən şöhrət səbəbidir. Birincisi, əba dərvişlərin ən çox öyündükləri şeydir. Digəri də əba geyməklə özünüzü imtiyazlı hesab edirsiniz. Bu caizdirmi? Şöhrətə səbəb olan şeylər adamı fəlakətə sürüyər!» dedi. Nəqşibənd həzrətləri:

«-Bu bizim üzərimizdəki əba imtiyaz və şöhrəti tələb edəcək qədər qiymətli bir şey deyil. Dərviş paltarlarının orta

səviyyəlisidir. Lakin madam ki dedi-qoduya səbəb olur, biz də onu geymərik!» buyurdular və dərhal çıxarıb oradakı bir dərvişə hədiyyə etdilər."

Şahi-Nəqşibənd həzrətlərinin bunun kimi nə qədər fəzilətlərinə və gözəl əxlaqına şahid olan Buxaralı alimlər nəhayət:

“-Necə ki görə bilmək üçün gözün ağı ilə qarasına ehtiyac varsa, bizim də o şəkildə sizə ehtiyacımız vardır.” dedilər.

Bir dəfə Nəqşibənd həzrətlərinə:

“-Bir adam «məntiq elmi»ni oxusa, hansı niyyətlə oxusun?" deyə soruşuldu. O da:

"-Haqqı batildən ayırd etmək niyyətiylə oxusun!" buyurdular.



Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) yaxşı bir hədis təhsili gördüyü üçün söhbətlərində tez-tez hədisi şərifləri açıqlayar və təsəvvüfi şərhlər edərdi. Ərəbcə, Türkcə və Farscanı bilirdi.

**İstiqamət**

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) belə buyurmuşdur:

“Xariqüladə hərəkət və kəramətlərə çox meyl etməmək lazımdır. Əsas bacarıq istiqamət üzrə olmaqdır.”

"Xariqüladə hal və kəramətlərə, əməldə istiqamət üzrə olmaq və Sünnəyə bağlılıq şərtiylə etimad edilər. Sünnəyə bağlılıq olmazsa bu cür hallara etimad edilməz."

Allah dostlarından bir şəxsin bu sözünü nəql edərdilər:

“Əgər vəli bir bağçaya girsə və ağacların hər bir yarpağı ona «Ey Allahın vəlisi!» deyə səslənsə onun zahirən və batinən o səsə iltifat etməməsi lazımdır. Əksinə hər an qulluq, təqva və tazarru halını daha çox artırmağa səy göstərməlidir. Bu mövqedə kamal mərtəbəsi Həzrəti Məhəmməd Mustafa (s.ə.s) Əfəndimizə məxsusdur. Rəsulullah (s.ə.s) hər nə qədər

bir çox ilahi nemət və ikrama nail olsalar da, yenə qulluq, iltica və tazarru hallarını artırar və bu barədə; *«Şükr edən bir qul olmayımmı?»* buyurardılar. (Buxari, Təhəccüd, 16)"

Yenə Nəqşibənd (rəhmətullahi əleyh) **Süləmi**nin bu gözəl sözünü nəql edərdi:

“İstiqaməti istə kəraməti yox! Rəbbin səndən istiqamət, nəfsin isə kəramət istəyir."

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) insanların iltifatlarından özünü qoruya bilmək üçün kəramətlərini gizləyərdi. Bir gün ondan kəramət tələb etdiklərində:

“-Bizim kəramətimiz ortadadır. Çünki bu qədər günahımız varkən hələ yer üzündə gəzə bilirik." demişdi.

Müridləri onda gördükləri kəramətlərdən bəhs edincə də:

“-Onlar müridlərin kəramətləridir.” deyərək təvazö göstərirdilər.

Ondan xariqüladə hallar zühur etdiyində isə dərvişlərinə daim bu tənbehi edərdilər:

“-Ey dostlar! Bizim bu hallarda iradəmiz yoxdur. Yəni bunun kimi halların zühuru bizim tələbimizlə deyil, Allah tərəfindəndir. Kasıb, müflis, aciz və günahkar olandan bir şey zühur etməz!"

Yenə belə demişdi:

“Rəsulullah (s.ə.s) Əfəndimiz varlıqların ən kamili və Allaha ən yaxını olub duaları məqbul olduğu halda, ona belə xitab etmişdilər: «**…Atdığın zaman Sən atmadın, lakin Allah atdı...**» (əl-Ənfal, 17) O halda düşünmək lazımdır ki, bizim kimi biçarə və aciz ümmətinin halı necədir?! Dərvişlərdən zühur edən xariqüladə hallarda onların heç bir rolu yoxdur. Bəlkə bu növ hallar taliblərin Haqq yolundakı üfüqlərinin açılması üçündür.”

"«Hər kəs qaçmaqla ovu tuta bilməz. Ovu davamlı izləyən adam tuta bilər.» Bunun üçün davamlı və istiqamət üzrə olmaq lazımdır."

İstiqamətdən azca çıxmaq adamın mənəviyyatı üzərində dərhal təsirini göstərər. Bunun üçün Nəqşibənd Həzrətləri:

"Vəli olan adamdan zəllə növündən hər nə xəta olsa bu onun təvazödəki qüsurundan qaynaqlanar."

**Sünneyi-Səniyyəyə Bağlılıq**



Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) təriqətini, "Rəsulullah (s.ə.s) Əfəndimizin Sünnəsinə və səhabələrinin sözlərinə tabe olmaq" deyə xülasə edərdi. Sünneyi-Səniyyəni həyatının hər sahəsində tətbiq etməkdən böyük bir zövq alardı. O dərəcədə ki, oğulu vəfat etdiyində belə demişdi:

"-Əlhamdülillah, bu da Peyğəmbər (s.ə.s) Əfəndimizin Sünneyi- Səniyyəsindəndir. Çünki Onun da övladları sağlığında vəfat etmişdi. Əfəndimizin başına gələn halların çoxu bizdə də zühur etdi."

Bahaüddin Nəqşibənd (rəhmətullahi əleyh) bu səy və həssaslığı səbəbiylə; "مُحْيِي سُنَنِ سَيِّدِ الْمُرْسَلِينَ/ Rəsulların Əfəndisinin Sünnəsini ihya edən və مُوَضِّحِ اثَارِ الصَّحَابَةِ / səhabeyi-kiramın yolunu açıqlayan" kimi sifətlərlə yad edilmişdir.

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) Yakub Çerhi Həzrətlərinə:

"Gücün çatdığınca Rəsulullah (s.ə.s) Əfəndimizin; «*Səninlə əlaqəsini kəsənə sən sılai-rəhmdə ol, sənə verməyənə ver, sənə zülm edəni bağışla!*» (Ahməd b. Hənbəl, IV, 158) hədisi-şərifiylə əməl etməyə çalış!" *tövsiyəsində olmuşdur.* Bunların hamısı da nəfsin ziddinədir, amma belə edildiyində də faydası çoxdur.

**İbadət**

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) ibadətlər barəsində çox həssas idi. Bunun bir örnəyini özü belə nəql edər:

"Tövbə etmək nəsib olduğu zaman Rivertun kəndində yaşayırdım. Namazlarımı məsciddə camaatla qılmağa etina göstərərdim. Təsadüfən bir vaxt namazı camaatla qıla bilməmişdim. O məscidin təqva sahibi alim bir imamı vardı. Mənə:

«-Mən səni meydanda saf tutan, yəni camaata davam edən bir igid olaraq təsəvvür edərdim, məgər sən safa laqeydlik edənlərdənmişsən!» dedi. Mən:

«-Əfəndim siz bizi meydanda saf tutan olaraq təsəvvür etmisiz amma, həqiqətdə biz ürəkləri pərdəli olanlardanıq» dedim.

Allah rəhmət etsin o böyük şəxsin dilindən bu (mənaya gələn bir) beyt sadır oldu:

*«Eşq bazarında, üzü çirkli ürəyi satın almazlar. Xalis bir ürək lazımdır ki atəşdən təmiz olaraq çıxa bilsin!»*

Bu söz içimə dərd oldu. Onun atəşi könlümdə hər an yanıb dayandı və o qərarsızlıq halı məndə artaraq davam etdi."

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) ibadətlərin mənəvi təkamül yolundakı əhəmiyyətini də belə ifadə etmişdir:

***"«Məcaz həqiqətin körpüsüdür»*** deyilmişdir. Bunda nəzərdə tutulan budur: Zahiri, xarici, sözlü və hərəkətli olan bütün ibadətlər məcazdır. Bu təriqətə girənlər; bütün ibadətlərə qayğı göstərib bu mərhələlərdən keçmədikcə, (imandan ihsana səfər etmədikcə) həqiqətə çata bilməzlər."

**Təvazö və Heçlik**

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) Həzrətləri bəzən də belə buyurardılar:

“Bu uca təriqətə pənah gətirənlərin ən qazanclısı; tam bir niyaz, təvazö və tazarru halında yaşayıb yüksək himmət sahibi olanlardır. Bizi bu qapıdan keçirdilər. Nə tapdımsa niyaz, gizlilik, heçlik və yoxluqda tapdım.”

Necə ki Həccə Həzrətlərinin bu sözü də onun bu haləti ruhiyyəsini göstərməkdədir:

*Aləm buğda mən saman,*

*Hər kəs yaxşı mən yaman!* (Hər kəs yaxşı, pis olan mənəm.)

Həqiqətən bütün Allah dostlarını zirvələşdirən sirr; bu təvazö, heçlik və yoxluq halıdır. Bunun üçündür ki ariflər; **"Sən çıxınca aradan, qalar səni Yaradan!"** demişdilər.



Nəqşibənd Həzrətləri də Haqqa vuslat yolunda məsafə ala bilmənin, təvazö və heçlik libasına bürünərək ürəkdəki mənlik pasını silib atmağa bağlı olduğunu belə ifadə edir:

“Bu yolda heçliyə bürünmək, varlığı tərk edib yoxluq göstərmək və təvazökar olmaq, böyük bir qazancdır. Bunlar, böyük bir dövlətə nail olmanın ipuclarıdır.”

**"Bu yola könül verənlər, öz nəfslərini Firondan yüz dərəcə daha betər görməzlərsə, bu yola girmiş sayılmazlar."**

Burada bunu da ifadə etmək lazımdır ki, Firon kafir olduğu üçün Allah qatında heç bir möminin ondan daha aşağı olması düşünülə bilməz. Bununla birlikdə nəfs, insanın əbədi həyatı üçün o qədər təhlükəlidir ki, zərərinin böyüklüyünü açıqca ifadə edə bilmək üçün Nəqşibənd kəsrətdən kinayə olaraq belə bir mübaliğə də etmişdir.

Kənar hər kəsin aqibəti məchuldur. Beləliklə bir insan küfrdə Firon dərəcəsində şiddətli olsa belə, son nəfəsindən

əvvəl hidayətə çataraq bütün günahlarından təmizlənmə ehtimalı vardır. Bu səbəblə mömin Allahın qullarını xor görərək özündə bir üstünlük görmə qəflətindən çəkinməlidir.

Bu hadisə Nəqşibənd həzrətlərinin təvazö və heçlik prinsipini nə gözəl ifadə etməkdədir:

Həccə həzrətləri bir dəfə Kufin adlı yerə getmişdi. Öz dərvişləri və o diyarın xalqından böyük bir izdiham onun arxasınca gedirdi. İnsanların bu qədər diqqətini çəkmiş olmaqdan mütəəssir olan Nəqşibənd həzrətləri ağlamaya başladı. Onun bu halını görənlər də ağladılar. Lakin Həzrətin nə üçün ağladığını anlaya bilmədilər. Bir müddət sonra Nəqşibənd (rəhmətullahi əleyh) ilahi əzəmət qarşısındakı yoxluq və heçliyini ifadə məqsədiylə özünə xitab olaraq:

“-Bu xarablıq, bu acizlik, bu tükənmişlik və bu bacarıqsızlıq məndə mövcudkən, heç kimə salam verib almağa belə layiq deyiləm. Haqq-Təala məni xalqın arasında rüsvay etmişdir, xalqı mənimlə məşğul etmişdir." deyərək tökdükləri gözyaşlarının səbəbini açıqlamışdılar. “Heç kim halımdan xəbərdar deyil!" deyərək içli-içli inlədikdən sonra bu (mənaya gələn) beyiti oxudular:

*“Əgər bilsəydilər məni qovardılar şəhərdən. Əfsus əfsus! Kimsənin xəbəri yox halımdan!”*

İşdə o böyük Haqq dostlarını ucaldan da könüllərindəki bu riqqət və həssaslıqdır. Demək ki insana harada bir mənlik hissi gəlsə, dərhal Haqq-Təalaya sığınaraq onu uzaqlaşdırmağa çalışmalı və bu barədə son dərəcə diqqətli olmalıdır.

❁

Nəsəfli bir mürid qonşusuyla mübahisə etmiş və onun ürəyini qırmışdı. Buna çox kədərlənən Şahi-Nəqşibənd (rahmetullahi əleyh) Buxaradan Nəsəfə gəlir. Şəhərə girər girməz düz könülü qırılan insanın evinə gedir. Qapısına çatıb:

“-Bu cürmü bizə bağışlayın, günah bizim!" deyə böyük bir təvazö və məhviyyət içində xahiş edir. Nəticədə müridinin qonşusunun könülünü alır. Şahi-Nəqşibənd həzrətlərinin bir könülü qazanmaq üçün Buxaradan oraya qədər gəlməsi bütün Nəsəfliləri heyran edir və onların bir çoxu bu mürşidi-kamilin müridi olurlar.

❁

Alaüddin Attar (rəhmətullahi əleyh) belə buyurar:

“Acizliyini idrak edib tövbə etməkdən başqa qurtuluş ümidi yoxdur! Salik daim öz əməllərinin qüsurunu görüb əskikliyini bilməli, acizlik və günahkarlıqdan qaynaqlanan peşmanlığın lütf və kərəm səbəbi olduğunu düşünərək Haqqa yönəlməlidir. Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) tələbələrinə daim bu halı əmr edərək; «Məni davamlı bu yolda tutdular!» buyurardı.”



❁

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) belə buyurmuşdur:

“Könül əhlinin yolu; etdiyi saleh əməli az görmək, təvazö, heçlik, yoxluq və acizlik halında olmaq, əməllərini qüsurlu, hallarını nöqsan bilməkdir. **Nəfsin eqoizminin qırılması barəsində, özünü qüsurlu görmək qədər faydalı başqa bir şey yoxdur.** Peyğəmbərlərin belə zəllə, yəni kiçik səhvlərə düşmələrinin hikmətlərindən biri də budur.

Tövbənin həqiqəti; günahların əsli olan kibir, qürur və mənlik duyğusundan imtina edərək acziyyəti idrak etməkdir. Bu da, nəfsin hodgamlığını tanıyıb onun mənəviyyata verdiyi zərəri fərq etdikdən sonra reallaşar. Adam bu əzab və acizlik içindəykən könülündən Haqq-Təalaya yalvarar və inləyər. Beləcə həqiqi tövbə budur.

*«Ya Rəbbim! Xalq Səndən qorxar, mən isə özümdən qorxaram! Çünki ya Rəbbim, Səndən həmişə yaxşılıq, özümdən isə həmişə pislik gördüm.»*

Əhlullahda bir qüsurun meydana gəlməsi, onların eqoist hallarını və mənliyini yox etmə hikmətinə dayanır. Necə ki Musanın (ə.s) şəriətə bağlılıq duyğusuyla Xızıra (ə.s) etdiyi etirazların hikmətlərindən biri də budur. Musa (əleyhissəlam) etirazlarında xatalı olduğunu anladı və mənliyi yox oldu."

❀

Şahi-Nəqşibənd həzrətlərinin hələ həyatda ikən söz və mənkibələrini toplayıb yazmaq istəyən Hüsaməddin Yusifə icazə verməməsi də onun yüksək təvazösünü göstərən digər bir hadisədir.

**Comərdlik**

Şahi-Nəqşibənd (rahmetullahi əleyh) dünya malına əhəmiyyət verməyib kasıb olaraq yaşamağı seçməsinə baxmayaraq, infaq, ikram və lütfkarlıqları çox üst səviyyədə idi. Ona biri bir hədiyyə gətirsə, Rəsulu Əkrəmin (s.ə.s) sünnəsinə uyğun olaraq, o adama mislini yaxud bir neçə qatını lütf edərdi.

Feyizli söhbətləri vəsiləsiylə Şahi-Nəqşibənd həzrətlərinə tabe olan camaatda da bu gözəl xüsusiyyətlər görülərdi. Bu əxlaq üzrə yetişən müridləri, əgər evlərinə bir dost və ya bir qonaq gəlsə, israf etmədən yemək hazırlayıb yedirər və əldən gələn hər cür ikramı edərdilər. Hətta lazım olduğunda isar edər, yəni din qardaşlarını öz nəfslərinə tərcih edərək özlərinin də möhtac olduqları şeyləri ikram etməkdən çəkinməzdilər. Məsələn qonaqları gecə qaldığında, bir tək paltardan başqa bir şeyləri olmasa belə onu qonağa verər, özləri bunu hiss etdirmədən soyuq havaya dözməyə çalışardılar.

**Xidmət**

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) bir dəfə tələbələrini xidmətə təşviq etmək üçün; "gəncliyində Buxarada olan bütün mədrəsələrin tualetlərini təmizlədiyini" ifadə buyurmuş və sözlərinə belə davam etmişdir:

"…Ustadım mənə;

«-Ürəklərə diqqət et! Düşkünləri, zəifləri və könülü qırıqları izləyərək onlara xidmət et! İnsanların xor gördüyü və xoş söz demədiyi kəslərə sən xoş söz de və onlara qarşı təvazö və hörmət göstər!» tövsiyəsini etmişdir. Mən də ustadımın işarə etdiyi kimi bir müddət bu xidmətlərlə məşğul oldum. Sonra, təkrar o əziz dost mənə buyurdu ki:

«-Heyvanların baxımını da təvazö və etina ilə yerinə yetir. Çünki heyvanlar da Allah-Təalanın məxluqudur. (Onlardakı təcəllilləri müşahidə et! Onlara Xaliqin şəfqət nəzəriylə baxmağa cəhd göstər!) Xəstə və yaralı olanların müalicəsiylə məşğul ol!»

Bu əmr üzərinə heyvanlara xidmət etməyi özümə vəzifə bildim. Bir müddət bu şəkildə davam etdim. Əgər yolda önümə bir heyvan çıxsa dayanar, o heyvan keçib gedənə qədər eləcə qalar, qabağına keçməzdim. Yeddi il bu minval üzrə günlərim keçdi. Təkrar o əziz dost mənə belə buyurdu:



«-Bu mübarək dərgahın itləri ilə də səmimiyyətlə məşğul ol və aralarından sənə səadət üfüqlərinin açılmasına vəsilə olacaq birini tap!»

Mən ustadımın işarələriylə bu xidməti də qənimət bildim və ona möhkəmcə sarıldım. Bir gecə bir itə rast gəldim. Məni çox fərqli bir hal bürüdü. Onun yanında Allaha niyaz və tazarru etdim. Hönkür-hönkür ağlamağa başladım. Mən bu haldaykən o heyvancığaz, arxasını yerə qoyaraq üzünü səmaya doğru çevirdi, ön ayaqlarını yuxarı qaldırdı və qəmli-qəmli inləməyə başladı. Mən də əllərimi qaldırdım və qırıq bir ürək ilə niyaz edib «Amin!» deyirdim. Bu vəziyyət onun susub normal halına dönməsinə qədər davam etdi…

Yenə əziz ustadım mənə:

«-Yol və keçidlərin baxımı ilə məşğul ol! Əgər yol üzərində insanların xoşlanmayacağı bir şey görsən onu qaldırıb təmizlə

ki, oradan keçənlərə bir zərər gəlməsin!» dedi. Bundan sonar da o xidmətlə məşğul olmağa başladım. Belə ki, bəhs etdiyim bu yeddi il ərzində üstüm başım həmişə toz torpaq içində olardı. O Allah dostunun mənə əmr etdiyi hər əməli, böyük bir sədaqətlə yerinə yetirdim. O əməllərdən hər birinin öz əhvalım üzərindəki nəticələrini də müşahidə etdim."

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) Əmir Külal həzrətlərinin təkkəsindəki ocağa kürəyində odun daşıyardı. Başqa bir dəfəsində də kəndlərində məscid tikilərkən başının üzərində palçıq üçün qum daşımış və bu mənaya gələn bir beyt oxumuşdur:

*"Ya Rəbbim, Sənin yolundakı hər işi canı-könüldən edərəm! Ey məscid, sənin yükünü başımda daşıyaram!"*

**Alaüddin Attar həzrətləri belə buyurur:**

"Ustadımız Şahi-Nəqşibənd həzrətlərinin əxlaqı çox ülvi idi. Əgər bir dostu evinə gəlsə şəxsən xidmət edər, ən gözəl şəkildə izzəti-ikramda edən və hər cür etinanı göstərərdi. Qonağın miniyinə də son dərəcə etina ilə baxardı. Belə ki, qonaq miniyini heç düşünməzdi."

Şahi-Nəqşibənd həzrətlərinin müridlərindən Şeyx Şadi belə izah edər:

"Bir dostu və ya bir qonağı gəldiyində Nəqşibənd (rəhmətullahi əleyh) o şəxsə xidmət etdikdən sonra, miniyinin su və yemini də hazırlayardı. Hər cür xidməti nemət bilərdi. Evinə öz hallarında olan dərvişlər belə gəlsə, onların təharət və təmizliyi üçün lazım olan ehtiyacları daim özü hazırlar və; «Bu xidmətlərin hamısı mənim canıma minnətdir» deyərdi. Xacə Həzrətləri bir müridinin evini şərəfləndirdiyi zaman isə onun uşaqlarını, yaxınlarını, xidmətçilərini, minik heyvanlarını, hətta toyuqlarını belə soruşar, hər birinə bir vəsiləylə gözəl sözlər deyər və könüllərini alardı."

Bir məclisdə yemək hazırlandığı zaman, onu hazırlayanlara şəxsən öz əlləriylə o yeməkdən ikram edərdi.

Tələbələrindən biri belə izah edir:

"Mənim Şahi-Nəqşibənd həzrətlərinə intisab edib könüldən bağlanmamın səbəbi budur:

Bir gün Buxarada dərvişlər toplanıb xəstə olan Xacə Həzrətlərinə keçmiş olsun ziyarətinə getdilər. Mən də onlarla getdim. Şahi-Nəqşibənd həzrətləriylə Bağı Məzar deyilən yerdə görüşdük. Xəstəykən belə dərvişləri gülər üzlə qarşıladılar. Dərhal gedib kəsiləcək qoyunları hazırladılar. Hətta qoyunların birini mübarək kürəklərində gətirib yeməyin bişirilməsiylə də şəxsən məşğul oldular. Beləcə onun bu gözəl əxlaqı məni söhbətlərinin əsiri etdi."



Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) hər kəsin məsələsini və problemini həll etmək üçün cəhd göstərərdi. Bu səbəblə ona "**Xaceyi- Müşkil-Güşa**: Çətin məsələləri həll edən Xoca əfəndi" deyilərdi.

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) belə buyurardılar:

"Haqq dostları xalqın yükünü və zəhmətini onların əxlaqını gözəlləşdirmək üçün çəkərlər. Haqqın nəzərinin tapılmadığı heç bir ürək yoxdur. O ürəyin sahibi bunu istər bilsin, istər bilməsin! Buna görə əhlullah bu səbəblə xalqın yükünü çəkərlər ki, könül almağa müvəffəq olsunlar da o ürəkdəki nəzəri ilahidən onlara da feyz gəlsin!"

**Söhbətə Verdiyi Əhəmiyyət**

Bir dərvişdən nəql edilmişdir:

" Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) Allah dostlarının söhbətlərinin böyük bir nemət olduğunu hər vəsiləylə ifadə edər və; «Bu nemətdən uzaq qalmaq, bu yolun yolçularının qüsurlarındandır» buyurardılar. Bu aciz qul Xacə Həzrətlərinin

söhbətlərindəki feyzə məzhər olmaq üçün Səmərqənddən Buxaraya getdiyimdə, Nəqşibənd həzrətlərinin tələbələrinin ən çox əhəmiyyət verdikləri şeyin, imkan nisbətində bütün namazları camaatla mesciddə əda etmək və həzrətin söhbətindəki bolluq və ruhaniyətdən nəsiblənmək kimi xüsuslar olduğunu gördüm.”

Şahi-Nəqşibənd həzrətləri belə buyurardılar:

“Adam insanlarla birlikdə olub onlara xidmət edincə, xəlvətə çəkildiyi zamanlardan daha çox könül hüzuru əldə edər. (Yəni kəsrətdə vəhdəti tapar, izdihamlar içindəykən Cənabı-Haqq ilə birgə ola bilsə, könülü daha çox hüzura çatar.) Bizim yolumuzda könül aləmi ancaq bu şəkildə inkişaf edər. **Bizim yolumuz söhbət yoludur.** Xəlvətdə şöhrət, şöhrətdə isə fəlakət vardır. Xeyir və bərəkət, birlik və bərabərlikdədir. Birlikdə olmaq, söhbətlə mümkündür. Ancaq bu halın reallaşması, söhbətin faydalı olması şərtinə bağlıdır. Bir adamın başqasıyla söhbəti isə mənliyi tərk edib heçliyə bürünməklə hasil olar."

“Bizim söhbətimizə gələnlərin bir qisminin ürəyində söhbət toxumu varsa da, dünyaya olan əlaqələri və bunun meydana gətirdiyi pislik səbəbiylə bu toxum cücərib böyüyə bilməz. Bizə düşən vəzifə onların ürəyini bu eqoist arzulardan təmizləyərək söhbət toxumunu cücərtməkdir. Bəzilərinin ürəyində isə söhbət toxumundan əsər yoxdur. Biz onların ürəyində söhbət meydana gəlməsi üçün himmət edərik."

**Vəfatı**

Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) yaşlılıq dövründə təkrar həccə getdi. Bu səfərdən dönərkən xəstələndi.

Tələbələrindən belə nəql edilmişdir:

“ Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) ölümü çox yad edərdi. Xüsusilə həyatının son günlərində; «**Dostların getdiyi**

**o axirət aləmi nə gözəldir! »buyurup Hacəgan böyüklərini xatırlayardılar. Xacə həzrətləri vəfatlarına yaxın bir zamanda da, Həzrəti Aişə Validəmizdən rivayət edilən bu hədisi-şərifi təkrar edərdi:**

*«Mənim ülül-azm qardaşlarım ilə rəsulu-kiram həzrətləri bundan daha şiddətli bəlalara səbr etdilər. O hallarıyla gedərək Allaha qovuşdular. Cənabı-Haqq onlara çox böyük ikramlar və bir çox savablar verdi. Dünyadakı rifah səviyyəmi yüksəltməkdən həya edərəm. Elə etsəm bəlkə sabahkı qismətimdən uzaqlaşdırılar və qardaşlarımdan geri qalaram. Bu dünyada bir neçə gün səbr etmək mənə sabah axirətdə qismət olacağın azaldılmasından daha yaxşı gəlir. Bu anda mənə səhabələrimə və qardaşlarıma qovuşmaqdan daha sevimli başqa bir şey yoxdur.» (Qəzali, İhyai Ulumid-Din, III, 82)"*



Alaüddin Attar (rəhmətullahi əleyh) belə buyurur:

"Xacə həzrətlərinin son anlarında Yasin surəsini oxuyurduq. Yarısına gəldiyimizdə nurlar zahir olmağa başladı. Xacə həzrətləri kəlimeyi-şəhadət gətirərək son nəfəslərini verdilər. O zaman 74 yaşında idilər. Vəfatları 3 Rəbiul-Əvvəl 791-ci il (1 Mart 1389) bazar ertəsi gecəsi baş verdi."

Şahi-Nəqşibənd həzrətləri Qəsri-Arifandakı bağçasına dəfn edildi. Cənazəsi daşınarkən bu beytin oxunmasını vəsiyyət etmişdilər:

مُفْلِسَانِيمْ آمَدَه دَرْ كُوىِ تُو

شَيْأً لِلّٰهْ اَزْ جَمَالِ رُوىِ تُو

*Sənin kəndinə gələn müflislərik!*

*Allah üçün camalından bir nebze lutfeyle!*

Yaqub Çərhi (rəhmətullahi əleyh) belə izah edər:

Bir səfər ruhaniyyətlərini gördüyümdə ona:

«-Sabah qiyamətdə sizi necə tapacağıq?» deyə soruşdum:

«-Şəriətə bağlılıqla» yəni, dinin əmrlərinə uyğun əməl etməklə, buyurdular.

Allah onların ruhlarını əziz etsin, lütfkarlıq və ikramlarını üzərimizdən əskik etməsin. Amin!

Şahi-Nəqşibəndin (rahmətullahi aleyh) əvvəllər son dərəcə təvazökar bir vəziyyətdə olan qəbiri zamanla ətrafına məscid, mədrəsə, təkkə, mehmanxana və bulaq da əlavə olunaraq böyük bir külliyyə halına gətirilmişdir.

Anasının qəbiri də bu gün Bahaüddin deyə adlandırılan Qəsri-Arifan kəndindədir. Şahi-Nəqşibənd həzrətlərinin türbəsini ziyarətə gələnlər Xacə həzrətlərinin vəsiyyəti ilə əvvəl anasının qəbirini ziyarət edərlər.

Şahi-Nəqşibənd həzrətləri güclü və arifanə xəlifələri sayəsində uzun illər İslam ölkələrində təsir və nüfuzunu davam etdirdi. Özlərinin qələmə aldıqları *"Evradı-Bahaiyyə"*sindən başqa əsəri yoxdur. Ancaq müridi və xəlifəsi Məhəmməd Parsa və digər xəlifələri bəzi sözlərini təsbit etmişlər.



**Hikmətli Sözləri**

❧ “Məna aləmində uça bilmək üçün iki qanad lazımdır. Biri çox əməli saleh olmaq, digəri də özünü qüsurlu görmək."

❧ “Daima Allahın lətif sifətinə sarıl və Onun fəzli-kərəmini tələb et! Əsla əməllərinin qarşılığını gözləmə! Kəmalat və fəzilət olaraq söz və davranışlarından hər nə zühur etsə etsin, onu heçlik dəryasına atıb unut! Davamlı nəfsinin qüsurlarını gör!”

❧ Ubeydullah Ahrar (rəhmətullahi əleyh) izah edir:

“Bir şəxs dünyadan ayrıldıqdan sonra Nəqşibənd həzrətlərini yuxusunda görmüş və ona:

«-Əbədi qurtuluşumuz üçün nə edək?» deyə soruşmuş. Xacə Həzrətləri bu cavabı vermiş:

«-Son nəfəsdə nəylə məşğul olmaq lazımdırsa onunla məşğul olun!» Yəni, son nəfəsdə necə ki tamamilə Allah-Təalanı düşünməniz lazımsa, həyatınız boyunca da o şəkildə oyanıq olunuz!"

❧ "Zikr təlqini, bir kimsənin əlinə çaxmaq daşı vermək kimidir. Bundan sonra yaxşı bir nəticə meydana gəlməsi üçün əməl etmək müridə aiddir."

❧ "Zikrdən məqsəd; yalnız «Allah» və «Lə ilahə illəllah» demək deyil. Bəlkə səbəbdən səbəbkara (səbəblərin səbəbi olan əsl failə) getmək və nemətlərin sahibindən, yəni Cənabı-Haqqdan gəldiyini görməkdir."

❧ "Zikr qəflətin aradan qaldırılmasıdır. Qəflət aradan qaldırıldığında sussan belə zikr halında olarsan!"



❧ "Namazın ərkanı və manası ilə məşğul olub ona tam olaraq yönəlmək lazımdır. Bu mübtədilərin (daha işin başında olanların) vəziyyətinə görə dəyişər. Vudu (dəstəmaz) namazında bir çox əcrlər olduğunu da unutma!"

❧ "Allah-Təala görülən, eşidilən, xəyal edilən, düşünülən hər şeyin xaricindədir. (Kəlimeyi-Şəhadətdəki) «Lə (yoxdur)» ifadəsinin haqiqəti Allah-Təalanı bu cür şeylərdən tənzih etməkdir."

[Çünki Cənabı-Haqqın sifətlərindən biri də "Muhaləfətun lil-havadis"dir. Yəni O, yaratdıqlarına bənzəməkdən münəzzəhdir.]

❧ "Hər vəziyyətdə hüquqa riayət etmək, Haqq yoluna sülük edənlərin ədəblərindəndir. Onun üçün məqsəd və matləbə çatanlar; hüquq və ədalətli olmaqla çatmışlar."

❧ "Masivaya yəni qulu Allahdan uzaqlaşdıran dünyəvi şeylərə könül bağlamaq, bu yolda gedənlər üçün ən böyük qəflət pərdəsidir."

❧ "İnsanların Haqq-Təaladan uzaq düşmələrinin səbəbi, özlərini uzaq tutmaları və öz istəkləriylə üzərlərinə çox dünya yükü götürmələridir. (Yəni eqoist ehtiraslarının köləsi olmalarıdır.) Yoxsa feyzi-ilahidə qüsur yoxdur."

❧ "Bir mövzuda könül əhli və əziz insanlarla məsləhətləşib müşavirə etmənin faydalarından biri də budur ki, əgər işin sonunda qərarın doğru çıxdığı aydın olsa eqoizmə qapılmaqdan xilas olarsan. Əgər qərarın doğru olmadığı aydın olsa, qüsur və nöqsanlığını anlar, yenə eqoizmə düşməzsən."

❧ "Bu yolun əsası ürəyə yönəlməkdir. Ürək ilə də Allah-Təalaya yönəlib Onu çox zikr etməkdir. Çünki iman; dil ilə söyləmək, ürək ilə təsdiqdir, zehin ilə təsdiq deyil. Yəni zikrin ürəyə yerləşərək davranışlara əks etməsi lazımdır. Nəticədə qul, hər an ilahi müşahidə altında olduğunun idrak və şüuru içində olmalıdır.

Yenə bu yolun əsası fərz və sünnələri gözəlcə əda etməkdir. Yemə, içmə, geymə və oturmada, işlərdə və adətlərdə etidal halında olmaqdır. Ürəyi, pis düşüncələrdən və vəsvəsədən qorumaqdır. Özünə rəhbər olan ustadın söhbətini böyük bir nemət bilməkdir. Üstadının huzurunda da qiyabında da ədəbə riayət etməkdir.

**Bu yoldan məqsəd «Davamlı Allah-Təalanın huzurunda olma»nın idrakı içində ola bilməkdir.** Əshabı-kiram zamanında buna **«ihsan»** deyilmişdi. Bu yolda irəliləyərkən; nəfsin arzularını yox etmək, nurlara qərq olmaq, fəna halını dərk etmək, gözəl əxlaq sahibi olmaq kimi mövqelər əldə edilər."

❧ “Halal loğma yemədikcə (mənəviyyat yolunda) məqsəd hasil olmaz!”

❧ Şahi-Nəqşibənd (rəhmətullahi əleyh) mənəvi halları gizləmə mənasına gələn beyti söhbətlərində tez-tez oxuyardı:

*“İçdən (Haqqa) dost ol, xaricdən isə xəbərsiz kimi (davran)! Belə gözəl bir üsul, dünyada az tapılar.”*

❧ "Comərd birinin evində olan, onun ikramlarına nail olar. Allah dostlarına xidmət edərək onların könüllərinə girənin də halı belədir!"

# ŞEYX HƏMİD VƏLİ (SOMUNCU BABA) ﷺ

(d. 1331 / v. 1412)

Diriyiz daim, ölməyiz
Qaranlıqdan heç qalmayız
Çürüyüb torpaq olmayız
Bizə gecə gündüz olmaz!



Somuncu Baba haqqında bir şey danışılacaqsa əvvəlcə Bursadan başlamaq lazım olacaq. Çünki məlami məşrəbli bu sufinin ortaya çıxması, tanınması burada baş vermişdir. Bursaya gəlməmişdən əvvəlki həyatı çox az bilinir. Həmçinin onun Bursadan sonrakı həyatı da bir sirr kimi məchul qalmışdır. Haqqında elmə məlum olan klassik məlumatlardan müəyyən bir fikir əldə etmək mümkündür. Bu bəzi qeyri-müəyyənlik məqamları, elə görünür ki, Somuncu Babanın öz istəyi olmuşdur və bu istəyinə də çatmışdır.

Bəzi sufilər arasında bir həyat fəlsəfəsi kimi qəbul olunan "məlamilik", bir kimsənin özünün müsbət yönlərini inkişaf etdirmək üçün xalqadan gizlənməsi və eyni zamanda da özünün mənfi yönlərini isə gizləməməyə çalışması şəklində başa düşülür. Bəzi sufilər özləri könüllü şəkildə bu cür "xəlvət" həyatını seçmişdir. Yəni, onlar ictimai həyatda camaatla birlikdə olsalar da, sahib olduqları dərin mənəvi zənginliyi xalqdan gizləməyi bacarmışlar. Beləliklə də xalqdan biri kimi görünərək cəmiyyətin əsas dəyərlərinə müsbət keyfiyyətlər qazandırmışlar. Onlar sözlə ("qal") yox, davranışları ("hal") ilə öz irşad vəzifələrini yerinə yetirmişlər.

Somuncu Baba da Bursada özü belə bir həyatı seçmişdir. O, bişirdiyi çörəkləri hər gün Bursa camaatına paylayarkən Ərdəbildə, Kayseridə qazandığı, Bəyazid Bistaminin ruhaniyyətindən "üveysi" yolla əldə etdiyi mənəvi-ruhi dünyasını məharətlə gizləmişdir. Orxan Qazinin Bursanın fəth etdikdə ilk ayaq basdığı bir yer kimi tanınan Pınarbaşında bu gün şəhərin ən qədim qəbristanlıqlarından biri mövcuddur. Tünd-yaşıl sərv ağaclarının hüzurlu kölgəsində bu şəhərdən olan bir çox alim, dərviş, dövlət adamının məzarları var. Bu qəbristanlığın ətrafında olan Somuncu Babanın evi və təndiri klassik mənbələrdə belə təsvir olunmuşdur: Pınarbaşı qəbristanlığından yuxarıda Uludağa çıxanda İvaz Paşa məhəlləsi görünür. İvaz Paşa məhəlləsini keçib şərqə tərəf gedəndə isə sizi Molla Fənari Camesi qarşılayır. Bu camenin altındakı məhəllə Şeyx Həmid məhəlləsidir. Camenin altında soldakı küncdə, qəbri burada olmasına baxmayaraq bursalılar və Bursaya gələn qonaqlar tərəfindən bir ziyarətgah olaraq qəbul olunan Somuncu Baba təndiri və çiləxanəsi mövcuddur. Torpaqla suvanmış ev daşdan və kərpicdən inşa olunan çiləxanə, bir otaq və təndir hələ də qorunmaqdadır. Son günlərinə qədər Somuncu Babanın istifadə etdiyi söylənilən təndir kürəklərinin də orada var olduğu rəvayət olunur.



Ulağı ilə dağdan odun gətirən Somuncu Baba evinə bitişik olan təndirdə çörək bişirərmiş. "Möminlər, somun möminlər"- deyərək, ləzzətli çörəklərini gözləyən Bursa camaatına sataraq dolanardı. Mənəvi dərinliyini anlayan bir kimsə çıxmamışdı o zaman. Elə görünür ki, doğulduğu yer olan Kayseridən tanıdığı Davud Kayserinin tələbəsi Molla Fənari ilə arada söhbətləri olmuşdur. Bundan əlavə Yıldırım Bəyazidin kürəkəni, məşhur sufi Əmir Sultanla da tanış olmuşlar. Hətta belə rəvayət olunur ki, onun mənəvi zənginliyini başa düşən ilk şəxs də elə Əmir Sultan olmuşdur. Əmir Sultanla onun bir-birlərinin mənəvi yönlərini dərk etdikləri barəsində bir hekayə nəql olunur: Bir gün Əmir Sultan əlində bir qabla Somunçu Babanın yanına gəlir. Salam verir, əlindəki qabı Somunçu Babaya uzadaraq, qabda yemək olduğunu və onu bişirmək üçün gətirdiyini

söyləyir. Somunçu Baba da qabın ağzını açaraq, onu təndirə qoymaq istəyir, ancaq nədənsə heç cür bacarmır. Dönərək Əmir Sultana deyir: "Bu qabı bu təndirin içinə ancaq sən sala bilərsən hər halda!". Əmir Sultan da qabı təndirə salmaq istəyəndə bir də görür ki, təndirdə od yoxdur. Somunçu Baba ona belə deyir: "Narahat olma, bir azdan çörəklə bir yerdə sənin yeməyin də bişər!". Bu hadisədən sonra Əmir Sultan Somunçu Babanın həqiqi mənəvi məqamını dərk edib, onunla can dostluğu qurur. Somunçu Baba Əmir Sultanın feyz aldığı şəxslərdən biri olur. Bu mənəvi alış-veriş Somunçu Babanın Bursadan ayrılması ilə sona çatmışdır. Somunçu Babanın məşhur tələbəsi Hacı Bayram Vəli ilə davam etmişdir. Hətta Əmir Sultan vəfat edəndə onun cənazə namazını Hacı Bayram qıldırmışdır.

Əmir Sultan əslən Buxaralı idi. Elmi təhsilini və təriqət tərbiyəsini bitirdikdən sonra həccə getmişdi. Qayıdarkən isə Anadoluya, Bursaya getmiş, orada məskunlaşmışdı. Kübrəviyyə təriqətinin Nurbaxşiyyə qolunun Anadoluda ilk təmsilçisidir. Yıldırım Bəyazidin qızı Hunda Sultan ilə evlənmişdi.

Osmanlının Balkan ölkələrində yerləşmə və dini yayma səylərində dönüm nöqtələrindən biri olan Niğbolu qələbəsindən sonra bir şükür vəsiləsi olaraq Yıldırım Bəyazid Bursada bir məscid tikdirmə qərarı alır və Ulu Camenin inşa olunmasına başlanılır. İnşaat əsnasında Somunçu Babanın məscidin tikintisində işləyənlərin çörək ehtiyaclarını təmin etdiyi görülür. Came üç il içərisində tikilib başa çatdırılmışdı. Adət-ənənəyə uyğun olara came cümə günlərindən birində Cümə namazı üçün açılırdı.

Yıldırım Bəyazid cümə xütbəsinin və namazının, kürəkəni Əmir Sultan tərəfindən qılınmasını istəyirdi. Bu istəyini Əmir Sultana bildirən o, o günə qədər demək olar ki, heç kimin tanımadığı və mənəvi zənginliyini bilmədiyi Somunçu Babanı göstərmiş, namazı onun qıldırmasını istəmişdi: "Bizim bölgəmizdə hamıdan daha alim olan bir kimsə var. O, burdaykən imamlıq heç kimə münasib olmaz. Bu şəxs camaatın Somunçu

Baba dediyi Şeyx Həmiduddindir. Camaatın içərisində olan Somunçu Baba, Yıldırım Bəyazidin xahişi ilə cümə xütbəsi üçün minbərə çıxarkən, Əmir Sultana tərəf dönüb yavaşca "sən neynədin, bu qədər zaman gizlənmişdim, sirrimi açığa çıxardın"-dedi.

Şeyx Üftadənin yer üzündə beşinci məqam kimi bildirdiyi Ulu Camenin açılışındakı ilk xütbəsi və ilk namaz üçün Somuncu Baba minbərə çıxar. Bir çox alimin və şeyxin də olduğu, ancaq əksəriyyətini hər gün onun ləzzətli çörəyini almaq üçün yolda gözləyən insanların təşkil etdiyi Bursa camaatından meydana gələn camaata cümə xütbəsini oxudu. Xütbədə "Fatihə" surəsini yeddi fərqli mənada təfsir etdiyi bildirilmişdir. Fatihənin yeddi məna üzrə təfsiri deyərkən, burada mütəsəvviflərin təfsir metodu olan işari təfsiri başa düşmək lazımdır. Zahiri mənanın arxasında daha dərin və batini mənası ilə ayələr təfsir edilir. Somunçu Babanın da bu yeddi fərqli mənadakı Fatihə təfsiri işari təfsirlərdən biridir. Mənsub olduğu Əbhəriyyə təriqətinin İbn Ərəbi ilə yaxınlığı, Kayseriyəyə qayıdanda Davud Kayserinin təsəvvüf fəlsəfəsi olaraq tərif olunan vəhdəti-vücud düşüncəsinə yaxınlığı nəzərə alındıqda Somunçu Babanın mənəvi irfanının də mənbələri ortaya çıxmış olur.



Cümə namazından sonra sufilərin təəccübünə səbəb olan bir hadisə baş verir. Somunçu Babanın Ulu Camenin hər üç qapısından da eyni anda çıxdığı müşahidə olunur. Camedəki hər kəs o vaxta qədər ləzzətli çörəyindən daddıqları Somunçu Babanın bu dəfə çox fərqli mənəvi bir  xüsusiyyətinə şahid olurdular. Duasını almaq, əlini öpmək və bir az yaxın olmaq üçün qapının ağzında onun yolunu gözləyərkən Somunçu Babanın başqa bir kəramətinə şahid olurlar. Camenin üç qapısında da onu gözləyən camaat Somunçu Babanı görüb, onun duasını almışdılar.

Osmanlının ilk müftüsü hesab olunan Molla Fənari də cameyə gələnlər arasında idi. Dini elmlərdə dərin biliklərə yiyələnmiş olan Molla Fənari hazırlamaqda olduğu ancaq bitirə

bilmədiyi "Əynul-Ayan" adlı Fatihə surəsi ilə bağlı şərh əsərini, Somunçu Babanı xütbədə Fatihə surəsinin təfsiri ilə bağlı söylədiklərindən istifadə edərək yekunlaşdırdığı da rəvayət olunur.

Həmən cümə namazından sonra Somunçu Baba çörək bişirmə işini tərk edir, çiləxanəsinə qapanıb, çəkindiyi "şöhrət" təhlükəsindən özünü xilas etməyə çalışır. Sirri açılandan sonra məşhur olmaqdan qorxan Somunçu Baba Bursanı da tərk etmək qərarına gəlir.

Bilindiyi kimi, Osmanlı ilə "çinar ağacı" arasında qəribə bir bağ mövcuddur. Şeyx Ədəbalının evində qonaq qalan Osman Bəy gecə bir yuxu görür. O, həmən əsnada Şeyx Ədəbalının yanında yatırmış. Bir də görür ki, Ədəbalının sinəsindən bir hilal (aypara) çıxır. Hilal bir az yüksəldikdən sonra böyüyür və tam ay şəklinə düşdükdən sonra yenidən onun sinəsinə girir. Sonra da onun sinəsindən bir ağac çıxır və ağac böyüyüb yüksəlməyə başlayır. Bu bir çinar ağacı olur. Böyüdükcə yaşıllaşır və gözəlləşir. Budaqlarının kölgəsi bütün hər yerə kölgə salar. Bu yuxunun mənəvi işarəsi nəticəsində Osmanlının paytaxtı Bursada həddən artıq çinar yetişdirilmişdir.



Bursanı tərk etmə qərarı aldıqdan sonra Hacı Bayram Vəli ilə birlikdə yola çıxan Somunçu Babaya çatan, aralarında Molla Fənarinin də olduğu bir qrup yerli camaat Somunçu Babanın qiymətini bilmədiklərini söyləyərək, onun Bursadan çıxıb-getməsinə mane olmaq istəyirlər. Qərarından dönməyəcəyini söyləyən Somunçu Baba hal-hazırda "dua ağacı" kimi məşhur olan və ətrafında eyni adda bir məhəllənin olduğu yerdə, çinarın kölgəsində Bursaya qayıdıb xeyir-dua verir və yenidən Bursanı tərk edir...

**Bursadan Əvvəl**

1071-ci ildə Malazgird qələbəsindən öncə Türküstandan çıxıb gəlmiş alpərənlər, dərvişlər Anadolu insanının daxili

dünyasında gözəl naxışlar toxumağa başlamışdılar. Həyata Əhməd Yəsəvinin gözləri ilə baxan dərvişlər yeni fəth torpaqları kimi gördükləri bu bölgələrə axın edərək buradakı insanlar xidmət etmə yolları axtarmışdılar. Qəlbləri fəth edərək bu gün bizə miras qalan min illik qardaşlığın mayasını ortaya qoymuşlar.

İslam coğrafiyası bəzi vaxtlarda dözülməz imtahan və sınaqlarla qarşlaşmışdır. Bunlardan ən böyük ikisi səlib yürüşləri və monqol işğalıdır. Xüsusilə monqol zülmü, Türküstan və ətrafındakı müsəlmanların qərbə köç etmələrinin səbəblərindən biri olmuşdur.



Türküstan insanının Anadoluya olan marağı da əsrlərlə davam etmişdir. Anadoluya köç edənlərin arasında Somunçu Babanın ailəsi də var idi. Əbhəriyyə təriqətinə mənsub olduğunu bildiyimiz Şeyx Şəmsəddin Musa da Kayseri şəhərində məskunlaşmışdı. Şəmsəddin Musanın oğlu olan Somunçu Baba Kayserinin Akçakaya kəndində, təxminən 1331-ci ildə dünyaya gəlmişdir. Somunçu Baba mənbələrdə və xalq arasında fərqli adlarla tanınmışdı. Əsl adı Həmid və ya Həmiduddin,  Şeyx Həmid ibn Musa, Şeyx Həmid Vəli, Həmiduddin Aksarayi, Çörəkçi Hoca kimi adlarla məşhur olmuşdur. Bunların içərisində isə ən məşhuru "Somunçu Baba" ləqəbi olmuşdur.

İlk müəllimi atası Şəmsəddin Musa olan Həmiduddin, atasının vəsilə olması ilə Sührəverdiyyə təriqətinin Əbhəriyyə qoluna intisab etmişdir. Təriqətin bu qolu Səmərqəndin Əbhər kəndində dünyaya gələn, təhsilini Azərbaycanda tamamladıqdan sonra Əbu Nəcib Sührəverdidən mənəvi feyz alan Şeyx Qutbuddin Əbhəri tərəfindən təsis edilmişdir.

Həmiduddin, dövrünün üləmasından hesab olunan Davud Kayseri başda olmaqla Kayserinin böyük elm xadimlərindən təhsil almışdır. Zahiri elmləri müəyyən bir səviyyəyə gətirdikdən sonra irfan mərkəzləri kimi tanınan və bir çox məşayix və sufinin yaşadığı şəhərlərə səfərə çıxmışdır. Bunun əsas səbəbi, hələ Anadoluda məskunlaşma fəaliyyətlərinin

davam etməsi, güclü bir siyasi idarəetmənin olmaması, elm və fikir mərkəzlərinin öz varlıqlarını tamamlamamış olmasıdır. Zahiri və batini elmlərdə özünü inkişaf etdirmək istəyən tələbələr, ərəb və əcəm torpaqlarında Təbriz, Şirvan, Ərdəbil, Hələb və Şam kimi şəhərlərdə bir çox alim və sufi ilə görüşüb, onların fikirləri ilə tanış olurdu.

Yuxarıda da qeyd olunduğu kimi həyatının böyük bir hissəsi haqqında dəqiq məlumata sahib olmadığımız Həmiduddin Aksarayinin görüşmüş olduğu sufilər, icazətləri və təriqəti haqqında da dəqiq məlumata sahib deyilik. Bəzi zəif mənbələrin bildirdiyinə görə Kayseridən atasının vəfat etməsindən sonra gedən Həmiduddin müxtəlif bölgələrə səfər etmişdir. Bu səfərlər əsnasında bir çox alim və sufi ilə görüşdüyü bildirilir. Bu sufilərdən biri Şamda Bəyazidiyyə dərgahının şeyxi Şadi Rumidir. Haqqında çox az məlumata sahib olduğumuz bu şəxsin Tayfuriyyə və Nəqşibəndiyyə şeyxlərindən olduğu rəvayət olunmuşdur. Bursalı məşhur yazar və sufi Lami Çələbinin verdiyi məlumatlara görə Həmiduddin Aksarayinin təriqət tacının üstündəki pul, onun Bəyazidiyyə dərgahına bağlılığını göstərməkdədir.

Həmiduddin Aksarayinin Bəyazidiyyə dərgahında aldığı mənəvi tərbiyə ilə, məlami məşrəbli, məczub xasiyyətli bir dərviş olduğunu söyləmək mümkündür. Bu dərgahda bundan əlavə Bəyazid Bistaminin ruhaniyyətində də "üveysi" metodla istifadə etdiyi bildirilir. Əvvəl yaşamış bir sufinin ruhaniyyətindən istifadə etmə metoduna "üveysi metod" deyilmişdir. Veysəl Qaraninin Hz. Peyğəmbərlə üz-üzə görüşməməsinə baxmayaraq ondan mənəvi mənada istifadə etməsini əsas götürən sufilər, üz-üzə görüşmədikləri halda böyük sufilərin mənəvi zənginliklərindən istifadə oluna biləcəyini söyləmişlər. Həmiduddin Aksarayinin Şamda Xızırla görüşdüyü, orada "elmi-lədunni" deyilən gizli mənəvi sirləri öyrəndiyi bildirilir. Şamdan əlavə, Təbriz tərəflərinə də getdiyi bildirilən Həmiduddinin Ərdəbil sufiləri ilə görüşdüyü, onlardan feyz aldığı və xilafət məqamə əldə etdiyi də bildirilməkdədir. Buradakı qeyri-müəyyənlik, Ərdəbil şeyx-

lərindən biri olan Xacə Ələddin Əli və ya onun oğlu İbrahim Ərdəbili, yaxud da Xacə Ələddinin atası Sədrəddin Ərdəbilidən hansı ilə görüşdüyü məsələsindədir. Mənbələrdə bu üç şeyxlə də görüşdüyü bildirilmiş olsa da, ən güclü ehtimal belədir ki, o, Sədrəddin Ərdəbili ilə görüşmüş, ona intisab etmişdir.

Somunçu Babanın mənəvi təkamülündə şübhəsiz ki, ən təsirli yer olan Ərdəbil şəhəri hal-hazırda İran ərazisində yerləşir. Bu şəhər,  tarix içərisində Azərbaycanın önəmli elm, mədəniyyət və dini həyat mərkəzlərindən biri olmuşdur. Anadolunun türkləşməsi və islamlaşmasında Ərdəbil şəhərinin çox böyük bir rolu olmuşdur.

**Bursadan Sonra...**



Bursaya gəlməmişdən əvvəlki həyatı haqqında əldə olunan məlumatlar belədir: Mənqibə halında verilən ancaq tarixi həqiqətlər tərəfindən təsdiqlənməyən bəzi məlumatlara görə burada ona ehtiram göstərməmişdilər. Bursada dua çinarında bursalılar üçün etdiyi duadan sonra haraya getməsi barəsində dəqiq məlumatlara rast gəlmək mümkün deyil. Bəzi arxiv sənədlərinin verdiyi məlumatlara əsaslanaraq müzakirə olunan ancaq dəqiqləşməyən Sonunçu Babanın Bursadan sonrakı həyatı ümumi olaraq belə izah olunur:

Sonunçu Babanın,  Hacı  Bayram Vəli ilə birlikdə əvvəlcə Şam şəhərinə, oradan da Hicaza getdiyi, həcc vəzifəsinin əda etdiyi, sonra yenidən Anadoluya qayıtdığı rəvayət olunur. Aksarayda və Darəndədə bir dərgah tikdirib Anadolu insanlarının qəlbini mənəvi naxışlarla toxumağa davam etdiyi də bildirilmişdir.

Sonunçu Babanın, şeyxi Səfiyuddin Ərdəbilinin "bir eşq kötüyünü alovlandırdıq, Rum ellərinə atdıq"-deyə bəhs etdiyi məşhur sufi Abdurrahman Ərzincaninin qızı Nəcmiyə Sultanlar evləndiyi də tarixi mənbələrdə yer alır. Yusuf Haqi və Halil Tayyib adlı iki oğu tərəfindən nəsli bu günümüzə qədər davam etmişdir. Hal-hazırda problemli olan və müzakirə

olunan məsələlərdən biri də Həmiduddin Aksarayinin qəbrinin harada olması barəsindədir. Bəzi araşdırmaların nəticələrinə görə qəbri Malatyanın Darəndə bölgəsindədir. Digər bəzi tədqiqatlar göstərir ki, onun qəbri Aksaraydadır. Son zamanlarda aparılan diqqətli araşdırmalara baxmayaraq Somunçu Baba və onun iki oğlunun qəbri müəyyənləşdirilə bilməmişdir. Bu qeyri-müəyyənlik iki şeyə diqqətimizi çəkir: Birincisi, Somunçu Baba həyatı boyunca olduğu kimi, öldükdən sonra da "sirr" kimi qalmaq yolunu seçmişdir. İkincisi də, qəlblərdə elə gözəl bir yerə sahib olmuşdur ki, həyatını, nəsəbini və təsirlərini izah etmək üçün bu gün də bir çox araşdırmalar aparılmış və Anadolunun iki gözəl yerində insanlar Somunçu Babanın özlərinə yaxın olduğunu isbat etmək üçün xüsusi səylər göstərirlər.

Somunçu Baba öz duyğularını şeir dili ilə ifadə etmişdir. Bu günə qədər gəlib çatan şeirinin iki fərqli versiyası aşağıdakılardır:

*Biz o aşiq igidlərik*
*Ağıl, rüşd bizə yar olmaz.*
*Meyi-eşq ilə sərməstik*
*Bizlər əsla sərxoş olmaz.*

*Diriyik daim, ölməyiz*
*Qaranlıqda heç qalmayız*
*Çürüyüb torpaq olmayız*
*Bizə gecə gündüz olmaz!*

*Bizim ellərdə ay və gün*
*Səbat üzrə duyur daim*
*Tələvvün ilişir ona*
*Gehi bədrü hilal olmaz!*

*Bizim baxçadakı güllər*
*Dururlar təzə, solmazlar*
*Xəzan olub tökülməzlər*
*Qış mövsümü bahar olmaz!*

*Şərbəti eşq üçün içdik*
*Fərağat mülkünə köçdük*
*Yanıb eşqinlə tutuşduq*
*Bizə təhrikü-tar olmaz!*

*İrəldən Şəmsin nuruna*
*Vücudun zərrədən qətrə*
*Nə qətrə, ayni-bəhr oldu*
*Ona çuxu kənar olmaz!*

*Burax ey Hamida, varı*
*Görəm dersən sən ol yarı*
*Görəcək ol təcəllayı*
*Ondan üstün kəmal olmaz!*



**Kəramətlərindən**

Tarixi mənbələrdə Somunçu Babanın bəzi kəramətlərindən də bəhs olunmuşdur. Mənəvi kamilliyini və dünyaya baxışını ən gözəl şəkildə tərənnüm edən kəramətlərindən bəziləri aşağıdakılardır:

-Yuxarıda da qeyd olunduğu kimi, Ulu Camenin açılış mərasimində verdiyi xütbədən sonra, camenin hər üç qapısından da çıxdığı və camaatın da onun əlini öpdüyü hadisə ən məşhur kəraməti sayılır.

-Bundan əlavə, dünya və onun nemətlərinə qarşı göstərdiyi münasibəti izah edən belə bir hadisədən də bəhs olunmuşdur: "Şeyx Həmidin dostlarından və müridlərindən bir sufi dərviş iki fərqli tarlada əkin-biçin işləri ilə məşğul idi. Bunlardan birini Şeyx Həmidin hesabına, digərini də öz adına əkirdi. Bir vaxtlar, Şeyx Həmid üçün əkdiyi tarladan heç bir bar götürə bilməmişdi. Tarlanın bütün məhsulu məhv olmuşdu. Ancaq özü üçün əkdiyi tarlada çoxlu məhsul əldə olunmuşdu. Bir gün Şeyx Həzrətləri bu tarlalara gəlib, "bu tarlalardan hansı bizimdir?"-deyə mənəvi kəşfetmə yolu ilə öyrənmək istədikdə, tarlanı əkib-becərən şəxs utandığından

"bu məhsul verməyən tarla sizindir"-deyə bilmədi və digərin göstərib "sizin tarla budur" –dedi. Şeyx Həmid bu sözü eşidən kimi çox kədərləndi və belə dedi: "Dünya tarlasından meyvə və məhsul götürmək hələ hər şey deyil. Bəlkə günah elə onun toxumundadır". Yəni, axirətin baqi meyvələrini dünyada fani bir şəkildə yemək istəməmişdi".

Somunçu Baba dərin və təsirli izlər buraxmışdır. Yazılı olaraq bəzi risalələri bu günümüzə qədər gəlib-çatmışdır. Bunlardan biri "Tuhfətul-İxvan" adlı "qırx hədis" şərhidir. Başqa bir əsəri isə zikr məsələsindən bəhs edən və ayə və hədislər işığında izah edən "Silahul-Mumin" adlı dua və zikrlər risaləsidir.

Onun ən önəmli "əsərləri" isə şübhəsiz ki, Mövlana Cəlaləddin Rumi və Hacı Bekdaş Vəi ilə Anadolunun "qütbü" hesab olunan Hacı Bayram Vəlidir. Hacı Bayramla davam edən Somunçu Baba nəfəsi təxminən beş yüz il Osmanlı torpaqlarını ehya etmişdir.

Əsl adı Numan olan Hacı Bayram Vəli mədrəsədə müdərrislik edərkən Somunçu Baba ilə tanış olmuşdu. Bir qurban bayramı gününə təsadüf edən bu görüşmədə Somunçu Baba ona "bayram" adını vermişdi. Onun tərbiyəsi altında böyüyən Hacı Bayram da Anadoluda "könüllərin sultanı" olmuşdur. Osmanlı sultanlarının mənəvi kamilliyində önəmli rol oynamışdır. Çox əsər yazmamışdır, ancaq qəlblərdə yer tutmağı bacarmışdır. Yetişdirdiyi dəyərli insanları ilə Anadoluya həyat vermişdir.

Fateh Sultan Mehmedin müəllimi və fəthlərin mənəvi memarı olan Akşəmsəddin başda olmaqla Əşrəfoğlu Rumi, Yazıçızadə Əhməd Bican, Yazıçızadə Mehmed, Bıçaqçı Dədə Ömər, Akbıyık Sultan, Uzunca Bədrəddin, Göynüklü Uzun Səlahəddin, Kızılca Bədrəddin kimi Anadolunun mənəvi rənglərini meydana gətirən könül ərlərini mənəvi tərbiyəsi Hacı Bayram Vəli ilə olmuşdur.

Anadoluda qurulan üç təriqətdən biri olan Bayramiyyə təriqəti də Hacı Bayram Vəlinin əsəridir.

Somunçu Baba Bursaya, Akşəmsəddin, Akbıyık, Yazıçıoğlu Qardaşlarla davam edən sülalənin davamçısı olan Üftadə ilə yenidən qayıtmışdır. Əziz Mahmud Hüdayi Üftadənin tələbəsi olmuş, Bursalı İsmayıl Hakkı da Hüdayidən mənən bəslənmişdir. Somunçu Baba könül ərləri ilə bu torpaqları qarış-qarış dolaşmış, mənəvi təsiri əsrlər boyu davam etmişdir.

**Günümüzdə**

Hal-hazırda da Somunçu Babanın varlığı öz təsirini hiss etdirməkdədir. Darəndə mərkəzinə bağlı olan Hacı Hülusi Əfəndi Vəqfi tərəfindən hər il Darəndə, İstanbul, Ankara və Bursa kimi mərkəzlərdə müxtəlif simpoziumlar təşkil olunur. Həmən vəqf "Somunçu Baba" adlı bir elmi-təsəvüfi jurnal da nəşr etməkdədir. Həmçinin Somunçu Baba vəqfi Bursada kasıblara isti yemək vermə fəaliyyətlərini davam etdirir. Somunçu Babanın təndirinin və çiləxanəsinin olduğu yer isə insanlar tərəfindən ziyarət olunur.



**Somunçu Babanın Yoldaşlarına və Yolundan Gedənlərə Tövsiyələri:**

1. Gizli və aşkar hər yerdə Allahdan qorxsunlar
2. Az yesinlər, az danışsınlar, az yatsınlar
3. Avam camaatın içərisində az olsunlar
4. Bütün üsyankarlılardan və günahlardan uzaq dursunlar
5. Hər zaman şəhvətlərdən uzaq dursunlar
6. İnsanların əllərinə göz dikməsinlər
7. Bütün mənfi xüsusiyyətləri tərk etsinlər
8. Tərifəlayiq xüsusiyyətlərə sahib olsunlar
9. Şeir və mahnıya qulaq asmaqdan çəkinsinlər
10. Camaat içərisindən fərqli bir görüşə görə ayrılmasınlar
11. Aclıqdan ölsələr də şübhəli olan heç bir loğmanı yeməsinlər..."

**Qurani-Kərim Barəsindəki Tövsiyələri**

Hər günün əvvəlində yüz ayə və "yasin" surəsini oxusunlar. Sonra da digər ehtiyaclarını ortadan qaldırsınlar. Hər gecə isə "səcdə", "yasin", "düha", "vaqiə" və "təbarəkə" surələrini oxusunlar. Bunlardan gecə oxuya bilməzsə, onu gündüz qəza məqsədilə oxusunlar..."

**Zikir Risaləsi**

"...Bizim seyri-sülukumuzda və təriqətimizdə "lə ilahə illəllahı gizli və aşkar, fərzlərdən, nafilə ibadətlərdən, sünnə və sair kimi dini vəzifələrədən sonra evdə, səfərdə, gecə-gündüz, təkbaşına və insanlar içərisində zikr etmək əsasdır. Həqiqət isə belədir ki, "bu yol ən səhih və Allaha ən yaxın yoldur". İmam Əbu Dəkkar (r.a) belə buyurmuşdur: "Müridlər zikrdən daha açıq və doğru heç bir yola süluk etməmişlər. İnsan Allaha ancaq zikirə davam etməklə çatar". Cüneyd Bağdadi (r.a) isə belə demişdir: "Zikir –dostluğun elanıdır. Kim ki, zikirdən nəsib alıb, o, dostluqla da ruziləndirilmişdir. Kim ki, zikirdən uzaqlaşıb, dostluqdan da uzaqlaşıb". Rəsulullah Allah-Təalanın belə buyurduğunu söyləmişdir: "Lə ilahə illəllah mənim qalamdır. Kim mənim qalama girərsə, o, əzabdan xilas olmuşdur". Hüccətül-İslam Məhəmməd Qəzzali isə belə demişdir: "Lə ilahə illəllah ən böyük qaladır. Elmi-tövhiddir. Kim bunlarla qorunarsa əbədi xoşbəxtliyi qazanmış olar. Rəsulullah (s.ə.s) belə buyurmuşdur: "Zikrin ən fəzilətlisi lə ilahə illəllahdır". Zikrin məqamı belə uca olduğuna görə, zikrin keyfiyyətini, sirlərini, şərtlərini və ədəbini bəyan etmək vacibdir. Bu zikrin Allaha gedən yol olduğunu qeyd etmişdik. Mürid öz mətləbinə ən qısa şəkildə çatmaq üçün necə bir yola süluk etməlidir? Müridin zahirən və batinən mətləbinə qovuşmasının keyfiyyəti necə olmalıdır? Məşayix niyə zikir kimi məhz bu kəlməni seçmişdir? Təlqinin səbəbi, keyfiyyəti və ədəbi nədir? Məxluqatın ən şərəflisi olan Məhəmməd Mustafaya (s.ə.s) vüslatın keyfiyyəti necədir? Bunların izah olunması lazımdır..."

“...Məşayixin görüşlərinə görə zikrin müxtəlif növləri mövcuddur. Ariflər belə buyurmuşlar: “Zikrin iki növü var; sir ilə və ruh ilə olan zikir. Ruh zikri sirri, sir zikri qəlbin zikrini, qəlbin zikri dilin zikrini müraqibə edər. Nəfsin zikri bunu görmək və onu ucaltmaqdır. Bunun səbəbi də ya bir savab qazanmaq, ya da zikirdə məqamlardan birinə çatmaqdır. Əhlullaha görə, insanlardan çox az bir qismi bu şəkildə Haqqın onlara izhar edib yönəlməsini istəyər”. Şeyxin sözlərindən bunu anlamaq mümkündür ki, qəlbin zikri feili zikirdir. Sanki bu ifadələrlə Allahda fani olmağın həqiqətinə işarə olunmuş olur. O da feillərdə yox olma, sifətdə fəna və zatta fəna məqamıdır. Bəzi araşdırmaçılar isə bu zikri altı qismə ayırmışlar: Yeni başlayanlar üçün zahir və batini zikir, orta yolda olan mürid üçün qəlb və sirrin zikri, dərinləşmiş olanlar üçün isə ruh və xəfinin zikri. Bu ifadələr bir-birinə yaxındılar. Qısacası, zikir deyərkən insanların Allahla ünsiyyət qurması və məxluqatdan uzaqlaşması nəzərdə tutulur. Sonra, bunu da bilmək lazımdır ki, zikrin zahiri və batini şərtləri mövcuddur. Zikrin faydalı olması və öz səmərəsini verməsi üçün bunlar əsasdır. Bütün günahlardan və üsyankarlıqdan tövbə edib dönmək. Tövbə- ya Allah ilə öz aranda olur, yaxud da zahir və batinində şəriətlə bəzədilmiş, təqva ilə örtülmüş bir şeyxdən alınır. Zikir əsnasında mələklərin və saleh cinlərin, zikir məclislərində iştirak etmələri, oraya gələ bilmələri üçün qüsl edilməli, dəstəmaz alınmalı, paltarlar təmizlənib ətir vurulmalıdır...”.

**Şərhi-Hədisi-Ərbəin Tuhfətul-İxvan**

35. Hədis: “Qalən-Nəbiyyu (s.ə.s); Ənə indəl-mütəkəssirati qulubuhum vəl-mündərisəti qulubuhum”. Mənası belədir; “Peyğəmbərimiz belə buyurdu: Allah-Təala dedi ki, mən qəbirləri məchul olanların və qəlbləri sındırılmışların yanındayam”. İzahı; “Allah-Təala haqsız olaraq qəlbi sınmış olanların, qəbirləri yerlə-yeksan olunmuş, halına razı olmuş və dünyadan əlini-ətəyini çəkmiş kimsələrin yanlarında olduğunu, rəhmət və ehsanı ilə onları zənginləşdirəcəyini buyurur. Şeyx Həmid Vəli bundan belə bir dərs çıxarmışdır: Qəl-

bi qırma çox asandır ancaq qəlbin razı salınması üçün xeyli zaman lazımdır. Qəbirlərin məchul hala gəlməsi isə o qəbirdə olan insanın acizliyinə dəlalət edir. Elə isə, heç kimin qəlbini qırma, Zati-Barinin elm və əhədiyyət sifətinə möhtac olduğunu bil. Bu hədisi-şərif ilə bundan əvvəl qeyd olunan hədis-şərif arasındakı münasibət, qəbirləri yerlə-yeksan olunmuş məzlumun halının da eyni olduğunu bəyan edir.

36. Hədis: "An Əbi Hürəyrətə (r.a) qalən-nəbiyyu (s.ə.s); Ənə ində abdi bii və ənə məəhu izə zəkərəni. Fə in zəkərəni fi nəfsihi zəkərtuhu nəfsi və in zəkərani fi mələin zəkərtuhu fi mələin xayrin minhu". Mənası; "Əbu Hüreyrədən rəvayət olunur ki, Hz. Peyğəmbər belə buyurdu: Allah-Təala belə buyurmuşdur: "Mən qulumun zənn etdiyi kimiyəm. Məni zikr etdiyi vaxt mən şübhəsiz ki, onunla birlikdəyəm. Əgər məni təkbaşına olanda zikr edərsə, mən də onu yalnız şəkildə anaram. Məni bir cəmiyyətin içərisində zikr edərsə, mən də onu məni zikr etdiyi cəmiyyətdən daha xeyirli bir cəmiyyətin içərisində xatırladaram. İzahı belədir: "Hədisi-şərifdəki zənn ifadəsi yəqini bilgi mənasındadır. Allah-Təala buyurur ki, "kim mənim duaları qəbul etdiyimə inanarsa mən də onun duasını qəbul edərəm. Günahları bağışlayıcı olduğuma inanarsa, mən də onun bütün günahlarını bağışlayaram. Yəni, bəndə Allah ilə birlikdə olarsa hər bir ismi-cəlili gizli və aşkar, camaat içərisində zikr edərsə, ziksin əvəzinə Allah da onu mələi-əlada zikr edər və onun günahlarını bağışlayar. Şeyx Həmidin izahı isə belədir: "Allah-Təalanın camalına baxmağa müvəffəq ol, əlində olan müvəqqəti gözəlliklərə çox bağlanma, səni yaradanı unutma. Allahı tək başına qalanda zikr etsən O da səni öz dərgahında anar. Allahı bir cəmiyyətin içərisində zikr edərsən, O də səni həmişə mələi-kiramın yanında anar. Bu hədisi-şərif ilə bundan əvvəl qeyd olunan hədisi-şərif arasındakı münasibət, hər iki hədisi-şərif də Allah ilə birlikdə olmağı bəyan edər.

## HACI BAYRAM VƏLİ ﷺ

(d. 1352 / v. 1429)

"Heç bir günahı kiçik görməyin, çox çalışın...

Başıboş gəzənlər zəngin olsalar belə onların dostları şeytan, qəlbləri də şeytanın qonağı olur."

Fatih Sultan Mehmedin İstanbulu fəth edəcəyini müjdə verən böyük Allah dostudur – Numan ibn Əhməd ibn Mahmud (Hacı Bayram Vəli Həzrətləri). Numan ibn Əhməd Ənqürü (Ankara) şəhərinin Çubuk çayı üstündəki Zülfəzl (Salfasol) kəndində anadan olmuşdur. Atası əkinçiliklə dolanan Koyunluca Əhməddir. Numan bir müddət atasının tarlasında işləmişdi. Onun təhsilə olan marağını hiss edən atası onu Ankaradakı Kara mədrəsəsinə göndərmişdi. Kiçik yaşlarından etibarən elm təhsil etməyə başladı. Ankara və Bursadakı alimlərin dərslərində iştirak etmiş, təfsir, hədis, fiqh və dövrünün digər elmlərinə yiyələnmişdi. Məlikə Xatunun tikdirdiyi Kara mədrəsəsində müdərrislik etmiş, tələbələr yetişdirmiş və qısa müddətdə xalq arasında sevilib-sayılan bir şəxsə çevrilmişdi. Ancaq Müdərris Numanın ruhunda təsvir olunmaz bir mənəvi böhran vardı. O, bu böhrandan sadəcə bir kamil mürşidin hüzuruna çıxmaqla xilas ola biləcəyini bilirdi. Qısa müddət içərisində onun danışıqlarının təsiri, bilgisinin genişli xalq arasında yayılmağa başlamışdı.

O dövrdə qədim müdərrislərdən olan məşhur Kayserili Əbu Həmidullah Həzrətləri Şimali İrandan qayıtmış və irşad fəaliyyətləri ilə məşğul idi. Bu məşhur şeyx fəzilət sahibi ankaralı müdərris Numan Əfəndini tanıyırdı və onu bəyənirdi.

Numan Əfəndidəki təmiz duyğuları hiss edən Əbu Həmid Həzrətləri onun gəlməsini gözləmədən xəlifəsi Şücaəddin Karamani Həzrətlərini Ankaraya göndərdi. Şücaəddin Ankaraya gəlir və Müdərris Numana şeyxinin onu Kayseriyə dəvət etdiyini söyləyir. Müdərris Numan da "dəvət olunan yerə getmək Hz. Peyğəmbərin sünnəsidir" deyərək dəvəti qəbul edir. Beləliklə də ikisi birlikdə Kayseriyə tərəf yola düşürlər.

Qurban bayramının birinci günü Kayseriyə çatan Müdərris Numan Əfəndi Əbu Həmid Həzrətlərini görən kimi onun əllərindən öpür. Bu görüşmə əsnasında Şeyx Həmiduddin Numan Əfəndini təsəvvüfi tərbiyə almadan ölmüş üləmanın ruhlari ilə mənəvi təmas qurdurmuş, ona bu ikisi arasındakı hüzurun fərqini göstərmişdi. Nəfsinin mənəvi pisliklərindən xilas olmuş alimlərin qəbrlərinin yanında axirəti təfəkkür etməyə başlayan kimi, içində ruhi hüzur yaranan Hacı Bayram Vəli Həzrətləri, həmən mənəvi təsiri bu tərbiyyəni almamış alimlərin qəbrlərinin başında almaz. Hətta tam tərsinə mənəvi bir narahatlıq hiss edər. Əbu Həmid bu təcrübəni yaşayan Hacı Bayram Vəli Həzrətlərinə "öldükdən sonra qəbrdəki halın hüzurlumu olsun, hüzursuzmu? Əgər hüzurlu olmağını istəyirsənsə gəl bu yola gir və mənə bağlan! Təsəvvüfi yolda nəfs tərbiyyəsi ilə məşğul ol! Yaxud da istəyirsənsə Ankaraya get və ölənə qədər öz halından yaşamağa davam et!" –deyər. Bu kəlamları böyük ehtiramla dinləyən Hacı Bayram Vəli Həzrətləri artıq Həmidi Vəli Həzrətlərinin təsiri altında idi və ona çoxdan bağlanmışdı. Aralarında heç vaxt qopmayacaq bir sevgi bağı yaranmışdı. Qurban bayramı olan həmən gündə mürşidini tapmış və beləliklə də iki bayramı eyni anda yaşamışdı. Bu qovuşmadan qısa bir müddət sonra Bayram Vəli Həzrətləri Həmid Vəli Həzrətləri ilə birlikdə Bursada məskunlaşırlar. Alın təri ilə dolanmağı özünə yol seçən Əbu Həmid o dövrdə ev və təndirdən ibarət olan kiçik bir yerdə yaşayır, bişirdiyi çörəkləri Ulu Camenin qarşısındakı "Sahaflar Çarşısı"-nda satırdı. Buna görə də o, camaat arasında "Somunçu Baba" adı ilə məşhur olmuşdu. Bundan əlavə, "Məlamilik" məşrəbinin

prinsiplərinə tabe olaraq özünü həmişə insanlardan gizləməyə üstünlük vermişdi. Təsəvvüfi düşüncəni atası Şeyx Musadan alan Əbu Həmid, eyni zamanda Kayseri alimlərindən də ciddi bir təhsil almasına baxmayaraq elmi cəhətlərini insanlardan gizləyir, xalq arasında elmi baxımdan məşhur bir adam kimi tanınmırdı. Onun məşhur olan xütbəsinə qədər bu vəziyyət davam etmişdi.

1400-cü ilinin mart ayında Bursa Ulu Camenin tikintisi başa çatdıqda Cümə namazını qıldırmaq, ilk xütbəni oxumaq və sonra da camenin açılışından iştirak etmək üçün o dövrün padşahı olan Yıldırım Bəyazid öz kürəkəni Əmir Sultan Həzrətlərindən xahiş etdikdə, Əmir Sultan ona belə demişdi: "Zəmanəmizin qütbü şəhərimizdə olduğu halda mən necə qıldıra bilərəm?!". Yıldırım Bəyazid də bu adamın kim olduğunu soruşmuş, Əmir Sultan "Əbu Həmid" –cavabını vermişdi. Bundan sonra Yıldırım Bəyazid cümə namazını qıldırıb, camenin açılışını etməsini Somunçu Babadan istəmişdi. Əbu Həmid də "ulul-əmrə itaət vacibdir"-deyərək bu təklifi yerinə yetirmişdi.



Vaxt yetişən kimi minbərə çıxan Əbu Həmid Həzrətləri öz xütbəsində "Fatihə" surəsinə üç fərqli məna verərək izah edir. Xütbəyə qulaq asan hər kəs bu dərin mənalar qarşısında heyrətlənir. O dövrün şeyxul-İslamı olan Molla Fənari bu xütbənin məzmununu belə xülasə etmişdir: "İlk verdiyi məna hər kəsin bildiyi, ikinci verdiyi məna bəzi insanların başa düşdüyü, son məna isə heç kimin bilmədiyi bir tərzdə idi". Bu xütbədən sonra xalqı təəccübləndirən Həmiduddin Vəli Həzrətləri camaatın gözündə bir anda parlamağa başladı və şöhrəti qısa müddətdə hər tərəfə yayıldı.

Məşhur olduqdan sonra şöhrətdən irəli gələn narahatlıqlar keçirən Əbu Həmid Hacı Bayram Vəli Həzrətləri ilə birlikdə Bursanı tərk etmişdir. Çünki Hacı Bayram Vəli Həzrətləri şeyxi Somunçu Babadan xahiş etmişdi ki, hara gedirsə-getsin onun yanında və dostu olsun. Onun bu istəyini qəbul etmişdi.

İki yoldaş uzun bir yolçuluqdan sonra Şama gəlib-çatmışdılar. Burada bir müddət yaşadıqdan sonra həcc vəzifəsini əda etmək üçün Hicaza gedirlər. Üç illik ayrılıqdan sonra Anadoluya yenidən qayıdan iki yoldaş Darəne və Aksarayda Somunçu Babanın vəfatına qədər burada qalırlar. Vəlayət sirrini Hacı Bayrama verən Əbu Həmid Həzrətləri 20 sentyabr 1412-ci ildə 80 yaşında, onun öz ifadəsi ilə desək, "bu əzablı dünyadan" ayrılır. Hicri 730-cu (miladi 1331) ildə Kayserinin Akçakaya kəndində anadan olduğu təxmin olunan Həmid Vəli Həzrətlərinin Aksaraydamı, yoxsa Darəndedəm vəfat etdiyi mübahisəli bir məsələdir. Hal-hazırda hər iki yerdə də ona aid olduğu düşünülən bir türbə mövcuddur. Eyni zamanda onun nəslini davam etdirən ailələr yaşayır. Ahmet Akgündüzün kitabında Həmidi Vəli Həzrətlərinin vəfatından sonra vəzifəsini Bayram Vəli Həzrətlərinə verdiyi barəsində məlumat verilmişdir. "Somunçu Baba bu məqama layiq olan oğlu Yusif Hakikiyə yox, mənəvi bir işarədən sonra Hacı Bayram Vəliyə verdiyinə görə Yusif Baba ondan incimişdir. Rəvayət olunan bir mənqibənin bildirdiklərinə görə, bunları özü üçün problemə çevirmişdir.



Belə günlərdən birində quyudan su çəkərkən atası onu çağırır və belə deyir: "Oğlum! Hz. Peyğəmbərin yolu açıqdır. Orada həqiqəti bütün çılpaqlığı ilə görəcəksən. Hər bir məsələdə işi əhli olana buraxmaq dinimizin əmridir. Həqiqətə ən yaxın və tələbə yetişdirməyə ən uyğun olan Hacı Bayramı görürəm. Ata mərhəməti həqiqəti görməyimə mane olmaz". Bundan sonra Yusif Babanın belə dediyi rəvayət olunur: "Ata! Padşahlar o boyda dünya sultanlığını öz övladlarına verirlər!".

Şeyx Həmid bu cavabdan sonra bərk sarsılır və bu hərəkətin şəriətə uyğun bir davranış olmadığını bildirir. Uzun bir nəsihətdən sonra Yusif Baba atasının doğru söylədiyi qənaətinə gəlir və Hacı Bayram Vəlinin müridi olur. Təriqətini onun yanında tamamlayır. Şeyxi vəfat etdikdən sonra isə Ankaraya qayıdan Hacı Bayram Vəli Həzrətləri Ulus bölgəsində yüksək bir təpədən yerləşən Xristian Oqüst Məbədinə bitişik yerdə öz təkyəsini tikdirir. Hal-hazırda Ankaranın simvolu olun bu

came Ulus səmtində ziyarətə açıqdır. Bu camenin ilk imamı hazırda İznikdə dəfn olunmuş Əşrəfoğlu Rimi Həzrətləridir.

İrşad etmə və nümunəvi olma vəzifəsini, bəzi istisnalar olmaqla, ölənə kimi Ankarada yerinə yetirmişdir. Yüksək olan müdərrislik maaşından imtina edib, təvazökar bir həyat tərzi sürən Hacı Bayram Vəli Ankarada sadə bir əkinçi həyatı sürməyə başlamışdı. Azla qane olmağı da həyat prinsipi halına gətirmişdi. O, öz müridlərini də daim belə bir düşüncədə yetişdirmişdi. Çünki "Hacı Bayram Vəli Həzrətlərinin ən başlıca adəti, müridlərinin alın təri ilə həyat sürməsini tövsiyə etməsidir. Başqalarının hesabına avara tüfeyli kimi yaşamağı yox, əl əməyi ilə ruzi qazanmağın fəzilətli olduğunu müridlərinə öyrətmişdi". Dünyaya çox də könül bağlamamaq, qənaətkar olmaq, halal loğma qazanmağa səy göstərmək, müridləri və ailəsi üçün əkinçiliklə məşğul olmaq, bu işi görərkən hamıdan çox çalışmaq, əkin zamanı gələndə iməclik şəklində tarlasını biçmək, mübarək aylarda Ankaranın varlı insanlarından zəkat yığıb kasıblara paylamaq Hacı Bayram Vəlinin dəyişməz xarakteri və məşrəbi kimi mənbələrdə öz əksini tapmışdır.

Hacı Bayram Vəlinin əsas xüsusiyyəti barışdırıcı, birləşdiri olmasıdır. Hər şeydən əvvəl o, öz nəfsində dini elmlərlə təsəvvüfü, yəni şəriətlə təriqəti birləşdirmişdir. İkinci birləşdirici xüsusiyyəti isə Xəlvətilik və Nəqşibəndiliyi birləşdirməsində görülür. Üçüncü birləşdirici yönü isə belə təsvir edilə bilər: Hacı Bayram sadəcə öz ruhi dərinliklərində Haqqı tapmaqla yetinməmiş, əldə etdiyi mənəvi xoşbəxtliyi xalqa da yaymışdır. Haqqla xalqı birləşdirmək istəmişdir. Xalqla Haqqı bir-birinə sevdirərək birləşdirmişdir.

Ankaraya qayıtdıqdan sonra buradakı daxili çəkişmələrin çoxaldığını görən Hacı Bayram Vəli bundan sonra dərhal mənəvi tərbiyə vəzifəsinə başlamışdır. Hacı Bayram Vəlinin bu düşüncələrini həyata keçirə bilməsi üçün bir zaviyəyə ehtiyac duyur və buna görə də burada bir zaviyə qurmağa başlayır.

Hacı Bayram Vəlinin bu zaviyəni qurmasınakı tək məqsədi təlim idi.

Ankarada öz təriqətini və zaviyəsini qurduqdan sonra fəaliyyətlərə başlayan Hacı Bayram Vəli bu dövrdə çox böyük şöhrətə sahib olmuşdu. İlk dövrlərdə həm came həm də zaviyə kimi fəaliyyət göstərən bu yerdə moizələr oxumağa başlayan mütəsəvvif, insanları doğru yola dəvət etməyə davam edirdi. Dinin əmr və qadağalarını insanlara göstərməyə başlayan Hacı Bayram Vəli həm də tələbələr yetişdirməyə başlamışdı. Bu hadisə, Hacı Bayram Vəlinin şöhrətinin artmasına və beləliklə də hər gün hər tərəfdən onun yanı qrup-qrup insanların gəlib, yaralı qəlblərin şəfa tapmasına səbəb olmuşdu. Beləliklə də bu dövrdə Hacı Bayram Vəlinin tələbəsi olan şəxslərdən biri də sonralar İstanbulun mənəvi fatehi olacaq Akşəmsəddindir. Hacı Bayram Vəli bu şəkildə həm yeni tələbələr qazanır, bunları yetişdirib-tərbiyyə etmək səyi içərisində olarkən, digər bir tərəfdən də günün müəyyən vaxtlarında camedə moizələr oxuyur, nəsihətlər verirdi.



Hacı Bayram Vəlinin Ankaradakı fəaliyyətləri nəticəsində Bayramiliyin burada və buraya yaxın bölgələrdə yaranıb-yayılmasına səbəb olmuş, xalqın diqqətini çəkdiyi kimi Osmanlı idarəçilərini də diqqətini çəkmişdi. Xüsusilə də II Murad dövründə böyük bir şöhrət qazanmış Hacı Bayram Vəli bu dövrdən etibarən diqqətləri öz üstünə çəkməyə müvəffəq olmuşdu. Ankara döyüşündən sonra Anadoluda türk birliyinin pozulması ilə yanaşı, Şeyx Bədrəddin üsyanı kimi dini məzmunlu üsyanlar Osmanlı idarəçilərinin Hacı Bayram Vəli ilə ehtiyatlı davranmasına səbəb olmuşdu. Bundan əlavə Hacı Bayram Vəlinin təriqətini Ankara kimi mərkəzə uzaq olan bir yerdə yaymağa çalışması da dövlətin bu məsələdəki həssaslığını artırmışdır. Bununla yanaşı Hacı Bayram Vəli üçün Osmanlı dövlətinin mövcudluğu və sabitliyi və buna da xalqın kömək etməsi çox vacib məsələ idi. Ancaq Hacı Bayram Vəlinin getdikcə güclənməsindən qorxuya düşənlər və şübhələnənlər padşah II Murada Hacı Bayram Vəli haqqında mənfi məlumatlar ötürməyə başlayırlar. Aralarında yüksək rütbəli

dövlət adamlarının da olduğu bu şəxslər Hacı Bayram Vəli haqqında padşaha: "Hacı Bayram Vəli öz ətrafında çoxlu mürid toplayıb, onlara qəribə sözlər söyləyərək beyinlərini bulandırır və sultanlığa qarşı niyyətlərini həyata keçirir" -deyirlər.

Bu şayiələri eşidən II Murad Hacı Bayram Vəlinin Ankaradan Ədirnəyə gətirdilməsini əmr edir və bu işi yerinə yetirmək vəzifəsini iki çavuşa tapşırır. Əllərində padşahın fərmanı sürətlə Ankaraya gələn çavuşları Hacı Bayram Vəli Ankarada qarşılayaraq "sizin gələcəyinizi bilirdim"-deyir. Yanındakı gənc tələbəsi Akşəmsəddin və çavuşlarla birlikdə Ədirnəyə doğru yola çıxırlar. Hacı Bayram Vəli Ədirnəyə gəldikdə qarşısında quldura bənzər bir adamın çıxacağını gözləyən Osmanlı padşahı II Murad Hacı Bayram Vəlini gördüyü anda ondan çox təsirlənir. Hacı Bayram Vəli ilə söhbət edən II Murad onun mənəvi kamilliyi qarşısında təəccüb edər və ehtiramını dilə gətirir. Bu söhbət əsnasında Hacı Bayram Vəli padşaha: "Ulu Xaqanım! Bizim üçün ədalət, məşvərət və ulul-əmrə itaət hər şeydən əvvəldir. Bizə görə heç narahat olmayın! Biz də sultanımızın belə fikirləşdiyinə arxayınıq"-deyərək padşahı tamamilə sarsıtmışdı. Bundan sonra padşah, Hacı Bayram Vəlidən xahiş etmişdi ki, onu öz dərvişləri sırasına qəbul etsin. Hacı Bayram Vəli bu təklifə belə cavab vermişdi: "Dövlətin başından olan bir hökmdarın hər hansı bir təriqətə girməməsi, hətta onlardan hər hansı birinə sevgi göstərməməsi belə zəruridir. Sultanımızın hüquqla əlaqəli qərarlarında ədalət və məşvərətlə hərəkət etməsi, dünya işlərini nizamlı bir şəkildə və dini göz ardı etmədən yerinə yetirməsi bizim də arzumuzdur".

Ədirnədə padşah və digər dövlət adamlarının da iştirak etdiyi məclislərlə yanaşı camelərdə tez-tez moizələr oxuyan Hacı Bayram Vəli təxminən iki ay qaldığı Ədirnədən ona və təriqətinə qoşulan çoxlu insanla Ankaraya qayıtmışdır. Məlumdur ki, təsəvvüfdə tənbəlliyə, başqalarının hesabına yaşamağa yer yoxdur. Tarixdə demək olar ki, hər həqiqi sufinin bir peşəsi olmuşdur. Məsələn, Əli Həməzani təkkə toxuyub

satmış, Əmir Sultan zəngin uşaqlarına dərs verərək qazancını təmin etmiş, Hacı Bayram Vəli də qoca vaxtında tarlada işləyərək, Akşəmsəddin həkimlik edərək dolanırdılar".

Onun təsəvvüf anlayışında dünyanı tərk etmək məsələsi heç vaxt olmamışdır: Sufi olaraq dünyanı rədd və tərk etmək əvəzinə, onu təmir və islah etməyə çalışmışdır. O, sözün əsl mənasında xidmət adamı olmuşdur. Bu fikri təsdiqləyən fəaliyyətlərin başında bir ictimai yardımlaşma müəssisəsi qurması gəlir.

Hacı Bayram Vəlinin qurmuş olduğu təriqətin adı da ona nisbətlə "Bayramilik təriqəti" adlandırılmışdı. Bayramilik, Əbhərilik, Nəqşibəndilik və Xəlvətilik təriqətlərinin birləşməsindən ibarətdir. Bu təriqətdə üç əsas prinsip mövcuddur. Bunlar; cəzbə, məhəbbət və sirri-ilahidir.



Bəndənin Allaha doğru eşq ilə yönəlməsi cəzbə, Allahın bəndəsini, bəndənin də Allahını sevməsinə məhəbbət deyilir. Bayramilikdə bu ikisini əldə edən mürid isə ilahi sirri əldə etməyə səy göstərir.

Hər bir təriqətin özünəxas olan bir təkkəsi mövcuddur ki, buna "tac" deyilir. Bayrami təriqətinin tacı ağ rəngdə, altı dilimdən ibarət olub, tam təpəsində ağ rəngdə üç dairə mövcud olur. Buna da gül adı verilirdi. Bu başlığın üstündə yaşıl rəngli sarıq sarılırdı.

**Zorla Gələn Mehmanın Qonaqlığı da Belə Olar...**

Akşəmsəddin Həzrətləri Osmancıkda müdərrislik edərkən Hacı Bayram Vəli Həzrətlərinin övliyalıq dərəcəsində olduğunu eşitmiş və ona tələbə olmaq üçün Ankaraya gəlmişdi. Ancaq Hacı Bayram Vəli Həzrətlərinin dükanları gəzib camaatdan pul yığdığını gördükdə onun yanına gedib bu hərəkətinin səbəbini soruşmadan belə deyir:

"Heç övliya adam da xalqa əl açarmı? Mən bura boş yerə gəlmişəm".

Zeynudddin Xəfi Həzrətlərinə tələbə olmaq üçün Hələbə tərəf yola çıxar. Hələbə çatdığı ərəfədə bir yuxu görür. Yuxusunda boynuna zincir bağlanmış və zorla Ankarada Hacı Bayram Vəli Həzrətlərinin həyətinə aparılmışdı. Zincirin bir ucu da Hacı Bayram Vəli Həzrətlərinin əlində idi.

Bu yuxunu gördükdən sonra səhv etdiyini başa düşən Akşəmsəddin dərhal Ankaraya qayıdır və Hacı Bayram Vəli Həzrətlərinin harada olduğunu soruşur. Əkin-biçin vaxtı olduğuna görə Hacı Bayram Vəlinin tələbələri ilə tarlada işləyirdi. Hacı Bayram Vəli onu görsə də heç fikir vermədi. Akşəmsəddin də digər tələbələrlə birlikdə biçim işində işləməyə başladı. Günorta vaxtı çatır, namaz qılınır və yemək hazırlanır. Süfrələr qurulduqdan sonra hamı süfrədə əyləşir. Ancaq Akşəmsəddini süfrəyə dəvət edən olmur. O da bir qıraqda durub gözləyir. Çox keçmədən oradakı itlərə də yemək verilir. Ancaq ona yenə də heç nə verilməz. Akşəmsəddin də itlərlə birlikdə, onlara verilən yeməkdən yeməyə başlamaq üçün diz çökdükdə Hacı Bayram Vəli Həzrətləri onu öz süfrəsinə dəvət edər. Çünki o, qürur imtahanından uğurla keçmişdi. Süfrəyə oturduqda Hacı Bayram Vəli Həzrətləri ona təbəssüm edən bir üzlə belə demişdir:

"Zincirlə zorla gələn mehmanın qonaqlığı da belə olar"

Akşəmsəddin bundan sonra müəlliminin yanından heç vaxt ayrılmamışdır. Hacı Bayram Vəli Həzrətlərindən eşitdiyi və gördüyü hər şeyi qəbul etmişdi. Eşitdikləri və gördükləri şeylərin hikmətini özü də başa düşdüyünə görə tələbələr arasında xüsusilə seçilirdi. Bunun hesabına da o, Fateh Sultan Mehmedin müəllimi olmuş, həm də Hacı Bayram Vəli Həzrətlərinə vəkil olmuşdur.

**Müridlərini Qurban Verməsi..**

Hacı Bayram Vəli Həzrətləri Ədirnədən Sultan II Muradın böyük ehtiramı və fərmanı ilə geri qayıdır. Sultan bu fərmanda Hacı Bayram Vəli Həzrətlərinin tələbələrinin sadəcə elm ilə məşğul ola bilmələri üçün onların vergidən və əsgərlikdən

azad olunduqlarını bildirirdi. Bunu eşidən bir çox insan Allah rizası üçün olmasa da, sadəcə şəxsi mənfəətləri üçün gəlib Hacı Bayram Vəli Həzrətlərinə tələbə olmağa başlamışdılar. Nəticədə dövlətin Ankara bölgəsindən yığdığı vergilərdə azalma yaranmağa başladı. Gəlirlər azalmağa başladıqda Ankaranı idarə etmədə bəzi maddi problemlər ortaya çıxdı və hərbi sistem pozuldu. Bundan sonra Sultan, Hacı Bayram Vəlidən tələbələrinin siyahısını istəmək məcburiyyətində qaldı. Hacı Bayram Vəli öz tələbələrindən, hal-hazırda Etnoqrafiya Muzeyinin yerləşdiyi "Kanlı göl"-də yığışmalarını istədi. Kanlıgöldə böyük bir izdiham yaranmışdı. Hər kəs gözləyirdi ki, görəsən necə imtahan olacaq?! Meydanın ortasından bir çadır qurulmuşdu. Tələbələrinə belə dedi:

"Dərvişlərim, müridlərim! Mənə bu gün əmr olundu ki, məni sevən müridlərimi burada qurban kəsim!. Canını, malını mənə fəda edən çadıra girsin!"



Əlində bıçaqla çadırın içərisində gözləməyə başladı. Bu əsnada camaatın içərisindən bir oğlan izdihamı yara-yara içəri daxil oldu. Onun arxasınca da Hacı Bayram Vəli Həzrətləri girdi. Hamı maraqla nə baş verəcəyini gözləyirdi. Çadırın içərisindən çölə qanlar axmağa başlamışdı. Sonra içəri bir qadın girdi. Yenə də qan axmağa davam etdi. Bunu görən camaat dəhşətə düşdü və oradan qaçdı. Hacı Bayram Vəli Həzrətləri içəri girənləri kəsməmişdi. Gecədən çadırın içərisinə bir neçə qoyun salmışdı və kəsilən də həmən qoyunlar idi. Hacı Bayram Vəli Həzrətləri çadırdan çıxıb Sultana bir məktub yazdı və həqiqi tələbə sayının bir yarım olduğunu bildirdi.

Ədirnə **"Eski Came"**-dəki kürsü

Hacı Bayram Vəli Həzrətləri Ədirnədə qaldığı müddət içərisində tez-tez Sultan II Murad və vəzirləri ilə söhbət etmişdi. Eski Camedən də camaata çoxlu moizələr oxumuşdu. Hacı Bayram Vəli Həzrətlərinə hörmət əlaməti olaraq moizə oxuduğu kürsü hal-hazırda bağlıdır və heç kim oradan vəz oxumamışdır. Üstündə "Bura Hacı Bayram Vəli Həzrətlərinin

məqamıdır" - mənasına gələn ərəbcə bir yazı lövhəsi də mövcuddur.

Rəvayətə görə Sultan Əhməd Xan (I Əhməd) Ədirnəyə gəlir və cameni gəzir. Kürsünün niyə bağlı olduğunu soruşu və ona vəziyyəti danışırlar. Cümə günü kürsüdən moizə oxuyacağını bildirib, kürsünün açılmasını istəyir. Ondan xahiş edirlər ki, uzun illərdən bəri qalan ənənəni pozmasın. Ancaq o, sözlərə qulaq asmır və kürsüyə çıxır. Bəsmələ çəkib, vəzə başlamaq istəyir ancaq heç cür dilini tərpədə bilmir. Camaat uzun müddət onun moizəsini gözləyir. Bir müddət səssiz qalan Sultan Əhməd bu işə təəccüblənir və peşman olaraq kürsüdən aşağı düşür. O gündən sonra həmən kürsüyə moizə oxumaq üçün çıxan heç kim yoxdur.

**Bunu Biz İçək, Zərər Sahibinə Dəysin..**

Hacı Bayram Vəli Həzrətlərinin Ədirnəyə dəvət olunması bir xəbər vermə hadisəsindən sonra olduğu qeyd olunmuşdu. Sultan II Muradla ilk görüşdüyü əsnada xəbərçilik edən vəzir şərbət qədəhinin içərisinə çox qüvvətli zəhər atır. Sonra da qədəhdəki şərbəti içməsi üçün Hacı Bayram Vəli Həzrətlərinə uzadır. Hacı Bayram Vəli Həzrətləri qədəhi alır, bəsmələ çəkib belə deyir:

"Bunu biz içək, zərər sahibinə dəysin!"

Üç qurtumda şərtəbin hamısını içir. Vəzir qoyduğu zəhəri özü içmiş kimi birdən xəstələnir və şiddətli qarın ağrısı ilə yerə yıxılır. Ordaca öldür.

Rəvayətə görə vəzirlərdən Mahmud Paşa və hətta Sultan II Murad Hacı Bayram Vəli Həzrətlərinə bağlanmış və müridi olmuşlar.

İstanbulu bu beşikdə yatan uşaq fəth edəcək

Sultan II Murad Hacı Bayram Vəli Həzrətləri ilə Ədirnədə olduğu vaxt tez-tez görüşürdü. Ondan dünya və axirət barəsində suallar soruşmuş, tövsiyə və görüşlərini öyrən-

mişdi. İstanbulun fəthi Sultan II Murad Xan üçün çox vacib məsələ idi. Hz. Peyğəmbərin bu hədisi-şərifi bütün İslam komandirlərinin marağını İstanbula yönəltmiş, ancaq uzun mühasirələrə baxmayaraq heç biri müvəffəqiyyət qazana bilməmişdi:

***"Konstantiniyyə (İstanbulun o dövrdəki adı) mütləq fəth olunacaqdır. Onu fəth edən komandir nə gözəl komandirdir. Onu fəth edən əsgər nə gözəl əsgərdir!"***

II Murad da Peyğəmbərimizin tərifinə layiq olmaq üçün İstanbulu fəth etmə planları hazırlayırdı. Hacı Bayram Vəli Həzrətləri ilə bir görüşmə əsnasında bir beşik gətirdilər və Hacı Bayram Vəlinin yanına ehtiyatla qoydular. Hacı Bayram Vəli Həzrətləri diqqətlə beşiyə baxdı və "Fəth" surəsini oradakıların hamısının eşidə biləcəyi bir səs tonu ilə oxumağa başladı. Hamı təəccüblənmişdi. Çünki beşikdəkinin kim olduğunu bilmədən bu surəni oxumasına heç bir məna vermək olmurdu. Quran oxuması bitdikdən sonra:



-Bəyazid Xan əminiz və sizin mühasirəniz dövründə əldən gələn hər şey yerinə yetirilmişdir. Ancaq bəzi səhvlər olmuş və fəth reallaşmamışdı. Sultanım, sən Konstantiniyyəni ala bilməyəcəksən, lakin mütləq alınacaqdır. Bunu mən belə görməyəcəyəm. Bu beşikdə yatan uşaq və bizim Akşəmsəddin tərəfindən alınacaqdır"- dedi.

Sultan II Murad Xan bu böyük müjdəni aldıqda çox sevindi. Beşikdə yatan uşaq isə oğlu Şahzadə Mehmed idi. Sonra da Akşəmsəddini Mehmedin müəllimi qoydu. 1453-cü ildə İstanbulun fəthi əsnasında Sultan Mehmedin yanında olaraq, həm sultana həm də orduya böyük mənəvi dəstək verdi.

İstanbulun fəth olunması taktiki mənada böyük bir hərbi uğurdur. Böyük hazırlıqlar yerinə yetirildikdən sonra mühasirə başlamışdı. Sultan Mehmed ordusunu üç qismə bölmüşdü. İlk günlərdə könüllü olanlar Bizans surlarına qurudan hücum edir, dənizdən də "yalançı" hücumlar edərək Bizans ordusunu yerində qalmağa məcbur edirdi. Bu şəkildə Bizans

surlarının və ordusunun pozulmasını hədəfləyirdi. Sonrakı mərhələdə Osmanlı ordusuna köməyə gələn türk bəyliklərinin (Karamanoğlu, Aydınoğlu, İsfəndiyaroğlu) əsgərləri də orduya qoşuldu. Ən son mərhələdə isə ordunun həqiqi qüvvələri müharibəyə girişdi. Bu mərhələyə qədər Osmanlı ordusunun təlim görmüş birləşmələri heç döyüşə girməmiş və beləliklə də nizamlı şəkildə qalmağı bacarmışdılar. Ancaq mühasirənin uzanması və bir nəticə əldə olunmaması dövlət adamlarını ümidsizliyə düşürmüşdü. Bizanslılar su quyularına zəhər atmışdılar. Buna görə  də ordunun suyu bitmək üzrəydi. Avropadan əsgər və ərzaq gətirən gəmilər Osmanlı donanmasının müdaxiləsinə rəğmən şəhərə girmiş və bizanslılar bu yardımla böyük sevinc yaşamışdılar. Sultanın yanına gələn bəzi dövlət adamları:

"Bir dərvişin sözü ilə bu qədər əsgər itirdik. Bütün xəzinəni bitirdik. Bizansca kömək də göndərildi. Artıq fəthə ümid qalmadı!" - dedilər. Bunu eşidən Sultan Mehmed vəziri Vəliyuddin Əhməd Paşanı Akşəmsəddinin yanına göndərərək:

"Şeyxdən soruş, qalanın fəthi və düşmən üzərində qələbə qazanma ümidi varmı?" –dedi.

Akşəmsəddin də fəthə olan inamını bildirdi. Sultan Mehmed bu cavabla kifayətlənmədi və vəziri yenidən yollayaraq:

"Vaxtını təyin etsin!"-dedi. Akşəmsəddin bir müddət düşüncəyə daldı. Başını əyib Allah-Təalaya yalvardı və sonra dedi:

"Bu ilin cəmaziuləvvəl ayının iyirminci günü, səhər vaxtında inam və səylə filan tərəfə hücuma keçsinlər. O gün fəth ola! Konstantiniyyənin içi azan səsi ilə dola!"

Akşəmsəddin Həzrətlərinin tərif etdiyi yer hal-hazırda Topkapı surları idi. Akşəmsəddin Həzrətləri o gün bir çadır qurduraraq içəri heç kimin buraxılmamasını əmr etdi və Allah-Təalaya səcdə edərək dua etdi. Həqiqətən də o gün Osmanlı ordusu sabah vaxtlarında Topkapı surlarından şəhərin içinə

girdi. Beləliklə də İstanbulun fəthi və Hz. Peyğəmbərin böyük möcüzəsi həyata keçmiş oldu.

**Verən Əl Alan Əldən...**

Hacı Bayram Vəli Həzrətlərini hər il ramazan ayında tələbələri ilə bazara çıxıb tacirlərdən zəkat və sədəqə topladığı, sonra da bunları yardım məqsədi ilə istifadə etməsi barəsində, Hacı Bayram Vəlinin həyatından bəhs edən bölümdə təfərrüatlı şəkildə məlumat vermişdik. Yenə belə bir ramazan günündə zəkat yığarkən zəngin bir ağa gələrək Hacı Bayram Vəlinin tələbələrindən birini saxladı. Belindəki qurşağı açdı və içindəki bütün qızılları pul yığdığı kisəsinə boşaltdı. Hz. Peyğəmbərimizin:

***"Verən əl alan əldən üstündür"*** hədisi-şərifini yadına salıb, öz-özünə "mən Hacı Bayrmam Vəlidən daha üstünəm"-deyə fikirləşməyə başladı. Hacı Bayram Vəli Həzrətlərinə də onun bu halı məlum oldu və ona dedi:



"Xeyr, əfəndi! Burada verən əl alan əldən xeyirli deyil. Çünki burada alan əl özü üçün almır. Başqalarına vermək üçün alır. Burada alan əl verən əldən daha xeyirlidir!".

**Vəfatı**

Hacı Bayram Vəli Həzrətlərinin Ankarada vəfat edərkən son sözləri:

"Mənim namazımı Akşəmsəddin qıldırsın və cənazəmi yusun. Bu xəbəri ona çatdırın!". Bu sözləri dedikdən sonra da vəfat etdi. O əsnada Akşəmsəddin orada yox idi və harada olduğunu da heç kim bilmirdi. Tələbələri və Hacı Bayram Vəli Həzrətlərinin yaxınları nə edə biləcəklərini düşünməyə başladılar. Bəziləri belə dedi:

"Hacı Bayram Vəlinin bu sözləri ölüm anında söylənmiş sözlərdir və o, nə dediyini bilmirdi. Bu sözləri yerinə yetirməsək də olar!". O əsnada nə ediləcəyini heç kim bilmirdi. Anidən "Akşəmsəddin gəlir"-deyə bir səs eşidilməyə başlandı.

Camaat Akşəmsəddini qarşıladı və olanları danışdı. Bundan sonra Akşəmsəddin vəsiyyət olunduğu kimi Hacı Bayram Vəli Həzrətlərini yudu və namazını qıldırdı.

**Şeirlərindən bir parça (ilahi)**

*Bilmək istərsən səni*
*Can içrə ara canı*
*Keç canından bul onu*
*Sən səni bil, sən səni*

*Kim bildi əfalini*
*Ol bildi sifətini*
*Anda gördü zatını*
*Sən səni bil, sən səni*

*Görünən sıfatındır*
*Anı görən zatındır*
*Qayri nə hacətindir*
*Sən səni bil, sən səni*

*Kim ki, heyrətə vardı*
*Nura müsəğtaq oldu*
*Tövhidi zatı buldu*
*Sən səni bil, sən səni*

*Bayram özünü bildi*
*Biləni anda buldu*
*Bulan ol, kəndi oldu*
*Sən səni bil, sən səni*

Bu şeirin izahı belədir:

1. Hacı Bayram Vəlinin burada iki fərqli "səndən" bəhs etdiyi görülür. Bunlardan biri nəfs dediyimiz bəşəri "məndir". Digəri isə ruh dediyimiz "məndir". İnsanın Allahdan gələn ilahi yönə çatması üçün nəfsindən uzaqlaşması, o yönünü aşması zəruridir.

2. Canından keçən insan öz həqiqi varlığına çatır. "Sən səni bil, sən səni"-misrası sanki bu sözü xatırladır. "Özünü bilən Rəbbini bilər". Çünki insanın özü ilahi əslə bağlıdır. Oradan gəlmişdir və oraya dönəcəkdir.

3. Etdiyi əməllərin həqiqi mahiyyətini bilən insan o işlərin insandakı hansı vəsfin, hansı xüsusiyyətin nəticəsində olduğunu da bilir.

4. Sifətini (vəsfini) bilən insan, vəsfin istinad etdiyi yeri də bilir ki, o da insanın özü, yəni öz zatıdır.

5. Bir kimsə öz sifətini zatı vasitəsilə görür, yəni o sifəti düşünür. Düşünmə xüsusiyyəti zatın özündə mövcuddur.

6. Əgər özünü bu daxili bəsirət ilə görə bilsən, əslinə çatarsan. Başqa bir şeyə ehtiyacın qalmaz. İnsan özündən uzaqlaşarsa özünü tanımaz, əslini bilməz. Əgər insan sifət, feil çoxluğundan xilas olub zattakı vəhdətə, yəni təkliyə çatarsa öz əslinə qovuşmuş olar. Mənəvi rahatlıq da bu mərhələdədir.



7. "Heyrət" məqamına çatmaq bir növ insanın özünü itirməsidir. Beləliklə də ağlın aşıldığı bir hal əldə olunur. Allahın varlığını dərk edən insan artıq nurani aləmə dalmış kimidir. Başdan-ayağa qədər nur olmuşdur. Yəni, həqiqət işığını tapmış və ona çatmışdır.

8. Bax məhz bu nura dalan kimsə, artıq zata aid olan tövhidə də çatmış, zati təcəllalara məruz qalmış deməkdir. "Zat" bilinməz olduğuna görə, ancaq hissiyyat yolu ilə onun bilgisinə çatmaq mümkündür. Allahın "zatındakı" bilinməzlik halı, zatı başa düşən insana keçər və bir növ "heyrət" halı yaranar. Yəni ağlın aşıldığı hal əldə olunar.

9. Hacı Bayram Vəli özünü tanımış və "yadlaşmadan" qurtularaq, ikilikdən (dualizm) xilas olmuş, tövhidə qovuşmuşdur. Bu halda o, həm bilən həm də bilinən olmuşdur. Bilən ilə bilinən dualizmi yox olmuş, tövhid yaranmışdır.

10. "Tapan" yenə elə Hacı Bayram Vəlinin özü olmuşdur. Bu dünyada həqiqəti tapa bilməyən, həqiqəti görməyən insan-

lar axirət dünyasında da qaranlıqda yaşayacaqlar. Bu dünyada özündən uzaq qalan insan, axirətdə bu uzaqlaşmağın cəzasını ödəyəcəkdir. Təbii ki, özünə çatmağın birinci şərti İslam dininin qaydalarını tam olaraq yaşamaq və bu şəkildə nəfsani duyğulardan təmizlənməkdir. İslam dinini tam yaşamayan kimsələrin öz həqiqətinə dönməsi qeyri-mümkündür. Qısacası özünə qayıdış yaşayaraq əldə olunur. Bir sufinin mənəvi olaraq təkamül edərkən müxtəlif məqamlardan keçdiyini, müxtəlif gizli halları öyrəndiyini bilirik. Bunlar hamısı yaşayaraq əldə olunan təcrübələrdir. Hacı Bayram Vəli Həzrətləri də bu mənəvi təcrübələri öz şeirində bu şəkildə izah etməyə çalışmışdır. Bu təcrübələrin həqiqi mahiyyəti "nədir", "necədir", bunlar bizə məchuldur.

**İlahi Zikir**

*1. Nooldu bu könlüm, nooldu bu könlüm?*
*Dərdü-qəm ilə doldu bu könlüm*

*2. Yandı bu könlüm, yandı bu könlüm*
*Yanmada dərman buldu bu könlüm*

*3. Gərçi ki, yandı gerçəyə yandı*
*Rənginə eşqin cümlə boyandı*

*4. Özünü tapdı, özünü tapdı*
*Mətləbin boş buldu bu könlüm*

*5. əl-fəqru fəxrii, əlfəqru fəxri*
*Demədimi aləmlərin fəxri*

*6. Fəqrini zikr et, fəqrini zikr et*
*Məhvu-fənada buldu bu könlüm*

*7. Sevdayi-əzəm, sevdayi-əzəm*
*Mənə olubdur ərşi-müəzzəm*

*8. Məskəni-canan, məskəni-canan*
*Olsa əcəbmi, indi bu könlüm*

*9. Bayrami indi, bayrami indi*
*Yar ilə bayram eylədi şimdi*

*10. Həmdü-sənalar, həmdü-sənalar*
*Yar ilə bayram etdi bu könlüm*

Yuxarıdakı şeirin izahı isə belədir:

1. Hacı Bayram Vəli könlündə daxili dünyasında meydana gələn dəyişikliyi izah edir. Ağıl düşünmə, könül və sevmə məkanıdır. Onun müqəddəs könlü Mövlasının eşqinə düşmüş, o eşq ilə tutuşub-yanmaqdadır. Sevdiyi Mövlasının dərdi ilə daxili aləmi ilə məşğul olmaqdadır. Buradakı dərd sevgilidən uzaq qalmağın verdiyi acıdır. Allaha ən çox aşiq olanlar, Onu ən çox sevənlərdir.

2. Burada daxili aləmin ayrılıq atəşi ilə yandığını bildirən Hacı Bayram Vəli bu atəşin onu kamilləşdirdiyini bildirir. Yanıb-tutuşmaqda şəfa olduğunu söyləmək istəyir.

3. Könlüm bu eşq atəşi ilə nə qədər yansa da bu yanma maddi bir mənfəət üçün yox, mütləq gözəllik sahibi olan Allah-Təala üçündür. Yəni boş yerə yanma deyil, faydalı yanmadır. Hacı Bayram Vəli bu şəkildə yanmağın bütün vücudu sardığını, başdan-ayağa qədər Allah sevgisi ilə dolduğunu bildirir.



4. Allahı zahirdə yox, iç dünyasında tapdığını söyləyir. Möminin qəlbi Allahın evidir. İnsan öz daxili dünyasını təmizləyə bilərsə orada Allahı tapar.

5. Bu misralarda Hacı Bayram Vəli “fəqr” və “məhv” kimi hallardan bəhs edir. İnsanın sırf Allaha möhtac bir hala gəlməsi, onu digər insanlara möhtac olmaqdan xilas edir. Fəqrdə insanın həqiqi hürriyyəti vardır. Bu vəziyyətdə olan kimsə həqiqi bəndəliyə yaxınlaşmış olur. Hər şeyi Allahdan bilir. Allahdan başqa hər şeyin müvəqqəti və fani olduğunu görür. Hacı Bayram Vəli Həzrətləri burada Hz. Peyğəmbərimizin “fəqirlik mənim fəxrimdir” hədisi-şərifini xatırlatması, Peyğəmbərimizi hər məsələdə nümunə götürdüyünü göstərir.

6. "Fəqrini zikr et!" –sözünün mənası insanı öz heçliyini anlamasıdır. Bu məqamda olan kimsə nəfsini yox bildiyinə görə, nəfsinə aid olan mənfi yönləri də silib ortadan götürər, əvəzinə müsbət xüsusiyyətləri qoyar. İnsanın yaxşı xüsusiyyətləri qazana bilməsi üçün nəfsini bu şəkildə tərbiyələndirməsi zərurudir. Təsəvvüf də bu əxlaqi təmin edən bir yoldur.

7. İnsanın daxili dünyasında müxtəlif aləmlər mövcuddur. Bunu dərk edən insan nə qədər böyük bir varlıq olduğunu da dərk edər. İnsan Allahın yer üzündəki xəlifəsi olduğuna görə xəlifənin də çox mühüm bir varlıq olması lazımdır. Bu məqama çatmış insan elə bir insandır ki, bütün aləmləri hiss edə bilər, bəşəri və maddi bağlardan sıyrılıb ilahi mahiyyətdə bir varlığa bürünər.

8. Hacı Bayram Vəli Həzrətlərinin qəlbi artık Allahın evi olmuşdur. O, ehsan mərtəbəsinə (Allahı görürmüş kimi davranma mərhələsi) çatmış və hər an Allahı görürmüş kimi ibadət etmə şüuruna sahibdir. Bu vəziyyətdə olan kimsə daima bərabət olduğu Allahın istəyi şəklində əxlaqlanır, qəlbi də Allahın evi olur.

9. Şeir parçası (ilahi) demək olar ki, başdan-ayağa Hacı Bayram Vəlinin keçirmiş olduğu təsəvvüfi təcrübələri izah edirdi. Bu misrada isə artıq o, Sevgilisinə, yəni öz Mövlasına qovuşmuşdur. Allaha vüslat (qovuşma) isə Hacı Bayram Vəli üçün çox böyük bir bayramdır. Həmən vüslata Mövlana Cəlaləddin Rumi isə "şəbi-ərus" (toy gecəsi) adını vermişdir. Allaha aşiq olan kimsəyə bu dünya içindəki çətinliklər mənasız görünər, narahatlıqlardan xilas olar və hər gününü bayram sevinci içərisində keçirər.

10. Bu misrada Hacı Bayram Vəli özünü bu məqama çatdıran Uca Allaha həmdü-səna edir. Allaha vüslat məqamı təsəvvüfdə ən yüksək məqamdır.

## İlahi Təqsim

1. Çalabım bir şar yaratmış
İki cahan arasında

2. Baxacaq didar görünür
Ol şarın kənarəsində

3. Nagəhan bir şara vardım
Onu mən düzələn gördüm

4. Mən də beləcə yarandım
Daşla torpaq arasında

5. Şagirdləri daş yonarlar
Yonub ustada sunarlar

6. Mövlanın adın anarlar
Daşın da hər parəsində

7. Ol şardan oxlar atılar
Gəlib sinəmə batılar

8. Aşiqlər canı satılar
Ol şarın bazarəsində

9. Şar dedikləri könüldür
Nə alimdir, nə cahildir

10. Aşiqlər qanı səbildir
Ol şarın kənarəsində

11. Bu sözümü arif anlar
Cahillər bilməyib danlar

12. Hacı Bayram özü banlar
Ol şarın minarəsində

İzahı isə belədir:

1. Çalab - Allah deməkdir. Allah isə iki cahan arasında bir şəhər yaratmışdır. Bu şəhər insanın könlüdür, qəlbidir. Bir yönü maddi aləmə, digər yönü isə axirətə baxar.

2. Allah ağılla dərk olunmaz, ancaq qəlb gözü ilə sevilər. Yəni Allahı anlama yeri qəlbdir. Allahın qəlbdən bu şəkildə görülə bilməsi mümkündür ki, bu ağılüstü (fövqəlağıl) bir görmədir.

3. Hacı Bayram Vəli Həzrətləri anidən bu şəhərə girdiyini söyləyir. Yəni təsəvvüfi tərbiyəyə addım atmasından bəhs edir. Hacı Bayram Vəliyə görə, qəlbinin daimi inkişaf halında olması mənəvi təkamülündən xəbər verir. Bu yönəlmə könlün, yəni qəlbin nöqsanlıqlardan, nəfsani duyğulardan təmizlənərək müsbət yönə doğru istiqamətlənməsi deməkdir.

4. Hacı Bayram Vəli "mən daşla torpaq arasında yaradıldım"-deyir. Daş –insandakı mənfi yönləri, torpaq isə yaxşılıqları və gözəllikləri ifadə edir. Bu iki yönün tənzim olunması qəlbin kamilləşməsi, onun inşa olunması deməkdir. Hacı Bayram Vəli Əbu Həmidin nəzarətindəki mənəvi təkamülü daş və torpaq arasında olmaq kimi izah edir. Bu ifadədə həmçinin torpaqdan ruhun təkamül etdiyini, daşdan isə nəfsin təkamül etdiyini başa düşmək mümkündür.



5. Şagirdlərin daş yontması nəfsi mənfi xüsusiyyətlərinin ortadan qaldırılması, mənfi əxlaqı tərk etmək deməkdir. Şeyx öz tələbəsinin mənəvi təkamülünə daim nəzarət edir. Hacı Bayram Vəli də ona verilən təsəvvüfi vəzifələri yerinə yetirmiş, yerinə yetirdikcə də onu öz şeyxinin, yəni Əbu Həmidin ixtiyarına vermişdir.

6. Daşı yonarkən, yəni qəlbi təmizləyərkən metod Allahın adını zikr etmə metodudur. Zikr – xatırlamaq mənasına gələn bir Quran ifadəsidir. Bir kimsə xatırladığını düşünür, düşündükcə sevə, yaxud da sevdiyini düşünər və düşündükcə xatırlayar. Zikrin Allaha çatdırmadakı əsas məqsədi də budur. Hər zaman Allahı düşünmək, düşüncə və ruhi mənada Onunla birlikdə olmaq insanı ehsan mərtəbəsinə çatdırar. Bax, daimi zikr ehsanın ortaya çıxmasını, o da Allahı sevməyi və gözəl əxlaqlı olmağı təmin etməyi öyrədir.

7. Qəlbin şəhərindən oxun atılması və onunla da qəlbin yanması Allah eşqi uğrunda kimsələrin çətinliklərinin artması deməkdir. Allah da bu metodla, bəndəsinin Onu həqiqi mənada sevib-sevmədiyini imtahan edir. Buna görə də bəzən onları çətinliklərlə qarşılaşdırır, onlara xəstəliklər göndərir.

8. Hacı Bayram Vəli burada Allah eşqi ilə candan belə keçməyin zəruriliyini vurğulayır. İnsanın canı onun hər şeyidir. Onu fəda edə bilməsi, hər şeyini fəda etməsi mənasına gəlir. Allahı sevmək, lazım gələrsə bu yolda canını verməyi zəruri qılar. Bu misralarda qəlbin bazara bənzədilməsi və orada canın satılması, Quranda da Allahın razı olduğu kimsələr haqqında alver hadisəsinə bənzəyir. Tövbə surəsi 111-ci ayədə "Allah cənnət əvəzində canlarını və mallarını satın aldı"-buyurulmaqdadır.



9. Şar qəlbdir. İnsan qəlbi bir şəhərə bənzər. Şəhər çox geniş bir sahəni əhatə edir və içərisində hər şey vardır. Könül də o qədər böyükdür ki, yerə göyə sığmayan məkan Allahı sevən mömin qulun qəlbinə sığışar. Ancaq könüldə elm və onun ziddi olan cəhalət olmaz. Orada hissiyatla əlaqəli olan irfan və inkar mövcuddur. Allah da qəlbəki sezgilərə istinad edən irfan ilə bilinə bilər. Bu elmin təməlində Allah sevgisi və sevginin qəlbdə meydana gətirdiyi sezgi dayanır. Hacı Bayram Vəli burada Allahı bu yolla anladığını, elm və onun ziddi olan cəhalətin bir qəlb məsələsi olmadığını vurğulayır. Çünki elm beyinə aid olan bir prosesin nəticəsidir və bu fəaliyyət insanı Allaha aparıb-çıxarmaz.

10. Könül evinin, daha doğrusu könül şəhərinin kənarında, yəni bazarında aşiqlərin qanı axar. Yəni, canın burada heç bir əhəmiyyəti yoxdur. Bunun uğrunda çoxlu Allah dostu öz canını fəda etmişdir.

11. Hacı Bayram Vəli təsəvvüf elmindəki "dadmayan bilməz" prinsipinə işarə etmişdir. Təsəvvüfdə bu sevgi, ölüm, hər şeyini fəda etmək, fəna, bəqa kimi halların başa düşülməsi ancaq onların yaşanması ilə mümkündür. Yaşamayan cahillər boş yerə danışırlar.

12. Bundan sonrakı misralarda Hacı Bayram Vəli Həzrətləri "mən təsəvvüfi təcrübələri yaşadım və bu şeirlərimlə bunları sizə izah edirəm"-deyir. Könül şəhərinin küçələrini qarış-qarış tanıyan Hacı Bayram Vəli şəhərin minarəsinə çıxaraq, yəni şeyxlik məqamını əldə edərək, öyrəndiklərini digər insanlara da öyrədir, onları doğru yola çağırır.

**İlahi Səs**

1. Heç kimsə çəkə bilməz
Yaxşıdır fələyin yayı

2. Dərdinə könül vermə
Bir gün götürür vayı

3. Gəlir gülə-oynaya
Aldadır səni tezdir

4. Bir bu qədərcik fitnə
Harda tapar arayı

5. Bir fani vəfasızdır
Sözünə inanma heç

6. Gah yoxsulu bəy edər
Gay yoxsul edər bəyi

7. Çünki üzün çevirdi
Bir an belə qərar etməz

8. Necə səri pay edər
Dönər sər edər payı

9. Denir vahid vəhdətdə
Kəsrətdə hanı təfriq

10. Xızr ermədi bu sirrə
Bildirmədi Musanı

11. Heyran bütün alimlər
Bu mənanın altında

12. Qafdan qafa hökm edən
Anlamaz bu müəmmanı

13. Miskin Hacı Bayram sən
Dünyaya könül vermə

14. Bir ulu imarətdir
Alma başa sevdanı

Bu şeir parçasının izahı belədir:

1. Hacı Bayram Vəli bu misrada dünya deyilən imtahan yurdunun müxtəlif çətinliklərlə və əziyyətlərlə dolu olduğunu ifadə edir. Qurani-Kərimdə isə Allah-Təala Bəqərə surəsinin 155-ci ayəsində **"Əlbətdə ki, biz sizi bir az qorxu, bir az aclıq və mallardan, canlardan, ruzilərdən əskiltməklə imtahana çəkərik. Səbr edənlərə müjdə ver!"** – buyurmaqdadır.

2. Dünya işlərinə çox da dalma. Onun məşəqqətlərindən özünü qoru, onun malına-mülkünə, bəzək-düzəyinə çox da aldanma. Çünki hamının sonu "vay"-dır. Yəni peşmanlıqdır.

3. Dünyanın üzü şirindir. İnsanın özünə cəlb edən pulu, qızılı, paltarları, bəzəkləri və müxtəlif malları vardır. Dünyaya dalan insan axirətini unudar. Buna görə də dünya sürətlə, belə insanları özünə çəkər.

4. Dünya o qədər fitnələrlə doludur ki, bunlara dözə bilməyən nə çox fəryadlar yüksəlir. İnsanların əksəriyyəti dünyaya aldanır.

5. Dünya müvəqqətidir, fanidir. Ona bağlananlara qarşı vəfası yoxdur. Onu ancaq qəbrə qədər izləyər, ancaq onu çox sevən insanı orada qoyar. İnsan qəbrdə tək qalar.

6. Dünya o qədər vəfasızdır ki, bir də görürsən ki, kasıbı zəngin etmişdir, zəngini də kasıb etmişdir. Heç bir düzəni və qərarı yoxdur. Buna görə də zənginliyə güvənmədiyin kimi, kasıblıq üçün də kədərlənməyə dəymir.

7. İnsana üzünü çevirəndə əlindən gələn hər şeyi edər və axirəti unutdurar. Buna görə də dünya ikiüzlüdür. Dünyaya güvən olmaz.

8. Dünya nə qədər "ayağı" (alçağı) "başa" keçirmişdir, bəzən də "başları" ayağa salmışdır.

9. Vahid bir vəhdətdədir. Kəsrət (yəni çoxluq) düşünüləndə ortadan qalxar. Arada heç bir fərq qalmaz. Allahın birliyi ilə yanaşı bu dünyanın çoxluğu. Bir olan Allah çoxluqda da özünün vəhdətini göstərməkdədir. Ancaq bu ikisinin arasındakı fərqi necə başa düşmək olar?

10. Bu sirri Xızır belə başa düşmədi. Allah Musaya bildirmədi. Təklikdə təklik ilə çoxluqda təkli arasındakı fərq nədir? Ən üstün insanlar belə bunun sirrinə nail ola bilmədi. Dünya çoxluğunda Allahın təcəlla etməsi bu təcəlla olmadan da bir olması... İkisi də eyni nəticəyə aparıb çıxarır, ancaq arada incə sirr kimi fərq nədir?



11. Bunun ifadə etdiyi məna o qədər dərindir ki, çox bilikli olan kimsələr belə bu işin mahiyyətini dərk edə bilmədilər.

12. "Qafdan qafa hökm edən"-demək, yəni bütün dünyanı idarə edən deməkdir. Belə hökmdarlar belə dünya və onun ifadə etdiyi vəhdət sirri məsələsində acız qaldılar. Dünya ilə iç-içə olanlar və dünyanı ən yaxşı tanıyanlar belə bu məsələdə çarəsiz qaldılar.

13. Ey Hacı Bayram Vəli! Dünyanın halı belədir. Elə isə bu vəfasız dünyaya qəlbini bağlama, ona könül vermə. Ona aldanma. Təsəvvüfdə insanı Allaha aparmağa mane olan hər şeyə dünya deyilir. Bu baxımdan Hacı Bayram Vəli Həzrətləri özünə "dünyaya bağlama, ona tapınma, sadəcə Allahı bil, Ona qul ol!" –deməkdədir.

14. Sevda ən böyük imarətdir. Allahdan başqa bu böyük imarət yeri olan dünyaya meyl etmə, bu dünyanı sevmə. Hacı Bayram Vəlinin həm dünyadan uzaq qalması, həm də dünyada yaşaması qəlbən vəhdəti cismən də kəsrətdə vəhdəti ya-

şamasından başqa bir şey deyil. Çünki mütəsəvviflərə görə dünya bel bağlanılacaq bir yer deyil. Ancaq dünyanın emar olunması da rədd olunmamışdır. Hacı Bayram Vəli tərəfindən dünyəvi sosial fəaliyyətlər (istehsal, əkinçilik, heyvandarlıq, kasıblara yardım etmək) xüsusulə təşviq olunmuş və çalışmaq tövsiyə olunmuşdur.

**Nəsihətlər**

Konstantiniyyə mütləq alınacaqdır, ancaq bunu bir qəzəb və hiddət işi halına gətirməmək, sadəcə bir xəstəliyi sağaltmaq məqsədilə yerinə yetirmək lazımdır. Hiddət və kin həqiqətə baxan gözləri kor edər.

Camaat içərisində Allahı çox zikr edin. Bu vəziyyət mənəviyyatı yüksəldər, qatılaşmış qəlbləri yumşaldar.

Heç bir günahı kiçik görməyin. Boş qalmayın, çox çalışın. Çalışanları Allah sevər. Boş-boş gəzənlər zəngin olsalar da yoldaşları şeytan, qəlblərində şeytan qonaqdır.

Harada olsanız-olun, Allahın sizi gördüyünü unutmayın. Allahdan qorxun və pisliklərdən çəkinin!

Hara səni dünyaya cəzb edirsə, sənə Allahı unutdurursa o yerə sənin həlak olman üçün hazırlanmış bir tələdir.

Hara səni Allaha yönəldirsə, səni düşündürürsə ora cənnətə getmən üçün hazırlanmış bir yerdir.

Əmanəti qoruyun. Çünki din də sizə bir əmanətdir, bədən də.

Hər namazın sonunda sizə xoş görünən bir ibadəti adət halına gətirin. Məsələn, tövbə-istiğfar etmək, bir surə yaxud ayə oxumaq, Allahı zikr etmək və s.

Azan başlayanda camidə olun, cahillər sizdən irəlidə olmasın

Hər ayın tək günlərində və ya ən az birində, on beşində və sonunda olmaqla oruc tutmağa çalışın.

Əsla ölümü unutmayın, hər gecə onu yada salın, hesabınızı fikirləşin. Ola bilsin ki, siz tövbə etdiyinizə görə Allah da sizi əvf edər.

Nəfsinizi həmişə kontrol edin. Düşünün. Onu başıboş qoymayın. Çünki o, fürsət düşən kimi sizi atəşə aparır.

Əsla dünyəvi olan bir şeyinə güvənmə. Çalışıb halal ruzi qazan. Qazandıqlarından kasıblara comərd şəkildə payla.

Təhsili kimdən almısansa, həmişə onun üçün Allahdan əvf və məğfirət istə.

Başqalarından daha çox çalışıb, daha çox elm təhsil edin.

Əvvəlcə elm təhslil edin, sonra da halal ruzi qazanıb evlənin.

Elmi bir məsələdə mahiyyətini dərk etmədən qərar verməyin. Zahirə aldanmayın.

Başqalarından daha çox ixlaskar və daha çox ibadət etmədikcə, başqalarından daha çox ehsan etmədikcə rahat olmayın.

Qəbrləri tez-tez ziyarət edin. Beləliklə dünya qəmindən və nəfsin aldatmalarından xilas olarsınız. Çünki nəfsin tək qorxduğu və aldadılmadığı yer qəbristanlıqdır. Bir gün ölmüş olacağını və əzab görəcəyini yaxşı bilir.

Möhtərəm insanların qəbrlərini ziyarət edin. Bu zəhmətinizə görə onlar sizə şəfaətçi olarlar.

Bütün işlərinizdə xəsislikdən çəkinin. İnsanlığınızı tərk etməyin. Gözəl xasiyyətli və mərhəmətli olun. Vəziyyətiniz necə olursa-olsun dünyaya rəğbət göstərməyin. Pisliklərdən uzaqlaşın.

Həmişə nəsihət edin.

Oyun oynanan yerlərə getməyin.

Ailə içərisində ədəbə riayət edin.

Ayıblarını gördüyünüz qonşularınızı qınamayın. Sirrləni açmayın. Çünki gördüyünüz sir sizə bir əmanətdir. Əmanətə xəyanət isə pis bir əməldir.

Həddindən artıq gülməyin, çünki çox gülmək qəlbi qaraldar. Sakit və ağır olun. Yeriyərkən başınız önə baxar şəkildə yeriyin və tələsməyin.

Bunu yaxşı bilin ki, qəzəb düşüncəni və müsbət düşünməyi daraldır. Nəticədə insan aldanır.

Danışarkən "guruldamayın". Bağırıb-çığıraraq danışmayın. Yüksək səslə danışmayın.

Allaha üsyankar olan heç kimə kömək etmə.

Ədalət gözəl davranışdır, ancaq idarəçilərdə olarsa daha da gözəldir. Comərdlik gözəl davranışdır, ancaq zəngin insanda olarsa daha da gözəldir. Səbr gözəldir, ancaq kasıb insanlarda olarsa daha da gözəldir. Tövbə gözəldir, ancaq gənclərdə olarsa daha da gözəldir. Utanmaq gözəldir, ancaq xanımlarda olarsa daha da gözəldir.

Dövlət adamları ilə münasibətlərinizdə oddan istifadə edərkən necə davranırsınızsa elə davranın. Üşüməyəcək qədər uzaq, yanmayacaq qədər yaxın olun.

Böyüklərinizin yanına girərkən onların qiymətini bilin.

Elmdə hüquqi məsələlərdə sənə təklif olunan işlər ancaq özünə uyğun olanları qəbul et ki, nəticədə başqa bir fikri müdafiə etmək məcburiyyətində qalmayasan.

Cahil insanlar içərisində nə gülün, nə də gülümsəyin.

Cahil insanlardan uzaq durun, onlarla mübahisə etməyin.

Çox danışmayın, sualların cavablarını bilirsinizsə cavab verin. Mənbələrinizi göstərin ki, sizə qulaq asanlar şübhələnməsinlər.

Avam və zənginlər arasında dini və zəruri bilgiyə dair söz danışmaqdan uzaq durun. Çünki zənginliyə və mala qarşı zəifliyin varmış kimi başa düşülər.

Balaca uşaqlarla xoş rəftar edin, onları sevindirin. Bu, Peyğəmbərimizin əmridir.

Yolun ortasında dayanmayın.

Ağ geyinməyi adət halına gətirin. Çünki bu sizi daha diqqətli edər.

Padşahın qarşısında belə olsanız, haqqı və həqiqəti söyləməkdən qorxmayın

Padşah sizin xoşlamadığınızı, dininizə tərs düşən işə təyin edərsə qəbul etməyin.

Bu gözəl nəsihətlərin hər biri əslində bir hədisi-şərifin tərcüməsi kimidir.

**Sultan II Murad Xana Nəsihətləri**

Hacı Bayram Vəli Həzrətləri Ədirnədən ayrılarkən ondan nəsihət almaq istəyən Sultan II Murad Xana belə nəsihət etmişdir:

Təbəənin içərisində hər kəsin yerini bil, müvəffəq olanlara hədiyyə ver. Elm sahiblərinə hörmət et.

Qocalara hörmət, gənclərə sevgi göstər. Xalqa çox yaxınlaş. Fasiqlərdən uzaqlaş. Yaxşı insanlarla dost ol. Heç kimi alçaq görmə. İnsanlığında nöqsana yol vermə, sirrini heç kimə açma, xəsis və alçaq insanlarla yoldaşlıq etmə. Pis olduğunu bildiyin heç bir adamla ünsiyyət qurma. Səndən bir şey soruşduqda onların başa düşə biləcəyi şəkildə izahat ver.

Səni ziyarət etməyə gələnlərə elm öyrət ki, faydalansınlar. Hamı öyrətdiyin şeyləri başa düşüb, həyata keçirsin. Bəzən onlara yemək qonaqlığı ver. Ehtiyaclarını ortadan qaldır. Onların dəyər verdiyi şeyləri yaxşı bil və nöqsanlıqlarına qarşı görməzlik et.

Xalqa qarşı mərhəmətli davran, xoşrəftar ol.

# İMADƏDDİN NƏSİMİ ﷲ

(d. 1369 / v. 1417)



İmadəddin Nəsimi, doğulduğu tarix və yer, milli kimliyi, dini baxımdan mövqeyi, fəlsəfi düşüncələri və s. xüsusiyyətlərindəki ziddiyyətlərlə dolu bir şəxsiyyətdir. Tarixin şahid olduğu bir sıra dahilər kimi, Nəsimi haqqında da birmənalı mövqeyə sahib olmaq qeyri-mümkündür. Nəsiminin düşüncə dünyasının, onun içərisində yer aldığı "Hürufi" perspektivdən ayrı ələ alına biləcəyini düşünmək doğru olmaz. Buna görə də, əvvəlcə Hürufilik kimi tanınan dini-fəlsəfi nəzəriyyənin xüsusiyyətləri izah olunmalıdır.

Hürufilik çox müxtəlif şəkillərdə tərif olunmuşdur. Bəzi tədqiqatçılara görə bir din, bəzilərinə görə isə sadəcə bir məzhəbdir. Ancaq bütün bu ziddiyətlərə baxmayaraq, tədqiqatçıların birləşdiyi ortaq nöqtə hürufiliyin hərflərlə olan əlaqəsidir. Müxtəlif qaynaqlarda keçən hürufilik təriflərindən bir neçəsini aşağıdakı şəkildə sadalaya bilərik;

"Hürufilik: Fəzlullah Hürufinin, hərflərin sirlərinə aid nəzəriyyəni qəbul edən təriqət və salikləri", "Hürufilik, hərflərdən dini mənalar çıxardan İran batiniliyi..., hürufilik, ümumi mənada hərfçilik (hərflərdən mənalar çıxarmaq)" deməkdir.

Tarix nöqteyi-nəzərindən məsələyə baxıldıqda, hərf və rəqəmlərə xüsusi mənalar vermənin ilk nümunələrinə Pifaqorun əsərlərində rastlanır. Ancaq hərfçilik və hərflərin ilk mənalarının İslam düşüncə tarixi içərisində nə vaxt ortaya çıxdığı məsələsi barəsində fərqli görüşlər mövcuddur. Əslində hərflərlə əlaqəli ilk anlaşılma problemini Qurandakı bəzi

surələrin əvvəlində işlənən "hürufi-müqəttəə"lərdə müşahidə edirik. Hərflərə müxtəlif və çox vaxt da sirli mənalar vermə məsələsi səhabə dövründə başlamışdır. Hətta Hz. Əlinin "Quran Fatihədən, Fatihə bəsmələdən, bəsmələ "bə" hərfindən ibarətdir. Mən isə o "bə" hərfinin altındakı nöqtəyəm" sözü də bu mənada çox məşhurdur.

İslam düşüncə tarixinin sonrakı dövrlərində isə hərflərə mənalar yükləmənin ilk nümunələrinə Həllac Mənsurun (ö. 922) əsərlərində rastlanır. O, ayələrə və ayələrdəki hərflərə verdiyi mənalar və hamı tərəfindən qəbul olunan izahlardan fərqli yorumlara  görə həbsə atılmış və sonra qətl edilmişdir.



Əslən Əndəlüslü olan İslam mütəfəkkiri Mühyiddin ibn Ərəbi (1165-1240) *"əl-Fütühat əl-Məkkiyyə"* adlı əsərində hərfçiliyin müxtəlif şəkillərini təzahür etdirmişdir. Hətta burada "İsəvi elmin hüruf elmi olduğunu" yazaraq, sanki sonradan ortaya çıxacaq Hürufiliyin bəzi xüsusiyyətlərini xəbər verirdi. Məsələn, həmən əsərdə qeyd olunurdu ki, "hərflər, millətlərdən bir millətdir və ilahi vəzifə ilə məsuliyyət daşıyır. Onlara, özləri kimi rəsullar gəlmişdir".

Hürufilik əsas xüsusiyyətləri baxımından dörd başlıq altında sinifləndirilə bilər:

1. İnsanın ən ülvi xoşbəxtliyini təmin edən, vəzifələrini bildirən, başımızın üstündəki göy və ayaqlarımızın altındakı yerin, bir sözlə hər şeyin mahiyyətini bildirən sirr elmi mövcuddur.

2. Bu sirli elm Qurandadır. Ancaq bu sirlərin açarı Fəzlullahdadır. Ondan sonra da onun xəlifələrinə, onlar vasitəsilə də möminlərə bildirilmişdir.

3. İnsan əhsəni-təqvim (ən mükəmməl şəkildə) olan varlıqdır. Buna görə də Tanrını təzahür etdirir. Mələklər də insana ehtiram göstərirlər. Şeytan bu mükəmməl varlıq qarşısında boyun əymədiyinə görə cənnətdən qovulmuşdur.

4. Quran və onun bildirdiyi dini ibadətlərdə (namaz, oruc, həcc və sairə) sonsuz və dərin mənalar gizlidir.

Con K. Birge hürufiliklə əlaqəli əsərində hürufiliyin əsas prinsiplərinin İslami prinsiplərdən qaynaqlandığını, amma onlara yeni mənalar və təvillər (izahlar) gətirərək dəyişdirildiyini qeyd etmişdir. O, hürufiliklə əlaqəli görüşünü aşağıdakı kimi əsaslandırır:

Bilindiyi kimi İslamın birinci şərti kəlmeyi-şəhadət gətirməkdir. Yəni Allahın birliyinə və Hz. Məhəmmədin (s.ə.s) onun peyğəmbəri olduğuna şahidlik etmək və bunu dil ilə açıqlamaqdır. Allahın adı beş hərfdən ibarətdir. Hər bir hərf incələndikdə ortaya 14 hərf çıxar. Eyni şey Məhəmməd kəlməsində də mövcuddur. Bu ikisini topladıqda isə 28 rəqəmi çıxır. Bu ərəb əlifbasının hərf sayını bildirir. "Əşhəd" sözü isə ərəb dilində 4 hərflə yazılır və bu ikisini topladıqda isə 32 hərf olur ki, bu da İran əlifbasının hərf sayını bildirir.

İkinci şərt olan namaza gəldikdə isə namazın üç növü var. Səlati-səfər, səlati-həzər və səlatı-cümə. Bunlardan birincisi on bir, ikincisi on yeddi, üçüncüsü isə on beş rükətdən ibarətdir. Beləliklə də, sağ əlin bir barmağındakı üç qatlanma və sol elin barmaqlarındakı on dörd qatlanma toplanıldığında səlatı-həzərin on yeddi rükəti əldə olunur. Bununla da səlati-səfərin on bir rükəti toplandığında 28, səlatı-cümənin on beş rükəti toplandığında yenə 32 rəqəmi əldə olunur.

Üçüncü şərt olan zəkatda barmaqlardan istifadə olunaraq "dəlil" göstərilir. Allahın birliyini göstərən on barmaqdan biri, qazancın onda-birinin paylanılmasını bildirir. Eyni şəkildə oruc, həcc kimi digər ibadətlərdən də hərflərdən istifadə olunaraq müxtəlif mənalar çıxarırlar.

Yuxarıdakı hərfləndirmələrə diqqət yetirdikdə aydın olur ki, burada hər hansı bir qanunauyğunluq yoxdur. Hürufi və yaxud Bektaşi hərflərdən istədiyi kimi istifadə edərək, istədiyi nəticələrə və mənalara çata bilirlər. Bilindiyi kimi, 28 hərf ərəb əlifbasının, 32 hərf isə İran (fars) əlifbasının hərf sa-

yıdır. Yuxarıdakı misalda keçən 28 və 32 hərflərinin mənası isə Hürufilərə görə söylənmək istənən sözün və ya gedilmək istənən yolun sonuna çatmaq, vüslata varmaq deməkdir. Eyni zamanda sözü meydana gətirən şey hərflərdir. Allah da özünü hərflər vasitəsilə "kənzi-məxfi"(gizli xəzinə) səviyyəsindən idrak səviyyəsinə çıxardır və əvvəlcə sadəcə "Hu" (O) olan "Allah" olur. Burada diqqəti çəkən digər bir məqam isə danışan insanın (hərfləri söyləyən insan), qeyd olunmuş dini mətnlərdən üstün hesab olunmasıdır. Hürufilərə görə insan "Qurani-natiq"dir (yəni danışan Qurandır). Kağıza yazılan Quran isə "Qurani-samit"dir (səssiz Qurandır). Danışan Quran hər zaman dəyişir və təzələnir.

İslami türk ədəbiyyatının təməlinə adını yazdırmış olan Seyid Nəsimi haqqındakı mənbələr müxtəlif və bəzən ziddiyyətlidir. Ensiklopedik mahiyyət daşıyan Şuara təzkirələrində Nəsimiyə aid cəmi bir neçə sətir məlumat vardır. Burada isə onun harada doğulduğu, haralarda yaşadığı və hansı tarixdə öldü(rüldü)yü qeyd olunmamışdır. Həyatının ən mühüm dönüş nöqtəsinin Fəzlullah Nəimi ilə görüşməsindən sonra başladığı bilinir. Ancaq Anadoluda yaşadığı, oradan Hələbə getdiyi tarix dəqiq deyildir. Nəsimi haqqında ən qədim qaynaq *"Ənbəul-əmr fi əbnail-umr"* adlı əsərdir. Burada Fəzlullahın Nəsimi ilə eyni əsrdə yaşadığı bildirilmişdir. Lətifi isə əsərlərində Nəsimi haqqında belə məlumatlar vermişdir: "Eşq meydanının qorxusuzu və cəsarətlisi, məhəbbət kəbəsinin böyük fədaisi, seyidlərin itaət olunmağa layiq gördüyü Seyid Nəsimidir. O, doğru mənsəbli seyid və vəlilərdəndir. Əsil adı İmaduddindir. Abdallar zümrəsinə başcı və rəhbərdir. Şeirlərini Azəri türkcəsi ilə yazmışdır və bununla da şöhrət qazanmışdır"

Aşiq Çələbidə isə aşağıdakı məlumatlara rastlanmaqdadır: "Nəsimi seyidlərin əfəndisidir. Xalq arasında seyid adıyla məşhurdur". Çələbi, Nəsiminin Fəzlullah Nəiminin yanında olarkən eşq və təsəvvüf yolunu seçdiyini, ancaq nəfsini tərbiyələndirərkən yanlış yola girdiyini, buna görə də azğın insanların artmasına səbəb olduğunu, sözlərindən zındıqlıq

"qoxusu" çıxdıqda isə Hələb və Şam şəhərinin din xadimləri tərəfindən öldürülməsinə fitva verildiyini bildirmişdir.

Doğum tarixi və yeri haqqındakı ziddiyətli məlumatların olmasına baxmayaraq, əksər qaynaqlar onun Azərbaycanın Şamaxı şəhərində anadan olduğunu qeyd edir. Mikayıl Quluzadə onun 1369-cu ildə Şamaxıda doğulduğunu, orada yaşadığını ve şeirlərini də azəricə yazdığını bildirməkdədir. Bəzi İran qaynaqları isə onun Şirazlı olduğunu, bəzi qaynaqlar isə türkmən soyundan olduğunu  iddia etmişlər.

Şairin atası Seyid Məhəmməd Şirvanda yaxşı tanınan şəxsiyyətlərdən idi. Nəsiminin bir qardaşı da vardı. Onun Şamaxıda yaşadığı, Şah Xəndan təxəllüsü ilə şeirlər yazdığı və hazırda bu adla tanınan qədim qəbristanlıqda basdırıldığı məlumdur. İslamdan sonrakı dövrdə Şamaxı iri mədəniyyət mərkəzlərindən birinə çevrilir. Burada çoxlu məktəb, mədrəsə, bütün Şərqdə məşhur olan şeir və musiqi məclisləri fəaliyyət göstərirdi, zəngin ictimai və şəxsi kitabxanalar da az deyildi. Paytaxtdan bir qədər kənarda, Məlhəm adlanan yerdə məşhur şair Xaqaninin əmisi alim və həkim Kafiəddin tərəfindən yaradılmış Darüş-şəfa tibb akademiyası da fəaliyyət göstərirdi. Şamaxıdan şair və alimlər çıxmışdır ki, onların da arasında böyük sənətkar Əfzələddin Xaqanini xüsusi qeyd etmək lazım gəlir. Nəsiminin məktəb illəri belə bir mühitdə keçib.



Onun əsl adı İmadəddindir. Uşaqlıqda yaxşı təhsil almışdır. O, dövrünün ən məşhur mədrəsələrində dərs almışdır. Təriqətlərə və məşayix sirlərinə aid dərin irfanı vardır. Hələ uşaq yaşlarından etibarən eşq və məhəbbət qoxusunu almağa başlamışdır.

Mənbələrin əksəriyyəti onun adını İmadəddin kimi göstərir, ancaq Nəsiminin əsl adının Əli və Ömər olduğunu qeyd edən mənbələr də vardır. Bir çox tədqiqatçılar onun Şamaxıda, başqaları isə Bursada, Təbrizdə, Bakıda, Diyarbəkirdə və hətta Şirazda anadan olduğunu iddia edirlər. Şamaxılı Seyid İmadəddin Əbu Səid Hüseyn Nəsimi hicri VIII-IX yüzilliyin

görkəmli ariflərindən müvafiq elmlərdən təhsil aldıqdan sonra hürufi Fəzlullah Nəiminin (hic. 796) yanında onun tərbiyə və təlimlərindən bəhrələnərək mənəviyyatın ali dərəcələrinə çatmışdır. Səfərlərinin hamısında özünün şeyx mürşidi Nəimi ilə yol yoldaşı olmuş və onun qızı ilə evlənmişdir

Şairin əsərlərinin təhlili göstərir ki, Nəsimi Şamaxıda o dövrün ən yaxşı elm ocaqlarının tələbinə cavab verəcək dərəcədə kamil təhsil ala bilib. O, klassik Şərq və qədim Yunan fəlsəfəsini, habelə ədəbiyyatını dərindən mənimsəmiş, İslam və xristianlıq dinlərinin əsaslarına yaxından bələd olmuş, tibb, astronomiya və astrologiya, riyaziyyat və məntiq elmlərinə dərindən yiyələnmişdi. O, dilləri elə yaxşı öyrənmişdi ki, Azərbaycan, fars və ərəb dillərində eyni dərəcədə gözəl şeirlər yaza bilirdi. Onun azərbaycanca şerlərinin dili həm zənginliyi, həm də xalq nitqinə yaxınlığı ilə seçilir, atalar sözləri, zərbməsəllər, hikmətli sözlər burada çoxluq təşkil edir. Nəsiminin rübailəri Azərbaycan xalq şeiri nümunələri olan bayatılara çox yaxındır. Nəsimi poeziyasında Azərbaycanın, eləcə də digər Şərq ölkələrinin məşhur alim və şairlərinin adları tez-tez xatırlanır. Bunlardan Əli ibn Sinanı, Xaqanini, Nizamini, Fələkini, Həllac Mənsuru, Fəzlüllah Nəimini, Şeyx Mahmud Şəbüstərini, Övhədi Marağayini və s. göstərmək mümkündür. Hürufilər Teymurləng tərəfindən ciddi təzyiqlərə məruz qaldığı bir vaxtda Nəsimi vətəndən didərgin düşüb, İraq, Türkiyə, Suriyada yaşamağa məcbur olub. Hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyaları üstündə Hələb şəhərində edam olunub. Nəsimini Təbrizi nisbəsində təqdim edən İbn əl-İmad Hənbəli yazır: *"O, hürufilərin şeyxidir, Hələbdə sakin idi, tərəfdarları çoxaldı, bidəti artdı, iş o yerə çatdı ki, soltan onun öldürülməsini əmr etdi, boynu vuruldu, dərisi soyuldu, çarmıxa çəkildi".*

Nəsimi 3 dildə yazıb. O, öz ideyalarını peşəkar filosof kimi ayrıca traktatlarda bitkin sistemdə verməyib, çünki Miyanəcinin, İbn Ərəbinin geniş əhatəli sufi-fəlsəfi əsərlərindən sonra bu məzmunda traktatlar yazmağa o zaman bəlkə də

ehtiyac yox idi. Hürufiliyin nəzəri əsaslarına gəldikdə, Nəiminin əsərlərində o artıq işlənib hazırlanmışdı.

Nəsimi Fəzlullah Hürufiyə xəlifə olduqdan sonra fikirlərini səyahətlər vasitəsilə yaymağa başlamışdır. Teymurilərin şiddətli basqınlarından sonra Azərbaycandan ayrılmaq məcburəyyətində qalmış və Anadoluya səyahət etmişdir. Osmanlı dövlətinin paytaxtı olan Bursaya gəlmiş və burada xoş qarşılanmadığını görərək oradan Hacı Bayram Vəli ilə görüşmək məqsədilə Ankaraya getmişdir. Dərvişlərdən birinin Nəsiminin "tanrılıq iddiasında" olduğunu Hacı Bayram Vəliyə bildirməsindən sonra o, hüzura qəbul olunmamışdır.

Yaradıcılığının ilk dövrlərində Nəsimi də ustadı Nəimi kimi sufizm mövqeyində dayanır və tanınmış sufi şeyxi Şiblinin təlimini davam etdirirdi. Bu mərhələdə şair öz əsərlərini "Hüseyni", "Seyid Hüseyni", "Seyid" təxəllüsləri ilə yazır. Lakin X əsrin sufi İran filosof-şairi Hüseyn Həllac Mənsurun təlimi Nəsiminin ruhuna daha yaxın idi. İlk dəfə məhz o demişdi ki: "Haqq Mənəm! (Ənəl-Həqq) " Bu cür küfr sayılan fikirlərinə görə Həllac Mənsur daim təqiblərə məruz qalmış və nəhayət, öz ömrünü dar ağacında başa vurmuşdu. Əqidəsi uğrunda bu cür fədakarlıq göstərməyə hazır olan Nəsimi də Mənsura heyran kəsilmiş və öz əsərlərində onu tərənnüm etmişdi. Maraqlıdır ki, şair hürufi təlimini qəbul etdikdən sonra da Həllaca vurğunluğundan qalmamışdı. Bu sözləri müəyyən mənada Nəsiminin uzun müddət sadiq qaldığı sufi fəlsəfəsi haqda da söyləmək olar. Bununla əlaqədar olaraq, Zümrüd Quluzadə yazır: "Tədricən Nəsiminin dünyagörüşündə sufilik hürufiliklə əvəz olunur. Bu, hər şeydən öncə şairin panteist görüşlərindəki dəyişiklikdə əks olunur. Bu görüşlərin əsasında artıq eşq və sərxoşluq deyil, hərf, ağıl dayanmağa başlayır. Bu zamandan etibarən Nəsimi fəlsəfədə Nəiminin yaratdığı hürufiliyə tapınır və onun əsas müddəalarını təbliğ edir. Ancaq Nəsiminin təbliğ etdiyi hürufilik heç də Nəiminin yaratdığı təlimin eynilə təkrarı deyil."

Şair öz şeirlərində cahil insanları tənqid edir, onları həyatın gözəlliklərindən ilham almağa çağırır. Onun didaktik janrda və eşq barəsində yazdığı şeirləri təbiətin təsvirinə həsr olunmuş əsərləri oxucunun zövqünü oxşayır. Şair həmçinin öz dövrünün hakim təbəqəsinin zülm və ədalətsizliklərini, istilaçıların qəsbkarlıqlarını və onlara xidmət edənlərin xəyanətini bəyan edən əsərlər də yazmışdır. Onun müxtəlif dillərdə yazmış olduğu şeirlər ədəbi yöndən böyük bir sənətkarlıq nümunəsi olmuşdur.

Nəsiminin sənətkarlığı insan gözəlliyinə, insanın gücünə heyranlıqla yazılmış bir simfoniya kimi səslənir. Ancaq bu gözəllik bütün insanlara xas deyil. Özünü tanımış və dərk etmiş kamil insanlara məxsusdur. Buna görə də şair kamil insanı "canımın cananı" adlandırır və hətta ona səcdə etməyin vacib olduğunu göstərir. Kamil insanın gözəlliyinə səcdə etməyənlər, ona heyran olmayanlar isə şairə görə haqq yolundan çıxmış, düşüncəsiz varlıqlardır. Ancaq humanist şair bu kimi insanların da məhv edilməsini istəməz. Əksinə onları islah etmə yolu ilə özünü tanımağa, insan olduqları üçün qürur duymağa çağırar.



Nəsimi getdiyi hər yerdə böyük bir həvəslə Hüruf elmindən bəhs etmiş, insan üzündə səkkiz və ya otuz iki hərfi oxuyaraq, üzün Tanrının təcəlli yeri olduğunu bildirmiş və yazdığı şeirlərdə bu fikri dilə gətirmişdir. Hürufilikdən bəhs etməsi, insan üzündə "Tanrının təcəlli edəcəyi" fikri və bu barədəki rəmzlər daşıyan şeirləri sünni çevrələr və İslam alimləri tərəfindən dinlənib oxunduqda Nəsiminin düşmənlərinin sayı artamağa başlamışdı. Şeirlərindəki qeyri-müəyyənlik və vəhdəti-vücud düşüncəsi xüsusilə təəssübkeş müsəlmanlar tərəfindən qınanmasına gətirib çıxarmışdır. Məhz buna görə də Nəsimiyə zındıq deyildi. O dövrlərdə kim ki, zındıqlıqla günahlandırılırdı, o, mütləq cəzalandırılmalı idi. Buna görə də Hələb şəhərinin din alimləri Seyid Nəsimini cəzalandırmaq qərarına gəldilər. Şəriət alimləri Mənsurun məzhəbindən olduğu qənaətinə vardılar. Hələb müftisi "dərisi soyularaq öldürülməsi"nə fitva verdi və sonra da edam olundu.

İmadəddin Nəsimin doğum tarixində olduğu kimi, ölüm tarixi haqqında da ixtilaflı fikirlər mövcuddur. Mikayıl Quluzadə isə onun ölüm tarixinin 1417-ci ildə olduğunu qeyd etmişdir. Əgər bu tarix doğrudursa, deməli Nəsimi təxminən qırx altı il yaşamışdır. Şübhəsiz ki, Nəsiminin seyid olması və Ələvi-Bəktaşi firqələrinin onun şeirlərindən çox istifadə etməsi, ən böyük və ilahi yeddi şairdən birisi kimi tanımaları, onun bir çox yerdə "məzarının" olmasına gətirib çıxartmışdır. Nəsimi hər yerdə məzlum bir vəli olaraq tanınmışdır. Ölümünün dəhşətli şəkildə olması Nəsiminin zülmə uğradığına aid qənaətləri daha da gücləndirmişdir.

İmadəddin Nəsimi şeirlərinin əksəriyyətini Azəri türkcəsində yazmışdır. Ancaq divan ədəbiyyatında onun farsca yazılmış şeirlərinə də rast gəlmək mümkündür. Nəsiminin ərəb dilini də şeir yaza biləcək qədər dərindən bildiyi istisna olunmur. Nəsiminin bu geniş dil bilgisi, onun kiçik yaşlardan etibarən yaxşı bir təhsil aldığını söyləməyə əsas verir. Şeirlərindən də bunu anlamaq mümkündür. O dövrdə mədrəsələrdə oxudulan ərəb dili (sərf və nəhv), fiqh, təfsir, kəlam elmlərinə dərindən yiyələndiyini beytlərindən anlamaq olar. Ancaq sonrakı şeirlərində batini elmlərə maraq göstərdiyi bilinir. Onun yaşadığı mühit də hər iki elm sahələri həm zahiri, həm də batini elmlərin öyrənilməsi üçün əlverişli idi.



Seyid Nəsiminin ədəbi yaradıcılığını iki dövrə ayırmaq mümkündür. Fəzlullah Nəimi ilə görüşməzdən əvvəlki Nəsimi yaradıcılığı və Nəimiylə görüşdükdən sonrakı yaradıcılığı. Bu dövrün hər birinin özünəməxsus xüsusiyyətləri olmuşdur.

1. Nəsiminin şeirlərində Fəzlullah ilə görüşməzdən əvvəlki xüsusiyyətlər:

Şübhəsiz ki, Nəsimi özündən əvvəl yaşamış İran şairlərini oxumuş və tədqiq etmişdir. Şair, şeirlərini yazarkən çox geniş ədəbi bilgiyə və dərinliyə sahib idi. Bu dövrdə Nəsiminin şeirlərində daha çox Əhməd Yəsəvi (ö. 1166) və Mövlana Cəlaləddin Rumi (ö. 1273) kimi hikmətli söz söyləmə və nə-

sihət etmə arzusu hakimdir. Nəsihət etmə və tövsiyyə vermə "dövründə" Nəsimi Hz. Əli, əhli-beyt və on iki imam aşiqi olaraq bilinir. Şeirlərində bunlara qarşı dərin hörmət və sonsuz sevgi hiss olunur. O, İslami prinsiplərin təbliğatçısı və yayıcısıdır.

Nəsiminin divanında 1 məsnəvi, 40-a yaxın qəzəl və 50-yə yaxın tuyuğ mövcuddur. Bu mənzumələrə müraciət olunduqda aydın olur ki, Nəsiminin ifadə dili xeyli mücərrəddir. Şair fikirlərini açıqlayarkən xeyli çətinlik çəkməkdədir. Əsərlərində lirika demək olar ki, hiss olunmur. Şeirlərindəki didaktika ilə yanaşı, əruz xətalarına da rast gəlinməkdədir.



2. Nəsiminin şeirlərində Fəzlullah ilə (görüşməzdən əvvəlki və ya görüşdükdən sonrakı (bu ikisindən biri olmalıdır.)) görüşməzdən sonrakı xüsusiyyətlər:

Fəzlullahın, Əmir Teymurun öğlu Maran şaha sığınmaq üçün Şirvana gəlməsi o dövrdə Şirvanda (Şamaxı) yaşayan Nəsiminin ədəbi-fəlsəfi həyatında dönüş nöqtəsi olmuşdur. Onsuz da  həqiqəti, ilahi eşqi və doğru yolu axtaran Nəsimi batini inamlara qarşı yaxın maraq duyğusu içərisindəydi. Yuxarıda qeyd olunduğu kimi, Cəlaləddin Ruminin fikri təsiri altında idi. Mövləviliyin səma zikri və ayinləri onun diqqətini cəlb etmişdi.

Məhz bu mərhələdən sonra Nəsiminin şeirlərində dərin ümüd və sevgi motivlərinə rastlanılır. Nəsimi şeirlərində Allaha olan sevgini dərin duyğular vasitəsilə tərənnüm etmişdir. Ona görə Allaha aşiq olmayan insan yuxudadır. Aşiq olan ancaq "ənəl-həqq" fikrinin sirrinə nail olar. Bu elə bir məqamdır ki, burada aşiq və məşuq  tövhiddə birləşir (bir olur). Məhz buna görədir ki, Nəsimi özünə haqq deməkdədir. Nəsimiyə görə "ənəl-həqq" (mən haqqam) demək sadəcə bədii bir ifadə deyil. Bu,  şairin sanki gözüylə gördüyü və əksini iddia edə bilməyəcəyi bir məqamdır. Bunu Nəsimi çox acizanə şəkildə etiraf etməkdədir:

*Ey özündən bixəbər gəl Haqqı tanı, səndədir*
*Gir vücudun şəhrinə seyret gör anı, səndədir*
*Kandadur deyu nə sərgərdan gəzərsən zan ilən*
*Gəzməgil hər mənzili çün can məkanı səndədir*
*Mən nə vəchilən deyəm ki Haqqı səndən ayrudur*
*Çün gözümlə görmüşəm, Haqqın nişanı səndədir*

Nəsimiyə görə, bu dünyadakı şər kimi görünən hadisələri dərindən dərk edib anlamaq üçün Onun yolunda yanmaq lazımdır. İnsanların əksəriyyəti həqiqətin şəkil və formasıyla məşğul olurlar. Dinin həqiqətinə isə aşiqlər çatırlar. Qəflət yuxusundan oyanmaq müdrik insanlara məxsusdur. Həqiqi yol mənəvi sərxoşluqdan keçir. Bu yol şəriətin zahirinə tərs görünsə də, başqa həqiqi yol yoxdur. Aşağıdakı misralardan da bu hiss olunmaqdadır:

*Təhqiqə erən taifəyə hər kim ulaşmaz*
*Onun yolu təşkik ilə təqlidi gümandır*
*Ey aşiqə kafir deyən imana gəl, uslan*
*Kafir demə aşiqlərə neyçün ki, yalandır.*



Nəsiminin düşüncəsi üzərində Nəiminin olduğu qədər, sufilər arasında qəhrəman olaraq bilinən Həllac Mənsurun da təsirləri hiss olunmaqdadır. O, bir çox şeirində Həllacdan, onun haqlılığından və dahiliyindən bəhs etmişdir. Bu təsiri Nəsiminin özü də müxtəlif şəkillərdə etiraf etmişdir:

*Daim ənəl-həqq söylərəm, Həqdən çü Mənsur olmuşam*
*Kimdir məni bər-dar edən bu şəhrə məşhur olmuşam*
*Qibləsiyəm sadiqlərin, məşuqiyəm aşiqlərin*
*Mənsuriyəm layiqlərin, çün beyti-məmur olmuşam.*

Nəsimi dilin zənginliklərindən qəzəllərində özünəməxsus bir ustalıqla istifadə edib. Bəzən şair şerlərini yalnız xitab və ifadəli təkrarlar üzərində qurur:

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam*
*Gövhəri la-məkan mənəm, kövnü-məkana sığmazam.*

Filosof-şairin poeziyası qısa zamanda Orta Asiya, Türkiyə və İran xalqları arasında populyarlıq qazanır. Həllac Mənsurla birlikdə onun adı öz əqidəsi uğrunda qeyri-adi sədaqət və cəsurluq rəmzinə çevrilir. Onun əsərləri bir çox dillərə çevrilir və həmin dillərdə yazıb-yaradan şairlər onu təqlid edirlər. Nəsiminin şerlərini xalq arasında avazla oxumaq və onun hürufi ideyalarını təbliğ etmək üstündə bir çoxları əzablara qatlaşır, hətta canlarından da keçirlər.

Nəsimi aşiqanə qəzəllər yazaraq şeir aləminə qədəm qoymuşdur. Əvvəlcə Cəfərilik məzhəb anlayışına uyğun olaraq Hz. Məhəmməd (s.ə.s), Hz. Əli (r.a) və on iki imamla əlaqəli mədhiyyələr qələmə almışdır. Zaman keçdikcə hürufilik düşüncələrinin təsirində qaldıqdan sonra isə bu etiqadının güclənməsi üçün onu şeirlərində fəlsəfi-dini mənalarla zənginləşdirmişdir. Demək olar ki, bütün şeirlərindəki özünəməxsus lirik mənalar, vəhdəti-vücud nəzəriyyəsinə istinad edən coşqu, həyat və insan sevgisi, şərq düşüncəsinə məxsus olan İslami humanizm, onun mənzum əsərlərinə irfani bir mahiyyət qazandırmışdır. Hürufiliyin yayılması üçün göstərdiyi səylər, onun dini, siyasi və ictimai məsələlərdə də şeir yazmasına və söz söyləməsinə səbəb olmuşdur.



Nəsiminin qardaşı şeyx Xəndana göndərdiyi nəsihətvari misralar da onun ədəbi və dini-fəlsəfi şəxsiyyətinin mahiyyətinin başa düşülməsində əhəmiyyətli rol oynayır. Əvvəlcə qardaşı Xəndan Nəsimiyə diqqətli olmasını və fikirlərini hamının yanında müdafiə etməməyi məsləhət görür. Əks halda edam olunacağını ona xəbər verir;

*Gəl bu sirri kimsəyə faş eyləmə*
*Hanı xassı amməyə aş eyləmə.*

Nəsimi isə cavabında bütün mövcudatın, yerlərin və göylərin həqiqəti əks etdirdiyi halda, bu sirri çox saxlaya bilməyəcəyini bildirir;

*Dəryayi muhit cuşa gəldi*
*Kövn ilə məkan xurüşa gəldi*

*Sirri əzəl oldu aşkara*
*Aşiq necə eyləsin müdara*
*Yer göy arası həqq oldu mütləq*
*Söylər defu-cəngu-ney "ənəl-həqq!"*

Nəsimi özü də öz dilinin, düşüncəsinin və fikirlərinin rahat şəkildə hamı tərəfindən başa düşülən olmadığını bilir. Bunun bir məcazi dil olduğunu, Süleyman kimi, heyvanların, daşların və ağacların hal dilindən anlayan insanların ancaq dərk edə biləcəyini bəyan edir;

*Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz,*
*Bu, quş dilidir, bunu Süleyman bilir ancaq!*

Nəsimi şeirlərində mənəvi saflığa çox böyük əhəmiyyət vermişdir. Hikmət, ədalət, sülh, doğruluq və insana dəyər vermə onun ən çox ortaya atdığı və müdafiə etdiyi məsələlərdəndir. Ona görə insanın ən başlıca problemi nəfsini təmizləməsi və "yola gətirməsi" problemidir. Nəsimi cahilliyi və elmsizliyi insanı günaha aparan səbəblər olaraq görür. Ona görə də insanın mahiyyətini izah edərkən, insanları mömin-kafir olaraq yox, arif-cahil olaraq qruplaşdırır. Nəsimiyə görə heç bir insan dünyaya pis fitrətli olaraq gəlməz. Dünyadakı pis duyğular, dunyanın aldadıcılığı insanın əslini tanımasına mane olur. Deməli, əsas məsələ bu dünyadakı maneələrdən qurtulmaqdır. İnsan kamilləşdikcə hürriyyəti artır və həqiqi fitrətinə dönür.



Seyid Nəsimi də aydın olduğu kimi, birmənalı şəkildə qiymətləndirilə bilməməsinə və haqqındakı müxtəlif ziddiyyətli fikirlərə rəğmən, islami-türk ədəbiyyat, elm və sənət dünyasındakı öz yerini qoruyub saxlaya bilmişdir. O, həm şair olaraq Azərbaycanda qəzəl ədəbiyyatının banisi, həm sufi olaraq irfanının dərinliklərinə bələd oluna bilinməyən mistik bir mütəfəkkir, həm də Hürufilik hərəkatının həqiqi qurucusu sayılır. Ancaq qeyd olunmalıdır ki, Seyid Nəsiminin düzgün başa düşülməməsi, onun sahib olduğu irfani-metafizik bilgilərin, eyni duyğu dərinliyini yaşamamış in-

sanlar tərəfindən təcrübə oluna bilməmə problemindən qaynaqlanmışdır.

Qənaətimizcə, sufi Nəsimi şair Nəsimi üzərində hər yönüylə təsir göstərmiş və yazdığı şeirlərlə sadəcə yaşadığı təcrübəni ifadə etməyə çalışmışdır. Bu baxımdan da onun duyğu dünyası, irfan dərinliyinin metafizik təməlləri düzgün başa düşülməzsə, onun şeirləri öz həqiqi anlamını itirəcəkdir. Nəsimini başadüşülməz qılan və yaxud da çoxmənalı şəkildə başa düşülməsinə səbəb olan iki amilin olduğu açıqdır. Birincisi, Nəsimi hər kəsə (sufilərin sözüylə "avam"a) qapalı olan irfani dərinliklərdən bəhs etmişdir. Bu, tarixdə Sokrat, Həllac, Sührəverdi və s. kimi başqa dahilərin yaşadığı aqibətə aparıb çıxarmışdır. İkincisi, Nəsimi onsuz da mücərrəd olan bu fikirlərini normal analitik dillə deyil, lirik şeir diliylə ifadə etmişdir. Lirik dilin təbii olaraq ortaya çıxardığı bənzətmələr, metaforalar və mübaliğələr də Nəsiminin niyyətindən çox fərqli şəkildə başa düşülməsinə gətirib çıxarmışdır.

## MƏHƏMMƏD FÜZULİ ﷺ

(d. 1480 / v. 1556)

Azərbaycan-Türk ədəbiyyatının ən böyük şair və mütəfəkkirlərindəndir.

Azəri əsilli olan Füzulinin adı Məhəmməddir. Atası, Hillə müftisi Süleyman Əfəndidir.

Füzuli uşaqlıq illərini İraq Ağqoyunlu Türk Dövləti, gənclik illərini Səfəvi hökmdarı Şah İsmayıl, ixtiyar çağlarını isə Qanuni Sultan Süleyman Xanın idarəsində keçirmişdir.

Çox mükəmməl bir təhsil ilə zamanının məşhur alimləri arasında özünəməxsus yeri olan Füzuli Ərəbcə, Farsca və Türkcə olmaq üzrə üç dildə də çox mükəmməl və qiymətli əsərlər meydana gətirmişdir. Xüsusilə, Türkcə şeirləri baxımından özünə ikinci Əlişir Nəvai deyilmişdir. Bir başqa ifadəylə də "şairi madər-zat", yəni "anadangəlmə şair" olaraq xatırlanmışdır.

Onun "Füzuli" təxəllüsünü götürməsi xeyli düşündürücüdür:

Füzuli şeirə başladığı illərdə müxtəlif təxəllüslərdən istifadə etmiş, lakin bunları başqa şairlərin də istifadə etdiklərini görüncə hamısından imtina etmişdir. Nəhayət ilk baxışda "gərəksiz, boşboğaz və lovğa" kimi mənalara gəldiyi üçün heç kimin təxəllüs olaraq götürə bilməyəcəyi "Füzuli" sözünü kəşf etmiş və özünə götürmüşdür. Çünki bu söz, eyni zamanda fəzilətin cəmidir ki, "şəxsi üstünlüklərlə, yəni fəzilətlərlə əlaqəli" mənasına da gəlir.

Füzuli bu təxəllüs seçimini Farsca divanının müqəddiməsində:

*"Düşündüm, əgər şeirdə başqaları ilə müştərək bir təxəllüs götürsəm, müvəffəq ola bilmədiyim təqdirdə mənə təəssüf olar. Müvəffəq olsam təxəllüs ortağıma zülm etmiş olaram. Bunu ortadan qaldırmaq üçün kimsənin qəbul etmədiyi və edə bilməyəcəyi bir təxəllüs götürdüm. Beləcə təxəllüs səbəbiylə gələ biləcək kədərlərin qapısını bağladım və şeirlərin qarışması narahatlığından xilas oldum."* şəklində izah edir.

Bir şeirində də belə deyir:

*"Pis bir ad götürməyim məni xalq arasına qarışmaqdan uzaq tutdu. Bu surətlə öz aləmimə qapılıb hünər əldə etməklə məşğul oldum. Allaha şükür olsun, pis sandığım şey yaxşı çıxdı. Tikanım gül, torpağım qızıl, daşım da ləl-cəvahirat oldu."*



Həqiqətən də Füzuli şeirlərində təxəllüsünün hər iki mənasını da son dərəcə ustalıq və məharətlə istifadə etmiş, möcüzə təvriyələrlə çox gözəl və dərin mənalar ortaya qoymuşdur.

Bir elm və mədəniyyət mərkəzi olan Bağdadda yaşayan Füzuli ilham, elm və eşqin qaynaşdığı üstün bir sənət mühitinə daxil olmuşdur.

Elm və mədəniyyətdəki üstün səviyyəsi səbəbiylə müasirləri ona "Molla Füzuli" və ya "Mövlana Füzuli" demişlər. O, bu istedadını şeirlərinə də əks etdirmiş və belə demişdir:

*"Elmsiz şeir, əsası (təməli) olmayan bir divar kimidir. Əsassız divar da əsla mötəbər deyil."*

Digər tərəfdən Bağdadın mənəvi havasından da qidalanan Füzuli şeirlərinə müstəsna bir ruhaniyyət və dərinlik qazandırmış və beləcə ədəbiyyatdakı o görkəmli mövqeyinə haqq qazanmışdır. O, İmam Əzəm, Həllac Mənsur, Abdulqadir Geylani, Seyid Əhməd Rifai, Cüneyd Bağdadi və Maruf Kərhi kimi Haqq dostlarının feyz dolu diyarında misilsiz incilər əldə

etmiş və bunları şeirləri vasitəsiylə güllər saçarcasına layiqli könüllərə comərdcə paylamışdır.

Füzuli o dövrdə yaşayan dövlət böyüklərinə bir çox qəsidələr yazmışdır. 1534 -cü ildə Qanuninin Bağdadı fəthi üzərinə bir misrasında:

"Gəldi bürcü övliyaya padşahı namdar" dediyi məşhur **Bağdad Qəsidəsini** yazmış və o möhtəşəm hökmdara təqdim etmişdir.

Bu nəfis qəsidəsiylə Füzulini daha yaxından tanıyan Qanuni də, ona lazım olan dəyəri vermiş və Bağdad vəqfindən maaş ayırmışdır. Ancaq Füzuli nədənsə bu maaşı ala bilməmiş, o saf, istehzalı və mütəvəkkil ədasıyla məşhur Şikayətnaməsini yazmışdır.



Çünki şairlər ümumiyyətlə fərdi bir təfəkkür və hissiyyat sahibi olaraq görünsələr də, onlar əslində içində yaşadıqları cəmiyyətin hisslərinə tərcümandırlar. Belə olduqları nisbətdə də mənimsənilib rəğbət görərlər. Buna görə onlar, içində yaşadıqları cəmiyyətin bir növ vəkilidirlər. Bu səbəbdən idrakları və könülləri ictimai həyat baxımından müştərək bir qədərlə bağlı olduqları cəmiyyətin istəkləri və ortaq mədəniyyətiylə bəsləndiyi üçün bir şairi içində yaşadığı cəmiyyətdən və o cəmiyyətlə birlikdə tabe olduğu siyasi, ictimai təlatümlərdən təcrid etmək mümkün deyil.

Şikayətnamə yazan Füzulinin vəziyyəti də belədir.

Bununla yanaşı Bağdadın Osmanlı idarəsi altındakı illərində, başda Üveys Paşa olmaq üzrə Ayas və Mehmed Paşaların himayəsində əmin bir həyat sürən şair, ən əhəmiyyətli əsərlərini də bu dövrdə yazmışdır.

Bağdadın coğrafi quruluşu baxımından Füzuli bir ayağını səhraya, bir ayağını da suya basmışdır. Elə buna görədir ki, o, suyun rəhmət olmasıyla Həzrət Peyğəmbərin aləmlərə rəhmət olması arasında bir bənzətmədən ilham alaraq məşhur Su Qəsidəsini yazmışdır. Beləcə o, səhra üçün su nə isə, aləm

üçün də Rəsulullahın (s.ə.s) o demək olduğunu çox incə, zərif və mükəmməl bir şəkildə dilə gətirmişdir.

Su Qəsidəsindən bir neçə beyt belədir:

*Saçma ey göz eşqdən könlümdəki odlara su*
*Kim bu dənli tutuşan odlara qılmaz çarə su*

*"Ey göz (Allahın uca Rəsulunun məhəbbətiylə) könlümdə (alovlanıb yanmış) atəşlərə göz yaşından su tökmə! Çünki bu (son) dərəcə (eşq hərarətiylə) alovlanmış olan atəşlərə su (tökmək) çarə deyil. (Bu eşq atəşi sönməz!)"*

*Ab-gündür günbədi dəvvar rəngi bilməzəm*
*Ya mühit olmuş gözümdən günbədi dəvvarə su*

*"(Lakin yenə də gözlərim onun eşqindən, o qədər ağlamaqdadır ki, bu) dönən göy qübbə (başdan-başa) su rəngindədirmi; yoxsa gözümdən (tökülən) su (larmı, bütün) göy qübbəni əhatə etmişdir?. (Bilmirəm; heyrətdəyəm!)"*



*Suya versin bağban gül-zarı zahmət çəkməsin*
*Bir gül açılmaz üzün tək versə min gül-zarə su*

*"Bağban, gül bağçasını sulamaq üçün (boş yerə) zəhmət çəkməsin! (Çünki) min dənə gül bağçası sulasa, (Ya Rəsulallah, yenə də) sənin üzün kimi bir gül (heç bir zaman) açılmaz!.."*

*Dəst-busə arzusuyla ölərsəm dostlar*
*Kuzə eylən torpağım sunun onunla yarə su*

*"Ey dostlar! Əgər mən Həzrət Peyğəmbərin əlini öpmə arzusuyla ölsəm, torpağımdan bir küzə düzəldin (və) onunla (o uca) sevgiliyə su ikram edin! (Bəlkə beləcə onun əlini öpmək və şəfaətinə nail olmaq nəsib olar.)*

*Haki payinə yetəm dir ömürlərdir muttasıl*
*Başını daşdan daşa vurub gəzər avarə su*

*"(O rəhmət Peyğəmbərinin) ayağının (dəydiyi, gəzib dolaşdığı, mübarək) torpağına çatım deyə, su (lar), heç dayanmadan ömür boyu baş(lar)ını daşdan daşa vuraraq avara (və cəlb olunmuş bir şəkildə) axır."*

Həzrət Peyğəmbərin (s.ə.s) məhəbbətiylə dolu olan Füzuli, bir qəzəlində də belə deyir:

*Güli rüxsarına qarşı gözümdən qanlı axar su*
*Həbibim fəsli güldür bu, axar sular bulanmazmı?*

*"Ya Rəsulallah! Bu gül mövsümündə axmaqda olan suların bulanması kimi mənim eşqim səbəbiylə gül üzünə qarşı gözümdəki yaşlar da qanlı bir şəkildə axır..."*

Təsəvvüfün dərinliklərinə son dərəcə vaqif olan Füzuli, bu aşinalığı elmin hüdudları içində ən incə detallarına qədər əsərlərində məharətlə işləmişdir. Sahib olduğu zəka və dahilik sayəsində elm ilə lirikanı birləşdirmişdir. O, misilsiz sənətini sanki hiss etdirmədən yaratmış və beləcə könülləri əngin məna üfüqlərinin səyyahı etmişdir.

Füzuli məcazi eşqdən başlayıb ülviləşən bir eşqin, yəni ilahi eşqin yanğı və qovruluşunu ən gözəl şəkildə ifadə edən böyük bir şairdir. Yunus Əmrədəki o dərin eşq, onun könülünə də damlamış və ona:

*Eşq imiş hər nə var aləmdə,*
*Elm bir qilü-qal imiş ancaq...*

dedirtmişdir. Həmçinin onun:

*Məndə Məcnundan füzun aşiqlik istedadı var,*
*Aşiqi-sadıq mənəm Məcnunun ancaq adı var...*

beyti də, könlündəki eşq dərinliyini göstərməyə kifayət edir. Çünki Füzuli, o dərəcədə bir eşqə nail olmuşdur ki, artıq eşqin cəfasından da həzz alırdı. Sanki onun mənəvi qidası, eşqin iztirabı idi. Bunu sevginin bir sədaqəti olaraq belə ifadə edir:

*Yarın cəfası cümlə vəfadır cəfa deyil,*
*Yarə kim cəfa qılır deyən əhli-vəfa deyil...*

Bu barədə güllərə də xəbərdarlıq edir:

*Əhli-təmkinəm məni bənzətmə ey gül, bülbülə,*
*Dərdə yox səbri onun hər ləhzə min fəryadı var!*

Füzuli yara sədaqət və vəfa ölçüləriylə bağlı olduğuna görə eşq çiləsinin bitməsini istəməz:

*Məlhəm qoyub onarma sinəmdə qanlı dağı*
*Söndürmə öz əlinlə yandırdığın çırağı*

Çünki bu çıraq bir eşq və iman çırağıdır. Digər tərəfdən də insanı onsuz da eşqin səfası deyil, cəfası kamilləşdirir. Sırf maddədə qalan eşq isə, dar və boğucudur. Bu səbəblə Füzulinin sevgisi maddədən mənaya doğru yüksələn və sonunda ilahi eşqdə qərar tutan bir sevdadır. O:

*Xəyalıyla təsəllidir könül meyli-vüsal etməz*
*Könüldən dişrə bir yar olduğun aşiq xəyal etməz*

deyir ki, bu ifadə aşağıdakı hədisi-qüdsiyə bir işarədir:

*"Yerə göyə sığmaram, mömin qulumun könlünə sığaram!"*



Görünür ki, Füzuli məhəbbətullah ilə yoğrulmuş həqiqi bir aşiqdir. İlahi gözəlliklərə qarşı fövqəladə dərəcədə həssasdır. Çünki Haqq gözəldir və eşqə təsir edən də budur. Bütün varlıqlar da, eşqdəki məhəbbət səbəbiylə yaradılmışdır. Bunun üçün Füzuli böyük bir eşq əsəri olan Leyli və Məcnun poemasını qələmə almasına vəsilə olan əsl duyğunu, bu əsərin başında belə ifadə edir:

*Tutsam tələbi-həqiqətə rahi-məcaz*
*Əfsanə bəhanəsiylə ərz etsəm raz*
*Leyli səbəbiylə vəsfin etsəm ağaz*
*Məcnun diliylə etsəm izhari-niyaz*

*"(Ey Allahım!) Həqiqət tələbi üçün məcaz yoluna baş vursam və Leyli və Məcnun hekayəsi bəhanəsiylə (ilahi) sirləri açıqlasam... Leyli vasitəsiylə sənin xüsusiyyətlərini izah etsəm və Məcnunun dili ilə də dua və niyazlarımı göstərsəm..."*

Bu ifadələrdən aydın olur ki, Füzuli əsl məqsədi olan ilahi həqiqət və sirləri şərh etməklə yanaşı, Allahın eşq dəryasının mənbəyi olan xüsusiyyətlərini izah etməklə eyni zamanda ona çatma yolunda Məcnun kimi dua və niyaz halında bir qulluğu ifadə edir.

Belə ki, bir gün Leyli səhrada gəzən Məcnunun qarşısına çıxmışdı. Ancaq Məcnun onu tanımadı:

“-Kimsən?” deyə soruşdu.

Sonra da nisbi Leylidən sıyrılıb həqiqi Leyliyə qovuşmanın halını belə ifadə etdi:

*Elə sərməstəm ki, idrak etməzəm dünya nədir;*
*Mən kiməm saqi olan kimdir meyi-səhba nədir?!*

*“Mən həqiqi Leylinin, yəni Rəbbimin eşqindən elə məst olmuşam ki, dünyanın nə olduğunu belə idrakdan uzağam! Mən kiməm, bu eşq şərbətini paylayan kimdir və bu könül şərabı nədir, bilmirəm!..”*

*Hərçənd canandan dili-şeyda üçün kam istərəm,*
*Soruşsa canan bilməzəm; kami-dili şeyda nədir?!*

*“Mən o uca canandan, belə özündən keçmiş bir vəziyyətdə sevdaya tutulan könlüm üçün kam istəyirəm. Lakin o canan: “Bu eşq sərxoşu olan könlün kamı nədir?” deyə soruşsa, bilmərəm!..”*

*Hikməti dünya və mafiha bilən arif deyil,*
*Arif oldur bilməyə; dünya və mafiha nədir?!*

*“Bilin ki, dünya və içindəkilərin hikmətini bilən kimsə arif deyil. Arif dünya və içindəkilərin nə olduğunu bilməyən kimsədir!”*

Belə deyən Məcnun mənəvi bir saflıq qazanıb məcazdan həqiqətə keçmişdi. Tövhid əhlinin və Haqq dostlarının yolunu tutaraq kamala çatmışdı. Artıq dünyaya və əşyaya etibarı qalmamışdı. Naxışdan muradı nəqqaş idi. Onun bu halını anlayan Leyli:

“-Ey kamil insan! İndi sənin halını idrak etdim. Nə uca bir mərtəbəyə çatmısan! Allah mübarək etsin! Mən isə, necə qafiləm ki, cəhalətlə sərxoş olmuşam! Lakin indi agah oldum! Artıq mən də eqoist etibar və əlaqəni bir kənara buraxıb heçlik yolunu seçdim!” -dedi.

Bunlar göstərir ki, Füzuli Məcnunun səhrada eşq ilə təktənha qalmasını görmüş və onun halını çox gözəl bir şəkildə ifadə etmişdir. Deyir ki:

*"Səhrada gəzən Məcnunun sıxıntı və əzabını abi-həyat bulağı kənarında oturanlara soruşma! Aləmin dərdsiz insanları bizim dərdimizdən xəbərdar deyildirlər. Dərdin qədrini dərdlilər yaxşı bilər."*

Elə buna görədir ki, Füzuli üçün şeir bir iztirab və dərdin məhsuludur. Belə deyir:

*"Dərd, şairliyin sərmayəsidir. Şair olmaq üçün zövq və səfa lazımdır sanma! Bil ki, şeir yarışında müsabiqəni qazanan dərddir."*

*"Könlündə bir dərdi olmayan, ciyəri yaralı olmayan insanın şeirində dad vardır zənn etmə! Zövq və səfa, dinclik və rahatlıq şeirə zövq verməz. Əsl iztirabdan doğulan şeirdir ki, könüllərə təsir edir."*

Füzuli həqiqi səadəti Allah sevgisində axtaranlardandır. Buna görə bir kənara çəkilmiş və eqoist ehtirasları bir tərəfə qoymuşdur. Bunu şeirə belə əks etdirir:

*Nə mülk ü mal mənə cərh versə məmnunam,*
*Nə mülk ü maldan azadə etsə məhzunam…*



Bu hal, təsəvvüfdə çox mühüm bir məqamdır. Rəvayətə görə Abdulqadir Geylani həzrətlərinin ticarət karvanını quldurlar soymuşdular. Gəlib bunu ona bildirdilər. Bir müddət sükut etdikdən sonra:

"-Əlhəmdulillah!" -dedi.

Çox keçmədi ki, yeni bir xəbər gəldi:

"-Əfəndim! Karvanınız quldurlardan xilas edildi! Heç bir ziyan yoxdur!"

Həzrət Geylani, yenə bir müddət sükut etdikdən sonra:

"-Əlhəmdulillah!" -dedi.

Ətrafındakılar bu vəziyyətə təəccüb etdilər. Maraqla soruşdular:

"-Əfəndim! Karvanınızın quldurların əlinə keçdiyini eşidincə "Əlhəmdulillah" dediniz. Sonra onun qurtarıldığını eşitdiyinizdə də yenə "Əlhəmdülillah" deyərək həmd etdiniz! Bunun hikmətini biz anlaya bilmədik!.."

Abdulqadir Geylani həzrətləri təbəssümlə bu cavabı verdi:

"-Karvanımın quldurlar tərəfindən qəsb edildiğini eşidincə könlümə nəzər etdim. Görəsən bir hüzn varmı, yəni ilahi nəzərgah olan qəlbimə dünya sevgisi bulaşmışmı, deyə özümü yoxladım. İçimdə hər hansı bir hüznün mövcud olmadığını görüncə könlümdəki Allah məhəbbətinin dünya sevgisi ilə zədələnməmiş olduğu qənaətinə gələrək bu vəziyyətə görə Allah-Təalaya həmd etdim. Daha sonra karvanımın qurtarıldığı xəbəri gəlincə də eyni şəkildə hərəkət edərək bu dəfə qəlbimdə dünya malı səbəbiylə hər hansı bir sevginin zühur edib etmədiyinə baxdım. Belə bir təhlükənin olmadığını müşahidə edərək, yenə Rəbbimə həmd etdim..."

Məhz Füzulinin şeirləşdirdiyi amil!

Füzuli bütün Türk xalqlarında tanınan, sevilən və mənimsənən bir şairdir. Belə ki, rəsmi dili Ərəbcə olan İraqda belə bir çox yanıq könlün və qəmli dodağın ilk daddığı eşq meyvəsi Füzulinin əsərləridir. Ərbil, Kərkük və Səlahiyənin ulularının divanxanalarında, dini və ictimai cəmiyyətlərdə onun axıcı və mənalı şeirləri hələ də oxunur. Rəsulullahın (s.ə.s) eşq və məhəbbətinin bir könül həyəcanı ilə yazdığı Su Qəsidəsi, eyni eşq və vəcd içində tərənnüm edilir. Bu qəsidənin dörd əsr yarımdır könüldən könülə davam etməsi, Füzulidəki Həzrət Peyğəmbər məhəbbətinin və bu məhəbbətdəki ixlasın bir dəlilidir.

Füzuli istər əməllərində, istərsə də ifadələrində irqi təəssübkeşlik və məzhəb qarşıdurmalarının xaricində qalmış və dövrünün bu cür siyasi çəkişmələrinin arasında boğulmamışdır. Beləliklə o, hər bir insanın sevgi və təqdirini qazanmışdır. Nüfuz və təsiri Türk xalqlarının yaşadığı bütün coğrafiyaya yayılmışdır. Füzulişünas Prof. Dr. Abdulkadir Karahan belə deyir:

*"Füzulini xüsusilə məzhəblərin fövqündə dayanan bir şəxsiyyət olaraq görmək və istedad baxımından da təsavvüfi şövq və zövqü üstün, mənən əhli-təriqət olaraq tanımaq doğru olar…"*

Bu ifadə tamamən yerindədir. Çünki Füzulini oxuyanlar ilahi eşqin vəcd və həyəcanını duymuş, Allah Rəsulunun (s.ə.s) məhəbbətiylə bir sevgi çağlayanına dönmüş, Əhli-beytin başına gələnlərə ağlamış, dünyanın faniliyini dərindən sezmiş, həyat və ölümün mənasını qavramış və daha böyük mənəvi mərtəbələrə çatmaq üçün nəfsi ilə mübarizəyə əzm etmişdir. Bu vəsiləylə Füzuli əsla silinməyəcək bir qüdrətlə öz damğasını əsrlərə vura bilmişdir. Yahya Kamalın bu təsbiti onun şeirini də əhatə edir:

*Sönməz səhəri həşrə qədər şiri qədim,*
*Bir məşəldir təhvil verilir əldən ələ…*



Füzulinin iyirmiyə yaxın əsəri vardır. Bunlardan 134 beytlik "Ənisul-Qəlb" adlı qəsidəsi, "Hüsni-Eşq"i, "Səhhət və Mərəz"i, "Su Qəsidə"si, "Saqinamə"si, "Rindü-Zahid"i, "Məktublar"ı, "Şikayətnamə"si və "Hadiqatus-Süəda"sı məşhurdur. Füzulinin demək olar ki, hər əsərində Əhli-beyt məhəbbətinin tərənnümü hakimdir.

O, aşiq bir şair olaraq:

*Canı canan diləmiş verməmək olmaz ey dil*
*Nə niza eyleyəlim ol nə sənindir nə mənim*

demiş və "ölmədən əvvəl ölənlər" karvanına qatılmaq surətiylə dünya həyatını bir qərib yolçu kimi yaşamışdır. Ayrıca bu halını isbat etmək üçün:

*Canı kim cananı üçün sevsə cananın sevər*
*Canı üçün kim ki, cananın sevər canın sevər*

beytini söyləmişdir.

Həqiqətən də can, cananı tanıyıb ona ram olmaq və eşqiylə vusala çatmaq üçün yeganə vasitədir. Burada canan əsl məqsəd mahiyyətindədir. Ancaq bunun əksinə olaraq bir kimsə cananını, öz canına bir zövq və səadət səbəbiylə sevsə,

o zaman özünü sevmiş və cananı da bir vasitə etmiş olar. Halbuki canan, bu canı aşıb fəna-fillah və bəqa-billah sirlərinə çata bilmək üçün sevilər ki, bu sevdada can düşünülməz. Çünki cana meyil etmək maddənin əsiri olmaq deməkdir. Elə buna görədir ki, əsl olan canan yolunda canın fəda olmasıdır. Bu fəda olmaq, yəni yoxluq, həqiqi mənada və əbədi olaraq var olmağa bir vasitə və nişanədir ki, Füzuli bu münasibətlə özündən və fani əlaqələrdən tamamilə sıyrılaraq belə demişdir:

*Məzarım üzrə qoyman mil, əgər quyunda can versəm,*
*Qoyun bir sayə düşsün üstümə ol sərv-qamətdən*

Məhz belə yüksək ruhi bir kamalın sahibi olan Füzuli, Bağdadda 1563-cü ildə taun xəstəliyinə tutularaq vəfat etmişdir. Türbəsi Kərbəladadır.

Vəfatına əbcəd hesabıyla "Köçdü Füzuli" (h. 963) sözləri ilə tarix yazılmışdır.

**Rəhmətullahi əleyh!**

**Ya Rəbb! Füzulinin tərənnüm etdiyi Həzrət Peyğəmbər məhəbbətindən bizlərə də bir zərrə ehsan et!**

**Amin!..**

**Su Qəsidəsi**

*Saçma, ey göz, əşkdən könlümdəki odlarə su*
*Kim, bu dəklü tutuşan odlara qılmaz çarə su.*

*Abigundur günbədi-dəvvar rəngi, bilməzəm,*
*Ya mühit olmuş gözümdən günbədi-dəvvarə su.*

*Zövqi-tiğindən əcəb yox olsa könlüm çak-çak*
*Kim, mürur ilə buraxır rəxnələr divarə su.*

*Vəhmdən söylər dili-məcruh peykanın sözün,*
*Ehtiyat ilə içər hər kimdə olsa yarə, su.*

*Suya versin bağiban gülzarı, zəhmət çəkməsin,*
*Bir gül açılmaz üçün tək, versə min gülzarə su.*

*Oxşada bilməz qübarini mühərrir xəttinə,*
*Xamə tək baxmaqdan ensə gözlərinə qarə su.*

*Arizin yadilə nəmnak olsa müjganım, nola,*
*Zaye olmaz gül təmənnasilə verməк xarə su.*

*Qəm günü etmə dili-bimardən tiğin diriğ,*
*Xeyrdir vermək qaranqu gecədə bimarə su.*

*Mən ləbin müştaqiyəm, zöhhad Kövsər talibi,*
*Netəkim məstə mey içmək xoş gələr, hüşyarə su.*

*İstə peykanın, könül, hicrində şövqüm sakin et,*
*Susuzam bir gəz bu səhradə mənimçün arə su.*

*Rövzeyi-kuyinə hərdəm durmayıb eylər güzar,*
*Aşiq olmuş, qalibə, ol sərvi-xoşrəftarə su.*

*Su yolun ol kuydən topraq olub tutsam gərək,*
*Çün rəqibimdir, dəxi ol kuyə qoyman varə su.*

*Dəstbusi arizusundan ölərsəm, dustlar,*
*Kuzə eylin toprağım, sunun onunla yarə su.*

*Sərv sərkəşlik qılır qümri niyazından, məgər*
*Damənin tuta, əyağinə düşə, yalvarə su.*

*İçmək istər bülbülün qanın, məgər bir rəng ilə,*
*Gül butağının mizacına girə, qurtarə su.*

*Tinəti-pakini rövşən qılmış əhli-aləmə,*
*İqtida qılmış təriqi-Əhmədi-Muxtarə su.*

*Seyyidi-növi-bəşər, dəryayi-dürri-istifa*
*Kim, səpibdir möcüzatı atəşi-əşrarə su.*

*Qılmaq üçün tazə gülzari-nübüvvət rövnəqin,*
*Möcüzündən eyləmiş izhar səngi-xarə su.*

*Möcüzü bir bəhri-bipayan imiş aləmdə kim,*
*Yetmiş ondan min-min atəşxaneyi-küffarə su.*

*Heyrət ilən barmağın dişlər, kim etsə istima,*
*Barmağından verdiyin şiddət günü ənsarə su.*

*Dusti gər zəhri-mar içsə olar abi-həyat,*
*Xəsmi su içsə dönər, əlbəttə, zəhri-marə su.*

*Eyləmiş hər qətrədən min bəhri-rəhmət mövcxiz,*
*Əl sunub vurğac vüzu üçün güli-rüxsarə su.*

*Xaki-payinə yetəm der, ömrlərdir müttəsil,*
*Başını daşdan-daşa vurub gəzər avarə su.*

*Zərrə-zərrə xaki-dərgahinə istər sala nur,*
*Dönməz ol dərgahdən, gər olsa parə-parə su.*

*Zikri-nətin virdini dərman bilir əhli-xəta,*
*Eylə kim, dəfi-xumar üçün içər meyxarə su.*

*Ya həbibullah! Ya xeyrül-bəşər! Müştaqinəm,*
*Eylə kim ləbtəşnələr yanıb dilər həmvarə su.*

*Sənsən ol bəhri-kəramət kim, şəbi-meracdə,*
*Şəbnəmi-feyzin yetirmiş sabitü səyyara su.*

*Çeşmeyi-xurşiddən hər dəm zülali-feyz enər,*
*Hacət olsa mərqədin təcdid edən memarə su.*

*Bimi-duzəx, nari-qəm salmış dili-suzanimə,*
*Var ümidim əbri-ehsanın səpə ol narə su.*

*Yümni-nətindən gühər olmuş Füzuli sözləri,*
*Əbri-nisandan dönən tək lölöi-şəhvarə su.*

*Xabi-qəflətdə olan, bidar olanda ruzi-həşr*
*Əşki-həsrətdən dolanda dideyi-bidarə su.*

*Umduğum oldur ki, ruzi-həşr məhrum olmayam,*
*Çeşmeyi-vəslin verə mən təşneyi-didarə su.*

**Məni Candan Usandırdı**

*Məni candan usandırdı, cəfadan yar usanmazmı?*
*Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?*

*Qəmu bimarinə canan dəvayi-dərd edər ehsan.*
*Nəçin qılmaz mənə dərman, məni bimari sanmazmı?*

*Qəmim pünhan tutardım mən, dedilər yarə qıl rövşən*
*Desəm, o bivəfa bilməm, inanarmı, inanmazmı?*

*Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım*
*Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?*

*Güli-rüsxarinə qarşı gözümdən qanlı axar su,*
*Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?*

*Degildim mən sənə mail, sən etdin əqlimi zail,*
*Mənə tən eyləyən qafil səni görcək utanmazmı?*

*Füzuli rind ü şeydadır, həmişə xəlqə rüsvadır,*
*Sorun ki, bu nə sevdadır, bu sevdadan usanmazmı?*

## ƏZİZ MAHMUD HÜDAYİ ﷺ

(d. 1541 / v. 1628)

Osmanlı dövründə yaşamış İstanbul vəlilərinin böyüklərindən biri də Əziz Mahmud Hüdayidir. Əsl adı Mahmuddur. "Hüdayi" adı və "Əziz" ləqəbi ona sonradan verilmişdir. Cüneyd Bağdadi həzrətlərinin nəslindən olub, "seyyid"dir. Bunu şeirlərinin birində:

*Cəddimü pirim sultan*
*Sənsin, ya Rəsulallah*

-deyərək ifadə etmişdir.

Qocahisarda doğulmuş, uşaqlığı Sivashisarda keçmişdir. O, bir əsrə yaxın ömür sürmüş və səkkiz padşah dövründə yaşamış bir könül sultanıdır. Yaşadığı dövrdə istər əsərləri, istərsə də söhbət, irşad, vəz və nəsihətləri ilə ümmət üçün bir feyz mənbəyi olmuşdur.

Elm, təsəvvüf və ədəbiyyat sahələrində parlaq bir şəxssiyyətə sahib Hüdayi həzrətləri mənəviyyat rəhbərləri arasında müstəsna bir yerə sahibdir. O, Osmanlının quruluş illərində Şeyx Ədəbali həzrətlərinin etmiş olduğu müstəsna irşad, xidmət və fəaliyyəti eyni eşq, şövq və həyəcanla davam etdirən nadir bir mənəvi şəxsiyyətdir. Allah rizası istiqamətində ixlas, səmimiyyət üzrə hərəkət edən Hüdayi həzrətləri sahib olduğu zahiri və batini qabiliyyəti səbəbilə həm padşahların, həm də bütün insanların sevdiyi bir Haqq dostu olaraq məşhur olmuşdur.

Osmanlının tərəqqi çağlarından yavaş-yavaş durğunluq dövrünə keçid yaşadığı bir zamanda yaşayan Hüdayi həzrətləri bir yandan sultanları ədalətli, çalışqan və mənəvi cəhətdən sağlam olmaları üçün böyük himmətlər sərf etmiş, digər yandan da bu qarışıqlıqlardan böhrana düşən dövlət adamlarının və xalqın könül yaralarına eynilə məharətli təbib kimi məlhəm olmağı bacarmışdır. Bunun üçün demək olar ki, hamı onun söhbət, irşad və xidmət süfrəsi ətrafına toplaşaraq rahatlıq tapmış, beləliklə də dərgahı səadət və xoşbəxtlik saçan məkana çevrilmişdir.



Həqiqətən onun yaşadığı dövr səadətlə fəlakətin bir-birini əvəz etdiyi çox çətin dövr idi. Çünki siyasi baxımdan getdikcə artan və ictimaiyyəti son dərəcə sarsıdan təlatümlər bu dövrdə büruzə vermişdir. Ordudakı nizam-intizamın pozulmasının faciəvi bir surətdə II Gənc Osmanı qətl etmə dərəcəsinə çatdığı və IV Muradın taxtının qarşısında sədrəzəmi Hafiz Əhməd Paşanın yeniçərilər tərəfindən parçalanıb qanlarının hökmdar taxtına sıçradığını düşündükdə o günlərin siyasi vəziyyətini daha yaxşı başa düşmək olar.

Yaşadığı dövrün ictimai qarışıqlığı içərsində xalqı İslamın təsəlli edici dəvəti ilə Haqqın və həqiqətin səsinə çağıran Hüdayi həzrətləri dərgaha fərqli bir şöhrət qazandırmışdır. Belə ki, cəmiyyətdə zühur edən qarışıqlıqdan qaçanların yeganə sığındıqları yer onun dərgahi-şərifi olmuşdur. Elə bu səbəblə Xəlil Paşa, Dilavər Paşa və Əli Paşa kimi tanınmış şəxslər nə zaman dara düşsələr bu dərgaha pənah gətirmişlər. Bu yönüylə Hüdayi həzrətlərinin dərgahi-şərifi kimsənin zərər və ziyanının toxunmayacağı, bugünkü ifadə ilə desək bir növ toxunulmazlığı olan əmin bir məkan halına gəlmişdir. Deyə bilərik ki, o zamanlar Osmanlı mülkündə bu məkandan başqa heç bir dərgah bu qədər hörmət və ehtirama sahib deyildi.

Burada Əziz Mahmud Hüdayi həzrətlərinin belə bir mənəvi mərtəbəyə nail olmasının və sahib olduğu müstəsna ləyaqəti necə əldə etdiyinin üzərində diqqətlə dayanmaq la-

zımdır. Çünki onu bu kamilliyə çatdıran metod eyni yolda gedənlərə müstəsna bir misaldır.

Hüdayi həzrətləri tələbəlik illərində ciddi bir elm təhsili ilə yanaşı islamın feyzli aləmi ilə könülünü də az-çox yoğurmuşdur. Qətiyyətli səyi və çalışqanlığı səbəbiylə də mədrəsədə onunla xüsusi şəkildə məşğul olan xocası Nasırzadənin köməkçisi olmuşdur. Sonrakı illərdə xocası Nasırzadə ilə birlikdə müxtəlif qazılıq vəzifələrini yerinə yetirmişdir. Son olaraq da Bursaya təyin edilmişlər. Xocası baş qazı, o isə Fəhadiyyə mədrəsəsində müəllimlik etməklə yanaşı Cameyi-Atiq məhkəməsində qazı köməkçisi olmuşdur.

Onun kamil mənada təriqət yoluna girib mərifətullaha nail olması da məhz bu zamana rastlayır. Hər cür elmi istedad və məqamına rəğmən Hüdayi həzrətləri o zamana qədər Bursa qazılığı vəzifəsini yerinə yetirən Qazı Mahmud Əfəndi adı ilə tanınan bir qazı idi. Günlərin birində ona bu zamana qədər rastlaşmadığı qəribə bir şikayətlə müraciət etdilər. Sel kimi göz yaşı tökən bir qadın ərindən şikayətçi idi. Ona qulaq asan Qazı Mahmuda belə dedi:

"- Qazı Əfəndi! Ərim hər il həccə getməyə niyyət edir, lakin kasıblıq səbəbiylə heç cür gedə bilmir. "Bu il də həccə gedəcəyəm", -deyirdi. Hətta: "- Əgər bu il həccə gedə bilməsəm, səni boşayacağam!",- dedi. Sonra qurban bayramına az qalmış qeyb oldu. Beş-altı gün sonra isə meydana çıxıb həccə gedib-gəldiyini söylədi. Heç belə də iş olar? Qazı Əfəndi! Artıq bu yalançı adamdan boşanmaq istəyirəm!.."

Qazı Mahmud Əfəndi şikayəti araşdırmaq üçün qadının ərini yanına çağırtdırdı və ondan xanımının söylədiklərinin doğru olub-olmadığını soruşdu. Qadının əri belə cavab verdi:

"- Qazı Əfəndi! Xanımımın söylədikləri də doğrudur, mənim söylədiklərim də. Həqiqətən mübarək torpaqlara gedib-gəlmişəm. Hətta o mübarək diyarlarda bəzi bursalı hacılarla da görüşdüm və bəzi hədiyyələri gətirmək üçün onlara əmanət etdim…"- dedi.

Qazı Mahmud Əfəndi çaş-baş qaldı:

"- Bu necə ola bilər?!"- deyə sual etdi.

O da sözünə davam etdi:

"- Əfəndim, hər il olduğu kimi bu il də həccə gedə bilmədim. Belə olduğu üçün böyük bir hüznlə Əskici Mehmed Dədənin yanına getdim. O da əlimdən tutaraq gözümü yummamı istədi. Gözümü açanda isə Kəbədəydim!.."- dedi.

Belə bir mənəvi hadisəyə ilk dəfə şahid olan Qazı Əfəndi bunun mümkün ola bilməyəcəyini söyləyərək adamın dediklərini qəbul etmədi.

Bunun üzərinə hələ də müqəddəs torpaqların ruhaniyyət və mənəvi iqliminin təsirlərində olan zavallı adam sadəlövh, lakin mənalı sözlərlə bu cavabı verdi:

"- Qazı Əfəndi! Allah-Təalanın düşməni olan şeytan bir anda bütün dünyanı gəzə bildiyi halda Allah dostu olan saleh bir bəndə nə üçün bir anda Kəbəyə gedə bilməsin?" dedi.

Qazı Mahmud Əfəndi bu cavabı çox mənalı görərək qərarı bursalı hacıların qayıdacağı vaxta təxirə saldı. Bursalı hacılar qayıtdıqda da apardığı sorğu-sualla məsələni olduğu kimi öyrəndi və böyük bir heyrətlə iddianı ləğv etmək məcburiyyətində qaldı.

Min bir ilahi sirlərlə dolu olan bu hadisə nəticəsində qəlbinə müəmmalı bir atəş düşən Qazı Mahmud Əfəndi nə edəcəyini düşünərkən könlünə damlayan bir ilhamla dərhal Əskici Mehmed Dədənin yanına getdi. Həqiqət və sirlər dəryasına dala bilmək üçün ona tələbə olmaq istədi. Ancaq Əskici Dədə:

"- Qazı Əfəndi! Nəsibiniz məndə deyil, zamanın kamil mürşidi olan Məhəmməd Üftadə həzrətlərindədir." dedi.

Bu dəfə Qazı Mahmud eyni niyyətlə Üftadə həzrətlərinin dərgahına getdi. Lakin ilahi hikmət olaraq dərgaha yaxınlaş-

dıqda atı yerində dayandı və heç cür irəli getmədi. O da atından endi və piyada olaraq dərgaha doğru irəlilədi.

Məşhur Bursa qazısı Mahmud Əfəndini təmtəraqlı libaslar içində görən Həzrət Pir baş verən hadisədən mənən xəbərdar idi. Ancaq Qazı əfəndinin niyyət və səmimiyyət dərəcəsini yaxşıca ölçmək üçün onu dərhal tələbəliyə qəbul etmədi:

"- Gedin, Qazı Əfəndi! Sizin şöhrətə bürünmüş, mal və məqam dəbdəbəsi içində təmtəraqlı bir həyatınız var. Bu qapı isə yoxluq qapısıdır. Atınız belə, bura gəlmək istəmədiyi üçün yerində dayanmadımı?" dedi və dərgahın qapısına doğru getdi.

Bir tərəfdən şeyxin mənəvi cazibəsi, digər tərəfdən də gördüyü açıq kəramətlər qarşısında heyrətə düşən Qazı Mahmud Əfəndi həqiqəti idrak etmişdir. Qərarı qəti idi. Çünki nəfs əngəlini aşıb ilahi vüslətə nail ola bilmək üçün vaxt itirmədən artıq bu qapıya təslim olmaq zəruri idi. Tez şeyxin arxasınca gedib boynunu bükdü və:

"- İradəsiz və çaşqın haldayam. Sanki sonu görünməyən bir uçuruma düşmüşəm. Nə olar mənə yol göstərin və yardım əlinizi uzadın. Bu biçarəni tələbəniz olmaqla şərəfləndirin!" dedi.

Təbəssüm edən Üftadə həzrətləri tələbəlik üçün qazılıq və müəllimlik vəzifələrini tərk etməyi, əlindəki bütün mal və mülkü fağırlara paylamağı və nəfsini tərbiyə edə bilmək üçün möhkəm bir riyazətə girməyi şərt qoşur. Çünki Qazı Mahmudun öz nəfsini tanıyıb tərbiyə etməsi zəruri idi. Qazı Mahmud Əfəndinin cani-könüldən təslim olması ilə də onu müridlərinin arasına daxil etdi.

Sonra da Qazı Mahmudun qəlbindəki pasların təmizlənməsi üçün, yəni qazılıq məqamının ona verdiyi qürur, təkəbbür və eqonu yox etmək üçün əynindəki təmtəraqlı libasıyla Bursa küçələrində ciyər satmasını əmr etdi. Bundan başqa dərgahın tualetlərini təmizləmək vəzifəsini də ona tapşırdı.

Üftadə həzrətlərinin hüzuruna tam bir təslimiyyət və xalis bir niyyət içində gələn Qazı Mahmud Əfəndi ustadının əmrlərinə cani-könüldən tabe oldu. Nəfsaniyyətini bəsləyən bütün dünyəvi əlaqələrdən əl çəkdi. Özünü səmimiyətlə mürşidinin təlimatlarına ram edərək qısa zamanda böyük məsafələr qət etdi. Belə ki, onu əynindəki təmtəraqlı paltarlar içində ciyər satarkən görənlərin:

"-Bizim qazı əfəndi dəli olub!"

"-Qazılığı tərk edib, ancaq qazılıq libasını tərk etməyib!" şəklindəki sözlərinə fikir vermədən ustadının verdiyi vəzifələri şövqlə yerinə yetirməyə çalışdı.

Beləcə uca bir kamillik yolunda sürətlə məsafə qət etməyə başladı. Şeyxinin gözündə və könlündə getdikcə qədir və qiymət sahibi oldu.

Nəfsindəki son varlıq nişanəsini tərk etməsi isə çox məşhurdur:



Bir gün Qazı Mahmud tualet təmizləyərkən qeybdən qulağına qədər gələn bir nida eşitdi:

"- Ey camaat! Duyduq-duymadıq deməyin, şəhərimizə yeni qazı gəlir!..."

O an könlünü zəif görən nəfsi birdən-birə böyük bir vəsvəsə fırtınası qopardı:

"- Demək, yerimə yeni bir qazı gəlir!.. Ah biçarə Mahmud, sən belə şərəfli bir peşəni tərk edib başladın tualet təmizləməyə! Söylə görək, bu illər ərzində nə qazandın?!" dedi.

Nəfsinin bu təhlükəli qərarsızlığı qarşısında tez özünü toplayan Qazı Mahmud Əfəndi böyük bir təlaşla xocasını xatırladı. Çünki ona şərt qoşulan əmrləri yerinə yetirəcəyinə dair söz vermişdir. Dərhal tövbə və istiğfar ilə nəfsinin son dərəcə təhlükəli vəsvəsəsinə şiddətli şəkildə müdaxilə etdi və cavab verdi:

"-Ey Mahmud! Sən, nəfsini ayaqlar altına alacağına dair ustadına söz vermədinmi? Bəs hanı verdiyin söz? Söylə, bu halın nədir?.."

Ancaq Qazı Mahmud bu hala o qədər peşman olmuşdur ki, nəfsinin hiyləsinə qarşı bir neçə fəndlərlə qarşı çıxmaq könlündəki peşmanlıq hissini təsəlli etmədi. Heç düşünmədən əlindəki süpürgəni bir kənara atdı və nəfsinə cəza olaraq tualet daşlarını saqqalıyla təmizləməyə qərar verdi. Elə bu zaman Üftadə həzrətləri gəldi. Qazı Mahmuda təbəssümlü bir çöhrə ilə, yumşaq bir səslə və xoş bir əda ilə:

"- Övladım, Mahmud! Bilirsən ki, saqqal mübarək bir sünneyi-səniyyədir." -dedi və yerləri saqqalıyla təmizləməsinə mane oldu.

Sonra sözlərinə belə davam etdi:

"- Övladım, Mahmud! Bu yolda göstərdiyin xidmətlərin məqsədi məhz bu mərtəbəni keçə bilməyin üçün idi. Müvəffəq edən Allaha həmd olsun. Bundan sonra vəzifən mənim dəstəmaz suyumu hazırlamaq olacaq!.."

Qazı Mahmud, bu vəzifəni  yüksək səviyyədə ifa etməyə çalışdı. Beləcə hər gün səhər dəstəmaz suyunu hazırladı və xocasına xidmətə davam etdi.

Soyuq bir qış günü idi. Qazı Mahmud yuxudan bir az gec qalxmışdı. Bu səbəblə xocasının dəstəmaz suyunu isitməyə vaxt tapa bilmədi. Böyük bir kədərə qərq oldu və gözlərindən yaşlar damladı. Qeyri-iradi bir şəkildə su qabını sinəsinə basaraq "Allah" ləfzini deməkdən başqa bir şey edə bilmədi. O əsnada xocası qapıda göründü. Mahmuddan dəstəmaz suyunu gətirib tökməsini istədi. O da çarəsiz və iradəsiz bir şəkildə bu əmrə tabe oldu və böyük bir təlaş içində suyu xocasının əllərinə tökməyə başladı. Su Üftadə həzrətlərinin əllərinə dəyər-dəyməz o, yavaşca başını qaldırdı və tələbəsinin qayğılı halına nəzər edərək təbəssümlə:

"- Su bir az çox isinib, övladım!" dedi.

Bu sözlərə təəccüblənən Qazı Mahmud Əfəndi xəfif bir səslə:

"- Bu necə ola bilər? Suyu isitməmişəm ki!.." dedi.

Üftadə həzrətləri də:

"- Övladım! Fərqində deyilsən, bu su ocaq atəşi ilə deyil, könül atəşiylə isinib!.." cavabını verdi.

Hüdayi həzrətləri girdiyi möhkəm bir riyazətlə nəfsinin tərbiyəsi yolunda halallardan istifadə etməyi belə, ən az səviyyəyə endirmiş və könlünü bütünlüklə Haqqa ram edərək ruhunu qüvvətləndirməyə müvəffəq olmuşdur. Nəticədə bu gözəl halın bərəkətlərinə nail olmuşdur. Nəticədə bu gözəl halın bərəkətinə nail olmuş, dirilərdən çox ölülərlə görüşüb danışmağa başlamışdı. Bir dəfə dərgaha gedən yolun üstündə xeyli əvvəl vəfat etmiş bir müəzzinlə rastlaşıb ona salam verdikdən sonra bu hadisəni ustadına xəbər verdi. Həzrət üftadə də:



"- Övladım, etdiyin riyazət nəticəsində ruhun kamal mərtəbəsinə gedən yolda xeyli məsafə qət edib. Biz də riyazətlə məşğul olduğumuz zamanlarda eyni hallarla qarşılaşırdıq",- buyurdu.

Bir gün Üftadə həzrətləri müridləri ilə bərabər bir söhbətdə idi. Əmri üzərinə bütün dərvişlər bağçanın hər tərəfini gəzərək xocalarına bir dəstə gül gətirdilər. Ancaq Qazı Mahmud Əfəndinin əlində saplağı qırılmış bir çiçək vardı. Digərləri gətirdikləri gülləri sevinclə xocalarına təqdim etdikdən sonra Qazı Mahmud boynunu bükərək əlindəki qırıq və solmuş çiçəyi Üftadə həzrətlərinə uzatdı.

Üftadə həzrətləri digər müridlərinin maraqlı baxışları arasında soruşdu:

"- Övladım, Mahmud! Hər kəs dəstə-dəstə çiçək gətirdiyi halda sən nə üçün saplağı qırıq solğun bir çiçək gətirdin?.."

Qazı Mahmud ədəblə başını aşağı salaraq cavab verdi:

"Ustadım! Sizə nə təqdim etsəm, azdır!.. Ancaq hansı çiçəyi qoparmaq üçün əlimi uzatdımsa onu "Allah, Allah" deyərək Rəbbini zikr edən halda gördüm. Könlüm onların bu zikrlərinə mane olmağa razı olmadı. Çarəsiz qalaraq mən də zikrinə davam edə bilməyən əlimdəki bu çiçəyi gətirdim!.."

Bu gözəl və məna dolu cavabdan son dərəcə məmnun olan Üftadə həzrətlərinin dilindən o anda:

"-Hüdayi, Hüdayi. Övladım! Bundan sonra adın Hüdayi olsun!.. Ey Hüdayi! Bu bağça gəzintisindən yalnız sən nəsib ala bilmisən." ifadələri töküldü.

Beləcə Qazı Mahmud Hüdayi oldu. Çünki o, artıq kainatdakı ilahi sirlərə və qüdrət axışlarına aşina olmuşdu. Sanki kainat ona sirlərini açan canlı bir kitab halına gəlmişdi.

Bundan belə Hüdayi deyə anılan Qazı Mahmud Əfəndi sahib olduğu üstün və müstəsna mənəvi mərtəbəsi səbəbiylə hörmət əlaməti olaraq "Əziz" sifəti də əlavə edilərək Əziz Mahmud Hüdayi adı ilə yad olundu.



Üç illik qısa bir zaman ərzində Üftadə həzrətlərinin baş tələbəsi mərtəbəsinə yüksələn Hüdayi həzrətlərinin bu yüksəlişi səbəbilə əvvəlki dərvişlərin bəzisi onu qısqanmağa başlamışdı. Bunu hiss edən Üftadə həzrətləri onların könül aləmlərini düzəltmək üçün belə bir gözəl yola əl atdı:

Bir qış axşamı idi. Üftadə həzrətləri tələbələrinin mənəviyyatını cuşa gətirəcək bir söhbət etdikdən sonra süfrənin hazırlanmasını tapşırdı. Sonra da tələbələrinin süfrəyə gətirdikləri nemətlərə nəzər salaraq mənalı-mənalı:

"- Övladlarım! Görəsən, tağından yeni dərilmiş təzə üzüm tapmaq mümkündürmü?",- dedi.

Bütün dərvişlər bu suala təəccüb edərək bir-birlərinin üzünə baxdılar. Hətta bəziləri:

"Bu qış mövsümündə təzə üzüm olmaz axı!", -deyə düşündülər.

Ancaq ustadına böyük bir təslimiyyətlə bağlı olan və bir çox mərhələni qət etmiş olan Mahmud Hüdayi həzrətləri bu tələbdə bir hikmət olduğunu düşünərək ədəblə:

"- Ustadım! İcazənizlə bu arzunuzu yerinə yetirim!",- dedi.

Verilən icazədən sonra dərhal bağa getdi. Bütün üzüm tağları qar altında qalmışdı. Tağlardan birinin qarını təmizlədikdə təzə dəymiş salxım-salxım üzümlərlə qarşılaşdı. Bunun ustadının bir kəraməti olduğunu düşünərək əlindəki səbəti doldurdu və dərgaha qayıtdı. Yolda zikr edə-edə gələrkən hər tərəf qar içində olduğu üçün görmədiyi bir quyuya düşdü. Quyu dərin olduğu üçün heç cür içindən çıxa bilmədi. Çarəsiz halda idi ki, yuxarıdan bir səs eşitdi:

"- Övladım! Uzat əlini!"

Baxanda gördü ki, səsin sahibi nur üzlü bir adamdır. Əlini uzatdı və quyudan çıxdı. Həzrət Hüdayi onu qurtaran bu şəxsdən kim olduğunu soruşacaqdı ki, bir anda həmin adam qeyb oldu.



Nəhayət, əlində təzə yetişmiş üzümlərlə dolu səbətlə dərgaha çatan Hüdayi həzrətləri başına gələnləri ustadına danışdı. Üftadə həzrətləri də onu quyudan qurtaran adamın Xızır -əleyhissalam- olduğunu dedikdən sonra o biri dərvişlərə:

"- Övladımız Hüdayi kamalını tamamlamışdır. O, xəlifəliyə çoxdan layiq idi",- dedi.

Bundan sonra Üftadə həzrətləri onu xəlifəsi olaraq Sivrihisara göndərdi. Bir müddət orada xidmət edən Hüdayi həzrətləri daha sonra mənəvi bir işarətlə Bursaya qayıtdı. Ömrünün son günlərini yaşayan Üftadə həzrətlərinə böyük sevgi və ehtiramla xidmət etdi. Bu xidmətdən razı qalan Həzrət Üftadə bir gün ona:

"Oğlum, padşahlar ardınca gəlsin!" –deyə dua etdi.

Hüdayi həzrətləri ustadı Üftadənin vəfatından sonra dövrün şeyxülislamı olan Xoca Sadəddin Əfəndinin dəlalətiylə İstanbula yerləşmişdi.

Onun Üsküdarda qurduğu dərgah qısa zamanda hər təbəqədən olan insana xitab edən mənəviyyat və irfan məktəbinə çevrildi. Bu dərgah, dövrünün cahan sultanlarını da özünə cəlb edərək Hüdayi həzrətlərinin müridinə çevirdi. Xüsusilə III Murad xan, I Əhməd xan, II Gənc Osman xan və IV Murad xan Hüdayi həzrətlərinin yaxın irşadına məzhər olan padşahlardır. Hüdayi həzrətləri bunlardan IV Murad xanın qılınctaxma mərasimində şəxsən iştirak etmiş və adət olduğu kimi Əbu Əyyub əl-Ənsari həzrətlərinin türbəsində saxlanan Həzrət Ömərin qılıcını yeni taxta çıxan padşaha özü təqdim etmişdi.



Əziz Mahmud Hüdayi həzrətləri İstanbula gəldiyi illərdə Osmanlı taxtında III Murad xan otururdu. O, hakimiyyətinin ilk illərində həm Dövləti-Aliyyənin geniş sərhədlərinə və ehtişamına, həm də gəncliyinə və gücünə aldanaraq həddindən artıq güvən və qürurla hərəkət edirdi. Bu səbəblə bəzi nöqsanlı hallar yaşanırdı. Bunun fərqinə varan Hüdayi həzrətləri heç kimin cürət edə bilməyəcəyi bir vəzifəni, yəni sultanı irşad vəzifəsini zarurət səbəbilə öz boynuna götürdü. III Murad xanı Haqqa və həqiqətə istiqamətləndirən məktublar yazdı. Bu məktublar mahiyyəti etibarilə bəzən mülayim, bəzən isə sərt üslubda qələmə alınmışdır. Bu da öz növbəsində Həzrət Hüdayinin irşad vəzifəsində nə qədər səlahiyyət, qənaət, nüfuz və təsirə malik olduğunu göstərir. Çünki cəlallı olması səbəbilə bu xəbərdarlıqların III Murada yüksək səviyyədə mənəvi gücə sahib olmayanlar tərəfindən edilməsi mümkün deyildi. Müxtəlif zamanlara aid məktublardan bəzi cümlələr belədir:

“- Sultanım! Şəriət gəmisinə minib təqva yelkənlərini açaraq həqiqət dənizində Haqqa məhəbbət küləyiylə etidal və istiqamət üzrə bir yol tut! Zahirin və batinin şərtlərini, yəni

şəriət ehkamı ilə təriqət və həqiqət əsaslarını tam olaraq yerinə yetir! Ədalət adlandırdıqları da məhz budur!"

"- Səadətli Padşahım! Sizin səltənətiniz zamanında olan güc, qüdrət və şövkət heç bir zaman olmamışdır… Ancaq bilin ki, Allah və Rəsulunun yeganə arzusu zülmün qalxması, ədalətin bərqərar olmasıdır. Bidətlərin kənarlaşdırılması, sünnələrin icrasıdır."

"- Sultanım! Allahın qulları sizdən şəfqət və mərhəmət gözləyirlər. Əgər xalqa qarşı şəfqət və mərhəmətlə rəftar etməsəniz, xəyanət etmiş olarsınız! Belə bir vəziyyətdə onlar qəlbləri qırılaraq nifrətlə sizdən üz çevirərlər. Etdikləri xeyrduanı da kəsərlər…"

"- Sultanım! Sakarya sularından keçib odun tədarük olunmasını arzu etmisiniz. Xalq bundan çox razı qalmışdır. Çünki ehtiyac çoxdur. Mərhum babanız Sultan Süleyman xan Kağıthane suyunu çəkərək xalqa ziyafət vermişdi. Siz də odun gətirərək füqəranı sevindirdiniz."

"- Sultanım! Bizim işimiz qürur və qəflətə dalanlara nəsihət və vəz ilə xəbərdarlıq və irşad etməkdir. Təqva yoluna girib saleh əməl işləməyə təşviqdir. Beləliklə Allahdan muradımız başqalarını islah edən salehlərdən olmaqdır. Həddi aşanlardan olmaqdan Allaha sığınırıq!"

Bu kimi dəyərli nəsihət və irşadlarıyla başda sultan olmaq üzrə, bütün dövlət adamları arasında təsir və nüfuzu artan hüdayi həzrətləri Fərhad Paşa ilə Təbriz səfərində də iştirak etmiş və orduya mənəvi liderlik vəzifəsini almışdır.

Əziz Mahmud Hüdayi həzrətlərinin Sultan I Əhməd ilə münasibətlərinin ilkin pilləsini təşkil edən yuxu yozma hadisəsi çox məşhurdur. Bu yuxuyozma ilə Hüdayi həzrətlərinə hörməti hədsiz dərəcə artan I Əhməd xan Həzrət Pirin ilahilərinə nəzirə yazacaq qədər onda fanilәşmişdir.

Həzrəti Yusuf -əleyhissalam-ın yuxu təbiri elmindən son dərəcə nəsib almış Hüdayi -quddisə sirruh-un bu qabiliyyəti

ilə dünya sultanlarını istiqamətləndirməsi və yuxuları yozarkən nümayiş etdirdiyi dəqiqlik onun bu xüsusdakı ləyaqət və səlahiyyətinin bir nişanəsidir.

Bir gün Sultan Əhməd xan çox sevdiyi ustadı Hüdayi həzrətlərinə qiymətli bir hədiyyə göndərmişdi. Lakin Həzrət Hüdayi bu hədiyyəni qəbul etmədi. Belə olduqda Sultan Əhməd hədiyyəni öhdəsindən çıxarmaq üçün onu dövrün şeyxlərindən Əbdülməcid Sivasi həzrətlərinə göndərdi. Əbdülməcid Sivası həzrətlərinin hədiyyəni qəbul etməsi münasibətiylə də bir ziyarət əsnasında:

"- Əfəndi həzrətləri! Mən bu hədiyyəni daha əvvəl Hüdayi həzrətlərinə göndərmişdim, lakin qəbul buyurmamışdı. Siz isə qəbul buyurdunuz!",- dedi.

İfadələrdəki incə nöqtəni anlayan Sivası həzrətləri də bu mənalı cavabı verdi:

"- Sultanım! Həzrət hüdayi elə bir simurqdur ki, əsla leşə qonmaz!"

Bu cavabdan məmnun olan Sultan aradan bir neçə gün keçdikdən sonra Hüdayi həzrətlərini ziyarətə getdi və ona da:

"- Əfəndim! Sizin qəbul etmədiyiniz o hədiyyəni Əbdülməcid Əfəndi qəbul buyurdu",- dedi.

Həzrət hüdayi də təbəssüm edərək belə buyurdu:

"- Sultanım! Əbdülməcid Əfəndi bir dəryadır. Qocaman dəryaya kiçicik bir damla masiva çirki düşməsi onun paklığına zərər verməz!".

Bu mənqibə iki böyük Allah dostunun bir-birlərinə olan məhəbbət və təzimlərini, xüsusilə Hüdayi həzrətlərinin kamalını göstərməkdədir. Çünki mənəvi münasibətlərdə irşad vəzifəsi səbəbindən padşahla yaxınlıq quran Hüdayi həzrətləri maddi münasibətlərə gəldikdə hədsiz dərəcədə gözütox idi. Çünki dünyaya meylini və məhəbbətini artırıb mənəviyyatı zədələyə biləcək təhlükə ifadə edən maddi ikramlar onun əsl vəzifəsi olan irşad fəaliyyətinə mane ola bilərdi. Ancaq bəzi

zamanlarda padşahın ehsanının rədd edilməməsinin də bir ikram olduğu ənənəsinə riayət etmişsə də, qəbul etdiklərini dərgahın inşasında, müridlərə xidmətdə və qurduğu vəqf fəaliyyətlərində istifadə etmişdir. Bəzi hallarda da özünə təqdim edilən hədiyyələri geri göndərmişdir.

I Əhməd xandan sonra II Gənc Osman ilə də əlaqəsini davam etdirən Hüdayi həzrətləri gəncliyin verdiyi həyəcan və şövqlə dolu bu yeni padşahı da istiqamətləndirmək naminə böyük əmək sərf etdi. O Gənc Osman ki Dövləti-Aliyyənin durğunluq mərhələsinə girdiyini görərək bu gedişatı əngəlləmək üçün yeni hücumlar hazırlayan ideal sahibi bir padşah idi. Bu ərəfədə həccə getməyə niyyətləndi. O dövrdə həccə gediş-gəliş müddəti təxminən bir il çəkdiyi üçün dövlətin nizamı pozulmasın deyə şeyxülislamlar icazə vermədiyi üçün o zamana qədər padşahlardan heç biri həccə getməmiş, hamısı vəkil göndərərək bu fərz ibadəti yerinə yetirmişdilər.



Buradakı həssas nöqtəni çox yaxşı başa düşən Hüdayi həzrətləri Sultan Gənc Osmanın həccə niyyətlənib əvvəlki ənənəni pozmasını doğru görməyərək ona xəbərdarlıq etdi, həccə getməkdən daşındırmağa çalışdı. Ancaq Sultan gəncliyi və təcrübəsizliyi səbəbiylə bu arzusundan imtina etmədi və Hüdayi həzrətlərinin israrlı xəbərdarlıqlarına baxmayaraq təslimiyyətdə zəiflik göstərərək bu niyyətini reallaşdırma yolunda təşəbbüs etdi. Nəticədə bu təşəbbüs yeniçərilər arasında ciddi bir narahatlığa gətirib çıxardı. Bəzi fitnəçilərin də müdaxiləsiylə Sultanın Hicaza getməsindən məqsədin oralardan toplayacağı bir ordu ilə yeniçəriləri ortadan qaldıracağı kimi başa düşüldü. Sultanın bu fəaliyyətini uğursuzluğa düçar etmək istəyən qruplar dərhal məsələni qızışdıraraq tərəfdarlarını hərəkətə keçirdilər və tarixdə "hailə", yəni dram kimi xatırlanan məşhur çirkin cinayəti işlədilər.

Bu hadisə Hüdayi həzrətlərinin mənəvi xəbərdarlığındakı sirr dolu israrın əhəmiyyətini həzin şəkildə sərgiləmişdir.

Dövlət adamlarından bəziləri isə meydana çıxan anarxiyadan uzaq qala bilmək üçün Hüdayi həzrətlərinin dərgahına

sığınmış, beləliklə də özlərini böyük bir təhlükədən mühafizə edə bilmişdilər. Çünki Hüdayi həzrətlərinin dərgahına istər dövlət, istərsə hər hansı fərd heç bir müdaxilə edə bilməzdi. Bugünkü deyimlə desək, dərgahın toxunulmazlığı vardı. Bu səbəbdən bura sığınanlar öldürülmək istənən kəslər də olsa, onlara heç bir zərər verilməz, haqlıdırlarsa Həzrəti Pirin dəlalətiylə Xəlil Paşa kimi bəraət alardılar.

II Gənc Osmanın şəhadətindən sonra taxta çıxan IV Murad xan hələ on dörd yaşında idi. Əyyubda keçirilən qılınctaxma mərasiminə daha əvvəl də bəyan etdiyimiz kimi dövrün ən mötəbər şeyxi vəsfiylə Əziz Mahmud Hüdayi həzrətləri dəvət olundu və Həzrət Pir qılıncı xeyir-dua ilə yeni sultana təqdim etdi.

IV Murad Xan taxta çıxanda yaşı çox az olduğu üçün iplər anasının və bəzi dövlət ərkanının əlində idi. Zaman-zaman bu vəziyyətdən əziyyət çəkən IV Murad xan qiyafətini dəyişərək Hüdayi həzrətlərinin dərgahına gedərək könlünü fərəhləndirər, özünü gələcək günlərə hazırlayardı. Bu ziyarətləri səmimi bir dərvişin ədəb ölçüləri ilə həyata keçirən IV Murad xan bir gün özü ilə birlikdə xidmətçisini də aparmışdı. Dərgahın qapısına çatıb, toxmağı yavaşca taqqıldatdıqda içəridən bir dərvişin:

"- Kimdir?",- sualına xidmətçi vərdiş etdiyi kimi dərhal:

"- Yeddi iqlim padşahı əs-Sultan ibnüs-Sultan Murad xanı Rabi Əfəndimiz təşrif buyurub. Dərhal Şeyx həzrətlərinə bildirilə!.." dedi.

Dərviş də:

"- Bu qapı səltənət qapısı deyil!",- cavabını verərək qapını açmadı.

Xidmətçisinin halına təbəssüm edən IV Murad Xan:

"- Xidmətçi! Bu qapı qulluq və könül qapısıdır",- dedi və toxmaqla qapını təkrar döydü. İçəridən gələn eyni suala böyük bir ədəblə:

"- Şeyx həzrətlərinə Murad qulunuz gəldi deyin!",- ifadəsiylə qarşılıq verdi.

Bunun üzərinə qapı açıldı və içəri alındılar.

O zamanlar xeyli yaşlanmış olan Hüdayi həzrətləri hər cür ləyaqətlə kamala çata bilməsi üçün IV Murad Xana müstəsna münasibət göstərirdi.

Məhz bu münasibət və irşadların bərəkəti ilədir ki, IV Murad xan gün keçdikcə maddən və mənən təkamül etdi, təcrübə və səviyyə qazandı. Böyük iddiaların altına girə biləcək səviyyəyə yüksəldi. Vaxtı gəldikdə isə həyata keçirdiyi ciddi hücumlarla ordudakı və əhali arasındakı intizamı təmin edərək hələ o gün yıxılma təhlükəsi ilə qarşı-qarşıya olan dövləti böyük bir bəladan qurtardı.



Məhz hüdayi həzrətlərinin ən böyük kəramətləri dünya sultanlarını bu cür istiqamətləndirə bilməsi olmuşdur. Bununla birlikdə onun bir çox müşəxxəs kəramətləri də vardır.

Hüdayi həzrətlərinin çox məşhur olan kəramətlərindən biri də çox fırtınalı bir havada heç bir qayıqçının dənizə açıla bilmədiyi bir zamanda öz qayığına minərək bir neçə müridiylə Üsküdardan sağ-salamat qarşı sahilə keçməsidir. Allah-Təalanın izni ilə qayığın izlədiyi yol süd liman olmuş və dörd bir tərəfdən şahə qalxmış dalğalar bu Allah dostunun qayığına heç bir zərər verməmişdi.

Hələ də Üsküdar ilə Sarayburnu arasındakı bu yol "Hüdayi Yolu" adlanır. Həmin yolu tanıyan qayıqçılar şiddətli fırtınalarda bu yoldan istifadə edirlər. Bu, Hüdayi həzrətlərinin günümüzə qədər gəlib çatan açıq-aşkar bir kəramətidir. Bu gününü özündə belə lodoslu havalarda Boğaz paraxod səfərlərinin yalnız Üsküdar-Eminönü xəttində təşkil olunmasının mümkünlüyü olduqca düşündürücüdür.

Osmanlı Dövlətinin son günlərinə qədər Boğazda səfər edən gəmi kapitanları öz sərnişinlərini Üsküdardan keçərkən Əziz Mahmud Hüdayi -quddisə sirruh- dərgahına, Beşiktaş

önündən keçərkən Yəhya Əfəndi dərgahına, Bəykozdan keçərkən də Həzrət Yuşa -əleyhissalam- istiqamətinə tərəf yönəldərək Fatihə oxumağa dəvət edərdilər.

Bir zamanlar camaatın İstanbulda dəfn olunmuş böyük vəlilərə qarşı ədəbi bax belə idi!

Bir nəfər Hüdayi həzrətlərinin kimya elminə vəqf olduğunu eşidib Həzrət Pirin yanına gəldi və:

" -Əfəndim! Sizin kimya elminə vaqif olduğunuzu eşitdim, nə buyurursunuz?",- dedi.

Hüdayi həzrətləri heç bir şey söyləmədən yaxınlıqdakı budaqdan üç yarpaq qopardı və üzərlərinə üfürdü. Allahın izni ilə yarpaqlar qızıl vərəqə çevrildi.

Baş verənləri mat-məəttəl vəziyyətdə seyr edən zavallı adam da eyni şeyi etsə də, buna müvəffəq ola bilmədi. Onu mənalı-mənalı seyr edən hüdayi həzrətləri belə buyurdu:

"- Oğlum! Bunu bil ki, kimya elmini öyrənmək nəfsini kimya etməkdən ibarətdir…"

İstanbulda çox şiddətli taun xəstəliyi yayılmışdı. Hər gün minlərlə adam bu xəstəlikdən ölürdü. Əlindən bir şey gəlməyən əhali naçar vəziyyətdə Əziz Mahmud Hüdayi həzrətlərinin yanına qaçdı. Göz yaşlarıyla ondan dua etməsini istədilər. O da belə buyurdu:

"- Bu cür mənəvi işlərə qarışmaq bizim məşrəbimizlə düz gəlmir. Ancaq madam ki xəstəliyin şiddəti səbəbindən israr edirsiniz, elə isə Qaraca Əhməd qəbiristanlığına gedin! Orada bir sərv ağacının altında bir həsirə sarılıb yatan və "Həsirpuş Baba" adlı bir şəxs var. Ona müraciət edin! Əgər qəbul etməsə, mənim salamımı çatdırın!.."

Bu cavabı alan camaat bribaşa deyilən adamın yanına getdi. Lakin məczub məşrəbli olan bu şəxs xalqın məramını dinlədikdən sonra qəzəblə qışqır-bağır salaraq hamını qovdu və həsirinə bürünüb yatdı. Çəkinə-çəkinə təkrar yanına getdilər və bu dəfə Həzrət Pirin salamını söylədilər. Salamı alan

kimi dik atılan məczub Həsir-puş Baba dərhal istənən duaya başladı. Duadan sonra da:

"- Bu gün bir nəfərin də cənazəsi götürüldükdən sonra bu xəstəlik də qalxsın!",- dedi.

Sonra Hüdayi həzrətlərinin başqa bir əmrinin olub-olmadığını soruşdu və yenidən həsirinə büründü.

Həqiqətən həmin gün taundan bir nəfər də vəfat etdikdən sonra xəstəlik tamamilə ortadan qalxdı.



Dərin elmə malik olduğu üçün Hüdayi həzrətlərinin müridləri arasında böyük alimlər də vardı. Şeyxülislam Xoca Sadəddin Əfəndi, oğlu Əsəd Əfəndi kimi şəxslər onun irşad məclisinə qatılanlardan idi. Təsəvvüf, təfsir, fiqh kimi müxtəlif sahələrdə otuza yaxın əsərin müəllifidir. Qazılıq və müdərrislik vəzifələrini buraxsa da, bu, onun belə bir xidmətə yönəlməsinin səbəbi ilə olmuşdur. Yoxsa dini mübin yolunda nə elmi bir kənara buraxmaq, nə də irfana meyil etməmək doğru deyil. Çünki elmsiz irfan və irfansız elm zərərdir. Bunun üçün təsəvvüfə girdikdən sonra:

*İlahi çün xalas etdin müdərrislik qəzasından*
*Vüsalınla lütf edib qurtar bizi varlıq əzabından*

-deməklə yanaşı şəxsən şeyxinin əmri istiqaətində vaizlik vəzifəsinə davam etmişdir. Həmçinin özündən əvvəlki böyük sufilər kimi təfsir və hədis dərslərini də davam etdirmişdir. Çünki o, bunları deyil, nəfsini tərk və tərbiyə etmişdi.

Hüdayi həzrətlərinin təfsir və hədis dərslərində iştirak edib icazət alan xeyli tələbəsi də olmuşdur. Xəlifələrindən Saçlı İbrahim Əfəndi və Filibeli İsmayıl Əfəndi də bunlardandır.

İsmayıl Haqqı Bursəvi həzrətləri belə deyir:

"Vəlilər arasında qələm əhli olanlar peyğəmbərlər arasında "rəsul" olanlar kimidir. Həzrət Hüdayi də yazmış olduğu əsərləriylə bu rütbəyə sahib olaraq şeyxi Üftadə həzrətlərinə güzgü vəzifəsini həyata keçirmişdir".

İrşad və mənəvi tərbiyəsini şeirləriylə də davam etdirən Əziz Mahmud Hüdayi həzrətləri bu sahədə də könülləri aydınladan çox təsirli əsərlər yazmışdır. Bu gün belə, böyük bir könül həzzi içində söylənən bir çox şeirləri vardır.

Hüdayi həzrətləri bu şeirlərindən birində Allahdan qeyri hər şeyin könüldən çıxarılaraq oraya sırf ilahi məhəbbəti yerləşdirmək xüsusunda belə deyir:

*Neyləyəyim dünyayı*
*Mənə Allahım gərək.*
*Gərəkməz masivayı*
*Mənə Allahım gərək.*

*Əhli-dünya dünyada*
*Əhli-uqba uqbada*
*Hər biri bir sevdada*
*Mənə Allahım gərək.*

*Dərdli dərmanın istər*
*Qullar sultanın istər*
*Aşık cananın istər*
*Mənə Allahım gərək.*

*Bülbül gülə qarşı zar*
*Pərvanəyi yakmış nar*
*Hər qulun bir dərdi var*
*Mənə Allahım gərək.*

*Beyhudə havayı qo*
*Haqqı bula-gör yahu*
*Hüdayinin sözü bu*
*Mənə Allahım gərək.*

Hüdayi həzrətləri şeirlərində Yunus Əmrə həzrətlərinin üslubundan istifadə edərək könülləri mənəviyyat ilə yoğurur.

Bəndələrə bu dünyanın aldadıcı olmasını xatırladaraq fani olmasını yada salır:

*Kim umar səndən vəfayı,*
*Yalan dünya deyilmisən?*
*Muhamməddul-Mustafayı*
*Alan dünyâ deyilmisən?*

*Yürü hey bivəfa yürü,*
*Sənsin hod bir köhnə qarı.*
*Neçə yüz min ərdən geri*
*Qalan dünya deyilmisən?*

*Qəsd edib xalqın özünə,*
*Torpaq doldurub gözünə,*
*Əhli-qəflətin üzünə*
*Gülən dünya deyilmisən?*



*Əgər şahu, əgər bəndə*
*Hər kişiyi salan səndə*
*Kimsə məkan tutmaz səndə*
*Viran dünya deyilmisən?*

*Kimisini nalan edib*
*Kimisini giryan edib*
*Axiri kar üryan edib*
*Soyan dünya deyilmisən?*

*İşin-gücün daim yalan*
*Çox kişidən arta qalan*
*Neçə kərə boşalubən*
*Dolan dünya deyilmisən?*

Bu üslubla insana dünya həqiqətini xatırladan Hüdayi həzrətləri insanın sahib olduğu ali mərtəbəyə, yəni xəlifətullah olma sirrinə diqqət çəkir. Bu sirri insanın Haqq qatından bu

varlıq aləminə gəlişi və yenə Haqqa dönüşü həqiqəti çərçivəsində belə dilə gətirir:

*Əzəldən eşq ilə biz yanə gəldik!*
*Həqiqət şəminə pərvanə gəldik!*
*Tənəzzül eyləyib vəhdət elindən,*
*Bu kəsrət aləmin seyranə gəldik!*
*Keçib fərman ilə bunca avalim*
*Gəzərkən aləmi-insanə gəldik!*
*Fəna buldu vücudi-fani mütləq,*
*Buraxdıq qətrəyi ümmana gəldik!*
*Nəmiz ola Xudaya sənə layiq*
*Həman bir lütf ilə ehsanə gəldik!*
*Umarız erəlim baqi həyata,*
*Civarı-Həzrəti-Rəhmanə gəldik!*
*Keçib axir bu kəsrət aləmindən,*
*Hüdayi xəlvəti-sultanə gəldik!*

Bütün Allah dostları kimi Həzrət Peyğəmbərin məhəbbətində zirvələşən Əziz Mahmud Hüdayi həzrətləri qəlbindəki Rəsulullah eşqini isə belə dilə gətirir:

*Qüdumun rəhməti-zövqi-səfadır, ya Rəsulallah!*
*Zühurun dərdi-üşşaqa davadır, ya Rəsulallah!*
*Nəbi idin dəxi Adəm dururkən mau-tin içrə*
*İmamul-ənbiya olsan, rəvadır, ya Rəsulallah!*
*Hüdayiyə şəfaət qıl əgər zahir, əgər batin*
*Qapına intisab etmiş gədadır, ya Rəsulallah!*

Bir gün Hüdayi həzrətləri müridləri ilə birlikdə qayıqda Boğazı keçərkən şiddətli fırtına qopmuş və şeyx bu şeirlə Allaha dua etmişdir:

*Allahummə ya Hadi*
*Asan eylə yolumuz!*
*Səhhil ubaral-vadi*
*Tiz keçir tut elimiz!*

*Ya Rabb fəzlü-cud ilə*
*Kəmali-şühud ilə*
*Haqqani vücud ilə*
*İslah eylə halımız!*

Gördüyümüz kimi geniş bir ərazidə xidmət fəaliyyəti ilə məşğul olan və bu işdə müvəffəqiyyətə nail olmuş Hüdayi həzrətləri yaşadığı əsrə və sonrakı əsrlərə silinməz bir möhür vurmuşdur. Miladi 1628-ci ildə özündən sonra saysız tərəfdar və bir çox əsər, vəqf qoyaraq bəxtiyar çöhrə ilə Rəhmana qovuşmuşdur.

Rəhmətullahi Əleyh!

Onun həyata keçirdiyi xidmətlər dövlətin və millətin əmin-amanlığı baxımından çox mühüm əhəmiyyət kəsb edir. O, hətta dünya padşahlarını da istiqamətləndirə bilmiş, beləcə böyük bir mülkün əmin əllərdə qalmasını təmin etmişdi. Hələ o dövrlərdə yavaş-yavaş başlayan təkyə-mədrəsə mübarizəsi səbəbindən sarayda və elm mütəxəssisləri arasında bir xeyli nüfuz və təsiri azalan təsəvvüfi həyatı yenidən dirçəldərək cəmiyyətə yeni bir ruh qazandırmışdır.



Onun mənəvi təsirləri vəfatından sonra da davam etmişdir:

1638-ci ildə Bağdad səfərinə çıxan IV Muradın bacarığından xəbərdar olan Səfəvi hökmdarı onun Bağdad önlərinə gələcəyi təqdirdə şəhəri mütləq surətdə itirəcəyini bildiyi üçün sultanı sui-qəsdlə aradan götürməyin ən müvafiq addım olacağını düşünərək xüsusi yetişdirilmiş üç casusu Osmanlı ordusuna göndərmişdi. Bunlar bir gecə vaxtı səkkiz keşikçidən keçərək sultanın yanına girməyi bacardılar. Dərhal xəncərlərini çəkib yatağının başına yaxınlaşdılar. Yatmaqda olan sultan o an bir yuxu görürdü:

Çox sevdiyi mərhum ustadı Əziz Mahmud Hüdayi həzrətləri ona qonaq olmuşdu. Birlikdə oturub söhbət edirdilər. Ancaq bu əsnada Həzrət Pirin o vaxta qədər görülməmiş bir sürətlə birdən ayağa qalxmasıyla qışqırması bir oldu:

"- Oğlum Murad! Ayağa qalx!"

Zatən ustadının ayağa qalxmasıyla ədəbindən ayağa qalxmağa çalışan IV Murad xan, gələn əmrlə daha da sürətlə yerindən sıçradı. Yuxuda baş verən bu sıçrayışla oyanaraq həyatda da yatağından qalxdı və başının üstündə olan əli xəncərli üç nəfəri gördü. Dərhal yorğanını üstlərinə atdı və baş ucundakı təxminən üç yüz kiloqramlıq toppuzuna əl atıb üçünü də yerə sərdi. Beləliklə ustadı Hüdayi həzrətlərinin yeni bir kəraməti ilə reallaşmaq üzrə olan sui-qəsddən xilas oldu.

Həzrət Pirin vəfatından sonra baş verən bu kəraməti zəmanəmizdə də davam etməkdədir və bir çox yaşanmış misalları vardır. İbrət və məlumat almaq baxımından bir misalı da qeyd etmək yerinə düşərdi:

1975-ci il, günlərin birində günorta namazına az qalmışdı ki, Həzrət Pirin türbəsinin qarşısına nur üzlü, əsmər və bəstəboy bir gənc gəlmişdi. O anda Əziz Mahmud Hüdayi Məscidinin imamı ilə rastlaşdı və:

"- Əfəndim! Mən Əziz Mahmud Hüdayini görməyə gəlmişəm! Onunla necə görüşə bilərəm? Bilmirisiniz, buradadır?",- deyə soruşdu.

Belə bir sual qarşısında çaşan imam Məhərrəm Əfəndi:

"- Oğlum! Bəli, Əziz Mahmud Hüdayi buradadır!",- dedi.

Həzrət Pirin orada olduğunu eşidən gənc sevinclə:

"- Xahiş edirəm, məni onunla görüşdürün",- dedi.

Lakin buna bir məna verə bilməyən Məhərrəm Əfəndi türbənin yanında olduqları üçün təkrar:

"- Oğlum! Əziz Mahmud Hüdayi buradadır!",- dedi.

Gənc də tələbini təkrarladı:

"- Elə isə onu mənimlə görüşdür! Mən onunla görüşmək istəyirəm!",- dedi.

Məhərrəm Əfəndi hələ də gəncin bu sözlərindən heç nə anlamadığı üçün məsələni aydınlaşdırmaq üçün:

"- Övladım! Sən Əziz Mahmud Hüdayini tanıyırsan?",- deyə soruşdu.

Üzü kimi qəlbi də pak olan gənc sözün bu qədər uzanmasına və həmsöhbətinin nə üçün onu Mahmud Hüdayi ilə görüşdürmək istəmədiyinə heyrətlənərək:

"- Mən Əziz Mahmud Hüdayini yaxından tanıyıram. Məni bura o dəvət etdi. Biz onunla görüşəcəyimizlə bağlı sözləşmişdik. Mənim gələcəyimdən xəbəri var",- dedi.

Bu zaman Məhərrəm Əfəndi məsələnin fərqli və sirli tərəfinin olduğunu başa düşdü və maraqla soruşdu:

"- Oğlum! Necə sözləşdiniz?"

Gənc izah etməyə başladı:



"- Əfəndim, mən 1974-cü ildə Kipr hərəkatında paraşütlə atılan xüsusi təyinatlı dəstənin əsgəriyəm. Ordumuzun dənizdən, rumların da Beşbarmaq dağlarından qarşılıqlı mübarizə apardığı bir zaman biz paraşütlə tullandıq. Ancaq hava çox küləkli olduğu üçün hərəmiz bir tərəfə düşdük. Mən də düşmən cəbhəsinə endim. Ağaclıq bir ərazidə hər iki tərəfdən atılan dəhşətli atəş altında qaldım. Nə edəcəyimi bilmirdim. Dəhşət içində ikən qarşıma uzun boylu, heybətli və nur üzlü yaşlı bir adam çıxdı. Gülər üzlə mənə baxdı və:

"- Oğlum! Bura düşmən xəttidir. Burada sənin nə işin var? Nə üçün təkbaşına buraya gəlmisən?",- dedi.

Mən də:

"- Baba! Mən gəlməmişəm, külək məni bura atdı",- dedim.

Nur üzlü qoca xəfifcə başını yellədi:

"- Mən də döyüşə gəlmişəm. Məni sizdən əvvəl göndəriblər. Buralara yaxşı bələdəm. Hansı birlikdənsən? Gəl səni onların yanına aparım!",- dedi.

Dəhşətli top atışları altında yola düşdük. Mübarək adam həddindən artıq sakit vəziyyətdə sanki düz yolla gedirmiş kimi rahat idi. Hər hərəkəti məni düşündürürdü. Məndən adımı, haralı olduğumu və bu kimi suallar verdi. Mən də lazımi cavabları verdikdən sonra ondan soruşdum:

"- Baba! Bəs sən kimsən?"

O da:

"- Oğlum! Mənə Əziz Mahmud Hüdayi deyirlər",- cavabı verdi.

Sonra:

"- Baba! Sən mənə çox böyük yaxşılıq etdin. Əgər sağ-salamat vətənə qayıtsam, vəfa borcu olaraq səni ziyarət etmək istəyirəm. Ünvanını ver mümkündürsə!",- dedim.

O nur üzlü mübarək yalnız bunları söylədi:

"- Oğlum! Üsküdara gəlib kimdən soruşsan, məni sənə göstərərlər!".

Elə bu zaman bizim bölüyə çatmışdıq. Minnətdarlıq və hörmətlə bu gözəl insanın əlini öpdüm, vidalaşdıq. Sonra da komandirimin yanına getdim.

Məni bir an qarşısında görən komandirim məəttəl qaldı. Mənim o atəş xəttindən necə xilas olduğumu və bizimlilər tərəfə gəlib çıxdığıma heyrət edərək yüksək səslə soruşdu:

"- Bura necə gələ bildin?"

Mən də:

"- Məni yaşlı, nurani bir adam gətirdi",- dedim.

Müharibə qurtarandan sonra məmləkətimə qayıtdım. Ancaq Əziz Mahmud Hüdayinin mənə etdiyi yaxşılığı heç vaxt yaddan çıxmadım. Ona görə də bir vəfa borcu olaraq ziyarətinə niyyətlənib Üsküdara gəldim. Kimdən soruşsam, "o, mübarək bir adamdır" deyərək buranı təsvir etdi".

Bu vaxt sükut edib dərin bir nəfəs alan gənc Məhərrəm Əfəndiyə əvvəlki tələbini səsləndirdi:

"- Əfəndim! Əziz Mahmud hüdayi ilə belə tanış olmuşuq. Artıq himmət edin, məni onunla görüşdürün!",- dedi.

Beləliklə məsələni bütün təfərrüatıyla öyrənən Məhərrəm Əfəndi şahid olduğu bu mənəvi mənzərə qarşısında çox duyğulandı. Yalvaran gözlərlə üzünə baxan gəncə bir neçə saniyə heç nə deyə bilmədi. Sonra da özünü toplayıb həyəcanlı səslə, kəkələyərək:

"- Övladım! Əziz Mahmud Hüdayi bu gün həyatda yaşayan adam deyil, 1543-1628-ci illərdə yaşamış böyük bir Allah dostudur. Hər halda səni buraya Fatihə oxumaq üçün çağırıb! Bu onun türbəsidir!",- deyə bildi.

Bu cavabı alan vəfalı və imanlı gənc yalnız o an öyrəndiyi həqiqətlə son dərəcə mütəəssir oldu. Üzünü görmək niyyət və həsrətiylə gəldiyi və həyatını borclu olduğu böyük vəlinin yalnız türbəsiylə qarşılaşmışdı. Döyüş meydanının o dəhşətli həngaməsində yaşadığı mənəvi yardımın fərqinə yenicə vardı və gözlərindən yaşlar süzüldü. Hıçqıra-hıçqıra əlləri ilə üzünü tutdu, için-için ağlamağa başladı.

Hüdayi mehrabının imamı da ağlayırdı…

Bu hadisə Allahın vəli qullarına bəxş etdiyi mənəvi təsərrüfü nə gözəl ifadə edir. Bu təsərrüf Həzrət Peyğəmbərdən (s.ə.s) günümüzə qədər gələn övliyaullahın mənəvi yardımlarından və kəramətlərindən bir misaldır.

Bunu unutmamaq lazımdır ki, faili-mütləq yalnız Allahdır. Onun qullara köməyi istər mələklər vasitəsilə, istərsə də Allahın vəli qulları vasitəsilə günümüzə qədər olmuşdur.

Əziz Mahmud Hüdayi həzrətlərinin Sultan I Əhməd xanın xahişi ilə etdiyi bu dua nə qədər mənalı və gözəldir:

"Ya Rəbbi! Qiyamətə qədər bizim yolumuzda olanlar, bizi sevənlər və ömründə bir dəfə türbəmizə gəlib ruhumuza Fatihə oxuyanlar bizimdir... Bizə mənsub olanlar dənizdə bo-

ğulmasınlar, ömürlərinin axırında fağırlıq görməsinlər, imanlarını qurtarmadıqca ölməsinlər, öləcəklərini bilsinlər və xəbər versinlər, ölümləri dənizdə boğularaq olmasın!..”

Bütün üləma və övliya bu duanın qəbul olduğunu, bu yola mənsub olanların dənizdə boğulmadıqlarını və bir çox kimsənin vəfat günlərinə yaxın öləcəklərini xəbər verdiklərini bilirdirirlər.

Yaşadığı zamanda və sonrakı illərdə təsir və nüfuzu davam edən Hüdayi həzrətləri haqqında həddən artıq təzimli və ehtiramlı ifadələr işlədilmişdir. Bunlardan bəzisi belədir:

Dövrünün qütbü, Əziz, həqiqət sirlərinin xəzinəsinə vasil, mücahidə mehrabının qəndili, təriqəti-Məhəmmədiyyə sirlərini şərh edən, həqiqəti-Əhmədiyyə nurlarının nazil olduğu könül, sultani-sabitqədəmi-məqami-xilafət və vəlayət.

## İBRAHİM HAQQI ﷺ

(d. 1703 / v. 1780)

Ərzurumlu İbrahim Haqqı həzrətləri XVIII əsrdə yaşamış dəyərli bir alim, böyük bir mütəfəkkirdir. Bir-birindən qiymətli əsərləriylə mədəniyyət həyatımıza əhəmiyyətli töhfələr vermişdir. Bunlardan ən məşhur olanı şübhəsiz *Mərifətnamə*dir ki, orada özü, ailəsi və yetişdiyi mühitlə əlaqədar əhəmiyyətli məlumatlar vermişdir. Bu səbəblə onun bioqrafiyasını yazanların ilk müraciət kitabı *Mərifətnamə* olmalıdır. Mövzuyla əlaqədar ilk mənbədən məlumatları orada tapa biləcəklər. Buna baxmayaraq onun həyatı ilə əlaqədar bir-biriylə ziddiyyət təşkil edən olduqca fərqli məlumatlar yazılmışdır. Sözügedən məlumat fərqliliyinin qarşısını almaq üçün 1943-cü ildə Həzrətin qohumları toplanaraq belə bir qərara gəlmişlər:

"İbrahim Haqqı həzrətlərinə və əsərlərinə aid bir çox kəslər yazmaqdadır. Bunlar içində bu mövzuda səlahiyyətli və məlumatlı kəslərin əhəmiyyətli və qiymətli yazıları olduğu kimi, çox təəssüf ki, naşı kimsələrdə az deyilidr. İbrahim Haqqı həzrətlərini Tərcanlı göstərənlər, məzarının Həsanqalada olduğunu və yola qarışdırıldığını iddia edənlər belə olmuşdur. Doğum və ölüm tarixlərini doğru təsbit edə bilməyənlər çıxmışdır. İbrahim Haqqı həzrətlərinin həyatı haqqında böyük səhvlər edən və o qiymətli alimin əsərlərinin adlarını belə yanlış yazan naşı kimsələr təəssüf ki, mövcuddur. Bunlar ya Qamusul-Aləm, Osmanlı Müəllifləri, Həyat Ensiklopediyası kimi mövzunu əskik və qüsurlu yazan

mənbələrə müraciət edirlər, ya da ordan-burdan əldə etdikləri əsassız söz-söhbətlərlə kifayətlənərək ortaya tam fərqli bir İbrahim Haqqı çıxardırlar… İbrahim Haqqı həzrətlərinin yaxınları olaraq onun əsərlərinin adlarını, mövzularını, nəşr edilməyənlərin harada olduğunu, həyatını işıqlandıran bütün sənədləri göstərmək və bildirmək üzərimizə borcdur və bu eyni zamanda tarixi bir vəzifədir."

Bütün bu səhv məlumatların qarşısını almaq üçün birlikdə fəaliyyət göstərmək qərarına gəlmişlər və bu qərara görə Məsih İbrahim haqqıoğlu işə başlamışdır. Ərzurumlu İbrahim Haqqı adlı əsər, yuxarıda adı keçən yığıncaqda alınan qərar nəticəsində başlanan iş ilə ortaya çıxmışdır. Bu gün İbrahim Haqqı həzrətləri üzərinə edilən işlərin çoxu sözügedən şəxsin əsərinə əsaslanır.



**İbrahim Haqqı Həzrətlərinin Doğumu və Ailəsi**

İbrahim Haqqı həzrətləri 18 May 1703-cü ildə (h. 1115, Məhərrəminin ilk cüməsi) Ərzuruma bağlı Həsanqalada Venera ulduzunun hakim olduğu səadətli bir vaxtda -günəşin üfüqdə şəfəq saçması ilə birlikdə - dünyaya gəlmişdir. Atası Dərviş Osman Əfəndi, anası isə Həzrət Peyğəmbərin (s.ə.s) soyundan Şərifə Hənifə Xatındır.

İbrahim Haqqı həzrətlərinin ata tərəfiylə əlaqədar iki rəvayət vardır. Birinci rəvayətə görə onun babaları Bağdad sarayında irşad və imamət vəzifəsini icra edərlərkən, Hülaqu Xanın Bağdadı zəbt etməsi nəticəsində Anadoluya köç etmişlər və bundan sonra Sivasa bağlı Qazovasında məskunlaşmışlar. Bu insanların bir qolu Pasinlərə, bir qolu Ərzurumun cənubundakı Avnik kəndinə, bir qolu da Xorasana yerləşmişlər. Son qolun əhəmiyyətli siması Dursun Məhəmməd daha sonraları Hasənqalaya gəlmişdir.

İkinci rəvayətə görə İbrahim Haqqı həzrətlərinin ata tərəfindən babaları Türküstandan Anadoluya köç edərək, bir qolu Iğdırın Kəmərli qəsəbəsinə, digər qolu Bağdada yer-

ləşmişdir. Kəmərlidə məskunlaşanlar Axundoğulları, Bağdada yerləşənlər isə Molla oğulları adıyla tanınmışlar.

Məsih İbrahim Haqqı oğlu yuxarıda adını verdiyimiz əsərinin sonuna İbrahim Haqqı həzrətlərinin Durmuş Məhəmməddən etibarən bir şəcərəsini qoymuşdur. Bu şəcərədə İbrahim Haqqı həzrətlərinin babası Molla Bəkirin bütün uşaqları və nəvələri də ətraflı şəkildə verilmişdir.

İbrahim Haqqı həzrətləri Mərifətnamədə babasının (atasının atası) Həsənqala camaatından Dursun Məhəmməd oğlu Molla Bəkir olduğunu yazır. Həmçinin onun bildirdiyinə görə babası Kasıblara və qonaqlara ikramı çox sevməsi, kəskin fikirləriylə idarəçilərə yol göstərməsi, gözəl və faydalı nəsihətləriylə xalqa kömək etməsiylə tanınırdı. Deyilənə görə Molla Bəkir ikramı o qədər sevərdi ki, qonaq gəlmədiyi axşam ac yatardı.

İbrahim Haqqı həzrətlərinin atası Dərviş Osman Əfəndi 1081-ci il Rəbiüləvvəl ayının on dördündə, Bazar ertəsi (4 avqust, 1670) günü dünyaya gəlmişdir. Oğlunun doğumuna çox sevinən Molla Bəkirin Həsənqala camaatına ziyafət verdiyi deyilir. Osman Əfəndi iyirmi yaşına qədər Həsənqalada Qaraşeyxoğlu Seyid İbrahim Əfəndidən sərf, nəhif, fiqh və elmi-fəraiz oxuyub, təfsir, hədis və əqaid öyrənmişdir. Osman Əfəndi kənddə gözəl əxlaqlı və xoş xasiyyətli olaraq tanınmışdır. Mərifətnamədə ifadə edildiyinə görə atası Osman Əfəndi son dərəcə utancaq bir insan idi. Hətta toy gecəsi insanlardan qaçıb minarədə gizlənmişdir. Daha sonrakı günlərdə isə Allahın lütfü ilə yoldaşıyla  xoşbəxt günlər sürməyə başlamışdır.

Bir payız mövsümündə Molla Bəkirin evinə Dərviş Zəkəriyə adlı Özbək bir qonaq gəlir. Daha sonra bu şəxs xəstələnərək bütün bir qışı orada keçirir.

Molla Bəkir oğlu Osman Əfəndini Dərviş Zəkəriyənin xidmətini görməklə vəzifələndirir. Osman Əfəndi də bu vəzifəni layiqiylə yerinə yetirir. Özbək dərviş gedərkən Osman

Əfəndiyə bəzi təsəvvifi sirləri açır. İstiğfar, salavat və Fatihədən sonra gündə on min ədəd kəlmeyi-tövhid (Lə iləhə illəllah) zikri etməsini tapşırır. Osman Əfəndi də bu tövsiyəyə uyğun olaraq zikrə davam edir. Ancaq aradan uzun bir müddət keçdikdən sonra Osman Əfəndinin rahat həyat tərzi pozulmağa başlayır. Azak səfərində iştirak edən atasının vəfatından sonra atasından qalan ticarət, əkinçilik, cütçülük, dükan, gələn-gedən qonaqlarla maraqlanması və bu kimi iş-güc Osman Əfəndini zikrindən uzaqlaşdırır. Bunların üstünə atasının həsrəti də əlavə olduqda Dərviş Osman Əfəndi kəlmeyi-tövhidin nuru və ayrılığın şiddətli əzabıyla yanıb alovlanaraq h. 1110-cu ilin (m. 1698) əvvəllərində amansız bir xəstəliyə tutulur. Daha əvvəllər mülayimliyi ilə bilinən və gözəl əxlaqıyla tanınan Osman Əfəndinin xasiyyəti dəyişir; hər gördüyü şeyə hisrlənməyə və hər eşitdiyi səsə reaksiya verməyə başlayır. Bu vəziyyət onun özünü də çox narahat edir, ancaq əlindən bir şey gəlmir. Hər il bir oğlu doğulub üçdörd aylıq ikən ölürdü. Bu və bənzəri ağrılar səbəbiylə Osman Əfəndi getdikcə dünyadan üz çevirməyə başlayırdı. H. 1115-ci il Məhərrəm ayının ilk cümə gecəsi (18 May, 1703) nə edəcəyinə qərar vermək üçün istixarə edir. Yuxuda ona dünyanı tərk edərək Mövlanı istəməsi əmr olunur. Yuxudan oyandıqdan sonra səyahət və mürşidi-kamil tapma həvəsi ilə yanıb alovlanmağa başlayır.

Həmin gecənin səhərində Ərzurum və ətrafında yaşayanların "əzəl bahar" dedikləri yaz mövsümünün sonlarına rast gələn Məhərrəm ayının ilk cümə səhəri günəş doğularkən (18 May, 1703) Dərviş Osman Əfəndinin bir oğlu dünyaya gəlir. Doğulan bu körpə İbrahim Haqqı idi. Oğlunun doğum xəbəriylə Osman Əfəndi maddi və mənəvi bütün kədərlərindən xilas olmuş, lakin bu vəziyyət uzun müddət davam etməmişdir. Xəstəlik və daxili narahatlıq bir müddət sonra onu yenidən narahat etməyə başlamışdır.

İbrahim Haqqı həzrətləri hələ iki yaş yarım ikən atası Dərviş Osman Əfəndi bir səyahətə çıxır. Müəllimi Qara Şeyx oğlu İbrahim Əfəndinin də uyğun hesab etməsiylə səyahət etmək

və bir mürşidi-kamil tapmaq arzusuyla gizlicə Həsənqaladan ayrılır. 1117-ci ilin Rəcəb ayında (Oktyabr, 1705) Ərzuruma gəlir. Ərzurumun tanınmış simalarından Kömrükçü Dərviş Əfəndi ləqəbiylə tanınan Sarı Kömrükçünü oğlu İbrahim Haqqının yanına həm müəllim, həm himayəçi, həm də tərbiyəçi olaraq qoyur.

Dərviş Osman Əfəndi Ərzurumda Həbib Əfəndidən təsəvvüf təhsili alır. Həbib Əfəndinin Mehdi Məhəlləsində inşa etdirdiyi məsciddə imamlıq edir. Bu minvalla Ərzurumda beş ildən çox qalır.

İbrahim Haqqı həzrətlərinə "Ərzurumi" deyilməsinin səbəbini atası Dərviş Osman Əfəndinin Ərzuruma köç etmiş olmasına bağlayanlar vardır.

### Uşaqlığı və İlk Təhsili

İbrahim Haqqı həzrətlərinin uşaqlıq illərindəki təhsili ilə əlaqəli qəti və dəqiq bir məlumat yoxdur. "Səkkiz yaşına qədər elm və irfan sahibi atasının tərbiyəsidə böyümüşdür. İlk təhsilini ondan almışdır" deyənlərin bunu sistemli bir təhsil kimi əks etdirmələri də doğru deyil. Çünki hələ kiçik yaşdakı İbrahim Haqqı həzrətləri o illərdə Həsənqalada anasının yanında idi. Bir tərəfdən özünə mürşidi kamil axtaran, digər tərəfdən də xəstəliklərlə mübarizə aparan atası isə Ərzurumda yaşayırdı. Bu səbəbdən İbrahim Haqqı həzrətlərinin o yaşlarda atasından sistemli və nizamlı bir təhsil alması mümkün deyildi. Buna görə də İbrahim Haqqı həzrətləri üçün "bəzən Ərzuruma atasının yanına gətirilmiş və o dövrlərdə atasından müəyyən şeylər öyrənmişdir" demək daha doğrudur.

Dərviş Osman Əfəndi Ərzurumda yaşadığı əsnada Əyyub Əfəndidən təsəvvüf təhsili almış və daha əvvəl Həbib Əfəndi ilə oxuduğu "əs-Seyru vəs-suluk iləl-Məlikil-müluk" adlı kitabı bir də onunla oxumuşdur.

Bu dövrdə bir mürşidi-kamil tapmaq arzusuyla davamlı səyahət arzusunda olan Osman Əfəndi həmin günlərdə Lala

Paşa Məscidinə vaiz olaraq gələn bir Özbək ilə tanış olur. Onu özünə mürşid qəbul edib arxasından getmək istəyir. Özbək vaiz isə muraqəbə edərək onun nəsibinin İsmayıl Fakirullah Əfəndidə olduğunu və iki ilə qədər ona qovuşacağını deyir. Bu xəbərə sevinən Dərviş Osman Əfəndi ona yol yoldaşı olaraq Əyyub Əfəndini tapır. Səfər hazırlıqları görməyə başlayırlar.

Dərviş Osman Əfəndi istixarə edir və yuxusunda Məhərrəm ayının ilk cümə gecəsi dünyanı və dünyalığı tərk edərək, məhabbətullah yolunda axtardığını tapma əmrini alır. Kiçik oğlu İbrahim Haqqını iki qardaşına əmanət edib Əyyub Əfəndi ilə h. 1122-ci il Cəmaziyələvvəl ayının doqquzuncu günü (m. 6, İyul, 1710) səfərə çıxır. İki yoldaş əvvəl Bitlis tərəfə gəlirlər. Oradan həcc ibadəti etmək niyyətiylə Siirt tərəfinə gedirlər. Siirt yaxınlarında Tillo (Aydınlar) deyilən bir qəsəbədə Şeyx İsmayıl Fakirullah həzrətlərinin adını eşidib ziyarətinə gedirlər.



Rəvayətə görə ilk günlərdə Şeyx İsmayıl Fakirullah həzrətlərindən Əyyub Əfəndi daha çox təsirlənir və oradakı məsciddə etiqafa girir. Dərviş Osman Əfəndi də 1122-ci il Şaban aynın ikinci günündən (m. 26 Sentyabr, 1710) Ramazan ayının sonuna qədər (22 Noyabr, 1710) yoldaşı ilə birlikdə etiqafa girir. Bundan sonra ikisi də Şeyx Fakirullah həzrətlərinin mənəvi kamalından təsirlənərək ona bağlanırlar və yanında qalırlar. Bayramdan sonra Molla Əyyub Əfəndi Ərzuruma geri dönür.

Dərviş Osman Əfəndi isə İsmayıl Fakirullaha xidmət edir və çəkdiyi bütün çətinliklərdən xilas olur. Beləcə Dərviş Osman Əfəndi səkkiz ildir axtardığı mürşidi-kamili, sükunət və səadəti tapır. Şeyx Fakirullah həzrətlərinin və təkyənin "Rəisul-xuddam"ı, yəni xidmətçilərin başçısı olma şərəfini qazanır.

**Tilloya İlk Gəlişi**

İbrahim Haqqı həzrətlərinin əmisi Şeyx Əli Əfəndi doqquz yaşında ikən onu atasının yanına, Tilloya aparır. Kiçik

yaşdakı İbrahim Haqqı həzrətləri atasının şeyxi Fakirullah Əfəndinin təsirinə düşür və ona heyran olur. O da atasıyla birlikdə İsmayıl Fakirullahın yanında qalır. İsmayıl Fakirullah Əfəndi öz evinin qarşısında Osman Əfəndi üçün bir otaq (hücrə) düzəltdirir və İbrahim Haqqı həzrətləri atası ilə birlikdə bu otaqda qalır. Cəlaləddin Torpaq həmin otağının bu gün də mühafizə edildiyini qeyd edir.

Tilloda təhsil alan İbrahim Haqqı həzrətləri Ərəb, Fars və Türk dillərini mükəmməl öyrənir və nəticədə hər üç dildə şeir yazacaq səviyyəyə gəlir.

İbrahim Haqqı həzrətlərinin sözlərinə görə atası Dərviş Osman Əfəndi Şeyx İsmayıl Fakirullah həzrətlərinin yanında on il qalmışdır. Axtardığı mənəvi rahatlığı orada taparaq kamillik yolunda yüksək mərtəbələr qət etmişdir. Əlli iki il ömür sürən Dərviş Osman Əfəndi hicri 1132-ci ilin Rəcəb ayında (M. 24 May, 1720) cümə günü səhərə yaxın dünyasını dəyişmiş və Osman Əfəndinin cənazə namazını şeyx İsmayıl Fakirullah həzrətləri qıldırmışdır.



Altı yaşında anası vəfat edən İbrahim Haqqı həzrətləri, on yeddi yaşında ikən də atasını itirmiş və atasının ölümündən sonra 1720-ci ildə Tillodan Ərzuruma getmişdir. Bir müddət Ərzurumda qaldıqdan sonra təkrar Tilloya qayıdan İbrahim Haqqı həzrətlərini Şeyx Fakirullah həzrətləri atası Osman Əfəndinin otağına yerləşdirmişdir. İbrahim Haqqı həzrətləri şeyxindən onu *"fəna fillah"* təriqətinə süluk etdirməsini xahiş etmişdir. İsmayıl Fakirullah həzrətləri də onun bu istəyini yerinə yetirmişdir. Sözügedən təriqətin altı qanunu olub bunlar: - könül, təslim, riza, müraqəbə və səbirdir. Bununla birlikdə İbrahim Haqqı həzrətlərinin şeyxindən klassik mənada bir xilafət alıb almadığı dəqiq olaraq bilinmir. Həzrət bu təriqətə necə süluk etdiyini və təriqətin əsaslarının nə olduğunu Ərəb dilində bir risalə şəklində "Süluku-Təriqul-Fəna" adıyla qələmə almışdır. Bu eyni zamanda onun ilk əsəridir.

**Gənclik Dövrü**

Şeyx İsmayıl Fakirullah həzrətləri 11 Mart 1735-ci ildə vəfat edincə, İbrahim Haqqı həzrətləri yenidən Ərzuruma getmiş və yuxarıda qeyd edilən Həbib Əfəndi Məscidində imam-xətib olmuşdur. 1736-cı ildə otuz üç yaşında ikən Firdövs Xanım ilə evlənmişdir.

1150/1738-ci ilin Mart ayında ilk dəfə həccə getmiş və bu vaxt bir çox yerlərə səyahət etmişdir. 1742-ci ildə Ərzurumlu Hüseyn Bəyin qızı Fatma Xanım[1] ilə evlənmişdir. Bu, onun ikinci evliliyi idi. Hicazdan qayıtdıqdan sonra da Həbib Əfəndi Məscidində imam-xətiblik vəzifəsinə davam etmiş və məşhur Türk-İslam şairlərinin Farsca şeirlərini "Lubbul-Kutub" adıyla bir yerə toplamışdır.



Ata yurdu olan Həsənqalanı unutmayan İbrahim Haqqı həzrətləri təxminən 1742-ci ildə Fərhad Kətxuda məhəlləsində bir ev tikdirmişdir. Bu evi tikdirdikdən bir müddət sonra Həsənqalalı Bəlkis xanımla evlənmişdir. Bu, onun üçüncü evliliyi idi. Bir neçə il sonra Züleyxa adlı bir xanımla evlənmişdir. Bu isə onun dördüncü evliliyi idi.

İbrahim Haqqı həzrətlərinin xanımlarının ilk ikisi Ərzurumda, sonrakı ikisi də Həsənqalada yaşayırdı. Bəzən hamısının bir yerdə qaldığı günlər də olurdu və onlar bir-birlərinə "bacı" deyə xitab edirdilər. Onlar öz aralarında mehribanlıqla dolanırdılar. Həzrətin oğulları İsmayıl Fəhim ilə Əhməd Naimi Ərzurumda oxuyurdular. Özü də daha çox qışda Ərzurumda, yazda isə Həsənqalada qalırdı.

**İstanbul Ziyarətləri və Təlim-Tədris Fəaliyyətləri**

İbrahim Haqqı həzrətləri 1747-ci ildə ilk dəfə İstanbula gəlmiş və dövrün padşahı Sultan I Mahmudun (1730/1754) xüsusi iltifatını görmüşdür. Aylarla İstanbulda qalmış və Saray

1. Bəzi qaynaqlar Fatma xanım üçün Türkçə ifadəyə uyğun olaraq "Fadimə xanım" deyilmişdir.

kitabxanasında iş imkanı tapmışdır. Xüsusilə astronomiyaya marağının bu kitabxanadakı işləriylə başladığı deyilə bilər.

*Mərifətnaməni* yazmasında da böyük təsiri olan bu ziyarət əsnasında, bəlkə yalnız Sarayda olan və başqa yerlərdə bənzərinə rast gəlinməsi qeyri-mümkün olan kitablardan faydalandığı; lazımlı gördüyü yerlərdən qeydlər aldığı, özünə lazım olan vəsait və məlumatı yığdığı təxmin edilir.

İbrahim Haqqı həzrətlərinin Saray kitabxanasında apardığı araşdırmalar sayəsində Osmanlı xaricindəki dünyanın bu çağda əldə etdiyi elmi nailiyyətləri uzaq bir pəncərədən olsa da izləmə imkanı tapdığı ifadə edilir. Məsələn, Mərifətnamənin yazılışında və mövzularında XVIII əsr Osmanlı cəmiyyətinə təsir edən "Məsnəvi"nin Sarı Abdullah tərəfindən edilən şərhinin, Katib Çələbinin "Cahannüma və Kəşfüz-Zünunu"nun, Övliya Çələbinin "Səyahatnamə"sinin, Şamlı Əbu Bəkirin "Kitabi-Atlas Major Tərcüməsi"nin və Kopernikin "Günəşin Mərkəzliyi nəzəriyyəsi"nin öyrənilməsinin təsirləri olduğu irəli sürülə bilər.



İstanbul səyahəti əsnasında İbrahim Haqqı həzrətlərinin təhsil fəaliyyəti ilə məşğul olmasına icazə verilərək dərs oxutmaq şərtiylə, 1160/1747-ci ildən etibarən Ərzurumdakı Əbdürrəhman Qazi zaviyədarlığı ona tapşırılmışdır.

İbrahim Haqqı həzrətləri İstanbuldan Ərzuruma qayıtdıqdan sonra bir müddət yenə Həbib Əfəndi Məscidində imamlığa davam etmişdir. 1750-ci ildə "*Tövhid*"ini və ilk Türk dilində mənzum əsəri "*Tərtibul-Ulum*"unu yazmış və burada ilk dəfə Haqqı təxəllüsünü istifadə etmişdir. 1753-cü ildə bir "*Ruznamə*" hazırlamışdır. Həmçinin bu illərdə beş böyük əsərindən biri olan "Divan"ı qələmə almışdır.

İbrahim Haqqı həzrətləri daha sonra imamlıq vəzifəsini eyni zamanda yaxşı bir musiqişünas olan oğlu İsmayıl Fəhimə həvalə edərək ikinci dəfə İstanbula getmək qərarına gəlmişdir. Bu vaxtlar Həkimoğlu Əli Paşa (ö. 1758) üçüncü dəfə sədrəzəm olmuşdur. Həkimoğlu Əli Paşa İbrahim Haqqı

həzrətlərinin şeyxi Fakirullah Əfəndiyə hörmət və ehtiram göstərən bir dövlət adamı idi. Həkimoğlu Əli Paşa bəylik hesabları gördürmək üçün Ərzurum gömrükçüsü Məhməd Sunullah Ağanı İstanbula çağırtmışdı. Sunullah Ağa İbrahim Haqqı həzrətlərinin ona yol yoldaşı olmasını istədikdə Həzrət eyni zamanda atasının da dostu olan Sarı Gömrükçünün xahişini yerə salmayaraq 1168-ci il Şaban ayının on üçündə, şənbə günü (24 May, 1755) İstanbula getmək üzrə Ərzurumdan yola çıxdı.

Sunullah Ağanın yanında bir at yükü qiymətli əşya ilə İstanbula getdiyini yolda öyrənən İbrahim Haqqı həzrətləri yol yoldaşına “Sənin hesabından qorxun varsa, bu qiymətli hədiyyələrin yoldaşlığı sənə kifayət edər, mən buradan geri dönməliyəm”, -deyir.



Sunullah Ağa hesabında bir nöqsan olmadığını, hədiyyə aparmanın adət olduğunu söyləsə də, İbrahim Haqqı həzrətlərinin bundan narahat olduğunu anlayınca hədiyyələrlə dolu atı geri qaytartmışdır.

Birinci İstanbul ziyarətindən daha uzun sürdüyü aydın olan bu ikinci ziyarət əsnasında da İbrahim Haqqı həzrətləri kitabxana işləri ilə məşğul olmuşdu. Belə ki, Mərifətnaməni İstanbuldan qayıtdıqdan qısa bir müddət sonra başa çatdırması onun bu əsərlə əlaqədar İstanbulda ciddi bir hazırlıq gördüyü qənaətinə gəlməyə əsas verir.

İbrahim Haqqı həzrətlərinin İstanbuldan dörd xanımına yazdığı sevgi, həsrət və iltifatlarla dolu məktubları nəşr edilmişdir və orijinalları nəvələri tərəfindən saxlanılır.

İstanbuldan qayıtdıqdan sonra Həsənqalada yaşayan İbrahim Haqqı həzrətləri bir tərəfdən elmi işlərə məşğul olmuş və tələbə yetişdirməyə başlamışdır. 1170/1757-ci ildə (avqust ayının ortalarında) *Mərifətnamə*ni, 1761-ci ildə *İrfaniyə* adlı əsərini tamamlamışdır.

1763-cü ildə (1177) üçüncü dəfə Tilloya getmək üzrə Ərzurumdan ayrılmışdır. Təkman-Xınıs-Bulanıqsu-Lizqalası-Muş

yoluyla on iki gündə Bitlisə gəlmiş və iki gündə Siirt yoluyla Tilloya çatmışdır.

O ilin qışını Tilloda keçirən İbrahim Haqqı həzrətləri, 1764-cü ilin Aprel ayı sonlarında qayınları Həmzə Ganiyyullah və Mustafa Fani ilə birlikdə həcc səfərinə çıxdı və yol boyunca müxtəlif elm mərkəzlərini ziyarət etdi. Hələb, Şam, Məkkəyi-Mükərrəmə, Mədinəyi-Münəvvərə, Qüdsü-Şərif və bənzəri tarixi və müqəddəs şəhərlərdə dövrün məşhur alimlər ilə görüşüb tanış oldu və bunlarla təmasını davam etdirdi. İbrahim Haqqı həzrətləri ikinci həccini, mərhum şeyxi İsmayıl Fakirullah Həzrətləri üçün etdiyini ifadə edir.

İbrahim Haqqı həzrətləri Tilloda eyni zamanda dərs də demişdir. Tillo və ətrafından çox tələbəsi vardı. Çox vaxt çöldə böyük bir "Budum (ya da Bıttım)" ağacının altında dərs deyərdi.

İbrahim Haqqı həzrətləri 1181/ 1768-ci ildə Ərzurum müftisi şeyx Mustafa ilə üçüncü və son həcc səfərinə çıxdı. Fevral ayının axırlarında Şama çatdılar və Ramazan bayramını orada keçirdilər. Şamda on gün qaldıqdan sonra 8 Mart 1768-ci ildə Mədinəyə getmək üçün yola çıxdılar. Ziyarətlərdən sonra 23 İyun 1768-ci ildə Şama döndülər. İbrahim Haqqı həzrətləri buradan əmisinin oğulu Yusif Nəsimə göndərdiyi məktubda öz əsərlərinin Şam və ətrafında oxunub bəyənildiyini yazmışdır.

İbrahim Haqqı həzrətləri həcc dönüşü Ərzuruma gəldiyində yoldaşı Firdevs Xanımın vəfat etdiyini öyrəndi. (1181/1768) Bunun üzərinə Hasanqaladakı yoldaşı Belkıs Xanım və oğulu Məmməd Şakirin yanına getdi. İki-üç il burada qaldı. 1771-ci ildə oğulu İsmayıl Fehim ilə birlikdə dördüncü və son dəfə çox sevdiyi Tilloya getdi. İbrahim Haqqı həzrətləri bu gəlişindən etibarən ömürünün sonuna qədər artıq Tillodan ayrılmamışdır.

İbrahim Haqqı Həzrətləri 1775-ci ilin baharında xəstələndi. Altı-yeddi ay sonra ancaq yataqdan qalxa bildi. Bir neçə

aydan sonra təkrar yatağa düşdü. Bir müddət sonra təkrar yaxşılaşdı.

Bu zaman *Marifətnamədəki* -o dövr üçün müasir sayılan- məlumatlar və müsbət elm materialları, Ərzurumdakı bəzi təbəqələr tərəfindən pislənilməyə və söz-söhbətə səbəb olmuşdu. Həzrət bunun üzərinə həm kitabını qurtarmaq, həm də dinsiz olaraq günahlandırılmamaq üçün 1777-ci ildə o günün astronomiyasını izah edən *"Heyətul-İslam"* adlı əsərini yazaraq bir məktubla əmisi oğuluna göndərmişdir. Bundan sonra sünni əqidəyə bağlılığını isbat etmək məqsədiylə ayə və hədislərdən başqa şeylərlə məşğul olmadığını bildirən *Urvətul-İslam* və *Heyətul-İslam* adlı iki əsəri yazaraq müxtəlif şəxslərə göndərmişdir. Ərzurumdakı Yusif Nəsimə də *Urvətul-İslam* ilə birlikdə gizli işarəli bir məktub da göndərərək *Avnikli Kəzzab* deyə adlandırdığı Xəlilin izah etdiklərinə inanmamalarını və onun söylədiklərinin böhtan olduğunu bildirmişdir.



**Yaşadığı Dövrün Ümumi Xüsusiyyətləri**

İbrahim Haqqı həzrətləri XVIII əsrdə yaşamış və Türk-İslam mədəniyyətinə çox böyük xidmətlər vermiş əhəmiyyətli bir şəxsiyyətdir. XVIII əsr Avropa insanının bir çox sahədə xüsusilə, əsgəri, təhsil sistemi və zehniyyətində, elmdə və mədəniyyətdə əhəmiyyətli addım atdığı və nəaliyyətlər qazandığı, yeni kəşf və icadlara yönəldiyi bir çağdır. Osmanlı dövləti də qərb mədəniyyətinin başda əsgəri sahə olmaq üzrə getdikcə artan gücünü hiss etmiş, buna qarşı öz anlayış və şərh qabiliyyəti çərçivəsində tədbirlər görmüşdür. Avropaya göndərilən elçilərdən qərbdə baş verənləri araşdırmağı, inkişaf edən elm və texnologiyanı İstanbula tanıtmaları istənmişdir.

İbrahim Haqqı həzrətlərinin yaşadığı dövr Osmanlı dövlətinin iqtisadi, mədəni və ictimai həyatın müxtəlif problemlərlə qarşılaşdığı, dövlətin və xalqın əmin-amanlıq içində yaşamasını təmin edən mədrəsə və təkkənin bir-birlərinə qarşı çıxdığı bir dövr idi. Bununla birlikdə getdikcə pisləşən vəziyyətin fərqinə varıb ictimai və mədəni dəyişikliklərlə

sarsılan cəmiyyətin bir nizama gətirilməsi üçün müxtəlif islahatlar həyata keçirilmişdir. Məsələn yanğın zərərlərindən qorunmaq üçün Nasosçular Ocağı qurulmuş, su bəndləri tikilmişdir. Ədirnədə Bostançılar Ocağı fəaliyyətə başlamışdır. Bababurnuna qala tikilmiş və dərbxanə açılmışdır. Bir çox insanın etirazına baxmayaraq fətva alınaraq mətbəə qurulmuşdur.

Şair Nədimin də içində olduğu bir heyət *Ayni Tarixi Tərcüməsi* ilə məşğul oldu. Şair Nahifinin də içində olduğu bir heyət *Həbibüs-Siyər Tərcüməsi* edirdi. Yeni Məscid Kitabxanası ilə İbrahim Paşa Kitabxanası quruldu. Qərb mədəniyyətindən faydalanma düşüncəsinin bir davamı olaraq Fransız modeli önə çıxdı. Buna paralel olaraq o dövrün bürokratları Lalə Dövrünü yaşamağa başladılar. Lakin bu vəziyyət xalq arasında etirazlara səbəb olurdu.

Yenə eyni dövrdə Karlofça andlaşmasıyla Türklərin Avropadan dönüşü başlamış, 1718-ci il Pasarofça andlaşmasıyla da yeni fürsətlər əldə etmişdir. Avropanın elm, texnika, yaşayış və düşüncəsinə qarşı böyük şəhərlərdə və xüsusilə də İstanbulda böyük maraq və həvəs yaranmışdı. O zaman mərkəzdən çox uzağda Hasanqala kimi bir yerdə olan İbrahim Haqqı həzrətlərinin *Marifətnamə* kimi bir əsəri yazması çox mühim bir hadisədir.



O zaman klassik ədəbiyyat şairlərinin qaydalar xaricinə çıxmaları olduqca çox çətin idi ki, İbrahim Haqqı həzrətləri çox rahatlıqla əsərini yazaraq bu çərçivələri aşmışdır. Elə buna görə də, xalqın duyğularına tərcüməçi olan şair və mütəfəkkirlərdən biri də İbrahim Haqqı Həzrətləridir deyilə bilər.

Divan şairləri ümumiyyətlə əruz vəznində şeir yazar və heca vəzninə heç müraciət etməzdilər. Dövrün böyük şairləri Nədim və Şeyx Qalib isə heca vəzniylə şeir yazdılar. Xalq şeirinin nəzm növlərinə maraq duydular. Divan şairlərinin bu növləri istifadə etdikləri türkülər və qoşmalar yazdıqları məlumdur. İbrahim Haqqı həzrətlərinin şeirində isə dini, təsəvvüfi məlumat və düşüncələrin çox daha sadə bir ifadə ilə verildiyini görməkdəyik.

Bunu rahatlıqla söyləyə bilərik: İbrahim Haqqı həzrətlərini anlamaq üçün o dövr insanının uzun-uzun düşünməsinə gərək yox idi. Qaldı ki, türkçəmizin keçirdiyi bu qədər dəyişikliyə baxmayaraq bu günün insanı belə onun Türkçə şeirlərini rahat anlamaqdadır.

**Elmi və Ədəbi Düşüncələri**

İbrahim Haqqı həzrətlərinin olduqca yaxşı yetişdiyi, təhsilini mükəmməl bir şəkildə tamamladığı, yazdığı əsərlərindən müəyyəndir. Dövrünün təhsil və yazı anlayışına uyğun olaraq Ərəbcə və Farsca əsərlər yazdığı kimi öz dili olan Türkçəyə də laqeyd qalmamışdır. Həm nəzm, həm də nəsr sahəsində Türkçə əsərlər yazmışdır. Geniş təsəvvüf məlumatı, mövzuları yaxşı bir nizam içində və aydın bir üslubla ifadə etməsi, xüsusilə təhsildə Ərəbcənin hakim olduğu, Türkçə əsərlərdə isə ağır bir dilin istifadə edildiyi dövrdə əsərlərinin böyük hissəsini nisbətən sadə bir Türkçə ilə yazması onu fərqləndirən cəhətlərindəndir. O elmi, təsəvvüfi və müəllimlik xüsusiyyətlərinə sahib bir şəxsiyyət idi. Mutəsəvvif bir şəxs kimi kəsrəttə vəhdəti, vəhdətdə də kəsrəti görmək onun təsəvvüfi şəxsiyyətinin təməlini təşkil edir.



O, bütün elmlər sahələrinə maraq göstərmiş və bu xüsusiyyəti də çoxlarının təqdiri ilə qarşılanmışdır. Ancaq az da olsa, onun bu cəhətlərini tənqid edənlər olmuşdur. Başqa bir ifadəylə söyləsək İbrahim Haqqı həzrətlərinin hər sahədə yetkin bir elm adamı olduğu, yoxsa hər sahədən müəyyən məlumatları toplayan birisi olduğu mübahisə mövzusu olmuşdur. Yaşadığı dövrün imkanları göz önünə alındığında, bir insan ömürünə sığdırılamayacak həddə və müxtəliflikdə əsərlər yazmaq və bununla birlikdə davamlı səyahət etməsi həqiqətən təqdirə layiq bir vəziyyətdir.

İbrahim Haqqı həzrətləri araşdırmacı xüsusiyəti sayəsində elm arxasına getmiş kainatı, həyatı və insanı anlamağa dair nə varsa hamısını araşdırmağa başlamışdır. O, təklik ilə çoxluq (vəhdət-kəsrət) arasındakı bağı kəşf etmiş, təklikdən

çoxluğa gedildiyi kimi, çoxluqdan da təkliyə gedilə biləcəyini göstərməyə çalışmışdır.

*Təsəvvüf mütəxəssislərinin çox əhəmiyyət verdiyi və qəbul etdikləri "Nəfsini bilən Rəbbini bilər" hədisi şərifinə əsaslanaraq o insana çox əhəmiyyət vermişdir.* Çünki yenə təsəvvüfi anlayışa görə insan aləmin xülasəsi və özü yəni göz bəbəyidir. Bu baxımdan İbrahim Haqqı həzrətləri kainatdakı hər şeyi insan ilə əlaqələndirmiş, insan deyilən məchulu kəşf etməyə çalışmışdır. Bunun üçün hər bir elmi öyrənməyə can atmışdır. İnsani-kamil haqqında müstəqil bir əsər yazmışdır. Yenə bu düşüncədən ortaya çıxan insanın yaşadığı dünyaya aid məlumatları da araşdırmağa və əsərlərində yazmağa cəhd göstərmişdir. Məsələn *Mərifətnamə* əsərində insan sağlamlığına təsirləri nəzərə alınaraq məskunlaşma yerlərinin haralara qurulması lazım olduğunun şərhi bu gün belə çox əhəmiyyətli bir mövzudur.

Bütün bunlarla birlikdə İbrahim Haqqı həzrətləri hər şeydən əvvəl bir könül insanıdır. İslamı və həyatı ən gözəl şəkildə ifadə edən, ölümü bir yoxdan çıxardan təsəvvüf onun əlində və dilində Türkcə olaraq bir daha həyat qazanmışdır. İbrahim Haqqı həzrətləri Allahın böyüklüyünü idrak edə bilmək üçün əvvəlcə bir bütün olaraq maddi və mənəvi quruluşuyla insanı araşdırmış, Yaradanın bu böyük əsərini araşdırdıqca ona heyran qalmış "insanı və öz nəfsini tanımayan, Allahı da tanıya bilməz" nəticəsinə gəlmişdir. İnsanın "bir bütünün xaliqi və maliki olan Cənabı Haqqın iradəsiylə ilahi qanunun mükəmməl sistemi içində uca bir məqsəd üçün yaradıldığını, bədənin zamanla parçalara ayrılıb təbiət bütününə qarışdığını, ruh və könülün isə bu uca məqsədə uyğun olaraq Allaha çatmaq məqsədiylə inkişaf etdiyini və inkişafın lazım olduğunu qeyd etmişdir. İbrahim Haqqı həzrətləri təsəvvüf fəlsəfəsinə müsbət elm yoluyla çatmaqdadır. Onun təsəvvüf anlayışı dini qaydaların sərhədlərini aşaraq təhlükəli uçurumlara yanaşan vəhdəti-vücud müdafiəçilərlə, dini əmrləri əhəmiyyətsiz hesab etməyi mü-

dafiə edən Bektaşilərdən fərqlidir. O, müqəddəs hökmlərin xaricinə çıxmadan ilahi eşqi axtarır və tapa bilirdi.

İbrahim Haqqı həzrətləri eynilə Qəzali kimi dini inanc əsaslarının xaricində qalan mövzulardakı məlumatlarımızın imani bir məsələ olmadığını, bunların dəyişə biləcəyini, maddə və kainatla əlaqədar məlumatlarımızdakı dəyişikliklərin dini inanışlara zərər verməyəcəyini ifadə etmişdir. Bu səbəblə ilk rəvayətlərdən əlavə əldə edə bildiyi hər cür yeni elmi inkişafları da əsərində qeyd etmiş və dövrünün düşüncə quruluşuna qarşı çıxmadan bir üslub qurmuş və özünün də yeni elmi düşüncələri qəbul etdiyini ifadə etmişdir.



İmam Qəzalidə inkişaf edən “atomun parçalana biləcəyi fikirini” daha açıq bir şəkildə izah etmiş, sonra insanı tədqiq edərək onun yaradılışını, əldə etdiyi müsbət məlumatlar nəticəsində izah edə bilmişdir. Təkamülü müdafiə edən Darvindən yarım əsr əvvəl təkamül nəzəriyyəsini ortaya qoymuş olması onun elmi dəyərini göstərən əhəmiyyətli bir şahiddir.

İbrahim Haqqı həzrətlərinin elmi istiqamətinin öyrətmə və öyrənmə cəhətlərini də qiymətləndirmək lazımdır. Uşaqlığından bəri öyrəndiyi təsəvvüf təhsili onda geniş bir könül zənginliyi meydana gətirmiş, əşyaya və hadisələrə daha incə baxa bilməyi öyrətmişdir. Ömürü boyunca imam və vaiz olaraq xalqı irşad etməyə, könüllər işıqlandırmağa çalışmış və həyatında kimsəni incitməmişdir. Öz ailə üzvlərini yetişdirdiyi kimi Həsənqala, Ərzurum və Tilloda da bir çox şagirdə təhsil vermişdir.

Onun təsəvvüfi fikirləri Osmanlı təsəvvüfünün tipik və canlı bir nümunəsidir. *Mərifətnama* bacarıq, pis, əbədilik, məhəbbət və eşq, vəlayət, kəramət, təvəkkül və təslim, səbr, şükr, razılıq, seyri-süluk, salik, mürşid, nəfs və nəfsin mərtəbələri kimi təsəvvüfün bütün mövzularından bəhs etmişdir.

Dahi bir şair və ədib olaraq İbrahim Haqqı həzrətləri ədəbiyyatdan duyğu və düşüncələrini, insanlığın müştərək malı olan elm və əxlaqa dair tövsiyələrini xalqa yaymaq, tanıtmaq

və sevdirmək, onları səhvlərdən qoruyub yaxşıya və gözələ sövq etmək üçün bir vasitə olaraq istifadə etmişdir. Buna baxmayaraq üslubu gözəldir. Lirik bir şair deyil.

Mövzularını işlərkən başqa şairlərdən mənzum parçalar götürdüyü də məlumdur. Ancaq qaynağını göstərmədən edilən bu alıntılar o dövr üçün çox normal bir davranışdır. Türkcə, Farsca və Ərəbcə kimi o dövr İslam dünyasının üç ana dilinə hakim və bu dillərdə şeir yaza biləcək mədəniyyət və qabiliyyətdə olan müəllifin iktibaslarındaki məqsəd, insanlığın müştərək mədəniyyət mirasını gələcək nəsillərə çatdırmaq, duyğu və düşüncələrini başqa şairlərin tərənnümləriylə eşitdirməkdən ibarətdir.

Ona ədəbi və təsəvvüfi istiqamətlərdə ən çox Şeyxi İsmayıl Fakirullah həzrətləri Mövlana, Yunus Əmrə və Hazık Mehmed Əfəndi təsir etmişdir.

**Kəramətləri**



Cəlaləddin Torpaq "İbrahim Haqqı həzrətlərinin kəramətlərini heç bir qaynaqda tapa bilmədim, ancaq qohumlarından öyrəndim" demiş və hazırladığı magistratura elmi işində bunlardan bəzilərini qeyd etmişdir:

1- İbrahim Haqqı həzrətləri daha gənc yaşlarında ikən anası Hənifə Xanım yumuş olduğu paltarları çölə sərər. İbrahim Haqqı həzrətləri də o on bağçada uzanmış və nəysə fikirləşirmiş. Anası İbrahim Haqqı həzrətlərinə paltarlara da nəzarət etməsini söyləmişdi.

Anası içəri girdikdən sonra bir adam bağçaya gəlir və bütün paltarları yığıb aparır. Lakin İbrahim Haqqı həzrətləri səsini belə çıxartmır. Anası bağçaya gəlib paltarların yerində olmadığını gördükdə oğuluna əsəbləşir. O da anasına deyir ki; "Ana görən söyləməz, lakin bizim mal halal isə aparan gətirər" deyir. Adam oğurladığı paltarları hansı tərəfə aparırsa qarşısında İbrahim Haqqı həzrətlərini görər və ondan sonra paltarları geri gətirib bağçadan içəri atar.

2- İbrahim Haqqı həzrətləri bir gün Ərzurumda o zamanın qazısının evində yaşayarkən oturduqları sədrin altına davamlı bir pişik girib çıxar. İbrahim Haqqı həzrətləri ev sahibi qazıya pişiyin nə üçün davamlı sədr altına girib çıxdığını soruşar.

Qazı “Bilmirəm əfəndim pişikdir girər çıxar” deyər.

İbrahim Haqqı həzrətləri “Bu heyvan bir ət qoxusuna girib çıxır” deyər.

Qazı “Ola bilər əfəndim, bəlkə siçan vardır” deyər.

İbrahim Haqqı həzrətləri “Bu heyvan kəsik baş ət qoxusuna girib çıxır” deyincə qazı, artıq inkarın fayda etməyəcəyini anlayaraq etiraf edir. “İki lənətlənmişin başını kəsib bura qoymuşdum. Başqa yerə atdıracaqdım, lakin imkan tapa bilmədim” deyər.



İbrahim Haqqı həzrətləri o lənətlənmişlərin kimlər və günahlarının nə olduğunu soruşdu. Qazı “Biri qızım, digəri də qapımda işləyən bir Xristiyan gəncin başlarıdır. Günahları bir-biriylə razılaşıb qaçmalarıdır. Bu səbəblə mən də başlarını kəsdim” deyər.

İbrahim Haqqı həzrətləri “Qazı əfəndi, tərəflərə zülm etmisən” deyər. “Hərəkətin bəlkə də batildir. Xristiyan gəncə Müsəlman olmasını, qızına da Müsəlman olmayan bir Xristiyanla evlənmə istəyindən imtina etməsini təklif edəcəkdin. Tərəflər qəbul etməzlərsə tərəfsiz bir qazıya, mühakimə olunmaları üçün həvalə edəcəkdin. O mühakimə nəticəsində verilən hökmə razılaşacaqdın” deyərək qazı əfəndinin evini tərk edir.

3- İbrahim Haqqı həzrətləri İstanbulda olduğu zaman dövrün şeyxülislamı onu yeməyə dəvət edir. İbrahim Haqqı həzrətləri dəvət yerinə gəldiyində şeyxülislam namaz qılırmış. İbrahim Haqqı həzrətləri ona salam verərək bir küncə oturar. Şeyxülislam namazı bitirdikdən sonra İbrahim Haqqı həzrətlərinə “Məzhəbimiz görə namazda olan bir kimsəyə salam verilməyəcəyini bilmirsənmi?” deyər. İbrahim Haqqı

həzrətləri çox sakit və gülər üzlə belə deyir: "Allah üçün namaz qılan şeyxülislama deyil, mehrabın boyasını yenilətmək istəyən şəxsə salam verdim" deyər. Sən demə şeyxülislam namaz qılarkən mehrabın boyasını yenilətməyi düşünürmüş.

**Vəfatı və Türbəsi**

Sahaflar şeyxi Əsəd Əfəndinin ifadə etdiyinə görə İbrahim Haqqı həzrətləri h. 1194/ m. 1780-ci ildə Tilloda vəfat etmişdir. Vəfatından iki il əvvəl yazdığı vəsiyyətnaməsində *"Əgər şeyximin kəndində ölsəm onun qübbəsi altına məni dəfn etməyin. Onun ayaq tərəfi övladı üçün qalsın. Məni atam Osman Əfəndinin qəbirinin arxasındakı səhraya dəfn edin"* demiş olmasına baxmayaraq şeyxin oğulu Mustafa Fani Əfəndi, İbrahim Haqqı həzrətlərini çox sevdiyi şeyxindən ayırmamaq üçün təbərrükən atasının türbəsinə dəfn etdirmişdir. İbrahim Haqqı həzrətlərinin türbəsi bu gün də əhəmiyyətli bir ziyarət yeridir.



Novruz xatirələrini yaşatmaq üçün İbrahim Haqqı həzrətlərinin astronomik hesab və ölçülərə əsaslanan Siirtə on kilometr uzaqlıqda olan Tilloda, müəllimi və mürşidi İsmayıl Fakirullah həzrətləri üçün tikdirdiyi və sonradan özünün də içinə dəfn edildiyi türbə, astronomiya elminin inkişafı üçün çox da kiçik hesab edilməyəcək bir dəyərdədir. Min yüz doxsan rəqəmli bucağı əhatə edən və yazda zanbaqlarla bəzənən məzarlar arasındakı bu türbə, biri böyük, ikisi kiçik olmaq üzrə üç qübbənin örtdüyü iki otaq və bir zal ilə təxminən 40 kvadrat metrə yaxın bir sahə üzərində qurulmuş olan səkkiz bucaqlı bina olub, ortadakı böyük qübbənin təpəsindəki pəncərə ilə türbənin girişində olan qüllə işığın qırılma sisteminə əsasən inşa edilmişdir.

İbrahim Haqqı həzrətləri Tilloya təxminən 4 kilometr uzaqlıqda olan dağın təpəsinə bir qala tikdirmiş və divarın ortasına da böyük bir pəncərə qoydurmuşdur. Mart ayının 21-ə rastlayan Novruz günündə səhər günəş üfüqdən doğulduğu zaman ilk şüaları dağın təpəsindəki pəncərədən keçərək

türbənin giriş qisimindəki qülləyə yerləşdirilmiş prizmaya və oradan da türbənin təpəsindəki qübbənin pəncərəsinə əks edib bir lupa vasitəsiylə İsmayıl Fakirullah həzrətlərinin məzar daşının başına düşməkdədir. Beləcə türbənin iç tərəfi 21 Mart və 23 Sentyabr (Ekinos günlərin)də ildə iki dəfə günün ilk işıqlarıyla işıqlandırılmış olmaqdadır. İzləyənlərdə fövqəladə heyranlıq oyandıran bu hadisə günəş işıqları hələ Tillonu işıqlandırmadan əvvəl başlayıb 6 dəqiqə davam etməkdədir.

**Əsərləri**

İbrahim Haqqı həzrətlərinin əsərlərinin sayı mövzusunda fərqli məlumatlar var. Lakin özü *Sefinei-Nuh* kitabında əsərlərini ana və övlad əsərlər olaraq iki hissəyə ayırmış və onların cəmi 15 olduğunu yazmışdır. Bunların beşi ana digər onu isə övlad əsərlərdir. H. 1168 (M. 1754-cü) ildən H. 1178 (M. 1764-65) ilinə qədər yazılmış beş əsərini "Ana əsərlər", H. 1180 (M. 1766)-dan H. 1191 (M. 1777-ci) ilə qədər yazdığı on əsəri də "Övlad Əsərlər" deyə adlandırmışdır. Beş ana əsər bunlardır:



**1. Divan:** İbrahim Haqqı həzrətlərinin ilk əsəri olan və şeirlərinin toplandığı *Divanı* 1168/1755 tarixində tərtib edilmişdir. *Divan* İbrahim Haqqı həzrətlərinin *Mərifətnamə*dən sonra ən tanınmış əsəridir. ***Divanı-İbrahim Haqqı, Divanı-İlahiyyat*** və ya ***Divanı-İlahinamə*** adlarıyla da xatırlanmaqdadır. Sadə bir Türkcə və zəngin bir xalq diliylə yazılmış olan Divanında təsəvvüfi bir eşqlə, ilahi sevgidən bəhs edən qəsidə və qəzəlləri ilə parallel üslubunun sadəliyi və təsəvvüf zövqünü dadan mədəniyyət sahibi bir adamın nəsihətlərini ehtiva edən mənzumələri vardır. Həzrət *Divanı* oğulu İsmayıl Fehimə həsr etmişdir.

**2. Mərifətnamə:** Bir çox əsər müəllifi İbrahim Haqqı həzrətlərinin şöhrətinə səbəb olan və özünün ana əsər dediyi və müxtəlif mövzuları ehtiva edən ensiklopedik bir əsəridir. *Mərifətnamə* 1170/1757-ci illərdə İbrahim Haqqı həzrətləri

təxminən 53 yaşında ikən tamamlamışdır. Öz ifadəsinə görə bu əsəri yazmaq üçün 400 kitabdan faydalanmışdır.

Dəfələrlə nəşr edilmiş, təzhib li, qiymətli bir çox yazma nüsxələri olan və Həzrətin bütün əsərləri arasında ən çox tanınmış, istifadə edilmiş *Mərifətnamə* əsərini oğulu Əhməd Naimi üçün yazmışdır. *Mərifətnamə* bir baxıma şərqin *Məsnəvisi* sayılmışdır. Ən ucqar kəndlərdə rəflərdə görülən *Mərifətnamə* bütün Ərzurum və ətrafının bir zamanlar qismən əzbərdən bildiyi belə rəvayət edilir. Xalq müqəddəs bir kitab kimi onu başının üstündə daşıyar, böhrana düşdüyü zamanlarda ondan mədət ümid edər, səhifələrini çevirib ehkam çıxarmaq surətiylə təfəül edərdi. Xüsusilə Ərzurumda bir zamanlar Qurani-Kərimdən sonra ən çox oxunan kitab *Mərifətnamə* olmuşdur.

İlk baxışda əsərin mövzuları çox və qarışıq kimi görünə bilər. Çünki İbrahim Haqqı həzrətləri *Mərifətnamə*də haradasa bu gün belə normal bir insanın ömürü boyunca oxumaqdan aciz qaldığı bir çox elm sahəsindən bəhs etmişdir. Ancaq mövzularının çoxluğuna baxmayaraq əsərin ana xətti *mərifət nəzəriyyəsi*dir. Buna görə *"Özünü bilən Rəbbini bilər."* İbrahim Haqqı həzrətləri də bu nöqtədən hərəkətlə insanı tanımağa səy göstərmişdir. O səbəblə digər alim və mutəsəvviflər kimi dini elmlərdən faydalanmışdır. Bununla birlikdə o, yalnız dini elmlərin mərifəti açıqlamaqda kafi olmayacağını Allahın qövni ayələri deyilən təbiət hadisələrinə, canlıların quruluşu və çoxalmasından bəhs edən bioloji qanunlara və insanlar arası əlaqələri araşdıran və tənzimləyən əxlaqi mövzulara da müraciət etmişdir. Bütün bu qanunların hamısına "Sünnətullah" deyildiyinə görə insanın özünü tanıması üçün sosial və faydalı elmləri də bilməsi lazımdır.

Osmanlıda müasirləşmənin başladığı dövrlərdə qələmə alınan *Mərifətnamə* həm köhnə inanış və məlumatları nəql etməsi, həm də yeni fikir və kəşflər baxımından köhnə elmlər və mədəniyyət ilə yenilərinin bir yerdə olduğu nadir əsərlərdəndir. Beləliklə *Mərifətnamə* dövründəki hər səviyyədən

insana xitab etmə gücünə sahib bir əsərdir. Bir baxıma bu əsəriylə İbrahim Haqqı həzrətləri Osmanlı müasir düşüncəsinin meydana gəlməsi əsnasında köhnə ilə yenini yan-yana qoyaraq yeni tərkiblərin meydana gəlməsinə liderlik edən mütəfəkkirlərin ilklərindən olduğunu deyə bilərik.

Avropada "Aydınlanma Axını" əsnasında, "Təhsilin başlamasından akademik yaşına qədər gəncliyin təhsili üçün zəruri bütün məlumatların –Mərifətin- toplanıb təşkil edildiyi, *Elemantor Work* adlı böyük əsər, *Mərifətnamə*dən iyirmi il sonra şübhəsiz bir-birindən xəbərsiz olaraq və lakin onunla eyni fihristi ehtiva edəcək şəkildə hazırlanmış olması diqqət çəkici bir nöqtədir. Fikirimizcə İbrahim Haqqı həzrətlərinin əsərinin əhəmiyyətini ifadə etmək üçün bu nümunə çox maraqlıdır. Çünki *Mərifətnamə*də bütün astronomiya, anatomiya, fizioloji, dünya xəritəsi və şəhərlərin paralel və meridianları, qitələr, mədən və bitkiyə dair tapıntılar və məlumatlar, psixologiya, təbabət, dini mövzular, ölümün xüsusiyyəti, iç üzü və həqiqəti, Allaha inanış və onu qavrayış, insan könülü və tərəqqisi, kamil insanın xüsusiyyətləri, təhsil və təsəvvüf, ictimai əxlaqi və ənənəvi elmlər və digər məlumatlar mövcuddur.



Selma Özdemir *Mərifətnamə*nin *"müəllifinin elmi və fikri şəxsiyyətini əks etdirməsi ilə bərabər dövrün skolastik zehniyyətindən xilas olma səyləriylə də xüsusi bir dəyər daşıdığını"* söyləmişdir. Hətta ona görə Almaniyanın tanınmış pedaqoqu və təhsil düşünürü Prof. G. Hausmann, *"Türk təhsil tarixini əhatə etməyən bir dünya təhsil tarixindən söz edilə bilməz"* cümləsini, Kutadgu Biliyin *"Kitabı Tarikul-Ədəb"*i ilə birlikdə xüsusilə deyən *Mərifətnamə*dir.

***Mərifətnamə*nin Qurluşu və Məzmunu:** *Mərifətnamə* bir müqəddimə, üç fən (kitab) və bir xətim (nəticə) olmaq üzrə beş hissədən meydana gəlmişdir. Bu əsər müxtəlif bab, fəsil və nevilərlə genişlədilmişdir. *Mərifətnamə*də mövzular əhatəli olaraq işlənmişdir. Burada diqqət edilən cəhət oxucuya psixo-pedagojik bir təhsil təmin etməkdir. Bu səbəblə fikirlər tez-tez təkrar edilməkdədir. Aralığı və ahəngi təmin etmək məqsədiylə

qafiyəli sözlər bir-biri ardınca istifadə edilməkdədir. Psixo-pedagojik təhsil və qaydaları yalnız mövzu içində qalmayıb, həm oxucunun diqqətini çəkmək, ona zövq vermək və fikri cazibədar hala gətirmək üçün mövzular şeir halında yekunlaşdırılmışdır. Bu şeirlər bəzən Türkcə, bəzən Ərəbcə və nadir olaraq da Farscadır. Oxucunun marağını çəkmək məqsədiylə mövzuların arasına qısa şeirlər qoyulduğu kimi bəzi fikirlər də nəzmlə ifadə edilmişdir. Zamanın yazı dilinin ağır olmasına baxmayaraq Həzrət əsərini xalq diliylə və əksəriyyətlə Türkcə sözlərdən istifadə edərək yazmışdır.

**Müqəddimə:** Bu qismin mövzusu aləmin yaradılışı, göylər, mələklər, cənnətlər, cənnətliklər, həmd bayrağı (Livaü'l-hamd), günəş, ay, ulduzlar, ay və günəş tutulması, Qaf Dağı, yer üzünün qatları, cəhənnəmlər, cəhənnəmliklər, Hz. Adəmin (ə.s) yaradılışı və qiyamətdir.

**Birinci Fən:** Başlıqları belə sıralaya bilərik: hikmət, fəlsəfə və təsəvvüflə də əlaqədar cövhərlər, ağıl, nəfs, göy, hava, su, atəş, torpaq olmaq üzrə dörd ünsür (anasırı-ərba). Dörd ünsürə üç uşaq (məvalidi səlasə) təbir olunan cansız cisimlər, bitkilər və heyvanlar. Məxluqatın və insanın təkamülü, arifmetik, həndəsə, astronomiya və astroloji, dörd ünsür və mevalidi-səlasə ilə əlaqəli cisimlərin əhvalı, atmosfer, hava xüsusiyyətləri, dənizlərin və torpağın faydaları, digər xüsusiyyətləri. İqlimlər, qitələr və əhalisi, yeni astronomiyaya görə göylər və xüsusiyyətləri, mədənlər, bitkilər, heyvanlar və insanın mahiyyəti və bənzəri mövzular işlənməkdədir.

İbrahim Haqqı həzrətlərinin aləmin kürə şəklində olduğunu isbat edərkən Katib Çələbinin *Cihannüma* adlı əsərindən çox faydalandığı ifadə edilir. Astronomiya məlumatlarında Kopernikdən faydalanmış, ancaq bunu öz müşahidələriylə inkişaf etdirərək hər kəsin anlaya biləcəyi şəkildə izah etmişdir.

Dünyanın dönüşü, səs və işıq sürəti, təqvim və saat məlumatları, işığın qırılması və parçalanması, bürc hesabları, həyatın sudan meydana gəlməsi kimi məlumatlar çox açıq bir şəkildə *Mərifətnamə*də izah edilmişdir. İbrahim Haqqı həz-

rətlərinin ən böyük zövqü səmanı araşdırmaq olmuşdur. Bir **fəcri-şimali hadisəsi**ndə İstanbulda insanlar qiyamət qopur deyə məscidlərə qaçarkən, o Tilloda şagirdlərinə hadisənin astronomik izahını başa salırdı.

**İkinci Fən:** Anatomiya insanın bədən quruluşu, dünyanın şəfqətli bir ana kimi insanı bəsləməsi, dörd mizaç və dörd qarışıq, üzvlər və sümüklər, oynaq və əzələlər, sinirlər və damarlar, insandakı zahiri və daxili qüvvələr və hisslər, bədən quruluşu və xarakter arasındakı münasibətlər, qadınlardakı gözəllik xüsusiyyətləri, bəzi üzvlərin titrəməsi, insan üzvləriylə təbiət arasındakı bənzərliklər, yuxu təbirləri, insanın özündə Haqqın qüdrətinin təcəlli etməsini idrak etməsi, kamil insanın aləmin özü olduğu və ibadətlə vəhdəti, ruhbədən səhhəti və qorunması, insanlar arası əlaqələr, hamam, dərman və qidalar, yemə-içmə, geyinmə və bəzənmə ədəbi və qaidələri, ölümün fəzilət və faydaları, həqiqəti və ruhun bədəndən ayrılması.



İbrahim Haqqı həzrətləri insan bədənini bütün anatomik və fizioloji xüsusiyyətləriylə araşdırmış, başda İbn Sina kimi alimlərdən əldə edilən məlumatlara, öz müşahidə və tədqiqlərini də əlavə və inkişaf etdirərək, tibb tarixi baxımından çox qiymətli qaynaq olmuşdur. İbrahim Haqqı insanın iç və xarici quruluşunu araşdırarkən ona təsir edən ünsürlərə də laqeyd yanaşmamış, havanın, iqlimin, şəhərlərin, külək və günəşin insan üzərindəki təsirlərini ifadə etmişdir. Onun orqanların faydaları haqqında etdiyi şərhlər, Finalizm baxımından böyük əhəmiyyət daşıyar. O, etdiyi bütün şərhlərlə, funksional anatomiyadan bir növ iqtibaslar vermək istəsə də, etdiyi deskriptiv anatomiyadan fərqli deyil.

**Üçüncü Fən:** İnsanın məlumatsızlıq və qəflət səbəbiylə heyvana bənzəməsi, Quranla hidayət, Hz. Peyğəmbərə (s.ə.s) tabe olma və bidətlərdən uzaqlaşma, ürəyin inancını düzəltmə, əhli-sünnəyə uyğun gəlmə, Hənəfi məzhəbinə görə təharətin fərzləri, namazın qılınışı, dünyanın faniliyi, axirətin səfa aləmi

olduğu, feyz və mədəniyyətin könül və ürəkdə olduğunu, mərifətullah və mədəniyyət məkanı olan ürəyin əhval və xüsusiyyətləri, ağıl, ürəyin böyüklüyü və genişliyi, ruhun halları, az yemənin, az yatmanın, gecə ibadətə qalxmanın, az danışmanın, dili qorumanın, susmanın, tənha yaşamanın, davamlı zikrin, kəlimeyi-şəadətin fəzilət və xüsusiyyətləri, ürəyin qorunması, təvəkkül, tefviz (işləri Allaha həvalə etmə) və təslimiyyətin fəzilətləri, keyfiyyəti və şərtləri, səbir və dözüm, qəzaya razılığın faydaları və xüsusiyyətləri, nəfsi bilmənin Haqqı bilmək olduğu, məhəbbətullahın son məqsəd olduğu, övliyanın hikməti, fəzilətləri və mərtəbələri, dəlalətə düşənlər, təsəvvüf əhlinin on iki təriqəti, yeddi nəfs, öz şeyxi İsmayıl Fakirullah Həzrətləri, atası Dərviş Osman Əfəndi və bənzəri mövzular vardır.

Digər mutəsəvviflər kimi İbrahim Haqqı həzrətləri də ilham yoluyla gələn məlumatı kitabi məlumatdan üstün tutmuşdur. Vəhdəti-vücudun bir elmi mövzu olmadığını, çünki onun elmi mövzu sayılması vəziyyətində nəticə etibarilə ilhad və zındıqlığa qədər çatan təhlükələri ehtiva etdiyini ifadə edir. Ona görə vəhdəti-vücud bir elm mövzusu deyil, bir inanc mövzusudur.

**Xatimətul-Kitab (son söz):** Bu hissə əxlaq və davranışla əlaqədardır. Bu hissədə: Hz. Peyğəmbərin (s.ə.s) gözəl əxlaqı, insanlarla şəfqət və mərhəmətlə rəftarı, evliliyin faydaları, qulun Yaradanı ilə hüzur və ünsiyyətinin ədəbi, müəllimin tələbələrinə qarşı ədəbi, şagirdlərin müəllimlərinə qarşı necə davranmaları lazım olduğu, insanın ana-atasına qarşı necə davranacağı, arif bir kimsənin evlənərkən nələrə diqqət etməsi lazım olduğu, ailəvi münasibətin ədəbi, kişinin ailəsiylə söhbət və ülfətinin ədəbi, qadının əriylə söhbət və ülfətinin ədəbi, adamın uşaqlarıyla söhbət və ülfətinin ədəbi, sahibinin kölə və nökərləriylə söhbət və ülfətinin ədəbi, qohumun qohumla söhbət və ülfətinin ədəbi, adamın qonşusuyla söhbət və ülfətinin ədəbi, üç növ insanın- alimlərin, fəqihlərin, vəli

və şeyxlərin xalq ilə rəftarları, qulun üzvlərini günahdan qoruması ilə kasıblıq və zənginliyin səbəblərindən bəhs edilir.

Son söz mahiyyətindəki xətimə qismi, "Xatimətul-Xatimə" başlığı altında, mənzum və mənsur qarışıq olaraq tövhid və münacat hissələrindən sonra tarix mənzuməsi və fərağ qeydi ilə bitirilmişdir.

**3. İrfaniyyə:** İbrahim Haqqı həzrətlərinin beş ana kitab olaraq zikr etdiyi kitablarının üçüncüsü *İrfaniyyə*dir. Yazarının ifadəsiylə əsər 1174/ 1761 tarixində yığılmışdır. Eyni zamanda *Məcmuatul-Vahdaniyyə fi Marifətin-Nəfsir-Rahmaniyyə* adlı və Yusuf Nəsim tərəfindən 1190/1776 tarixində və İbrahim Haqqı həzrətlərinin sağlığında istinsah edilmişdir.

**4. İnsaniyyə:** *Məcmuatul-İnsaniyyə fi marifətil-Vahdaniyyə: İrfaniyyə* İbrahim Haqqının antologiya növündən sayılan əsərlərindəndir.



*Məcmuatul-İnsaniyyə:* Ərəbcə, Farsca və Türkcə olmaq üzrə üç dildə və yüz altmış kitabdan şeirlər seçilərək 1176/1763 tarixində tərtib olunmuşdur. Seçilən əsərlərin daha çox təsəvvifi və tərbiyəvi olmasına diqqət edilmişdir. Bununla birlikdə ədəbi mahiyyətdəki nümunələr də az deyil. İbrahim Haqqı həzrətləri əsərin sonundakı tarix mənzuməsində antologiyanın bəzi xüsusiyyətlərindən də bəhs etmişdir.

**5. Məcmuatul-Məani:** *Məcmuatul-Məani* İbrahim Haqqı həzrətlərinin Ərzurumda yazdığını söylədiyi ana əsərlərinin beşincisi və sonuncusudur. Bəzi nüsxələrində *Məcmuatul-Haqqı* adını daşıyan bu əsər 1178/1765 də nəzm və cəm olunmuşdur.

*Müxtəlif mövzularla əlaqədar mənzum və mənsur yazıları əhatə edən Məcmuatul-Məanidə* Ərəbcə, Farsca və Türkcə olan qisimlər qarışıq şəkildədir. Öz əsərlərindən və başqalarından da seçmələrin olduğu ayrıca doğum, ölüm vs. tarixləriylə bəzi məktublar da burada vardır.

**Nəticə**

İbrahim Haqqı həzrətləri bu torpaqlarda yetişən ulduz şəxsiyyətlərdəndir. Qüdrətli bir qələmdir. Ələ aldığı mövzulara dərininə nüfuzu, elmi cəhətləri ilə araşdırdığı kimi, əhatə edici üslubu və könüllərə nüfuz edən şeirləriylə də diqqət çəkir.

*Mərifətnamədə* ifadə etdiyinə görə şəfqətli anası onu hər loğmasına etina edərək diqqətlə yetişdirmişdir. Doqquz yaşından etibarən də sahibul-həya atası Dərviş Osman Əfəndi tərəfindən hər cəhətdən mükəmməl bir insan olması üçün səy göstərilmişdir. Feyz və bərəkət qaynağı şeyxi İsmayıl Fakirullah həzrətlərinin xüsusi himmət və iltifatlarına məzhər olmuş və şəxsiyyətinin ana toxumu dərgahın mənəvi iqlimində elm və hikmətlə yoğrulmuşdur.

Uzun illər Ərzurumda Həbib Əfəndi Məscidində imam-natiqlik vəzifəsində işləyən İbrahim Haqqı həzrətləri xalqı irşad üçün çalışmış, Tilloda bir çox tələbələr yetişdirmiş və bir insan ömürünə sığmayacaq qiymətli əsərlər qələmə almışdır. Bunlar içində ən çox bilinən və oxunan isə *Mərifətnamə* olmuşdur. Bir-birindən qiymətli digər əsərləri isə elm əhlinin himməti ilə yenidən gün yüzünə çıxarılaraq lazımınca tanıdılmağa möhtacdır.

Ərzurumlu İbrahim Haqqı həzrətləri də əsərləriylə əsrlərdir könül dünyamızı işıqlandıran digər qiymətli şəxsiyyətlər kimi qiymətsiz xəzinələr içində parıldayan qiymətli bir ləl-cəvahiratdır. Əgər onlar -bizlərin kifayət qədər onları tanıda bilməməmiz səbəbiylə- yetişməkdə olan gənc nəsillərə gizli qalsalar, bu ağır günahdan xilas olmamız asan olmayacaq. Sabahlara daşıyacağımız işığı ancaq o ulduz şəxsiyyətlərin köhnəlməyən əsərləriylə unudulmayan xidmətlərində tapa bilərik.

## İSMAYIL SİRACƏDDİN ŞİRVANİ ﷺ

(d. 1782 / v. 1847)

Mövlana Xalid əl-Bağdadi tərəfindən yetişdirilən xalidi şeyxlərindən biri İsmayıl Siracəddin əl-Kürdəmiri əş-Şirvani hicri 1197-ci (m. 1782) ildə Şirvanın Kürdəmir bölgəsində anadan olmuşdur. Atasının adı Ənvərdir. İlk təhsilini Şamaxıda Məhəmməd Nuri Əfəndidən almışdır. Burada Molla Camenin "Kafiyə şərhi" əsəri belə oxudulmuşdu. 1215-ci (m. 1800) ildə Ərzincana gedərək orada Evliyazadə Əbdurrəhman Əfəndidən dərs almışdır.



Bir müddət Tokat şəhərində də elm təhsil etmişdir. Şirvani bundan sonra Bağdada gedərək Yəhya əl-Mərvəzi əl-İmadidən hədis, Molla Məhəmməd ibn Adəmdən hikəm (fəlsəfə) elmini öyrəndi. 1805-ci ildə Burdura gedərə orada fiqh elmini öyrəndi. Sonra da öz vətəninə qayıtdı və 1806-cı ildən etibarən yeddi il müddətində Kürdəmirdəki mədrəsəsində elm təhsili ilə məşğul oldu. Bundan sonra mənəvi elmlərdə onu yetişdirə biləcək bir kamil mürşid axtarmağa başladı. Bu məqsədlə 1813-cü ildə Həccə gedərək Məkkə, Mədinə və Qüdsü ziyarət etdi. Oradan qayıdarkən də İstanbula gəldi. Burada olarkən bir yuxu gördü. Yuxusunda ona belə deyilirdi: "Sən alimlərindən və şeyxlərindən dərs ala biləcəyin yerə, Dehliyə getməlisən. Allah sənə Şeyx Abdullah Dəhləvinin xəlifəsi olmaq imkanını bəxş edər". Bu hadisədən sonra o, Hindistana, Abdullah əl-Dəhləvinin yanına getmək üçün piyada yola düşdü. Bəsrəyə gəlib çatanda Abdullah Dəhləvidən mənəvi bir işarət aldı ki, Şeyx Xalidin yanına getsin. Bağdada gələrək Mövlana Xalidi

tapdı . Şirvani 1813-1817-ci illər arasında beş ilə yaxın Mövlana Xalidə xidmət etdi və burada seyri-sülukunu tamamlamış oldu. Şeyxi ona camaatı zahiri və batini elmlərdə irşad etmək üçün xilafəti-mütləq səlahiyyətini verdi. Amasyada mövcud olan Xalid Bağdadi xilafətnaməsindən məlum olur ki, İsmayıl Şirvani bu sənədi 1821-ci ildə almışdır.

Nadir şahın ölümündən sonra (1747) Azərbaycan xanlıqlara parçalanmışdı. Bunlardan biri olan Şirvan xanlığının ilk dövrləri (1747-1762) "ikibaşlı" idarəetmə sistemi içərisində keçmişdi. Şirvanın xan sülaləsi olan Sərgərilər mübarizədə qalib gələrək xanlığı işğal olunana qədər idarə etdilər. Şirvan xanlığı 1821-ci ildə 17 inzibati bölgədən (mahal) ibarət idi. Bölüket mahalı buradakı ən böyük bölgələrdən biri olub, indiki Ağsu və Kürdəmir vilayətlərinin böyük bir hissəsini əhatə edirdi. Türkmənlərdən ibarət olan bu mahal xalqı əkinçilik, bostançılıq və ipəkçiliklə məşğul olurdu. 1821-ci ildə Bölüket mahalına daxil olan 10 kənddən bir olan Kürdəmirdə 108 ailə yaşayırdı və 1801-1825-ci illər arasında Mustafa xanın (1792-1820) arvadı Fatma Bəyimin mülkiyyətində idi. İsmayıl Əfəndi Şirvanın Rusiya tərəfindən 1820-ci ildə işğal olunmasından qabaq Nəqşibəndiyyə təriqətinin Şirvandakı mürşidi olaraq öz vətəni Kürdəmirə gəlmişdi.



Rus idarəçiliyinin təzyiqi ilə Azərbaycandan çıxardılana qədər buradakı təkyəsində faəliyyət göstərmişdi. 1826-cı ildə hicrət edərək əvvəlcə Axısxada məskunlaşır, ancaq burada bir müddət qaldıqdan sonra Axısxanın ruslar tərəfindən işğal olunmasından sonra Anadoluya gedərək Osmanlı dövlətinin himayəsinə girir. Sivasda 9 il qaldıqdan sonra 1841-ci ildə Amasyada məskunlaşan Şirvani vəfat edənə qədər burada fəaliyyət göstərmişdir. İsmayıl Şirvaninin Azərbaycan və Dağıstanda çoxlu müridi olmuşdur. Mir Həmzə Nigari, Molla Xas Məhəmməd Şirvani, Muhəmməd Yərağı, Almalılı Mahmud Əfəndi, Külüllülü Əhməd Əfəndi, Cəmaləddin Qaziqumuki bunlardandır.

Xas Məhəmməd Şirvani və Muhəmməd Yərağī bu təriqəti Dağıstana aparan və orada yayan şeyxlərdir. Sonradan gələn Cəmaləddin Qazıqumuki və müridləri Qafqaz bölgəsində geniş bir camaat yaratmışdılar. Nəqşibəndiliyin Dağıstanda yayılmasında Molla Muhəmməd Yərağinin əsas rol oynayan mərkəzlərdən biri Yərağinin kəndi olan "Yəraq" kəndindəki mədrəsə olmuşdur. Bütün Qafqaz bölgəsində böyük bir əhəmiyyətə sahib olan elmi mühit tərəfindən təriqətin qəbul olunması bölgədə yayılmasını asanlaşdırmış, xüsusilə də intelektual qrup tərəfindən sürətlə mənimsənilməsinə səbəb olmuşdur. Nəqşibəndilik Qafqaz xalqlarının ruslarla mübarizəsində ehtiyac duyulan mənəvi enerji və siyasi ittifaqı təmin etmişdir. Bu mübarizənin lideri olan Qazi Məhəmməd, İmam Şamil kimi şəxsiyyətlər azadlıq mücadilələrini təsəvvüfün gücündən istifadə edərək rusların yüksək səviyyəli hərbi gücü və texnikasına qarşı uzun müddət tab gətirməyə davam etmişdilər. Şimali Qafqazdakı bəzi qəbilələrin İslam dinini qəbul etmələri, xüsusilə də çərkəzlərin və abazaların müsəlmanlaşması bu dövrdəki alim nəqşibəndi mürşidlərinin fəaliyyəti nəticəsində baş vermişdir.



İsmayıl Şirvaninin, öz ədəbi-təsəvvüfi şəxsiyyəti və Qarabağ bölgəsindəki fəaliyyətləri ilə diqqəti cəlb edən xəlifəsi Mir Həmzə Nigaridir. Qarabağ xanlığına bağlı olan Bərgüşad-Cicimli kəndində 1805-ci ildə dünyaya gəlmişdir. Gəncliyində elm təhsil etmək üçün buradan hicrət edərək Sivasa, İsmayıl Əfəndinin yanına getmişdir. Elmi və təsəvvüfi təhsilini tamamlayaraq Qarabağa dönmüşdür. Ruslara qarşı üsyan hazırlığında olduğundan şübhələnilmiş və bundan sonra qaçaraq İran üzərindən Ərzuruma gəlmişdir. Şeyxi İsmayıl Şirvanidən sonra Amasya və ətraf bölgələrində irşad vəzifəsini yerinə yetirmişdir. Nigari, bu bölgədən əlavə Şərqi Anadoluda, Azərbaycanın Qarabağ və şimal-qərb bölgələrində bir çox mürid yetişdirmişdir. Xüsusilə də Azərbaycandakı xəlifəsi Hacı Mahmud Əfəndinin fəaliyyətləri nəticəsində Borçalı, Qarabağ və Qazax bölgələrindən minlərlə müridi ol-

muşdur. Bunların əksəriyyəti sonradan Türkiyəyə köçərək Amasya və ətraf bölgələrində məskunlaşmışlar.

Gözəl bir divan şairi də olan Həmzə Nigari Əfəndinin eşq şeirlərini cəm edən türk və fars dilində divanları da mövcuddur. Tiflisdə və İstanbulda nəşr olunan divanları bir çox Haqq aşiqi tərəfindən əzbərlənmiş, illərlə zikr mərasimlərində və söhbət məclislərində oxunmuşdur. Nigarinin şeirlərinin tərənnümlərini eyni duyğu və həyəcanla ifadə edə bilən Türkiyədə və Azərbaycanda bir çox nəqşibəndi şeyxi yetişmişdir. Bu bölgədəki Nigari təsiri Sovet rejiminin təzyiq və təbliğatları ilə silinməmiş, xalq arasında bir ənənə şəklində davam etmişdir. 1886-cı ildə Harputda vəfat edən Nigarinin cənazəsi vəsiyyətinə görə Amasyaya aparılmış və orada dəfn olunmuşdur.

İsmayıl Şirvaninin oğulları Mehmed Rüşdü Paşa vəzir və sədriazam, Əhməd Hülusi Əfəndi qazıəsgər olaraq Osmanlı dövlətində xidmət etmiş dövlət adamlarıdır.

## MİR HƏMZƏ NİGARİ ﵀

(d. 1795 / v. 1866)

Qarabağlı Mir Həmzə Nigari, aşiqanə şeirləri ilə təsəvvüf ədəbiyyatının önəmli bir şairi, könüllər sultanı, böyük bir sufi şəxsiyyətdir. Azərbaycanda Qarabağ xanlığının Bərgüşad mahalının Cicimli kəndində, 1805-ci ildə dünyaya gəlmişdir. Atası Mir Paşa adı ilə tanınan Mir Rüknəddin Əfəndi, anası isə Qızxanımdır. Həmzə Əfəndinin Həzrəti Zəhranın övladlarından olan ulu babaları hicrətin birinci və ikinci əsrlərində sülalələri və həmvətənləri ilə birlikdə uzaq bir ölkədə gizlənmək və yaşamaq məcburiyyətində qalmışlar. Həmin əsrdə Qafqazın Qarabağ vilayətinə köçərək burada bir kəndə yerləşmişlər. "Cicimli" adlanan bu kənd ulu seyidlərin gözəl və müqəddəs bir məskəni olmuşdur.

Həmzə Əfəndi uşaqlığını Cicimlidə keçirmişdir. Sadə bir həyat sürən bu kənddə tay-tuş və yaşıdları kimi o da silah, barıt, qurşun, saçma kimi odlu silahlara həvəs göstərər, 15 yaşına qədər bunlarla məşğul olarmış. Bu yaşa çatanda kənddən qaçır o zamanın məşhur müdərrislərindən Qaraqaş kəndindəki Mahmud Əfəndinin yanına gedərək, orada təhsilə başlamışdır. Təhsilə başladığı bu zaman bu kənddə yaşayan Nurəddin Əfəndi və zövcəsi Nigar xanım onun hər cür ehtiyacını qarşılamış, təhsili üçün lazım olan himayədarlığı bu xanımdan görmüşdür. Kəsbi-feyz etməsində bu qadının dəstəyini təqdir edən Həmzə Əfəndi özünə "Nigari" təxəllüsünü götürmüşdür.

**Mürşidi ilə Tanışması**

Qaraqaşdan ayrıldıqdan sonra Şəkinin Dəhnə kəndinə gələrək Şikəst Abdullah Əfəndinin dərslərində iştirak etmişdir. Burada "Mutavvəl"ə qədər dərs almış, ancaq verdiyi bir suala müəllimdən qaneedici cavab almadığına görə 1250-51-ci illərdə Azərbaycandan ayrılmış öncə o vaxtlar Sivasda yaşayan Kürdəmirli Şeyx İsmayıl Şirvaninin (1782-1848) yanına gəlmişdir. Bir rəvayətə görə isə; böyük cəddi Hz. Əli (r.a) məna aləmində İsmayıl Siracəddin Şirvani həzrətlərinin yanına getməsini, onun etibarlı yardımlarına can verməsini əmr etdiyindən, dərhal Qarabağdan yola düşüb Sivasa gedərək o zatın himayə qanadlarının altına sığınmışdır.

Həmzə Əfəndinin "Hər nəfəsi Məsih âsâ, hər nəzəri nəzirikimyâ" dediyi müəllimi və mürşidi İsmayıl Siracəddin Şirvani o zamana qədər cismən görmədiyi sadiq ziyarətçisinin təmiz sülalədən olduğunu kəramət gözü ilə kəşf etmiş, yanındakıları bu vəziyyətdən habərdar etmişdir. Həmzə Əfəndi 20 ildən artıq mürşidinin hüzurundan və xidmətindən ayrılmamış, təhsilinə burada davam edərək, istər şəriət elmlərində icazətnaməsini, istərsə də təriqət irfanında xilafətnaməsini Şeyx İsmayıl Əfəndidən almışdır.



*Rəf oldı pərdə kəşf oldı hayil*
*Öpdün kim dərgah-ı Şah İsmayil*
*Dövləti-Xaliddən geydin həmayil*
*Ey dili-çakər, ey qulamı-Hindi.*

**Qarabağa Dönüş**

Həmzə Əfəndi, mürşidi İsmayıl Əfəndi Sivasda olduğu 1834-cü ilə qədər onun yanında qalmış daha sonra, Sivasdan Amasyaya birlikdə qayıtmışlardır. Onun mürşidinə göstərdiyi hörmət, diqqət və etina hüdudsuz olmuşdur. Burada təsəvvüfi tərbiyəsini tamamlayıb həmin ildə həccə getmiş və qayıtdıqdan bir müddət sonra mürşidinin tövsiyyəsi ilə Qarabağa dönmüşdür.

Hicri 1256-57-ci (miladi 1840-1841) illərdə Cicimlidə mürşid-müəllimliyə başlayanda tez bir müddət zərfində bütün Qarabağ mahalında şöhrət tapmışdır. Bu zaman Salvartı yaylasında Araz çayı kənarında yerləşən Mollaməhərrəmli kəndindən Allahverdi Əfəndinin qızı Əminə xanımla evlənmiş və ondan Siracəddin adlı oğlu dünyaya gəlmişdir. Nigarinin divanında adını çəkdiyi Fəxrəddin Ağabalinin şairin həyatına dair mənqibələri ehtiva edən "Hümayi-Ərş" adlı əsərində onun öz doğma kəndinə qayıtması və buradan Bərgüşad mahalının (indiki Qubadlı rayonu) Mirlər kəndinə köçməsindən bəhs edərək deyir:

"Doğum yeri olan Cicimliyə gedər-getməz təcəlliyatı-fitriyyəsində məknuz bir mevhibəyi-Sübhaniyyə olan bu şəxsin şöhrəti həmən yaşadığı bölgədə yayılmış və hər tərəfdən elm və irfan təhsili üçün bir çox insan gəlmişdi. Cicimlidə və Bərgüşadda Mirlər kəndində tədris və tərbiyə vəzifəsi ilə məşğul olmuşdur. Cicimlidə qış vaxtı Həkəri çayının kənarında Sarı Aşıq namı ilə tanınan məczubi-ilahinin məzarı ətrafında inşa edilən mədrəsələrdə dərs demiş və Bərgüşadda da Mirlər köyündə Bərgüşad çayının kənarındakı xüsusi hücrəsində elm və irfan tədrisi ilə məşğul olmuşdur ..."

Qarabağda evlənib övlad və əyal sahibi olan Mir Nigari, ətraf xalqın elm və irfanından faydalanması üçün bütün zamanını sərf etmişdir. Hər kəsi elm və irfana təşviq edir həvəsləndirir, islamiyyətin əmr etdiyi qaydaları öyrədirdi.

Həmin dövürdə Qafqazda Rus işğalına və zülümlərinə qarşı cihad elan edərək hürriyət mücadələsini başladan Dağıstan şeyxləri və müridləri böyük müharibələrlə misli olmayan qəhrəmanlıq dastanı yazmışdılar. Nəqşibəndi təriqətinin mürşidlərindən olan Seyid Nigari də bu mübarizəyə laqeyd qala bilməzdi. Bir gün eyni əmək və məfkurə uğrunda özünü fəda etmiş pirdaşı Ağdaşlı Ahməd Əfəndi ilə Şuşada Xan bağı adlanan yerdə Qarabağ xanı Xasay xanın imarətində bir məclisdə olmuşdular. Bu məclisdə islam millətinin böyük əksəriyətlə mövcud olduğu bir mühitin xristian bir hökumə-

tin idarəsi altında qalmasının düzgün olmadığı məsələsi ətrafında bir sıra düşüncələr formalaşmışdır. Müzakirə əsnasında **"Ey iman edənlər! Yəhudiləri və xristiaları özünüzə dost tutmayın"**( Məidə surəsi, 51) ayəsinin məna və məzmununa uyğun hərəkət edilməsinin fərz olduğu barədə ortaq bir fikrə gəlmişlər. Bundan sonra necə hərəkət ediləcəyi müzakirə edilərək yazılı bir qərar əsasında hərəkət etmək barədə razılıq əldə olunmuşdur. Bu qərara görə:

Müsəlman Osmanlı hökuməti ilə Rus hökuməti arasında hər hansısa səbəbdən meydana gələcək ixtilaf səbəbilə iki dövlət arasında düşmənçilik doğuracaq bir hal baş verərsə, Osmanlı ordusunun hücumunun ardınca Qarabağda Şeyx Hacı Həmzə Əfəndi, Şəkidə Əhməd Əfəndi, Dağıstanda Xasay xanın dərhal fəaliyyətə keçərək ani və ümumi üsyan meydana gətirmək barədə sözləşirlər. Bu qərarı açıqlayan bir məktubu o zamankı Qars mütəsərrifinə göndərirlər.



Bu sırada hadisəni gizlicə dinləyən Xasay xanın xain xidmətçisinin məsələni rus hökumətinə xəbər verməsi ilə məktubu aparan şəxslər saxlanılır. Hadisədən xəbərdar olan Xasay xan dərhal Cicimliyə adam göndərir. Şeyx Hacı Həmzə Əfəndi bir neçə müridi ilə o gecə piyada qaçaraq 12 saat müddətində Araz çayından İran sərhəddinə keçmişdir.

### Vətəndən Daimi Ayrılıq

Təbrizə gəldiyi vaxt İran hökuməti tərəfindən qaldığı yer mühasirəyə alınmış, lakin tutulub Rusiyaya təslim ediləcəyi əsnada Təbriz valisinə xitabən yasavullardan biri vasitəsilə göndərdiyi məktub sayəsində qurtulmuşdur.

Həmzə Əfəndi, Culfa, Təbriz, Xoy, Salmas, Rumiyə, Bəyazid yolu ilə Ərzuruma gəlmişdir.

Hicri 1267-ci (miladi 1850-51) ilin sonlarında Ərzuruma gələn Həmzə Əfəndi, dörd ilə yaxın müddət burada yaşamışdır. 1271-ci (miladi 1854-55) ildə isə İstanbula gələrək Fatihdə Hırkai-Şərif məhəlləsində məskunlaşmışdır. İstanbulda oldu-

ğu müddətdə bir çox zat intisab etmişdir. Bir dəfə Mustafa Raşit Paşa ziyarət edərək ehtiyacının təmininə cəhd etmiş və Əmir Buxari dərgahı postnişinliyini təklif etmiş, ancaq o, qəbul etməmişdir.

Seyid Nigari 1275-ci (miladi 1858-1859) ildə Ərzuruma gələrək nəqşibəndiliyi pirlərindən öyrəndiyi şəkildə insanlar arasında yaymaqla onları hidayətə istiqamətləndirməyə çalışır. Bu illərdə vətənində qoyduğu zövcəsi Əminə və oğlu Siracəddini də yanına gətirir. Lakin özü kimi şair olan oğlu Siracəddin çox gənc - 20 yaşında ikən xəstələnib vəfat edir. Onun ölümü şeyxin həyatında dərin iz buraxır.

Hicri 1283-cü (miladi 1866-1867) ilə qədər Ərzurumda yaşayır, sonra yaxın dostları ilə birlikdə Amasyaya gedərək Merzifona yerləşir və burada da 1301-ci (miladi 1866-1867) ilə qədər Şeyxi İsmayıl Şirvaninin yerinə uzun müddət irfan dərslərilə yanaşı, kəlam və məntiq, eləcə də Sədi Şirazi oxudur.



Seyid Nigarinin təsəvvüfi fəaliyyəti nəticəsində ətrafına çoxsaylı tərəfdarlar toplanmaqla yanaşı, şöhrəti geniş yayılmış və sevənləri, ehtiram göstərənləri artmışdır. Bundan narahat olanlar onun dövlət üçün təhlükə olacağından qorxuya düşərək, iftira məktubu ilə hökumətə şikayət etmişlər. Nəticədə, əvvəlcə Samsuna, sonra da Xarputa sürgün edilmişdir.

**Əsl Vətənə Qayıdış**

Hicri 1303-cü (miladi 1885-86) ilin Qurban bayramında Mir Həmzə Əfəndinin yanına bayramlaşmağa gəlmiş vali Hacı Həsən Paşaya söhbət əsnasında vaxtının yaxınlaşdığına işarə edərək vəfat etdikdə cənazəsinin Amasyaya göndərilməsini, orada oğlu ilə bir məkanda yatmaq istədiyini və ondan bu lütfü əsirgəməmələrini, rica və vəsiyyət etmişdir.

Vali Paşa bu vəsiyyət üzərinə:

- Əfəndim, Allah ömrünüzü uzun etsin. İnşallah hələ çox uzun illər yaşayacaqsınız. Allah göstərməsin, belə bir halla

qarşılaşdığımızda buradaca nurlu qəbriniz üzərində gözəl bir türbə bina etdirərik, demişdir. Həzrət israr edərək:

“Bu yaxınlarda Xudanın dərgahına yollanacağımı hiss edirəm. O zaman nəşimin Amasyaya göndərilməsi lütfünü sizdən gözləyirəm. Bu hərəkətiniz Allaha qatında da məqbul olar” deyə qarşılıq vermişdir. Vali cavabında: “Əfəndim, təkrar edirəm, Allah qorusun. Əfəndimizin qəlbinin saflığına tam etimadım olduğundan ərz edim ki, belə bir halda havalar isti, Amasya isə on, on iki günlük bir məsafədə yerləşdiyindən mübarək nəşiniz yollarda narahat olar” deyir. Cavabdan valinin nə demək istədiyini başa düşən bu arif pir “Səksən ildir bu vücud Allah demişdir. Ondan başqasını zikr etməmiş, ondan qeyrisi görməmişdir. Səkkiz gün içərisində çürüyüb iylənəcəksə, qoy olsun” demiş. Bu izahatdan mütəəssir olan o dəyərli vali Paşa həzrətləri onu demək istəmədiyini söyləyərək üzrxahlıq etmişdir.



Həmzə Nigari həzrətləri 1885-ci ildə (Məhərrəm ayının 13-ü, bazar ertesi günü (29 iyul) axşamtərəfi vəfat etmiş, cənazəsi vəsiyyətinə əsasən at arabası ilə Xarputdan Amasyaya aparılmışdır. İndiki türbəsinin olduğu yerdə dəfn edilmişdir. Dəfn edilməzdən əvvəl hökumət xəbər tutaraq jandarma komandanı, məclisi-idarədən bir nümayəndə, bələdiyyə həkimi gəlmiş və tabutun qapağını açaraq, cəsəddə dəyişmə əlamətlərinin olub-olmadığını tədqiq etmişlər. Heç bir dəyişiklik olmadığı görən nümayəndələr cəsədin mumyalanmasından şübhələnərək sinəsini, bağrını açmışlar və buna dair də heç bir əlamət tapmadıqda təəccüb içində qalmışlar.

Həmzə Əfəndinin müridi, Qazaxlı Hacı Mahmud Əfəndinin səyilə Qarabağ, Qazax və Borçalıdakı müridlərdən toplanan ianə ilə türbəsi, türbənin yanında da bir məscid inşa edilmişdir. Bu məscid Amasyada indi də “Şirvanlı camisi” adı ilə tanınır.

Onun Türkiyəyə hicrətindən sonra xüsusən Hacı Mahmud Əfəndinin fəaliyyətləri nəticəsində Qafqazdan minlərcə insan köç edərək Amasya və ətrafına yerləşmişlər.

**Həmzə Nigarinin Ədəbi Yönü**

Mürşidi İsmayıl Şirvani onun üçün belə söyləmişdir: “Mir Həmzə ilahi eşqlə məhvi-vücud olmuşdur. Onun mürşidi eşqdir.”

Türk ədəbiyyat tarixçisi İskəndər Pala Nigarinin divanının Türkiyədəki nəşrinin ön sözündə yazır: “Mir Həmzə Nigari adlı lüğətdə bir söz olsaydı, qarşısında mütləq “eşq” yazılardı. 88 illik ömrünü bir tək eşqə, bir Tək eşqinə sərf etmiş bu könül dərinliyi olan şeyx heç şübhə yoxdur ki XIX əsr türk təsəvvüf mühit və ədəbiyyatının da öndə gələn isimlərindəndir. Həyatının çoxunu keçirdiyi Şərqi Anadolu və Şimali Azərbaycanda hələ də analar övladlarına onun eşq şeirlərindən laylalar söyləyirlər”

Mir Həmzə Nigari Əfəndi önəmli bir şairdir. Şeirlərində daha çox təsəvvüfi mövzuları işləmişdir. XIX əsrdən sonra Azərbaycan ədəbiyyatında həm əruz, həm xalq şeiri nəzm şəkilləri ilə təsəvvüfi şeir yazan divan sahibi bir şairdir. Şeirlərində ilahi eşq mövzusunu böyük bir səmimiyyət və ustalıqla işləmişdir.

Həmzə Nigarinin Mühyiddin ibn Ərəbinin *“Fütuhatı-Məkkiyyə” adlı* əsərinə yazdığı *“Tavzihat”*, türkcə və farsca *Divanı*, bundan əlavə *“Nigarnamə”* və *“Saqinamə”* adlı əsərləri vardır. Mahir bir divan şairi olan Həmzə Əfəndinin aşiqanə şeirlərinin yer aldığı türkcə divanı 1908-ci ildə Tiflisdə və 1883-cü ildə İstanbulda çap olunmuşdur. Farsca divanı da İstanbulda 1911-ci ildə nəşr edilmişdir.

Onun şeirləri Amasya ətrafındakı müridlər, Şərqi Anadolu, Azərbaycan - Borçalı, Qazax və Qarabağ - türkləri tərəfindən əzbərlənmiş, illərcə cəzm adı verilən zikr məclislərində xüsusi muğam üstə, mistik bir həyəcan və mənəvi zövqlə oxunmuşdur.

Şeirlərində adətən Allah eşqi, Hz. Peyğəmbər sevgisi və Əhli-beyt məhəbbəti işlənmişdir. Nigarinin özünəməxsus, fərdi bir təsəvvüfi yolu vardır. Nəqşibəndiyyə təriqətinin Xa-

lidiyyə qoluna mənsub sünni məzhəbli bir şeyx olmasına baxmayaraq yolunun və üsulunun məlami-ələvi bir nəşvəyə sahib olması ilə diqqəti cəlb edir. Bir şeirində bu halını belə ifadə edir:

*Halqai-rindanın çalaram nayin*
*Giriftaram eşqin çəkərəm yayin*
*Tanımazam məzhəb bilməzəm ayin*
*Kəlisayı-eşqin Məsihasıyam*

*Zahiri Məlami batını bi-kin*
*Peymanəsi məmlu badəsi rəngin*
*Sahnı-meyxanədə səccadə nişin*
*Zümrəyi-rindanın müqtədasıyam.*

Türkiyədə və Azərbaycanda Nigarinin şeirlərindəki tərənnümləri eyni duyğu və coşğunluqda ifadə edə bilən bir çox könül insanı yetişmişdir. Sovet hökumətinin təzyiqlərinə və Nigariyə qarşı aparılan ardıcıl taxribat xarakterli propaqandalara baxmayaraq onun sevgisi qəlblərdən silinə bilməmişdir. Bu dövrdə gizlicə yaşadılan Nigari sevgisi Azərbaycanın şimal-qərb bölgələrində bu gün də davam etməkdədir.[1]



Həmzə Nigarinin Türkiyə, Azərbaycan, Gürcüstan və Dağıstanda çoxlu sevəni və davamçısı olmuşdur. Onun davamçılarından bəziləri bunlardır: Oğlu Siracəddin Əfəndi, Hacı Mahmud Əfəndi Aslanbəyli, Cəfər Təyyar Paşa, Ömər Kaşifi Dağıstani, Ərzurumlu Mehmet Zakir Əfəndi, Ərzurumlu Hoca Hafız Osman Siraci, Mir Seyid Həsən Hüsnü Əfəndi əd-Dağıstani, Ağarahim Ağa Dilbazi, Şahnigar xanım Rəncur, Qazi Osman Əfəndi, Hacı Zəkəriyyə Əfəndi, Sədi Qarabaği, Hafız Mehmet Kaşif Dağıstani, Trabzonlu Osman Nəfi, Dağıs-

---

1. Sovet idarəçiləri Azərbaycandaki nəqşibəndi təsirini silmək üçün uzun müddət mübarizə aparmışdır. Yüzlərlə şeyx və din adamı edam edilmiş, bununla yanaşı bu dövr Azərbaycan ədəbiyyatında roman və dram əsərlərinin bir qismi islamın və din adamlarının gözdən salınmasına həsr edilmişdir. İsmayıl Şıhxlının romanı əsasında hazırlanan "Dəli Kür" filmi, Həmzə Nigarini hədəf alan ən önəmli propaqanda materiallarından biridir.

tanlı Rəcəb Xabəri, Hacı Tayyib Əfəndi, Hacı Mustafa Əfəndi, Postlu Hacı Mahmud Əfəndi, Amasyalı Payasizadə Hacı Haqqı Əfəndi.

**Nigarinin Şeirlərində Qarabağ**

Nigari, "vətən sevgisi imandandır" fərmanı ilə hərəkət edərək, ayrı düşdüyü cənnət vətəni Azərbaycan və Qarabağa olan həsrətini və bağlılığını şeirlərində işləmişdir.

*Əzm eylə diyarı-Şirvanı*
*Qət eylə rəhi-Azərbaycanı*
*Bir yer deyəm ismidir Qarabağ*
*Cənnət yeri abı şir ü qaymağ*

"Şairin Qarabağa olan məhəbbət etirafını oxuduqda insanın gözləri istər-istəməz dolur, "Mənim o diyarın uşaq-böyük, qadın-kişi, cavan-qoca – bütün əhalisinə və onların mənə olan məhəbbətinin dərəcəsini yalnız Mövla bilir" deyən Seyyid Nigari hətta ölümündən sonra da Qarabağ camaatını fikirləşir, onların arzularını yerinə yetirməyi, Allah dərgahında onlara şəfaətçi olmağı düşünürdü. Maraqlıdır ki, Qarabağ camaatı da heç zaman Nigarini unutmamış, hətta sovet rejimi dövründə təriqət ədəbiyyatı adı altında bir çox şairlərimizin yaradıcılığının təbliğinə qadağa qoyulduğu zamanlarda da Nigarinin şeirləri Qarabağ xanəndələrinin, sadə xalqın dilində əzbər olmuşdur".

*Nə əcəb dövlət imiş seyri-şikari-Qarabağ,*
*Nə gözəl nemət imiş söhbəti-yari Qarabağ!*

*Rəşki-mişk-ənbər imiş buyi-ğubari-Qarabağ,*
*Abi-heyvan imiş ənhari-pünari-Qarabağ.*

*Kövsərü Tuba imiş çayi-çinari-Qarabağ.*
*Aləmi-cənnət  imiş dari-diyari-Qarabağ.*

*İmdi bildim nə imiş vəsfi-həzari-Qarabağ,*
*Yeridir kim çəkərəm ah və zari-Qarabağ.*

*Dağlayıbdur bəni bir laləüzari-Qarabağ,*
*Yandırıbdur bəni bir nari-nigari-Qarabağ.*

Şeyx Mir Həmzə Nigari öz doğma vətəni Qarabağın başına gələcək fəlakətləri görürmüş kimi "Mövla verə ömrü bir zamanı, islam ilə bir də görək anı" deyərək Qarabağın əsarətini xəbər vermişdir. Ancaq onun burada bir müjdəsi də diqqət çəkir. Nigari, "Qarabağ elinin gül gəzintisinin mənqibələri" sərlövhəli şeirində Qarabağı belə vəsf edir:

*Bir mevzii-xoş fərah-fəzadır.*
*Dünyaya behişt disəm səzadır.*
*Cənnət gibi hər mahallidir bağ*
*Hər bir tərəfindən bağ u ırmağ*

………..

*Hər canibi səbz, hər tərəfi bağ*
*Anın içün ismidir Qarabağ*
*Seyrangahı-xoş, naziri-dil-şad*
*Şiraz deyil naziri-Bağdad*
*Mövla verə ömrü bir zamanı*
*Islam ilə bir də görək anı*

……….

*Öp xakini fəth et kəlamı*
*Toprağına bizdən et səlamı*
*Zira ki qədimi darımızdır*
*Sər-mənzili-Şah Nigarımızdır*

………

❁

Nigari Qarabağın ruslar tərəfindən işğalından sonra yazdığı şeirində bu faciəli hadisənin sinəsinə sancılan xəncər kimi onu iztiraba qərq etdiyini ifadə edir. Bununla yanaşı, sanki o, Qarabağın XX əsrin sonlarında ermənilər tərəfindən işğal edilib talan ediləcəyini hiss etmiş kimi bugünki insanların əhval-ruhiyyəsini misralarında əks etdirmişdir:

*Sinəmə çəkilən qara dağımdır*
*Qara bağrım qanlı Qarabağımdır*

*Qan əkər, odlar tökər Mir-Nigari məgər*
*Yad qılıbdır yenə Qarabağ torpağını*

....

*Gözlərimdən hər dəm qan-yaş dökülür*
*Sərvtək qamətim yay tək bükülür.*
*Sinəmə çal-çarpaz dağlar çəkilir*
*Yadıma düşəndə Çilgəz yaylağı*

.....

*Ey Nigari, ömrün erişdi payə*
*Salmadı başıma ol sərvi sayə*
*Can qurban eylərəm peyki-Səbayə*
*Xəbər versə bir gün ol Qarabağdan.*

❁

**Nigarinin Bazı Xislətləri**

Nəqşibəndi olmaqla yanaşı, eyni dərəcədə Hz. Mövlana və Mövləviliyə bağlı olan, sünni olsa da, Hz. Əli və ehli beytə heyran olan Mir Həmzə Nigarinin keçən əsrin ən rəngli şəxsiyyətlərindən biri olduğunu söyləmək mübaliğə olmamalıdır. Budur öz misraları ilə özünün bəzi xüsusiyyətləri:

*Ey aşiq mədəd eylə ki, bir xoş gedişim var*
*Dilbər kuyinə çünki həbibanə işim var* (s. 77)

*İçəlim badeyi-sevda verəlim şam u səhər*
*Eşq iqliminə bir təzə nizam ey saqi* (s. 149)

*Nigariyə Nigariyi əgər ey yaran, ey yaran*
*Ararsız, ararsız varın meyxanəyə, meyxanəyə* (s. 213)

*Cüst u cu eylərəm ol mahi Qarabağ içrə*
*Məcnunam kim ararım Leylimi toprağ içrə* (s. 204)

*Dostanı-Əhmədi sevmək itaətdir bizə*
*Düşməni-Ali-əbaya tən taətdir bizə* (s. 194)

*Anlasaydım hərəmi-meygədədir darı-səvab*
*Təkyələr gəzməz idim cana əzab itməz idim* (s. 158)

## Mürşidi İsmayil Əfəndiyə Yazdığı Şeir

*Vəsf eylə dela həvəs sanadır*
*Yaran içrə nəfəs sanadır*
*Əlfində həzar istiqamət*
*Sinində müqim bir səlamət.*
*Mimində müdam mehri-zatı*
*Əlfində ifadeyi-sifatı.*
*Eynində üyuni-eyni-arif*
*Yayinda yənabe'yi-məarif.*
*Lamında şərabi-ləli-şahid*
*Pərvərdeyi-zati-paki-Xalid.*
*Divaneyi-ülfəti-Xudadır,*
*Sərgəşteyi-mehri-Mustafadır.*
*Pərvaneyi-pərtövi-Məhəmməd*
*Suzaneyi-şəm'i ali-Əhməd.*
*Saqiyi-müdami-ani-Leyla*
*Sərməsti-şərabi-mehri-Mövla.*
*Sərhəlqeyi-firqeyi-Bəhadır,*
*Meyxaneyi-feyzi-aşinadır.*
*Göftari-məarifi-İlahi,*
*Rəftari-fəna təriqi-gahi.*
*Hər fikri ənisi-bin ibarət*
*Hər hərfi, kəlami bin hidayət.*
*Hər bir nəfəsi Məsihasa*
*Hər bir nəzəri nəziri-kimiya.*
*Ənfasi-nəfisi ruhi-nəfxat*
*İltafi-kəlamı rəşki-rəşhat.*
*Sər beqədəm qamu lətaif.*
*Məxsusi məsahifi-məarif.*
*Əbraci-məratibi-səadət,*

*Me'racü üruci binəhayət.*
*Əzkari-cəmili canfəzadır,*
*Övsafi-şirini dilgüşadır.*
*Bir alicənabi-zülcinaheyn*
*Bir cövhəri-mültəqayi-bəhreyn.*
*Bir cövhər, leyk dürri-irfan*
*Bir gövhər, leyk cövhəri-can.*
*Cövləngahi-lütfi-məzhəri-Həq,*
*Biqeydi-əlayiqi-Ənəlhəqq.*
*Gər görsə rüxün qılırdı aman*
*Dəstində əsa qaçardı şeytan.*
*Sərgəşləri o sərvərin əsiri*
*Üftadələrin o dəstgiri*
*Əshabi-xülusi Xızrasa,*
*Ərbabi-dili firiştəsima.*
*Ərbabi-süluki san mələkdir,*
*Pərvərdəsi xurşidi-fələkdir.*
*Bir sərvəri-nadiri-zəmanə*
*Bitayi-zəman, bir yeganə!*
*Bir rütbədir ki şani-ali,*
*Fəhmində üqulü zehn xali.*
*Övsafi dilə, zəbanə sığmaz*
*Əlborzi-bərin, dəhanə sığmaz.*
*Övsafına əqli-əvvəl irməz*
*Əcrami-fələk kəməndə girməz*
*Vəlhasili bəndeyi-Xudadır,*
*Alufteyi-ali-Mustafadır.*
*Ey xamə, yetər, təkəllüm etmə,*
*Övsaf eylə, tərənnüm etmə.*
*Heyrətlə ki sinəçak olursan,*
*Bağrın yarılur, həlak olursan.*
*Ey dil, kərəmi-Xudayə fikr et,*
*Şükrün dəmidir, nisari-şükr et...*

## Ah Minəl-Eşq

*Ah, ki bir yar yaxıbdur bəni,*
*Arizi gülzar yaxıbdur bəni.*
*Ləbləri gülnar yaxıbdur bəni,*
*Şöleyi-didar yaxıbdur bəni*
*Atəşi-dildar yaxıbdur bəni.*
*Ah minəl-eşqi və halatihi,*
*Əhraqat qalbi bihəraratihi.*

*Odlara saldı bəni yar, ey mədəd!*
*Düşdü cigərgahimə nar, ey mədəd!*
*Aldı diləfkarımı zar, ey mədəd!*
*Yaxdı bəni nari-nigar, ey mədəd!*
*Eylədi eşq atəşi kar, ey mədəd!*
*Qalmadı canımda qərar, ey mədəd!*
*Ah minəl-eşqi və halatihi,*
*Əhraqat qalbi bihəraratihi.*



*Cilveyi-eşq aşiqi ki lal edər,*
*Gəh səri-Tur üzrə şirin qal edər.*
*Həlqeyi-əfradə ki idxal edər,*
*Gah səri-həlqeyi abdal edər,*
*Gah meyi-zövq ilə xoşhal edər*
*Gah salur ayaqlarə xalxal edər.*
*Ah minəl-eşqi və halatihi,*
*Əhraqat qalbi bihəraratihi.*

*Bəxşi-Xuda, rəşki-Məsihadır eşq,*
*Mayeyi-möcüzeyi-Musadır eşq.*
*Ləfzi degil, mə'niyi-zibadır eşq*
*Özgə degil, sayeyi-Mövladır eşq.*
*Məxfi degil şəmsi-hüveydadır eşq*
*Leyk bilinməz nə müəmmadır eşq!*
*Ah minəl-eşqi və halatihi,*
*Əhraqat qalbi bihəraratihi.*

*Aləmi-sövdadə, ey ərbabi-ar,*
*Küfr ilə imana təfavütmü var?*
*Aşiqə birdir kərəmü cövri-yar*
*Gülşəni-vəhdətdə ki birdir həzar*
*Eşq ilə olmuş cigərim laləzar*
*Eşq ilədir cümlə sərəncami-kar*
*Ah minəl-eşqi və halatihi,*
*Əhraqat qalbi bihərəratihi.*

*Düşmüşəm, ey piri-muğan, əlaman!*
*Yanmışam, ey saqiyi-can, əlaman!*
*Canə düşüb suzişi-an, əlaman!*
*Faş olub əsrari-nihan, əlaman!*
*Eşq hücum etdi həman, əlaman!*
*Saldı ayaqlarə, aman, əlaman!*
*Ah minəl-eşqi və halatihi,*
*Əhraqat qalbi bihərəratihi.*



*Oldu könül ah, xəridari-eşq,*
*Aldı canım lö'lö'i-şahvari-eşq.*
*Verdi bedil ahi-şərərbari-eşq,*
*Yıxdı evim, ah, bu bazari-eşq!*
*Eylədi bərpa bədənim bari-eşq.*
*Gör nələr etdi bu sitəmkar eşq!*
*Ah minəl-eşqi və halatihi,*
*Əhraqat qalbi bihərəratihi.*

*Ah edərəm sübhü məsa, ey sənəm,*
*Ta deyəsən "Kimdi?"-deyəm: "Ol bənəm".*
*Söyləmənəm qeyr ilə, bir dönmənəm*
*Aşiqini tanı, mənəm, bil, mənəm*
*Aləmi-vəhdətdə bən ancaq sənəm.*
*Eşqdə gör kim necə məzhəbdənəm.*
*Ah minəl-eşqi və halatihi,*
*Əhraqat qalbi bihərəratihi.*

*Eşqi-həqiqi ola, yain məcaz,*
*Hər biri bir atəşi-suzü güdaz.*
*Yandı bu atəşlə dili-eşqbaz*
*Yoxmu hərarətimə bir çarəsaz?*
*Çarə nə, ey çakəri-şahi-Hicaz,*
*Sən kibi yandım, nedim, ey neynəvaz?*
*Ah minəl-eşqi və halatihi,*
*Əhraqat qalbi bihərəratihi.*

*Ah qılur Mir Nigari bülənd,*
*Neyləsün, ah eyləməsün dərdmənd?*
*Atəşi-həsrətlə yanur bənd-bənd,*
*Rəhm elə əhvalinə, ey nuşxənd,*
*Bir qulaq as, gör nə söylər suzmənd*
*Şövq ilə bu beyti oxur çənd, çənd:*
*Ah minəl-eşqi və halatihi,*
*Əhraqat qalbi bihərəratihi.*

## ƏDƏBİYYAT


Abdülkadir Karahan, *Fuzuli, Muhiti, Hayatı ve Şahsiyyeti,* Ankara, 1995

Abdullah Dəhləvi, *Məkatib-i Şərifə*

Abdulbaki Gölpinarlı, *Hurufilik Metinleri Kataloğu*, Ankara 1973

Altıntaş Hayrani, *Marifetnamede Tasavvuf*

Akgündüz Ahmet, *Arşiv belgeleri ışığında Somuncu Baba Şeyh Hamid-i Veli ve Neseb-i Alisi*, İstanbul, 1992

Akpınar Yavuz. *Azeri Edebiyatı Araştırmaları,* Dergah. İst. 1994

Akabali Fahreddin. *Humay-ı Arş,* (Həmzə Nigarinin nəşr edilməmiş əlyazma bioqrafiyası)

Ali Nihat Tarlan, *Fuzuli Divani Şerhi,* İstanbul, 1997

Ahmet Yesevi, *Divani Hikmetten Seçmeler,* ed. Kemal Eraslan, Kültür Bakanlığı Yayınları, Ankara 1991

Ahmed Kasanî, *Adabü's-Salikin*, İstanbul Kütüphanesi

Ahməd b. Hanbel, *Müsnəd*

Acluni, *Kəşfül-Xəfa*

Bursevi İsmail Hakkı, *"Silsilenameyi-Celvetiyye"*, İstanbul, 1291

Beyhaqi, *Şuabül-İman*

Cami, *Nəfahat*, haz. Süleyman Uludağ-Mustafa Kara, İstanbul 1995

Deyləmi, *Müsnədü'l- Firdevs*

Emel Esin, *İslamiyetden Önceki Türk Kültür Tarihi ve İslama Giriş*, İstanbul 1978

Ekrem Sağıroğlu, *Şah-ı Naqşibənd*, Yasin Yayınevi, İstanbul 2001

Əbu Nuaym əl-İsfəhani, *Xilyətul-Əvliya*

Fəriduddin Əttar, *Təzkirətul-Əvliya*

Ferit Devellioğlu, *Osmanlıca-Türkçe Ansiklopedik Lugat*, Aydın Kitapevi, Ankara 1982

Fuad Köprülü, *Türk Edebiyatında İlk Mutasavvıflar, Ankara 1966*

Gölpinarlı, *Vəlayətnamə*

Hasan Kamil Yılmaz, *Aziz Mahmud Hüdayi*, İstanbul, 1999

Hani, *əl-Hadaiqul-Vərdiyyə*, Dımeşk 1417



Hilmi Ahmet Hocazade, *"Ziyaret-i Evliya"*, İstanbul, 1320

Həririzadə, *Fəthul-Əsrar*

Hüseyin Özbay-Mustafa Tatçı, *Yunus Emre, Makalelerden Seçmeler*, İstanbul, 1994

İbn əl-Cövzi, *Sifətus-Səfvə*

İbni Macə, *Müqəddimə*

İbnül-Mübarək, *əz-Zühd*

İbn Bəzzaz, *"Saffetü's-Safa"*, Tehran

İmam-ı Rabbani, *Məktubat*

İsmail Hakkı Bursevi, *Ruhu'l-Beyan*, İstanbul, 2005

İbrahim Agah, *Türk Düşünce Tarihinde Felsefi Hareketler*, Türk Tarih Kurumu Basımevi, Ankara 1991

İsmet Binark-Mustafa Nejat Sefercioğlu, *"Erzurumlu İbrahim Hakkı Bibliyografyası"* Ankara 1977

İbrahimhakkıoğlu Mesih, *Erzurumlu İbrahim Hakkı,* İstanbul 1973

İbrahim Hakkı Erzurumi, *Marifetname,* sadələşdirənlər Cafer Durmuş, Dr. Kerim Kara, Erkam Yayınları, İstanbul, 2011

John Birge K., *The Bektashi Order of Dervishes*, Hartford, Hartford Publishion 1937

Kavak, *Divan-ı Mövlana Xalid-i Bağdadi*

Karabulut Ali Rıza, *Kayseri'de Meşhur Mutasavvıflar*, Kayseri, 1984

Konyalı İbrahim Hakkı, *Abideleri ve Kitabeleriyle Aksaray Tarihi*, İstanbul, 1974

Qəzzali, *Ehya*

Mehmed Demirci, *Yunus Emrede İlahi Aşk ve İnsan Sevgisi,* Ankara 1991

Mecdi Mehmed Efendi, *Şakaik-ı Numaniye ve zeyilleri*, hazırlayan Abdülkadir Özçay, İstanbul, 1989

Muhyiddin İbn Arabi, *El-fütuhat-ül Mekkiyye,* terc. Nihat Keklik, M.E.B. Yayınları, Ankara 1990

Mustafa Kara. *Dervişin Hayatı Sufinin Kelamı*, Dergah yay. İstanbul, 2005

Müslim, *Səhih*

Mikayıl Quluzadə, *Azərbaycan Ədəbiyyatı Tarixi,* Bakı

Mir Hamza Nigari, Divan-ı Seyyid Nigari (Azmi Bilgin), İstanbul, 2003

Mir Həmzə Seyid Nigari, *Divan*, (haz. Nəzakət Məmmədova), Elm və Təhsil, Bakı, 2010

Mir Hamza Nigari, *Nigarname,* (haz. Nəzakət Məmmədova), Elm və Təhsil, Bakı, 2012

Mövlana Şihabeddin, *Agahi-yi Seyyid Əmir-i Külal*, Karaçi 1961.

Nasıruddin Buxari, *Tuhfetü'z-Zairin*, Buhara 1910.

Nizami Gəncəvi, "*Sirlər xəzinəsi*"

Nigari Seyyid Hamza, Divan-ı Türki, İstanbul, 1883

Osman Nuri Topbaş, *Abide Şahsiyetleri ve Müessiseleriyle Osmanlı*, Erkam yayınları, İstanbul 2013

Parsa, *Sohbetler*

Reha Çamuroğlu, *Sahah Ruzgarı: Enel-Hak Demişti Nesimi,* Metis Yayınları, İstanbul, 1992

Sadriddin Selim Buxari, *Bahaüddin Naqşbənd Yaki Yetti Pir*, Taşkent 1993.

Səlahəddin bin Mübarək əl-Buxari, *Ənisü't-Talibin,* İstanbul 2003

Sülemi, *Tabaqatus-Sufiyye*, Bayrut 1419

Şemseddin Sami, *Kamusu'l-A'lam*, Aksaray maddəsi, Ankara, 1996

Şirazi, *Taraiku'l-Haqaiq*, Tahran 1316-19

Türkiye Diyanet Vakfı İslam Ensiklopediyası

Yaqub Çerhi, *Risale-i Ünsiyyə* [*Ney-Name* içində]

Yurt Ali İhsan, *Fatih'in Hocası Akşemseddin*, İstanbul, 1972

Zəhəbi, *Mizanul-İtidal*

# MÜNDƏRİCAT

Təqdimat ........................................................................................ 5
Ön Söz ............................................................................................ 7
Seyid Yəhya əş-Şirvani əl-Bakuvi ............................................ 11
Azərbaycan Ellərində Veysəl Qarani ....................................... 25
İmam Qəzali ................................................................................ 37
Seyyid Abdulqadir Gilani Həzrətləri ...................................... 57
Xacə Əhməd Yəsəvi .................................................................... 71
Nizami Gəncəvi Həzrətləri ........................................................ 85
Şəms Təbrizi .............................................................................. 103
Şeyx Ədəbali Həzrətləri ........................................................... 113
Mövlana Cəlaləddin Rumi ....................................................... 121
Hacı Bektaş Vəli ........................................................................ 141
İbrahim Zahid Gilani ................................................................ 157
Yunus Əmrə Həzrətləri ............................................................ 167
Bahəddin Şah-ı Naqşibənd ...................................................... 195
Şeyx Həmid Vəli (Somucu Baba) ........................................... 223
Hacı Bayram Vəli Həzrətləri .................................................. 239
İmadəddin Nəsimi .................................................................... 269
Məhəmməd Füzuli ................................................................... 283

Əziz Mahmud Hüdayi ........................................................ 299
İbrahim Haqqı Həzrətləri ................................................... 327
İsmayıl Siracəddin Şirvani ................................................. 355
Mir Həmzə Nigari ............................................................... 359
Ədəbiyyat ........................................................................... 375

## QEYDLƏR